


İLQAR CƏMİLOĞLU
ƏLİ İMAMVERDİ


# CƏMİL ƏKBƏR

ŞEİRLƏR

7. CİLD


İKSAD
Publishing House

İLQAR CƏMİLOĞLU
ƏLİ İMAMVERDİ

# CƏMİL ƏKBƏR



***ŞEİRLƏR***

*VII. CİLD*

İKSAD Publishing House

Copyright © 2023 by iksad publishing house
All rights reserved. No part of this publication may be reproduced, distributed or transmitted in any form or by
any means, including photocopying, recording or other electronic or mechanical methods, without the prior written permission of the publisher, except in the case of brief quotations embodied in critical reviews and certain other noncommercial uses permitted by copyright law.
Institution of Economic Development and Social Researches Publications®
(The Licence Number of Publicator: 2014/31220)
TURKEY TR: +90 342 606 06 75
USA: +1 631 685 0 853
E mail: iksadyayinevi@gmail.com
www.iksadyayinevi.com
It is responsibility of the author to abide by the publishing ethics rules.
Iksad Publications – 2023©
**ISBN: 978-625-367-186-0**
Cover Design: İbrahim KAYA
May / 2023
Ankara / Turkey
Size = 16 x 24 cm

## ÖN SÖZÜN MÜƏLLİFİ

***Prof.Dr. İlgar İmamverdi, Hüquqşünas Əli İmamverdi***

**ELMİ REDAKTOR VƏ MƏSLƏHƏTÇİ:**

***Professor Maarifə Hacıyeva***
**Filologiya Elmləri Doktoru**

Sənətşünaslıq elmləri doktoru, professor İlqar Cəmiloğlu ilə Əli İmamverdinin, pedaqoji sahədə uzun illər səmərəli xidmət etmiş, iqtisadcı alim, Cəmil İmamverdioğlu Əkbərin 95 illik yubileyi münasibəti ilə bir araya gətirdikləri ***VII cild "Cəmil Əkbər şeirlər"*** adlı kitabda, yarıməsirlik bir yaradıcılıq yolu keçmiş şair təbiətli şəxsiyyətin poetik irsinin bir hissəsi yer almaqdadır. Ayrı - ayrı dönəmləri əhatə edən, müxtəlif mövzulu kitabda variantları ilə birlikdə 248 adda poetik nümunələr yer almaqdadır. Vətən, məhəbbət, eşq, insan amili, ictimai-siyasi, optimist xarakterli nümunələrlə yanaşı, bəzən də tənbeh, satirik hətta, qarğış, giley motivli, haqsızlığa üsyan, lirik-duyğusal, bədbin, pissimist ovqatlı müxtəlif mövzulu poetik incilər Cəmil Əkbərin həssas, kövrək, narahat qəlbinin, şairanə düşüncələrinin şeir dili ilə əks sədası olub, mənəvi – ruhi dünyasını təcəssüm etdirir. ***VII cild "Cəmil Əkbər şeirlər"*** adlı kitab filoloji elm sahəsində çalışan mütəxəssislər, ədəbyyatşünaslar və şeirsevən qiymətli oxucularımız üçün nəzərdə tutulmuşdur.

# M Ü N D Ə R İ C A T

Ön sözün müəllifi ............................................................................. i
M ü n d ə r i c a t ........................................................................... iii
Ön söz ............................................................................................ 11
1. Röyada gördüm ........................................................................... 21
2. Dedilər.......................................................................................... 25
3. Deyəsiyəm mən ........................................................................... 38
4. Nə dedin qandı ............................................................................. 42
5. Deyilməsin ................................................................................... 44
6. Olmasın ........................................................................................ 44
7. Əhsən desin .................................................................................. 45
8. Taleyin hökmünə, nədemək olar?................................................ 47
9. Desələr ......................................................................................... 52
10. Yaz deyir! *I variant* ................................................................... 54
11. Yaz deyir! *II variant*.................................................................. 55
12. Yaz deyir! *III variant*................................................................. 57
13. Yaz deyir! *IV variant*................................................................. 58
14. Yaz deyir! *V variant* .................................................................. 59
15. Deməyirsən ................................................................................ 61
16. Demirsən .................................................................................... 62
17. Necə danışmayım, necə dinməyim? *I variant*.......................... 64
18. Necə danışmayım, necə dinməyim? *II variant* ........................ 72
19. Necə danışmayım, necə dinməyim? *III variant* ....................... 77
20. Hansından danışım, hansından deyim?...................................... 79
21. Danışım neyləyim, susum neyləyim? ........................................ 93
22. Deməyim neyləyim, deyim neyləyim? *I variant*...................... 95
23. Deməyim neyləyim, deyim neyləyim? *II variant* .................... 96
24. Deməyim neyləyim, deyim neyləyim? *III variant* ................. 100
25. Deməyim neyləyim, deyim neyləyim? *IV variant* ................. 102
26. Neyləyim? ................................................................................ 103
27. Deyirlər .................................................................................... 105
28. Tamah olub, nəfs olub deyirlər ................................................. 109
29. Əqidəndi, əqidəmdi deyirlər ..................................................... 111
30. Tamahındı, tamahımdı deyirlər ................................................ 113
31. Diləyindi, diləyimdi deyirlər .................................................... 115
32. Yoldaşındı, yoldaşımdı deyirlər................................................ 116
33. Deyirlər (1)............................................................................... 118
34. Deyirlər (2)............................................................................... 118
35. Deyirlər (3)............................................................................... 118
36. Deyirlər (4)............................................................................... 119
37. Deyirlər (5)............................................................................... 119

38. Deyirəm qanmır........................................................................... 119
39. Deyirsən inanmır, anlamır, qanmır.................................................... 121
40. Qanır?.......................................................................................... 122
41. Qanır?.......................................................................................... 124
42. Qanır ........................................................................................... 126
43. Qanmır ......................................................................................... 127
44. Oxu bu məktubu............................................................................ 129
45. Şikayət......................................................................................... 131
46. İki yol........................................................................................... 131
47. Bəyənmir *I variant* ......................................................................... 134
48. Bəyənmir *I variant* ......................................................................... 135
49. Bəyənmir...................................................................................... 138
50. Bəyənmir məni.............................................................................. 139
51. Hardadır?...................................................................................... 142
52. Hardasan? (1) ............................................................................... 146
53. Hardasan? (2) ............................................................................... 150
54. Hardasan? (3) ............................................................................... 152
55. Hardasan? (4) ............................................................................... 154
56. Gəda oğlu düzəlmirki, düzəlmir ....................................................... 159
57. Bu dünyada................................................................................... 162
58. Kül başına belə dünya .................................................................... 164
59. Nə deyim mən sənə ay belə dünya?.................................................. 168
61. Necə qocalmayaq belə dünyada? *I variant* ........................................ 170
62. Necə qocalmayaq belə dünyada? *II variant*........................................ 175
63. Necə girlənəsən belə dünyada?......................................................... 176
64. Dünyada ....................................................................................... 178
65. Dünyamızda .................................................................................. 181
66. Dünya........................................................................................... 185
67. Qalıbdır, qalmışdır, qalacaqdıda........................................................ 187
68. Olubdur, olmuşdur, olacaqdıda.......................................................... 188
69. Bu dünya belədir ............................................................................ 189
70. Dünya belə qurulub ........................................................................ 190
71. Dünya oldu şeirim .......................................................................... 193
72. Dünyasıdır..................................................................................... 209
73. Dünyanın *(deyişmə)*......................................................................... 211
74. Dünyanın...................................................................................... 213
75. Gəlməmişik, gəlmişik bu dünyaya (1)................................................ 216
76. Bu dünyaya gəlməmişik, biz gəlmişik (2) .......................................... 218
77. Bu dünyaya gəlməmişik, biz gəlmişik (3) .......................................... 222
78. Bu dünyaya gəlməmişik (4)............................................................. 225
79. Biz gəlmişik bu dünyaya (5)............................................................. 230
80. Biz gəlmişik bu dünyaya (6)............................................................. 232

81. Puçdu dünya ........ 235
82. Dünyanın iki üzü ........ 240
83. Hələ *I variant* ........ 242
84. Hələ *II variant* ........ 244
85. Sənin də, mənim də *I variant* ........ 247
86. Sənin də, mənim də *II variant* ........ 248
87. Nə sən məni, nə mən səni ........ 249
88. Sənmi oldun, mənmi oldum? ........ 250
89. Oldun? ........ 251
90. Oldu ........ 252
91. Zəhmətimiz nə bihudə iş oldu? ........ 254
92. Olur ........ 255
93. Olsun! ........ 256
94. Olarmış ........ 258
95. Olarmış? ........ 259
96. Olarsan! ........ 261
97. Yer olarmı? ........ 264
98. Qurban olum ........ 266
99. Olma! *I variant* ........ 267
100. Olma! *II variant* ........ 272
101. Olma! *III variant* ........ 274
102. Olma! ........ 275
103. Gərdişi-dövranı nə bilmək olar? ........ 276
104. Dünyanın işini nə bilmək olur? ........ 278
105. Fələyin işindən baş açılmırki? ........ 280
106. Agah ol! ........ 283
107. Olmur ........ 286
108. Olmur ........ 288
109. Olan yerdə ........ 289
110. Olmayan yerdə *I variant* ........ 291
111. Olmayan yerdə *II variant* ........ 293
112. Olmayan yerdə *III variant* ........ 293
113. Olmayan yerdə *IV variant* ........ 295
114. Olmayan yerdə *V variant* ........ 296
115. Olmayan yerdə *VI variant* ........ 297
116. Olmayan yerdə *VII variant* ........ 298
117. Olmayan yerdə *VIII variant* ........ 299
118. Olmayan yerdə *IX variant* ........ 301
119. Olmayan yerdə *X variant* ........ 301
120. Olan yerdə ........ 302
121. Olmasın *I variant* ........ 304
122. Olmasın *II variant* ........ 305

123. Olmaz ........ 307
124. Bol olsun ........ 308
125. Bol isə ........ 309
126. Var olsun! ........ 310
127. Nifrət olsun! ........ 312
128. Nifrət olsun! ........ 313
129. Olmaz?! ........ 314
130. Olmaz ........ 318
131. Elmin ocağı ........ 319
132. Çəkə biləsən ........ 321
133. Gərək ........ 322
134. Saxlasın gərək ........ 323
135. Gərək ........ 326
136. Gərək ........ 328
137. Tən olsun gərək ........ 330
138. O nə sənə, nə də mənə gərəkdir ........ 331
139. Nə sən üçün, nə mən üçün gərəkdir ........ 333
140. Bəla o deyil ki... ........ 335
141. Bəlasıdır ........ 336
142. Qalıb ........ 337
143. Var ........ 338
144. Var ........ 339
145. Var ........ 341
146. Var ........ 343
147. Var ........ 348
148. Var (1) ........ 351
149. Var (2) ........ 354
150. Var (3) ........ 355
151. Var (4) ........ 359
152. Var (5) ........ 360
153. Var ........ 362
154. Var ........ 363
155. Var ........ 365
156. O gün də var, bu gün də var ........ 366
157. Var ........ 368
158. Var ........ 370
159. Var ........ 371
160. Var? ........ 372
161. Var ........ 372
162. Var ........ 373
163. Var ........ 374
164. Var ........ 375

165. Vaxt olub ki... 376
166. Nəvarki? 377
167. Pul 383
168. Ey pul? *I variant* 384
169. Ey pul? *II variant* 388
170. Ey pul? *III variant* 403
171. Ey pul 403
172. Pulun varsa *I variant* 405
173. Pulun varsa *II variant* 406
174. Pul olub (1) 407
175. Pul olub (2) 410
176. Pul imiş (1) 412
177. Pul imiş (2) 418
178. İndi *I variant* 420
179. İndi *II variant* 425
180. İndi *III variant* 429
181. İndi *IV variant* 433
182. İndi *V variant* 435
183. Nədir? 438
184. Nədir? 439
185. Nədir? 444
186. Heç nə 445
187. Heçnədir *I variant* 449
188. Heçnədir *II variant* 451
189. Ay əl tutanlar 452
190. Qocalığın simfoniyası *I variant* 462
191. Qocalığın simfoniyası *II variant* 464
192. Qocalığın simfoniyası *III variant* 465
193. İnsanın gününə-güzarına bax? 466
194. Bax-bax 469
195. Elə baxma, belə bax! 471
196. Çıxart! 478
197. Otur, dur! 480
198. Ey imiş 481
199. Xəbərdar ol! 483
200. Xəyallar 486
201. Bəlkə 487
202. İstedad 489
203. Bu dünyadan kam alaq 490
204. Çətindir 492
205. Qiymət belə yazılmaz 493
206. Yazmırsan? *I variant* 496

207. Yazmırsan? *II variant* ........ 497
208. Yazmırsan? *III variant* ........ 499
209. Mənə şeir yazdıran *I variant* ........ 499
210. Mənə şeir yazdıran *II variant* ........ 500
211. Mənə şeir yazdıran *III variant* ........ 500
212. Mən şerimi yazmışam ki *I variant* … ........ 501
213. Mən şerimi yazmışam ki *II variant* ........ 503
214. Ürəyim *I variant* ........ 505
215. Ürəyim *II variant* ........ 507
216. Ürəyim *III variant* ........ 509
217. Ürəyim *IV variant* ........ 511
218. Ürək var *(hikmətnamə)* ........ 516
219. Vəhdətini axtarıram ........ 519
220. Mən gözəllik axtarıram ........ 521
221. Müəllimim *I variant* ........ 522
222. Müəllimim *II variant* ........ 525
223. Müəllimlərim ........ 530
224. Kimiyə çatmadı, kimiyə çatdı ........ 533
225. Müqəddəs İnsan *(Poema)* ........ 543
***1)*** *Ata-ana* ........ 543
***2)*** *O biganə qalmamışdır* ........ 544
***3)*** *Onun təbiəti* ........ 545
***4)*** *Heyhat* ........ 549
***5)*** *Belə insan ölərmi heç?* ........ 551
226. Təbrik edir ........ 553
227. Fəxr edir ........ 554
228. Bel bağla! ........ 555
229. Vicdan işə qarışmasa ........ 557
230. Şeir mənim *I variant*… ........ 561
231. Şeir mənim *II variant* … ........ 563
232. Şeir mənim *III variant* … ........ 566
233. Görmüşəm ........ 567
234. Dandılar ........ 568
235. Ağıl ver bizə ........ 572
236. Bilmirəm ........ 573
237. Bilmirəm ........ 574
238. Qana bilmir ........ 575
239. Kimə gərəksən yazıq? ........ 576
240. Heçdi həyat ........ 579
241. Dözmüşəm ........ 584
242. Gendə dolan! *(öyüdnamə)* ........ 585
243. Əbədiyyət yoludur *I variant* ........ 586

244. Əbədiyyət yoludur *II variant* ................................................ 590
245. Əbədiyyət yoludur *III variant* ................................................ 599
246. Ustadlardan öyrənək *(Peyğəmbərnamə)* ................................................ 602
247. Nicat yolu ................................................ 615
248. Birdi bir! ................................................ 617
**Hüquqşünas Əli İlqar oğlu İmamverdi** ................................................ 619
**Prof. Dr. İlqar Cəmiloğlu İmamverdiyev** ................................................ 620

## ÖN SÖZ

### *POETİK MİSRALARI OBRAZLI FİKİRLƏRLƏ ZƏNGİNLƏŞDİRƏN SÖZ USTADI: CƏMİL ƏKBƏR*

Hər bir şair öz şeirlərindəki orijinal tapıntıları ilə xalq arasında tanınır, hətta bir misrası, bir beyti ile belə məşhurlaşır. İlk dəfə qafiyə, rədif, deyim kəşf etdiyi zaman istedadı bu yöndə ortaya çıxır. Bu cəhəti ilə digər şairlərin poetik incilərinə cavab nəzirə yazmasına da səbəb olur. Bir çox dərin məzmuna malik şeirlər içərisində obrazlı deyim tərzi ilə zəngin olan poetik ruhlu misraları isə həmin şeirin ləli-gövhəri kimi dəyərləndirirəm. Həm yeni fikir, həm yeni qafiyə, həm də poetikliyə bələnmiş orijinal, diqqətçəkici obrazlı misralar şairin istedadının ekstaz anının təcəssümüdür. Nə qədər şairlərimizdə bu cəhətlərin olduğunu hey müşahidə etməklə, həm də istedadına qeyri-iradi heyrətlənərək qibtə etmişik, əhsən demişik.

Bu diqqətə çatdırdığımız keyfiyyətlər 50 il pedaqoji elm sahəsində çalışan şair təbiətli Cəmil İmamverdi oğlu Əkbərin yaradıcılığına da xasdır. Söz sərrafı, söz ustadı olduğu da Cəmil Əkbər ruhuna fitrətən hakim kəsilməklə, illər ərzində Cəmil Əkbər poeziyasına da yansımışdır. Dərin anlamlı müxtəlif mövzulu şeirləri yuxarıda anlatdıqlarım cəhətləri ehtiva etməklə məhz bu poetik dəyərlər üzərində pərvəriş tapmışdır. 3600 səhifəlik şerləri arasında diqqətimizi çəkən orijinal misralı fikirlər, özünəməxsus obrazlı deyim tərzi Cəmil Əkbər poeziyasının yüksək səviyyəsinin təzahürü olub, şairanə ruhunun ali dərəcəsinin professional tərcümanı və təsdiqidir. Poetik misralarını və şeiriyyət aləmindəki obrazlı deyim kəşflərini konkret örnəklərlə nəzər saldığımızda Cəmil Əkbərin Azərbaycanımızın XX yüzildə yaşamış bir çox tanınmış söz ustadlarımızın sırasında yer aldığı, poetik aləmin nəzm dünyasındakı əsl şair övladı olduğunu, zəngin ruha malik şeirlərinin timsalında dərk edirik.

1. Cəmil Əkbərin 1988-ci il 18 may tarixində yazdığı *"İndi"* rədifli gəraylı şeirinin 4-cü bəndinin 3-cü və 4-cü misrasında bizi heyrətə salan poetik misranı örnək gətirə bilərik.

Onun gözlərilə dünyaya baxdım,
Onun izlərilə yollara çıxdım.
*Onun sözlərilə qəlbimi sıxdım,*
*Niyə gözyaşımla yuyunmur indi?*

2. *"Gözlərin didəsi nəm içindədir, Bəmdə inildəyən zilimə baxsın".* Bu poetik misralara bələnmiş, bizim üçün tapıntı dəyərindəki beyt Cəmil

Əkbərə aiddir. 1988-ci il 15 may tarixində yazdığı 9 bənddən ibarət *"Baxsın"* rədifli qoşmasının yenə 4-cü bəndində təqdim etdiyimiz orijinal fikrini misralarda belə ifadə etmişdir:

Hayana baxırsan qəm içindədir,
Əyərlər, əksiklər, kəm içindədir.
*Gözlərin didəsi nəm içindədir,*
*Bəmdə inildəyən zilimə baxsın.*

3. *"Dəryaya bənzəyən gölümə baxsın"* misrası da poetikcəsinə deyilmiş və həmin şeirin 7-ci bəndinin 3-cü və 4-cü misrasında yer almışdır:

Dərdləyib ürəklər, gözyaşı axır,
Baxdıqca insanın xəyalı çaşır,
*Qəzəblər kükrəyir, həddini aşır,*
*Dəryaya bənzəyən gölümə baxsın.*

4. Cəmil Əkbərin 1954-cü ildə yazdığı *"Son arzu"* şeirində poetikliyin təzahürü şairilik fitrətindəki yaradıcılığının gənc yaşlarına təsadüf edir. Yəni 26 yaşında ikən yazdığı şeirin bir beytində orijinal deyim tərzi, fikrinin misralardakı özünəməxsusluğunu ifadə etməkdədir:

*Gözyaşım kədərin töhfəsi idi,*
*Acı həyatımın lövhəsi idi.*

5. Cəmil Əkbərin 1955-ci ilin oktyabr ayında qələmə aldığı *"Poza bilmirəm"* rədifli qoşması da 27 yaşında yazılmışdır. Gənc yaşlarındakı poetik misralarla yoğrulmuş obrazlı deyim tərzi təqdim etdiyimiz bu orijinal misra ilə özünəməxsus şairanə baxışının təzahürü, əsrarəngiz düşüncəsinin ən gözəl ifadəsidir:

Söylə xatirində qalırmı sənin?
Ayrılıq anları, o sakit gecə?
*Mən elə arxanca baxdım aramsız,*
*Sən kiçik xal olub gözdən itincə.*

6. Cəmil Əkbərin 1985-ci il 30 may tarixində xalqımız üçün ərmağan etdiyi *"Yazardım"* rədifli qoşması da orijinal deyim tərzi ilə, fikrin dərin anlamındakı mənaya obrazlı fənərlə sanki işıq tutur. İkinci bəndinin 3-cü və 4-cü misrasıyla tanış olduğumuz zaman şairin düşüncəsindəki əsl mənanı, mətləbi açıq-aydın görürük.

Sən nökər olsaydın, mən də sahibin,
Görərdim, düzərdim hərbir möhübün.
*Sən xəstə olsaydın, mən də təbibin,*
*Dərmanı başa yox, dilə yazardım.*

7. Cəmil İmamverdioğlunun 6 aprel 1996-cı ildə yazdığı 13 bənddən ibarət *"Kefsiz kef edirəm, kefimə gəlin"* rədifli qoşmasında da poetik tapıntı orijinallığı ilə yenilik statusunda yer alır. Məlumdur ki, insan oğlu şənlik edəndə kef çəkər. Hər hansı bir bayramda, toy-düyünlərdə, şənlənərkən dəvətli qonaqların kef çədiyi hərkəs üçün aydındır. Fəqət Cəmil Əkbər bu şeiri ilə az öncə bildirdiyimiz fəlsəfəni alt-üst edərək yeni bir mövqedə kef etməyə diqqətimizi çəkərək, şairlik istedadı ilə oxucusunu heyrətləndirməyi bacarır. Cəmil Əkbərin məcazi düşüncəsi ilə əslində kef çəkməyi şənləmək kimi deyil, dərd-qəm çəkmək mahiyyətindədir:

Baxıb zəmanəyə qanım qaralır,
*Kefsiz kef edirəm, kefimə gəlin.*
Gen dünya başıma yaman daralır,
*Kefsiz kef edirəm, kefimə gəlin.*

8. Cəmil Əkbərin 1993-cü il 12 yanvar tarixində yazdığı *"İlk məhəbbətin"*[1] rədifli şeirində orijinal deyim tərzi ilə fərqlənən bir neçə misralardakı dəyərli fikirlər nəzərimizi cəlb etməklə bizi heyrətləndirir. Ədəbiyyatşünaslar və şairlər arasında orijinallığı ilə fərqlənən bu qəbildən olan misralara "Şah misra" və ya "Şah beyt" təbirindən istifadə edərək qiymətləndirirlər. Adətən bir çox şeirlərdə orijinal fikirlərin ifadəsi olaraq obrazlı deyim tərzi 1, bəzən 2, nadirən isə 3 sayda müşahidə olunur. Lakin bu fikrimizin əsassız olduğunu 22 bənddən ibarət *"İlk məhəbbətim"* rədifli qoşmasında görürük. Bəhs etdiyimiz bu qoşma istisnai olaraq fərqlənir və orijinal fikrin poetikliklə çulğalanmış obrazlı deyim tərzinə fərqli bəndlərin 4-cü misrasında, 7 yerdə (1-ci, 4-cü, 6-cı, 8-ci, 10-cu, 14-cü, 16-cı bəndlər) rast gəlirik ki, bu hal məcazi anlamda rekord göstəricisi kimi qəbul olunmalıdır. Bir neçə örnək göstərməklə fikrimizi əsaslandırmaq istərdik: *"Şirindir qorası ilk məhəbbətin", "Dəryadır damlası ilk məhəbbətin", "Bütövdü parası ilk*

[1] İlqar Cəmiloğlu, Əli İmamverdi, "Cəmil Əkbər şeirlər", IV cild, "İksad yayınevi", ISBN: 978-625-6404-35-9, Ankara-2023, S. 350 – 353.

*məhəbbətin", "Qocalmır qarısı ilk məhəbbətin", "Ucalmır barısı ilk məhəbbətin", "Solmayır laləsi, ilk məhəbbətin", "Kirimir naləsi, ilk məhəbbətin".* Əslində təqdim etdiyimiz şeirdən bəzi örnəkləri obrazlı fikir baxımından sözün deyim tərzinə görə yeni bir kəşf adlandıra bilərik:

Dadını, duzunu dadanlar bilir,
Sağalmır yarası ilk məhəbbətin.
Bu yolda addımın adanlar bilir,
*Şirindir qorası ilk məhəbbətin.*

Odlara düşsə də əriyən deyil,
Torpağa qarışsa, çürüyən deyil,
Nəqədər sus desən kiriyən deyil,
*Dəryadır damlası ilk məhəbbətin.*

Silinib xəyaldan biryolluq getmir,
Gözlərdən uzaşıb əbədi itmir,
Hər yerdə sulanıb, cücərmir, bitmir,
*Bütövdü parası ilk məhəbbətin.*

Dolanıb nəqədər zaman keçsədə,
Verməyib fürsəti aman keçsədə,[2]
Könül dünyasından güman keçsədə,
*Qocalmır qarısı ilk məhəbbətin.*

Məcnunu, Leylini yola salsada,
Eşqi-məhəbbəti yarı qalsada,
Gül yanağı saralsada, solsada,
*Ucalmır barısı ilk məhəbbətin.*

Bəşər yaşadıqca o da yaşayır,
Quruda, havada, suda yaşayır,
Dönüb xatirəyə yadda yaşayır,
*Solmayır laləsi, ilk məhəbbətin.*

Dünyaya gələnlər köçüb getsədə,
Əcəl şərbətini içib getsədə,
Yaxşını-yamanı seçin getsədə,
*Kirimir naləsi, ilk məhəbbətin.*

9. Cəmil Əkbərin 1975-ci il 18 sentyabr tarixində yazdığı *"Nəsihətnamə"* başlıqlı şeirində fəlsəfi mahiyyətli, dərin anlamlı, fikrini

---

[2] Bürüyüb, gözlərə duman çöksədə.

məntiqi dəlil kimi isbatlayaraq bir ustad kimi müdrikanə kəlamda hökm verir.

Zülm eyləmə gəl bəşərə, quyu qazıb evlər yıxma!
Fitnə-fəsad törətmə gəl, günahsız qəlbləri sıxma!
Arifsənsə yadda saxla, unutmaynan nəsihəti,
Müdrikliklə söylənilən hər kəlamı, hər söhbəti.
Bu sözlərlə qidalandır, öz zəkanı, kamalını,
Gözdən salma el içində öz hüsnünü, camalını.
*Ətir saçan qızılgül ol, dilə gətir bülbülləri,*
*Hərkəsdənin öz bəxtidir, törətdiyi əməlləri.*

10. Cəmil Əkbərin oğul nəvəsi Fariz Zakiroğlunun faciəvi şəkildə həlak olması ilə əlaqədar dərd-qəmini 7 hecalı *"Sən yadıma düşəndə"* rədifli şeiri ilə ah-naləsini, fəqanını ərşi-əlaya yüksəldir. 1998 –ci il 16 noyabr tarixində yazdığı 6 bəndlik şeirin son bəndinin 3-cü misrasında *"Qayçı dəyir yaşıma"* poetikliyi və obrazlı deyim tərzi ilə qəmin tüğyanında şairlik ruhunu orijinal tərzdə yanğılı çalrda ifadə edə bilir.

Kədər dolur başıma,
Düyün düşür qaşıma,
*Qayçı dəyir yaşıma,*
Sən yadıma düşəndə.

11. Cəmil Əkbərin 6 bənddən ibarət *"Əlvida deyir"* rədifli qoşması da obrazlı deyim tərzi ilə fərqlənir. Bu deyim tərzinə görə də Cəmil Əkbərin şairlik sənətində öz baxışının, öz düşüncəsinin, özünəməxsus təfəkkür tərzinin olduğunu təsdiqləyir.

Dəllallar yanında, pul bazarında,
*Ədalət, həqiqət əlvida deyir.*
Əxlaqsız, ismətsiz dul bazarında,
*Sədaqət, səxavət əlvida deyir.*

12. Obrazlı deyim tərzinə görə öz fikirlərini, düşüncələrini poetik misralarla ifadə edən Cəmil Əkbər 1995-ci ilin 24 dekabr tarixində yazdığı 10 bənddən ibarət *"Axtarıram"* rədifli qoşmasının 3-cü bəndində belə deyir:

Ağardı saqqalım, ağardı başım,
Tutuldu qabağım, çatıldı qaşım,
Dağıldı qalmadı, xəyalım, huşum,
*Səksənə çatmağa il axtarıram.*

13. Cəmil Əkbərin *"Düşəcək bəşər"* rədifli qoşmasında obrazlı deyim tərzi də diqqətimizi cəlb etməkdədir. 11 bənddən ibarət bu şeirin ikinci bəndinin 3-cü misrası orijinal tapıntı baxımdan şair fikrinin təcəssümüdür.

Biri-birisini dərk edənməsə,
Qananlar qanmaza görk edənməsə,
*Cəhalət mirasın tərk edənməsə,*
Daha da pis günə düşəcək bəşər.

14. Cəmil Əkbərin Haqq dünyasına qovuşmasına 79 gün qalmış, yəni 25 dekabr 1999-cu ildə yazdığı 8 bənddən ibarət *"Yaddan çıxıb"* rədifli şeirinin 7-ci bəndinin 3-cü misrasında ("*Gözlərin yaşından dəniz çoxalıb")* və 8-ci bəndin 4-cü misrasında ("*Qarışqa fil olub, fil yaddan çıxıb")* da obrazlı deyim tərzi ilə poetik tapıntı dəyərində, şair ilhamından yaranan baxışının təzahürüdür.

Bordaqda bəslənən donuz çoxalıb,
Məzlumlar, fəqirlər, kəniz çoxalıb,
*Gözlərin yaşından dəniz çoxalıb,*
Çeşmə yaddan çıxıb, göl yaddan çıxıb.

İgid oğlanların yeri dəyişib,
Sərrafı tanınmır, zəri dəyişib,
Xeyiri dəyişib, şəri dəyişib,
*Qarışqa fil olub, fil yaddan çıxıb.*

15. Cəmil Əkbərin 16-17 dekabr 1997-ci ildə yazdığı 14 bənddən ibarət *"İtirmişəm"* rədifli qoşmasının son bəndinin 4-cü misrasındakı obrazlı deyim əslində şairin poetik tapıntısıdır.

İnciyib-küsürəm öz həvəsimdən,
Cəmiltək nadanla, bəhsə-bəhsimdən,
İbrət götürmüşəm həyat dərsimdən,
*İkilər alaraq, beş itirmişəm.*

16. *"İnanmakı o dünyada kiriyəm"* misrası da Cəmil Əkbərin şair yaradıcılığındakı özünəxas təxəyyülünün ilham görkəmindəki təcəllisidir. 13 yanvar 1996-cı ildə yazdığı 9 bəndlik *"Biriyəm"* rədifli qoşmanın ikinci bəndinin 4-cü misrası bu bənd daxilində yer alır.

Bu dünyadan çox almadım kamımı,
Az çəkmişəm zülalımı, şamımı,
Bildirmişəm şöhrətimi, şanımı,
*İnanmakı o dünyada kiriyəm.*

17. *"Dağıtmaq, talamaq bir modadırmı?"* misrası orijinal deyim tərzi ilə poetik tapıntı adlandıra bilərik. *"Sadiq qalmalıyıq cəmiyyətə"* adlı şeir 1979-cu il 15 oktyabr tarixində yazılıb. Təqdim etdiyimiz poetik misra da bu şeirin tərkibində yer almışdır. İki misradakı fikrin təzahürü olan beytə bir daha nəzər salaq:

Dinclikdə yaşamaq bu xətadırmı?
*Dağıtmaq, talamaq bir modadırmı?*

18. Cəmil Əkbərin *"Deyirsən"* rədifli 20 aprel 1986-cı ildə qələmə alınmışdır. Bu şeirdə də poetik tapıntı bir beytdə obrazlılığı ilə diqqəti çəkir.

*Bir deginən mümkünmü, qana-qana qanmayım?*
*İçimizdən od alıb yana-yana, yanmayım?*

19. Cəmil Əkbərin *"Çay-çaya qovuşsun, sel əhsən desin"* misrası da obrazlı deyim kimi orijinaldır. 1980-ci il 14-15 aprel günündə yazdığı 10 bəndlik şeirin 4-cü bəndinin son misrası ilə təqdim edirik.

Ey əziz dostumuz, mehriban qardaş,
Əlinə götürüb qələmi bir baş,
Elə dolub, elə çalxan, elə daş,
*Çay-çaya qovuşsun, sel əhsən desin.*

20. Cəmil Əkbərin 1992-ci il 3 oktyabr tarixində yazdığı 33 bənddən ibarət *"Qurtarmadı"* rədifli şeirinin ikinci bəndində obrazlı deyim tərzi diqqətimizi çəkməkdədir.

Korladı ülfəti sərsəri, yava,
Saldılar araya hər yersiz dava,
Zəhərə qərq oldu, tərtəmiz hava,
*Gözyaşı sel oldu, sil qurtarmadı.*

21. Cəmil Əkbərin poetik yaradıcılığını təhlil etdiyimizdə atalar sözlərimizdən yararlanaraq özünəməxsus variantda mənası eyni olan fikrə orijinal deyimlə sanki yenilik gətirir. Məsələn, xalqımız arasında belə bir təbir var:

"Anasına bax qızını al,
Torbasına bax duzunu al".

1960-cı ildə yazdığı 3 bənddən ibarət *"Tanı"* rədifli şeirinin ikinci bəndində Cəmil Əkbər bu təbirin birinci bölümündəki "Anasına bax qızını al" zərb məsəlini bu şəkildə nəzmə çəkmişdir:

Hər yetənə yar deməsən yaxşıdır,
*Balanı alanda ananı tanı.*

22. Cəmil Əkbərin 1956-cı ildə, yəni gənclik dönəminin ən gözəl çağında, 28 yaşında yazdığı *"Tələb etmək"* rədifli qoşması ustadnamə ruhunu yaşatmaqdadır. Üç bənddən ibarət bu şeirin son misraları, *("Olarmı tikandan bar tələb etmək?", "Olarmı yoxsuldan var tələb etmək?", "Olarmı söyüddən nar tələb etmək?")* obrazlı məntiqə dayalı deyim tərzi ilə şah misranın timsalında sanki ustadlarımızı: Aşıq Alını, Dədə Ələsgəri, Dədə Şəmşiri, Miskinli şair Vəlini, Azaflı Mikayılı xatırladır desək doğru təsbit etmiş olarıq. İlk bənddəki ikinci beytin poetik deyim tərzinə nəzər salaq:

Yüz bəslə tikani, yüz bəslə ha yüz,
*Olarmı tikandan bar tələb etmək?*

23. Azərbaycanda bir təbir vardır: *"Kim nə əkərsə onu biçər".* Bir digər atalar sözündə isə belə deyilir: *"Kim nə töksə aşına, o da çıxar qaşığına".* Cəmil Əkbər bu təbirə əsaslanıb 1967-ci ildə 39 yaşında ikən 10 bənddən ibarət yazdığı *"Lövhələr"* qoşmasını yazmışdır. *"Lövhələr"* adlı şeiri Ağamalı oğlu adına Azərbaycan Kənd Təssərrüfatı İnstitunun yayınladığı "Kadr uğrunda" qəzetinin 7 noyabr 1983-cü il, № 20 səh.3-də, "Həyat həqiqətləri" başlığı ilə 3 bənddən ibarət çap olunmuşdur. Bu şeirin 5-ci bəndində Cəmil Əkbər bu təbirə öz baxışı ilə yaxınlaşaraq belə deyir:

Səpilən toxumun cücərir çoxu,
Ondan gözləyirlər barı, səpənlər.
Heçkəsi basmasın nə mürgü, yuxu,
*Buğda biçməyirlər darı səpənlər.*

24. Cəmil Əkbərin 1964-cü ildə yazdığı *"Hey yavaş-yavaş"* rədifli qoşması poetik deyim tərzinə görə yeni bir tapıntıdır. Bu kəşf Cəmil Əkbərin şair təbinin ilham anında vəhynən zühur edən bir misradır kı, orijinal fikrini ən gözəl şəkildə xarakterizə edir.

Mərd igidlər əməlindən utanmaz,
Gəşt etsə dünyanı hey yavaş-yavaş.
*Namərd yüyürsədə mərdə çatanmaz,*
*Mərd asta getsədə hey yavaş-yavaş.*

25. Cəmil Əkbərin 1989 –cu il 8 noyabr tarixində yazdığı *"Basırın məni"* qoşması, ömrünün qürub illərinə rəvan olduğu dönəmdə oxucuları üçün ərmağan etdiyi poetik yadigarlardan biridir. Bir payız mövsümünün ab-havasını əks etdirən bu şeirlə tanış olduğumuzda qəlbindən keçən

nisgil ruhlu axırıncı diləyinin, həyata vidalaşıb haqq dünyasına qovuşması ilə qış mövsümünü, deyil yaz mövsümünü arzulamışdır. İlk bahar ayında bu fani dünyadan ayrılıb dəfn olunmasını təqdim edəcəyimiz bu duyğusal ruhlu şeirin timsalında sidq ilə uca Tanrıdan diləmişdir. Və son diləyi nəhayət ki, qəbul olunmuş 12 mart 2000-cil ildə haqqın rəhmətinə qovuşaraq Novruz bayramının yurdumuza qədəm qoymasına bir həftə qalmış, yəni 13 mart tarixində son mənzilə, Haqqın dərgahına uğurlanaraq, Gəncə şəhər qəbristanlığında dəfn olunmuşdur. Bu poetik şeirin ilk bəndinə nəzər saldığımızda mübarək insanın diləyinin Haqq Təala tərəfindən yerinə yetirildiyi aydın olur.

Dünyamdan ayrılıb köçəsi olsam,
Söz ilə, saz ilə basırın məni.
Əcəl şərbətini içəsi olsam,
*Qışda yox, yaz ilə basırın məni.*

Bütün şairlərə xas olan təbiət gözəlliklərinin aşiqi termini Cəmil Əkbərə də şamil edilməlidir. Təbiət, cəmiyət vurğunu olmasını 27 sentyabr 1987-ci ildə yazdığı *"Dünya"* adlı şeirində bir neçə misra ilə etiraf edərək səfalı dağlarımızda, seyrəngahlı yaylaqlarımızda yetişən bağca-bağlarımızın yaraşığı bir çox təbii bitkilərin *("Şehtökən", "Qantəpər", "Qəfliotu", "Kəkotu", "Kığ", "Baldırğan", "Qulançar", "Şomu")* eyni zamanda hər cür ləziz nemətlər *("Dələmə", "Pendir", "Narın üz", "Xama")* də daxil olmaqla xalq arasındakı adlarını xatırlatmaqla onlara məftun olduğunu bu şeirində çox səmimi dillə etiraf etmişdir:

Mənim üçün gözəldir, yolda bitən "Yolotu",
Əyriboyun "Bənövşə", kolda bitən kol otu,
"Şehtökən"lə, "Qantəpər", "Qəfliotu", "Kəkotu",
Birbirindən qiymətli, ayrı-ayrı tək otu,
Mənin üçün gözəldir, "Kığ", "Baldırğan" bandası,
Məni lağa qoyma gəl, ağız büzmə qadası.
Mənim bütün varlığım, təbiətə bağlıdır,
İnsanlığa bağlıdır, cəmiyyətə bağlıdır.
Mənin üçün gözəldir, "Qulançar"da, "Şomu" da,
Ağzımızdan getməyir, neçə ildir tamı da.
Mənin üçün gözəldir, "Alaçıq"lar, "Coma" da,
"Dələmə" də, "Pendir" də, "Narın üz" də, "Xama" da.
Mənin üçün gözəldir, bostanı da, bağı da,
Əmbiz-əmbiz butaqlar, şamamalı tağı da.

Cəmil Əkbər poetik mirasını təhlil etdiyimizdə çoxmövzulu olduğu ilk planda nəzəri cəlb edir. Öyüd, nəsihət, tərbiyə etmək şair ruhlu alimin şeiriyyətinin xüsusiyyəti olmaqla, həm də önəmli bir sahəsini əhatə edir. Digər bir sahəsini sevgi-məhəbbət şeirləri də oxucularına çatdırılır. Digər şairlərdə olduğu kimi bədbin, həyatdan küsgün, qəmli ruhlu şeirlər də Cəmil Əkbər poeziyasına xasdır. Tənqidi ruhlu şeirlər də haqsızlığa, cəhalətə, nadanlığa qarşı nifrət olaraq özünü göstərməkdədir. Obrazlı deyim tərzi Cəmil Əkbər təfəkkürünün, hissinin, duyğusunun ifadəsi olaraq öz əksini poetik incilərinin timsalında görsənir. Atalar sözlərindən, zərb məsəllərindən faydalandığı misralar da dəyişik variantda özünü təcəssüm etdirir. Hətta Cəmil bəyə atasözünə mənzər təbir də icad etdiyini bir çox şeirləri ilə tanış olduğumuz zaman qarşılaşırıq. Poemalarla yanaşı əsasən də aşıq şeir şəkillərinin *(qoşma, gəraylı, divani, bayatı və s.)* bir çox növündə də qələmini sınamış, maraqlı əsərlər ortaya qoymuşdur Cəmil Əkbər. Bir qrup şeirlər də vardır ki, həm nəzirə şəklində yazılmışdır. Bir çox şerlər də deyişmə kimi Cəmil Əkbər poeziyasının digər bir bölümünü əks etdirməkdədir. Yubiley mövzusunda və matəmlə əlaqədar bir qurup şeirlər də Cəmil Əkbər yaradıcılığında öz yerini almışdır. İctimai-siyasi mövzulu şeirlər də Cəmil Əkbərin bu elm sahəsində uzun illər pedaqoji fəaliyyətinin timsalı kimi fikirlərinin, düşüncələrinin ilmə-ilmə poetik müstəvidə misralara çevrilməklə obrazlı halda xalqına təqdim olunmuşdur.



Prof. Dr. İlgar Cəmiloğlu



Hüquqşünas Əli İmamverdi

12.07 – 2023 saat 08:30

## 1. RÖYADA GÖRDÜM

Ayıldı yuxudan Nizami babam,[3]
Üzündə təbəssüm, qəlbində ilham.
Xəyala dalaraq güldü gözündən,
Alovlar püsgürdü sanki sözündən.
Dediki: ay oğul sözüm var sizə,
Toxunub dəyməsin qoy qəlbinizə.
Mənki söyləmişəm aşikar bunu,
Həyatın zəhmətdən doğulduğunu.
Sənət öyrənəndə yaxşı bil, dedim.[4]
Mənki öz vaxtında ay oğul dedim?
*"Bir elmi öyrənmək istədikdə sən,*
*Çalış ki, hər şeyi kamil biləsən,*
*Kamil bir palançı olsa da insan,*
*Yaxşıdır yarımçıq papaqçılıqdan".*
Bu söz deyiləndən gör nələr keçib?
Qərinələr, dövran, əsrlər keçib.
Babamız bəşərə gör nə söz dedi?
Nə dedi yerbəyer, tamam düz dedi.
Dediki: qəflətdən ayılın bala,
Seçilin ellərdə, sayılın bala.
Cavankən zirvəni aşmaq vaxtıdır,
Qaynayıb həvəsdən daşmaq vaxtıdır.
Çalışın yaşayın yaradın, qurun,
Gecələr gec yatın, səhər tez durun.
Fərhadtək qayalar çapmağı öyrən,
Möhtəşəm saraylar yapmağı öyrən.
Unudub çıxarma əsla yadından,
Yapışın zəhmətin tunc qanadından.
Anlayın həyatın nə olduğunu,
Zəfərin zəhmətdən doğulduğunu.
Həyatın hər anı, hər dəqiqəsi,
Hər fəsli, hər ili, hər qərinəsi.
Hərzaman yoxlayır, sınayır bizi,
Ya tərif eyləyir, qınayır bizi.
Gündəlik sınaqdan çıxasan gərək.

---

[3] Oyandı yuxudan Nizami babam.
[4] Söylədi: sənəti kamil bil dedim.

Zəfərlər əlini sıxasan gərək.
Hərkəs bel bağlasın öz qüdrətinə,
Öz şanı-şərəfi, öz şöhrətinə.
Məharət hərkəsin özündə gərək,
Qüvvət qollarında, dizində gərək.
Özgədən-özünə şöhrət gözləmə!
Ar-namus gözləmə, qeyrət gözləmə!
Zəhmətsiz nə hünər, nə qələbə var,
Nə alim, nə dahi, nə tələbə var.
Zəhmətsiz insanın nə şöhrəti var,
Nə adı, nə sanı, nə hörməti var.
Zəhmətdir hər elmin, himi, binası,
Odur bu həyatın əsas mayası.
Zəhmətdən qaçanlar zəlil olurlar,
Bədən sağ olsada əlil olurlar.
Vaxtını havayı itirən kəsin,
Eşidən olmayıb zəfər nəğməsin.
Zəhmətdən qaçanlar, aralananlar,
Həyatdan silinib qaralanırlar.
Zəhmətsiz yaşamaq ardı dünyada,
Səma da, torpaq da dardı dünyada.
Dəyişdi zəmanə, ötüşdü illər,[5]
“Nəsillər dalınca gəldi nəsillər”.[6]
Yenə sənətini bilməyənlər var?
Utanıb, qızarıb ölməyənlər var?
Yenədə yarımçıq papaqçılar var?
Yarımçıq pinəçi, yarımçıqlar var?
Nalbəndlər yenəmi zərgərlik edir?
Ustayam deyərək dülgərlik edir.[7]
Dəvəyə sərbazlıq eyləsə eşşək,
Çəkdirər yazığa əzabı bişəkk.
Yenə palan tikən, papaq tikirsə,
Yenə tövlə tikən, otaq tikirsə.
Sənətkar əlinin açılmaz pası,
Ləl-gövhər bəxş etməz, sənət dünyası.

---

[5] Bu söz deyiləndən gör nələr keçir.
[6] Nəsillər dalınca nəsillər keçir.
[7] Şagirdlik etməmiş, kərgarlıq edir?

Nizami yenidən belə söylədi,
Deyərək hamıya bəyan eylədi:
*“Məndən söyləməkdir, səndən eşitmək,*
*Bir insan əliboş gəzməsin gərək”.*
*“Həyatın mənası əməkdir, əmək,*
*Bir insan əliboş gəzməsin gərək”.*
Söylədi demişəm, bu nəsihəti,
Zəhmətsiz axtarma güllü-cənnəti.
Demişəm həyatın cövhərini mən,
Süzmüşəm sinəmin gövhərini mən.
Zəhmətdən qaçandan soruşun bunu,
Təsdiq etməyibmi, düz olduğunu?
Deyəsən indi də işləməyən var,
İşini-gücünü xoşlamayan var,
Mənim sözlərimi dinləməyən var.
Gedib öz işini görməyənlər var,
Aldığı borcları verməyənlər var.
Budur sözlərimin əsl mənası,
Zəhmətlə qurulur həyat dünyası.
Mənim xələflərim oyansa deyər,
Biz yerin altında çəkirik qəhər.
Ustaddan dərsini almayan da var?
Sözünü yadına salmayan da var?
Adam dərs almazmı öz babasından?
Şair babasından, söz babasından?[8]
Hərkəsə gərəkdir göstərsin hünər,[9]
Hünər sahibləri olur bəxtəvər.[10]
Dəryadan dürr çıxart, torpaqdan çörək,
Sinədə döyünsün qürurla ürək.
Ellər ilham alsın əməllərindən,
Unudub salmasın nəzərlərindən.
Halal zəhmətinlə artır sərvəti,
Görmə müsibəti, nə məşəqqəti.
Zəhmətdir həyatın dadı, ləzzəti,
Ellərə car edən hörmət-izzəti.
Zəhmətdən usanıb yorulmayın siz,
Taleyə küsənib darılmayın siz.

---

[8] Şeir dühasından, söz dünyasından?
[9] Çalışın hər işdə göstərin hünər,
[10] Zəfər sahibləri olur bəxtiyar.

Düşünün, dərk edin, anlayın, qanın,
İnsansan insanın halına qalın.
Südün içilməyir, ətin yeyilmir,
Yunun qırxılmayır, gönün geyilmir.[11]
Sənin də nemətin zəhmətindədir,[12]
Vətənə, xalqına xidmətindədir.[13]
Nizami babamız yenə söz açdı,
Nə dedi, danışdı, tamam düz açdı.
Dediki sözüm var ay oğul sizə,
Dəyməsin azacıq qoy qəlbinizə.
Mənki söyləmişəm aşikar bunu,
Həyat yollarının doğruluğunu.
*"Dünyada keçməsin boş cavan çağın,*
*Çünki qüvvətlidir onda ayağın".*
Üz tutub bizlərə bir ustad kimi,
Gözündə təbəssüm, qəlbi şad kimi,
Dediki qəflətdən ayılın bala,
Ellərdə tanının, sayılın bala.
Cavankən zirvəni aşmaq vaxtıdır,
Qaynayıb həvəsdən daşmaq vaxtıdır.
Çalışın həvəslə yaradın, qurun,
Həvəslə oturun, həvəslə durun.
Düşünün, dərk edin, anlayın, qanın,
Boş-bikar dolansan küsər zamanın.
Fərhadtək qayalar çapmağı öyrən,
Qəsrlər, qalalar yapmağı öyrən.
Həyatdan incilər tapmağı öyrən,
Xətadan, bəladan sapmağı öyrən.
Çalış bu həyatda qalmaynan dala,
Eşit sözlərimi yada sal bala!
Çalışki zəhmətdə qoy payın olsun,
Vətən qüdrətinə arxayın olsun.
Hünərlə, zəfərlə çıx imtahandan,
Alarsan qiyməti dövrü-zamandan.

***Cəmil Əkbər***

[11] Yunun daranmayır, gönün geyilmir.
[12] Sənin ləyaqətin əməyindədir,
[13] Bəşər övladına köməyindədir.

## 2. DEDİLƏR

Sənə Günəş dedilər,
Bizə peşkəş dedilər,
Venera da dedilər,
Səyyarə də dedilər.
Sənə Ulduz dedilər,
Tamam dümdüz dedilər.

Nə dedilər a qızım,
Ay ülkərim, ulduzum.
Hələ çox az dedilər,
Biraz dayaz dedilər.

Sənə Həvva dedilər,
Dərdə dəva dedilər,
Qəlbə şəfa dedilər,
Zövqü-səfa dedilər.

Sənə Səhər dedilər,
Vermə qəhər dedilər.
Sənə Gövhər dedilər,
Ləl, Cəvahir dedilər.
Sənə Yaqut dedilər,
Yaqutdan qiymətlisən.
Gövhərdən zinətlisən.
Sənə Billur dedilər,
Bizi güldür dedilər.
Sənə Zümrüd dedilər,
Briliyant da dedilər.
Zərnişan da dedilər,
Gülnişan da dedilər.
Zərqələm də dedilər,
Zərintac da dedilər.
Zərnigar da dedilər,
Simuzər də dedilər.
Firuzə də dedilər,
Mirvari də dedilər.
Dürdanə də dedilər,
Nurdanə də dedilər,

Yeganə də dedilər.
Eşqimizə nə üçün?
Biganə də dedilər?
Dedilər hikmətli ol,
İzzətli,hörmətli ol,
Dəyərli qiymətli ol,
Şərəfli, şöhrətli ol.
Dedilər ki, nadir ol,
Məhəbbətə qadir ol.

Sənə Almaz dedilər,
Rəngi solmaz dedilər.
Tayı olmaz dedilər,
Darda qalmaz dedilər.
Nə dedilər a qızım,
A ülkərim, ulduzum.
Tamam dümdüz dedilər,
Hələ çox az dedilər.

Sənə Ballı dedilər,
Mah-camallı dedilər.
Pürkamallı dedilər,
Əhli-hallı dedilər,
Xoş xəyallı dedilər.
Ləbi ballı olasan,
Qoşa xallı olasan,

Validə də dedilər,
Xalidə də dedilər.
Aludə də dedilər,
Xatirə də dedilər.
Mehparə də dedilər,
Gülarə də dedilər.
Gülnarə də dedilər,
Dilarə də dedilər,
Xumarə də dedilər.

Sənə Sevda dedilər,
Etmə əda dedilər.
Getmə yada dedilər,
Düşmə oda dedilər.

Sənə Sevil dedilər,
Hərgiz, hər il dedilər.
Demədilər sevilmə,
Demədilər istənmə.

Lətafət də dedilər,
Məlahət də dedilər.
Ziyafət də dedilər,
Şərafət də dedilər.
Lətafət də dedilər,
Məharət də dedilər.
Mətanət də dedilər,
Səadət də dedilər.
Nəzakət də dedilər,
Sədaqət də dedilər,
Həqiqət də dedilər.

Sənə Huri dedilər,
Gözün nuru dedilər.
Sənə Pəri dedilər,
Zərin-zəri dedilər,
Məleykə də dedilər.
Sənə Mələk dedilər,
Arzu-dilək dedilər,
Olma kələk dedilər,
Olma külək dedilər.

Qənirə də dedilər,
Fəxriyyə də dedilər.
Hüsniyyə də dedilər,
Sahibə də dedilər.
Rahibə də dedilər,
Rübabə də dedilər.
Həbibə də dedilər,
Məhbubə də dedilər.
Nüşabə də dedilər,
Xoş-əhval da dedilər,
Natəvan da dedilər.
Sənə Qəndab dedilər,

Sənə Nabat dedilər,
Yoxdu isbat dedilər.
Sənə Məryəm dedilər,
Minayə də dedilər.
Münəvvər də dedilər,
Məsumə də dedilər.
Kəmalə də dedilər,
Cəmalə də dedilər.

Sənə Qumru dedilər,
Döşü yumru dedilər.
Sənə Zinət dedilər,
Verin qiymət dedilər.

Sənə Dürrə dedilər,
Bizi girrə dedilər.
Əntiqə də dedilər,
Əqidə də dedilər.
Əminə də dedilər,
Zəminə də dedilər,
Adilə də dedilər.

Sənə Əsmət dedilər,
Abır-ismət dedilər.
Bizə qismət dedilər,
Qoyma kəsmət dedilər.

Sənə Zəhra dedilər,
Qəlbi səhra dedilər.
Sənə İzzət dedilər,
Bizə ləzzət dedilər.
Səyalı da dedilər,
Həyalı da dedilər.

Sənə Şövkət dedilər,
Çəkmə minnət dedilər.
Vardır hikmət dedilər,
Bağı-cənnət dedilər.

Sənə Sənəm dedilər,
Böyük ənam dedilər.
Sənə Xanım dedilər,
Şirin canım dedilər,
Yol-ərkanım dedilər,
Ol pənahım dedilər.
Qibləgahım dedilər,
Din-imanım dedilər.
Gövhər-kanım dedilər,
Dürr məkanım dedilər.

Nənəxanım dedilər,
Anaxanım dedilər.
Bibixanım dedilər,
Bacıxanım dedilər.
Böyükxanım dedilər,
Xırdaxanım dedilər.
Tutuxanım dedilər.
Bikəxanım dedilər,
Xanım-xatın dedilər,
Güləbatın dedilər.
Güləndam da dedilər,
Gülcamal da dedilər.
Gülçöhrə də dedilər,
Gülsənəm də dedilər,
Şahsənəm də dedilər.
Gülüstan da dedilər,
Güldəstə də dedilər.
Növrəstə də dedilər,
Ahəstə də dedilər,
Arəstə də dedilər.
Gülüzar da dedilər,
Laləzər də dedilər,
İntizar da dedilər.
Dedilər ki, çiçəksən,
Gözəllərdən göyçəksən.
Əzizlərdən əzizsən,
Zəriflərdən zərifsən.

Sənə Gülnaz dedilər,
Sənə Şahnaz dedilər.
Sərvinaz da dedilər,
Sənə Naznaz dedilər,
Nazənin də dedilər.
Sənə Nazlı dedilər,
Dili duzlu dedilər.
Sənə Gilas dedilər,
Gəl qulaq as dedilər.
Nargilə də dedilər,
Nəcibə də dedilər.
Zərifə də dedilər,
Arifə də dedilər.
Şəfiqə də dedilər,
Rəfiqə də dedilər,
Məşuqə də dedilər.

Sənə Xurma dedilər,
Qəsdə durma dedilər.
Sənə Sevinc dedilər,
Olma nadinc dedilər.
Qəlbimizi sevindir,
Məhəbbətlə döyündür.
Səltənət də dedilər,
Sənə Süsən dedilər,
Tezcə küsən dedilər.

Sənə Şəhla dedilər,
Düş xəyala dedilər,
Şəhla gözlü olasan,
Şirin sözlü olasan.

Sənə Rəna dedilər,
Böyük məna dedilər.
Sənə Telli dedilər,
Siyah telli olmusan,
Bizim elli olmusan,
İncəbelli olmusan.

Sənə Güllü dedilər,
Gülü solmaz dedilər.
Gül-çiçəktək açasan,
Xoş ətirini saçasan.
Çiçəkdən ətirlisən,
Hamıdan xətirlisən.

Sənə Mənzər dedilər,
Güləbənzər dedilər.
Sənə Güllər dedilər,
Xoşbəxt illər dedilər.

Sənə Lalə dedilər,
Şəbnəm, Jalə dedilər,
Laləyanaq olasan,
Billurbuxaq olasan,
Qaymaqdodaq olasan,
Aynaqabaq olasan.
Dağ başında lalasan,
Dünyalarcan qalasan.

Sənə Dilbər dedilər,
Mürgü-ənbər dedilər.
Sənə Mərmər dedilər,
Müşgü-ənbər dedilər.

Sənə Nərgiz dedilər,
Möhübü düz dedilər.
Qərənfil də dedilər,
Yasəmən də dedilər.
Bənövşə də dedilər,
Gülöyşə də dedilər.

Gülü-Reyhan dedilər,
Qaşı kaman dedilər.
Əhdə peyman dedilər,
İsmi pünhan dedilər.
Hökmü fərman dedilər,
Dərdə dərman dedilər.

Sənə Maral dedilər,
A əhli-hal dedilər.
Könlümü al dedilər,
Yadına sal dedilər,
Qeydimə qal dedilər.

Sənə Ceyran dedilər,
Oldum heyran dedilər.
Maraldan da qəşəngsən,
Ceyrandan da gözəlsən.

Sənə Kəklik dedilər,
Sevmə təklik dedilər,
Yarın ilə qoşa gəz,
Ömrünü vur başa gəz.
Könülə yat, xoşa gəz,
Aldanma daş-qaşa, gəz!

Sənə Laçın dedilər,
Sənə Turac dedilər.
Sənə Durna dedilər,
Teli burma dedilər.
Gendə durma dedilər,
“Çalma zurna!” - dedilər.
Durna gözlü olasan,
Gülər üzlü olasan.
Tutulmasın qabağın,
Saralmasın yanağın.

Sənə Sona dedilər,
Qıyma mənə dedilər.
Dəryalarda üzəsən,
Könüllərdə gəzəsən.
Dedilər ki, Laçınsan,
Tovuzquşu, Tərlansan.
Dedilər ki, Turacsan,
Qırqovulsan, Leylacsan.
Demədilər qarğasan,
Başımıza darğasan.

Sənə Püsdə dedilər,
Boyu bəstə dedilər.
Girmə qəsdə dedilər,
Dəymə şəsdə dedilər.
Yarı bəslə dedilər,
Gözün üstə, dedilər.

Sənə Vəfa dedilər,
Dərdə şəfa dedilər.
A bivəfa dedilər,
Vermə cəfa dedilər.
Gəl insafa dedilər,
Sürək səfa dedilər.

Sənə Bahar dedilər,
Açıq izhar dedilər,
Olmaynan xar dedilər.

Sənə Ünbül dedilər,
Saçı sümbül dedilər.
Tellərini dara sən,
Xeyir-şərə yara sən,
Mehriban ol yara sən,
Günü etmə qara sən.
Eylə dərdə çara sən,
Aldanmaynan vara sən.
Düşməyəsən dara sən,
Yetişginən kara sən.

Sənə Leyli dedilər,
Vardır meyli dedilər.
Sənə Nigar dedilər,
Vəfalı yar dedilər.
Sənə Əsli dedilər,
Bahar fəsli dedilər.
Eşq-həvəsli dedilər,
Gül nəfəsli dedilər.
Kərəmləri kül eylə,
Ay nədir ki, il eylə?!
Koroğlular bəslə sən,

Nər oğlular səslə sən.
Məcnunları düzə sal,
Səksən, doxsan, yüzə sal.

Sənə Həcər dedilər,
Bizi becər dedilər,
Götür xəncər dedilər.
Nəbilərə dayaq ol!
Xidmətində oyaq ol!
Hər işlərdə mayaq ol!
Olursan busayaq ol!

Sənə Şirin dedilər,
Sədd-afərin dedilər.
Gözə görün dedilər,
Olma sərin dedilər.
Fərhadlara ver külüng,
Xosrovlara ver külüng.
Çapsınlar dağı-daşı,
Hey çəksinlər təlaşı.
Qoy yarsın Bisütunu,
Bir deyil çox sütunu.

Sənə qəzəl yazdılar,
Tamam gözəl yazdılar.
Səndən ötrü a qızım,
A ülkərim, ulduzum.
Divanə də oldular,
Pərvanə də oldular.
Çöllərə də düşdülər,
Sellərə də düşdülər.
Dillərə də düşdülər,
Yellərə də düşdülər.
Güllərə də döndülər,
Küllərə də döndülər.
Canlarından keçdilər,
Qanlarından keçdilər.
Atalardan-anadan,
Qardaşlardan, bacıdan.
Keçdilər nə keçdilər,

Sanma göydən düşdülər.
Dözdülər hər nazına,
Payızına, yazına.
Aranına dözdülər,
Boranına dözdülər.
Tufanına dözdülər,
Hicranına dözdülər.
Vüsalına dözdülər,
Hər anına dözdülər.
Hər cəfana dözdülər.
Baxışına dözdülər,
Naxışına dözdülər.
Həsrətinə dözdülər,
Xislətinə dözdülər.
Camalına dözdülər,
Amalına dözdülər.
Kamalına dözdülər,
Nələr-nələr dözdülər,
Şirin canı üzdülər.

Sənə qəzəl yazdılar,
Tamam gözəl yazdılar.
Səndən ötrü ay anam,
A mehriban, ay sonam.
Nə qalmadı yazdılar?
Nə olmadı yazdılar?
Nə dedilər a qızım?
A baharım, a nazım?
Tamam dümdüz dedilər,
Hələ çox az dedilər.
Dedilər, hey dedilər,
Olmaynan key dedilər.

Günəş qədər ülvisən,
Hava qədər ülvisən.
Torpaq qədər ülvisən,
Sular qədər ülvisən.
Sən bəşərə nənəsən,
Sən bizlərə anasan.

Sən bəşərə bibisən,
Sən bizlərə xalasan,
Səni xoşbəxt olasan.

İgidlərin yarısan,
Babaların yarısan.
Ataların yarısan,
Nəvələrin yarışan,
Namususan, arısan.

Sən qardaşa bacısan,
Kim deyərki acısan?
Qanın bizim qanımız,
Südün bizim mayamız,
Həyan bizim həyamız.
İsmətin ismətimdir,
Mürvətin mürvətimdir.
Hikmətin hikmətimdir,
Zülmətin zülmətimdir.
Amalım da sənindir,
Kamalım da sənindir,
Camalım da sənindir.
Ürəyim də sənindir,
Diləyim də sənindir.
Azlığım da sənindir,
Çoxluğum da sənindir.
Varlığım da sənindir,
Yoxluğum da sənindir.

Bəzən olur a qızım,
A ülkərim ulduzum.
Yollarını azırlar,
Düzü tərsə yozurlar,
Ünsiyyəti pozurlar.
Altuna aldanırlar,
Namərdə daldanırlar.
Ürəkləri qırırlar,
Dirəkləri yıxırlar.
Qaraya ağ deyən var,
Kol-kosa bağ deyən var.

Onda Bəsti dedilər,
Səbri kəsdi, dedilər.
Qızyetər də dedilər,
Qızbəsti də dedilər.
Sənə Tamam dedilər,
Anam Bəsdir dedilər.
Sənə Yetər dedilər,
Canı qurtar dedilər.
Sənə Zibər dedilər,
Olma bibər dedilər.
Sənə Fatma dedilər,
Yarı satma dedilər.
Arı atma dedilər,
Uçuz tutma dedilər.
Kifayət də dedilər,
Şikayət də etdilər.
Dedilər, hey dedilər,
Olmaynan key, dedilər.
Öz adına layiq ol!
Öz əslinə layiq ol!
Öz nəslinə layiq ol!
Öz yarına sadiq ol!
İlqarına sadiq ol!
Adın kimi zərif ol!
Gözəl, nəcib, lətif ol!

Açıq deyim a qızım,
A ülkərim, ulduzum.
Sənsiz olmaz avazım,
Səndən ayrı nə yazım?
Ünsiyyətin duzusan,
Sevgimizin düzüsən.
Eşqimizin közüsən,
Məhəbbətin gözusən.
Qorxmasaydım deyərdium,
Yaradanın özüsən!

***Cəmil Əkbər*** 1. 06 -1980

### 3. DEYƏSİYƏM MƏN

Sözlərim heç kimə gəlməsin acı,
Gəlib-gəlməsə də deyəsiyəm mən.
Baxmasın çəpəki, nə də qiyqacı,
Baxıb-baxmasa da deyəsiyəm mən.

Oqədər başlara söz çatmayıb ki,
Hədəfə vurulub, düz çatmayıb ki,
Qəlbləri isidən köz çatmayıb ki,
Çatıb-çatmasa da deyəsiyəm mən.[14]

Bir fayda verməyib əsər etməyib,
Qalıb yaddaşlarda səmər etməyib,
Ovxara gətirib, kəsər etməyib,
Edib-etməsə də deyəsiyəm mən.

Çoxunun gözləri görsə də kordur,
Eşitmir sözləri eləbil kardır,
Eşidib öyrənmək sanırki ardır,
Karsa da, korsa da deyəsiyəm mən.

Nəqədər desək də, anlamayan var,
Kötəklə özünü yanlamayan var,
Məzəmmət etməyən danlamayan var,
Qanıb-qanmasa da deyəsiyəm mən.

Mənim sözlərimin öz mənası var,
Sehirli aləmi, öz dünyası var,
Məqsədi, mətləbi, öz xülyası var,
Duyub-duymasa da deyəsiyəm mən.

Eşidib bilənlər ucuz tutmasın,
Yaxşıları yamanlara qatmasın.
Qəzəblənib zibilliyə atmasın,
Atıb-atmasa da, deyəsiyəm mən.

---

[14] *II variant* İstərdim sözlərim hamıya çatsın,
İşləsin iliyə, beyinə çatsın,
Yapışıb biləkdən, qollardan tutsun,
Çatıb-çatmasa da deyəsiyəm mən.

Çəkməsin sözümdən heçkimsə qəhər,
Etməsin özünə qüssə-qəm, kədər,
Saymasın əfsanə, saymasın hədər,
Sayıb-saymasa da, deyəsiyəm mən.

Toxunub qəlblərə dəyməsin sözüm,
Vurub qamətini əyməsin sözüm,
Gedib arxalardan söyməsin sözüm,
Dəyib-dəyməsə də, deyəsiyəm mən.

Heçkimsə sözümdən bezməsin əsla,
Əlini-əlimdən üzməsin əsla,
Məndən uzaqlarda gəzməsin əsla,
Bezib-bezməsə də, deyəsiyəm mən.

Oxuyub bilsələr səməri vardır,
Dərk edib anlasa əsəri vardır,
Alsa nəsihəti, nəməri vardır,
Alıb-almasa da, deyəsiyəm mən.

Hamı Vətəninə xidmət eyləsin,
Kəramət gətirib, mürvət eyləsin,
Ar-namus gözləyib, qeyrət eyləsin,
Edib-etməsədə deyəsiyəm mən.

İnsafı-mürvəti atmasın heçkəs,
Aranı-bərəni qatmasın heçkəs,
Gedib min günaha batmasın heçkəs,
Batıb-batmasa da, deyəsiyəm mən.

İnsan bir-birinin hayına gəlsin,
Köməyinə gəlsin, hoyuna gəlsin,
Çörəyinə gəlsin, çayına gəlsin,
Gəlib-gəlməsə də, deyəsiyəm mən.

Hamı öz qəlbinin pasını silsin,
Tüstü, dumanını, hisini silsin,
Kədərini silsin, yasını silsin,
Silib-silməsə də, deyəsiyəm mən.

Hamı zəhmətilə yaşayıb gedə,
Pis adət, vərdişi, boşayıb gedə,
Çəkib öz yükünü daşıyıb gedə,
Gedib-getməsə də, deyəsiyəm mən.[15]

Dedim ki, sözümü hamı anlasın,
Səhvi varsa öz-özünü danlasın,
Kötəkləsin, qırmancalasın, yanlasın,
Qanıb-qanmasa da, deyəsiyəm mən.

Hamı birbirinə qovuşa bilsin,
Xətadan-bəladan sovuşa bilsin,
Qaynayıb-qarışıb yovuşa bilsin,
Bilib-bilməsə də, deyəsiyəm mən.

Hamı birbirinə yoldaş olmalı,
Mehriban, səmimi, qardaş olmalı,
Vətəndaş olmalı, çağdaş olmalı,[16]
Olub-olmasa da, deyəsiyəm mən.[17]

---

[15] *II variant* Hamı öz yoluyla düz gəlib getsin,
Dayanıb-durmasın, tez gəlib getsin,
Qalıb ürəklərdə iz salıb getsin,
Gedib-getməsə də deyəsiyəm mən.

[16] Can-ciyər olmalı, sirdaş olmalı.

[17] *II variant* Hamı birbirinə göz olmalıdır,
İlqara, vəfaya düz olmalıdır,
Qeyrətli oğullar, qız olmalıdır,
Olub-olmasa da, deyəsiyəm mən.

*III variant* Həyatda hərkəsin öz yeri olsun,
Doğru yeri olsun, düz yeri olsun,
Salsın könüllərdə iz yeri olsun,
Olub-olmasa da, deyəsiyəm mən.

*IV variant* Sözlərim heç zaman zəhər olmasın,
Qəm-qüssə gətirib zəhər olmasın,
Mənasız, məzmunsuz hədər olmasın,
Olub-olmasa da, deyəsiyəm mən.

*V variant* Hərkəsin dünyada adı olmalı,
İstisi, alovu, odu olmalı,
Dəhanda-dodaqda, dadı olmalı,
Olub-olmasa da, deyəsiyəm mən.

*VI variant* Dünyada oqədər nadan tapılır,
Təlimdən yarımçıq dadan tapılır,
Yolunu tərsinə adan tapılır,
Olub-olmasa da deyəsiyəm mən.

Dedim ki, sözümün dadı duyula,
İstisi duyula, odu duyula,
Doğması, əzizi, yadı duyula,
Duyub-duymasa da, deyəsiyəm mən.

Hamı öz vaxtında oyanıb dura,
Hünərlə yaşayıb, yaradılb qura,
Dostları, tanışı axtarıb sora,
Durub-durmasa da, deyəsiyəm mən.

Ünsiyyət-ülfəti pozmasın heçkəs,
Doğrunu əyriyə yozmasın heçkəs,
Yolunu, izini azmasın heçkəs,
Azıb-azmasa da, deyəsiyəm mən.

Hamı düz düşünüb, düz fikrə dalsın,
Biri-birisinin qeydinə qalsın,
Tarixi-Nadiri yadına salsın,
Salıb-salmasa da, deyəsiyəm mən.

İstərdim hamını kamala dolsun,
Əqidə, məsləkə amala dolsun,
Mənəvi gözəllik, camala dolsun,
Dolub-dolmasa da, deyəsiyəm mən.

Hamı öz işini vaxtında görə,
Bağ salıb bağından okivar dərə,
Aldığı borcları qaytarıb verə,
Verib-verməsə də, deyəsiyəm mən.

İnsan mürəkkəbdir ay Cəmil Əkbər,
Axıtma gözyaşın sil, Cəmil Əkbər,
Çalış, xidmətinlə gül Cəmil Əkbər,
Gülüb-gülməsə də, deyəsiyəm mən.

***Cəmil Əkbər*** 17. 08 -1992

## 4. NƏ DEDİN QANDI

Dad-hazar əlindən qanızayların,[18]
Nə gördü-götürdü, nə dedin qandı.
Nüvə, hüceyrəsi, genizayların,[19]
Nə gördü-götürdü, nə dedin qandı.

Oturub-duranda xətrinə dəydi,
Artırıb dərdini, qəddini əydi,
Sandıki özünü bəy oğlu-bəydi,
Nə gördü-götürdü, nə dedin qandı.

Bir ömür yaşadı, söz anlamadı,
İşarə eylədin, göz anlamadı,
Mətləbi, mənanı düz anlamadı,
Nə gördü-götürdü, nə dedin qandı.

Böyüyü-kiçiyi heç pəsinmədi,
Tükü ürpəşmədi, heç diksinmədi,
Qorxmadı, ülkmədi, heç səksənmədi,
Nə gördü-götürdü, nə dedin qandı.

Qanqaraldıb əsəbləri korladı,
Onu-bunu bəyənmədi, xorladı,
Od-ocaqsız könülləri qorladı,
Nə gördü-götürdü, nə dedin qandı.

Dad-hazar əlindən əslizayların,
Nəcabəti, kökü, nəslizayların,
Doğulduğu günü, fəslizayların,
Nə gördü-götürdü, nə dedin qandı.

Nə Vətən anladı, nə xalq anladı,
Nə özgəni, nə özünü danladı,
Nə səs saldı, məqamında banladı,
Nə gördü-götürdü, nə dedin qandı.

---

[18] Dad-hazar əlindən kütbeyinlərin,
[19] Süksündən qalının, ət beyinlərin,

Çəkdik əzabını nadan kəslərin,
Təlimdən yarımçıq dadan kəslərin,
Haqq-say sümürüb udan kəslərin,
Nə gördü-götürdü, nə dedin qandı.

Bezmişik əlindən ədəbazların,
Təlxəklik eyləyən hoqqabazların, [20]
Dondan-dona düşən modabazların,
Nə gördü-götürdü, nə dedin qandı.

Sandıki hər şeyin biləndəridi,
Alimi, loğmanı, qələndəridi,
Sərrafı, xərratı, çilingəridi,
Nə gördü-götürdü, nə dedin qandı.

Beləcə ötüşdü illəri, günü,
Qurudu taxılı, üyündü dəni,
Bürüdü dağları dumanı, çəni,
Nə gördü-götürdü, nə dedin qandı.

Göründü, bilindi keyoğlu keydi,
Gicbəsər, dəngəsər, səyoğlu səydi,
Ulğundu, söyüddü, şöyoğlu şöydü, [21]
Nə gördü-götürdü, nə dedin qandı.

Cəmil Əkbər beləsinə nə desin?
Qafasına, kəlləsinə nə desin?
Babasına, nənəsinə nə desin?
Nə gördü-götürdü, nə dedin qandı.[22]

***Cəmil Əkbər*** 26. 09 – 1987

---

[20] Lovğa, yekəxana, hoqqabazların,
[21] Xəsis oğlu xəsis, göy oğlu göydü,
[22] *II variant* Cəmil çəkib beləsinin qəmini,
Ha tökdüsə gözlərinin nəmini,
Dolu olub, yayda döydü zəmini,
Nə gördü-götürdü, nə dedin qandı.

### 5. DEYİLMƏSİN

İstəyim bu olub əzəldən bəri,
Sərraf gözlərinə kor deyilməsin.
İnsanın torpağa qarışsın təri,
Eşidən qulağa kar deyilməsin.

İgidlər dəsinin üzü ağ olsun,
Fikiri, xəyalı, sözü dağ olsun,
Ətiri-kainat cağbacağ olsun,
Güllü-gülüstana xar deyilməsin.

Hünər sahibləri pis bilinməsin,
Bədxah tanınmasın, nəs bilinməsin,
Nə inad, nə höcət  tərs bilinməsin,
Eyləyib dünyanı dar, deyilməsin.

Görənlər, bilənlər qəhərlənməsin,
Çəkib dərd-azarı zəhərlənməsin,
Düşüb haldan-hala təhərlənməsin,
Nə əqrəb, nə iblis, mar deyilməsin.

Ay Cəmil həryanda həqiqət ola,
Yaşaya insanlıq, ləyaqət ola,
Ədəb-ərkan ola, nəzakət ola,
Tərlan balasına sar deyilməsin.

***Cəmil Əkbər*** 11.06-1994

### 6. OLMASIN

Murazım bu olub əzəldən bəri,
Qulaq kar olmasın, göz kor olmasın.
Qarışsın torpağa insanın təri,
Yolaqlar, cığırlar, iz dar olmasın.[23]

İgidəm deyənin üzü ağ olsun,
Fikiri, xəyalı, sözü dağ olsun,
Ətiri-gülüstan cağbacağ olsun,
Utanıb, qızarıb qoy xar olmasın.

[23] Yollar şahrah olsun, iz dar olmasın.

Arxadan danışıb pis deyilməsin,
Bədxah deyilməsin, nəs deyilməsin,
İlqara, imana tərs deyilməsin,
Dünyası başına qoy dar olmasın.

Görəni-biləni zəhərləməsin,
Çəkib dərd-azarı, qəhərlənməsin,
Haldan-hala düşüb təhərlənməsin,
Nə əqrəb, nə iblis, qoy mar olmasın.

Ay Cəmil, hamını şərafətli gör,
Ünsiyyət-ülfətdə sədaqətli gör,
Ədəbli, ərkanlı nəzakətli gör,
Naxələf tanınıb qoy car olmasın.

***Cəmil Əkbər*** 11.06-1994

**7. ƏHSƏN DESİN**

Mənim sözüm sizədir, ay cahillər, nadanlar,
Tərbiyədən kəm-kəsir, ala-yarı dadanlar.
Haqq-sayı unudub, döşürərək udanlar,
Doğru yolu tərk edib, əyri yolla adanlar.
Zəmanəmiz hökm edir, anla deyir, qan deyir,
El-obaya nəzər sal, böyük-kiçik san deyir.
Xətirləri, hörməti, yeri gəlcək an deyir,
Bu ellərin dərdinə çarə qılıb, yan deyir.
Ləyaqətlə otur-dur, mərifəti yada sal!
Quran, kitab oxuyub, şəriəti yada sal!
Sədaqəti unutma, səxavəti yada sal!
İnsafını, mürvəti, kəraməti yada sal!
Gözlə ədəb-ərkanı nəzakəti yada sal!
Bu Vətənə, bu xalqa, məhəbbəti yada sal!
Tək özünü düşünmə, cəmiyyəti yada sal!
Təmiz arzu, istəyi, pak niyyəti yada sal!
Avamlıqdan uzaşıb, cəhalətdən əl götür,
Addımbaşı törənən, qəbahətdən əl götür.
El varına sussama, hərislikdən əl çəkin,
Xainliyə qurşanma, xəbislikdən əl çəkin.
Nanəciblik eyləmə, naqislikdən əl çəkin,

Harda olub yaşasan, hər pislikdən əl çəkin.
El-obadan pəsinin, bəd sözlərdən çəkinin,
Bəd yollardan, cığırdan, bəd izlərdən çəkinin.
Törədilən qal-qovğa, müsibətdən əl çəkin,
İşgəncədən, zülümdən, dəhşətlərdən əl çəkin.
Bu ellərə, obaya, xəyanətdən əl çəkin,
Yersiz-yersiz xəbərdən, bəyanətdən əl çəkin.
Qəsd-qərəzdən, qisasdan, ədavətdən əl çəkin,
Bəsləmə qisas, kini, küdurətdən əl çəkin.
Bu gözəl dünyamıza, çirkinliyi gətirmə!
Heçkimsəyə gərəkdöy, xudbinliyi gətirmə!
Dərdi-qəmi artırıb, bədbinliyi gətirmə!
Ədəbazlıq, lovğalıq, "nikbinliyi" gətirmə!
Bədəməllə, pıs işlə, bu bəşəri bezdirmə!
Salıb eniş-yoxuşa, dağı-daşı gəzdirmə!
Ömürləri-günləri, qəm-qüssədə üzdürmə!
Düçar edib zülmətə, məşəqqətə dözdürmə!
İnsan gəlib dünyaya, gözəl günlər görməyə,
Peyvənd edib bağları, dadlı meyvə dərməyə.
Ədəb ilə, ərkanla oturmağa, durmağa,
Hünər ilə tər töküb yaratmağa, qurmağa.
Azadlığa qovuşub, səadətə çatmağa,
İnsanlığa yol açıb, ləyaqətə çatmağa.
Ünsiyyətdə, ülfətdə ədalətə çatmağa,
Doğruluğa, düzlüyə, həqiqətə çatmağa.
Anla, eşit, bil bunu, ünsiyyəti pozmayın,
Doğru, düzgün fikiri, tərsəməssəb yozmayın.
Yersiz sözdən, əməldən, insanoğlu qocalır,
İçin-için dərd çəkir, inildəyir, sozalır.
Dərdi-qəmin içində gündən-günə pozulur,
Yerbəyerdən sarsıyıb, pillə-pillə azalır.
İnsanoğlu harda var, sənin də qardaşındır,
Sənin də vətəndaşın, mənim də yoldaşımdır.
Sənin də həmdəmimdir, mənim də sirdaşımdır,
Sənin də tay-tuşundur, mənim də çağdaşımdır.
Ölənlər də, qalan da, həm mənimdir, sənindir,
Qönçələrdə açılan, solanlar da sənindir.
Boşalan da sənindir, dolanlar da sənindir,
Fikirlərə, xəyala dalanlar da sənindir.

Əl-ayaqda tapdanan, olanlar da sənindir,
Bulud kimi gözləri, dolanlar da sənindir.
Zəfərlərin təblini çalanlar da sənindir,
Şair olub ilhamı, alanlar da sənindir.
Xəbisliyə qurşanıb, ləyaqətə darılma!
Həsəd çəkib onların, qol-qılçına sarılma!
Cahillikdən əl çəkin, avamlıqdan əl çəkin!
Dərsinizi düz alın, doğru yola düzəlin!
Bu sözlərlə, söhbətlə törpülənin, nəzilin.
Zəhmət çəkib tər töküb, xeyir-şərə yarayın,
El-obaya, bu xalqa, bu bəşərə yarayın.
Görən bilən səndəki, qeyrətə əhsən desin,
Sinəndə cəryan edən, heyrətə əhsən desin.
Çəkdiklərin zəhmətə, xidmətə əhsən desin,
Bu məzmuna, mənaya, hikmətə əhsən desin.

***Cəmil Əkbər*** 9.10 - 1997

## 8. TALEYİN HÖKMÜNƏ, NƏDEMƏK OLAR?

Bir zaman ucalan, bir zaman enir,
Taleyin hökmünə, nədemək olar?
Bir zaman alışan, bir zaman sönür,
Taleyin hökmünə, nədemək olar?

Birisi əllərdə, ayaqda qalır,
Saralıb küncələrdə, bucaqda solur,
Qərq olub fikirə, xəyala dalır,
Taleyin hökmünə, nədemək olar?

Nəqədər gədələr bəyə döndülər,
Alimlər, loğmanlar keyə döndülər,
Hatəmlər, Qulamlar göyə döndülər,
Taleyin hökmünə, nədemək olar?

Yaradan hərəyə bir nemət verib,
Bir məna bəxş edib, bir hikmət verib,
Kimiyə kef verib, məşəqqət verib,
Taleyin hökmünə, nədemək olar?

Hərənin sovqatı, payı bambaşqa,
Süfrəsi, çörəyi, çayı bambaşqa,
Çağdaşı, yoldaşı, tayı bambaşqa,
Taleyin hökmünə, nədemək olar?

Birisi axtarır, birisi tapır,
Əlinə keçəni sümürür, qapır,
Özünə saraylar, qalalar yapır,
Taleyin hökmünə, nədemək olar?

Çoxunun üzünə qapı bağlıdır,
Tapılmır "Malış"ı, hapı bağlıdır,
İşləmir meydanda topu bağlıdır,
Taleyin hökmünə, nədemək olar?

Nəqədər ayaqdan başa çəkildi,
Bozbaşa, kababa, aşa çəkildi,
Qızıla, gümüşə, daşa çəkildi,
Taleyin hökmünə, nədemək olar?

Bəzəndi, düzəndi, zərli göründü,
Fəhm-fərasətli, fərli göründü,
Oğul-qız qazandı, ərli göründü,
Taleyin hökmünə, nədemək olar?

Kimiyə qarğayıb elə bir fələk.
Açıbdır başına hər oyun, kələk,
Toxundu daşlara çox arzu, dilək,
Taleyin hökmünə, nədemək olar?

Kiminin çörəyi həryandan gəlir,
Misirdən, Yəməndən, Muğandan gəlir,
Gün batandan gəlir, doğandan gəlir,
Taleyin hökmünə, nədemək olar?

Kimisi şöhrətə, ada da çatdı,
Qohum, dost-qardaşa, yada da çatdı,
Damağı, dodağı dada da çatdı,
Taleyin hökmünə, nədemək olar?

Çoxları dünyadan bac aldı, getdi,
Zəfərlər çalaraq tac aldı getdi,
Yaşadı, yaratdı qocaldı getdi,
Taleyin hökmünə, nədemək olar?

Heçkəs lovğalanıb, öyünməsin qoy,
Qolunun gücünə güvənməsin qoy,
Baxıb kölgəsinə sevinməsin qoy,
Taleyin hökmünə, nədemək olar?

Çoxları yalançı şöhrətə çatdı,
Taladı, topladı, dövlətə çatdı,
Saxta təriflərə, hörmətə çatdı,
Taleyin hökmünə, nədemək olar?

Kimi gözəl oldu, kimisi çirkin,
Kimi sadə oldu, kimisi xudbin,
Kimi bədbin oldu, kimisi nikbin,
Taleyin hökmünə, nədemək olar?

Kiminin var-halı qəhətdir qıtdır,
Əyninə geydiyi sətindir, çitdir,
Kimisi arifdir, kimisi kütdür,
Taleyin hökmünə, nədemək olar?

Kimi həyalıdır, kimi həyasız,
Kimi qayəlidir, kimi qayəsiz,
Kimi dayəlidir, kimi dayəsiz,
Taleyin hökmünə, nədemək olar?

Kimisi karsızdır, kimi karlıdır,
Kimisi arsızdır, kimi arlıdır,
Kimisi barsızdır, kimi barlıdır,
Taleyin hökmünə, nədemək olar?

Kimi ağıllıdır, kimi də dəli,
Kimi qarışqadır, kimi də zəli,
Kimisi nökərdir, kimi də vali,
Taleyin hökmünə, nədemək olar?

Çoxları sevindi, çoxları küsdü,
Sinirə bilmədi, yediyin qusdu,
Gör kimlər-kimləri məhbəsə basdı?
Taleyin hökmünə, nədemək olar?

Kimini məhv etdi işgəncə, zülüm,
Apardı məzara vədəsiz ölüm,
Söz tapmır nə desin, danışsın dilim?
Taleyin hökmünə, nədemək olar?

Kimiyə bu dünya nəşədir, kefdir.
Havayı gəlirdir, qazancdır, nəfdir,
Kimiyə zurnadır, qavaldır, dəfdir,
Taleyin hökmünə, nədemək olar?

Kimiyə bu dünya üksüyə döndü,
Köhnəlmiş, cırılmış əskiyə döndü,
Tükəndi nəğdisi, nisyəyə döndü,
Taleyin hökmünə, nədemək olar?

Kimi həsrət qaldı bir içim suya,
Ömür-gün keçirdi, yaşadı guya,
Eləbil başına hərləndi dünya,
Taleyin hökmünə, nədemək olar?

Kimi kef eylədi, kimi qəm yedi,
Kimi çaldı-çapdı, kimi kəm yedi,
Kiminin gözləri müdam nəm yedi,
Taleyin hökmünə, nədemək olar?

Kimi dəymiş yedi, kimi kal yedi,
Kimi zülal çəkdi, kimi bal yedi,
Kimi hörrə içdi, kimi yal yedi,
Taleyin hökmünə, nədemək olar?

Heçkimsə dünyada ədalanmasın,
Özünü dartaraq sədalanmasın,
Ayıbdır ellərdən gədalanmasın,
Taleyin hökmünə, nədemək olar?

Bu dünya belədir əzəl günündən,
Gəlhagəl günündən, xəzəl günündən,
Heç doyan olmadı gözəl günündən,
Taleyin hökmünə, nədemək olar?

Çoxları gül kimi saraldı getdi,
Dünyası başına dar oldu getdi,
Günəş də gözündə qaraldı getdi,
Taleyin hökmünə, nədemək olar?

Çoxları bilmədi dayı nə imiş,
Sovqatı nə imiş, payı nə imiş,
Çörəyi nə imiş, çayı nə imiş,
Taleyin hökmünə, nədemək olar?

Kimi ağa oldu, kimisi kölə,
Kimi sətin oldu, kimisi pilə,
Kimi elə oldu, kimisi belə,
Taleyin hökmünə, nədemək olar?

Kimi də yaşadı qaralı-ağlı,
Ocağı qaralmış, qapısı bağlı,
Qəm-qüssə içində sinəsi dağlı,
Taleyin hökmünə, nədemək olar?

Dünyadan çoxları bezdi də getdi,
Səbr edib, tablaşıb, dözdü də getdi,
Əlini həryandan üzdü də getdi,
Taleyin hökmünə, nədemək olar?

Nəqədər insanın yeri səhv düşdü,
Zəhməti, xidməti, təri səhv düşdü,
Arvadı səhv düşdü, əri səhv düşdü,
Taleyin hökmünə, nədemək olar?

Kimi tirmə geydi, kimi şal geydi,
Zərxara büründü, kimi al geydi,
Kimi çəkmə geydi, kimi nal geydi,
Taleyin hökmünə, nədemək olar?

Kimi kişmiş yedi, xurma döşürdü,
Kimi hədik yedi, yarma döşürdü,
Kimi də bilmədi heç nə bişirdi?
Taleyin hökmünə, nədemək olar?

Çoxları həyatda yarıdı getdi,
İşi düz gətirdi, sarıdı getdi,
Çoxu da inlədi, zarıdı getdi,
Taleyin hökmünə, nədemək olar?

Cəmil Əkbər hər yetənə darılma,
Dərd-qəm çəkib, gəl içindən qırılma,
Çoxlarına həsəd çəkib vurulma,
Taleyin hökmünə, nədemək olar?

***Cəmil Əkbər*** 1-5. 02 – 1993

**9. DESƏLƏR**

Desələlər dünyada pis adam kimdir?
Deyərdimki nanıkordur, nanıkor.
Bədxahlıq eyləyən, nəs adam kimdir?[24]
Deyərdimki ziyankardır, ziyankar.

Desələlər görəsən beləsi kimdir?
Dədəsi, babası, ləsi kimdir?
Əcəlsiz-macalsız öləsi kimdir?
Deyərdimki qəsbikardır, qəsbikar.

Desələlər aranı qatan kim oldu?
Vicdanı-məsləki satan kim oldu?
İnsafı-mürvəti atan kim oldu?
Deyərdimki fitnəkardır, fitnəkar.

Desələlər ülfəti pozan kimdiki?
Yolunu-izini azan kimdiki?
Ayaqlar altından qazan kimdiki?
Deyərdimki sitəmkardır, sitəmkar.

[24] Bədxahları kimdir, nəs adam kimdir?

Desələlər dağıdan, talayan kimdir?
Qanları torpağa calayan kimdir?
Xalqı barmağına dolayan kimdir?
Deyərdimki üsyankardır, üsyankar.

Desələlər dünyanın karsızı kimdir?
Söyüdtək, ulğuntək barsızı kimdir?
İsmətsizi kimdir, arsızı kimdir?
Deyərdimki səhlənkardır, səhlənkar.[25]

Desələlər bəşərin kimdir canisi?
Fitnənin, fəsadın ulu dahisi?[26]
Kimdi müqəssiri, kimdi baisi?
Deyərdimki günahkardır, günahkar.

Desələlər dünyanı kim qarışdırır?
Ağı-qarasına kim bulaşdırır?
Kələfi, yumağı kim dolaşdırır?
Deyərdimki müftəxordur, müftəxor.

Desələlər dünyanın naqisi kimdir?
Paxılı, xaini, xəbisi kimdir?
Naxələf övladdan varisi kimdir?
Deyərdimki tamahkardır, tamahkar. [27]

Desələlər dünyada bezdirən kimdir?
Əzab-əziyyətə dözdürən kimdir?
Dağları-daşları gəzdirən kimdir?
Deyərdimki zülümkardır, zülümkar.[28]

***Cəmil Əkbər*** 29. 01 - 1994

---

[25] *II variant* Desələlər ad-sanda şöhrətsiz kimdir?
Vicdansız, məsləksiz, qeyrətsiz kimdir?
Hünərsiz, təpərsiz, şərəfsiz kimdir?
Deyərdimki səhlənkardır, səhlənkar.

[26] Kimdi şər işlərin ulu dahisi?

[27] *II variant* Desələlər dünyanın hərisi kimdir?
Nanəcibi kimdir, naqisi kimdir?
Naxələf övladı, varisi kimdir?
Deyərdimki tamahkardır, tamahkar.

[28] *II variant* Desələlər bəşəri ağladan kimdir?
Qapılar-bacalar bağladan kimdir?
Çəkib sinələri dağladan kimdir?
Deyərdimki zülümkardır, zülümkar.

## 10. YAZ DEYİR!

*I variant*

Deməyə nəqədər sözüm var mənim?
Beynim düşün deyir, əlim yaz deyir!
Hələ salınası izim var mənim,
Obam düşün deyir, elim yaz deyir!

İlham pərim qubarlanıb qalanda,
Fikirlərə, xəyallara dalanda,
Qəm sazını həzin-həzin çalanda,
Bəmim düşün deyir, zilim yaz deyir!

Ünsiyyətdə cəhaləti gördükcə,[29]
Addımbaşı qəbahəti gördükcə,
Qəsd-qərəzi, xəyanəti gördükcə,[30]
Ürək düşün deyir, dilim yaz deyir!

Seyrinə çıxdıqca öz diyarımın,
Şamaxı, Şəkimin, ya Şirvanımın.
Qazax, Gəncəbasar, ol Muğanımın,
Bakım düşün deyir, Milim yaz deyir!

Şamama bəslənən tağlar eşqinə,
Səfalı yaylaqlar, dağlar eşqinə,
Barlı-bərəkətli, bağlar eşqinə,
Bülbül düşün deyir, gülüm yaz deyir!

İstərəm sözlərim eldə oxunsun,
Dəhanda bəslənsin, dildə oxunsun.
Aylarda, günlərdə, ildə oxunsun,
Kaman düşün deyir, telim yaz deyir!

Zimistan yerini yaza verəndə,
Söhbətə verəndə, sözə verəndə,
Aşiqi-məşuqa, saza verəndə,
Dağlar düşün deyir, çölüm yaz deyir!

---

[29] Bu dünyada cəhaləti gördükcə.
[30] Xainliyi xəyanəti gördükcə.

Fürsət fota, vaxt hədərə gedəndə,
Ömür-günlər əbəs yerə itəndə,
O uğursuz bir səfərlə bitəndə,
Ayım düşün deyir, ilim yaz deyir!

Aldanıb sığınma yağlı sözlərə!
Qatı açılmamış zağlı sözlərə!
Boxçası düyünlü, bağlı sözlərə!
Külüng düşün deyir, belim yaz deyir!

İstərəm Vətəndə sərvət bol olsun,
Yeməyə, içməyə nemət bol olsun,
Qollarda, dizlərdə qüvvət bol olsun,[31]
Xırman düşün deyir, vəlim yaz deyir!

Qaynar təbim vəcdə gəlib daşanda,
Məcrasına sığışmayıb aşanda,
Cəmil Əkbər yanılanda çaşanda,
Sərraf düşün deyir, ləlim yaz deyir!

***Cəmil Əkbər*** 25. 06 – 1994

## 11. YAZ DEYİR!

*II variant*

Ürəkdə nəqədər sözüm var mənim?
Vətən düşün deyir, elim yaz deyir!
Hələ salınmamış izim var mənim,
Bülbül düşün deyir, gülüm yaz deyir!

İlham pərim gör necə də çağlayır?
Sinəsini od-ocaqsız dağlayır?
Loğman olub yaraları bağlayır?
Beynim düşün deyir, dilim yaz deyir!

---

[31] Dizlərdə, qollarda qüvvət bol olsun.

Sözdən bostanım var, tağım var mənim,
Barlı-bərəkətli bağım var mənim,
Çiçəkli-çəmənli, dağım var mənim,
Muğan düşün deyir, Milim yaz deyir!

İstərəm sözlərim eldə oxunsun,
Kamanda səs salsın, teldə oxunsun,[32]
Dəhanda bəslənsin, dildə oxunsun,
Dəftər düşün deyir, qələm yaz deyir!

Bahar fəsli gül-çiçəkli gələndə,
Qarabulud gözyaşını siləndə,
Təbiətin qaşqabağı güləndə,
Çəmən düşün deyir, çölüm yaz deyir!

Dövrü-zaman vaxt hədərə gedəndə,
Ürək dolub, qəm-kədərə gedəndə,
O uğursuz bir səfərə gedəndə,
Ayım düşün deyir, ilim yaz deyir!

Eşidib duyduqca yağlı sözləri,
Qatı açılmamış zağlı sözləri,
Qapısı-bacası bağlı sözləri,
Külüng düşün deyir, belim yaz deyir![33]

Zəmanə bəd gəlir neyləsin insan?
Çoxunu mat qoyub gərdişi-dövran,
Bir yorğun qəvvasam, xəyalım ümman,
Sonam düşün deyir, gölüm yaz deyir!

Ay Cəmil, Vətəndə tər tökməliyik,[34]
İnci səpməliyik, zər tökməliyik,
Bərəkət gətirib dürr tökməliyik,[35]
Kotan düşün deyir, kəlim yaz deyir!

***Cəmil Əkbər*** 24. 06 – 1994

[32] Köklənsin kamanda, teldə oxunsun,
[33] Külüngüm susmayır, belim yaz deyir!
[34] Vətən torpağına tər tökməliyik.
[35] Qatı açılmamış sirr tökməliyik.

## 12. YAZ DEYİR!

*III variant*

Qəlbimdə oqədər sözüm var mənim,
Vətən düşün deyir, elim yaz deyir!
Hələ salınmamış izim var mənim,
Çəmən düşün deyir, çölüm yaz deyir!

İlham pərim gör necədə çağlayır?
Sinəsini od-ocaqsız dağlayır?
Cəhalətə, avamlığa ağlayır?
Beynim düşün deyir, dilim yaz deyir!

Hələ dərilməmiş tağım var mənim,
Barlı-bərəkətli bağım var mənim,
Füsunkar yaylağım, dağım var mənim,
Muğan düşün deyir, Milim yaz deyir!

Bahar fəsli gül-çiçəklər gəldikcə,
Qarabulud gözyaşını sildikcə,
Təbiətin qaşqabağı güldükcə,
Bülbül düşün deyir, gülüm yaz deyir!

Dövrü-zaman, vaxt hədərə gedəndə,
Ürək dolub qəm-kədərə gedəndə,
O uğursuz bir səfərə gedəndə,
Hər gün düşün deyir, ilim yaz deyir!

Qaynar təbim vəcdə gəlib daşanda,
Hüdudunu, məcrasını aşanda,
Xəyal pərim qanadını açanda,
Sərraf düşün deyir, ləlim yaz deyir!

Vətən övladları çörəkli olsun,
Hünərlər göstərsin, gərəkli olsun,
Fərəhlə döyünən ürəkli olsun,
Dəryaz düşün deyir, vəlim yaz deyir!

Eləki qəsd edir insan-insana,
Meydanı verirlər şərə, böhtana,
Deyən yox bir dayan, lənət şeytana,
Dəryam düşün deyir, gölüm yaz deyir.

Yaşayıb, yaradıb qurmaq istərəm,
Sülhün keşiyində durmaq istərəm,
Özümü bu yolda yormaq istərəm,
Qolum düşün deyir, əlim yaz deyir!

Ay Cəmil, Vətəndə tər tökməliyik,
İnci səpməliyik, zər tökməliyik,
Qatı açılmamış sirr tökməliyik,
Kotan düşün deyir, kəlim yaz deyir!

***Cəmil Əkbər*** 24.06 – 1994

**13. YAZ DEYİR!**

*IV variant*

Ləyaqət əhlini bezdirmək olmaz,
Kitab düşün deyir, qələm yaz deyir!
Əzab-əziyyətə dözdürmək olmaz,
Bəşər düşün deyir, aləm yaz deyir!

Sözün sərrafına sus demək olmaz!
Qısa et fikrini, kəs demək olmaz!
Nəqədər danışsa, bəs demək olmaz!
Kamal düşün deyir, dilim yaz deyir!

Mərd igid insana pis demək olmaz!
Bədxah demək olmaz, nəs demək olmaz!
Qızıla, gümüşə mis demək olmaz!
Sərraf düşün deyir, ləlim yaz deyir!

Hünər sahibini irəli çəkin,
Şumlayıb yerini, toxumu səpin,
Becərin, vaxtında sulayın, əkin,
Xışım düşün deyir, belim yaz deyir!

İşlədin kamalı, işlədin səri,
Torpağa vaxtında yağdırın təri,
Hünər meydanından qalmayın geri,
Xirman düşün deyir, vəlim yaz deyir!

İtirmə əqlini, yumma gözünü,
Danışanda sərrast denən sözünü,
Bir namərdə qurban vermə yüzünü,
Nitqim düşün deyir, dilim yaz deyir!

Dolanma sərsəri, gəzmə avarə,
Aldanma zəhmətsiz, xidmətsiz vara,
Yorulma, usanma hey axtar, ara,
Ayaq düşün deyir, əlim yaz deyir!

İnsan bu dünyada boş dura bilməz,
Vicdanı, məsləki daş dura bilməz,
Fikiri-xəyalı çaş dura bilməz,
Dövran düşün deyir, zülüm yaz deyir!

***Cəmil Əkbər*** 25. 06 -1994

## 14. YAZ DEYİR!

*V variant*

Ləyaqət önündə səcdə qılıram,
Ürəyim hökm edir, dilim yaz deyir!
İlhama, həvəsə, vəcdə gəlirəm,
Çəmənim, çiçəyim, çölüm yaz deyir!

İnsanlarda səxavəti gördükcə,
Xoş güzəran, səadəti gördükcə,[36]
Sağlam fikir, pak niyyəti gördükcə, [37]
Aylarım, günlərim, ilim yaz deyir!

Kamal sahibini başda görəndə,
Vəzifə üstündə işdə görəndə,
Zirvəyə qonanda, döşdə görəndə,
Muğanım, Şirvanım, Milim yaz deyir!

Xəyalım məcraya sığmayır, daşır,
Gözəllik eşqilə min nəğmə qoşur, [38]
Eşqim, məhəbbətim çağlayır, coşur,
Ümmanım, dənizim, gölüm yaz deyir!

---

[36] Xoş güzəran, xoş adəti gördükcə,
[37] Ülvi istək, pak niyyəti gördükcə,
[38] Gözəllik eşqilə həddini aşır.

Ləyaqət sahibi ucalan zaman,
Ellərdən, obadan güc alan zaman,
Zəfər dünyasından bac alan zaman,
Könül rübabımda zilim yaz deyir![39]

Elimdə, obamda gül açılanda,
Mixəklər, darçınlar, hil açılanda,
Bahar mövsümündə sel açılanda,[40]
Bülbül vəcdə gəlir, gülüm yaz deyir!

Sevincdən, fərəhdən çağlayıram mən,
Xəbis ürəkləri dağlayıram mən,
Nadanlar gördükcə ağlayıram mən,[41]
Çayım tüğyan edir, selim yaz deyir!

Cahillər gördükcə hiddətim artır,
Qəzəbim kükrəyir, nifrətim artır,
Qəm-kədər bürüyür, hillətim artır, [42]
Tufanım kirimir, yelim yaz deyir![43]

Ünsiyyətdə qəbahəti gördükcə,
Ürəklərdə xəyanəti gördükcə,
Qəsd-qərəzi, ədavəti gördükcə,[44]
Obam fərman verir, elim yaz deyir!

İstərdimki beləələri danlansın,
Kötəklənsin, qırmanclansın, yanlansın,
Səmtə düşüb, işlərimiz canlansın,
Külüngüm hökm edir, belim yaz deyir![45]

---

[39] *II variant* Xidmət sahibini uca görəndə,
Hamıdan ağsaqqal, qoca görəndə,
Bəzirgan görəndə, xoca görəndə,
Könül rübabımda zilim yaz deyir!

[40] İncilər, sədəflər, ləl açılanda.

[41] Acıyıb halına ağlayıram mən.

[42] Qəm-kədər çoxalır, hillətim artır.

[43] Tufanım kəsməyir, yelim yaz deyir!

[44] Avamlığı, cəhaləti gördükcə.

[45] *II variant* İstərdim ki, beləsini danlayım,
Kötəkləyim, qırmanclayım, yanlayım,
Yola qoyub, işləri səhmanlayım,
Külüngüm hökm edir, belim yaz deyir!

Yaşayıb, yaradıb, qurmaq istərəm,
Şərəflə oturub, durmaq istərəm,
Özümü bu yolda yormaq istərəm,
Qollarım, biləyim, əlim yaz deyir!

Vətən övladları çörəkli olsun,[46]
Dar gündə hərbiri gərəkli olsun,[47]
Fərəhlə döyünən ürəkli olsun,
Dəryazım, xırmanım, vəlim yaz deyir!

Eləki qəsd edir insan-insana,
Meydanı verirlər şərə-böhtana,
Deyən yox, bir dayan, lənət şeytana,[48]
Dəftərim dayanmır, qələm yaz deyir!

***Cəmil Əkbər*** 15. 09 – 1996

## 15. DEMƏYİRSƏN

Hayanda qalmısan ay ilham pərim?
Haçandı bir kəlmə söz deməyirsən?
Dolanım başına ay sədd afərin!
Kəsilib qərarım, döz deməyirsən.

Könül rübabımı çalmırsan nədən?
Çalxanıb dəryatək dolmursan nədən?
Düşüb xəyallara dalmırsan nədən?
Seyredib elləri gəz deməyirsən.

Ey şahin qanadım sönmə, yorulma!
Pərvaz et səmada enmə, qırılma!
Tutduğun yolundan dönmə, burulma!
Qəvvas ol ümmanda üz deməyirsən.

Girmirsən dərinə üzə çəkirsən,
Günahı gah qola, dizə çəkirsən,
Eynəklə oxuyan gözə çəkirsən,
Dərin sal könüldə iz, deməyirsən.

[46] İstərdim xalqımız çörəkli olsun.
[47] Onun hər övladı gərəkli olsun.
[48] Deyən yox, dayanın, lənət şeytana.

Fikirdə, xəyalda dala qalırsan,
Qovğaya düşürsən, qala qalırsan,
Dəymişi dadmırsan, kala qalırsan,
Göstərib yolumu düz deməyirsən.

Ey Cəmil, qulaq as, dinlə elləri,
Dinlə bülbülləri, dinlə gülləri,
Dinlə dodaqları, dinlə dilləri,
Xalqına çatası söz deməyirsən.

***Cəmil Əkbər*** 20. 09 - 1986

**16. DEMİRSƏN**

De niyə susmusan ay ilham pərim?
İnsanlıqdan, ləyaqətdən demirsən.
Haçandan bəridir yoxdur xəbərim?
Xeyirxahlıq, fəzilətdən demirsən.[49]

Saxta bər-bəzəklər, yalan çoxalıb,
Boğazdan yuxarı çalan çoxalıb,
Dağılan, sökülən, talan çoxalıb,
Ədalətdən, həqiqətdən demirsən.

Nəyaman dərd çəkib kədərlənirsən?[50]
Qəm-qüssə yeyirsən, qəhərlənirsən?[51]
Haldan-hala düşüb təhərlənirsən?
Ədəb-ərkan, mərifətdən demirsən.

Nədir ürəkləri ağrıdan bu dərd?[52]
Yoxsa saxta çıxıb ən yaxın həmdərd?[53]
Azalıb mərd igid, çoxalıb namərd,
Saf arzudan, pak niyyətdən demirsən.

---

[49] *II variant* Nəyaman susmusan ay ilham pərim?
Ədalətdən, həqiqətdən demirsən.
Kəsilib nəyaman səsin, səmirin,
İnsanlıqdan, ləyaqətdən demirsən.

[50] Baxıb zəmanəyə kədərlənirsən.

[51] 1) Qəm-qüssə çəkirsən, qəhərlənirsən. 2) Dərd-kədər çəkirsən, qəhərlənirsən.

[52] Qəlbini ağrıdan nədir de, bu dərd?

[53] Axtarıb tapmırsan yoxsa ki, həmdərd?

İlqara-imana dönüklər artıb,
Hər səmtə üz tutan yönüklər artıb,
Elin sərvətinə əniklər artıb,[54]
Sədaqətdən, səxavətdən demirsən.

Bezdirib bəşəri nadan, gədələr,
Təlimdən yarımçıq dadan gədələr,
Haqq-say sümürüb udan gədələr,
Şan-şöhrətdən, şərafətdən demirsən.[55]

Nanəcib, nadürüst, naqis çoxalıb,
Dadamal, acgözlər, həris çoxalıb,
Naxələf övladdan varis çoxalıb,
Ehtiramdan, nəzakətdən demirsən.[56]

Hamı yön alıbdır tamaha sarı,
Atını çapırır günaha sarı,[57]
Baxan yoxdur nurlu sabaha sarı,
Bacarıqdan, məharətdən demirsən.

Hiyləgər, dələduz, yaltaq çoxalıb,
Abırsız, həyasız, sırtıq çoxalıb,
İnsan cərgəsində artıq çoxalıb,
Fərasətdən, cəsarətdən demirsən.

Yadına salmırsan ötən günləri,
Sulanıb, bəslənən bitən günləri,
Arzuya, mətləbə yetən günləri,
Məna dolu bu hikmətdən demirsən.[58]

---

[54] Dadamal çoxalıb, əniklər artıb,

[55] *II variant* Həryana baxırsan nadandı qardaş,
Yolunu tərsinə adandı qardaş,
Təlimdən yarımçıq dadandı qardaş,
Şan-şöhrətdən, şərafətdən demirsən.

[56] *II variant* Nanəcib, naxələf, naqis çoxalıb,
Paxıllar, xainlər, xəbis çoxalıb,
Nadürüst övladdan varis çoxalıb,
Ehtiramdan, nəzakətdən demirsən.

[57] Xətaya, bəlaya, günahasarı.

[58] Bir yada salmırsan ötən günləri.

Yoxsa azalıbdır daha bu səylər,
Kəsilib, qalmayıb daha bu şöylər,
Bəsləyib bar vermir daha meynələr,
Ülvi-istək, məhəbbətdən demirsən.[59]

Ay Cəmil, zəmanə dönüb nəyaman?
Məhəbbət ocağı sönüb nəyaman?
Könüllər mülkündə qalmayıb güman,
Əbədiyyət, nihayətdən demirsən.[60]

***Cəmil Əkbər*** 19.07-1994

## 17. NECƏ DANIŞMAYIM, NECƏ DİNMƏYİM?

*I variant*

Gödənlər dağıdıb, yırtanlar artıb,
Necə danışmayım, necə dinməyim?
Özünü çəkənlər, dartanlar artıb, [61]
Necə danışmayım, necə dinməyim?

Yolunu, izini azan oqədər,
Ünsiyyət-ülfəti pozan oqədər,
Ayaqlar altını qazan oqədər,
Necə danışmayım, necə dinməyim?

Ədalət, həqiqət tapdanıb gedir,
İnsanlıq, ləyaqət tapdanıb gedir,
Sədaqət, səxavət tapdanıb gedir,
Necə danışmayım, necə dinməyim?

---

[59] *II variant* Yoxsa tapılmayır daha bu şeylər,
Alınıb satılır baha bu şeylər,
Ərsəyə gəlməyir daha bu keylər,
Ülvi-istək, məhəbbətdən demirsən.

[60] *II variant* Ay Cəmil, nəyaman hiddətin artıb?
Təpərin çoxalıb, riqqətin artıb?
Gileyin, güzarın, qeybətin artıb?
Əbədiyyət, nihayətdən demirsən.

[61] Elləri soyaraq artanlar artıb.

Həyasızlıq, ağ eyləyən çoxalıb,
Dühalara lağ eyləyən çoxalıb,
Təpələri dağ eyləyən çoxalıb,
Necə danışmayım, necə dinməyim?[62]

Toxunub qəlblərə dəyənlər artıb,
Vurub qamətləri əyənlər artıb,
Ah-nalə çoxalıb, dadanlar artıb,
Necə danışmayım, necə dinməyim?

Cahil yaman artıb, nadan çoxdu, çox!
Sümürüb haqq-say udan çoxdu, çox!
Təlimdən yarımçıq dadan çoxdu, çox!
Necə danışmayım, necə dinməyim?

İlqara-imana dönüklər artıb,
Hər səmtə üz tutan yönüklər artıb,
Dadamal, qudurğan, əniklər artıb,
Necə danışmayım, necə dinməyim?

Nə eli sayan var, nə pəsinən var,
Nə qorxan, nə ülkən, nə səksənən var,
Çəkinən, qısqanan, nə diksinən var,
Necə danışmayım, necə dinməyim?

Nə abır, nə ismət, həya görünmür,
Təlimi düz verən dayə görünmür,
Halaldan kəsb olan mayə görünmür,
Necə danışmayım, necə dinməyim?

Oğulsan gəl yaşa bu məmləkətdə,
Beylə ünsiyyətdə, beylə ülfətdə,
Beylə arzularda, beylə niyyətdə,
Necə danışmayım, necə dinməyim?

---

[62] *II variant* Qaralara ağ deyənlər çoxalıb,
Yaxşılara lağ deyənlər çoxalıb,
1) Təpələrə dağ deyənlər çoxalıb, 2) Kol-koslara bağ deyənlər çoxalıb.
Necə danışmayım, necə dinməyim?

Hərə bir diyarda naqqallıq edir,
Açıbdı bazarı baqqallıq edir,
Soxulub kollara çaqqallıq edir,
Necə danışmayım, necə dinməyim?

Xainlər, paxıllar xəbis çoxalıb,
Tamahkar, acgözlər, həris çoxalıb,
Naxələf övladdan varis çoxalıb,
Necə danışmayım, necə dinməyim?

Nəqədər haqq batıb, həqiqət batıb?
İnsanlıq məhv olur, ləyaqət batıb?
Bacarıq, fərasət, məharət batıb?
Necə danışmayım, necə dinməyim?[63]

Kəsməyir qal-qovğa, kəsməyir dava,
Zəhərə qarışır, tərtəmiz hava,
Haqq yola düzəlmir sərsəri, yava,[64]
Necə danışmayım, necə dinməyim?

Salıbdır bəşəri dara gədələr,
Sussayıb dövlətə, vara gədələr,
Eyləyib gününü qara gədələr,[65]
Necə danışmayım, necə dinməyim?

Dindirirlər, dillənirəm neyləyim?
Yağdırırlar, sellənirəm neyləyim?[66]
Qəzəbimdən göllənirəm neyləyim?[67]
Necə danışmayım, necə dinməyim?

---

[63] *II variant* Nəqədər haq batır, həqiqət batır?
İnsanlıq məhv olub, ləyaqət batır,
Bacarıq, fərasət, məharət batır,
Necə danışmayım, necə dinməyim?

[64] 1) Azalmır sərsəri, kəmağıl, yava. 2) Ara qarışdırır sərsəri, yava.
[65] 1) Qovğaya, qadaya, zara gədələr, 2) Tapmayır dərdlərə çara gədələr,
[66] Aşıb daşıb sellənirəm neyləyim?
[67] 1) Daşırırlar, göllənirəm neyləyim? 2) Uçururlar, hellənirəm, neyləyim?

Qiymət verilməyir söz dühasına,
Fəhmin-fərasətin öz dühasına,
Oğul dühasına, qız dühasına,
Necə danışmayım, necə dinməyim?

Heçkəs sözlərimə baxmasın acı,
Yanpörtü, çəpəki, nə də qiyqacı,
Budur hər dərdlərin olsa ilacı?
Necə danışmayım, necə dinməyim?

Əlac danışmağa, deməyə qalıb,
Qayğıya, yardıma, köməyə qalıb,
Zəhmətə, xidmətə, əməyə qalıb,
Necə danışmayım, necə dinməyim?

Vicdanım hökm edir, mənə yaz deyir,
Nə yazıb yaratdın, hələ az deyir,
Çətinə sinə gər, yaşa, döz deyir,
Necə danışmayım, necə dinməyim?

Fikirim, xəyalım dağda dolanır,
Qonub butaqlara, bağda dolanır,
Gözəl dövranlarda, çağda dolanır,
Necə danışmayım, necə dinməyim?

İstərdim ülfətdə məlahət olsun,
Zəriflik, nəciblik, lətafət olsun,
Mehri-ülfət olsun, hərarət olsun,
Necə danışmayım, necə dinməyim?

Qəlbimə nəqədər pedələr dəyir,
Zərbələr toxunur, hədələr dəyir,
Təlim-tərbiyəsiz gədələr dəyir,
Necə danışmayım, necə dinməyim?

Həyatda çoxları yerini bilmir,
Xeyrini anlamır, şərini bilmir,
Dayazda dolanır, dərini bilmir,
Necə danışmayım, necə dinməyim?

Dərin yerindədöy, üz yerindədöy,
Əyri yerindədöy, düz yerindədöy,
Oğul yerindədöy, qız yerindədöy,
Necə danışmayım, necə dinməyim?

Məni dilləndirən elin dərdidir,
Xəzana qərq olan gülün dərdidir,
Danışmaq bilməyən dilin dərdidir,
Necə danışmayım, necə dinməyim?

Hökm edir həryanda cəhalət neylim?
Hər addımbaşında qəbahət neylim?
Gözləyir bəşəri fəlakət neylim?
Necə danışmayım, necə dinməyim?

Xeyirxaha pis deyənlər çoxalıb,
Bədxah deyən, nəs deyənlər çoxalıb,
“Haqq sözünü kəs!”- deyənlər çoxalıb,
Necə danışmayım, necə dinməyim?

Abırsızlar, həyasızlar çoxalıb,
Tərbiyəsiz, dayəsizlər çoxalıb,
Əqidəsiz, qayəsizlər çoxalıb,
Necə danışmayım, necə dinməyim?

Birisi qazanır, birisi yeyir,
Birisi düzəldir, birisi əyir,
Birisi soyulur, birisi soyur,
Necə danışmayım, necə dinməyim?

Əziləni, əzənləri gördükcə, .
Öz canından bezənləri gördükcə,[68]
Hər əzaba dözənləri gördükcə, [69]
Necə danışmayım, necə dinməyim?

[68] İnciyəni, bezənləri gördükcə.
[69] Müsibətə dözənləri gördükcə.

Həyasızı, sırtıqları görəndə,
Cəmiyyətdə artıqları görəndə,[70]
El malına ortaqları görəndə, [71]
Necə danışmayım, necə dinməyim?

Yerli-yersiz davaları görərkən,
Zəhərlənmiş havaları görərkən,
Əqli-kəmi, yavaları görərkən, [72]
Necə danışmayım, necə dinməyim?

Ədaləti, həqiqəti danırlar,
Ədəb-ərkan, nəzakəti danırlar,[73]
Xeyirxahlıq, fəziləti danırlar,[74]
Necə danışmayım, necə dinməyim?

Yaradan görməyə göz verib bizə,
Doğru danışmağa söz verib bizə,[75]
İdrakı, kamalı düz verib bizə,[76]
Necə danışmayım, necə dinməyim?

Deməklə sözə də baxan tapılmır,
Döşünə bir medal taxan tapılmır,
Qarşına xoş üzlə çıxan tapılmır,
Necə danışmayım, necə dinməyim?

Haqsızlıq əlində mat qalıb bəşər,
Haçandır vuruşur xeyr ilə şər,[77]
Nə yazım, deyimki olsun müxtəsər?[78]
Necə danışmayım, necə dinməyim?

---

[70] Sıramızda artıqları gördükcə.
[71] El varına ortaqları gördükcə.
[72] Sərsərini, yavaları gördükcə.
[73] İnsanlığı, ləyaqəti danırlar.
[74] Saf arzunu, pak niyyəti danırlar.
[75] 1) Deməyə yazmağa söz verib bizə, 2) Deyib danışmağa söz verib bizə. 3) Abırlı, ismətli üz verib bizə,
[76] 1) Məsləki, amalı düz verib bizə. 2) Haqqı-ədaləti düz verib bizə. 3) Doğru yol-ərkanı düz verib bizə. 4) Getməyə yol-ərkan, düz verib bizə.
[77] Vuruşur, didişir xeyr ilə şər,
[78] Dağıdır, talayır müdam sərbəsər,

Qiymət verilməyir söz sərrafına,
Fəhm-fərasətin öz sərrafına,
Doğru sərrafına, düz sərrafına,
Necə danışmayım, necə dinməyim?

Nə yerə, nə göyə sığmır ədalar,
Dəng edibdir qulaqları sədalar,
Kəsilməyir dava-dalaş, qadalar,
Necə danışmayım, necə dinməyim?

Hərə bir tərəfdə talayıb gedir,
Qanları yerlərə calayıb gedir,
Məzlumu sarıyıb, dolayıb gedir,
Necə danışmayım, necə dinməyim?

Nəqədər deyilib, əsər etməyib,
Bir fayda yetirib, səmər etməyib,
Ovxara gətirib kəsər etməyib,
Necə danışmayım, necə dinməyim?[79]

Düşübdü qiymətdən söz kəsərindən,
Mənası, mətləbi düz kəsərindən,
Çıxıb yolağından iz kəsərindən,
Necə danışmayım, necə dinməyim?[80]

Görürəm əyrilər düzə qəsd edir,
Su tökür ocağa, közə qəsd edir,[81]
Yolağa, cığıra, izə qəsd edir,[82]
Necə danışmayım, necə dinməyim?

---

[79] *II variant* Danışıb desən də əsər eyləmir,
Bir fayda gətirmir, səmər eyləmir,
Ovxara yetirib, kəsər eyləmir,
Necə danışmayım, necə dinməyim?

[80] *II variant* Düşübdür nəqədər söz qiymətindən,
1) Yolaqlar, cığırlar, iz qiymətindən, 2) Dərin qiymətindən, üz qiymətindən,
Oğul qiymətindən, qız qiymətindən,
Necə danışmayım, necə dinməyim?

[81] Söndürür ocağı, közə qəsd edir,

[82] 1) Düz getmir yolunu, izə qəsd edir. 2) Hücuma keçərək bizə qəsd edir.
3) Söndürür ocağı, bizə qəsd edir. 4) Salınıb yollara, izə qəsd edir.

Nadanlar, cahillər baş alıb gedir,
Fikirlər, xəyallar, çaş olub gedir,
Ürəklər sinədə daş olub gedir,
Necə danışmayım, necə dinməyim?

Çoxları aranı-bərəni qatır,
İnsafı-mürvəti bir anda atır,
Mərdləri-namərdə tələsik satır,[83]
Necə danışmayım, necə dinməyim?

Alim də, loğman da gözdən salındı,
Abırdan, həyadan üzdən salındı,
Gün çeşdə qalxmamış tezdən salındı,
Necə danışmayım, necə dinməyim?[84]

Meydan açıb saxtalıqlar, yalanlar,
Yeyib-içir, kef eyləyir kalanlar,
Tapdalanır ayaq altda qalanlar,[85]
Necə danışmayım, necə dinməyim?

Bürüyür həryanı cəhalət yaman,
Avamlıq, nadanlıq, qəbahət yaman, [86]
Gözləyir bəşəri fəlakət yaman,
Necə danışmayım, necə dinməyim?

Beylə bir məqamda mən niyə susum?
Gedib daldalarda mən niyə pusum?
Səsimi içimə mən niyə qısım?
Necə danışmayım, necə dinməyim?

Görüb-bildiyimi yazmasam olmur,
Silib, qaralayıb, pozmasam olmur,
Xəyal gəmisində üzməsəm olmur,
Necə danışmayım, necə dinməyim

---

83 Mərdləri namərdə beyqafıl satır.
[84] *II variant* Nəqədər alimlər gözdən salındı?
Yoxuşdan qovulub, düzdən salındı?
1) Məqamı çatmamış tezdən salındı? 2) Yolaqdan salınıb, izdən salındı?
Necə danışmayım, necə dinməyim?
[85] 1) Tapdalanır əl- ayaqda qalanlar. 2) İnildəyir əl-ayaqda qalanlar.
[86] 1) Hər addımbaşında qəbahət qardaş. 2) Ünsiyyət-ülfətdə qəbahət qardaş.

Məni danışdıran məhəbbətimdir,
Vətənə, xalqıma sədaqətimdir,[87]
Elimə, xalqıma nəzakətimdir, [88]
Necə danışmayım, necə dinməyim?

Ərizə yazıram Haqq dərgahına,
Babam baş qoyduğu qibləgahına,
Yetişsin xalqımın tez pənahına,
Necə danışmayım, necə dinməyim?

Buminvalla Cəmil Əkbər kiriməz,
Oda düşsə, közə düşsə əriməz,
Min il getsə dar məzarda çürüməz, [89]
Necə danışmayım, necə dinməyim?

***Cəmil Əkbər*** 14.11 -1992; 29. 11-1993

**18. NECƏ DANIŞMAYIM, NECƏ DİNMƏYİM?**

*II variant*

Yolunu-izini azan çoxalıb,
Necə danışmayım, necə dinməyim?
Ünsiyyət-ülfəti pozan çoxalıb,
Necə danışmayım, necə dinməyim?

Ədalət, həqiqət tapdanıb gedir,
İnsanlıq, ləyaqət tapdanıb gedir,
Sədaqət, səxavət tapdanıb gedir,
Necə danışmayım, necə dinməyim?

Ünsiyyət-ülfətdə hörmət qalmayıb,
Sədaqət, səxavət, mürvət qalmayıb,
Mənəvi gözəllik, sərvət qalmayıb,
Necə danışmayım, necə dinməyim?

---

[87] Eşqimdi, andımdı, sədaqətimdir.
[88] 1) İnsanlıq naminə ləyaqətimdir. 2) Doğru danışmamaq fəlakətimdir.
[89] 1) O düşsədə torpaqlarda çürüməz. 2) Torpaqlara qarışsada çürüməz.
3) Qarışsada torpaqlarda çürüməz. 4) Min il getsə məzarlıqda çürüməz.

Hiyləgər, dələduz, biclər çoxdu çox,
İlqara-imana kəclər çoxdu çox,
Qanuna-qaydaya öclər çoxdu çox,
Necə danışmayım, necə dinməyim?

Dühaya lağ edib, şər deyənə bax,
Hər yetən gədəyə, nər deyənə bax,
Kişi deyənə bax, ər deyənə bax,
Necə danışmayım, necə dinməyim?

Qaralara ağ deyənlər çoxalıb,
Təpələrə dağ deyənlət çoxalıb,
Kol-koslara bağ deyənlət çoxalıb,
Necə danışmayım, necə dinməyim?

Abırsızlar, həyasızlar o qədər?!
Əqidəsiz qayəsizlər o qədər?!
Tərbiyəsiz dayəsizlər o qədər?!
Necə danışmayım, necə dinməyim?

Yaxşılara pis deyən də çoxalıb,
Bədxah deyən, nəs deyən də çoxalıb,
Höcət, inad tərs deyən də çoxalıb,
Necə danışmayım, necə dinməyim?

Dağıdanı, talananı gördükcə,
Al-qanına bulananı gördükcə,[90]
Od-ocaqsız qalananı gördükcə,[91]
Necə danışmayım, necə dinməyim?

Əziləni, əzənləri görəndə,
Öz canından bezənləri görəndə,[92]
Hər əzaba dözənləri görəndə,
Necə danışmayım, necə dinməyim?

---

[90] Toz-torpağa bulananı gördükçə.
[91] Gen boluna dolananı gördükcə.
[92] İnciyəni, bezənləri gördükcə.

Məni danışdıran zərurətimdi,
Elimə, xalqıma məhəbbətimdi,
Ədəbdi, ərkandı, nəzakətimdi,
Necə danışmayım, necə dinməyim?

Dərk edib, düşünüb yazmasam olmur,
Silib, qaralayıb pozmasam olmur,
Xəyal gəmisində üzməsəm olmur,
Necə danışmayım, necə dinməyim?

Təlxəkləri, yaltaqları görərkən,
El varına ortaqları görərkən.
Sıramızda artıqları görərkən.
Necə danışmayım, necə dinməyim?

Yerli-yersiz davaları gördükcə,
Zəhərlənmiş havaları gördükcə,
Əqli-kəmi, yavaları gördükcə,
Necə danışmayım, necə dinməyim?

Böhtan danışana şər deyənə bax,
Hər yetən gədəyə ər deyənə bax,
İnci deyənə bax, zər deyənə bax,
Necə danışmayım, necə dinməyim?

Yerə-göyə sığışmayır ədalar,
Dəng edibdir qulaqları sədalar,
Kəsilməyir qal-qovğalar, qadalar,
Necə danışmayım, necə dinməyim?

Tarlanı bürüyür alaqotları,
Gicitkansayağı dalaqotları,
Tikanlar, qanqallar, ulaqotları,
Necə danışmayım, necə dinməyim?

Beylə bir məqamda mən necə susum?
Gedib daldalarda mən necə pusum?
Səsimi içimdə mən necə qısım?
Necə danışmayım, necə dinməyim?[93]

---

[93] *II variant*

Beylə bir məqamda susmaq yaramır,
Gedib daldalarda pusmaq yaramır,
Taledən incimək, küsmək yaramır,
Necə danışmayım, necə dinməyim?

Danışım neyləyim, dinim neyləyim?
Alışım neyləyim, sönüm neyləyim?
Ucalım neyləyim, enim neyləyim?
Necə danışmayım, necə dinməyim?

Nəqədər deyilib əsər etməyib,
Bir fayda yetirib, səmər etməyib,
Ovxara gətirib kəsər etməyib,
Necə danışmayım, necə dinməyim?

Düşübdür qiymətdən söz kəsərindən,
Mənası, mətləbi düz kəsərindən,
Çıxıb yolağından, iz kəsərindən,
Necə danışmayım, necə dinməyim?

Alim də, loğman da gözdən salınıb,
Gün çeşdə qalxmamış tezdən salınıb,
Yolaqdan salınıb, izdən salınıb,
Necə danışmayım, necə dinməyim?

Dindirirlər dillənirəm neyləyim?
Yağdırırlar sellənirəm neyləyim?
Uçururlar, hellənirəm neyləyim?
Necə danışmayım, necə dinməyim?

Məni dilləndirən haqqın səsidir,
Yaxşıyla yamanın bəhsəbəsidir,
Hökmü-qərarıdır, məhkəməsidir,
Necə danışmayım, necə dinməyim?

Nadanlar, cahillər, baş alıb gedir,
Fikirlər, xəyallar çaş olub gedir,
Ürəklər sinədə daş olub gedir,
Necə danışmayım, necə dinməyim?

---

*III variant*

Beylə bir məqamda susmaq olarmı?
Gedib daldalarda pusmaq olarmı?
Səsini boğaraq qısmaq olarmı?
Necə danışmayım, necə dinməyim?

Özünü çəkənlər, dartanlar artıb,
Gödənlər, dağıdıb, yırtanlar artıb,
Söyüdtək, ulğuntək artanlar artıb.
Necə danışmayım, necə dinməyim?

Xainlər, paxıllar, xəbis çoxalır,
Tamahkar, acgözlər həris çoxalır,
Naxələf övladlar, varis çoxalır,
Necə danışmayım, necə dinməyim?

Cahillər çoxalıb, nadanlar artıb,
Sümürüb haqq-say udanlar artıb,
Təlimdən yarımçıq dadanlar artıb,
Necə danışmayım, necə dinməyim?

Düşübdür nəqədər söz qiymətindən?
Dərin qiymətindən, üz qiymətindən,
Oğul qiymətindən, qız qiymətindən,
Necə danışmayım, necə dinməyim?

Dinib danışmasaq yara dərindir,
Tapılmaz dərtlərə çara dərindir,
Yön alıb gedəsən hara, dərindir?!
Necə danışmayım, necə dinməyim?

Əlac danışmağa, dinməyə qalıb,
Zəhmətə, xidmətə, köməyə qalıb,
Qayğıya, yardıma, əməyə qalıb,
Necə danışmayım, necə dinməyim?

İdrakım hökm edir, mənə yaz deyir!
Nələr yazılıbsa hələ az deyir!
Həyata sinə gər, yaşa, döz deyir!
Necə danışmayım, necə dinməyim?

Həyatda bir çoxu yerini bilmir,
Xeyrini anlamır, şərini bilmir,
Dayazda dolanır, dərini bilmir,
Necə danışmayım, necə dinməyim?

***Cəmil Əkbər*** 14.12 - 1992

## 19. NECƏ DANIŞMAYIM, NECƏ DİNMƏYİM?

*III variant*

Özünü çəkənlər, dartanlar artıb,
Gödənlər dağıdıb, yırtanlar artıb,
Söyüdtək, ulğuntək artanlar artıb.
Necə danışmayım, necə dinməyim?

Yolunu-izini azan çoxalıb,
Ünsiyyət-ülfəti pozan çoxalıb,
Ayaqlar altından qazan çoxlıb,
Necə danışmayım, necə dinməyim?

İnsafı-vicdanı atan hey atır,
Şər deyib aranı qatan hey qatır,
Qərq olub qəflətdə yatan hey yatır,
Necə danışmayım, necə dinməyim?

Arada, bərədə hörmət azalıb,
Kəramət azalıb, mürvət azalıb,
Mənəvi gözəllik, sərvət azalıb,
Necə danışmayım, necə dinməyim?

Hiyləgər, dələduz, biclər çoxalıb,
İlqara, imana kəclər çoxalıb,
Qanuna, qaydaya öclər çoxalıb,
Necə danışmayım, necə dinməyim?

Zəhmətsiz, xidmətsiz yeyənlər artıb,
Bəzənib, düzənib geyənlər artıb,
Qəlblərə toxunub dəyənlər artıb,[94]
Necə danışmayım, necə dinməyim?

Bəşəri gətirir zara gədələr,
Salır çətinliyə dara gədələr,
Eyləyir gününü qara gədələr,
Necə danışmayım, necə dinməyim?

Loğmanlar susubdur, yara dərindir,
Tapılmır dərdlərə çara dərindir,
Yön alıb gedəsən hara, dərindir?

[94] Vurub şahqaməti əyənlər artıb.

Necə danışmayım, necə dinməyim?
Ünsiyyət-ülfətdə ədavət artır,[95]
Avamlıq çoxalır, cəhalət artır,
Giley, güzar, qeybət, şikayət artır,
Necə danışmayım, necə dinməyim?

Yaxşılara pis deyəni görürəm,
Bədxah bilib, nəs deyəni görürəm,
Qızıllara mis deyəni görürəm,
Necə danışmayım, necə dinməyim?[96]

Qəlbimə toxunub dəyən oqədər?
Haqqımı-sayımı yeyən oqədər? [97]
Zəhmətsiz al-qumaş geyən oqədər? [98]
Necə danışmayım, necə dinməyim?

Abırsızlar, həyasızlar oqədər?
Tərbiyəsiz, dayəsizlər oqədər?
Kətəyəntək sayəsizlər oqədər?
Necə danışmayım, necə dinməyim?

Dağılanı, talananı görüncə,
Al-qanlara bulananı görüncə,
Od-ocaqsız qalananı görüncə,
Necə danışmayım, necə dinməyim?

Yaradan görməyə göz verib bizə,
Deməyə yazmağa söz verib bizə,[99]
Doğru yol-ərkanı düz verib bizə,[100]
Necə danışmayım, necə dinməyim?

---

[95] 1)Nöqsanlar çoxalır, ədavət artır, 2) Nöqsanlar çoxalır, qəbahət artır,
[96] *II variant* Yaxşılara pis deyənlər çoxalıb,
Bədxah bilib, nəs deyənlər çoxalıb,
Höcət, inad, tərs deyənlər çoxalıb,
Necə danışmayım, necə dinməyim?

[97] Zəhmətsiz döşürən yeyən oqədər?
[98] Taledən inciyib, söyən oqədər?
[99] Deyib danışmağa söz verib bizə.
[100] Getməyə yol-ərkan, düz verib bizə.

Beylə bir məqamda susmaq yaramır,
Gedib daldalarda pusmaq yaramır,
Taledən incimək, küsmək yaramır,
Necə danışmayım, necə dinməyim?

Cəmili dindirən Haqqın səsidir,
Yaxşıyla pislərin bəhsəbəsidir,
Zalımla məzlumun məhkəməsidir,[101]
Necə danışmayım, necə dinməyim?

***Cəmil Əkbər*** 15. 05 – 1993

## 20. HANSINDAN DANIŞIM, HANSINDAN DEYİM?

Dünyada yaxşı da, pis də görmüşəm,
Hansından danışım, hansından deyim?
Xeyirxah, bədxah da, nəs də görmüşəm,
Hansından danışım, hansından deyim?[102]

Dünyada oqədər araqatan var,
Yaramaz yollarla vara çatan var,
Vicdanını, məsləkini satan var,
Hansından danışım, hansından deyim?

İgid də görmüşəm, nər də görmüşəm,
Zənən də görmüşəm, ər də görmüşəm,[103]
Xeyir də görmüşəm, şər də görmüşəm,
Hansından danışım, hansından deyim?

Dünyanın gözəli, çirkini də var,
Sadəsi, lovğası xudbini də var,
Bədbini, qəmgini, nikbini də var,
Hansından danışım, hansından deyim? [104]

---

[101] Hökmü-qərarıdır, məhkəməsidir.

[102] *II variant* Dünyada yaxşını, pisi də gördüm,
Hansından danışım, hansından deyim?
Xeyirxah bəndəni, nəsi də gördüm,
Hansından danışım, hansından deyim?

[103] Qadın qılıfında “ər” də görmüşəm.

[104] *II variant* Gözəllər yanında çirkinlər də var,
Sadələr, lovğalar, xudbinlər də var,
Qəmginlər, bədbinlər,nikbinlər də var,
Hansından danışım, hansından deyim?

Qananı varsa da, nadanı da var,
Yolunu tərsinə adanı da var, [105]
Təlimdən yarımçıq dadanı da var,
Hansından danışım, hansından deyim?[106]

Dünyanın qənirsiz gözəli də var,
Şirin dil-dodağı, məzəli də var,
Şeri, dastanı, qəzəli də var,
Hansından danışım, hansından deyim?

Dünyanın alimi, loğmanı da var,
Dənizi, dəryası, ümmanı da var,
Günəşi, çisgini, dumanı da var,
Hansından danışım, hansından deyim?

Dünyanın oqədər igidi də var,
Ulğun kolları da, söyüdü də var,
Mollası, kosası, seyidi də var,
Hansından danışım, hansından deyim?

---

*III variant*

Oqədər eybəcər, çirkinlər gördüm,
Lovğa, yekəxana xudbinlər gördüm,
Taledən küsgünlər, bədbinlər gördüm,
Hansından danışım, hansından deyim?

*IV variant*

Oqədər eybəcər çirkinlər də var,
Lovğa, yekəxana xudbinlər də var,
Taledən küsgünlər, bədbinlər də var,
Hansından danışım, hansından deyim?

[105] Addımı tərsinə adanı da var.

[106] *II variant*

Dünyada oqədər nadan çoxalıb,
Təlimdən yarımçıq dadan çoxalıb,
Yolunu tərsinə adan çoxalıb,
Hansından danışım, hansından deyim?

*III variant*

Dünyada oqədər nadan görmüşəm,
Təlimdən yarımçıq dadan görmüşəm,
Yolunu tərsinə adan görmüşəm,
Hansından danışım, hansından deyim?

İlanı, əqrəbi, iblisi də var,
Nanəcib, namərdi, naqisi də var,
Naxələf, yaramaz varisi də var,
Hansından danışım, hansından deyim?[107]

Lovğa, yekəxana, ədəbaz da var!
Özündən bədgüman, hoqqabaz da var!
Dondan-dona düşən modabaz da var!
Hansından danışım, hansından deyim?

Məzlumu, kasıbı, varlısı da var,
Əfəli, fəqiri, karlısı da var,
Qohumu, qardaşı, yarlısı da var,
Hansından danışım, hansından deyim?[108]

İdraksız, kamalsız başıboş da var,
Vicdanı kəmkəsir, qəlbi daş da var,
Filə hücum çəkən alabaş da var,
Hansından danışım, hansından deyim?

Müqəvvasayağı karsız oqədər,[109]
Söyüd ağacıtək barsız oqədər,
Binamus, biqeyrət, arsız oqədər,
Hansından danışım, hansından deyim?[110]

---

[107] *II variant* Əqrəbi, şeytanı, iblisləri var,
Nanəcib, namərdi, naqisləri var,
Naxələf, yaramaz varisləri var,
Hansından danışım, hansından deyim?

[108] *II variant* Dünyanın oqədər arlısı da var,
Tutarlı, samballı karlısı da var,
Tükənməz bəhərli, barlısı da var,
Hansından danışım, hansından deyim?

[109] Haraya yetməyən karsız oqədər.

[110] *II variant* Abırsız, ismətsiz, arsız da çoxdur,
Söyüdtək, ulğuntək barsız da çoxdur,
Xeyirə yaramaz, karsızda çoxdur,
Hansından danışım, hansından deyim?

*III variant* Abırsız, ismətsiz, arsızlar da var,
Söyüdtək, ulğuntək barsızlar da var,
Xeyirə yaramaz, karsızlar da var,
Hansından danışım, hansından deyim?

Hiyləgər, dələduz biclər nəqədər?
İlqara-imana kəclər nəqədər?
Haqqa-ədalətə öclər nəqədər?
Hansından danışım, hansından deyim?

Oqədər boşboğaz, yalançılar var,
Dağıdıb sökənlər, talançılar var,
Yarımçıq pinəçi, palançılar var,
Hansından danışım, hansından deyim?

Bezdirib zəhlələr, tökənlər də var,
Tərsinə yeriyib, çəkənlər də var,
Əyilməz vüqarı bükənlər də var, [111]
Hansından danışım, hansından deyim?

Şər-böhtan danışan, aravuran var,
Qəlblərə sağalmaz yaravuran var,
Ləkələr yaxan var, qaravuran var,
Hansından danışım, hansından deyim?

---

*IV variant*

Dünyada oqədər arsızlar da var.
Söyüdtək, ulğuntək barsızlar da var,
Xeyirə yaramaz, karsızlar da var,
Hansından danışım, hansından deyim?

*V variant*

Hiyləgər, dələduz, yaltaq da çoxdur,
Abırsız, həyasız sırtıq da çoxdur,
İnsan cərgəsində artıq da çoxdur,
Hansından danışım, hansından deyim?

*VI variant*

Dünyada həyasız, sırtıq oqədər,
Ellərin varına ortaq oqədər,
İnsan cərgəsində artıq oqədər,
Hansından danışım, hansından deyim?

*VII variant*

Dünyada yaramaz, karsız da vardır,
Söyüd ağacıtək barsız da vardır,
Abırsız, ismətsiz, arsız da vardır,
Hansından danışım, hansından deyim?

[111] Dağıdıb, talayan, sökənlər də var.

Oqədər dəngəsər, keylər də gördüm,
Sərsəri, kəmağıl, səylər də gördüm,
Gədədən törəyən bəylər də gördüm,
Hansından danışım, hansından deyim?[112]

İlqardan, imandan dönən də oldu,
Mövqedən yarımçıq enən də oldu,
Qaralıb, qarsıxıb, sönən də oldu,
Hansından danışım, hansından deyim?[113]

---

[112] *II variant*
Aqillər yanında keylər də gördüm,
Gicbəsər, dəngəsər, səylər də gördüm,
Əqildən zay olan bəylər də gördüm,
Hansından danışım, hansından deyim?

*III variant*
Dünyada oqədər keylər də vardır,
Dəngəsər, sərsəri səylər də vardır,
Gədədən törəyən bəylər də vardır,
Hansından danışım, hansından deyim?

*IV variant*
Oqədər kütbeyin, keylər də gördüm,
Gicbəsər, dəngəsər, səylər də gördüm,
Əqildən kamaldan keylər də gördüm,
Hansından danışım, hansından deyim?

*V variant*
Dünyada oqədər keylər çoxalıb,
Gədədən törəyən bəylər çoxalıb,
Dəngəsər, sərsəri, səylər çoxalıb,
Hansından danışım, hansından deyim?

[113] *II variant*
İlqara-imana dönüklər də var,
Hər səmtə üz tutan yönüklər də var,
Ellərin varına əniklər də var,
Hansından danışım, hansından deyim?

*III variant*
İlqardan, imandan dönənlər də var,
Mövqedən salınan, yananlar da var,
Böyüyü, kiçiyi sanmazlar da var,
Hansından danışım, hansından deyim?

*IV variant*
Nəqədər ilqardan dönənlər gördüm?
Mövqedən yarımçıq enənlər gördüm,
Qaralıb, qarsıxıb sönənlər gördüm,
Hansından danışım, hansından deyim?

Dünyanın oqədər divanəsi var,
Laqeyid, keyqubad, biganəsi var,[114]
Tarixə düşəsi salnaməsi var,[115]
Hansından danışım, hansından deyim?

Abırsız, ismətsiz, həyasız da var,
Əqidə, məsləksiz, qayəsiz də var,
Kətəyənsayağı sayəsiz də var,[116]
Hansından danışım, hansından deyim?

Nadürüst, naxələf birha deyildir,
Hamıya məlumdur sirrha deyildir,[117]
Hər papaq qoyanlar ərha deyildir,
Hansından danışım, hansından deyim?[118]

Zəhməti, xidməti itirən də var,
Kol-kosu bəsləyib bitirən də var,
Möhnəti boynuna götürən də var,
Hansından danışım, hansından deyim?[119]

---

*V variant* Dünyada oqədər əniklər gördüm,
Vicdana məsləkə dönüklər gördüm.
Hər səmtə üz tutan çönüklər gördüm,
Hansından danışım, hansından deyim?

[114] Əhli-kef, laqeyid, biganəsi var.
[115] Odlara qərq olan pərvanəsi var.
[116] Təlim görməyənlər, dayəsiz də var.
[117] Məlum həqiqətdir, sir ha deyildir.

[118] *II variant* Nanəcib namərdlər bir ha deyildir,
Bu ki, məlum işdir sir ha deyildir,
Hər diyar Məkkə döy, pir ha deyildir,
Hansından danışım, hansından deyim?

*III variant* Hər saçı ağaran pir ha deyildir,
Bu ki, məlum şeydir sir ha deyildir,
Nanəcib naxələf bir ha deyildir,
Hansından danışım, hansından deyim?

[119] *II variant* Oqədər zəhməti itirənlər var,
Bağında kol-koslar bitirənlər var,
1) Möhnəti boynuna götürənlər var, 2) Peysərə verənlər, ötürənlər var,
Hansından danışım, hansından deyim?

Oqədər insanı tapdım, itirdim,
Yükünü boynuma çəkdim, götürdüm,
Dişimə vurduqca bir-bir ötürdüm,
Hansından danışım, hansından deyim?

Deyib-danışmaqla qurtaran deyil,
Küsüb-barışmaqla qurtaran deyil,
Bir-bir soruşmaqla qurtaran deyil,
Hansından danışım, hansından deyim?

Dünyada oqədər yalan eşitdim,
Boğazdan yuxarı kalan eşitdim,
Züy tutan, nağara çalan eşitdim,
Hansından danışım, hansından deyim?

Dünyanın oqədər, dəlisi var ki,
Qansoran həşərat, zəlisi var ki,
Ağıldan, kamaldan xalisi var ki,
Hansından danışım, hansından deyim?[120]

---

*III variant* Oqədər zəhməti itirən gördüm,
Qəlbində kol-koslar bitirən gördüm.
Xalqına qəm-qüssə gətirən gördüm.
Hansından danışım, hansından deyim?

*IV variant* Yollarda kol-koslar əkənlər də var,
Əyilməz qaməti bükənlər də var,
Tərsinə qoşulub çəkənlər də var,
Hansından danışım, hansından deyim?

[120] *II variant* Dünyanın ağıllı, dəlisi də var,
1) Damara sussayan zəlisi də var, 2) Al-qana sussayan zəlisi də var,
Ağası, nökəri, valisi də var,
Hansından danışım, hansından deyim?

*III variant* Dünyanın oqədər zəlisi vardır,
Gicbəsər, sərsəri, dəlisi vardır,
Əli-Pirvəlisi, Vəlisi vardır,
Hansından danışım, hansından deyim?

*IV variant* Dünyanın Əlisi Vəlisi də var,
Ağıllı, kamallı, dəlisi də var,
1) Nəqədər qan soran zəlisi də var, 2) Sağlamı, dirisi, ölüsü də var,
Hansından danışım, hansından deyim?

Dayı kölgəsində yatanlar da var,
Cəhalət gölünə batanlar da var,
Yalançı şöhrətə çatanlar da var,
Hansından danışım, hansından deyim?[121]

Yolunu, izini azan oqədər,
Əhdini, andını pozan oqədər, [122]
Doğrunu-tərsinə yozan oqədər,
Hansından danışım, hansından deyim?

Ədaləti, həqiqəti danan çox,
İnsanlığı, ləyaqəti danan çox,
Ədəb-ərkan, nəzakəti danan çox,[123]
Hansından danışım, hansından deyim?

---

*V variant* İnsan qiyafədə zəliləri var,
Gicbəsər, sərsəri, dəliləri var,
Diriykən nəqədər ölüləri var,
Hansından danışım, hansından deyim?

*VI variant* Dünyanın oqədər dəlisi də var,
Qanlara sussayan zəlisi də var,
1) Dirisi, canlısı, ölüsü də var, 2) Diri, yarımcanı, ölüsü də var,
Hansından danışım, hansından deyim?

[121] *II variant* Mərdləri namərdə satanlar da var,
Şər deyib aranı qatanlar da var,
1) Qərq olub qəflətdə yatanlar da var, 2) Qəflətlər içində yatanlar da var,
Hansından danışım, hansından deyim?

*III variant* Dayı kölgəsində yatan oqədər,
Layiqsiz şöhrətə çatan oqədər,
Özünü möhkəmcə tutan oqədər,
Hansından danışım, hansından deyim?

*IV variant* Oqədər insafsız, qansız görmüşəm,
Diriykən ölülər, cansız görmüşəm,
Şərəfsiz, şöhrətsiz, şansız görmüşəm,
Hansından danışım, hansından deyim?

[122] Ünsiyyət, ülfəti pozan oqədər.
[123] Xeyirxahlıq-fəziləti danan çox.

O səbəbdən bu dünyamız düzəlmir,
Haçandan bəridir özünə gəlmir,[124]
Ağlayır, sızlayır, bir üzü gülmür,[125]
Hansından danışım, hansından deyim?

Gözgörəti zülm edilir bəşərə,[126]
Bərbad olur, bu həyatda mənzərə,[127]
İnsanoğlu düçar olur məhşərə,
Hansından danışım, hansından deyim?

Gəncliyimdən gənc nəsilə dərs dedim,
Həyasıza, hərzəkara kəs dedim! [128]
Danışmaynan, dillənməynən sus dedim!
Hansından danışım, hansından deyim?

Ellərin şəninə gülməyən də var,
Dərdindən hal olub bilməyən də var,
Utanıb, qızarıb ölməyən də var,
Hansından danışım, hansından deyim?

Çoxları yollarda yarı qaldılar,
İnləyib, sızlayıb, zarı qaldılar,
Xəzana qərq olub sarı qaldılar,[129]
Hansından danışım, hansından deyim?

Fikirə, xəyala dolanlar da var,
Dərd-qəmi çəkib gültək solanlar da var,
Qızıldan, daş-qaşdan kalanlar da var,[130]
Hansından danışım, hansından deyim?

Etdiyi əməldən səksənməyən var,
Çəkinib, ürpənib diksinməyən var,
Utanıb, pəsinib, qısqanmayan var,
Hansından danışım, hansından deyim?

---

[124] Bu bəşər, bu xilqət özünə gəlmir,
[125] 1) Səadət insanın üzünə gülmür. 2) Tökülüb qabağı, bir üzü gülmür.
[126] 1) Gör haçandan zülm edilir bəşərə. 2) Sitəm olub, zülm edilir bəşərə.
[127] 1) Gündən-günə xarablaşır mənzərə. 2) Bərbad olur, xarablaşır mənzərə.
[128] Zəhlə tökən hərzəkərə kəs dedim.
[129] Saralıb, soluxub sarı qaldılar.
[130] Züy tutub nağara çalanlar da var.

Saymaqla bunları azalan deyil,
Qatardan üzülüb pozulan deyil,
Dastana, kitaba yazılan deyil,
Hansından danışım, hansından deyim?

Dünyanın oqədər sitəmkarı var,
Fateh, qəsbkarı, zülümkarı var,
Araqarışdıran, fitnəkarı var,
Hansından danışım, hansından deyim?

Qəlblərə oqədər zədə vuran var,
Dəyənək qaldırıb, pedə vuran var,
Həyəcan, təlaşlar, hədə vuran var, [131]
Hansından danışım, hansından deyim?

Çoxları gözünü yumdu yaxşıya,
Təpindi, dartıldı, cumdu yaxşıya,[132]
Köməklik etmədən umdu yaxşıya,
Hansından danışım, hansından deyim?

Bir deyil, beş deyil zəhmət itirən,
Haqq-say unudub, xidmət itirən,
Dəyəri görməyən, qiymət itirən,
Hansından danışım, hansından deyim?

Beləlıəri qənim çıxıb bəşərə,
Bais olub zülmətlərə, məhşərə,
Şərafətlə çıxa bilmir qənşərə,
Hansından danışım, hansından deyim?

Bir deyil, beş deyil qanı xarablar,[133]
Cəsədi, vücudu, canı xarablar,
Hüceyrə, nüvəsi geni xarablar, [134]
Hansından danışım, hansından deyim?

---

[131] Həyəcan törədən, hədə vuran var.
[132] Çəmkirdi, dartıldı, cumdu yaxşıya.
[133] Zülalı xarablar, şanı xarablar.
[134] Yazıram, deyirəm tanı, xarablar.

Hökm eyləyir hər diyarda naqqallar,
Alıb-satan sövdəgarlar, baqqallar,
Gödən yırtır kolda-kosda çaqqallar,
Hansından danışım, hansından deyim?

Alimə, loğmana lağ edənə bax,
Ulğun kollarını bağ edənə bax,
Çıxıb əndazədən ağ edənə bax,
Hansından danışım, hansından deyim?

Hamı təzim edir tamaha indi,
Yol verir, yeriyir günaha indi,
Alırlar, satırlar çox baha indi,
Hansından danışım, hansından deyim?

Dünyanı bürüyüb naqis gədələr,
Bədəsil, nanəcib naçins gədələr,
Eybəcər mənfurlar, xəbis gədələr,
Hansından danışım, hansından deyim?[135]

Vətəni tərk edib qaçan-qaçana,
Qışı sərt keçəndə köçən-köçənə, [136]
Ziyanı yad eldə saçan-saçana,
Hansından danışım, hansından deyim?[137]

---

[135] *II variant* Dünyanı bürüyüb naqis bəndələr,
Bədəsil, nanəcib naçins bəndələr,
Eybəcər cılızlar, xəbis bəndələr,
Hansından danışım, hansından deyim?

*III variant* Paxıllar, xainlər, xəbis oqədər,
Nanəcib, namərdlər, naqis oqədər,
Törənən qal-qovğa, hədis oqədər,
Hansından danışım, hansından deyim?

*IV variant* Dünyanın oqədər xəbisləri var,
1) Acgöz, tamahkiri, hərisləri var, 2) Acgöz, qarınqulu, hərisləri var,
1) Naxələf, yaramaz varisləri var, 2) Nanəcib, naxələf, naqisləri var,
Hansından danışım, hansından deyim?

*V variant* Acgöz, tamahkirlər, həris də vardır,
Naxələf övladlar, varis də vardır,
Bədəsil varsada, xalis də vardır,
Hansından danışım, hansından deyim?

[136] Qısqı bərk düşəndə köçənlər də var.

Əllərdə, ayaqda qalan oqədər,
Üzcırıb saçını yolan oqədər,
Fikirə, xəyala dolan oqədər,
Hansından danışım, hansından deyim?

Nəqədər yaxşıya pis deyən gördüm,
Bədxah deyən gördüm, nəs deyən gördüm,
Höcət inad deyən, tərs deyən gördüm,
Hansından danışım, hansından deyim?

Qəlbində oqədər kin olan var ki?
Şeytan olan varki, cin olan var ki?
Cəhalət, avamlıq, din olan var ki?
Hansından danışım, hansından deyim?

Abırsız, ismətsiz həyasızı var,
Vicdansız, məsləksiz, qayəsizi var,
Yetimi, yesiri dayəsizi var,
Hansından danışım, hansından deyim?[138]

Dünyanın oqədər pozğunu var ki,
Yolundan çıxanı, azğını var ki, [139]
Leşləri gəmirən quzğunu var ki,
Hansından danışım, hansından deyim?

---

[137] *II variant* Dar gündə arxadan qaçan oqədər,
Özgə diyarlara keçən oqədər,
Didərgin düşənlər, köçən oqədər,
Hansından danışım, hansından deyim?

*III variant* Dar gündə arxadan qaçanlar da var,
Özgə diyarlara köçənlər də var,
Qanadı tutduqca uçanlar da var.
Hansından danışım, hansından deyim?

[138] *II variant* Dünyanın oqədər həyasızı var,
Əqidə, məsləksiz, qayəsizi var,
Təlimsiz qalanı, dayəsizi var,
Hansından danışım, hansından deyim?

[139] 1)Yolundan-izindən, azğını varki? 2) Cığırından çıxan, azğını varki?

Kəlləsi xarablar, başıboş da var,
Vicdandan xəbərsiz qəlbi daş da var,
Fikiri, xəyalı tamam çaş da var,
Hansından danışım, hansından deyim?

Bürüyüb həryanı nabələd, naşı,
Kəsilmir ömürü, gödəlmir yaşı,
Çatılmır qabağı, ağarmır başı,
Hansından danışım, hansından deyim?

Adam var ümmandır, dəniz ürəkli,
Billurdur, şəffafdır, təmiz ürəkli,
Adam var "kabandır", donuz ürəkli,
Hansından danışım, hansından deyim?

Biri əyri qanır, biri düz qanır,
Biri dərin qanır, biri üz qanır,
Birisi gecikir, biri tez qanır,
Hansından danışım, hansından deyim?

Eşidə-eşidə kar olan da var,
Gözləri görsə də kor olan da var,
Tərlan oylağında sar olan da var,
Hansından danışım, hansından deyim?

Qəlblərə toxunub, dəyən oqədər?
Vurub qamətləri əyən oqədər?[140]
Zəhmətsiz al-qumaş geyən oqədər?[141]
Hansından danışım, hansından deyim?[142]

Deyib-danışmaqla sözüm çatmayır,
Küsüb barışmaqla dözüm çatmayır,
Ocağım, hənirim, közüm çatmayır,
Hansından danışım, hansından deyim.

---

[140] Zəhmətsiz, xidmətsiz yeyən oqədər.
[141] Zər-xara bürünüb geyən oqədər.
[142] *II variant* Qəlblərə toxunub, dəyənlər də var,
Vurub qamətləri əyənlər də var,
Zəhmətsiz al-qumaş geyənlər də var,
Hansından danışım, hansından deyim?

Qaralara ağ deyənlər oqədər,
Təpələrə dağ deyənlər oqədər,
Kol-koslara bağ deyənlər oqədər,
Hansından danışım, hansından deyim?

Nəqədər insanı tapdıq itirdik?
Möhnətin yükünü çəkib götürdük?[143]
Yola salıb haqlı-haqsız ötürdük,
Hansından danışım, hansından deyim?

Dünyada xətir də, hörmət də gördüm,
İnsaf, kəramət də, mürvət də gördüm,
Mənəvi gözəllik, sərvət də gördüm,[144]
Hansından danışım, hansından deyim?

Çoxunun adını demirəm hələ,
Salmıram canına qorxu, vəlvələ,
Haçandan bəridir gəlmir əmələ,
Hansından danışım, hansından deyim?

Xalqın dərisini soyan oqədər,
Yığıb son gününə qoyan oqədər,
Yoğurub, yapmamış doyan oqədər,
Hansından danışım, hansından deyim?

Qəlblərə oqədər zədələr dəyir,
Kötəklər ilişib, pedələr dəyir,
Qorxu-vahimələr, hədələr dəyir,
Hansından danışım, hansından deyim?

Ədalətə qənim çıxan oqədər,
Dirəkləri vurub yıxan oqədər,
Qanqaraldıb ürək sıxan oqədər,
Hansından danışım, hansından deyim?

---

[143] Çiyinlərə ağır şələ götürdük.
[144] Şərafət də gördüm, şöhrət də gördüm.

Çoxlarının xoş gəlmədi sədası,
Yerə-göyə sığışmadı ədası,
Söyləməklə düzələndöy qadası,
Hansından danışım, hansından deyim?

Çoxdu yazılası ay Cəmil Əkbər,
Yazmaqla bəs etməz nə kitab, dəftər,
Biraz qısa eylə olsun müxtəsər,
Hansından danışım, hansından deyim?[145]

***Cəmil Əkbər*** 9-10. 01 – 1993; 25.05 - 1993

## 21. DANIŞIM NEYLƏYİM, SUSUM NEYLƏYİM?

Sinəmdə oqədər sözüm var mənim?
Danışım neyləyim, susum neyləyim?
Yolum, çığırım var, izim var mənim?
Danışım neyləyim, susum neyləyim?

Çoxları eşidib, küsüb gedirlər,
Qaytarıb üstümə qusub gedirlər,
Əlini əlimdən kəsib gedirlər,
Danışım neyləyim, susum neyləyim?

Deyirlərki sözün qəlblərə dəyir,
Sarsıdıb qaməti, qədləri əyir,
Birçoxu başına qaralar geyir,
Danışım neyləyim, susum neyləyim?

Nadan, sərsəriyə əsər eyləmir,
Bir fayda yetirmir, səmər eyləmir,
Ovxara gətirmir, kəsər eyləmir,
Danışım neyləyim, susum neyləyim?

---

[145] *II variant* Sözünü qısa et ay Cəmil Əkbər!
Yazmaqla sığarmı de qələm-dəftər?
Enişdə-yoxuşda çəkmə qəm-kədər,
Hansından danışım, hansından deyim?

Sözümü üstümə atıb gedirlər,
Qaşı-qabağımı çatıb gedirlər,
Yaxşını-yamana qatıb gedirlər,
Danışım neyləyim, susum neyləyim?

Deməklə sözümə baxanha yoxdur,
Sırğatək qulağa taxanha yoxdur,
Onun hüzuruna çıxanha yoxdur,
Danışım neyləyim, susum neyləyim?

Demirsən olmayır, deyirsən olmur,
Çeynəyib udursan, yeyirsən olmur,
Söyməyirsən olmur, söyürsən olmur,
Danışım neyləyim, susum neyləyim?

Sərrafı azalıb söz gövhərinin,
Fəhmin-fərasətin düz gövhərinin,
Aşıq gövhərinin, saz gövhərinin,
Danışım neyləyim, susum neyləyim?

İnsan yaranıbdır söz eşitməyə,
Sərrast anlamağa, düz eşitməyə,
Yollar tanımağa, iz eşitməyə,
Danışım neyləyim, susum neyləyim?

Ünsiyyət-ülfətlər sözlə qurulur,
Haqla, ədalətlə, düzlə qurulur,
Dərk edən oğulla, qızla qurulur,
Danışım neyləyim, susum neyləyim?

Cəmil Əkbəri də söz başa salıb,
Yetib harayına tez başa salıb,
Mətləbi anladıb, düz başa salıb,
Danışım neyləyim, susum neyləyim?

***Cəmil Əkbər*** 2. 01 - 1993

## 22. DEMƏYİM NEYLƏYİM, DEYİM NEYLƏYİM?

*I variant*

Sinəmdə oqədər sözüm var mənim,
Deməyim neyləyim, deyim neyləyim?
Qığılcım, alovum, közüm var mənim,
Deməyim neyləyim, deyim neyləyim?

Deməklə qanmazı qandırmaq olmur,
Xətiri-hörməti andırmaq olmur,
Qəlbində ocağı yandırmaq olmur,
Deməyim neyləyim, deyim neyləyim?

Deyirsən inciyib küsənlər olur,
Sinirə bilməyib qusanlar olur,
Əlini-əlindən kəsənlər olur,
Deməyim neyləyim, deyim neyləyim?

Sözlərim çoxunun qəlbinə dəyir.
Vurub qamətini qəddini əyir,
Matəmə bürünür, qaralar geyir,
Deməyim neyləyim, deyim neyləyim?

Qaşı-qabağını çatıb gedirlər,
Üfunət gölünə batıb gedirlər,
Yaxşını-yamana qatıb gedirlər,
Deməyim neyləyim, deyim neyləyim?

Deməklə sözəha baxan da yoxdur?
Sırğatək qulağa taxan da yoxdur?
Çəkib sinəsinə sıxan da yoxdur?
Deməyim neyləyim, deyim neyləyim?

Duzunu dadmamış ağız büzürlər,
Qaşlarını-gözlərini süzürlər,
Məndən uzaqlaşıb gendə gəzirlər,[146]
Deməyim neyləyim, deyim neyləyim?

---

[146] Gedib məndən uzaqlarda gəzirlər.

Qədrini bilən yox söz gövhərinin,
Fikirin, xəyalın düz gövhərinin,
Fəhmin, fərasətin öz gövhərinin,
Deməyim neyləyim, deyim neyləyim?

Ünsiyyət-ülfətlər sözlə qurulur,
Fikirlər, xəyallar düzlə qurulur,
Yolaqla, cığırla, izlə qurulur,
Deməyim neyləyim, deyim neyləyim?

Deyib danışmaqla qanmır gədələr,
Böyüyü-kiçiyi sanmır gədələr,
Xətiri-hörməti anmır gədələr,
Deməyim neyləyim, deyim neyləyim?

Söz qanmayanlara demək əbəsdir,
Qayğı da, yardım da kömək əbəsdir,
Xidmət də, zəhmət də əmək əbəsdir,
Deməyim neyləyim, deyim neyləyim?

Söz də hədəfinə çatsa yaxşıdır,
Kamalsız başlara batsa yaxşıdır,
Yapışıb qollardan tutsa yaxşıdır,
Deməyim neyləyim, deyim neyləyim?

Cəmil Əkbəri də söz anladıb, söz!
Yetib harayına tez anladıb tez!
Mətləbi, məramı düz anladıb düz!
Deməyim neyləyim, deyim neyləyim?

***Cəmil Əkbər*** 2. 01-1993

## 23. DEMƏYİM NEYLƏYİM, DEYİM NEYLƏYİM?

*II variant*

Dünyada nəqədər qəmim var mənim,
Deməyim neyləyim, deyim neyləyim?
Dəryada qərq olan gəmim var mənim,
Deməyim neyləyim, deyim neyləyim?

Açıram sirrimi eşidin, bilin,
İstəyir ağlayın, istərsə gülün,
Gözlərin önündən dumanı silin,
Deməyim neyləyim, deyim neyləyim?

Qəhər məni boğur, qəm məni boğur,
İdrakdan, kamaldan kəm məni boğur, [147]
Könül rübabımda bəm məni boğur,[148]
Deməyim neyləyim, deyim neyləyim?

Eyləyib günümü qara gədələr,
Gətirib mahalı zara gədələr,
Salıblar bəşəri dara gədələr,
Deməyim neyləyim, deyim neyləyim?

Deyib-danışmaqla söz qanan hanı?
Mətləbi, mənanı düz qanan hanı?
İşarə anlayib, göz qanan hanı?
Deməyim neyləyim, deyim neyləyim?

Haqqa-ədalətə yaman qəsd olur,
Ülvi-ləyaqətə yaman qəsd olur,
Şana-şərafətə yaman qəsd olur,
Deməyim neyləyim, deyim neyləyim?

Şər deyib aranı qatanlara bax,
Vicdanı-məsləki satanlara bax,
Qəflətlər içində yatanlara bax,
Deməyim neyləyim, deyim neyləyim?

Aqillər azalıb, nadan çoxalıb,
Yolunu-tərsinə adan çoxalıb,
Təlimdən yarımçıq dadan çoxalıb,
Deməyim neyləyim, deyim neyləyim?

---

[147] Əqildən, kamaldan kəm məni boğur,
[148] Sinəm kökdən düşüb, bəm məni boğur.

Avamlıq, cəhalət bəşəri boğur,
Paxıllıq, xəyanət bəşəri boğur,[149]
Çəkişmə, ədavət bəşəri boğur,
Deməyim neyləyim, deyim neyləyim?

İnciyən-inciyir, bezənlər-bezir,
Əzilən-əzilir, əzənlər-əzir,
Səbr edib tablaşan dözənlər-dözür,[150]
Deməyim neyləyim, deyim neyləyim?

Haqqı-ədaləti əyənlər-əyir,[151]
Qazanan-qazanır, yeyənlər-yeyir,[152]
Bürünüb zərxara, geyənlər-geyir,
Deməyim neyləyim, deyim neyləyim?

Qanundan, qaydadan əsər qalmayıb,
Xalqa yetişəsi səmər qalmayıb,[153]
Sözlərdə-söhbətdə kəsər qalmayıb,
Deməyim neyləyim, deyim neyləyim?

Arvadlar əmr edib kişilik edir,
Gündə min bir dəfə naşılıq edir,
Qal-qovğa salaraq vəhşilik edir,[154]
Deməyim neyləyim, deyim neyləyim?

Təlimi verməklə götürən yoxdur,[155]
Nəsildən-nəslə ötürən yoxdur,
Kamal bağçasını bitirən yoxdur,[156]
Deməyim neyləyim, deyim neyləyim?

[149] Xəyanət, qəbahət bəşəri boğur.
[150] Darıxan darıxır, dözənlər dözür.
[151] Düzəlmiş işləri əyənlər-əyir.
[152] Zəhmətsiz, xidmətsiz yeyənlər-yeyir.
[153] Xalqıma çatası səmər qalmayıb.
[154] Naşılıq nədirki, vəhşilik edir.
[155] Təlimi verirsən götürən yoxdur.
[156] Sulayıb bağını bitirən yoxdur.

Qanmazlar qanana lağ eyləyirlər,
Çıxıb əndazədən ağ eyləyirlər,
Çəkib sinələrə dağ eyləyirlər,
Deməyim neyləyim, deyim neyləyim?

Yaxşını-yamanı gözlər seçməyir,
Yolaqlar tanımır, izlər seçməyir,
Oğullar seçməyir, qızlar seçməyir,
Deməyim neyləyim, deyim neyləyim?

Nə insafa, nə mürvətə baxan var,
Nə şərəfə, nə şöhrətə baxan var,
Nə namusa, nə qeyrətə baxan var,
Deməyim neyləyim, deyim neyləyim?

İlqardan-imandan dönən çoxalıb,
Onun zirvəsindən enən çoxalıb,
Vicdanı-məsləki sönən çoxalıb,[157]
Deməyim neyləyim, deyim neyləyim?

Qırışlar çoxalıb alında, üzdə,
Məhəbbət azalıb, baxışda, gözdə,
Abır da, ismət də qalmayıb bizdə,
Deməyim neyləyim, deyim neyləyim?

Deməklə nadanlar sözümü qanmır,
Haqqımı tanımır, düzümü qanmır,
İşarə anlamır, gözümü qanmır,
Deməyim neyləyim, deyim neyləyim?

Qəmlər yeriş edir, kef azalıbdır,
Qazanclar, gəlirlər, nəf azalıbdır,
Kim deyə bilər ki, səhv azalıbdır?
Deməyim neyləyim, deyim neyləyim?

Sözlərdə-söhbətdə yalan çoxalıb,
Əqrəblər-iblislər, ilan çoxalıb,
Dağılan, sökülən talan çoxalıb,[158]
Deməyim neyləyim, deyim neyləyim?

---

[157] Qaralıb, qarsıxıb sönən çoxalıb.
[158] Qazanıb verməmiş alan çoxalıb.

Çox mənəm deyənlər pozulub gedib,
İtirib dəyərin azalıb gedib,[159]
Çevrilib tərsinə yozulub gedib,
Deməyim neyləyim, deyim neyləyim?

Bəşərin övladı pozulub gedib,
İnsanlıq məhv olub, azalıb gedib,
Ədalət, həqiqət yozulub gedib,
Deməyim neyləyim, deyim neyləyim?

Cəmil Əkbər, deyib qurtar sözünü,
İtirmə əqlini, yumma gözünü,
Çaşma yolağını, azma izini,
Deməyim neyləyim, deyim neyləyim?

***Cəmil Əkbər*** 22.05 -1994

## 24. DEMƏYİM NEYLƏYİM, DEYİM NEYLƏYİM?

*III variant*

Oqədər dərdim var, qəmim var mənim,
Deməyim neyləyim, deyim neyləyim?
Əyərim, əksiyim kəmim var mənim,
Deməyim neyləyim, deyim neyləyim?

Şər deyib aranı qatanlar-qatır,
Vicdanı, məsləki satanlar-satır,
Qəflətlər içində yatanlar-yatır,
Deməyim neyləyim, deyim neyləyim?

Gədalar çoxalıb, sözümü qanmır,
Dağımı, daşımı, düzümü qanmır,
Yoluma gəlməyir, izimi qanmır,
Deməyim neyləyim, deyim neyləyim?

Doğruluğa, həqiqətə qəsd olur,
İnsanlığa, ləyaqətə qəsd olur,
Ədəb-ərkan, nəzakətə qəsd olur,
Deməyim neyləyim, deyim neyləyim?

[159] Dəyərin itirib, azalıb gedib.

Beylə gəşt eyləyir günümüz indi,
Səsimiz, küyümüz, ünümüz indi,
Üyünür dənimiz, unumuz indi,
Deməyim neyləyim, deyim neyləyim?

Arvadlar kişiyə kişilik edir,
Nadanlıq göstərib naşılıq edir,
Naşılıq nədirki, vəhşilik edir?!
Deməyim neyləyim, deyim neyləyim?

Alimə, loğmana lağ eyləyirlər,
Kiçik təpələri dağ eyləyirlər,
Çıxıb əndazədən ağ eyləyirlər,
Deməyim neyləyim, deyim neyləyim?

Yaxşını-yamanı gözlər seçməyir,
Ahları, amanı, gözlər seçməyir,
Məzhəb, din- imanı gözlər seçməyir,
Deməyim neyləyim, deyim neyləyim?

Nə insafa, nə mürvətə baxan var?
Nə xətirə, nə hörmətə baxan var?
Nə şərəfə, nə şöhrətə baxan var?
Deməyim neyləyim, deyim neyləyim?

Qırışlar çoxalıb alında, üzdə,
Məna da qalmayıb söhbətdə, sözdə,
Məhəbbət itibdir baxışda, gözdə,
Deməyim neyləyim, deyim neyləyim?

Qəm-kədər çoxalıb, kef azalıbdır,
Gəlir kasadlaşıb, nəf azalıbdır,
Mən deyə bilmərəm səhv azalıbdır,
Deməyim neyləyim, deyim neyləyim?

Ay Cəmil, deməyə söz oqədərdi,
Əyri oqədərdi, düz oqədərdi,
Abırsız, həyasız üz oqədərdi,
Deməyim neyləyim, deyim neyləyim?

***Cəmil Əkbər*** 22.05 -1994

## 25. DEMƏYİM NEYLƏYİM, DEYİM NEYLƏYİM?

*IV variant*

Dünyanın oqədər nadanları var,
Deməyim neyləyim, deyim neyləyim?
Təlimdən yarımçıq dadanları var,
Deməyim neyləyim, deyim neyləyim?

Veribdir qərarı Sahibi-zaman,
Bəxş edib bizlərə məzhəb, din iman,[160]
Alver dəbə düşüb genişdir imkan,[161]
Deməyim neyləyim, deyim neyləyim?

Gədə-güdə sözqananı anlamır,
İşarədən gözqananı anlamır,
Mətləbləri düzqananı anlamır,
Deməyim neyləyim, deyim neyləyim?

Hər yetən gədələr var sahibidir,
Yoldaş sahibidir, yar sahibidir,
Alma, heyva, nübar nar sahibidir,
Deməyim neyləyim, deyim neyləyim?[162]

Yol tapıb, iz tapıb başa çıxırlar,
Dırmaşıb zirvəyə qaşa çıxırlar,
Payızdan adlayıb qışa çıxırlar,
Deməyim neyləyim, deyim neyləyim?

Dünyanın oqədər dələduzu var,
Vicdanı kəmkəsir, qəlbi buzu var,
Səksəni, doxsanı, bəlkə yüzü var,
Deməyim neyləyim, deyim neyləyim?

---

160 Fürsəti bəxş edib, veribdir imkan,
161 Hərkəs alverdədir, açıbdır dükan,
162 *II variant* Hər yetən gədələr vara sahibdir,
İxtiyara, iqtidara sahibdir,
Gülüstana, çəmənzara sahibdir,
Deməyim neyləyim, deyim neyləyim?

Görmürsən olmayır, görürsən olmur,
Demirsən olmayır, deyirsən olmur,
Kiriyib susursan, dinirsən olmur,
Deməyim neyləyim, deyim neyləyim?

İncidir qəlbimi karsız olanlar,
Söyüdtək, ulğuntək barsız olanlar,
Namussuz, qeyrətsi, arsız olanlar,
Deməyim neyləyim, deyim neyləyim?

Şərəfsiz görməyir şöhrət əhlini,
İnsafsız, vicdansız, mürvət əhlini,
Abırsız, həyasız, ismət əhlini,
Deməyim neyləyim, deyim neyləyim?

Yormaynan özünü ay Cəmil Əkbər,
Çəkməynən qəm-qüssə, yeməynən kədər,
Ömrünü-gününü çürütmə hədər,
Deməyim neyləyim, deyim neyləyim?

***Cəmil Əkbər*** 22.05 -1994

**26. NEYLƏYİM?**

Yolunu-izini azan oqədər,
Danışım neyləyim, susum neyləyim?
Ünsiyyət-ülfəti pozan oqədər,
İnciyim neyləyim, küsüm neyləyim?

Gözgörəti həqiqəti danırlar,
Saf arzunu, pak niyyəti danırlar,
İnsanlığı, ləyaqəti danırlar,
Əlimi əllərdən kəsim neyləyim?[163]

Arada-bərədə hörmət qalmayıb,
Kəramət qalmayıb, mürvət qalmayıb,
Mənəvi gözəllik, sərvət qalmayıb,
Əsməyim neyləyim, əsim neyləyim?

[163] *II variant* Doğru-düzlük həqiqəti danırlar,
Ülviyyəti, qüdsiyyəti danırlar,
Saf arzunu, pak niyyəti danırlar,
Əlimi əllərdən kəsim neyləyim?

Hiyləgər, dələduz, bic əyyamıdır,
Sərsəri, kəmağıl, gic əyyamıdır,
Haqqa-ədalətə öc əyyamıdır, [164]
Sinirim neyləyim, qusum neyləyim?

Düzəldən azalıb, əyənlər çoxdu,
Zəhməti çəkmədən yeyənlər çoxdu,
Qəlblərə toxunub dəyənlər çoxdu,
Gizlənib neyləyim, pusum neyləyim?

Hər yetən gədəyə bəy deyənə bax?!
Alimə, loğmana key deyənə bax?!
Hatəm övladına göy deyənə bax?!
Azalıb tay-tuşum, dəsim neyləyim?

Yaxşılar azalıb, yamanlar artıb, [165]
Ah-nalə, qəm-qüssə, amanlar artıb,
Dağı sis bürüyüb, dumanlar artıb,
Gözləri kor edir, hisim neyləyim?

Göynədib qəlbimi yandırır bu dərd,
Eşqi-məhəbbəti söndürür bu dərd,
Vicdanı, məsləki dandırır bu dərd,
İşləmir altunum, misim neyləyim?

Dindirirlər, dillənirəm mən daha,
Yağdırırlar, sellənirəm mən daha,
Tərpədirlər, yellənirəm mən daha,
Kiriyim neyləyim, susum neyləyim?

Məni danışdıran haqqın səsidir,
Yaxşıyla-yamanın bəhsə-bəhsidir,
Doğruyla, əyrinin məhkəməsidir,
Sözümü gödəldim, qısım neyləyim?

Görürəm əyrilər düzə qəsd edir,
Söndürür ocağı, közə qəsd edir,
Cahillər, nadanlar bizə qəsd edir,
Susmayım neyləyim, susum neyləyim?

---

[164] Qanuna-qaydaya öc əyyamıdır.
[165] Zalımlar çoxalıb, yamanlar artıb.

Mənə danış deyən məhəbbətimdir,
Eşqimdir, andımdır, sədaqətimdir,
Deyib-danışmasam fəlakətimdir,
Xoş gəlmir avazım, səsim neyləyim?

***Cəmil Əkbər*** 15.05 – 1993

**27. DEYİRLƏR**

Deyirlərki qardaşım, ay həmkarım, yoldaşım,
Ay həmdəmim, sirdaşım, ay tay-tuşum, çağdaşım.
Yer üzündə, cahanda, hərzamanda, məkanda,
Yaşayacaq, duracaq, dolanacaq bir anda.
Gedəsilər gedəcək, gələsilər-gələcək,
Ağlayası-ağlayıb, güləsilər-güləcək.
Açasılar açacaq, solasılar-solacaq,
Boşalası-boşalıb, dolasılar-dolacaq.
Öləsilər-öləcək, qalasılar-qalacaq,
Fikirlərə, xəyala dalasılar-dalacaq.
Yüksələsi-yüksəlib, enəsilər-enəcək,
Yanasılar-yanacaq, sönəsilər-sönəcək.
Susasılar-susacaq, dinəsilər-dinəcək,
Pusasılar-pusacaq, sinəsilər-sinəcək.
Sinirəsi-sinirib, qusasılar-qusacaq,
İnciyəsi-inciyib, küsəsilər-küsəcək.
Arzusuna-məqsədə yetəsilər-yetəcək,
Əkiləsi-əkilib, bitəsilər-bitəcək.
Tapılası-tapılıb, itəsilər-itəcək,
Dayanası-dayanıb, ötəsilər-ötəcək.
Düşünənlər-düşünüb, sezəsilər-sezəcək,
Dözəsilər-dözəcək, bezəsilər-bezəcək,
Seyr eyləyib dünyanı, gəzəsilər-gəzəcək.
Üzəsilər-üzəcək, batasılar-batacaq,
Hər arzuya-mətləbə, çatasılar-çatacaq.
Uçasılar-uçacaq, qaçasılar-qaçacaq,
Yaşayası-yaşayıb, köçəsilər-köçəcək.
Biçiləsi-biçilir, seçiləsi-seçilir,
Böyüyəsi-böyüyür, kiçiləsi-kiçilir.
Qocalası-qocalır, ucalası-ucalır,
Bac alası bac alır, tac alası tac alır.
Əyiləsi-əyilir, düzələsi-düzəlir,

Canlanası-canlanır, nəziləsi-nəzilir.
Döyüləsi-döyülür, söyüləsi-söyülür,
Danlanası-danlanır, öyüləsi-öyülür.
Çoxalası-çoxalır, azalası-azalır,
Sarsılası-sarsılır, pozulası-pozulur.
İnləyəni-inləyir, sozalası-sozalır,
Düz olanı düzəlir, yozulası-yozulur.
Düşünəsi-düşünüb, qanasılar-qanacaq,
Haqq-sayı sümürüb, danasılar-danacaq.
Dolasılar-dolacaq, daşasılar-daşacaq,
Öz həddinə sığmayan, aşasılar-aşacaq.
Oxuyası-oxuyub, yazasılar-yazacaq,
Ünsiyyəti-ülfəti pozasılar-pozacaq.
Öz yanından düşünüb, qanasılar-qanacaq,
Tablaşmayıb-dözməyən, sınasılar-sınacaq.
Qəflətlərdə qərq olub, yatasılar-yatacaq,
Hər gün qələt eyləyib, günahlara batacaq.
Eşidəsi-eşidib, biləsilər-biləcək,
Gözlərindən dumanı, siləsilər-siləcək.
Düzəldənlər-düzəldib, əyəsilər-əyəcək,
Ünvanlara min böhtan, deyəsilər-deyəcək.
Qazananlar-qazanıb, yeyəsilər-yeyəcək,
Tikəsilər-tikəcək, geyəsilər-geyəcək.

Deyirlərki bu dünya əzəl gündən belədir,
Kimi ağa yaranıb, kimi ona kölədir.
Birisi qəmxanədir, birisi dəmxanədir,
Biri zilə köklənib, biri də bəmxanədir.
Bir yanda acı, qora, bir yanında zəhər var,
Bir yanında kef-damaq, bir yanında qəhər var.
Bir yanında isti var, bir yanında sərindir,
Bir tərəfi dayazdır, bir tərəfi dərindir.
Bir yanında gündüzdür, bir yanında gecədir,
Bilən yoxdur dünyanın kefi-halı necədir?

Deyirlərki dünyada əyri də var, düz də var,
Ünsiyyətdə-ülfətdə əməl də var, söz də var.
Bizim gözəl dünyada kaman da var, saz da var,
Dərk eyləyib qanmayan oğul da var, qız da var.
Nə etməli qardaşım, dünya belə qurulub?

Suyu belə çalxanıb, zaman-zaman durulub?
İnsan belə çalışıb, insan belə yorulub?
Yol-izini azaraq, insan belə burulub?
İnsan belə qocalıb, insan belə qarıyıb?
İnsan belə inləyib, insan belə zarıyıb?
İnsan belə yaşayıb, şilküt olub qırılıb?
İnsan belə düşünüb, xəyallara dalacaq,
Zəfərlərin təblini çala bilən çalacaq.

Əzəl gündən, binadan, dünya belə qurulub,
Suyu belə bulanıb, suyu belə durulub.
Nizamiyə nəzər sal, Füzuliyə nəzər sal!
Nəsimiyə nəzər sal, Xaqaniyə nəzər sal!
Sabirimə nəzər sal, Cavidimə nəzər sal!
Vaqifimə nəzər sal, Vurğunuma nəzər sal!
Get onlardan ilham al, get onları yada sal!
Get onlardan dərsin al, get onları işə sal!
Koroğluya nəzər sal, Nəbilərə nəzər sal!
Qafurlara nəzər sal, Həzilərə nəzər sal!
Get onlardan ibrət al, ilhamı onlardan al!
Harda olub-yaşasan, zəfərini orda çal!
Ucalana darılma, bac alana darılma!
El-obaya söykənib, güc alana darılma!
Xəbislikdən çatlayıb, gəl içindən qırılma!
Onun-bunun qoluna, qəjil olub sarılma!
Bu dövranda, həyatda, bu zamanda, büsatda,
Çalış sən də qardaşım, bu qurğuda-baratda.
Yatma gözüyuxulu, bu həyatı gör indi,
Öz borcunu xalqına, bir an qaytar, ver indi.
Bağçaları peyvənd et, meyvəsindən dər indi,
Həyat bunu istəyir, qoy qalmasın sirr indi.
Becərəsi bağları dərəsilər-dərirlər,
Xidmətini göstərib, verəsilər-verirlər.
Ay vəfalı yoldaşım, ay mehriban qardaşım,
Ay həmkarım, həmdəmim, ay səmimi sirdaşım.
Nə gedənə ağlama, nə gələnə ağlama,
Nə qalana darılma, nə ölənə ağlama.
Kədər çəkib, qəm yeyib, gəl sinəni dağlama!
Qəm-qüssəyə qərq olub, başa qara bağlama!

Eşit məni qardaşım, ay vəfalı yoldaşım,
Ay mehriban tay-tuşum, ay səmimi çağdaşım.
Həyat çəmənzarında çəmən-çiçək, gül oğlum!
Yatma qəflət içində, oxu-öyrən, bil oğlum!
Zəhmət çəkib can qoyan, arı kimi şan qoyan,
Bu torpağa tər tökən, süfrə açan, nan qoyan.
Şərəfə də çatacaq, şöhrətə də çatacaq,
Vara-hala, sərvətə, dövlətə də çatacaq,
Ləyaqətə, hörmətə, izzətə də çatacaq,
Kef-damağa çatacaq, ləzzətə də çatacaq.
Məqsədinin sonuna, doqquzuna, onuna,
Səadətin özünə, doxsanına, yüzünə.
Məqamında çatacaq, zamanında çatacaq,
Baxıb-baxıb işinə, ilhamını alacaq.
Bülbül kimi bağlarda ötəsilər-ötəcək,
Nəcib arzu-istəyə, yetəsilər-yetəcək.
Kəklik kimi qayada ötəsilər-ötəcək,
Cücərəsi cücərib, bitəsilər-bitəcək.
Dəryalarda, dənizdə sona kimi göllərdə.
Çeşmələrdə, çaylarda, irmaqlarda, sellərdə.
Üzəsilər-üzəcək, gəzəsilər-gəzəcək,
Şahin kimi səmada uçasılar-uçacaq.
Kamalından ziyanı saçasılar-saçacaq,
Uçanlara darılma, qaçanlara darılma,
Ziyasını cahana saçanlara darılma.
Bədxahlıqdan yorulma, qol-qılçaya sarılma,
Xain olub içindən, nə çatdama, cırılma.
Nadan, cəhdin əbəsdir, bu havayı həvəsdir,
Bu can deyil, cəsəddöy, bir quruca qəfəsdir.

Deyirlərki qardaşım, ay vəfalı yoldaşım,
Bu cahanda, dövranda, bu zamanda, məkanda,
Bu alhaal, sathasat, bu bazarda-dükanda.
Hamı bərabər deyil, hamı dilavər deyil,
Hamı can-ciyər deyil, hamı bəradər deyil.
Alaq kimi tarlada, bitənlər də az deyil,
Tikantək əl-ayağa, batanlar da az deyil.
Yolunası yolunur, saxlanası saxlanır,
Sınanası sınanır, yoxlanası yoxlanır.

Nə gedənə ağlama, nə gülənə ağlama!
Vaxtsız-vədəsiz gedənə, nə ölənə ağlama!
Hədər yerə əbəsdir, gəl sinəni dağlama!
Qəm-qüssələr içində başa qara bağlama!
Deyirlərki dəyirman bildiyini eyləyir,
Çax-çax başı ağrıdıb, əbəs yerə tərləyir.

***Cəmil Əkbər*** 27. 05 – 1986

## 28. TAMAH OLUB, NƏFS OLUB DEYİRLƏR

Səni məndən, məni səndən eləyən,
Tamah olub, nəfs olub deyirlər.
Səni mənə, məni sənə təliyən,
Tamah olub, nəfs olub deyirlər.

Səni məndən, məni səndən bezdirən,
Quzeylərdə, güneylərdə gəzdirən,
Əllərimi ətəyindən üzdürən,
Tamah olub, nəfs olub deyirlər.

Səni mənə, məni sənə sezdirən,
Möhübləri-möhüblərə düzdürən,
Səbr etdirib, tablaşdıran dözdürən,
Tamah olub, nəfs olub deyirlər.

Səni mənə, məni sənə tanıdan,
Diş qıcadıb, ağız büzüb yanıdan,
Gah enişdə, gah yoxuşda sınadan,
Tamah olub, nəfs olub deyirlər.

Səni mənə, məni sənə güldürən,
Vaxt-vədəsiz əldən salıb öldürən,
Səni elə, məni belə bildirən,
Tamah olub, nəfs olub deyirlər.

Səni mənə, məni sənə pis edən,
Bədxah edən, zalım edən, nəs edən,
Əvvəl-axır paxır edən, mis edən,
Tamah olub, nəfs olub deyirlər.

Səni mənə, məni sənə tay edən,
Ulduz edən, günəş edən, ay edən,
Gözdən salan, xarab edən, zay edən,
Tamah olub, nəfs olub deyirlər.

Şər danışıb, aramızı vuranlar,
Hiyləsini, kələyini quranlar,
Qərəz ilə qəsdimizdə duranlar,
Tamah olub, nəfs olub deyirlər.

Səni mənə, məni sənə calayan,
Odu-közü sinəmizə qalayan,
Eşqimizi tar-mar edən, talayan,
Tamah olub, nəfs olub deyirlər.

Səni mənə, məni sənə kəc edən,
Sərsəm edən, bədxah edən, gic edən,
Qəddar edən, zalım edən, öc edən,
Tamah olub, nəfs olub deyirlər.

Səni mənə, məni sənə xoş edən,
Həmdəm edən, həmkar edən, tuş edən,
Kənar edən, uzaq edən, çaş edən,
Tamah olub, nəfs olub deyirlər.

Səni mənə, məni sənə ləl edən,
Dəymiş edən, sütül edən, kal edən,
Arı edən, çiçək edən, bal edən,
Tamah olub, nəfs olub deyirlər.

Aramızda nə sərhəd var, nə sədd var?
Nə ayrılıq, nə seçkilik, nə hədd var?
Nə məftil var, nə tikan var, nə xətt var?
Tamah olub, nəfs olub deyirlər.

Aramızda nə qaya var, nə daş var?
Nə uçurum, nə gədik var, nə qaş var?
Nə dəniz var, nə dərya var, nə yaş var?
Tamah olub, nəfs olub deyirlər.

Aramızda nə daşqın var, nə sel var?
Nə çamır var, nə bataqlıq, nə göl var?
Nə tufan var, nə qasırğa, nə yel var?
Tamah olub, nəfs olub deyirlər.

Aramızda nə ilan var, nə kirpi?
Nə dəhrə var, nə balta var, nə törpü?
Nə otay var, nə butay var, nə körpü?
Tamah olub, nəfs olub deyirlər.

***Cəmil Əkbər***

## 29. ƏQİDƏNDİ, ƏQİDƏMDİ DEYİRLƏR

Səni məndən, məni səndən ayıran,
Əqidəndi, əqidəmdi deyirlər.
Səni məndən, məni səndən doyuran,
Əqidəndi, əqidəmdi deyirlər.

Səni, məni el-obaya tanıdan,
Bərkayaqda, boşayaqda sınadan,
Ağız büzüb, diş qıcadan, yanıdan,
Əqidəndi, əqidəmdi deyirlər.

Səni sən eyləyən, məni mən edən,
Səni qəmgin edən, məni şən edən,
Səni duman edən, məni gün edən,
Əqidəndi, əqidəmdi deyirlər.

Bizi ağ edən də, qara edən də,
Bizi tam edən də, para edən də,
Bizi üzüm edən, qora edən də,
Əqidəndi, əqidəmdi deyirlər.

Bizi yaxşı edən, pis eyləyən də,
Xeyirxah eyləyən, nəs eyləyən də,
Qızıl eyləyən də, mis eyləyən də,
Əqidəndi, əqidəmdi deyirlər.

Səni-məni xəlbirləyib seçən də,
Boya görə doğru xələt biçən də,
Qəlbimizdə yaşayan da, keçən də,
Əqidəndi, əqidəmdi deyirlər.

Bizi sevindirən, bizi bezdirən,
Bizi ayrı salıb, uzaq gəzdirən,
Hər əzaba, əziyyətə dözdürən,
Əqidəndi, əqidəmdi deyirlər.

Bizi sadə edən, xudbin edən də,
Bizi nikbin edən, bədbin edən də,
Bizi gözəl edən, çirkin edən də,
Əqidəndi, əqidəmdi deyirlər.

Bizi acı edən, şirin edən də,
Bizi dayaz edən, dərin edən də,
Bizi isti edən, sərin edən də,
Əqidəndi, əqidəmdi deyirlər.

Bizi qohum edən, yad eyləyən də,
Bizi qəmgin edən, şad eyləyən də,
Bizi zərif edən, cod eyləyən də,
Əqidəndi, əqidəmdi deyirlər.

Bizi böyüdən də, fil eyləyən də,
Kökləyə-kökləyə zil eyləyən də,
Yandırıb-yaxarıb kül eyləyən də,
Əqidəndi, əqidəmdi deyirlər.

Nə etməli, doğulmuşuq beləyik?
Ya tamaha, ya nəfisə köləyik,
Birbirinə qarşı duran küləyik,
Əqidəndi, əqidəmdi deyirlər.

Bu həyatdır, qınamıram səni mən,
Danlamıram, yanımıram səni mən,
Yada salıb unamıram səni mən,
Əqidəndi, əqidəmdi deyirlər.

Budur bizim aramızda fərqimiz,
Dastanımız, qəzəlimiz, şərqimiz,
Pərən düşüb, aralalanıb cərgəmiz,
Əqidəndi, əqidəmdi deyirlər.

Aramızda nə loğman var, nə təbib?
Nə həmkar var, nə həmdəm var, nə həbib?
Nə əzən var, nə əzilən, nə qalib?
Əqidəndi, əqidəmdi deyirlər.

Aramızda nə tüfəng var, nə top var?
Nə kəndir var, nə qəjil var, nə sap var?
Nə nağıl var, nə dastan var, nə gop var?
Əqidəndi, əqidəmdi deyirlər.

Səni məndən, məni səndən ayıran,
Səni məndən, məni səndən doyuran,
Səni elə, məni belə buyuran,
Əqidəndi, əqidəmdi deyirlər.

***Cəmil Əkbər*** 10 -15 / V – 1988

## 30. TAMAHINDI, TAMAHIMDI DEYİRLƏR

Səni məni əyri yola saldıran,
Tamahındı, tamahımdı deyirlər.
Sağa-sola, qeyri yola saldıran,
Tamahındı, tamahımdı deyirlər.

Məni səndən, səni məndən bezdirən,
Hər əzaba, əziyyətə dözdürən,
Cəhənnəmi diri-diri gəzdirən,
Tamahındı, tamahımdı deyirlər.

Səni məni canavara döndərən,
Bədfikirə, bədniyyətə göndərən,
Evlər yıxıb, çıraqları söndürən,
Tamahındı, tamahımdı deyirlər.

Səni məni el yanında pis edən,
Xain edən, bədxah edən, nəs edən,
Tüstü edən, duman edən, his edən,
Tamahındı, tamahımdı deyirlər.

Qanunları, qaydaları pozduran,
Düzfikiri tərsəməssəb yozduran,
Ona-buna dərin quyu qazdıran,
Tamahındı, tamahımdı deyirlər.

Ünsiyyəti-ülfətləri kəsdirən,
Qapıları-bacaları pusduran,
Çoxlarını sinirməmiş qusduran,
Tamahındı, tamahımdı deyirlər.

Səni mənə, məni sənə öldürən,
Şülən çəkib malımızı böldürən,
İnsanları gah ağladıb-güldürən,
Tamahındı, tamahımdı deyirlər.

Səni məni şöhrətindən endirən,
İnsafından-mürvətindən döndərən,
Namusundan, qeyrətindən söndürən,
Tamahındı, tamahımdı deyirlər.

Sənin, mənim mənliyimi puç edən,
Hörmətimi gözdən salıb heç edən,
İnsanları birbirinə kəc edən,
Tamahındı, tamahımdı deyirlər.

Səni elə, məni belə eyləyən,
Səni zalım, məni kölə eyləyən,
Səni acqurd, məni dələ eyləyən,
Tamahındı, tamahımdı deyirlər.

Səni, məni dönə-dönə çaşdıran,
Hüdudunu, sərhəddini aşdıran,
İlham verib, həvəs verib coşduran,

Tamahındı, tamahımdı deyirlər.
Məni dağa, səni külə döndərən,
Səni sısqa, məni filə döndərən,
Səni misə, məni lələ döndərən,
Tamahındı, tamahımdı deyirlər.

***Cəmil Əkbər*** 25. 05- 1988

## 31. DİLƏYİNDİ, DİLƏYİMDİ DEYİRLƏR

Səni-məni cəhalətə göndərən,
Diləyindi, diləyimdi deyirlər.
Avamlığa, nəhalətə göndərən,
Diləyindi, diləyimdi deyirlər.

Sənə də, mənə də yolu göstərən,
Bağımı, dağımı kolu göstərən,
Sağı nişan verib, solu göstərən,
Diləyindi, diləyimdi deyirlər.

Səni sən eyləyən, məni mən edən,
Səni qəmgin edən, məni şən edən,
Səni duman edən, məni gün edən,
Diləyindi, diləyimdi deyirlər.

Səni üfunətli, məni tərtəmiz,
Səni çox mülayim, məni çox qəliz,
Səni soyuqqanlı, məni də əziz,
Diləyindi, diləyimdi deyirlər.

Səni gözəl, məni çirkin eyləyən,
Səni sadə, məni nikbin eyləyən,
Səni kefqom, məni qəmgin eyləyən,
Diləyindi, diləyimdi deyirlər.

Səni qoca, məni cavan eyləyən,
Səni əyri, məni rəvan eyləyən,
Məni aşkar, səni pünhan eyləyən,
Diləyindi, diləyimdi deyirlər.

Məni böyük, səni kiçik eyləyən,
Məni razı, səni incik eyləyən,
Məni sədəf, səni muncuq eyləyən,
Diləyindi, diləyimdi deyirlər.

Məni erkək, səni dişi eyləyən,
Məni arif, səni naşı eyləyən,
Səni üzük, məni qaşı eyləyən,
Diləyindi, diləyimdi deyirlər.

Səni yarğan, məni zirvə eyləyən,
Səni cələf, məni zorba eyləyən,
Səni çuval, məni torba eyləyən,
Diləyindi, diləyimdi deyirlər.

Məni danışdıran, səni dindirən,
Məni alışdıran, səni söndürən,
Mənə dağ aşdıran, səni endirən,
Diləyindi, diləyimdi deyirlər.

***Cəmil Əkbər*** 26. 10 -1988

**32. YOLDAŞINDI, YOLDAŞIMDI DEYİRLƏR**

Şərəfimə, şöhrətimə darılan,
Yoldaşındı, yoldaşımdı deyirlər.
Xainlikdən için-için qırılan,
Yoldaşındı, yoldaşımdı deyirlər.

Ömürboyu sənə pislik eyləyən,
Ya acgözlük, ya hərislik eyləyən,
Ya höcətlik, ya da nəslik eyləyən,
Yoldaşındı, yoldaşımdı deyirlər.

Düz sözünü tərsəməssəb yozan da,
Ayaq altdan asta-asta qazan da,
Ünsiyyəti korlayan da, pozan da,
Yoldaşındı, yoldaşımdı deyirlər.

Öz-özünü tərifləyib öyənlər,
Mənliyinə toxunanlar, dəyənlər,
Ünvanına diş qıcayıb, söyənlər,
Yoldaşındı, yoldaşımdı deyirlər.

Yeməmişdən, içməmişdən məsd edən,
Qisas alan, qərəz edən, qəsd edən,
İnsanları insanlarla dost edən,
Yoldaşındı, yoldaşımdı deyirlər.

Bizi karlı, ya da karsız eyləyən,
Bizi varlı, ya da varsız eyləyən,
Bizi arlı, ya da arsız eyləyən,
Yoldaşındı, yoldaşımdı deyirlər.

Yaxşıya-pis, pisə-yaxşı qatan da,
İnsafını, mürvətini atan da,
Dəyərinə, dəyməzinə satan da,
Yoldaşındı, yoldaşımdı deyirlər.

Səni məni haldan salıb bezdirən,
Möhübləri culaşdıran, düzdürən,
Ünsiyyəti, ülfətləri üzdürən,
Yoldaşındı, yoldaşımdı deyirlər.

Səni-məni el obada tanıdan,
Bərkdə-boşda dar məqamda sınadan,
Yadasalan, xatırladan, unudan,
Yoldaşındı, yoldaşımdı deyirlər.

Səni-məni dönə-dönə aldadan,
Bədfikirə, bədəmələ yolladan,
Xətalardan, bəlalardan daldadan,
Yoldaşındı, yoldaşımdı deyirlər.

Dar məqamda harayında duran da,
Bezikdirib, haldan salıb yoran da,
Başı üzüb, iliyini vuran da,
Yoldaşındı, yoldaşımdı deyirlər.

***Cəmil Əkbər*** 27. 05 – 1988

## 33. DEYİRLƏR (1)

Səni qəliz, məni pilə eyləyən,
Nəsilindi, nəsilimdi deyirlər.
Səni ac qurd, məni dələ eyləyən,
Əsilindi, əsilimdi deyirlər.

Səni ağa, məni kölə eyləyən,
Səni Nofəl, məni Lələ eyləyən,
Səni elə, məni belə eyləyən,
Fəsilindi, fəsilimdi deyirlər.

## 34. DEYİRLƏR (2)

Sənə nifrət, mənə hörmət gətirən
Sənə möhnət, mənə şöhrət gətirən,
Sənə qorxu, mənə qeyrət gətirən,
Ürəyindi, ürəyimdi deyirlər.

Mənə sevinc, sənə kədər gətirən,
Mənə qürur, sənə xətir gətirən,
Mənə ilham, sənə qəhər gətirən,
Ürəyindi, ürəyimdi deyirlər.

## 35. DEYİRLƏR (3)

Məni sağlam, səni zədə eyləyən,
Məni kişi, səni gədə eyləyən,
Səni çağa, məni dədə eyləyən,
Kamalındı, kamalımdı deyirlər.

Səni dağa, məni bağa göndərən,
Səni şora, məni yağa göndərən,
Səni sola, məni sağa göndərən,
Kamalındı, kamalımdı deyirlər.

## 36. DEYİRLƏR (4)

Məni girli, səni girsiz eyləyən,
Məni zərli, səni zərsiz eyləyən,
Məni tərli, səni tərsiz eyləyən,
Taleyindi, taleyimdi deyirlər.

Məni gözəl, səni çirkin eyləyən,
Məni sadə, səni xudbin eyləyən,
Məni nikbin, səni bədbin eyləyən,
Taleyindi, taleyimdi deyirlər.

## 37. DEYİRLƏR (5)

Səni ora, məni bura göndərən,
Məni kara, səni kora döndərən,
Məni tərlan, səni sara göndərən,
Vətənindi, vətənimdi deyirlər.

Məni məğrur, səni yaltaq eyləyən,
Məni məmnun, səni şıltaq eyləyən,
Məni arlı, səni sırtıq eyləyən,
Vətənindi, vətənimdi deyirlər.

***Cəmil Əkbər*** 27. 05 – 1988

## 38. DEYİRƏM QANMIR

Nə deyim, danışım nadan kəslərə?
Yazıram anlamır, deyirəm qanmır.
Yolunu tərsinə adan kəslərə?
Yazıram anlamır, deyirəm qanmır.

Söz əsər eyləmir arsız bəndəyə,
Söyüdtək, ulğuntək barsız bəndəyə,
Müqəvvasayağı karsız bəndəyə,
Yazıram anlamır, deyirəm qanmır.

Yaxşılara pis deməkdən yorulmur,
Xeyirxaha nəs deməkdən yorulmur,
Mülayimə tərs deməkdən yorulmur,
Yazıram anlamır, deyirəm qanmır.

Haçandan bəridir özünə gəlmir,
Dolanır tərsinə, düzünə gəlmir,
Yola məhəl qoymur, izinə gəlmir,
Yazıram anlamır, deyirəm qanmır.

Nə deyim, danışım belə millətə?
O səbəbdən düçar olur zillətə,
Bais olur küdurətə, nifrətə,
Yazıram anlamır, deyirəm qanmır.

Xeyrini desən də, şər başa düşür,
Hiyləgər tülkünü nər başa düşür,
İgid başa düşür, ər başa düşür,
Yazıram anlamır, deyirəm qanmır.

Yerli-yersiz ədasından utanmır,
Çıxardığı sədasından utanmır,
Babasından, dədəsindən utanmır,
Yazıram anlamır deyirəm qanmır.

İnsanda bu qədər korluq olarmı?
Eşidib qanmamaq, karlıq olarmı?
Kəc fikirlik, kəc xəyallıq olarmı?
Yazıram anlamır, deyirəm qanmır.

Nə deyib yazasan belə xilqətə?
Belə müsibətə, belə dəhşətə?
Belə dərd-azara, belə hillətə?
Yazıram anlamır, deyirəm qanmır.

Yaxşını tanımır, yamanı görmür,
Üzünü bürüyən dumanı görmür,
Məsləki, vicdanı, imanı görmür,
Yazıram anlamır, deyirəm qanmır.

***Cəmil Əkbər*** 29. 06 – 1994

## 39. DEYİRSƏN İNANMIR, ANLAMIR, QANMIR

Dad-hazar eylərəm nadan kimsədən,
Deyirsən inanmır, anlamır, qanmır.
Yolunu tərsinə adan kimsədən,
Deyirsən inanmır, anlamır, qanmır.

Özü də bilməyir, hayana gedir?
Nə mətləb dinləyir, nə məqsəd güdür?
Avamlıq, cəhalət qəlbini didir,
Deyirsən inanmır, anlamır, qanmır.

Nə deyəsən kütbeyinə, keylərə?
Kəmağıla, dəngəsərə, səylərə?
Gədələrdən taxta çıxan bəylərə?
Deyirsən inanmır, anlamır, qanmır.

Söz əsər eyləmir gic oğlu-gicə,
Xain oğlu xain, kəc oğlu-kəcə,
Qanuna, qaydaya öc oğlu-öcə,
Deyirsən inanmır, anlamır, qanmır.[166]

Nəqədər söz deyib Nizami babam,
Nəsimi, Füzuli, Xaqani babam,
Cavidim, Sabirim, Şirvani babam,
Deyirsən inanmır, anlamır, qanmır.

Eşidən tapılmır ürək sözünü,
İdrak cövhərini, zirək sözünü,
Ellərə, obaya gərək sözünü,
Deyirsən inanmır, anlamır, qanmır.

Bilmirsən nə deyib, nə danışasan?
Nə sual verəsən, nə soruşasan?
Kimlə dalaşasan, ya barışasan?
Deyirsən inanmır, anlamır, qanmır.

---

[166] *II variant* Gör nələr çəkirik giclər əlindən?
İlqara-imana kəclər əlindən?
Qanuna, qaydaya öclər əlindən,
Deyirsən inanmır, anlamır, qanmır.

İncitmə qəlbini ay Cəmil Əkbər,
Bu dünya belədir, çəkmə qəm-kədər,
Nəqədər köç etdi, getdi bixəbər?
Deyirsən inanmır, anlamır, qanmır.

***Cəmil Əkbər*** 15. 08 -1994

**40. QANIR?**

Atanın, ananın ərköyünləri,
Nə hünər göstərir, nə zəhmət qanır?[167]
Kütbeyin, kəmağıl, yelbeyinləri,[168]
Nə xətir gözləyir, nə hörmət qanır?

Seyredib gəzməkdi arzu-muradı,
Söz desən bezməkdi arzu-muradı,
Canını üzməkdi arzu-muradı,
Nə şərəf tanıyır, nə şöhrət qanır?

Düşünüb dərk etmir, uzağı görmür,
Zalımın əlində yazığı görmür,
Tufanı, boranı, sazağı görmür,
Nə insaf, nə vicdan, nə mürvət qanır?[169]

Vaxtını, vədəni keçirər hədər,
Ellərə gətirər qüssə-qəm, kədər,
Özünü düşünər, özünü güdər,
Nə abır, nə həya, nə ismət qanır?[170]

Ariflər tanıyır, görənlər bilir,[171]
Dost-qohum ağlayır, düşmənlər gülür,
Utanıb yerinə özgələr ölür,
Nə məzmun, nə məna, nə hikmət qanır?

---

[167] Nə zəhmət çəkirlər, nə xidmət qanır.
[168] Dəngəsər, sərsəri, yelbeinləri.
[169] *II variant* Anlayıb qanmır ki, ləyaqət də var,
Doğruluq, düzgünlük, həqiqət də var,
Ədəb var, ərkan var, nəzakət də var,
Nə insaf, nə vicdan, nə mürvət qanır.
[170] *II variant* Günəşdən qaçırlar, kölgələnirlər,
Beşikdə, nənnidə yürgələnirlər,
Gözündən, qaşından sürmələnirlər,
Nə abır, nə həya, nə ismət qanır.
[171] Ariflər tanıyır, eşidən bilir.

Demir ki, layiqli babalarım var,
Yolumu gözləyən oylaqlarım var,
Səfalı aranım, yaylaqlarım var,
Nə əsil, nə nəsil, nəcabət qanır?[172]

Anlamır işarə, anlamır gözü,
Görməyir əyrini, seçməyir düzü,
Almayır məsləhət, eşitmir sözü,
Nə öyüd götürür, nəsihət qanır?[173]

Söz demək istəsən xətrinə dəyir,
Toxunub qəlbinə, qəddini əyir,
Özgəni pisləyib, özünü öyür,
Nə hörmət, ehtiram, məhəbbət qanır?

Düzünə getməyir yolu, ərkanı,
Çətinə, əzaba salmayır canı,
Əsəbin korlayıb qaraltmır qanı,
Nə avamlıq qanır, cəhalət qanır?

Görmək istəməyir qocalanları,
Zəhmətlə, hünərlə ucalanları,
Hünər meydanında bac alanları,
Nə ar-namus qanır, nə qeyrət qanır?

Qəflət yuxusundan ayıla bilmir,
Tanınıb, seçilib, sayıla bilmir,
Car olub ad-sanı yayıla bilmir,
Nə haqq-divan görür, ədalət qanır?

---

[172] *II variant* Yaxını görənmir, uzağı qanmır,
Soyuğu düşünmür, sazağı qanmır,
Zalımı pəsinmir, yazığı qanmır,
Nə əsil, nə nəsil, nəcabət qanır.

[173] *II variant* İşarəni, qanmır gözü anlamır,
Deyib-danışırsan sözü anlamır,
Haqqı-ədaləti, düzü anlamır,
Nə öyüd götürür, nəsihət qanır.

Ağlatsanda, güldürsəndə hədərdir,
Diriltsəndə, öldürsəndə hədərdir,
Düz fikrini bildirsəndə hədərdir,[174]
Nə cəza anlayır, nə töhmət qanır?

Yersiz-yersiz ədasından utanmır,
Dəbdən-dəbə modasından utanmır,
Nifrətlənən sədasından utanmır,
Nə xəcalət çəkir, nə möhnət qanır?

Yalvarsan, yaxarsan sözünə baxmır,
Xəyalı göydədir, üzünə baxmır,
Yolunu xoşlamır, izinə baxmır,
Nə xahiş, təvəqqi, nə minnət qanır?[175]

Ey Cəmil, danışıb qurtar sözünü,
Əbəsdir, havayı yorma özünü,
Çətinə düşəndə döyər gözünü,
Nə dözüm, nə durum, dəyanət qanır?[176]

***Cəmil Əkbər*** 4. 05 -1979

**41. QANIR?**

Sıramızda oqədərdi beləsi?
Nə xətir anlayır, nə hörmət qanır?
Çox ağırdır namərdlərin şələsi,
Nə hiddət anlayır, nə nifrət qanır?

Çoxlarını korlayıbdır zəmanə,
Alıbdır əqlini, edib divanə,
Özüdə-özünə olub biganə,
Nə insaf, kəramət, nə mürvət qanır?

[174] Öyrətsəndə, bildirsəndə hədərdir.
[175] *II variant* Yalvarsan, yaxarsan sözünə baxmaz,
Xəyalı göydədir, üzünə baxmaz,
Yolunu gözləməz, izinə baxmaz,
Nə xahiş eşidir, nə minnət qanır?
[176] Anlayar, bilər ki, bu həyat nədir.

Üzündə-gözündə həya qalmayıb,
Əqidə qalmayıb, qayə qalmayıb,
Təlimi düz verən dayə qalmayıb,
Nə abır gözləyir, nə ismət qanır?

Hərə bir diyarda öz kefindədir,
Gəliri, çıxarı, öz nəfindədir,
Öz zurna-qavalı, öz dəfindədir,
Nə şərəf tanıyır, nə şöhrət qanır?

Haqqı tapdalayıb zülmətə salır,
Əzab-əziyyətə, zillətə salır,
Min bir dərdə salır, hillətə  salır,
Nə qulluq göstərir, nə xidmət qanır?

Nəqədər ürəklər daşa dönübdür,
Fikirlər, xəyallar çaşa dönübdür,
Təkha deyil qoşa-qoşa dönübdür,
Nə xahiş eşidir, nə minnət qanır?

Çoxları yurdunu, yerini bilmir,
Dayazda girlənir, dərini bilmir,
Bürküyə düşməyib, sərini bilmir,
Nə məna, nə məzmun, nə hikmət qanır?

Obadan utanmır, eldən çəkinmir,
Begemont tanımır, fildən çəkinmir,
Fitnədən, fəsaddan, feldən çəkinmir,
Nə bəşər düşünür, nə millət qanır?

Yeyirlər, içirlər, məzələnirlər,
Bəzənib, düzənib, təzələnirlər,
Nəsildən-nəslə çözələnirlər,
Nə nicat göstərir, nə nüsrət qanır?

Məhəl qoymayırlar fərmanlara da,
Möhtacha deyillər, dərmanlara da?
Münəccim, alimə, loğmanlara da?
Nə dövlət tanıyır, nə hökmət qanır?

Nəqədər var imiş qanısoyuqlar,
Müqəvvasayağı, canı soyuqlar,
Süfrəsi qəhətlər, nanı soyuqlar,
Nə hünər, nə zəfər, nə hikmət qanır?

Cəmil Əkbər beləsindən dad-hazar,
Ünsiyyət tanımaz, ülfəti pozar,
Nifrət ilə yada salıb hey yazar,
Nə eyham anlayır, nə diqqət qanır?

***Cəmil Əkbər*** 25. V- 1994

**42. QANIR**

Sözüm yetişməyir karqulaqlara,
Düzünə anlamır, tərsinə qanır.
Yolları-izləri darqulaqlara,
Toxunur xətrinə, hirsinə qanır.

Nə deyim, danışım kar olanlara?
Bayquş təbiətli sar olanlara?
Cəhalət içində xar olanlara?
Toxunur yağrına, kirsinə qanır.

Sözün əsəri yox key beyinlərə,
Kamalsız, ağılsız səy beyinlərə,
Yetişmək bilməyən göy beyinlərə,
Toxunur əslinə, nəslinə qanır.

Qandırmaq olmayır başıboşları,
Vicdansız, məsləksiz qəlbidaşları,
Fili bəyənməyən alabaşları,
Yaxşıya baxanmır, pisinə qanır.

Cəmil Əkbər, oqədərdi beləsi,
Çox ağırdır, qurğuşundur şələsi,
Xam olubdur əzəl gündən lələsi,
Sanır ki, söz gülləm dəsinə qanır.

***Cəmil Əkbər*** 5. 02 – 1998

## 43. QANMIR

Heyifki nadan da çəkilir başa,[177]
Bilməyir baş hara, ayağı qanmır.
Nə deyəsən əhli-kefə, çaşbaşa, [178]
Eyləmir köməyi, dayağı qanmır.

Nəsili, əsili tamam şarlatan,
Qəlbindən insafı, mürvəti atan,
Əbədi qərq olub qəflətdə yatan,
Ayığı, sayığı, oyağı qanmır.[179]

Əqlikəmlər, köküzaylar nə isə,
Aldanıb tamaha, uyub nəfisə,
Qiymət vermir nə yaxşıya, nə pisə,
Yaxını görməyir, uzağı qanmır.[180]

Soyuqdur vicdanı, qəlbi qar kimi,
Nitqi laldır, qulaqları kar kimi,
İdrakı, zəkası, gözü kor kimi,
Bəzəyi, düzəyi, boyağı qanmır.[181]

---

[177] Nadan da istəyir çəkilsin başa,

[178] 1) Gəlmişəm əlindən deyirəm haşa, 2) Vururlar qəlbini zalımlar daşa,

[179] *II variant* Qərq olub əbədi qəflətdə yatan,
Qəlbindən insafı, vicdanı atan,
Əsili, nəsili tamam şarlatan,
Ayığı, sayığı, oyağı qanmır.

*III variant* Soxulur canına tikantək batır,
Qərq olub qəflətdə əbədi yatır,
İnsafı, mürvəti nəki var atır,
Ayığı, sayığı, oyağı qanmır.

[180] *II variant* Əsli, zatı, kökü zaylar nə isə,
1) Düz qiymət verməyir yaxşıya, pisə, 2) Əsirdir şöhrətə, uyub nəfisə,
3) Aldanır tamaha, uyur nəfisə,
Qiyməti düz vermir yaxşıya, pisə,
Görməyir yaxını, uzağı qanmır.

[181] *II variant* Vicdanı buz kimi, qəlbi qar kimi,
Dili laldır, qulaqları kar kimi,
İdrakı, zəkası, gözü kor kimi,
Ənliyi, kirşanı, boyağı qanmır.

El içində adı-sanı olmayan,
Elmdən xəbəri, halı olmayan,
Qəlbində vicdanı, qanı olmayan,
Parlaq kəhkəşanı, mayağı qanmır.[182]

Hər gün döşürərək heyva, nar yeyən,
Nə keçsə sümürüb bir anbar yeyən,
Əlinə keçəndən nəki var yeyən,[183]
Hayıfki bar verən budağı qanmır.

Əyləşib, oturub istiyerdədir,
Dostlarla, tanışla dəstəyerdədir,
Loğmanı tapılmır, xəstə yerdədir,
Hiss etmir soyuğu, sazağı qanmır.

Gözləri qapanıb haqq-ədalətin,
Dərisi soyulur yazıq millətin,
İtibdir qiyməti hər ləyaqətin,
Nə məzlum, nə fəqir, yazığı qanmır.

Başında düşüncə, kamal olmayan,
İnsanlıq naminə amal olmayan,
Görməyə, baxmağa camal olmayan,
Dəhanı, dodağı, yanağı qanmır.

Cəmil, sadalama qanan qanmazı,
Törpüdəyməz, baltakəsməz yonmazı,
Abırsız, həyasız, o utanmazı,
Tanımır solunu, nə sağı qanmır.[184]

***Cəmil Əkbər*** 1962

---

[182] *II variant* Halaldan mayası, qanı olmayan,
Gövhərdən mədəni, kanı olmayan,
Hörməti, izzəti, nanı olmayan,
Parlaq kəhkəşanı, mayağı qanmır

*III variant* Ürəkdə vicdanı, qanı olmayan,
Əqili, kamalı hanı, olmayan?!
El içində adı, sanı olmayan,
Parlaq kəhkəşanı, mayağı qanmır.

[183] Almadan, armuddan nəki var yeyən.

[184] *II variant* Cəmil, sadalama qanan qanmazı,
Yada salıb dost-aşnanı anmazı,
Pis işdən əl çəkib heç utanmazı,
1) Azıbdı solunu, nə sağı qanmır. 2) Naşı balı, yağı, qaymağı qanmır.

## 44. OXU BU MƏKTUBU

Oxu bu məktubu ay Vətən oğlu,
Nəvaxtdan bəridir cəhalətdəsən.
Qulaqların səqir, gözlərin bağlı,[185]
Nadanlıq içində qəbahətdəsən.[186]

Qəlbində yaşayır, kinin nəqədər?
İblisin, əqrəbin, cinin nəqədər?
Yolunu göstərir dinin nəqədər?
Düz yola gəlmirsən, xəyanətdəsən.[187]

Haçandan bəridir qovğa-qaldasan?
Özün də bilmirsən heç nə haldasan?
O səbəbdən hər millətdən daldasan,
Davada-dalaşda, ədavətdəsən.[188]

Düzələ bilmirsən doğru yollara,
Qurşanıb gedirsən əyri yollara,
Özgə fikirlərə, qeyri yollara,
Bilmirsənmi indi nihayətdəsən?

Dava-dalaşlardan açılmır başın,
Dolaşıb kələfin, dolaşıb işin,
Gödəlir ömürün, kəsilir yaşın,
Xətada-bəlada cinayətdəsən.

Tapdanır hüququn, tapdanır haqqın,
Nəqədər istəsən güc verib zıqqın,
Bir deyil, beş deyil vicdanı satqın,
Gileydə-güzarda şikayətdəsən.

---

[185] İtirmə düşüncə, dərrakə, ağlı,
[186] Avamlıq hökm edir, qəbahətdəsən.
[187] Paxıllıq, xainlik, xəyanətdəsən.

[188] *II variant* Düşmüsən nəyaman qovğa-qaldasan,
Əyri fikirlərdə, əyri yoldasan,
O səbəbdən geridəsən, daldasan,
Davada-dalaşda, ədavətdəsən.

Nəqədər deyilib qana bilmirsən?!
Xalqının dərdinə yana bilmirsən?!
Atıb avamlığı dana bilmirsən?!
Düşüb müsibətə fəlakətdəsən. [189]

Xainlik, xəbislik qəlbini didir,
Kimsəyə bəllidöy, nə məqsəd güdür?
Bu yazıq millətə gör nələr edir?
Düşmüsən zindana zəlalətdəsən.

İblislər, əqrəblər başını qatıb,[190]
Xəyalını qatıb, huşunu qatıb,
Əməlini qatıb, işini qatıb,
Bilmirsən ay yazıq nə halətdəsən?

Ülfət-ünsiyyəti pozub gedirsən,
Doğrunu əyriyə yozub gedirsən,[191]
Yolunu-izini azıb gedirsən,
Özün də bilmirsən nə niyyətdəsən?

Öldürən də sənsən, ölən də sənsən,
Ağlayan da sənsən, gülən də sənsən,
Gözünün yaşını silən də sənsən,
Sanmaki fəhmdə, fərasətdəsən.

Haçandan silinmir qəlbinin pası?
Azalmır matəmi, yox olmur yası?
Baxdırma falına, qurdurma tası?
Qəzəbdə, hiddətdə, küdurətdəsən.

***Cəmil Əkbər*** 24. 05 – 1993

---

[189] *II variant* Nəqədər deyilib əsəri yoxdur,
Tükənib faydası, səməri yoxdur,
İtibdir, batıbdır, xəbəri yoxdur,
Taleyin bəd gəlib, fəlakətdəsən.

[190] Tamahın, nəfisin başını qatıb.
[191] Doğrunu tərsinə yozub gedirsən.

## 45. ŞİKAYƏT

Niyə doğulmayır Nizamim yenə?
Oyanıb gəlməyir Füzulim yenə?
Nəsirəddin Tusim, Xaqanim yenə?
Nəsimi, Hadimiz, Sabirim yenə?
Seyid Əzim Şirvani, Cəlilim yenə?
Vidadim, Vaqifim, Səmədim yenə?
Cavadım, Cavidim, Müşviqim yenə?

Xalqımız qərq olub dumana, çənə,
Gəlməyir səs-küyə, gəlməyir ünə.
Hayanda qalıbdır kamal sahibi?
Əqidə sahibi, amal sahibi?
Xalqımız yolunu, izini çaşıb,
Əyrisini çaşıb, düzünü çaşıb.
Böhtan deyən çoxdur, şər deyən çoxdur,
Hər zirə-zibilə, zər deyən çoxdur.
Kor olub yaxşıya, pis deyən artıb,
Xeyirxah kəslərə, nəs deyən artıb,
Qızıla, gümüşə, mis deyən artıb.
Yolunu, izini azan çoxalıb,
Şər-böhtan danışan, yazan çoxalıb,
İnciyib küsənlər, bezən çoxalıb.
Əzab, əziyyətə dözən çoxalıb,
Ünsiyyət, ülfəti pozan çoxalıb.

Niyə doğulmayır Nizamim yenə?
Nəsimi, Xaqani, Füzulim yenə?
Gəlməyir səs-küyə, gəlməyir ünə,
Xalqımız qərq olub yaman pis günə.

***Cəmil Əkbər***

## 46. İKİ YOL

Yaşamağa iki yol var,
Biri sağ var, biri sol var.
Bu dünyada iki yol var,
İki qaj var, iki qol var.

Biri əyri, biri düzdür,
Biri dərin, biri üzdür.
Biri ondur, biri yüzdür,
Biri isti, biri buzdur.

O yol da var, bu yol da var.
Biri saxta, biri yalan,
Biri qəhət, biri kalan.
Biri açan, biri solan,
Biri əqrəb, biri ilan.
Biri çətin, biri qəliz,
Biri çirkli, biri təmiz.

O yol da var, bu yol da var.
Biri acı, biri baldır,
Biri qara, biri aldır.
Biri dəymiş, biri kaldır,
Biri dilli, biri laldır,
Biri nömrə, biri xaldır.

O yol da var, bu yol da var.
Biri qara, biri ağdır,
Biri xəstə, biri sağdır.
Biri çisgin biri duman,
Biri yaxşı, biri yaman.
Biri əla, biri pisdir,
Biri bədxah, biri nəsdir.
Biri qızıl, biri misdir,
Biri həlim, biri tərsdir.
Biri çirkab, biri ətir,
Oxu, öyrən sətir-sətir.
Sən də becər, bəslə, yetir,
Nə bacarsan görüb-götür.
Oğul gərək görüb, bilə,
Yorulmayıb gedib gələ.
Bülbül kimi qona gülə.
Yaşamasın ölə-ölə,
Xeyir verə xalqa, elə.

Bu yol da var, o yol da var.
Biri qəzəb, biri hiddət,
Biri acıq, biri nifrət.
Biri doğru, biri qələt,
Biri rəhmət, biri lənət.

O yol da var, bu yol da var.
Oğul gərək düz yol seçə,
Gecikməyə tez yol seçə.
Yüz ölçsədə bir yol biçə,
Ələ şərbət alıb içə.

O yol da var, bu yol da var.
Biri həyat, biri ölüm,
Biri nəşə, biri zülüm,
Özün seçib, götür gülüm.

O yol da var, bu yol da var.
Düşmə dağa, düşmə daşa,
Nə borana, nə də qışa.
Dolanma gəl çaşa-çaşa,
Eylə tövbə, deyin haşa.

O yol da var, bu yol da var.
Biri isti, biri sərin,
Biri acı, biri şirin.
Biri dayaz, biri dərin,
Hara xoşdur orda görün.

O yol da var, bu yol da var.
Biri geniş, biri dardır,
Biri günəş, biri qardır,
Görməyənlər gözü kordur.
Bəlkə qulaqları kardır,
Gen dünyası başa dardır.

O yol da var, bu yol da var.
Lənət, yolu azanlara,
Doğrunu səhv yazanlara.
Düzü tərsə yozanlara,
Ünsiyyəti pozanlara,
Ayaq altdan qazanlara.

Cəmil Əkbər, bəsdir daha,
Oyan qardaş, yatma daha.
Biri saray, biri kaha,
O bağ da var, bu kol da var,
O cığır da, bu yol da var.

***Cəmil Əkbər*** 12. 08 – 1992

### 47. BƏYƏNMİR

*Aşıq Abbas Tufarqanlıya nəzirə*

*I variant*

Sən deyən zəmanə gəlibdir yenə,
*"Alaqarğa şux tərlanı bəyənmir"*
Səs-küyə düşübdür, gəlibdir ünə,
Mürvətsizlər mürvətlini bəyənmir.

Azalıb üz-gözdə qalmayıb həya,
Əqidə, məslək də gedibdir zaya,
Yetişmir haraya gəlməyir dayə,
İsmətsizlər ismətlini bəyənmir.

Didişir, vuruşur xeyr ilə şər,
Dil tapa bilməyir bu yazıq bəşər,
Davadı, dalaşdı daim sərbəsər,
Qeyrətsizlər qeyrətlini bəyənmir.

Xeyirxah bədxahdan, pisdən inciyir,
Höcətdən, inaddan, tərsdən inciyir,
Xaindən, xəbisdən, nəsdən inciyir,
Şöhrətsizlər şöhrətlini bəyənmir.

İçindən nəqədər darılan da var,
Çatlayıb, partlayıb, yarılan da var,
Tablaşıb, dözməyib qırılan da var,
Hikmətsizlər hikmətlini bəyənmir.

Cəmil Əkbər, mərd namərdə tay deyil,
Yüz dilbilməz bir həmdərdə tay deyil,
Xəsis, simic, Hatəmlərə tay deyil,
Cürətsizlər, cürətlini bəyənmir.

***Cəmil Əkbər*** 8. 02 - 1991

## 48. BƏYƏNMİR

*Aşıq Abbas Tufarqanlıya nəzirə*

*II variant*

Sən deyən zəmanə gəlibdir yenə,
*"Alaqarğa şux tərlanı bəyənmir"*
Düşübdür hay-küyə, gəlibdir ünə,
Göstəbəklər kərgədanı bəyənmir.

Abırsızlar, həyasızlar ağ edir,
Yeyib-içib, kef damağın çağ edir,
Qanmaz gəlib qananlara lağ edir,
Namərd oğul, mərd atanı bəyənmir.[192]

İnsaf-mürvət, xətir-hörmət azalıb,
Sağlam ülfət, saf məhəbbət azalıb,
Ülvü-istək, pak ünsiyyət azalıb,
Kor yapalaq şen dünyanı bəyənmir.

Yerbəyerdən baş qaldırır pozğunluq,
Həyasızlıq, abırsızlıq azğınlıq,
Leşgəmirən yırtıcılıq, quzğunluq,
Ədaləti, haqq-divanı bəyənmir.[193]

Deyirki ər oğlu, ər də özüməm,
İgid oğlu igid, nər də özüməm,
Nurani, ağsaqqal pir də özüməm,
Eyham ilə sözqananı bəyənmir.

---

[192] *I variant* Abırsız, həyasız o qədədi ki,
Məsləksiz, qayəsiz o qədədi ki,
Təlimsiz, dayəsiz o qədədi ki,
Namərd oğul, mərd atanı bəyənmir.

[193] *II variant* Yerbəyerdən baş qaldırıb azğınlar,
Əqidədən, məsləkindən pozğunlar,
Yırtıcılar, leş gəmirən quzğunlar,
Ədaləti, haqq-divanı bəyənmir.

Nizamini, Füzulini oxumur,
Sədi, Cami, Nəvaini oxumur, [194]
Ətirini, əmbərini qoxumur,
“Baharıstan”, “Gülüstan”ı bəyənmir.

Böyük-kiçik pəsinməyir gədələr,
Gönü qalın, cibi pullu dədələr,
Azqalırki gözümüzü didələr,
Bin –bərəkət halal nanı bəyənmir.[195]

Başına hərlənir səma da, yer də,
Eləbil çəkilib gözünə pərdə,
Dözmək olmur bu sitəmə, bu dərdə,
Merkurilər kəhkəşanı bəyənmir.[196]

Zəhmətsiz, xidmətsiz varlanan da var,
Qoluna güc gəlib zorlanan da da var,
Baxıb buminvala korlanan da var,
Bəy nə, bəyzadə nə, xanı bəyənmir.[197]

---

[194] Nəsimini, Xaqanini oxumur.

[195] *II variant*
Böyük, kiçik pəsinməyir gədələr,
Ürpəşməyir, səksənməyir gədələr,
Qısqanmayır, diksinməyir gədələr.
Halal süfrə, halal nanı bəyənmir.

*III variant*
Çalıb-çapıb hər nə tapsa yeyirlər,
Altdan-üstdən zər-zibadan geyirlər,
Düz gedəni yollarından edirlər,
Halal süfrə, halal nanı bəyənmir.

[196] *II variant*
Gözünə görünmür səma da, yer də,
Çəkilib eləbil qara bir pərdə,
Dözmək çox çətindir belə bir dərdə,
Merkurilər kəhkəşanı bəyənmir.

*III variant*
Dar olur başına səma da, yer də,
Çəkilib gözünə eləbil pərdə,
Oğulsan sinə gər, döz belə dərdə,
Merkurilər kəhkəşanı bəyənmir.

[197] *II variant*
Min bir sifət ilə varlanan da var,
Qoluna güc gəlib zorlanan da da var,
Pozulub nəyaman korlanan da var,
Boz sərçələr bol xırmanı bəyənmir.

Meydan verilibdir qayəsizlərə,
Eysüdlü anadan mayəsizlərə,
Tərbiyə görməyən dayəsizlərə,
Ləl-cəvahir, gövhər-kanı bəyənmir.

Zəmanə mülkündə biclər oqədər?
Haqqa qənim çıxan kəclər oqədər?
Sərsəri, kəmağıl, giclər oqədər?
Pak-vicdanı, təmiz-qanı bəyənmir.[198]

Şər danışıb aralığı qatan çox,
Evlər yıxıb min günaha batan çox,
Namərdliklə məqsədinə çatan çox,
Enib-qalxan nərdivanı bəyənmir.[199]

Yerbəyerdən başqaldıran azğınlar,
İbtidadan, bünövrədən pozğunlar,
Yırtıcılar, leşgəmirən quzğunlar,
Ədaləti, haqq-divanı bəyənmir.

Alimi-biəməl oqədər artıb?
Oqədər çəkibdi, özünü dartıb?[200]
Soxulub irəli, özünü dürtüb,[201]
Qayda, qanun, yol-ərkanı bəyənmir.[202]

---

*III variant* 1)Baxıb bir güzgüyə özünü görmür, 2) Eybinə kor olub özünü görmür,
1) Getdiyi yolunu, izini görmür, 2) Əyrisini görmür, düzünü görmür,
Astarını görmür, üzünü görmür,
Bəy nə, bəyzadə nə, xanı bəyənmir.

[198] *II variant* Zəmanə mülkündə hökm edir biclər,
Haqqa, ədalətə kəc oğlu kəclər,
Sərsəri, kəmağıl, gic oğlu giclər,
Pakvicdanı, təmizqanı bəyənmir.

[199] *II variant* Şər danışıb aralığı qatanlar,
1) Nəqədər var günahlara batanlar, 2) Evlər yıxıb günahlara batanlar,
Qərq olub da qəflətdə yatanlar, 2) Hər sifətlə məqsədinə çatanlar,
Enib-qalxan nərdivanı bəyənmir.

[200] Oqədər yüyürüb, oqədər yortub.
[201] Soxulub irəli, nəyaman dürtüb.
[202] Düz göstərən yol-ərkanı bəyənmir.

Cəmil Əkbər beləsinə nə desin?
Nəyi bəyan edib, nəyi söyləsin?
Kimə dayan desin, kimi əyləsin?
Hər oxuyan bu dastanı bəyənmir.[203]

***Cəmil Əkbər*** 25. 01 – 1991

### 49. BƏYƏNMİR

Xudayə verdiyin kamala bir bax,
Hörmətsizlər, hörmətlini bəyənmir.
Çəkiyə tutara, sambala bir bax,
Qeyrətsizlər, qeyrətlini bəyənmir.

İnsanda idraka, düşüncəyə bax,
Verdiyi əzaba işgəncəyə bax,[204]
Keçmişə, indiyə, gələcəyə bax,
Şöhrətsizlər, şöhrətlini bəyənmir.

Üzlərdə, gözlərdə həya qalmayıb,
Əqidə qalmayıb, qayə qalmayıb,
Dərs verən ustadlar, dayə qalmayıb,
İsmətsizlər, ismətlini bəyənmir.

Zəmanə dolanıb nə günə qalıb?
Dolaşıb kələfi düyünə qalıb,
Hamı özbaşının küyünə qalıb,[205]
Xidmətsizlər, xidmətlini bəyənmir.
Nadanlar, cahillər ağ edir yaman,

---

[203] *II variant*
Cəmil Əkbər beləsinə nə desin?
Babasına, dədəsinə nə desin?
Böyüyünə, kiçiyinə nə desin?
Hər eşidən bu dastanı bəyənmir.

*III variant*
Cəmil Əkbər beləsinə nə desin?
Ağasına, köləsinə nə desin?
Babasına, dədəsinə nə desin?
Hər oxuyan bu dastanı bəyənmir.

[204] Əzab-əziyyətə işgəncəyə bax.
[205] Hamı bir-birinin küyünə qalıb.

Kefini, damağı çağ edir yaman,
Kiçiklər böyüyə lağ edir yaman,[206]
Mürvətsizlər mürvətlini bəyənmir.

Oğrular, əyrilər başa çıxıbdır,
Dırmaşıb yamaca, döşə çıxıbdır,[207]
Sırışıb yeməyə, aşa çıxıbdır,[208]
Hikmətsizlər, hikmətlini bəyənmir.

Hiyləgərlər, dələduzlar çoxalıb,
Fitnə-fəsad kələkbazlar çoxalıb,
Vicdanıkəm, qəlbibuzlar çoxalıb,
Qiymətsizlər, qiymətlini bəyənmir.

***Cəmil Əkbər***

## 50. BƏYƏNMİR MƏNİ

İnsafı, mürvəti unudub tamam,
Dərk edib anlamır, bəyənmir məni.
Biliyi kəm, savadı da natamam,
Yenə insaf edib bəyənmir məni.

Çalışıb çalışıb yetdim murada,
Günləri vermədim havayı, bada,
Gəzmirəm onuntək orda-burada,
Yenə insaf edib bəyənmir məni.

Sənətim var, veyil-veyil gəzmirəm,[209]
İncitmirəm, özgələri əzmirəm.
Saxtalığa, namərdliyə dözmürəm,
Yenə insaf edib bəyənmir məni.

---

[206] Böyüyə, kiçiyə lağ edir yaman.
[207] Dırmaşıb zirvəyə, döşə çıxıbdır.
[208] Sırışıb quzğuntək aşa çıxıbdır.
[209] Onun kimi boş-boşuna gəzmirəm.

Beləlləri bir qədər var bu yerdə,
Görünməyir nə xeyirdə, nə şərdə,
Nə olsun ki, o yaşayır şəhərdə?
Yenə insaf edib bəyənmir məni.[210]

Mənim bu könlümün var əhdi-andı,
Hər çirkin əməldən bezib, usandı,[211]
Namusa, qeyrətə, ara calandı,
Yenə insaf edib bəyənmir məni.

Çalışıb cəhd etdim, yetdim murada,
Günlər keçirmədim bikar, arada,
Gəzmədim avara orda-burada,
Yenə insaf edib bəyənmir məni.

Onun kimi boş-boşuna gəzmirəm,
Oğrun-oğrun özgə gülün üzmürəm,
Saxta olan gözəlliyi sezmirəm,
Yenə insaf edib bəyənmir məni.

Dəyməmişdən bomba kimi partlayır,
Qovurmamış qovurğatək çatlayır,
Heyvan kimi loxmalayıb otlayır,
Yenə insaf edib bəyənmir məni.

Al-qanını qaraltmağa hazırdır,
Gülrəngini saraltmağa hazırdır,
Gendünyanı daraltmağa hazırdır,
Yenə insaf edib bəyənmir məni.

Ədəb nədir, ərkan nədir qanmayır,
Başqasını adam deyə sanmayır,
Bəd işdən əl çəkib heç utanmayır,
Yenə insaf edib bəyənmir məni.[212]

---

[210] *II variant* Belələri hələ vardı bu yerdə,
Görənməzsən nə xeyirdə, nə şərdə,
Nə olsun ki, yaşasada şəhərdə,
Yenə insaf edib bəyənmir məni.

[211] Hər çirkin əməldən bir-bir usandı.

Dindirməyin, hər kəlməsi zəhərdir,
Bir xeyri yox insanlığa qəhərdir,
Zülmət gecələrə deyər səhərdir,
Yenə insaf edib bəyənmir məni.

Yerə-göyə sığışmayır ədası,
Hər pis işdən gəlir adı, sədası,
Bu ifritə, bu alçağın gədası,
Yenə insaf edib bəyənmir məni.

Xətirimə, hörmətimə darılır,
Ayağıma buxov olub sarılır,
Didilərək için-için qırılır,
Yenə insaf edib bəyənmir məni.

Nə kökü var, nə də əsli var onun,
Nə nəcabət, nə də nəsli var onun,
Nə xoş keçən bircə fəsli var onun,
Yenə insaf edib bəyənmir məni.

Nə yoldaşı-yoldaşıma tay deyil,
Nə sirdaşı-sirdaşıma tay deyil,
Nə qardaşı-qardaşıma tay deyil,
Yenə insaf edib bəyənmir məni.

Nə zəhməti-zəhmətimə çatanmaz,
Nə xidməti-xidmətimə çatanmaz,
Nə hikməti-hikmətimə çatanmaz,
Yenə insaf edib bəyənmir məni.

Cəmil Əkbər nə deyəsən qanmaza?
Şərəfsizə, şöhrətsizə, şansıza,
Qüvvəsizə, çələfsizə, cansıza,
Yenə insaf edib bəyənmir məni.

***Cəmil Əkbər*** 1959

---

[212] *II variant*

Kor olub eybinə heç utanmayır,
Pis işdən çəkilib o usanmayır,
Qəlbində eşq odu alovlanmayır,
Yenə insaf edib bəyənmir məni.

## 51. HARDADIR?

Bir zaman vəsfimə min söz deyildi,
Min ocaq çatıldı, min köz deyildi.
Müəllim dedilər, düha dedilər,
Hamıdan qiymətli, baha dedilər.
Nurani babamız, ata dedilər,
Xudadan bizlərə əta dedilər.
Sərkərdə dedilər, xadim dedilər,
Münəccim dedilər, loğman dedilər.
Hər yerdə adımı başda dedilər,
Zirvədə, ucada, qaşda dedilər.
Dedilər: bizlərə yolgöstərəndir,
Fikiri, xəyalı bol göstərəndir.
Hamıdan bilgili, kamallıdır da,
Əqidə, məsləkli, amallıdır da.
Sayəmdə çoxları murada çatdı,
Şərəfli, şöhrətli bir ada çatdı.
Kölgəmdə nəqədər qoyunlar yatdı?
Ərsəyə gələrək çoxaldı, artdı.
Dövlətə, sərvətə, vara çatdılar,
Qohuma, qardaşa, yada çatdılar.
Mənə güvənərək ucaldılar da,
Zəfərlər çalaraq bac aldılar da.
Mənə sığınaraq çatdı mətləbə,
Əli qələm tutdu, getdi məktəbə.
Təlim də götürdü, savada çatdı,
Şərəfli, şöhrətli bir ada çatdı.
Qərar da çıxartdı, fərman da verdi,
Loğmanlıq eyləyib, dərman da verdi.
Mövqedən-mövqeyə ucala bildi,
Zəfərdən-zəfərə bac ala bildi.
Xətirlə-hörmətlə dolandılar da,
Yedilər, içdilər sulandılar da.
Günlərin birində dönük çıxdılar,
Vicdanı, məsləki sönük çıxdılar.
Namusa, qeyrətə ənik çıxdılar,
Həryana, hər səmtə yönük çıxdılar.
İndi də bədimə deyən çoxalıb,

Yolumu, izimi əyən çoxalıb.
Hücuma keçirlər niyə üstümə?
Daşlardan yonulmuş quru büstümə?
Hayanda qaldılar, gəlib çıxmadı?
Əlləriylə bir əlimi sıxmadı?
Görən harda qaldı ədalət indi?
İnsanlıq, mərifət, ləyaqət indi?
Mənə baba deyən, ata deyənlər,
Qızılgül dəstəsi buta deyənlər,
Şənimə düzəldib dastan deyənlər,
"Gülüstan" yazanlar, "Büstan" deyənlər.
Görən harda qaldı oxuyub, yazan?
Fikirdə dolaşan, yolunu azan?
Bağdakı bülbüllər susubdur niyə?
Çöldəki sünbüllər susubdur niyə?
Qocalar susubdur, cavan susubdur,
Alimlər susubdur, nadan susubdur.
Buna nə ad verim, nə deyim indi?
Kimə nifrət edim, ya söyüm indi?
Bəs vicdan hardadır, məslək hardadır?
Bəs xəlbir, şadara, ələk hardadır?
Bəs ağıl hardadır, kamal hardadır?
Əqidə, düşüncə, amal hardadır?
Hayanda qalıbdır fəhlə qardaşım?
Ürəyi nisgilli, dərdli qardaşım?
Görən harda qalıb bəs komsomolum?
Dayağım, köməyim, qüdrətli qolum?
Görünmür gözümə arkadaşlarım,
Həmfikir dostlarım, silahdaşlarım.
Eşidə bilmirəm səsini nədən?
Dağıdıb görəsən dəsini, nədən?
Sükuta qərq olub, nəyaman dalıb?
Nəyaman saralıb, nəyaman solub?
Adam ustadına kəc baxarmı heç?
Sərsəm baxarmı heç, gic baxarmı heç?
Xain baxardımı, öc baxardımı?
Hiyləgər, dələduz, bic baxardımı?
Bu necə dönüklük, bu nə xəyanət?
Bu nə giley-güzar, bu nə şikayət?

Necə xəbər-ətər, bəyanətdi bu?
Bu necə küdurət, ədavətdi bu?
Mənki istəmişəm əzən olmasın,
Əzab-iztiraba dözən olmasın.
Usanıb canından bezən olmasın,
Avara, sərsəri gəzən olmasın.
Can deyib eşidən qardaş çoxalsın,
Vəfalı dost-tanış yoldaş çoxalsın.
Həmkarlar, həmdəmlər, sirdaş çoxalsın,
Həmyaşıd, tay-tuşlar çağdaş çoxalsın.
Firavan yaşayıb, varlı dolanaq,
Qüvvətli, qüdrətli, karlı dolanaq.
Namuslu, qeyrətli, arlı dolanaq,
Bağları meyvəli, barlı dolanaq.
Qal-qovğa olmasın, dava olmasın,
Zəhərə qarışmış hava olmasın.
Əqlini itirən yava, olmasın,
And-aman olmasın, tova olmasın.
Mənki istəmişəm ədalət olsun,
Həryanda, hər yerdə, həqiqət olsun.
Doğruluq, dürüstlük, mərhəmət olsun,
İnsanlıq yaşasın, ləyaqət olsun,
Ünsiyyət ülfətdə nəzakət olsun.
Bu gözəl dünyada yaradaq, quraq,
Ədəblə, ərkanla oturub-duraq,
Övladi-bəşərə xidmət göstərək,
Mənalar, məzmunlar, hikmət göstərək.
Arada sədaqət, səxavət olsun,
Nəciblik, zəriflik, məlahət olsun.
İnsandan insana məhəbbət olsun,
Xeyirxahlıq olsun, mərhəmət olsun.
Mənki istəmişəm hamı ucalsın,
Zəhmət dünyasından bac-xərac alsın.
Səksəndə, doxsanda hamı qocalsın,
Baxıb əməlindən ilham güc alsın.
Bax belə işləmiş kamalım mənim,
Əqidəm, məsləkim amalım mənim.
Təfəkkür, təxəyyül, idrakım mənim,
Düşüncəm, şüurum, imkanım mənim.

Belə çalışıbdır qələmim mənim,
Mənəvi varlığım, aləmim mənim.
Bax belə işləmiş hökmüm, qərarım,
Etibar, etiqad, iman, ilqarım.

Mənə göstərilən hörmət budurmu?
Şərafət budurmu, şöhrət budurmu?
Mənə verdiyiniz qiymət budurmu?
Bər-bəzək, təmtəraq, zinət budurmu?

Adam unudarmı heç haqq-sayı?
Aldığı, verdiyi, sovqatı payı?
Hörmət etibarı, əhdi-ilqarı?
Namusu, qeyrəti, isməti, arı?

Adam unudarmı heç ləyaqəti?
Doğruluq, düzlüyü ol həqiqəti?
Ədəbi-ərkanı, ya nəzakəti?
Zəriflik, nəciblik, ya məlahəti?

Adam unudarmı gördüklərini?
Bağlarda, bağçada dərdiklərini?
İllərdən bəridir aldıqlarını?
Oxuyub, oynayıb çaldıqlarını.

Adam unudarmı hörmət- izzəti?
Nəşəni, damağı, kefi, ləzzəti?
Dahi, üləmanı, öz ustadını?
Doğru ustadını, düz ustadını.

Adam unudarmı öz dühasını?
Fikir dühasını, söz dühasını?
Əsl ziyalını, öz alimini?
Heçə döndərərmi düz alimini?

Adam görə-görə kor olarmı heç?
Eşidə-eşidə kar olarmı heç?
Gen dünya başına dar olarmı heç?
Baxıb əməlinə xar olarmı heç?

İnsan düz yol getsə yorulmaz qəti,
Nə sağa, nə sola burulmaz qəti.
Şərəfə, şöhrətə darılmaz qəti,
İçindən çürüyüb qırılmaz qəti.

Əsl insan ədaləti danarmı?
Əsl insan həqiqəti danarmı?
Əsl insan ləyaqəti danarmı?
Əsl insan fəziləti danarmı?[213]

İnsan yaşayarmı kinlə-küdrətlə?[214]
Qərəzlə, qisasla, nə də hiddətlə?
İnsan dolanarmı cəhalət ilə?[215]
Utanıb ölməsin xəcalət ilə.

İnsan dolanarmı şərlə, böhtanla?[216]
Əqrəblə, ilanla, iblis, şeytanla?
Fitnəylə, fəsadla, ara qatanla?
Vicdanını, məsləkini satanla?

İnsan olan kəslər haqqı danarmı?
Düşüb atəşlərə, nara yanarmı?
Ar-namusu ayaqlara atarmı?[217]
Şər-böhtan danışıb, ara qatarmı?

***Cəmil Əkbər***

**52. HARDASAN? (1)**

İnsan birbirinə qəsd edir yaman,[218]
İnsaf əhli, mürvət əhli hardasan?
Yeməmiş, içməmiş məsd edir yaman,[219]
Xətir əhli, hörmət əhli hardasan?

---

[213] *II variant* İnsan ədaləti danmasın gərək,
İnsan həqiqəti danasın gərək,
İnsan ləyaqəti danmasın gərək,
İnsan fəziləti danmasın gərək.

[214] İnsan dolanmasın kinlə-küdrətlə?

[215] İnsan dolananmasın cəhalət ilə?

[216] İnsan dolanmasın şərlə, böhtanla,

[217] Vicdanını, məsləkini satarmı?

[218] 1) İnsan birbirinə yaman qəsd edir, 2) Ünsiyyət-ülfətlər pis günə qalıb,

[219] 1) Yeməmişdən, içməmişdən məsd edir, 2) Bədxah günə qalıb, nəs günə qalıb

Nə çəkirik zalımların əlindən,
Baş açmırıq fitnəsindən, felindən,
Nə qalmadı eşitməyək dilindən?
Saf ünsiyyət, ülfət əhli hardasan?[220]

Yaxşı-yaman birbirindən seçilmir,
Qamətinə düzgün xələt biçilmir,
Xeyirxah böyümür, bədxah kiçilmir,[221]
Dəyər əhli, qiymət əhli hardasan?[222]

Dərdbiləni, əhli-halı sayan yox,
Hərkəsdəni öz yoluna qoyan yox,
İnsanlığı dərk edən yox, duyan yox,
Sağlam fikir, niyyət əhli hardasan?[223]

Xoş keçməyir dövranımız, günümüz,
Yaxşı çıxmır səs-küyümüz, ünümüz,
Başımızdan heç dağılmır çənimiz,
Məna-məzmun, hikmət əhli hardasan?

Haqlı-haqsız birbirinə qatılır,
Vicdan, məslək, ayaq altda atılır,[224]
Qaşqabaqlar düyünlənir, çatılır,
Nəzər əhli, diqqət əhli hardasan?[225]

---

[220] *II variant* İnsan bir-birini bezdirir yaman,
Əzab-əziyyətə dözdürür yaman,
Dağları-daşları gəzdirir yaman,
Pak ünsiyyət-ülfət əhli hardasan?

[221] Mərdlər böyüməyir, namərd kiçilmir,

[222] *II variant* Yaxşını yamandan seçən tapılmır,
Boylara düz xələt biçən tapılmır,
Haqq yolunda candan keçən tapılmır,
Dəyər əhli, qiymət əhli hardasan?

[223] *II variant* Böyük, kiçik, ağsaqqalı sayan yox,
Hərkəsdəni öz yerinə qoyan yox,
Günahları təmizləyib yuyan yox,
Sağlam fikir, niyyət əhli hardasan

[224] Dəyərinə, dəymazinə satılır,

[225] *II variant* Haqsızlıqdan incimişik, bezmişik,
Sinə gərib səbr etmişik, dözmüşük,
Əldən salıb özümüzü üzmüşük,
Nəzər əhli, diqqət əhli hardasan?

Nadanlar əlindən cana doymuşuq,
Zülala həsrətik, şana doymuşuq,
Batıb günahlara, qana doymuşuq,
Təpər əhli, riqqət əhli hardasan?

Ədəb-ərkan, mərifəti sayan yox,
Bədəməldən usanan yox, doyan yox,
Zəhmət çəkib günahını yuyan yox,
Ay gözəllik, zinət əhli hardasan?

Sədaqət, səxavət azalıb yaman,
Çevrilib tərsinə yozulub yaman,
Üzülüb inləyir, sozalıb yaman,[226]
Saf təbiət, xislət əhli hardasan?

Meydan verilibdir başıboşlara,
Vicdanı kəmlərə, qəlbi daşlara,[227]
Ürəyi buz, əqidəsi çaşlara,[228]
Şərəf əhli, şöhrət əhli hardasan?

İşlədən yox kamalını, sərini,
Zəhmət çəkib tökən yoxdur tərini,[229]
Hamı çaşıb mövqeyini, yerini,
Zəhmət əhli, xidmət əhli hardasan?

Yaman artıb həşəratlar, zəlilər,[230]
Sərsərilər, gicbəsərlər, dəlilər,
Müqəvvatək ağeyilər, valilər,
Ədəb-ərkan mərfət əhli hardasan?

Bazar bahalıqdı, girişmək olmur,
Üzlərə qımışıb, irişmək olmur,
Axtarıb dostarı görüşmək olmur,
İzzət əhli, ləzzət əhli hardasan?

---

[226] Üzülüb, sıxılıb sozalıb yaman.
[227] 1) Vicdan, məslək əqidəsi çaşlara, 2) Fikir, xəyal, əqidəsi çaşlara,
[228] Ürəyibuzlara, qəlbidaşlara,
[229] Xidmət edib tökən yoxdur tərini.
[230] Çoxalıbdı həşəratlar, zəlilər.

Yeyib-içir kef eyləyir həyasız,
Vurub tutur, nəf eyləyir həyasız,
Harınlaşıb puf eyləyir həyasız,
Abır əhli, ismət əhli hardasan?[231]

Alim də, loğman da gözdən salınır,
Yolaqdan, cığırdan izdən salınır,
Mənzilə çatmamış tezdən salınır,
Namus əhli, qeyrət əhli hardasan?[232]

Bəşərin övladı pisgünə qalıb,
Yaman günə qalıb, nəsgünə qalıb,
Höcət günə qalıb, tərsgünə qalıb,
Ay cəsarət, cürət əhli hardasan?

Hiyləgər, dələduz təlxəklik artıb,
Hoqqabazlıq artıb, şıltaqlıq artıb,
Ellərin varına ortaqlıq artıb,
Məna əhli, hikmət əhli hardasan?

Dolaşıb fikirlər, qarışıb ara,
Qövr edib simləyir, ağrıyır yara,
Ümid sənə qalıb pərvərdigara,
Ulu Tanrım, xidmət əhli hardasan? [233]

---

[231] *II variant* Çalıb-çapıb nəf eyləyir gədələr,
Yeyib içib püf eyləyir gədələr,
Addımbaşı səhv eyləyir gədələr,
Abır əhli, ismət əhli hardasan?

[232] *II variant* Alim də, loğman da gözdən salınıb,
Yoldan, çıxarılıb, izdən salınıb,
Söhbətdən salınıb, sözdən salınıb,
Namus əhli, qeyrət əhli hardasan?

[233] *II variant* Dolaşıb fikirlər, qarışıb ara,
Qövr edən yaraya tapılmır çara,
Gümanım sənədir pərvərdigara,
Sirr Xuda, hikmət əhli hardasan?

*III variant* 1) Allahım ümidim sənə qalıbdır, 2) Xudayə gümanım sənə qalıbdır.
1) Yetir nəzərini mənə, qalıbdır, 2) Kəsməyib ümidi yenə qalıbdır.
Kəsməynən nurunu yenə qalıbdır,
Qüvvət əhli, qüdrət əhli hardasan?

Əlinin üstündə əl ola bilməz,
Tufan qopa bilməz, yel ola bilməz,
Çaylar daşa bilməz, sel ola bilməz,[234]
Nicat əhli, nüsrət əhli hardasan?

***Cəmil Əkbər*** 23. 11 - 1990

**53. HARDASAN? (2)**

Sorağını nə zamandan almışıq,
Gah o yandan, gah bu yandan almışıq,
Mətləb duyub sözqanandan almışıq,
Ay ədalət, ay həqiqqət hardasan?

Sədan gəlir qulaqlara haçandan?
Bəşər oğlu gözlərini açandan,
Tərlan xəyal-qanadlanıb uçandan,
Ay sədaqət, ay səxavət hardasan? [235]

Yerini, yurdunu desən a zalım?
Xəyalsan, yuxusan, nəsən a zalım?
Günahı, savabı yusan a zalım?
İnsaf-mürvət, ay mərhəmət hardasan?[236]

Pürkamalı, ağsaqqalı sayan yox,
Xeyirxahı, əhli-halı sayan yox,
Şair könül, min xəyalı sayan yox,
Ay bacarıq, ay məharət hardasan?

---

[234] Bulud kişnəməsə sel ola bilməz,

[235] *II variant* Çoxalıbdır dadamallar, əniklər,
Hər mətləbə, hər məssəbə yönüklər,
Vicdanı kəm, əqidəsi sönüklər,
Ay sədaqət, ay səxavət hardasan?

[236] *II variant* Meydan açıb hərbir yanda gədələr,
İnsanlıqdan nə qalıbsa zədələr,
Hər yetirən şaqqulular, “dədələr”,
İnsaf-mürvət, ay mərhəmət hardasan?

Gör nəqədər haqq-saylar danılır?
Yaddan çıxır, səhv düşülür, yanılır?
Soraqlaşıb axtarılıb anılmır?
İnsaf-mürvət, ay kəramət hardasan?

Dələduzlar bürüyübdür cahanı,
Açıq-aşkar, buki deyil pünhanı,
Seçən yoxdur, yaxşıları-yamanı,
Ay insanlıq, ay ləyaqət hardasan?[237]

Çoxalıbdır hərbir yanda xəbislik,
Bədəsillik, nanəciblik, naqislik,
El malına tamahkarlıq, hərislik,
Ay xoş arzu, ay xoş niyyət hardasan?

Üstümüzə ayaq alıb qəbahət,
Qərəz-qisas, düşmənçilik, ədavət,
Könüllərdə cövlan edir xəyanət,
Ay gözəllik, ay ülviyyət hardasan?

Sənsiz həyat, güzəran da heçnədir,
Dərə-təpə, dağ, aran da heçnədir,
Bozaran da, qızaran da heçnədir?
Bəşər oğlu, ay cəmiyyət hardasan?

Sənsiz görən tanınarmı adımız?
Bilinərmi qohumumuz, yadımız?
İsinərmi ocağımız, odumuz?
Ay cəsarət, ay fərasət hardasan?

Həyasızlıq bürüyübdür cahanı,
Yaşayırlar, dolanırlar xudmani,
Abır-ismət harda qaldı, de hanı?[238]
Ədəb-ərkan, ey mərifət hardasan?

---

[237] *II variant* Sənsiz bizim xoş günümüz olarmı?
Xoş sədamız, xoş ünümüz olarmı?
Ad-sanımız, səs-küyümüz olarmı?
Ay fərasaət, ay ləyaqət hardasan?

[238] Qulağıma gəl pıçılda pünhanı.

Aman Allah nələr çəkir bu bəşər?
Yola getmir bir-birilə xeyir-şər,
Qal-qovğadır ömürboyu sərbəsər,
Ay cəmiyyət, ay camaat hardasan?[239]

İnanan yox nə qazıya, seyidə,
Baxan yoxdur nəsihətə, öyüdə,
Nə diriyə, ölüvaya, meyidə,
Quran kitab, ay şəriət hardasan?[240]

Nəvaxtacan qəbahətlər olacaq?
Qəsd-qərəzlər, ədavətlər olacaq?
Dedi-qodu, şikayətlər olacaq?
Xeyirxahlıq, ay fəzilət hardasan?

Cəmil Əkbər yol gözləyir, gəlsənə,
Dərd-sərimi, əhvalımı bilsənə?[241]
Rəhmə gəlib bir üzünə gülsənə,[242]
Ey iqtidar, ey sədarət hardasan?

***Cəmil Əkbər*** 29. 07. 1989

## 54. HARDASAN? (3)

Yaxşı-yaman birbirinə qatılır,
İnsaf əhli, mürvət əhli hardasan?
Dəyərinə-dəymәzinə satılır,
Namus əhli, qeyrət əhli hardasan?

---

[239] *II variant* Görmürsənmi nələr çəkir bu bəşər?
Əzab çəkir ömürboyu sərbəsər,
Qənim çıxıb birbirinə xeyir-şər,
Ay cəmiyyət, ay camaat hardasan?

[240] *II variant* Quranımız dərk edilmir nədəndir?
Bu avamlıq tərk edilmir nədəndir?
Şəsd edilmir, ərk edilmir nədəndir?
Ay din məzhəb, ay şəriət hardasan?

[241] 1) Halı olub ürəyimi bilsənə? 2) Xəbər tutub bir halını bilsənə.

[242] İnsaf edib üz-gözümə gülsənə.

Həyasızlar meydan açıb zamandır,
Nə müddətdir xalqın halı yamandır,
Dada yetiş özün Allah amandır,
Abır əhli, ismət əhli hardasan?[243]

Ləyaqətlər tapdalanır, atılır,
Qaşqabaqlar düyünlənir, çatılır,
Hər nə desən bədəməllər tutulur,[244]
Şərəf əhli, şöhrət əhli hardasan?

Nə vaxtdırki hər əzaba dözürük,
Sinə gərib canımızı üzürük,
Ondan bundan inciyirik, bezirik,
Qüvvət əhli, qüdrət əhli hardasan?[245]

Dinənmirik canımızdan qorxuruq,[246]
Damardakı qanımızdan qorxuruq,
Həndəvardan, yanımızdan qorxuruq,
Hünər əhli, cürət əhli hardasan?[247]

Bəşər düşüb cəhalətin toruna,
Xəta-bəla qəbahətin toruna,
Bədəməlin, pis adətin toruna,
Qəzəb əhli, hiddət əhli hardasan?

Başımıza oyun açır nadanlar,
Tərbiyədən dadar-doymaz dadanlar,
Haqq-sayı sümürənlər, udanlar,
Ədəb-ərkan, mərfət əhli hardasan?[248]

---

[243] *II variant* Həyasızlar hökm edirlər zamandır,
Müsibətdir, xalqın halı yamandır,
Şimşək çaxır dağlar başı dumandır,
Abır əhli, ismət əhli hardasan?

[244] Gör nəqədər bədəməllər tutulur.

[245] *II variant* Sinə gərib hər əzaba dözürük,
Ondan bundan inciyirik, bezirik,
Əlimizi çox əllərdən üzürük,
Qüvvət əhli, qüdrət əhli hardasan?

[246] Cəllad görüb canımızdan qorxuruq.

[247] Ay cəsarət, cürət əhli hardasan?

[248] Ədəb əhli, mərfət əhli hardasan?

Ünsiyyəti şilküt edir xəyanət, [249]
Dedi-qodu, giley-güzar, şikayət,
Gündən-günə dərinləşir ədavət,
Ay din-məzhəb, şəriət əhli hardasan?

Xalqı boğur, avamlıqlar, cəhalət,
Xainliklər, xəbisliklər, qəbahət,
Hanı indi, Hatəmdəki səxavət?
Dövlət əhli, sərvət əhli hardasan?[250]

Cəmil Əkbər beylə dərdə neyləsin?
Kimə deyib, dərdi kimə söyləsin?
Kimə izhar edib, bəyan eyləsin?
Xətir əhli, hörmət əhli hardasan?

***Cəmil Əkbər*** 1. 06 – 1989

**55. HARDASAN? (4)**

Gəl, açılsın kef-damağım,
Hardasan sazım, hardasan?
Yaddan çıxıb oynamağım,
Hardasan nazım, hardasan?[251]

Bulanıram, duruluram,
Sağa-sola buruluram,
Heydən düşüb yoruluram,
Hardasan dizimm, hardasan?[252]

---

[249] Ünsiyyəti şilküt edir cəhalət.

[250] *II variant* Bədəməldən çəkən yoxdur xəcalət,
Bunu bildim, bunu gördüm nihayət,
Harda qaldı hatəmdəki səxavət?
Dövlət əhli, sərvət əhli hardasan?

[251] *II variant* Tutulubdur qaşqabağım,
Sazım hardasan, hardasan?
1) Yaddan çıxıb kef-damağım, 2) Pozulubdur kef-damağım,
Nazım hardasan, hardasan?

[252] *II variant* Ona-buna darılıram,
Sağa-sola buruluram,
Şirə kimi soruluram,
Dizim hardasan, hardasan?

Seyrə çıxıb gəzənmirəm,
Can şirindir bezənmirəm,
Dərd ağırdır dözənmirəm,
Hardasan dözüm, hardasan?[253]

Gədələri öyənmirəm,
Çörəyini yeyənmirəm,
Ona tərif deyənmirəm,
Hardasan sözüm, hardasan?[254]

Görülməmiş işim qaldı,
Xəyal çaşdı, huşum qaldı,
İşləmədi, xışım qaldı,
Hardasan bazım, hardasan?[255]

---

[253] *II variant* Dövran sıxır darıxıram,
Çaşbaş düşüb qarıxıram,
1)Yanılıram, karıxıram, 2) Yolu-izi karıxıram,
Dözüm hardasan, hardasan?

*III variant* Seyrə çıxıb sezənmirəm,
Sinə gərib dözənmirəm,
Can şirindir bezənmirəm,
Dözüm hardasan, hardasan?

*IV variant* Naxələfdən kömək olmur,
Halal süfrə, çörək olmur,
Həqiqəti demək olmur,
Dözüm hardasan, hardasan?

[254] *II variant* Naxələfdən kömək olmur,
Halal süfrə, çörək olmur,
Həqiqəti demək olmur,
Sözüm, hardasan, hardasan?

*III variant* Hər yetəni bəyənmirəm,
Tərifləyib öyənmirəm,
Həqiqəti deyənmirəm,
Sözüm, hardasan, hardasan?

[255] *II variant* Öz borcumu verənmirəm,
Boylanıram görənmirəm,
Əkib, səpib dərənmirəm,
Bazım hardasan, hardasan?

Saç ağardı yarı yaşda,
Deyəsən sarsıyıb huş da,
Çaşıb qaldım dağda-daşda,
Hardasan düzüm, hardasan?[256]

Yaxşını pisə qatıram,
Dumanı hisə qatıram,
Qızılı misə qatıram,
Hardasan gözüm, hardasan?[257]

Günlər keçir bu güzarda,
Üşüyürəm boran-qarda,
Qal-qovğada, intizarda,
Hardasan yazım, hardasan?[258]

Boylanıram ürəklərə,
Nəcib arzu-diləklərə,
Gilavarı küləklərə,
Hardasan izim, hardasan?[259]

---

[256] *II variant* 1) Günlər keçir bərkdə-boşda, 2) Dözənmirəm bərkdə-boşda,
Vurha-vurda, zorda-xoşda,
Eniş-yoxuş, dağda-daşda,
Düzüm hardasan, hardasan?

*III variant* Dözənmirəm bərkdə-boşda,
Vurhavurda, zorda, xoşda,
Eniş-yoxuş, dağda-daşda,
Düzüm hardasan, hardasan?

[257] *II variant* Ha əkirəm, dərənmirəm,
Borcu-xərci verənmirəm,
Yaxşı-pisi görənmirəm,
Gözüm, hardasan, hardasan?

[258] *II variant* Aşıb-daşıb axanmıram,
1) Şimşək təki çaxanmıram, 2) Şimşək olub çaxanmıram,
Zimistandan çıxanmıram,
Yazım, hardasan, hardasan?

*III variant* Günlər keçir intizarda,
Bu səfərdə, bu güzarda,
Tufan, çovğun, boran, qarda,
Yazım, hardasan, hardasan?

Yandırmağa şam görünmür,
İçmək üçün cam görünmür,
Ünsiyyətdə tam görünmür,
Hardasan duzum, hardasan?[260]

Xəmir kimi yoğrulmuşam,[261]
Yana-yana qovrulmuşam,
Yerdən-göyə sovrulmuşam,[262]
Hardasan, tozum hardasan?

İmkan yoxdur bal almağa,
Tirmə, atlas, şal almağa,
Nazü-nemət mal almağa,
Hardasan, bezim hardasan?

Gözə dəymir abır-həya,
Saf əqidə, təmiz qayə,
İnsandan-insana sayə,
Hardasan üzüm, hardasan?[263]

---

[259] *II variant* Axtarıram ürəkləri,
Nəcib arzu-diləkləri,
Gilavarı küləkləri,
İzim, hardasan, hardasan?

*III variant* Görənmirəm ürəklərdə,
Nəcib arzu-diləklərdə,
Gilavarı küləklərdə,
İzim, hardasan, hardasan?

[260] *II variant* 1) Çəkmək üçün kam qalmayıb, 2) Zəmanədə kam qalmayıb,
Şirin-şərbət cam qalmayıb,
Ünsiyyətdə tam qalmayıb,
Duzum, hardasan, hardasan?

[261] Dönə-dönə yoğrulmuşam,
[262] 1) Xəlbirlənib sovrulmuşam, 2) Ərş üzünə sovrulmuşam.
[263] *II variant* Usanıbdı dayəmiz də,
Əqidəmiz qayəmiz də,
İsmətimiz həyamız da,
Üzüm hardasan, hardasan?

*III variant* Tanımırıq dayəmizi,
Arxamızı, sayəmizi,
Abır-ismət həyamızı.
Üzüm hardasan, hardasan?

Saç ağardı yarı yaşda,
İstək qəlbdə, ağıl başda,
Sarsıyıbdır xəyal, huş da,[264]
Hardasan yüzüm, hardasan?

Vəfa yoxdur yoldaşlarda,
Həmkar, həmdəm sirdaşlarda,
Tay-tuşlarda, çağdaşlarda,
Hardasan qızım, hardasan?[265]

Gəlməyir haqdan sorağım,
Sönübdür yoxsa marağım?
Yanmayır niyə çırağım?
Hardasan közüm hardasan?

Daha məndə can qalmadı,
Damarımda qan qalmadı,
Gəl halıma yan qalmadı,
Hardasan quzum, hardasan?

Cahil məni zədələdi,[266]
Qırmanclayıb pedələdi,[267]
Hay-küy salıb hədələdi,
Hardasan, bizim hardasan?

---

*IV variant* İmdad yoxdur dayəmizdə,
Pak əqidə, dayəmizdə,
Abır, ismət qayəmizdə,
Üzüm hardasan, hardasan?

[264]Külə döndüm bu savaşda.

[265] *II variant* Bir yanıma gələn yoxdur,
Dərdi-halım bilən yoxdur,
Gözyaşımı silən yoxdur,
Qızım hardasan, hardasan?

*III variant* Gedə-gedə iraqlaşdım,
İnsanlardan uzaqlaşdım,
Vidalaşdım, halallaşdım,
Qızım hardasan, hardasan?

[266] Nadan məni hədələdi.

[267] Qırmancladı, pedələdi.

El qəhrini çəkən yoxdur,
Gözyaşını tökən yoxdur,
Cəmil, daha əkən yoxdur,[268]
Hardasan özüm, hardasan?

***Cəmil Əkbər*** 20-26. 07– 1995

## 56. GƏDA OĞLU DÜZƏLMİRKİ, DÜZƏLMİR

Milyon ildir tədbirini tökürlər,
Gəda oğlu düzəlmirki, düzəlmir.
Dərd-qəm çəkib qamətini bükürlər,
Gəda oğlu düzəlmirki, düzəlmir.[269]

Birdə gördün pis dedilər yaxşıya,
Yer verdilər nabələdə, naşıya,
Oğul gərək bu dərdləri daşıya, [270]
Gəda oğlu düzəlmirki, düzəlmir.

Bir də gördün dahi oldu gədası,
Yerə-göyə sığışmadı ədası,
Nifrət ilə qarşılanır sədası,
Gəda oğlu düzəlmirki, düzəlmir.

Bir də gördün "gəda" oldu dahisi,
Yer dəyişdi, dahi oldu canisi,
Bilən yoxdu kimdi bunun baisi,
Gəda oğlu düzəlmirki, düzəlmir.

Bir də gördün xırdalandı irisi,
Üç qəpiyə satılmadı dərisi,
Yandı atəşlərə könül pərisi,
Gəda oğlu düzəlmirki, düzəlmir.[271]

---

[268] Daha səpən, əkən yoxdur.

[269] *II variant* Milyon ildir ha tökürlər tədbirin,
Gəda oğlu düzəlmirki, düzəlmir.
İstəyirlər başa salsın hərbirin,
Gəda oğlu düzəlmirki, düzəlmir.

[270] Səbir gərək belə dərdi daşıya.

Bir də gördün bir-birini əkdilər,
Dalda ikən ön sıraya çəkdilər,
Şum yerinə başqasını səpdilər,
Gəda oğlu düzəlmirki, düzəlmir.[272]

Bir də gördün tez birini vurdular,
Heydən salıb bezdirdilər, yordular,
Dolaşdırıb torunu da qurdular,
Gəda oğlu düzəlmirki, düzəlmir.[273]

İşə girsən, dayı gərək yanında,
Sovqat gərək, payı gərək yanında,
Yemək-içmək, çayı gərək yanında,
Gəda oğlu düzəlmirki, düzəlmir.

Əbəs yerdən bir-birini bezdirir,
Haldan salıb ürəyini üzdürür,
Cəhənnəmi diri-diri gəzdirir,
Gəda oğlu düzəlmirki, düzəlmir.

Əl çəkməyir hiyləsindən, kələkdən,
Qorxusu yox yaradandan, fələkdən,
Bir-birini keçirirlər ələkdən,
Gəda oğlu düzəlmirki, düzəlmir.

---

[271] *II variant* Zaman keçir, kiçildilir irisi,
Üç qəpiyə satılmayır dərisi,
Atılır odlara könül pərisi,
Gəda oğlu düzəlmirki, düzəlmir.

[272] *II variant* Fürsət tapıb bir-birini əkirlər,
Dalda ikən lap qabağa çəkirlər,
Abırını, həyasını tökürlər,
Gəda oğlu düzəlmirki, düzəlmir.

[273] *II variant* Bir-birini arxasından vururlar,
Haldan salıb bezikdirib yorurlar,
Dolaşdırıb tez torunu qururlar,
Gəda oğlu düzəlmirki, düzəlmir.

Dönə-dönə törədirlər davanı,
Zəhərləyib korlayırlar havanı,
Cahilləri qanmaz sanır qananı,
Gəda oğlu düzəlmirki, düzəlmir.

Ayaq alır bir-birinin üstünə,
Tez girirlər, qərəz, qisas qəsdinə,
Qiymət vermir mənliyinə, şəstinə,
Gəda oğlu düzəlmirki, düzəlmir.[274]

Çərlətdilər qəzəlxanı Vahidi,
Tutdurdular Müşviqini, Cavidi,
Tarix oldu haqsızlığın şahidi,
Gəda oğlu düzəlmirki, düzəlmir.

Çalıb-çapıb dolananlar az deyil,
Var-dövlətdən hallananlar az deyil,
Yağlananlar, buğlananlar az deyil,
Gəda oğlu düzəlmirki, düzəlmir.

Kef eyləyir dələduzlar, oğrular,
Baxıb-baxıb köks ötürür doğrular,
Heydən salıb səsini də boğurlar,
Gəda oğlu düzəlmirki, düzəlmir.

Aldananda pul-paraya, vara da,
O səbəbdən ağ görünür qara da,
Haqq-ədalət tapdalanır arada,
Gəda oğlu düzəlmirki, düzəlmir.

Əl atırlar fitnələrə, böhtana,
Oxşayırlar şarlatana, şeytana,
Abır gərək, həya gərək utana,
Gəda oğlu düzəlmirki, düzəlmir.

---

[274] *II variant* Ayaq alır bir-birinin üstünə,
Toxunurlar mənliyinə, şəstinə,
Xəbisliklə girişirlər qəsdinə,
Gəda oğlu düzəlmirki, düzəlmir.

Yaşamağı əldə edib bəhanə,
Halal-haram doldururlar dəhana,
Heç bilmirlər niyə gəlib cahana?[275]
Gəda oğlu düzəlmirki, düzəlmir.

Ata minən piyadanı unudur,
Dərdi-qəmi, ziyadəni unudur,
Ədəb-ərkan, hər qaydanı unudur,
Gəda oğlu düzəlmirki, düzəlmir.

Acıyıram insanların halına,
Sərsəm fikirinə, kəc xəyalına,
İstərdim son qoyam qeylü-qalına,
Gəda oğlu düzəlmirki, düzəlmir.

Bunu yazdım yatanları oyadam,
Aralaığı qatanları oyadam,
İnsafını atanları oyadam,
Gəda oğlu düzəlmirki, düzəlmir.

***Cəmil Əkbər*** 1975

## 57. BU DÜNYADA

Kimlər gəldi, kimlər getdi?
Fəda oldu bu dünyada.
Nə tapıldı, nələr itdi?
Fəda oldu bu dünyada.

Kimi çoxdu, kimi azdı,
Kimi nasaz, kimi sazdı.
Kimi dərin, kimi üzdü,
Kimi batdı, kimi üzdü.
Kimi duydu, kimi sezdi,
Kim incidi, kimlər bezdi.
Kimi əyri, kimi düzdü,
Kimi oddu, kimi buzdu.
Kimi atəş, kimi közdü,
Kimi vurdu, kimi dözdü,
Fəda getdi bu dünyada.

---

[275] Heç bilir ki, niyə gəlib cahana?

Kimi kardır, kimi kordur,
Kimi xoşdur, kimi zordur.
Kimi qeyrət, kimi ardır,
Kimi güldür, kimi xardır.
Kimi zəhər, kimi baldır,
Kimi dəymiş, kimi kaldır.
Kimi qovğa, kimi qaldır,
Kimi dilli, kimi laldır.
Kimi ağa, kimi quldur,
Kimi sərçə, kimi fildir.
Kimi darçın, kimi hildir,
Kimi çətən, kimi çildir,
Kimi alov, kimi küldür.
Kimi yaxşı, kimi pisdir,
Kimi höcət, kimi nəsdir,
Kimi inad, kimi tərsdir.
Kimi xeyir, kimi şərdir,
Kimi zənən, kimi ərdir.
Fəda getdi bu dünyada.

Kimi hiylə, kimi kələk,
Kimi huri, kimi mələk.
Kimi sadə, kimi bicdir,
Kimi xain, kimi kəcdir.
Kimi sarsaq, kimi gicdir,
Yola gəlmir daim ləcdir.
Getdi zaman, gəldi vədə,
Könüllərə dəydi zədə.
Kimi uşaq, kimi dədə,
Kimi qorxu, kimi hədə.
Kimi arlı, kimi arsız,
Kimi karlı, kimi karsız.
Kimi girli, kimi girsiz,
Kimi sirli, kimi sirsiz.
Kimi ərli, kimi ərsiz,
Kimi pərli, kimi pərsiz.
Kim hünərli, kim hünərsiz,
Kim təpərli, kim təpərsiz.
Kimi satan, kimi alan,

Kimi doğru, kimi yalan.
Bada getdi bu dünyada,
Fəda getdi bu dünyada.

Kimi əqrəb, kimi ilan,
Kimi vuran, kimi çalan.
Kimi gedən, kimi qalan,
Kimi açan, kimi solan.
Kimi xain, kimi xəbis,
Kimi acgöz, kimi həris.
Kimi gözəl, kimi çirkin,
Kimi sadə, kimi xudbin.
Kimi qəmgin, kimi nikbin,
Kimi küsgün, kimi bədbin.
Kimi ayıq, kimi dəmdir,
Kimi zildir, kimi bəmdir.
Kimi höyüş, kimi nəmdir,
Kimi himdir, kimi cimdir.
Biri Cəmil, biri kimdir?
Fəda getdi bu dünyada,
Bada getdi bu dünyada,
Güdaza getdi dünyada.

***Cəmil Əkbər*** 28. 05 – 1993

**58. KÜL BAŞINA BELƏ DÜNYA**

Gədə gəlib bəylik edir,
El-obaya "eylik" edir.
Alimlərin keylik edir,
Hatəmlərin göylük edir.
Aqillərin səylik edir,
Yetişməmiş çiylik edir.
Addımbaşı zaylıq edir,
Yersiz-yersiz naylıq edir,
Kül başına belə dünya.

Oğru-əyri vara çatıb,
Kol-kosları bara çatıb.
Ürəklər zinhara çatıb,
Bilmir hardan-hara çatıb,
Kül başına belə dünya.

Gör kimlərdir çıxıb başa?
Uyubdular daşa-qaşa.
Çatan-çatır vara, hala,
Dəmdəstgaha, cah-calala.
Meyl edirlər qeylü-qala,
Vurhavura, çalha-çala.
Kül başına belə dünya.

Hökm eyləyir başıboşlar,
Vicdanı kəm, qəlbidaşlar,
Xəyalı kəm, fikriçaşlar,
Filə hürür alabaşlar,
Kül başına belə dünya.

Kimlər kimə yol göstərir,
Sağ tanıdıb, sol göstərir.
Qaj ayırıb, qol göstərir,
Dəymiş, sütül kal göstərir.
Tirmə satır, şal göstərir,
Saxta bəhməz, bal göstərir.
Neçə nömrə, xal göstərir,
Kül başına belə dünya.

Ədalətdən əsər yoxdur,
Həqiqətdən səmər yoxdur.
Sədaqətin səsi gəlmir,
Səxanın nəfəsi gəlmir.
Soraq yoxdur nəzakətdən,
Xeyirxahlıq, fəzilətdən.
Sağlam təmiz ünsiyyətdən,
Mehri-ülfət, saf niyyətdən,
Kül başına belə dünya.

Artır hər gün cəhalət də,
Addımbaşı qəbahət də.
Kin-küdurət, ədavət də,
Giley-güzar şikayət də.
Hər gün artır cinayətin,
Daşa dəyir məhəbbətin.
Kül başına belə dünya.

Gör kimlərdir yoldaşların,
Dost-müsahib, qardaşların,
Həmkarların, sirdaşların,
Tay-tuşların, çağdaşların.
Kimlər olub iqtidarın?
Fərəh, sevinc, iftixarın?
Kül başına belə dünya.

Yaxşılara pis deyilir,
Bədxah, zalım, nəs deyilir.[276]
Höcət, inad, tərs deyilir,
Danışmaynan, sus deyilir.
Orda-burda pus deyilir,[277]
Kül başına belə dünya.

Düzələni əyən çoxdur,
Qazanmamış yeyən çoxdur.
Öz-özünü öyən çoxdur,
Könüllərə dəyən çoxdur.
Taleyinə söyən çoxdur,
Dərk eyləyib duyan yoxdur.
Günahını yuyan yoxdur,
Kül başına belə dünya.

Dərd əlindən solan-solur,
Gözü yolda qalan-qalır.
Gözü yaşla dolan-dolur,
Elin varı talan olur,
Kül başına belə dünya.

Cahilə bax, nadana bax,
Təlimdən kəm dadana bax.
Haqq-sayı udana bax,
Yolu tərsə adana bax.
Dağa-daşa azana bax,
Ünsiyyəti pozana bax.
Dərin quyu qazana bax,
Vaxt-vədəsiz xəzana bax,
Kül başına belə dünya.

---

[276] Qəddar, zalım, nəs deyilir.
[277] Künc-bucaqda pus deyilir.

Üz-gözə sürmə yaxılır,
Eləbil gərmə yaxılır.
Çoxalıbdır həyasızlar,
Əqidəsiz, qayəsizlər.
Ulğuntəki sayəsizlər,
Tərbiyəsiz, dayəsizlər.
Sahibsiz dullara baxın,
Xərclənən dollara baxın.
Dəllala, baqqala baxın,
Tülküyə çaqqala baxın.
Çallayan saqqala baxın,
Dağılan mallara baxın.
Tökülən kallara baxın,
Korlara, karlara baxın.
Dağılan yollar çoxalıb,
Saxta yalanlar çoxalıb.
Əqrəb, ilanlar çoxalıb,
Qurğu, planlar çoxalıb,
Kül başına belə dünya.

Qovğaya, qallara baxın,
Biz düşən hallara baxın.
Pozulan zamana baxın,
İnləyən kamana baxın.
Gərdişi-dövrana baxın,
Sərdara, sarvana baxın.
Alimə, loğmana baxın,
Verilən fərmana baxın,
Xəstəyə dərmana baxın.
İşləməyən dəyirmana,
Vələ bax, xırmana baxın.

Əzilənə, əzənə bax,
Səbr eyləyib dözənə bax.
Hiyləyə, kələyə baxın,
Kəsməyən küləyə baxın,
İqbala, taleyə baxın,
Kül başına belə dünya.

Əyilənlər düzəlməyir,
Törpülənib nəzilməyir,
Çəkib yola gətirən yox,
Cıra peyvənd bitirən yox,
Kül başına belə dünya.
Düzələndöy hələ dünya.

***Cəmil Əkbər*** 2-4. 01 – 1997

## 59. NƏ DEYİM MƏN SƏNƏ AY BELƏ DÜNYA?

Nəqədər qapılar bağlı qalıbdır,
Nə deyim mən sənə, ay belə dünya?
Sinələr düyünlü-dağlı qalıbdır,
Nə deyim mən sənə, ay belə dünya?

Analar-bacılar ağlar qalıbdır,
Xəzana qərq olan tağlar qalıbdır,
Bağbansız bağçalar, bağlar qalıbdır,
Nə deyim mən sənə, ay belə dünya?

Nəqədər dost-tanış yola salmışıq,
İntizarda saralmışıq, solmuşuq,
Bulud kimi qaralmışıq, dolmuşuq,
Nə deyim mən sənə, ay belə dünya?

Azaldı dost-tanış, yoldaş da getdi,
Həmyaşıq tay-tuşlar, çağdaş da getdi,
Həmkarlar, həmdəmlər, sirdaş da getdi,
Nə deyim mən sənə, ay belə dünya?

Nəqədər vədəsiz, vaxtsız ölübdür?
Dost-tanış ağlayıb, düşmən gülübdür,
Lampaları, çıraqları sönübdür,
Nə deyim mən sənə, ay belə dünya?

Gör kimləri sərin-sərin dindirdin,
Zirvələrdən vurub salıb endirdin,
Bu dünyadan o dünyaya göndərdin,
Nə deyim mən sənə, ay belə dünya?

Kimləri eylədin “kamal sahibi”?
Mənəvi gözəllik, “camal sahibi”,
El-oba sahibi, “mahal sahibi”,
Nə deyim mən sənə, ay belə dünya?

Gör kimi müqəvva, büt eyləmisən?
Onu üryan edib, lüt eyləmisən?
Varını-halını qıt eyləmisən?
Nə deyim mən sənə, ay belə dünya?

Kimi ad qazandı, hörmət qazandı,
Şərafət qazandı, şöhrət qazandı,
Kimi də dərd-azar, möhnət qazandı,
Nə deyim mən sənə, ay belə dünya?

Kimi xidmətindən artıq dolandı,
Ar-həya bilmədi, sıtrıq dolandı,
Pərçimləmdi el-obaya calandı,
Nə deyim mən sənə, ay belə dünya?

Çoxunun zəhməti arada itdi,
Olmadı bəhrəsi, hədərə getdi,
Həyatdan silindi, biryolluq getdi,
Nə deyim mən sənə, ay belə dünya?

Nəqədər igidlər dərdlədi öldü?
Düşüb müsibətə çərlədi öldü,
Enişdə-yoxuşda tərlədi öldü,
Nə deyim mən sənə, ay belə dünya?

Gör kimlərin bar vermədi zəhməti?
Bilinmədi qayğıları, xidməti,
Görünmədi, itdi-batdı hikməti,
Nə deyim mən sənə, ay belə dünya?

Kimləri irəli, başa çəkdilər?
Zirvəyə qaldırıb, qaşa çəkdilər?
Bir ha deyil qoşa-qoşa çəkdilər?
Nə deyim mən sənə, ay belə dünya?

Kimlərə şər-böhtan, qara yaxdılar?
Haqq-nahaqdan axırına çıxdılar,
Qanqaraldıb, ürəyini sıxdılar,
Nə deyim mən sənə, ay belə dünya?

Seyrinə çıxmağa göz də doymayır,
Deyib-danışmağa söz də doymayır,
Getməklə, gəlməklə iz də doymayır,
Nə deyim mən sənə, ay belə dünya?

Çoxları cəhd etdi, ada çatmadı,
Qohuma, qardaşa, yada çatmadı,
Xoş gün görüb bir murada çatmadı,
Nə deyim mən sənə, ay belə dünya?

Çoxları yaşayıb qocalanmadı,
Zəfər dünyasından bac alanmadı,
Elin nəzərində ucalanmadı,
Nə deyim mən sənə, ay belə dünya?

Nəqədər sızladı, inlədi getdi,
Eşitdi, dinşədi, dinlədi getdi,
Qövr etdi yarası, simlədi getdi,
Nə deyim mən sənə, ay belə dünya?

Ağartdın başını Cəmil Əkbərin,
Kəsmisən yanını Cəmil Əkbərin,
Dağıtdın huşunu Cəmil Əkbərin,
Nə deyim mən sənə, ay belə dünya?

***Cəmil Əkbər*** 6. 03 – 1996

**61. NECƏ QOCALMAYAQ BELƏ DÜNYADA?**

*I variant*

Hüseyn Arif, sözlərini oxudum,
Necə qocalmayaq belə dünyada?
Ətirini dönə-dönə qoxudum,
Necə qocalmayaq belə dünyada?

Doğrudur dünyamız gözəl yaranıb,
Adəmdən, Həvvadan əzəl yaranıb,
Şerlər yazılıb, qəzəl yaranıb,[278]
Necə qocalmayaq belə dünyada?

İnsanı qocaldan səbəb azdımı?
Təkliflər, istəklər, tələb azdımı?
Arzular, məqsədlər, mətləb azdımı?[279]
Necə qocalmayaq belə dünyada?

Üz-üzə durduqca xeyir ilə şər,
De nələr görmədi bu yazıq bəşər?
Çəkiblər əzabı müdam, sərbəsər,
Necə qocalmayaq belə dünyada?

Dəyişir zəmanə, dəyişir həyat,
Əbədi deyildir nə toy, nə büsat,
Çarəsi heççürə tapılmır heyhat,
Necə qocalmayaq belə dünyada?

Torpaq da dəyişir, daş da dəyişir,
Bahar da dəyişir, qış da dəyişir,
Xəyallar da çaşır, huş da dəyişir,[280]
Necə qocalmayaq belə dünyada?

Yaxşılar varsa da, yamanlar da var,
Günəşi bürüyən dumanlar da var,
Nəşələr varsa da, amanlar da var,
Necə qocalmayaq belə dünyada? [281]

---

[278] Şairlər, şeirlər, qəzəl yaranıb,
[279] Xətalar, günahlar, savab azdımı?
[280] Sarsıyıb xəyal da, huş da dəyişir.

[281] *II variant*  Yaxşılar varsa da, yaman da vardır,
Günəşi varsada, duman da vardır,
Nəşələr varsada, aman da vardır,
Necə qocalmayaq belə dünyada?

Soyuğu varsa da, istisi də var,
Sağlamı varsa da, xəstəsi də var,
Gözləri kor edən tüstüsü də var,
Necə qocalmayaq belə dünyada?

Qəbahətlə fəzilətlər vuruşur,
Haqsızlıqla ədalətlər vuruşur,
Sədaqətlə xəyanətlər vuruşur,
Necə qocalmayaq belə dünyada?

Kamal dünyasında kamalsız da var,
Məsləksiz, qayəsiz, amalsız da var,
Eybəcər, yöndəmsiz, camalsız da var,[282]
Necə qocalmayaq belə dünyada?

Hatəmi varsa da, xəsisi də var,
Paxılı, xaini, xəbisi də var,
Acgöz, tamahkarı, hərisi də var,
Necə qocalmayaq belə dünyada?

Sadələr varsa da, ədəbaz da var,
Şıltaqlıq eyləyən hoqqabaz da var,
Dondan-dona düşən modabaz da var,
Necə qocalmayaq belə dünyada?

Zülmət pəncəsində qalanı görüb,
Gül kimi saralıb, solanı görüb,
Kasıblar yanında kalanı görüb,
Necə qocalmayaq belə dünyada?

Kamal dünyasında kamalsız da var,
Məsləksiz, qayəsiz, amalsız da var,
Görkəmsiz, yöndəmsiz, camalsız da var,
Necə qocalmayaq belə dünyada?

[282] Görkəmsiz, yöndəmsiz, camalsız da var.

Zəhmət çəkməmişdən yaşayan da var,
Möhnətin yükünü daşıyan da var,
Peysərin dalını qaşıyan da var,[283]
Necə qocalmayaq belə dünyada?

Qanmazlar qanandan intiqam alır,
Şeytan fitnəsindən min ilham alır,
Özü də bilməyir nə hava çalır?
Necə qocalmayaq belə dünyada?

Unudub haqq-say itirən də var,
Biryolluq sümürüb ötürən də var,[284]
Yollarda kol-koslar bitirən də var,
Necə qocalmayaq belə dünyada?

Sülhü-səadəti pozanlar da var,
Doğrunu əyriyə yozanlar da var,
Ayaqlar altından qazanlar da var,
Necə qocalmayaq belə dünyada?

Yersiz gəlib yerliləri oynadır,
Girsiz gəlib girliləri oynadır,
Ərsiz gəlib ərliləri oynadır,
Necə qocalmayaq belə dünyada?

Əmin-amanlığı pozanlar da var,
Doğrunu əyriyə yozanlar da var,
Ayaqlar altından qazanlar da var,
Necə qocalmayaq belə dünyada?

Qanmaz gəlib qananlara dərs deyir,
Hər nə deyir, yanlış deyir, tərs deyir,
İnsan baxıb için-için hirs yeyir,
Necə qocalmayaq belə dünyada?

[283] Qızardıb peysəri qaşıyan da var,
[284] Sümürüb biryolluq ötürən də var.

İnsaf, mürvət, kəramətlər azalır,
Sədaqətlər, səxavətlər azalır,
Ədəb-ərkan, mərifətlər azalır,
Necə qocalmayaq belə dünyada?

Loğmanlar yerində giclər oturur,
Hiyləgər, dələduz, biclər oturur,
Haqqa- ədalətə öclər oturur, [285]
Necə qocalmayaq belə dünyada?

Dünyanın nəqədər dərdi-səri var?
Acısı, şirini, xeyri-şəri var,
Paxırı, qalayı, misi, zəri var,
Necə qocalmayaq belə dünyada?

Ayrıldıq nəqədər dostdan, yoldaşdan,
Həmkardan, həmdəmdən, yaxın sirdaşdan,
Atadan, anadan, bacı qardaşdan,
Necə qocalmayaq belə dünyada?

Nəqədər qapılar bağlı qalıbdı?
Sinələr düyünlü-dağlı qalıbdı,
Talelər qaralı-ağlı qalıbdı,
Necə qocalmayaq belə dünyada?

İnsan bir-birini möhnətə salır,
Dəhşətə gətirir, heyrətə salır,
Gileyə-güzara, qeybətə salır,
Necə qocalmayaq belə dünyada?

Ağrını-acını, zilləti görüb,
Tükənməz dərdləri, hilləti görüb,
Qüssəni, kədəri, möhnəti görüb,
Necə qocalmayaq belə dünyada?

Qarğaha deyilik yüz il yaşayaq?
Əsrdən-əsirə xəbər daşıyaq,
Birtəhər saxlayaq bir baş, bir ayaq,[286]
Necə qocalmayaq belə dünyada?

[285] Haqqa, ədalətə kəclər oturur.
[286] Saxlayaq, girləyək bir baş, bir ayaq.

Dünyada nəqədər qalasıyıq biz?
Qapılıb xəyala dalasıyıq biz?
İsrafil düdüyün çalasıyıq biz,[287]
Necə qocalmayaq belə dünyada?

Şair qardaş etmə belə sorğunu,
Cəmil Əkbər olub fikir yorğunu,
Yaradan qoyubdur belə qurğunu,[288]
Necə qocalmayaq belə dünyada?

***Cəmil Əkbər***

## 62. NECƏ QOCALMAYAQ BELƏ DÜNYADA?

*II variant*

Yaranan canlılar hamı bir deyil,
Namərdlər, mərdlərlə həmfikir deyil.
De necə gizlədək bu ki, sir deyil?!
Necə qocalmayaq belə dünyada?

Gözəllik yanında, çirkinlik də var,
Kef-damaq yanında, qəmginlik də var,
Nikbinlik yanında, bədbinlik də var,
Necə qocalmayaq belə dünyada?

Sədaqət varsa da, xəyanət də var,
Gileylər, güzarlar, şikayət də var,
Nəzakət varsa da, qəbahət də var,
Necə qocalmayaq belə dünyada?

Ər kişilər varsa, gədələr də var,
Dövrü-zəmanədə hədələr də var,
Qəlbləri incidən zədələr də var,
Necə qocalmayaq belə dünyada?

Alimlər varsa da, nadan da çoxdur,
Yolunu tərsinə adan da çoxdur,
Haqq-say itirən, udan da çoxdur,
Necə qocalmayaq belə dünyada?

---

[287] İsrafil surunu çalasıyıq biz?
[288] Kim pozub dağıdar belə qurğunu?

Yaxşılar varsa da, pislər də vardır,
Xeyirxah varsa da, nəslər də vardır,
Qızıllar, gümüşlər, mislər də vardır,
Necə qocalmayaq belə dünyada?

Güllərin yanında tikanlar da var,
Dağıdıb, talayıb sökənlər də var,
Bezdirib zəhlələr tökənlər də var,
Necə qocalmayaq belə dünyada?[289]

Hüseyni, Həsəni, Cəmili də var.
Sağlamı, şikəsti, əlili də var,
Kamaldan kəmləri, zəlili də var,
Necə qocalmayaq belə dünyada?

***Cəmil Əkbər***

### 63. NECƏ GİRLƏNƏSƏN BELƏ DÜNYADA?

Hamı istəyir ki, kefini sürsün,
Götürüb qazancı nəfini görsün,
Zurnasını çalsın, dəfini görsün,
Necə girlənəsən belə dünyada?

Qazanan azalıb, yeyənlər artıb,
Düzəldən tapılmır, əyənlər artıb,
Toxuyan tapılmır, geyənlər artıb,
Necə girlənəsən belə dünyada?

Hatəmlər azalıb, xəsis daha çox,
Xainlər, paxıllar, xəbis daha çox,
Acgözlər, tamahkar, həris daha çox,
Necə girlənəsən belə dünyada?

Ədəbdən, ərkandan əsər qalmayıb,
İgiddən nişanə, kəsər qalmayıb,
Qanundan, qaydadan səmər qalmayıb,
Necə girlənəsən belə dünyada?

---

[289] *II variant* Güllərin yanında tikan da vardır,
Dağıdıb, talayıb sökən də vardır,
Bezdirib zəhlələr tökən də vardır,
Necə qocalmayaq belə dünyada?

Qiymət yox yaxşıya, qiymət yox pisə,
Töhmət yox naşıya, qiymət yox misə,
Ortalıq qarışıb haçandan, nəsə?
Necə girlənəsən belə dünyada?

Hiyləgər, dələduz, biclər çoxalıb,
Sərsəri, kəmağıl, giclər çoxalıb,
Haqqa, ədalətə kəclər çoxalıb,
Necə girlənəsən belə dünyada?

Hamı birbirinə kəf gəlir indi,
Yalanlar söyləyib, səhv gəlir indi,
Böhtanlar danışıb, həcv gəlir indi,
Necə girlənəsən belə dünyada?

Hamı birbirindən inciyib-küsür,
İtirib inamı, ümidi kəsir,
Eləbil bağlara xəzanlar əsir,
Necə girlənəsən belə dünyada?

Nəyaman çoxalıb var hərisləri?
Kaman hərisləri, tar hərisləri?
Oqədər azalıb ar hərisləri?
Necə girlənəsən belə dünyada?

İnsaf qəhət olub, mürvət azalıb,
Etibar, etiqad, hörmət azalıb,
Mənəvi var-dövlət, sərvət azalıb,
Necə girlənəsən belə dünyada?

Hamı istəyir ki, dağlarda gəzsin,
Gülüstanda gəzsin, bağlarda gəzsin,
Bostanlarda gəzsin, tağlarda gəzsin,
Necə girlənəsən belə dünyada?

***Cəmil Əkbər*** 13. 07 – 1989

## 64. DÜNYADA

Nəqədər zəkalar köçedib getdi,
Dayanıb qalmadı biri dünyada.
Əlvida eyləyib əbədi getdi,
Qayıdıb gəlmədi geri, dünyada. [290]

Bir yandan boşaldı, bir yandan doldu,
Bir yandan açıldı, bir yandan soldu,
Bir yandan doğuldu, bir yandan öldü,
Yadigar qalmadı diri dünyada.[291]

Məqamı çatanda durmadı getdi,[292]
Verdiyi borcları almadı getdi,
Eşqin rübabını çalmadı getdi,
Görmədi nə xeyri-şəri dünyada.[293]

Dağılıb, talandı çoxunun taxtı,
Gözünün leysanı car olub axdı,
Toxundu daşlara taleyi, bəxti,
Nəqədər tökdüsə təri, dünyada?[294]

---

[290] *II variant* Nəqədər dühalar köçüb getdilər,
Yaşayıb qalmadı diri dünyada.
1) Əlvida edərək biryolluq getdi, 2) Əcəl şərbətini içib getdilər,
Qayıdıb gəlmədi geri dünyada.

[291] *II variant* Çoxunun silindi ünvanı, adı,
Qaldı gözlərində arzu, muradı,
Gözlədi yolunu qohumu, yadı,
Yadigar qalmadı diri dünyada.

[292] Dayanıb durmadı, qalmadı getdi.
[293] *II variant* Çoxları düşünüb qanmadı getdi,
Ellərin dərdinə yanmadı getdi,
Qohumu-qardaşı anmadı getdi,
Bilmədi xeyiri-şəri dünyada.

[294] *II variant* Dağılıb, talandı çoxunun təxti,
Daşlara toxundu taleyi, bəxti,
Car olub gözünün leysanı axdı,
Yetmədi haraya təri, dünyada.

Viranə qalıbdır yurdu, yuvası,
Göylərə ucaldı ahı-naləsi,
Qarışdı matəmə eli-obası,
Yön alıb gəlmədi bəri, dünyada.[295]

Çox mənəm deyənlər, gələnlər getdi,[296]
Aləmin sirrini bilənlər getdi,
Ağladanlar getdi, gülənlər getdi,
İtirdik nəqədər nəri dünyada?

Hünər meydanında yarışan getdi,
Oxuyub, öyrənən, soruşan getdi,
Çarpışan, vuruşan, toqquşan getdi,[297]
Həm böyük, həm kiçik, iri dünyada.[298]

Nəqədər dərs aldı, yetişmədi ki?
Peyvəndə calandı, bitişmədi ki?
Yarış meydanında ötüşmədi ki?
Çatmadı qüvvəsi, zoru dünyada.

Çoxunun calağı heç bitişmədi,
Meyvəsi kal qaldı heç yetişmədi,
Bağında bülbülü ötüşmədi,
Cüt qoşa düşmədi zəri dünyada.[299]

---

[295] *II variant* Viranə çevrildi yurdu-yuvası,
Ucaldı göylərə ahı, naləsi,
Matəmə qarışdı eli, obası,
Güzarı düşmədi bəri, dünyada.

*III variant* Viranə çevrildi yurdu-yuvası,
Matəmə qarışdı eli, obası,
Şənliyi pozuldu, saxlandı yası,
Üz tutub gəlmədi bəri, dünyada.

[296] Durmadı əbədi gələnlər getdi.
[297] 1) Qanları qaralan pərişan getdi. 2) Həm xeyir, həm şərə qarışan getdi,
[298] Nurani, ağsaqqal iri dünyada.
[299] Düşmədi şeş-beşə zəri dünyada.

Çoxları mərdlərə tay olanmadı,
Günəş olanmadı, ay olanmadı,
Kamını almadı bay olanmadı,
Çatmadı namusu, arı dünyada.[300]

Çoxunun varlığı yozuldu getdi,
Sarsıldı mənliyi pozuldu getdi,
Əsəbi, ürəyi üzüldü getdi,
Alışdı məzarı, goru dünyada.

Çox çalışan, yaradanlar, quranlar,
Ömrünü şərəflə başa vuranlar,
Hünərlə, zəfərlə qoşa duranlar,
Saxlaya bilmədi səri dünyada.[301]

Nəqədər, haqq-nahaq döyülən oldu?
Nifrətlə, qəzəblə söyülən oldu?
Çıxaraq yolundan əyilən oldu?
Dəfn edə bilmədi şəri dünyada.

Nəqədər yaxşını görən olmadı?
Haqqını özünə verən olmadı,
Ruhuna, qəlbinə girən olmadı,
Tanıya bilmədi zəri dünyada.

---

[300] *II variant*

Çoxları çalışdı, bay olanmadı,
Ulduz olanmadı, ay olanmadı,
Çeşmə olanmadı, çay olanmadı,
Toxundu daşlara pəri dünyada.

*III variant*

Çox mənəm deyənlər bay olanmadı,
Dolandı il keçdi, ay olanmadı,
Qoşulub igidə tay olanmadı,
İnlədi kamanı, tarı dünyada.

[301] *II variant*

Çox çalışıb, yaradanlar, quranlar,
Gecə gec yatanlar, erkən duranlar.
Cəfa çəkib özlərini yoranlar,
Saxlaya bilmədi səri dünyada.

*III variant*

Neçəsi çalışdı yaratdı, qurdu,
Bu yolda büdrədi, yıxıldı, durdu,
Çarpışdı, dalaşdı, vuruşdu, vurdu.
Saxlaya bilmədi səri dünyada.

Yaxşını yamana qatan-qatdılar,
Arpanı samana satan-satdılar,
Qəflət yuxusunda yatan-yatdılar,
Tanıyan olmadı əri dünyada.

***Cəmil Əkbər*** 7. 01 – 1980

**65. DÜNYAMIZDA**

Seyrə çıxaq bu dünyanı,
Baxaq-görək biz hərnə var?
Görək nə var bu dağlarda?
Bu bostanda, bu tağlarda?
Bu kol-kosda, bu bağlarda?

Görək nə var, görək nə yox,
Nələr azdır, nələrdi çox.
Kimlər acdır, kimlərdi tox?
Kimdi bədbin, kimlərdi şux?

Acı kimdir, şirin kimdir?
Dayaz kimdir, dərin kimdir?
Kimdi gözəl, kimdi çirkin?
Kimdi sadə, kimdi xudbin?
Kimdi bədbin, kimdi nikbin?
Kimdi nahaq, kimlərdi haq?

Ağlayan kim, gülən kimdir?
Öldürən kim, ölən kimdir?
Gedən kimdir, gələn kimdir?
Bilməyən kim, bilən kimdir?
Boşalan kim, dolan kimdir?
Açılan kim, solan kimdir?
Xəyallara dalan kimdir?
Gözü yolda qalan kimdir?

Şərafətə, şöhrətə bax,
Ar-namusa, qeyrətə bax.
İnsaf da var, mürvət də var,
Giley-güzar, qeybət də var.

Müsibət də, dəhşət də var,
Hiddət də var, nifrət də var,
Nicat da var, nüsrət də var.

Dağı da var, daşı da var,
Yazı-yayı, qışı da var.
Nabələd də, naşı da var,
Zoru da var, xoşu da var.
Bu cahanda, dünyamızda.

Gülləri var, tikanı var,
Dağıdanı, sökəni var.
Zəhlələri tökəni var,
Ağır yükü çəkəni var.
Qəddimizi bükən də var,
Qayğımızı çəkən də var,
Yer şumlayıb, əkən də var.

Dərəyə bax, təpəyə bax,
Dalğaya bax, ləpəyə bax.
Ələyə bax, kəpəyə bax,
Tulaya bax, köpəyə bax,
Qədəyə bax, ipəyə bax.
Kirpi də var, dələ də var,
Ağa da var, kölə də var.
Zümzüməsi, naləsi var,
Ağır-ağır şələsi var.
Dağıdan var, talayan var,
Altdan-altdan qalayan var.
Onu-bunu dolayan var,
Quyruğunu  bulayan var.
Otaran var, haylayan var,
Cıra peyvənd calayan var.
Dayə də var, lələ də var,
Elə də var, belə də var,
Bu cahanda, dünyamızda.

Ağ da vardır, qara da var,
Sağalmayan yara da var.
Yetişməyən qora da var,
Dərman da var, çara da var.

Əkiləsi yerlər çoxdur,
Açılası sirlər çoxdur.
Töküləsi tərlər çoxdur,
Gediləsi pirlər çoxdur.
Görmədiyin günlər çoxdur,
Üyünməyən dənlər çoxdur.

Duyulmamış ürək də var,
Arzu da var, dilək də var.
Dəriləsi bağlar da var,
Şamamalı tağlar da var.
Ucalası himimiz var,
Köklənəsi simimiz var.

Deyiləsi söz də çoxdur,
Doğru da çox, düz də çoxdur.
Oğul odur dözə bilsin,
Diyar-diyar gəzə bilsin.
Kef-damaqlar, məzə bilsin,
Gecikməsin, təzə bilsin.
Dərk eyləyib qana bilsin,
Anaları ana bilsin.

Ona-buna darılmasın,
İçin-için qırılmasın.
Hər yetənə vurulmasın,
Qara-qanı durulmasın.

Çətinlikdə ağlamasın,
Başa qara bağlamasın.
İçin-için əriməsin,
Gündən-günə çürüməsin.
Cavabını verə bilsin,
Qılığına girə bilsin.

Bağlar salıb dərə bilsin,
Öz borcunu verə bilsin.
Mövqeyində qoy ucalsın,
Zəfər çalıb, bacın alsın.

Şərafətlə o qocalsın,
Təxtə çıxıb tacın alsın.
Özü getsə, sözü qalsın,
Könüllərdə izi qalsın.

Başı uca dağ görünsün,
Əməlləri ağ görünsün.
Ömürboyu sağ görünsün,
Kef-damağı çağ görünsün.

Yorulmasın, ərinməsin,
İlan kimi sürünməsin.
Əl-ayaqda kürünməsin,
Qaralara bürünməsin.

Şərafətli ad qazansın,
Neçə-neçə yad qazansın.
Dövlət, sərvət, var qazansın,
Namus, qeyrət, ar qazansın.

Seyrə çıxıb sezməliyik,
Hər çətinə dözməliyik.
Qəvvas kimi üzməliyik,
Kim deyir ki, bezməliyik?

Yaratmalı, qurmalıyıq,
Səhər tezdən durmalıyıq.
Nadanlığı vurmalıyıq,
Cəhaləti qırmalıyıq,
Haldan salıb yormalıyıq.

Səadətə çatmalıyıq,
Pozğunluğu atmalıyıq.
Bu cahanda, dünyamızda,
Fikirlərdə, xülyamızda.

***Cəmil Əkbər*** 16. 01 - 1996

## 66. DÜNYA

Qoca dünya gözəlsən, gör necədə sən qəşəngsən?
Başdan-başa dağ-aranda, çəmənləri gül-çiçəksən?
Sənin ülvi gözəlliyin varındadır, halındadır,
Dürlü-dürlü sərvətində, dövlətində, malındadır.
Dünya sən nə mehirlisən, dünya sən nə sehirlisən?
Sən nə gözəl ülfətlisən, qılıqlısan, mehirlisən?
Gör nəqədər seyrəngahlı, gör nəqədər baxarlısan?
Gör nəqədər gəl-getlisən, gör nəqədər axarlısan?
Gör nəqədər dözümlüsən, gör nəqədər tutarlısan?
Gör nəqədər qasidlisən, gör nəqədər çaparlısan?
Gör nəqədər gələn-gedən, mehri-ülfət qonağın var?
Hər gələnə, hər gedənə yandırmağa çırağın var,
Gör nəqədər həvəsin var, gör nəqədər marağın var?
Gör nəqədər əziz dünyam, qüvvətlisən, qüdrətlisən?
Gör nəqədər səxalısan, insaflısan, mürvətlisən?
Gör nəqədər nemətin var, tükənməyən sərvətin var?
Neçə adda, neçə sanda, neçə-neçə nemətin var?
Min bir məna kəsb eyləyən, hikmətinlə sən gözəlsən,
Təbiətin bəxş etdiyi, zinətinlə sən gözəlsən.
Gör nəqədər sən müqtədir, gör nəqədər sən nurlusan?
Gör nəqədər sən yenilməz, gör nəqədər sən zorlusan?
Göydə yanan günəşinin, gör nəqədər həniri var?
Həm canlıya, həm cansıza, gör nəqədər səməri var?
Çəmənində gör nəqədər, əlvan-əlvan çiçəklər var?
Qönçələrdə hey bəslənən, zərif-zərif dibçəklər var.
Hər çiçəkdə bir təravət, ruha yatan bir ətir var,
Hər gözəldə bircür ismət, başqa-başqa  bir xətir var.
Hər meyvənin öz tamı var, özgə ləziz bir dadı var,
Hər meyvənin öz oxşarı, hərbirinin öz yadı var.
Gözəl dünya nə ülvisən, nəqədər də məlahətli?
Nəqədər də gör mehriban, nəqədər də səxavətli?
Hər yerinin öz səfası, birbirindən fərqlənir,
Hər oğlunun öz vəfası, birbirindən fərqlənir.
Hər dağının çeşməsi dərdimizə dəvadır,
Bəxş eyləyib verdiyin, hərnəvarsa rəvadır.
Dağ döşündə bəslənilən sərin havan gözəldir,
Həzin meh gətirən üzə, dərdə-dəvan gözəldir.

Abı-kövsərtək axıdan, çeşmələrin gözəldir,
Oymaq-oymaq hər bir yerin, guşələrin gözəldir.
Durnagözlü bulaqların, necə gözəl, nə xoşdur?
Hərkim ondan nuş edərsə, kim deyər ki, naxoşdur?
Nə gözəldi, nə qəşəngdi, bülbüllərin nəğməsi?
Öz dilində danışıb, öz dilində deməsi.
Turacların, kəkliyin oxuması gözəldir,
Şamamanın bostanda qoxuması gözəldir.
Bir bax nə gözəl, qəşəngdir durnaların qatarı?
Tərlanların uçuşu, ceyranların qaçarı.
Mənim üçün gözəldir gülüstanın çəməni,
Yaz gələndə qablara düzüləndə "səməni".
Mənim üçün gözəldir, yolda bitən "Yolotu",
Əyriboyun "bənövşə", kolda bitən kol otu,
"Şehtökən"lə, "Qantəpər", "Qəfliotu", "Kəkotu",
Birbirindən qiymətli, ayrı-ayrı tək otu,
Mənin üçün gözəldir, "Kığ", "Baldırğan" bandası,
Məni lağa qoyma gəl, ağız büzmə qadası.
Mənim bütün varlığım, təbiətə bağlıdır,
İnsanlığa bağlıdır, cəmiyyətə bağlıdır.
Mənin üçün gözəldir, "Qulançar"da, "Şomu" da,
Ağzımızdan getməyir, neçə ildir tamı da.
Mənin üçün gözəldir,  "Alaçıq"lar, "Coma" da,
"Dələmə" də, "Pendir" də, "Narın üz" də, "Xama" da.
Mənin üçün gözəldir,  bostanı da, bağı da,
Əmbiz-əmbiz butaqlar, şamamalı tağı da.
Mənin üçün gözəldir, bu dünyanın hər yeri,
İstərdim ki, öyrənəm, kəşf edəydim hər sirri.
Dünya sən nə gözəlsən, seyrəngahsan əzəldən?
Sığıncaqsan əzəldən, ümidgahsan əzəldən.
Səni vəsf eyləməyə qələm, dəftər cılızdır,
Ha düşünüb yazsa da, Cəmil Əkbər acizdir.

***Cəmil Əkbər*** 27. 09 – 1987

## 67. QALIBDIR, QALMIŞDIR, QALACAQDIDA

Yaxşı-yaxşılıqda, pis-pisliyində,
Bədxah-bədxahlıqda, nəs-nəsliyində,
Höcət-höcətlikdə, tərs-tərsliyində,
Qızıl-qızıllıqda, mis-misliyində,
Qalıbdır, qalmışdır, qalacaqdıda.

Əyri-əyrilikdə, düz-düzlüyündə,
Oğul-oğulluqda, qız-qızlığında,
Payız-payızlıqda, yaz-yazlığında,
Çoxlu-çoxluğunda, az-azlığında,
Qalıbdır, qalmışdır, qalacaqdıda.

Namərd-namərdlikdə, mərd-mərdliyində,
Nəşə-nəşəlikdə, dərd-dərdliyində,
Həlim-həlimlikdə, sərt-sərtliyində,
Ayrım-ayrımlıqda, kürd-kürdlüyündə,
Qalıbdır, qalmışdır, qalacaqdıda.

Zəhər-zəhər kimi, bal da bal kimi,
Tirmə-tirmə kimi, şal da şal kimi.
Qovğa-qovğa kimi, qal da qal kimi,
Nömrə-nömrə kimi, xal da xal kimi,
Qalıbdır, qalmışdır, qalacaqdıda.

Dəniz-dənizlikdə, göl də göl kimi,
Aylar aylığında, il də il kimi.
Çeşmə-çeşmə kimi, sel də sel kimi,
Muğan-Muğan kimi, Mil də Mil kimi,
Qalıbdır, qalmışdır, qalacaqdıda.

Alma-almalıqda, nar narlığında,
Yoldaş-yoldaşlıqda, yar-yarlığında.
Qıtlıq-qıtlığında, var-varlığında,
Sərçə-sərçəlikdə, sar-sarlığında,
Qalıbdır, qalmışdır, qalacaqdıda.

Dağıdan dağıdır, quran-qurmaqda,
Yatan-yatmağında, duran-durmaqda,
Əyən-əyməyində, buran-burmaqda,
Döyən-döyməyində, vuran-vurmaqda,
Qalıbdır, qalmışdır, qalacaqdıda.

Əyri-əyri kimi, düz də düz kimi,
Dərin-dərin kimi, üz də üz kimi,
Kabab kabab kimi, köz də köz kimi,
Tövlə-tövlə kimi, küz də küz kimi,
Qalıbdır, qalmışdır, qalacaqdıda.

Təpə-təpə kimi, dağ da dağ kimi,
Bağban-bağban kimi, bağ da bağ kimi,
Ayran-ayran kimi, yağ da yağ kimi,
Qara-qara kimi, ağ da ağ kimi,
Qalıbdır, qalmışdır, qalacaqdıda.

Gədə-gədəlikdə, bəy bəyliyində,
Zirək zirəklikdə, key-keyliyində,
Aqil-aqillikdə, səy-səyliyində,
Hatəm-hatəmlikdə, göy-göylüyündə,
Qalıbdır, qalmışdır, qalacaqdıda.

***Cəmil Əkbər*** 10. 02 – 1994

**68. OLUBDUR, OLMUŞDUR, OLACAQDIDA**

Günəş günəş kimi, ay da ay kimi,
Çeşmə-çeşmə kimi, çay da çay kimi,
Payız-payız kimi, yay da yay kimi,
Sovqat sovqat kimi, pay da pay kimi,
Olubdur, olmuşdur, olacaqdıda.

Oxuyun-öyrənin olmayın naşı,
Ağrıtma hərşeydən ötəri başı,
Saxlama ətəkdə tullayın daşı,
Turşudub qabağı, çatmayın qaşı,
Olubdur, olmuşdur, olacaqdıda.

Hiyləgər hiylədə, bic-bicliyində,
Xain-xainlikdə, kəc-kəcliyində,
Sarsaq-sarsaqlıqda, gic-gicliyində,
Haqqa-ədalətə öc-öclüyündə,
Olubdur, olmuşdur, olacaqdıda.

Beylədir ay Cəmil dünyanın işi,
Keçirmə həyəcan, etmə təşvişi,
Qınama zamanı, dövrü-gərdişi,
Unutma tarixi, ulu keçmişi,
Olubdur, olmuşdur, olacaqdıda.

***Cəmil Əkbər*** 10. 02 – 1994

**69. BU DÜNYA BELƏDİR**

Bu dünya belədir əzəldən bəri,
Keçən qərinədən, yüz ildən bəri,
Sərf edib qüvvəni, xərcləsən zəri,
Çalışıb, vuruşub töksən də təri,
Olası olubdur, olacaqdıda.

Olana-qalana darılmayın siz,
Qoluna, qılçına sarılmayın siz,
Çatdayıb həyatdan, cırılmayın siz,
Sınmayın ortadan, qırılmayın siz,
Solası-solubdur, solacaqdıda.

Əsəblər korlama, qaraltma qanı,
Boş gəlib gedənlər özün de hanı?
Beylə yaradıbdır Xaliq insanı,
Gözləyin sənəti, qoruyun canı,
Olanlar olubdur, olacaqdıda.

Ayaq-ayaq kimi, əl də əl kimi,
İnci-inci kimi, ləl də ləl kimi,
Xırman-xırman kimi, vəl də vəl kimi,
Qanqal-qanqal kimi, gül də gül kimi,
Solubdur, solmuşdur, solacaqdıda.

Xətirə toxunub, dəyənlər dəyir,
Toxuyan-toxuyur, geyənlər geyir,
Düzəldən düzəldir, əyənlər-əyir,
Qazanan-qazanır, yeyənlər yeyir,
Yemişdir, yeyirlər, yeyəcəkdidə.

Beylədir dünyanın gərdişi qardaş,
Adət-ənənəsi, vərdişi qardaş,
Çalışıb, vuruşub nər kişi qardaş,
Töküb torpaqlara tər kişi qardaş,
Qalanlar qalıbdır, qalacaqdıda.

Gedən getməyində, qalan-qalmaqda,
Boşalan boşalır, dolan-dolmaqda,
Açılan-açmaqda, solan-solmaqda,
Zəfərlər təblini çalan-çalmaqda,
Çalası çalıbdır, çalacaqdıda.

Duran durmağında, yatan yatmaqda,
Alan-almağında, satan satmaqda,
Üzən-üzməyində, batan-batmaqda,
Arzuya-məqsədə çatan-çatmaqda,
Çatası çatıbdır, çatacaqdıda.

Üzənlər üzürlər, batanlar-batır,
Tapılan tapılır, itənlər-itir,
Arzuya çatanlar, yetənlər-yetir,
Qaçanlar qaçırlar, tutanlar-tutur,
Cücərən cücərir, bitənlər bitir,
Bitmişdir, bitibdir, bitəcəkdidə.

***Cəmil Əkbər*** 10. 02 – 1994

## 70. DÜNYA BELƏ QURULUB

Əzəl gündən, binadan dünya belə qurulub,
İnsan belə çalışıb, insan belə yorulub.
Bəşər belə yaşayıb, bəşər belə dolanıb,
Beylə güzar eyləyib, insan beylə yollanıb.
Bəşər belə xəlq olub, dünya belə qurulub.
Sular beylə çalxanıb, gah bulanıb, durulub.

Gedən-getməyindədir, gələn-gəlməyindədir,
Doğulanlar-doğulur, ölən-ölməyindədir.
Ağlayanlar ağlayır, gülən-gülməyindədir,
Gözyaşını vurhavur, silən-silməyindədir.
Açan açmağındadır, solan-solmağındadır,
Yaşayanlar-yaşayır, qalan-qalmağındadır.
Oxuyanlar öyrənir, bilən bilməyindədir,
Boşalanlar-boşalır, dolan-dolmağındadır.
Oynayanlar oynayır, çalan çalmağındadır,
Fikirlərə xəyala, dalan-dalmağındadır.
Satan-satmağındadır, alan-almağındadır,
Saçlarını vur-havur yolan-yolmağındadır.
İncidənlər incidir, bezən bezməyindədir,
Səbr eyləyib, tablaşıb, dözən-dözməyindədir.
Dəryalarda qəvvastək, üzən-üzməyindədir,
Seyr eyləyib dünyanı, sezən-sezməyindədir.
Ayılanlar ayılır, yatan-yatmağındadır,
Arzusuna, məqsədə çatan-çatmağındadır.
Şər danışıb aranı, qatan-qatmağındadır,
Qəflətlərin içində, batan-batmağındadır.
İnsafını mürvəti, satan-satmağındadır,
Qaçan-qaçmağındadır, tutan-tutmağındadır.
İçən-içməyindədir, yeyən-yeməyindədir,
Susan-susmağındadır, deyən-deməyindədir.
Düzəldənlər-düzəldir, əyən-əyməyindədir,
Toxuyanlar-toxuyur, geyən-geyməyindədir,
Döyülənlər döyülür, söyən-söyməyindədir.
Nazü-nemət xörəyi, bişirənlər bişirir,
Yoğurmamış-yapmamış, döşürənlər-döşürür.
Eşidənlər-eşidir, görən-görməyindədir,
Bağa peyvənd vurmamış, dərən-dəyməyindədir.
Alan-almağındadır, satan-satmağındadır,
Günahlara, savaba batan-batmağındadır.
Hay-həşirlə vurhavur, qapan-qapmağındadır.
İtirənlər itirir, tapan-tapmağındadır,
Minarəli saraylar, yapan-yapmağındadır.
Fərhad kimi qayanı, çapan-çapmağındadır,
Yayınarıq xətadan, sapan-sapmağındadır,
Quruyanlar-quruyur, hopan-hopmağındadır.

Çoxları cəhd eylədi səmərini görmədi,
Müjdəsini almadı, nəmərini vermədi.
Əzəl gündən, binadan insan beylə gün görüb,
Beylə səda çıxarıb, insan beylə ün görüb.
Yeyib-içib kef edən, gəzən-gəzməyindədir,
Dərk eyləyib, anlayıb, sezən-sezməyindədir.
Şahin kimi səmada, süzən-süzməyindədir.
Quruyanlar quruyur, bitən bitməyindədir,
Tapılanlar-tapılır, itən-itməyindədir.
Yarışlarda, finişdə ötən-ötməyindədir,
Xoş arzuya, istəyə yetən yetməyindədir.
Şanlar beylə düzülüb, zülal beylə sorulub,
Ürəklərə dağ-düyün buminvalla vurulub.
Ucalanlar-ucalır, enən-enməyindədir,
Alışanlar-alışır, sönən-sönməyindədir.
İlqarından, imandan dönən-dönməyindədir,
Kiriyənlər-kiriyir, dinən-dinməyindədir.
Düşünənlər-düşünür, qanan-qanmağındadır,
Alışanlar alışır, yanan- yanmağındadır.
Haqq-sayı yad edib anan-anmağındadır,
Böyük-kiçik pəsinən, sanan-sanmağındadılr.
Unudanlar-unudur, danan-danmağındadır,
Əyilənlər-əyilir, sınan-sınmağındadır.
Yeyən-yeməyindədir, içən-içməyindədir,
Bu yollarda canından, keçən-keçməyindədir.
Asan-asmağındadır, kəsən-kəsməyindədir,
Uman-ummağındadır, küsən-küsməyindədir.
Tufan kimi sovuran, əsən-əsməyindədir,
Ümidini həryandan kəsən-kəsməyindədir.
Daldalarda, gizlində pusan-pusmağındadır,
Sinirənlər-sinirir, qusan-qusmağındadır,
Danışanlar-danışır, susan-susmağındadır.
Tutulanlar-tutulub, vurulanlar-vurulub,
Dirilənlər-dirilib, qırılanlar-qırılıb.
Qocalanlar-qocalıb, ucalanlar-ucalıb,
Bacaranlar-bacarıb, zəmanədən bac alıb.
İnləyənlər-inləyib, sozalanlar-sozalıb,
Çoxalanlar-çoxalıb, azalanlar-azalıb.
Düzələnlər-düzəlib, pozulanlar-pozulub,

Tərsəməssəb çevrilib, yozulanlar-yozulub.
Yaşayanlar-yaşayıb, gəbərənlər-gəbərib,
Yeyib-içib, məsd olub, səvərənlər-səvərib.

Əzəl gündən, binadan dünya beylə qurulub,
Çaylar beylə bulanıb, çalxalanıb, durulub.
Şirə beylə çəkilib, sorulanlar sorulub,
İnsan belə çalışıb, haldan düşüb yorulub.

***Cəmil Əkbər*** 30.08 – 1993

### 71. DÜNYA OLDU ŞEİRİM

Şerimdə nəqədər əkilməmiş yer qalıb?
Narın-narın şumlanıb, səpilməmiş yer qalıb?
Tapanımda, dırmıqda əzilməmiş yer qalıb?
Qarış-qarış addımla, gəzilməmiş yer qalıb?
Biçilməmiş zəmilər, tökülməmiş vər qalıb?
Çəkilməmiş zəhmətim, tökülməmiş tər qalıb.

Sözlərimdə nəqədər, qüvvə qalıb, gir qalıb,
Sərraflara gərəkli, inci qalıb, zər qalıb,[302]
Açılmamış kəşiflər, gizli-gizli sirr qalıb. [303]
Çıxılmamış zirvələr, neçə gədik, dağ qalıb,[304]
Hələ peyvənd olmamış, gör nəqədər bağ qalıb?[305]
Vəsf olmamış diyarlar, oba qalıb, el qalıb,
Dolanmamış əsrlər, qərinələr, il qalıb.
Söz könlümün sazında, köklənməmiş tel qalıb,[306]
Ümmanlara axmamış, çeşmə qalıb, sel qalıb.
Dəryaz ilə oraqla, biçilməmiş zəmim var,
Dəryalarda, dənizdə lövbər salan gəmim var.[307]
Gör nəqədər ürəkdə, salınmamış iz qalıb?[308]
Əsrlərdən bəridir, əriməmiş buz qalıb.[309]

---

[302] Sərraflara çatmamış, inci qalıb, zər qalıb.
[303] 1)Açılmamış düyünlər, gizli-gizli sir qalıb, 2) Söylənməmiş nəqədər, fikir qalıb, sir qalıb.
[304] Çıxılmamış zirvələr, gədik qalıb, dağ qalıb.
[305] Peyvənd olub nəqədər, calanmamış bağ qalıb.
[306] Öz könlümün sazında, köklənməmiş tel qalıb.
[307] Dəryalarda, dənizdə, üzənməmiş gəmim var.
[308] Keçilməmiş yolaqlar, salınmamış iz qalıb.

Oyanmamış hisslər, açılmamış göz qalıb,
Çatılmamış ocaqlar, alışmamış köz qalıb.
Şeyda bülbül ötməyən, bahar qalıb, yaz qalıb,[310]
Çalınmamış havalar, köklənməmiş saz qalıb. [311]
Söz bağımın nəqədər, meyvələri, kal qalıb?[312]
Məqamında, yerində vurulmamış xal qalıb. [313]
Pərdələrin altında, danışmayıb lal qalıb,[314]
Hər çiçəkdən, qönçədən, çəkilməmiş bal qalıb,
Yazılmamış lentalar, oxumamış val qalıb.

Mənim şer kitabım hələ yarı qalıbdır,
Açılmayıb, gül kimi rəngi sarı qalıbdır.
Zirvələrə dırmaşıb, ucalmamış qalıbdır,
Zəfərləri çalaraq, bac almamış qalıbdır.[315]
Əsrlərdən addayıb, qocalmamış qalıbdır,[316]
Çələng qoyub başına, tac almamış qalıbdır.
Öz yoluna-izinə, düzəlməmiş qalıbdır,
Törpü-balta görməyib, nəzilməmiş qalıbdır.
Butağından qopmayıb, üzülməmiş qalıbdır,
Duyulmamış qalıbdır, sezilməmiş qalıbdır.
Gör nəqədər toxumlar, səpilməmiş qalıbdır?
Yaraşıqlı binalar, tikilməmiş qalıbdır.
Tər qönçədə çiçəklər, bar almamış qalıbdır,[317]
Yayılaraq ellərə, car olmamış qalıbdır.[318]
Nadürüstlər, naxələf, xar olmamış qalıbdır?
Gen dünyası başına dar olmamış qalıbdır,
Xətirinə dəyməyib, ar olmamış qalıbdır.
Cahillərə, nadana zor olmamış qalıbdır,[319]

---

309 Gör nəqədər ürəkdə, əriməmiş buz qalıb.
310 Oxumamış bülbüllər, bahar qalıb, yaz qalıb,
311 Səslənməmiş havalar, dillənməmiş saz qalıb.
312 Söz bağımda meyvələr, gör nəqədər kal qalıb?
313 Çox pərdədə, yerində vurulmamış xal qalıb,
314 Gör haçandan bəridir, danışmayıb lal qalıb.
315 Hünərlərdən, zəfərdən, bac almamış qalıbdır.
316 Bəslənməmiş qalıbdır, qocalmamış qalıbdır.
317 Gör nəqədər çiçəklər, bar almamış qalıbdır?
318 Hikmət dolu fikirlər, car olmamış qalıbdır.
319 Gör nəqədər cahilə, zor olmamış  qalıbdır?

Yetişməyib sözlərim dağ olmamış qalıbdır,[320]
Şəfa tapıb xəstələr, sağalmamış qalıbdır.[321]
Nanəciblər, naxələf, kor olmamış qalıbdır,
Bayquş təbli yapalaq, sar olmamış qalıbdır.
Qəflətlərdə yatanlar, oyanmamış qalıbdır,
Onun leysan suyundan yuyunmamış qalıbdır.
Sinəmdəki bülbüllər ötüşməmiş qalıbdır,
Çox cahillər, nadanlar ürküşməmiş qalıbdır.[322]
Saf arzular, istəklər, məhəbbətim qalıbdır, [323]
Eşqim, andım, ilqarım, sədaqətim qalıbdır.[324]
İxtiyarım çatmayıb, sədarətim qalıbdır,
Heç bilmirəm nəqədər, məharətim qalıbdır?
Könülləri isidən hərarətim qalıbdır,
Yol gözləyir haçandır, ədalətim qalıbdır. [325]
Doğruluğum düzlüyüm, həqiqətim qalıbdır,
Bilinməyən qüdrətim, ləyaqətim qalıbdır.[326]
Öz xalqıma çatası, əmanətim qalıbdır,
Vəsadətim qalıbdır, zəmanətim qalıbdır.
Şərh olmamış nəqədər, bəyanətim qalıbdır,
Heç bilmirəm nəqədər, dəyanətim qalıbdır.
Odum-közüm qalıbdır, hərarətim qalıbdır,
Fərasətim, fəhimim, cəsarətim qalıbdır,[327]

Çəkiləsi zəhmətim, xidmətim də qalıbdır, [328]
Zəhmətimə münasib, qiymətim də qalıbdır.[329]
Şadarada, xəlbirdə ələnməmiş qalıbdır,
Sinəmdə lal qalıbdır, dillənməmiş qalıbdır,[330]
Aşıb-daşmaz olubdur, sellənməmiş qalıbdır.[331]

---

[320]Gör nəqədər sözlərim dağ olmamış qalıbdır.
[321]Gör nəqədər xəstələr sağalmamış qalıbdır?
[322] Neçə nadan, cahillər ürpəşməmiş qalıbdır.
[323] Gör nəqədər qəlbimdə məhəbbətim qalıbdır.
[324] Əhdim, andım, ilqarım, sədaqətim qalıbdır.
[325] Yol gözləyir haçandan, ədalətim qalıbdır.
[326] Elə-xalqa çatmayan, ləyaqətim qalıbdır.
[327] Dözüm, səbri-qərarım, qətiyyətim qalıbdır.
[328] Çəkiləsi zəhmətim, xidmətimiz qalıbdır.
[329] Dəyərimiz qalıbdır, qiymətimiz qalıbdır.
[330] O susubdur sinəmdə, dillənməmiş qalıbdır.
[331] Çalxanmamış qalıbdır, sellənməmiş qalıbdır.

Zirvələrdən aşağı, hellənməmiş qalıbdır,
Qanadını açaraq, yellənməmiş qalıbdır.
Dəryalara çataraq, göllənməmiş qalıbdır,[332]
Çox gözlərə ox kimi, millənməmiş qalıbdır,
Salmayıbdır toruna, lillənməmiş qalıbdır.
Daşa dönüb eləbil, o ərimir haçandır,
İçin-için qövr edir, o kirimir haçandır.
Xəyalımda dolanıb, ürəyimdə yaşayır,
Qövr eyləyir ağrısı, kürəyimdə yaşayır.

Gör nəqədər sözlərim deyilməmiş qalıbdır, [333]
Həzm olmamış qalıbdır, yeyilməmiş qalıbdır.
Döyülməmiş qalıbdır, üyünməmiş qalıbdır,
Fərəhlənib, sevinib, öyünməmiş qalıbdır.
Gör nəqədər çiçəkdən, sorulmamış bal qalıb?
Geyilməmiş tirmələr, toxunmamış şal qalıb.
Gör nəqədər sözlərim beyinlərə çatmayıb,[334]
İdraka yaxınlaşıb, zehinlərə çatmayıb.[335]
Mənzilinə, məkana öz yerinə çatmayıb,
Axarına düşməyib, şakərinə çatmayıb.
Təfəkkürə, idraka, biliklərə çatmayıb,[336]
Damarlardan hopmayıb, iliklərə çatmayıb.[337]
Qədirbilən insana, zəhmətkeşə çatmayıb,
Cəfa çəkən insana, möhnətkeşə çatmayıb.

Gör nəqədər sözlərim əldən-ələ keçmədi,
Dodaqlardan-dodağa, dildən-dilə keçmədi.
Diyarlardan-diyara, əldən-ələ keçmədi,
Obalara çatmayıb, eldən-elə keçmədi.

Gör nəqədər fikirlər, məna ona çatmadı,
Qəlbimdəki parlayan ayna ona çatmadı.
Çox sözüm məqamında hədəfinə çatmadı.
Sərrafına yetişib, sədəfinə çatmadı.

---

[332] Dəryalara toplanıb, göllənməmiş qalıbdır.
[333] Car olmayıb haçandır, deyilməmiş qalıbdır.
[334] Gör nəqədər sözlərim beyinlərə çatmadı.
[335] Təfəkkürə, idraka, eyinlərə çatmadı.
[336] Vərdişlərə düşməyib, biliklərə çatmayıb.
[337] Onu-bunu bezdirib, yoranlara çatmayıb.

Qayğımızı çəkənə, bəsləyənə çatmadı,
Səadətə çağırıb, səsləyənə çatmadı.
Qəflətlərdə qərq olub, yatanlara çatmadı,
Çamırlığa, mamıra, batanlara çatmadı.
Vicdanını, məsləki satanlara çatmadı,
İnsafını-mürvəti atanlara çatmadı.
Şər danışıb, aranı qatanlara çatmadı,
Namərdləri mərd kimi tutanlara çatmadı.
Ümidləri, diləyi, qıranlara çatmadı,
Həm özgəni, özünü, yoranlara çatmadı.[338]
Şikar üçün torunu quranlara çatmadı,
Qəsd eyləyib qərəzdə, duranlara çatmadı.[339]
Tamahkara, acgözə, hərislərə çatmadı,
Xainlərə, paxıla, xəbislərə çatmadı.
Nəfisinə aldanan, tamahkara çatmadı,
Dava salıb, qan tökən ziyankara çatmadı.[340]
Gör nəqədər vicdansız ürəklərə çatmadı?[341]
Xain, xəbis arzuya, diləklərə çatmadı.[342]
Xəlbirlərdə ələnib, ələklərə çatmadı,
Yorğun düşən qollara, biləklərə çatmadı.

Düşüncəyə, idraka, kamallara çatmadı,
Əqidəyə, məsləkə, amallara çatmadı.
Hədəfinə atılıb öz yerinə çatmadı,[343]
Ünvanına tuşlanıb düz yerinə çatmadı.[344]
Çeşmələrə, çaylara, irmaqlara çatmadı,
Neyləyimki karsala qulaqlara çatmadı?

Gör nəqədər sözlərim öz barını vermədi?[345]
Tər qönçədə yetişib, tez barını vermədi.[346]
Faydasını göstərib, bəhrəsini vermədi,

---

[338] Onu-bunu bezdirib, yoranlara çatmadı.
[339] Qərəzlərdə, qisasda duranlara çatmadı.
[340] 1) Bəşər üçün nəqədər ziyankara çatmadı, 2) İnsanlığa qəsd edən, ziyankara çatmadı.
[341] Yol tapmadı nədənsə, ürəklərə çatmadı.
[342] Arzulara, istəyə, diləklərə çatmadı.
[343] Hədəfinə tuşlanıb öz yerinə çatmadı.
[344] Ünvanına yönəlib, düz yerinə çatmadı,
[345] Çiçəyini açmadı, öz barını vermədi.
[346] Tər qönçədə yetişib, nübarını vermədi.

Baltasını soylayıb, dəhrəsini vermədi.[347]
Qüvvəsini bildirib, səmərini vermədi,
Təsirini eyləyib, əsərini vermədi.
Xəznəsini açaraq, sərvətini vermədi,
İnsafını göstərib, mürvətini vermədi.
Həvəsini, eşqini, ilhamını vermədi,
Şərbətini doldurub, öz camını vermədi.
Öz tamını göstərib, öz dadını vermədi,
Qohumunu tanıdıb, öz yadını vermədi.

Gör nəqədər haraya, çatanmadı sözlərim?
Yıxılanın qolunda tutanmadı sözlərim?
Kütbeyin danqabaşa, batanmadı sözlərim,[348]
Haraylara, imdada yetənmədi sözlərim.
Ha şumlayıb, əkdimsə, bitənmədi sözlərim,
Çoxlarının dadına yetənmədi sözlərim.
Bağlarına qonaraq, ötənmədi sözlərim,
Ürəklərdən-ürəyə calanmadı sözlərim.
Məqsədinə çatmadı, alınmadı sözlərim,
Ocaqlardan-ocağa, qalanmadı sözlərim.
Çoxlarının qəlbində dolanmadı sözlərim,
Mehri-ülfət eyləyib, qalanmadı sözlərim.
Çoxlarının qəlbində köz almadı sözlərim,
Dəyərinə qiyməti düz almadı sözlərim.
Bir çoxunun yanında hədər oldu sözlərim,
Saldı dərdə-azara, kədər oldu sözlərim,[349]
Ürəyinə ox oldu, qəhər oldu  sözlərim.

Barı indi dilə gəl, deyilməmiş sözlərim,
Həzm olmamış sözlərim, yeyilməmiş sözlərim.
Süzülərək dəftərə, qələmə gəl sözlərim,
Kainata yayılıb, aləmə gəl sözlərim.[350]
Qulluq eylə vətənə, mahala gəl sözlərim,
Düşüncəyə, idraka, kamala gəl sözlərim.
Heç olmasa imdada, köməyə gəl, ələ gəl,

[347] Baltasını, külüngü, dəhrəsini vermədi.
[348] Zehinlərdə iz salıb batanmadı sözlərim,
[349] Saldı onu azara, kədər oldu sözlərim,
[350] Kainata, cahana, aləmə gəl sözlərim,

Mahallardan-mahala, obaya gəl, elə gəl.[351]
Şəhərlərdən-şəhərə, qəsəbəyə, kəndə gəl,
Təfəkkürə, idraka, zehinə gəl, zəndə gəl.
Köməyini yetirib, dar məqamda kara gəl,
Daha bəsdir çiçəklər, nübara gəl, bara gəl.
Öz içindən qızışıb, hənirə gəl, oda gəl,
Zaman keçir püxtələş, bir tama gəl, dada gəl.
Keçilməyən yollara, cığır salıb izi aç,
Oyanmayan hissimi, mürgüləyən gözü aç.[352]
Qaranlığa, zülmətə, işığı saç, nuru saç,
Əl-ayağa dolaşan, buxovu aç, toru aç.
Çox sözlərin, söhbətin, qurtarmayıb dastanı,
Bar verməyib tağları, dərilməyib bostanı.
Nə mətləbi, məzmunu nə mənası qanıldı,
Nə həyatı duyuldu, nə dünyası qanıldı.
Çox sözlərim, söhbətim qulaqlara yatmadı,
Nə bir xoşa gəlmədi, nə ürəyə yatmadı.
Çoxlarına çatmadı, sözdən fərli nə var ki?
Həqiqətdən qüdrətli, düzdən fərli nə var ki?
Bilmədi ki, ülfətin-ünsiyyətin təməli,
İnsanlığın təməli, ləyaqətin təməli.
Eşqin-andın, ilqarın, sədaqətin başında,
Nəcib arzu-istəyin, məhəbbətin başında.

Bilinsinki, xoş həyat bu söhbətə bağlıdır,
Bu mənaya-məzmuna, bu hikmətə bağlıdılr.
Haqq sözüylə açılır, səadətin qapısı,
Doğruluğun, düzlüyün, həqiqətin qapısı.[353]
İnsanlığın qapısı, ləyaqətin qapısı,
Ədəb-ərkan qapısı, nəzakətin qapısı.
Söz üstündə köklənir şairlərin ürəyi,
Saf arzusu, istəyi, məhəbbəti, diləyi.
Bu güzgüdə əks olur, hərkəsdənin kamalı,
Hərkəsdənin məsləki, hərkəsdənin amalı,
Bu aynada əks olur, yör-yöndəmi, camalı.

---

[351] Hər mahala yayılıb, obaya gəl, elə gəl.
[352] Qəflətlərin içində oyanmayan gözü aç.
[353] Tərbiyənin, təlimin, nəsihətin qapısı.

Sözlər ilə silinir, beyinlərin pası da,
Düşüncənin, idrakın, zehinlərin pası da.
Qurudulur ürəkdə, bataqlıqlar çamırlıq,
Gör haçandan bəridir, məskən salan mamırlıq?[354]
Gör haçandan bəridir, hikməti bilinmədi?
Arzuları, istəyi, niyyəti bilinmədi,
Nə dəyəri, dəyməzi, qiyməti bilinmədi.
Nə xətiri bilindi, nə hörməti bilindi,[355]
Nə insafı bilindi, nə mürvəti bilindi.
Nə mənası-məzmunu, nə sərvəti bilindi,
Nə ədəbi, ərkanı, mərifəti bilindi,
Nə kitabi-dəftəri, təriqəti bilindi.
Nə şərəfi, nə şanı, nə şöhrəti bilindi,
Nə namusu, nə arı, nə qeyrəti bilindi.
Nə fəhimi, diqqəti, fərasəti bilindi,
Nə hünəri, təpəri, cəsarəti bilindi.
Nə hökmü, nə qərarı, sədarəti bilindi,
Nə ənamı göründü, ənaəti bilindi.
Nə doğrusu göründü, həqiqəti bilindi,[356]
Nə dostluğu bilindi, sədaqəti bilindi. [357]
Nə əsili, nə zatı, nə xisləti bilindi,
Nə istəyi, sevgisi nə hiddəti bilindi.
Nə yuvası, nə yurdu, nə otağı bilindi,
Nə mənzili, məkanı nə yatağı bilindi.
Nə lampası, fitili nə çırası bilindi,
Nə bostanı dərildi, nə urası bilindi.
Nə cümləsi oxundu, nə kəlməsi bilindi,[358]
Nə ərişi, arğacı, nə ilməsi bilindi.
Nə səbəbi bilindi, nəticəsi bilindi,
Nə babası tanındı, kötücəsi bilindi.
Nə çəkici tanındı, nə orağı bilindi,
Nə həvəsi, nə eşqi, nə marağı bilindi.
Nə sədası yayıldı, nə sorağı bilindi,[359]

---

[354] Əsrlərdən bəridir, məskən salan mamırlıq.
[355] Nə xidməti göründü, nə hörməti bilindi.
[356] Nə doğrusu düzlüyü, həqiqəti bilindi,
[357] Nə səxası göründü, sədaqəti bilindi,
[358] Mübtədası, xəbəri, nə kəlməsi bilindi.
[359] Nə sədası-səmiri, nə sorağı bilindi.

Nə silahı, qalxanı, nə yarağı bilindi.
Nə cecəsi içildi, nə arağı bilindi,
Nə özülü, əsası, nə təməli bilindi.
Nə gördüyü işləri, nə əməli bilindi, [360]
Nə ətiri duyuldu, təravəti bilindi.
Nə istisi, həniri, hərarəti bilindi,
Nə zirəklik göründü, məharəti bilindi.
Nə şöhrəti yayıldı, şərafəti bilindi,
Nə hünəri-təpəri, fərasəti bilindi.[361]
Nə bacarıq-fəhimi, cəsarəti bilindi,
Nə səxası göründü, fəziləti bilindi,
Nə vəfası, ilqarı, məhəbbəti bilindi.[362]
Nə dözümü, durumu, dəyanəti bilindi,
Nə də xalqa çatası, bəyənatı bilindi.
Gör nəqədər şerlər, ürəyimdə yaşadı?
Sinəm üstə qövr edib, kürəyimdə yaşadı.
Neçə Cavid, Cavadın, Müşviqimin dilində,
Sevda dolu ürəyi, aşiqlərin dilində.
Dodaqlardan çıxmamış, nəfəslərdə sözüm var,
Zindanlarda çürüyən, qəfəslərdə sözüm var.
Neçə arzu-istəkdə, həvəslərdə sözüm var,
İşıq üzü görməyən, məhbəslərdə sözüm var.[363]
Zülmətlərdə inləyən, sızıldayan sözüm var,[364]
Alışmamış ocağım, sönüb getmiş közüm var.
Gedilməmiş yollarım, cığırım var, izim var,[365]
Havayıdan məhv olan, oğulum var, qızım var.
Gör nəqədər sözlərim kitablara düşmədi?
Əmirlərə salınıb, xitablara düşmədi?
Nə hecası bilindi, nə sətiri yayıldı,
Nə qönçəsi açıldı, nə ətiri yayıldı.
Gör nəqədər şeirim, ilhamını almadı?
Düşüb dilə-dodağa, öz kamını almadı.
Yaxın-uzaq ellərə, iraqlara düşmədi,

---

[360] 1) Nə gördüyü bir işi, nə əməli bilindi. 2) Nə fikiri, nə zikiri, nə əməli bilindi.
[361] Nə bacarıq, fəhimi, fərasəti bilindi,
[362] Nə eşqi, nə ilqarı, məhəbbəti bilindi.
[363] Zindanlarda məhv olan, məhbəslərdə sözüm var.
[364] Neçə-neçə zülmətdə inləyən, sözüm var,
[365] Gör nəqədər silinmiş, cığırım var, izim var.

Piltələrdə yanaraq çıraqlara düşmədi.[366]
Borclu qaldı bəşərə, borclu qaldı insana,
Düşünüb dərk edənə, anlayana, qanana.
Gör nəqədər sözlərim, kamalımda dolandı?
Vicdanımda yaşadı, amalımda dolandı.
Ocağını qalayıb, köz almadı sözlərim,
Tam almadı nədənsə, duz almadı sözlərim.
Hənirinə toplaşıb isinmədi nəqədər?[367]
Səksənmədi nəqədər, diksinmədi nəqədər?
Mənasını dərk edib, qananmadı nəqədər?[368]
Şəkk-şübhə eylədi, inanmadı nəqədər?[369]
Gördüyünü götürüb eşitmədi nəqədər?[370]
Bir haraya gəlmədi, yetişmədi nəqədər?[371]
Sözlərimdən nəqədər, öz payını almadı?
Çörəyini yemədi, nə çayını almadı?
Hara gəldi oturdu, öz yerini bilmədi,
Nə xeyrini anlayıb, nə şərini bilmədi.

Bu güzgüyə baxaraq, camalını görmədi,
Məsləkini tanıyıb, amalını görmədi.
Astarını, üzünü, çölünü də görmədi,
Fitnəsini, fəsadı, felini də görmədi.[372]
Qəlbindəki çamırı, lilini də görmədi,
İlan kimi zəhərli, dlilini də görmədi.
Qəlbindəki paxırı, qaranı da görmədi,
Bu mənəvi zərbəni, yaranı da görmədi.
Yaxşıları tanıyıb, yamanı da görmədi,
Ünsiyyətdə-ülfətdə, dumanı da görmədi.
Yerli-yersiz etdiyi, ədasını görmədi,
Nifrət ilə yad olan, sədasını görmədi.
Törətdiyi bəd işi, əməlini görmədi,
Nəzər salıb keçmişə, təməlini görmədi.

---

[366] Lampalarda yanmadı, çıraqlara düşmədi.
[367] Hənirinə yığılıb, isinmədi nəqədər?
[368] Mənasını anlayıb, qananmadı nəqədər,
[369] Dərk etmədi nəqədər, inanmadı nəqədər.
[370] Gördüyünü eşidib, götürmədi nəqədər?
[371] Kamalını, huşunu bitirmədi nəqədər.
[372] Fitnəsini anlayıb, felini də görmədi.

Dərk eyləyib həyatı duyanmadı çoxları,
Qəlbindəki ləkəni, yuyanmadı çoxları.
Yatdı qəflət içində, oyanmadı çoxları,
Dar ayaqda qaçdılar, dayanmadı çoxları.
Sözlərimdən isinib, od almadı çoxları,
Yarasına sürtməyə yod almadı çoxları.
Tüstüləndi, qaraldı, alışmadı çoxları,
Zəhmətlərə qatlaşıb, çalışmadı çoxları.
Xəbər-əhval, hal bilib, soruşmadı çoxları,
Nə xeyirə, nə şərə qarışmadı çoxları.
Gedib gendə dolandı, girişmədi çoxları,
Gəlib haqqın yoluna barışmadı çoxları.
Bay dolandı, bay gəzdi, ilişmədi çoxları,
Şərafətə, şənliyə, gülüşmədi çoxları.
İçin-için çatdadı, ləyaqətə darıldı,
Qol-qılçaya dolaşdı, əl-ayağa sarıldı.
Öz yerinə nədənsə qoyulmadı çoxları,
Ha törpüylə oyduqsa, oyulmadı çoxları.
Çox nadanlar, nəinsaf, incidilər, bezdilər,[373]
Qaşqabağı tökərək, dodağını büzdülər.
Çəkilib bir kənara, uzaqlarda gəzdilər, [374]
Qərq olaraq tufana, sazaqlarda gəzdilər.
Əllərini əlimdən qopardılar, üzdülər,
Sinə gərib çətinə, hər əzaba, dözdülər.[375]

Çox sözlərim, söhbətim öz yerinə çatmadı,
Məqamında deyilib, düz yerinə çatmadı.
Əfsus olsun çox sözün səməri bilinmədi,[376]
Nə qılıncı, qalxanı, kəsəri bilinmədi.
Nə təsiri, nüfuzu, əsəri bilinmədi,
Muştuluğu alınıb, nəməri bilinmədi.
Hər səhvəsi oxunub, sətiri duyulmadı,
Təravəti çəkilib, ətiri duyulmadı.
Nə abzası oxundu, nə cümləsi bilindi,

---

[373] Nanıkorlar nəinsaf,  incidilər, bezdilər.
[374] Gendən-genə dolanıb, uzaqlarda gəzdilər.
[375] Sinə gərib çətinə, əzablara dözdülər.
[376] Əfsus olsun faydası, səməri bilinmədi.

Mübtədası, xəbəri, nə kəlməsi bilindi.
Nə səbəbi bilindi, nəticəsi bilindi,
Nə babası tanındı, kötücəsi bilindi.
Nə istisi, alovu, həniri duyulmadı,[377]
Cəsarəti bilinib, hünəri duyulmadı.
Sərrafını tapmayıb, söz də yaman incidi,
Qaş da yaman incidi, göz də yaman incidi.
Sərraf yaman incidi, zər də yaman incidi,
Zəhmət hədər gedəndə, tər də yaman incidi.
Karvan yolu azanda, yol da küsüb incidi,
Bağ da yaman incidi, kol da küsüb incidi.
Nə söyləyib deyəsən, kütbeyinə nadana?
Öz yolunu azana, tərsəməssəb adana?
Haqq-sayı itirib, udanlara nə deyim?
Tərbiyədən yarımçıq dadanlara nə deyim?
Öz yerinə nədənsə qoyulmadı çoxları?
Nə törpüylə, baltayla oyulmadı çoxları.
Əbəs yerə inciyən, küsənlər də oldular,
Ünsiyyəti-ülfəti kəsənlər də oldular,

Gör nəqədər həyatda yetişmədi, kal oldu?
Şəkli insan donunda, heyvan oldu, mal oldu.
Saldı dava-dalaşı, qovğa oldu, qal oldu,
Bədəməllər önündə, nitqi bağlı lal oldu.
Gör nəqədər dərsini düz almamış qaldılar?
Gecikdilər ay aman, tez almamış qaldılar?
Neyləyəsən çoxunun cəmiyyətdə payı yox,
Keyfiyyətdən xəbəri, kəmiyyətdə payı yox.
İnsanlıqda sədası, ləyaqətdə payı yox,
Xeyirxahlıq nişanı, fəzilətdə payı yox.
Nə qayğısı, yardımı, nə də haqq-sayı yox,
Saf arzuda, istəkdə, pak niyyətdə payı yox.
Gör nəqədər ay aman yollarını azan var?
Həqiqəti tərsinə, çevirən var, yozan var?
Doğru sözü, düz yolu, qaralayıb pozan var,
Ayaqların altını eşələyib qazan var.[378]

---

[377] Nə istisi, soyuğu, həniri duyulmadı.
[378] Ayaqların altından dərin quyu qazan var.

Gör nəqədər dünyada, xain, paxıl, xəbis var?[379]
Tamahkarlıq eyləyən, acgözlər var, həris var?
Naxələflər, namərdlər, nanəcib var, naqis var?
Əsli-kökü zaylar var, bədəsillər, nacins var?
Təbiətin nəqədər rüzgarı var, rəngi var?
İgidlərin nərəsi, Koroğlunun cəngi var?
Gör nəqədər dünyada, bədxahlar var, yaman var?
Dağ başını bürüyən, çisgə, sis var, duman var? [380]
Ustadından dərsini öyrənib almayan var?[381]
Qətrə-qətrə toplanıb, hələ də dolmayan var?
Fikirlərə, xəyala hələ də dalmayan var?

Hərkəs gərək ayırsın yaxşıları yamandan,
Xəlbirlənib, ələsin arpaları samandan.
Vicdanında, məsləkdə, tərəzidə çəksinlər,
Əqidəni, imanı, mərəzi də çəksinlər.
Sözlərimdə nəqədər vəsf olmamış gözəl var,
Yazılmamış dastanlar, oxunmamış qəzəl var.[382]
Gör sinəmdə nəqədər, eşq-həvəsli ürək var?
Sağlam fikir-xəyallı, pak nəfəsli dilək var?
Zirvələrə can atan, qol-qanad var, lələk var,
Yaratmaqdan, qurmaqdan, yorulmayan bilək var.
Gör nəqədər dünyada, görülməmiş işim var?
Hər sahədə sənətim, məsləyim var, peşəm var?[383]
Şerimdə nəqədər vəsf olmamış kəndlər var?
Salınmamış şəhərlər, qəsəbələr, bəndlər var?
Gəzilməmiş bərəlgə, keçilməmiş bərə var?
Eniş-yoxuş yarğanlar, uçurum var, dərə var?
Gör nəqədər el-oba, gəzilməmiş mahal var?
Dərs almamış nurani, neçə-neçə cahal var?[384]
Çəmənimdə, çölümdə, gör nəqədər çiçək var?[385]
Neçə-neçə qönçələr, boy atmamış dibçək var?

---

[379] Gör nəqədər paxıllar, xainlər var, xəbis var.
[380] Ünsiyyəti korlayan, çisginlər var, duman var.
[381] Əfsus ki, ustadından dərsini almayan var.
[382] Yazılmamış şeirlər, duzlu-duzlu qəzəl var.
[383] Bəslənməmiş bağlarım, dərilməmiş işim var.
[384] Neçə-neçə nurani, neçə müdrik ahal var.
[385] Çəmənimdə, çölümdə, açılmamış çiçək var?

Vəsf olmamış nəqədər, tumurcuq var, qönçə var?
Muğan-Şirvan, Qarabağ, Bakı, Şəki, Gəncə var.

Gör nəqədər arada ədavətlər yaşayır?
Avamlıqlar yaşayır, cəhalətlər yaşayır? [386]
Haqq-nahaqdan törənən, qəbahətlər yaşayır,
Qəsd-qərəzlər yaşayır, xəyanətlər yaşayır,
Giley-güzar dolanıb, şikayətlər yaşayır.
Çoxları heç tapmadı, səadətin yolunu? [387]
Xoş arzunun, istəyin, xoş adətin yolunu? [388]
Fərasətin yolunu, cəsarətin yolunu?
Bacarığın, biliyin, məharətin  yolunu?
Səxavətin yolunu, kəramətin yolunu?
İnsanlığa xas olan, əlamətin yolunu?
Ərimədi ürəyi, qəlbi daşın bu sözdən,
Vicdanı kəm-kəsirin, fikri çaşın bu sözdən.
Gör nəqədər sərsəri, divanələr var hələ?[389]
İnsanlığa yad olan, biganələr var hələ?[390]
Deyilməmiş nəqədər, həngamələr var hələ?
Ürəklərin açarı sözlərimdə qalıbdır,
Diləklərin açarı sözlərimdə qalıbdır,
Könüllərə saldığım izlərimdə qalıbdır.
Söz də dərman kimidir, əvvəl biraz acıdır,
Sanırsan ki, içməyə həbi biraz acıdır.[391]
Neyləyək ki, belədir o gərəkdir xəstəyə?
O ümiddir xəstəyə, o ürəkdir xəstəyə.
O nəqədər acısa, nəticəsi gözəldir,
Nəvələri şirindir, kötücəsi gözəldir.[392]
Əqli olan kimsələr ona biganə olmaz,
İbtidaya, əzələ, sona biganə olmaz.
İnsanlığa yol açan sözə biganə olmaz,

---

[386] Haqq-nahaqdan törənən, qəbahətlər yaşayır.
[387] Gör nəqədər tapmayıb, səadətin yolunu,
[388] Xoş ənənə, vərdişlər, xoş adətin yolunu.
[389] Gör nəqədər sərsəri, divanələr qalıbdır.
[390] İnsanlığa yad olan, biganələr qalıbdır.
[391] Sanırsan ki, zəhərdir, həbi biraz acırdır.
[392] Nəvələri məzəli, kötücəsi gözəldir.

Ocaqları yandıran közə biganə olmaz.
Cığırlara, yolağa, izə biganə olmaz,
Sənə, mənə, onlara bizə biganə olmaz.
Çoxlarının yanında söz də düşdü qiymətdən,
Yalan düşsə nə varki, düz də düşdü qiymətdən.
Çörək düşdü qiymətdən, duz da düşdü qiymətdən,
Tar, kamança, nağara, saz da düşdü qiymətdən.
İnsaf kara yetmədi, mürvət kara yetmədi,
Namus kara yetmədi,  qeyrət kara yetmədi.
Ta qədimdən bu günə, kitab kara yetmədi,
Nə qərarlar, qətnamə, xitab kara yetmədi.
Muğam kara yetmədi, dəstgah kara yetmədi,
Nə "Cahargah", nə də "Şur", "Segah" kara yetmədi.
Zurna kara yetmədi, qaval kara yetmədi,
Sorğu kara yetmədi, sual kara yetmədi.
Nağıl kara yetmədi, dastan kara yetmədi,
"Xəmsə" kara yetmədi, "Bustan" kara yetmədi.
Biganəyə, keybaşa, söhbət əsər etmədi,
Kamalsıza, səybaşa qeybət  əsər yetmədi.
Qəzəb əsər etmədi, nifrət əsər etmədi,
Ehsan əsər etmədi, xeyrat əsər etmədi.
Çoxu cahil doğuldu, nadan getdi dünyadan,
Tərbiyədən yarımçıq dadan getdi dünyadan.
Yolu-izi tərsinə, adan getdi dünyadan,
Haqq-sayı sümürüb, udan getdi dünyadan.
O səbəbdən qalıbdır, dava-dalaş, qovğa-qal,[393]
Səksəkələr, qorxular, dəhşət, təlaş, çalha-çal.[394]
Yersiz-yersiz söhbətlər, giley-güzar hərnəvar,
Ara vuran şər-xəta, mərdimazar hərnəvar.
Ondan qaldı tarlada, sarmaşıqlar, alaqlar,
Ondan qaldı çətinlik, eniş-yoxuş yolaqlar.
Ondan qaldı ay aman, xeyir şərə yaramaz,
Biganələr, əhli-kef, doğub artmaz, törəməz.[395]
Ünsiyyətdə-ülfətdə qəlbi buzlar, soyuqlar,
Ulğun, söyüd, kətəyən, müqəvvalar, oyuqlar.

---

[393] Ondan qaldı bəşərə dava-dalaş nə varsa.
[394] Səksəkələr, qorxular, dəhşət, təlaş, nə varsa.
[395] Biganələr, əhli-kef, yada salmaz, unamaz.

Əfsus olsun yerində səslənmədi şeirim,[396]
Hər ürəkdə kök salıb, bəslənmədi şeirim.
Ürəyimdən-ürəyə sellənmədi şeirim,
Sədasını çıxarıb dillənmədi şeirim.[397]
Zaman-zaman kiridi, susdu mənim şeirim,
Orda-burda gizlənib, pusdu mənim şeirim.
Ondan-bundan incidi, küsdü mənim şeirim,
Ümidini əllərdən kəsdi mənim şeirim.
Danışmadı, dinmədi, dil açmadı şeirim,
Hər diyarda, məkanda gül açmadı şeirim.[398]
Qapıları, bacası, bağlı qaldı şeirim,[399]
Açılmamış qatları, zağlı qaldı şeirim.[400]
Qamətini düzəldib gəzənmədi şeirim,
Gör nəqədər möhüblər düzənmədi şeirim?
Nadanlığa səbr edib, dözənmədi şeirim? [401]
Axmaq, sarsaq, cahili əzənmədi şeirim?
Bir çoxuna nədənsə, qəhər oldu şeirim?
Ağı oldu şerim, zəhər oldu şeirim?[402]
Yumruq oldu şerim, şillə oldu şeirim?
Mərmi oldu şerim, güllə oldu şeirim? [403]
Hafizədən silindi, yaddan çıxdı şeirim?[404]
Dəbdən düşdü şerim, moddan çıxdı şeirim?[405]
Düşdü tezcə kəsərdən, zoddan  çıxdı şeirim?[406]
Ocaqlardan atıldı, oddan çıxdı şerim?[407]
Dərk edənə, qanana şəkər oldu şeirim,
Al şəfəqli, günəşli, səhər oldu şeirim,
Zəfər çaldı şerim, nəmər aldı şeirim.

---

[396] Məqamında, yerində səslənmədi şeirim.
[397] Məcrasından çıxaraq, dillənmədi şeirim.
[398] Qönçəsində boğuldu, gül açmadı şeirim.
[399] Nə zamandan bəridir, bağlı qaldı şeirim.
[400] Açılmadı qatları, zağlı qaldı  şeirim.
[401] 1) İçin-için ağlayıb dözənmədi şeirim, 2) Sinə gərib, tablaşıb, dözənmədi şeirim,
[402] Acı oldu şerim, zəhər oldu şeirim.
[403] Təpəsinə atılan, güllə oldu şeirim.
[404] Yaddan çıxdı şeirim, daddan çıxdı şeirim.
[405] Ölçüsünə gəlmədi, moddan çıxdı şeirim,
[406] Düşdü yaman kəsərdən, zoddan  çıxdı şeirim.
[407] Alovlardan, atəşdən, oddan çıxdı şerim.

Fayda verdi şerim, bəhrə oldu şeirim,
Külüng oldu şeirim, dəhrə oldu şeirim.
Dadlı oldu şerim, duzlu oldu şeirim,
Yetmiş iki havalı, sazlı oldu şeirim.
Süfrə açdı şerim, çörək oldu şeirim,
Qədirini bilənə gərək oldu şeirim.
Yanılana, çaşana, yol göstərdi şeirim,
Qıymamazlıq etmədi, bol göstərdi şeirim.
Sərrafların yanında, lələ döndü şeirim,
Mixək, darçın, zəncəfil, hilə döndü şeirim.
Şeyda ülbül yanında gülə döndü şeirim,
Damla-damla toplanıb, selə döndü şeirim.
Çaydan-çaya qarışıb, gölə döndü şeirim,
Sinəm üstə kökləndi telə döndü şeirim,
Kür-Araza qovuşdu, Nilə döndü şeirim.
Xeyir oldu şeirim, fayda oldu şeirim,
Qanun oldu şeirim, qayda oldu şeirim.
Çarə oldu şeirim, dərman oldu şeirim,
Çəmən oldu şeirim, orman oldu şeirim.
Dəniz oldu şeirim, dərin oldu şeirim,
Bürkülərdə yanana, sərin oldu şeirim.
Zülal oldu şeirim, şərbət oldu şeirim,
Xətir oldu şeirim, hörmət oldu şeirim.
Eşidənə, bilənə, məna oldu şeirim,
Həyat oldu şerim, dünya oldu şeirim.

***Cəmil Əkbər*** 20-27. 01 – 1989; 20. 03 – 1997

## 72. DÜNYASIDIR

Deyəsən kainat əzəl günündən,
Hiyləgər, dələduz, bic dünyasıdır.
Vurhavur, gəlhagəl, xəzəl günündən,
İlqara-imana kəc dünyasıdır. [408]

[408] *II variant* Bu dünya deyəsən əzəldən bəri,
Hiyləgər, dələduz, bic dünyasıdır.
Salıb aralığa xeyiri-şəri,
Biri-birisinə kəc dünyasıdır.

Çoxları çatmadı kamala heyhat,
Əqidə, məsləkə, amala heyhat,
Mənəvi gözəllik, camala heyhat,
Sərsəri, kəmağıl, gic dünyasıdır.[409]

Davada, dalaşda vurhavurdadır,
Həyəcan, təlaşda, qırhaqırdadır,
Bezdirib, dözdürüb, yorhayordadır,
Gəlməyir qərara öc dünyasıdır.

Nadanlar əlindən bezibdir hamı,
Gərib sinəsini, dözübdür hamı,
Anlayıb, duyubdur, sezibdir hamı,
Başını götürüb qaç, dünyasıdır.

Çox mənəm deyənlər, gələnlər-gedir,
Kef-damaq içində gülənlər gedir,
Bilməyənlər gedir, bilənlər gedir,
Dayanıb duranmır, keç dünyasıdır.[410]

Nəqədər cəhd etdi, qala bilmədi,
İncik könülləri ala bilmədi, [411]
Zəfərlər təblini çala bilmədi,
Gəlhagəl, gethaget, köç dünyasıdır.

Nəqədər dövləti, var-halı qaldı,
Qurulu sarayı, cəlalı qaldı,
Axır aqibətdə məlalı qaldı,
Əlləri boş getdi, puç dünyasıdır.[412]

---

[409] *II variant* Çoxları qalıbdı kamala həsrət,
Əqidə, məsləkə, amala həsrət,
Mənəvi gözəllik, camala həsrət,
Sərsəri, kəmağıl, gic dünyasıdır.

[410] Heç dayanıb durmur, keç dünyasıdır.

[411] Qəlblərdə izini sala bilmədi.

[412] *II variant* Dövlət də, sərvət də talandı getdi,
Yerlərə qərq oldu, calandı getdi,
Çatılıb odlara qalandı getdi,
Əfsanə, havayı, puç dünyasıdır.

Məqam yetişəndə aman vermədi,
Bəd gəldi dövranı, zaman vermədi,[413]
Aldı ixtiyarı, imkan vermədi,
Əcəl şərbətini iç dünyasıdır.

Ay Cəmil, bu cahan sənə də qalmaz,
Xətiri-hörməti yadına salmaz,
Sındırar qəlbini, könlünü almaz,
Əvvəli-axırı heç dünyasıdır.

***Cəmil Əkbər*** 24. 10 – 1993

## 73. DÜNYANIN

**(Şairə Səadət Buta ilə Şair Cəmil Əkbərin deyişməsi)**

***Səadət Buta:*** İsitmir canımı qazın istisi,
Qoy dolsun gözümə ocaq tüstüsü,
Yadın plovundan, yarma istisi,
Olar mənim üçün balı dünyanın.

***Cəmil Əkbər:*** Zəhməti çəkənlər arı olsada,
Gör kimə qismətdi balı dünyanın?
Azalıb qüvvəsi yarı qalsada,
Dəyməmiş tökülür kalı dünyanın.

***Səadət Buta:*** Körpələr "malış"dan analı olub,
Göllər boz sərçədən sonalı olub,
Dırnaqlar boyaqdan xınalı olub,
Bax belə pozulub halı dünyanın.

***Cəmil Əkbər:*** İnsan zəhmətilə öyünə bilmir,
Baxıb əməliylə sevinə bilmir,
Alıb əyninədə geyinə bilmir,
Bahadır tirməsi, şalı dünyanın.

***Səadət Buta:*** Aranı bilinmir, dağı bilinmir,
Hamı bağban olub, bağı bilinmir,
Yolkəsən tanınmır, yağı bilinmir,
Yaman artıb qeylü-qalı dünyanın.

---

413 Arpaya qıymadı, saman vermədi.

***Cəmil Əkbər:*** Zəmanə bəd gəlib, dövran çaşıbdır,
Duman yolu kəsib, karvan çaşıbdır,
Ədalət tapdanır, sarvan çaşıbdır,[414]
Cırlaşıb Rüstəmi-Zalı dünyanın.

***Səadət Buta:*** Arvadı tanınmır, əri bilinmir,
Böyüyün, kiçiyin yeri bilinmir,
Nə xeyri bilinmir, şəri bilinmir,
Dəhşətdən dil açıb, lalı dünyanın.

***Cəmil Əkbər:*** İnsanın-insana nifrəti artır,
Qəzəbi çoxalır, hiddəti artır,
Gileyi-güzarı, qeybəti artır,
Sığmayır məcraya seli dünyanın.

***Səadət Buta:*** Asılmır ocağa nənəmin sacı,
Yığılmır başına yolçunun acı,
Boşalmır xurcunu, dolmur farmacı,
Qəhətə çəkilib malı dünyanın.

***Cəmil Əkbər:*** Bu dövrü, gərdişi belə görüncə,
Qananı-qanmaza kölə görüncə,
Cahili arifə lələ görüncə,
Pozulur əhvalı, halı dünyanın.

***Səadət Buta:*** Cəngilər başlayır "cəngi" havasız,
Şəhərlər hasarsız, igid qalasız,
Doğulur atasız, qalır anasız,
Yetimlə dolubdur yolu dünyanın.

***Cəmil Əkbər:*** Günü-gündən artır, biclər çoxalıb,
İlqara-imana kəclər çoxalıb,
Qaydaya-qanuna öclər çoxalıb,
Kəsməyir fitnəsi, feli dünyanın.

***Səadət Buta:*** Amandı, danışın yaşdı kişilər,
Hardadır papaqlı, başdı kişilər?
Gün kimi dağlardan aşdı kişilər,
Uzalı qalıbdır qolu dünyanın.

---

[414] İtirib əqlini, sarvan çaşıbdır.

***Cəmil Əkbər*** Buta xanım, nər kişilər görünmür,
Sözübütöv ər kişilər görünmür,
Nuranilər, pir kişilər görünmür,
Döndü qarışqaya, fili dünyanın.

***Cəmil Əkbər*** 20-23 // 02 – 1992

**74. DÜNYANIN**

Zəhməti çəkənlər arı olsada,
Gör kimə qismətdi balı dünyanın?
Azalıb qüvvəsi yarı qalsada,
Dəyməmiş tökülür kalı dünyanın.[415]

İnsan zəhmətilə öyünə bilmir,
Baxıb əməliylə sevinə bilmir,
Alıb əyninədə geyinə bilmir,
Bahadır tirməsi, şalı dünyanın.[416]

Zəmanə bəd gəlib, dövran çaşıbdır,
Duman yolu kəsib, karvan çaşıbdır,
Ədalət tapdanır, sarvan çaşıbdır,[417]
Cırlaşıb Rüstəmi-Zalı dünyanın.[418]

---

[415] *II variant* Zəhmətin qəhrini arı çəksədə,
Gör kimə qismətdi balı dünyanın?
Sərf edib qüvvəni, barı çəksədə,
Dəyməmiş tökülür kalı dünyanın.

[416] *II variant* Baxıb əməllərə öyünmək olmur,
Qürurla fəxr edib sevinmək olmur,
Xoşuna gələndən geyinmək olmur,
Bahadır tirməsi, şalı dünyanın.

*III variant* Baxıb zəmanəyə öyünmək olmur,
Ürəkdən şadlanıb sevinmək olmur,
Tapıb əyinlərə geyinmək olmur,
Bahadır tirməsi, şalı dünyanın.

[417] İtirib əqlini, sarvan çaşıbdır.

[418] *II variant* İgidlər cırlaşıb, pozulub yaman,
Seyrəlib dəstəsi, azalıb yaman,
Ayrılıb qatardan üzülüb yaman,
1) Görünmür Rüstəmi-Zalı dünyanın. 2) Mat qalıb Rüstəmi-Zalı dünyanın.

İnsanın-insana nifrəti artır,
Qəzəbi çoxalır, hiddəti artır,
Gileyi-güzarı, qeybəti artır,
Sığmayır məcraya seli dünyanın.[419]

Bu dövrü, gərdişi belə görüncə,
Qananı qanmaza kölə görüncə,
Cahili arifə lələ görüncə,
Pozulur əhvalı, halı dünyanın.[420]

Günü-gündən artır, biclər çoxalıb,
İlqara-imana kəclər çoxalıb,
Qaydaya-qanuna öclər çoxalıb,
Kəsməyir fitnəsi, feli dünyanın.[421]

---

[419] *II variant* İnsanın-insana hiddəti artıb,
Küdurəti artıb, nifrəti artıb,
Gəlib həyəcana, dəhşəti artıb,
Dağ-daşa düşübdür yolu dünyanın.

*III variant* Səbəb odur indi biclər çoxalıb,
İlqara-imana kəclər çoxalıb,
Qanuna-qaydaya öclər çoxalıb,
Pozulub höyürü, dölü dünyanın.

[420] *II variant* Tərsəməssəb adamların əlindən,
Canilərin, nadanların əlindən,
Haqqı-sayı udanların əlindən,
Pozulur əhvalı, halı dünyanın.

*III variant* İnsafını atanları gördükcə,
Aralığı qatanları gördükcə,
Günahlara batanları gördükcə,
Pozulur əhvalı, halı dünyanın.

*IV variant* Dövranı, gərdişi belə görüncə,
Mərdləri namərdə kölə görüncə,
1) Qanmazı qanana şələ görüncə, 2) Cahil nadanları lələ görüncə,
Tökülür dəymişi, kalı dünyanın.

[421] *II variant* Hiyləgər, dələduz, bic əyyamıdır,
İlqara-imana kəc əyyamıdır,
Haqqa-ədalətə öc əyyamıdır,
Kəsməyir fitnəsi, feli dünyanın.

Buta xanım, nər kişilər görünmür,
Sözü bütöv ər kişilər görünmür,
Nuranilər, pir kişilər görünmür,
Döndü qarışqaya, fili dünyanın.[422]

Hayana baxırsan nadandır, bacı,
Haqq-say sümürüb udandır, bacı,
Təlimdən yarımçıq dadandır, bacı,
Doludur yamacı, yalı dünyanın.

Meydan verilibdir başıboşlara,
Vicdanı kəmlərə, qəlbi daşlara,
Filə hücum çəkən alabaşlara,
Düz getmir mənzilə yolu dünyanın.

Ərşə çıxıb olan-qalan kefimiz,
Qəhətləşib qazancımız, nəfimiz,
Düzgün işdən daha çoxdur səhvimiz,
Aşıb-daşır dərd-məlalı dünyanın.

Nöqsanların, qəbahətin əlində,
Kin-küdurət, ədavətin əlində,
Avamlığın, cəhalətin əlində,
İnləyir, sızlayır valı dünyanın.

Ünsiyyət-ülfətlər pozulub yaman,
Doğrular tərsinə yozulub yaman,
Hörməti-izzəti azalıb yaman,
Görünmür əvvəli-dalı dünyanın. [423]

---

[422] *II variant* Nəqədər zirvəyə ucalan endi,
Zəfər dünyasından bac alan endi,
Var-dövlət toplayıb güc alan endi,
Döndü qarışqaya, fili dünyanın.

*III variant* Gedə-gedə nər kişilər azalır,
Sözü bütöv, ər kişilər azalır,
1) Dar ayaqda zor kişilər azalır, 2) Bərkdə-boşda zor kişilər azalır.
1) Çoxalır qovğası, qalı dünyanın. 2) Kəsilmir qovğası-qalı dünyanın.

[423] *II variant* Abırsızlar, həyasızlar çoxalıb,
Əqidəsiz, qayəsizlər çoxalıb,
Tərbiyəsiz, dayəsizlər çoxalıb,
Görünmür əvvəli-dalı dünyanın.

Hamı xidmət edir öz tamahına,
Dərin tamahına, üz tamahına,
Oğul tamahına, qız tamahına,
Hökm edir həryanda, pulu dünyanın.[424]

Nə abır qanan var, nə ar qanan var,
Nə yoldaş tanıyıb, nə yar qanan var,
Nə məzar eşidən, nə gor qanan var,
İtirib isməti, dulu dünyanın.

Qanundan, qaydadan qalmayıb əsər,
Qərar, qətnamə də verməyir səmər,
Görünmür ciddilik, görünmür kəsər,
Talanıb yeyilir malı dünyanın.

Cəmil Əkbər baxıb-baxıb qəm yeyir,
Zildən düşüb pəs içində bəm yeyir,
Buludlardan didələri nəm yeyir,
Olubdu nökəri, qulu dünyanın.

***Cəmil Əkbər*** 20-23 // 02 – 1992

## 75. GƏLMƏMİŞİK, GƏLMİŞİK BU DÜNYAYA (1)

*(Müharibə qızışdırıcılarına)*

*Gəlməmişik bu dünyaya,* bəşər üçün yük olmağa,
Qəlbə dəyən daş olmağa, gözə batan çöp olmağa.
Bəd sözlərlə, əməllərlə yükümüzü tutub gedək,
İnsaf, vicdan, mürvəti də birdəfəlik atıb gedək.
Düz getməyək yolumuzla, yol-ərkanı azıb gedək,
Arxalardan toxunaraq, ayaq altdan qazıb gedək.

---

[424] *II variant*
Hamı qoşulubdur öz tamahına,
Əyri tamahına, düz tamahına,
Dərin tamahına, üz tamahına,
Dollara çevrilir pulu dünyanın.

*III variant*
Qərq olub qəflətdə yatan-yatmaqda,
Üzən-üzməyində, batan-batmaqda,
Alan-almağında, satan-satmaqda,
Çaşdırıb hamını pulu dünyanın.

Arzusu kəm, niyyəti kəm, qəlbiqara daş olmağa,
Vicdan, məslək, əqidəsi, gözü-könlü çaş olmağa.
*Gəlməmişik bu dünyaya,* gücsüzləri əzmək üçün,
Hər ağrı, hər acılara sinə gərib dözmək üçün.
Ədəb-ərkan gözləməyib, ünsiyyəti pozub gedək,
Doğru sözləri, düz fkri, tərsəməssəb yozub gedək.
Al-qanları qaraldaraq, ürəkləri üzüb gedək,
Bu həyatdan kam almamış, şirin candan bezib gedək.
Öz səhvini görməyərək, onu-bunu sözə qoyaq,
Ürəkləri şişə çəkib, ciyərini közə qoyaq.[425]
Cəllad kimi asıb-kəsək, bu bəşəri qırıb tökək,
Tarlaları, zəmiləri, dolu kimi vurub tökək.
*Gəlməmişik bu dünyaya,* Hitler kimi qudurmağa,
Millətləri salışdırıb, birbirinə qırdırmağa.
Yersiz-yersiz biz törədək, ömürboyu davaları,
Meydan açaq dəhşətlərə, zəhərləyək havaları.
Şər-böhtanı danışaraq, aralığı qarışdıraq,
Hərcür fitnə-fel törədib, bu bəşəri vuruşduraq,[426]
Qaşqabağa düyün vuraq, alınları qırışdıraq.
Silahları ələ alıb, onu-bunu hədələyək,
Beyinləri zəhərləyək, ürəkləri zədələyək.
Bombaları partladaraq, barıtları alışdıraq.
*Gəlməmişik* biz pozmağa, bu dünyanın növrağını,
Tarixlərdən axtarmağa, keçmişlərin sorağını.
Haqq-nahaqdan qırıb-töküb, leysan edək al-qanları,
İşgəncəyə sala-sala, biz qocaldaq cavanları.
Göydən yağdıraq mərmini, viran qalsın şəhərləri,
Talan edək el-obanı, xərabə qalsın kəndləri.
Şilküt edək insanları, qapıları bağlar qoyaq,
Sinələrə dağlar çəkib, anaları ağlar qoyaq.
Biz dağıdaq komaları, biz uçuraq sarayları,
Qulaq asaq ah-naləyə, biz eşidək ah-vayları.
Şikəst olsun qol-qılçamız, hədəf olsun ürəyimiz,
Məhv edilsin xoş arzular, yox edilsin diləyimiz.

---

[425] Ürəkləri şişə çəkib, kabab kimi közə qoyaq.
[426] İşə salıb fitnə-feli, bu bəşəri vuruşduraq.

*Gəlməmişik bu dünyaya,* al-qanları qaraltmağa,
Əsəbləri korlamağa, yanaqları saraltmağa.
Köç edəndə bu dünyadan, arxasından söyülməyə,
Diri-diri məhv edilib, məzarda da döyülməyə.
Bədnam olsun hər sözümüz, bədnam olsun əməlimiz,
Dağıdılsın bünövrəmiz, yox edilsin təməlimiz.
Gözləməyək haqq-sayı, biz unudaq ədaləti,
Aldanaraq fitnə-felə, biz görməyək həqiqəti.
İlan kimi acışaraq, onu-bunu zəhərləyək,
Əngəl olub nəşəsinə, dərdə salıb qəhərləyək.
Düz getməyək yolumuzu, azğınlaşaq, harınlaşaq,
Piy bağlayıb donuz kimi, peysərləşib qarınlaşaq.
El gözündən düşüb gedək, yad edilək nifrət ilə,
Neçə-neçə kin-küdrətlə, qəzəb ilə nifrət ilə.

***Cəmil Əkbər*** 17. 04 - 1978

### 76. BU DÜNYAYA GƏLMƏMİŞİK, BİZ GƏLMİŞİK (2)

*(Müharibə qızışdırıcılarına)*

*Bu dünyaya gəlməmişik* özbaşına, elə-belə,[427]
Öz kefinə, istəyinə, öz xoşuna bilə-bilə.[428]
Bu gəlişin səbəbi var, məhəbbətdən yarandıq biz,
Pak müqəddəs, arzulardan, saf niyyətdən yarandıq biz.
Məhəbbətdən yaranankəs, məhəbbətli olmalıdır,
Sədaqətli, səxavətli, kəramətli olmalıdır.
İnsanoğlu duymalıdır, bu hikməti, bu mənanı,
Sevməlidir bu bəşəri, sevməlidir bu cahanı.
Anamızdan olan zaman çığırmışıq, bağırmışıq,
Heç bilmədik bu səs-küylə, görən kimi çağırmışıq?
*Bu dünyaya gəlmədik ki,* biz duymayaq bu səsləri,
Eşitməyək bu ünləri, anlamayaq bu dilləri.
Biz öyrənib bilməliyik, ağlayan kim, gülən kimdir?
Üzülən kim, üzən kimdir, cana doyub ölən kimdir? [429]
Biz görüb tanımalıyıq, yeyib-içən, kef edəni,
Ədəb-ərkandan uzaşıb, gündə min cür səhv edəni.

---

[427] Bu dünyaya gəlməmişik, öz xoşuna, elə-belə,
[428] Öz kefinə, istəyinə, öz başına bilə-bilə.
[429] Haqsızlıqdan cana doyub, üzülərək ölən kimdir?

Harınlaşıb nuş edəni, nəf edəni görməliyik,
Yollarını azanları səhv edəni görməliyik.
Səbəbləri görməliyik, nəticəni görməliyik,
Babalarla tutuşdurub, kötücəni görməliyik.
*Bu dünyaya biz gəlmişik,* munis eşqlə, həvəs ilə,
Ülvi, nəcib arzularla, həyat verən nəfəs ilə.
Neçə-neçə zəhmət ilə, dəyanətlə biz gəlmişik,
Dahiyanə fikirlərlə, bəyanətlə biz gəlmişik.
Gözəllikdən kam almağa, sevinməyə gəlmiş olduq,
Qələbəli işlər ilə, öyünməyə gəlmiş olduq.[430]
Seyr eyləyib xəyallara dalmaq üçün biz gəlmişik, [431]
Xatirədən silinməyib, qalmaq üçün biz gəlmişik. [432]
El xeyrinə peyvənd olub, calanmağa biz gəlmişik,
İnsan kimi ömür sürüb, dolanmağa biz gəlmişik.[433]
*Bu dünyaya şərəf üçün,* şöhrət üçün biz gəlmişik,
Vicdan, məslək, cürət üçün, qeyrət üçün biz gəlmişik.
Bu həyatdan zövq almağa, ləzzət üçün biz gəlmişik,[434]
Həm ehtiram, hörmət üçün, izzət üçün biz gəlmişik.
Bu cahanda xeyrə-şərə, qarışmağa biz gəlmişik,
Ellərin dərdi-halını, soruşmağa biz gəlmişik.[435]
Nəbzləri, ürəkləri duymaq üçün biz gəlmişik, [436]
Ana yurda məftun olub, uymaq üçün biz gəlmişik.[437]
Dərk eyləyib bilməliyik, bu dünyanın mənasını,
Əbəs yerdən sındırmayaq, könüllərin aynasını.
El nazını çəkə-çəkə xidmətində durmalıyıq,
İmdadına çatmalıyıq, əhvalını sormalıyıq.
*Biz gəlmişik bu dünyaya,* insanlara kömək üçün,
Hünər üçün, zəfər üçün, xoş məramlı dilək üçün.
Dayaq olaq dayaqsıza, sükan olaq sükansıza,
Arxa olaq arxasıza, imkan olaq imkansıza.
Gərək olaq kimsəsizə, ürək verək ürəksizə,

---

[430] Çəkdiyimiz zəhmət ilə, öyünməyə biz gəlmişik.
[431] Xəyallara dalmaq üçün, bu dünyaya biz gəlmişik.
[432] Bu dünyaya könüllərdə qalmaq üçün, biz gəlmişik.
[433] İnsan kimi ömür eyləyib, dolanmağa biz gəlmişik.
[434] Bu dünyaya nəşə üçün, ləzzət üçün biz gəlmişik.
[435] El dərdini, əhvalını, soruşmağa biz gəlmişik,
[436] Bu dünyaya ürəkləri duymaq üçün biz gəlmişik.
[437] Arzuları, diləkləri duymaq üçün biz gəlmişik.

Süfrə açaq süfrəsizə, çörək verək çörəksizə.
Yol göstərib yol azana, büdrəyənə, çaşana da,
Sərhəddini bilməyənə, öz həddini aşana da.
Hərkəs gərək tanıtdırsın, nəki varsa mənliyini,
Çalışaraq hey artırsın, el-obanın şənliyini.[438]
Düz eşidib, düz anlasın, düz dolanıb, düz də dursun,
Öz yoluyla doğru gedib, düz əylənib, düz otursun.
Hərkəs gərək özü üçün bir şərəfli ad qazana,
Ülfət qılıb, dostluq edib, neçə doğma yad qazana**.**
Bu cahana biz gəlmişik, borcumuzu başa düşək,
Xeyirimizi, şərimizi, xərcimizi başa düşək.
Şöhrət tapaq peşəmizdə, biz tanınaq işimizdə,
Tükənməsin inamımız, azalmasın gücümüz də.
Artıraraq varı-halı, bol eyləyək hər neməti,
Dolandıraq el-obanı, biz çəkməyək xəcaləti.
Naxış vuraq bu dünyaya, zinət verək yerə-göyə,
Yardım edək hər obaya, hər diyara, hər ölkəyə.
*Biz gəlmişik bu dünyada* el içində sınanmağa,
İmtahandan çıxmayanlar, layiq olur qınanmağa.
Dəryalarda ləl axtarıb, qəvvas kimi üzməliyik,
Sinə gərib çətinliyə, kişi kimi dözməliyik.
El xeyrinə, el şəninə, qüvvəmizi verməliyik,
Bağban olub bağlar salıb, meyvəsini dərməliyik.
Neçə susuz səhralara, həyat verən kanal çəkək,
Yeni-yeni şəhər salaq, qəsəbələr, kəndlər tikək,
Neçə-neçə nəhəng çaylar, ram eyləyən bəndlər tikək.
Bu dünyada yaşayırıq, görmək üçün gözümüz var,
Minnətdarıq ustadlara, neçə müdrik sözümüz var.
Gördüyünü tez götürən, zehnimiz var, zəkamız var,
Dərs almağa, öyrənməyə neçə-neçə dühamız var.
Gəlin duyaq sözümüzü, aça bilək gözümüzü,
Hörmət edək xalqımıza, biz sevdirək özümüzü.
Biz yaşadaq ədaləti, ləyaqəti, həqiqəti,
Qulaq asaq el sözünə, unutmayaq nəsihəti.
İbrət alaq bu həyatdan, ilham alaq ucalardan,[439]

---

[438] Çalışsın ki, o pozmasın el-obanın şənliyini.
[439] İbrət alaq ülvilərdən, ilham alaq ucalardan,

Biz öyrədək cavanları, biz dərs alaq qocalardan.[440]
Haqqın yolunu göstərək, öz yolunu azanlara,
Fitnə-fəsad törədənə, şər-böhtanı yazanlara.
El içində danışarkən sözümüzü gözləyək biz,
Hər məqamda, hər addımda izimizi izləyək biz.
*Bu dünyaya gəlmişik ki,* balalarla biz əylənək,
Övladlarla fərəhlənək, nəvələrlə məzələnək.
Görə bilək qeyrətini, duya bilək nəfəsini,
Eşidək el bağçasında şeyda bülbültək səsini.
Zəhmət çəkib biz çalışaq, zinət verək insanlara,
Dəyərini azaltmayaq, qiymət verək qananlara.
Qoy doğru-dürüst işləsin ürəyimiz, kamalımız,
Düzgün olsun əqidəmiz, məramımız, amalımız.
Ömürboyu peşə edək, hər bir zaman yaxşılığı,
Yetkinliklə əvəz edək nadanlığı, naşılığı.
Dərk eyləyək zərurəti, elm öyrənək, savadlanaq,
Şahin kimi pərvazlanıb, zirvələrə qanadlanaq.
Möhkəm olsun qanadımız, biləyimiz, qolumuz da,
Sağlam olsun düşüncəmiz, yanılmayaq yolumuzda.
Əlbir olsun fikirimiz, istəyimiz, diləyimiz,
Zəhmət çəkən əllərimiz, qollarımız, biləyimiz.
Nə bir fikir, nə xəyalda, diləklərdə bölünməyək,
Arzularda, əməllərdə, ürəklərdə bölünməyək.
*Biz gəlmişik bu dünyaya,* sadiq olaq etibara,
Əhdimizə, vəfamıza, səcdə qılaq düz ilqara.
Bu vətənə, bu torpağa, bu obaya, bu ellərə,
Qulaq asaq dönə-dönə bu sözlərə, bu dillərə.
Vicdan ilə xidmət edək, bu bəşərə, cəmiyyətə,
Qadir olaq insanlığa, mərifətə, ləyaqətə.
Biz öyrənək doğru-dürüst, bu həyatda yaşamağı, [441]
İnsanlığın hər borcunu, şərəf-şanla daşımağı.[442]

***Cəmil Əkbər*** 17. 04 – 1978

---

[440] Abırlanaq cavanlardan, həyalanaq qocalardan.

[441] 1) İnsan kimi dolanaraq, insan kimi yaşayaq biz, 2) İnsan kimi fərəhlənib, biz sevinib gülə bilək,

[442] İnsanlığın hər borcunu, şərəf ilə daşıyaq biz.

## 77. BU DÜNYAYA GƏLMƏMİŞİK, BİZ GƏLMİŞİK (3)

*Bu dünyaya gəlməmişik,* öz xoşuna, bilə-bilə,
Öz kefinə, istəyinə, özbaşına elə-belə.
Bu gəlişin səbəbi var, məhəbbətdən yaranmışıq,
Ən müqəddəs arzulardan, ünsiyyətdən yaranmışıq.
Məhəbbətin övladları, məhəbbətli olmalıdır,
Sədaqətli, səxavətli, kəramətli olmalıdır.
İnsan oğlu bu hikməti anlamalı, bilməlidir,
Bəşərin övladlarını canıdildən sevməlidir.
Bu dünyaya gələrikən çığırmışıq, bağırmışıq,
Bu hay-haray, bu səs-küylə, görən kimi çağırmışıq?
*Gəlmişik ki,* seyr eyləyək məmləkəti, bu elləri,[443]
Biz eşidək bu səsləri, biz anlayaq bu dilləri.[444]
Görüb tanımalıyıq ki, ağlayan kim, gülən kimdir?[445]
Dərd əlindən cana doyub, üzülərək ölən kimdir?
Bilməliyik harın-harın yeyib-içib, kef edəni,
Yol-ərkanı azanları, hər an min cür səhv edəni,
Çalıb-çapıb, asıb-kəsib, özü üçün nəf edəni.
Görməliyik səbəbləri, əvvəl, axır, nəticəni,
Babalarla tutuşduraq, nəticəni, kötücəni.
*Biz gəlmişik bu dünyaya,* eşq-məhəbbət həvəs ilə,
Ülvi istək, xoş məramla, ən müqəddəs nəfəs ilə.
Zəhmət ilə, qayğı ilə, neçə-neçə dəyanətlə,[446]
Təmiz, sağlam fikirlərlə, neçə-neçə bəyanətlə. [447]
Gözəllikdən kam almağa, fərəhlənib sevinməyə.
Çəkilən halal zəhmətlə qürürlanıb öyünməyə.
Gördüyünü düşünərək, xəyallara dalmaq üçün.
Xatirədən silinməyib, könüllərdə qalmaq üçün.
*Biz gəlmişik bu dünyaya,* şərəf üçün, şöhrət üçün,
İnsaf, vicdan, rəhm üçün, hünər üçün, qeyrət üçün.
Bu həyatdan zövq almağa, nəşə üçün, ləzzət üçün,
Həm ehtiram, həm etiqad, hörmət üçün, izzət üçün.
Hərzamanda, hər məkanda, xeyrə-şərə qarışmağa,

[443] Gəlməmişik bu dünyaya seyr eyləyək bu elləri.
[444] Eşitməyək bu səs-küyü, anlamayaq bu dilləri,
[445] Dönə-dönə bilməliyik ağlayan kim, gülən kimdir?
[446] Hünər ilə, zəhmət ilə, neçə-neçə dəyanətlə.
[447] Nəcib-nəcib fikirlərlə, ülvi-ülvi bəyanətlə.

Şərik olub el dərdinə, yardımıyla yarışmağa.
Nəbzləri tutmaq üçün, duymaq üçün ürəkləri,
Sezmək üçün arzuları, duymaq üçün diləkləri.
Bu dünyada insanlara kömək üçün gəlmiş olduq,
Xidmətini göstərməyə, əmək üçün gəlmiş olduq.
Anlayaraq, dərk edərək, bu həyatın mənasını,
Əbəs yerdən sındırmayaq, qəlb evinin aynasını.
Xalqın qayğısını çəkib, keşiyində durmalıyıq.
İmdadına çatmalıyıq, əhvalını sormalıyıq.
Bir ər kimi yaratmalı, kişi kimi qurmalıyıq.
Yol göstərək yol azana, büdrəyənə, çaşana da,
Sərhəddini keçənə də, hüdudunu aşana da.
Hərkəs gərək tanıtdırsın, nə bacarsa mənliyini,
Nahaq yerə pozmasınlar, el-obanın şənliyini.
Sərrast eşidib, anlayaq, düz dolanıb, düz də duraq,
Düz hərlənib, düz yeriyək, düz əyləşib, düz oturaq.
Görən, bilən deməsin ki, zalım oğlu yavalanıb,
İtirib əqli-kamalı, el içində havalanıb.
Hərkəs gərək bu dünyada, şan-şərəfli ad qazansın,
Sədaqətlə ülfət qılıb, dost-müsahib yad qazansın.
Dərin-dərin düşünərək fikir verək sözümüzə,
Nəzər salaq yolumuza, diqqət edək izimizə.
Gəlmişik ki, bu dünyaya, borcumuzu başa düşək,
Həm gəliri, həm çıxarı, xərcimizi başa düşək.
Yanılmayaq peşəmizdə, biz tanınaq işimizdə,
Tükənməsin taqətimiz, azalmasın gücümüz də.
Daim artıraq var-halı, hər sərvəti, hər neməti,
Dolandıraq el-obanı, çəkməyək heç xəcaləti.
Naxış vuraq dünyamıza, zinət verək yerə-göyə,
Xidmət edək, məmləkətə, hər diyara, hər ölkəyə.
*Bu dünyaya biz gəlmişik* bərkdə-boşda sınanmağa,
İmtahandan çıxmayanlar, layiq olur qınanmağa.
El xeyrinə gücümüzü, qüvvəmizi verməliyik,
Bağban olub bağlar salıb, meyvəsini dərməliyik.
Qərənfillər, yasəmənlər, gül-çiçəklər əkməliyik,
Yeni-yeni şəhər salıb, qəsəbə, kənd tikməliyik,
Bağrıyanıq səhralara kanalları çəkməliyik,
Ram eyləyib nəhəng çaylar, bənd-bərəni tikməliyik.
Xalqımıza xitabımız, neçə müdrik sözümüz var,

Gördüyünü götürməyə, zehnimiz var, zəkamız var,
Dərs almağa, öyrənməyə, neçə müdrik dühamız var.
Biz onlardan əxz edərək aça bilək gözümüzü,
Gecə-gündüz çalışaraq, biz sevdirək özümüzü.
Çalışaq ki, bu dünyada dərin salaq izimizi,
Uca edək başımızı, ağ eyləyək üzümüzü.
El gözündə çəkilərkən, ağır gələk tərəzidə,
Ünsiyyətdən kənar edək, təmənnanı, qərəzi də.
Loğman kimi, ömürləri uzatmağa biz çalışaq,
Bəsləyərək körpələri, ucaltmağa biz alışaq.
Səksən, doxsan yaşayaraq, yüzdən sonra ölüb gedək,
Yeni-yeni gənc nəsillə, əvəz olub təzələnək.
Sevincimizi paylaşıb, fəxarətlə əzizlənək.
Kim istər ki, bu dünyadan, kam almamış ölüb getsin?
Şaxta vurmuş gül-çiçəktək, qönçə ikən solub getsin?
*Bu dünyaya biz gəlmişik,* balalarla sevinməyə,
Nəvələrlə fərəhlənib, nəticəylə öyünməyə.
Duya bilək nəfəsini, görə bilək qeyrətini,
Biz eşidək şən səsini, şərəfini, şöhrətini.
Hərbirimiz, hər bir zaman, zinət verək insanlara,
Dəyərini azaltmayaq, qiymət verək insanlara.
Ürəyimiz düz döyünsün, düz işləsin kamalımız,
Doğru görünsün qayəmiz, əqidəmiz, amalımız.
Ömürboyu peşə edək, adət edək yaxşılığı,
Yetkinliklə əvəz edək nadanlığı, naşılığı.
Zərurəti dərk eyləyək, elm öyrənək, savadlanaq,
Şahin kimi pərvazlanıb, zirvələrdə qanadlanaq.
Əlbir olsun fikirimiz, hər arzumuz diləyimiz,
Təmənnasız xidmət edən əl-qolumuz, biləyimiz.
*Bu dünyaya biz gəlmişik,* sadiq olaq etibara,
Əhdimizə, vəfamıza, andımıza düz ilqara.
Sadiq qalaq bu Vətənə, bu obaya, bu ellərə,
Qulaq asaq dönə-dönə, xoş sözə, şirin dillərə.
Namus ilə xidmət edək bu bəşərə, cəmiyyətə,
Layiq olaq insanlığa, mərifətə, ləyaqətə.
Bir insantək həyat sürüb, şənlənərək gülək də biz,
İnsan kimi yaşayaraq, insan kimi ölək də biz.

***S o n***

## 78. BU DÜNYAYA GƏLMƏMİŞİK (4)

*Bu dünyaya gəlməmişik,* beşiklərdə yatıb gedək,
Yaxşıları-yamanlara qarışdırıb, qatıb gedək.
Qucağında bəslənərək, anaları sorub gedək,
Babaları əldən salıb, ataları yorub gedək.
Onun-bunun ürəyini üzmək üçün biz gəlmədik,[448]
Öz canından usanaraq, bezmək üçün biz gəlmədik.[449]
*Gəlmədik ki, bu cahana* ürəkləri üzmək üçün?
Əzablarda boğularaq, məşəqqətə dözmək üçün?
Böhtan atıb, şər danışıb, hərbirkəsi sözə qoyaq,
Diri-diri şişə çəkib, kabab kimi közə qoyaq.[450]
Yerli-yersiz rişxənd edib, hər bir bəndəyə lağ edək,[451]
Ədəb-ərkan gözləməyib, aşıb həddini ağ edək.
Qaşqabağa düyün vurub, boyunları burub gedək,
Neçə ülvi arzuları dolu kimi vurub gedək,
Əsəbləri korlayaraq, könülləri qırıb gedək.[452]
*Gəlmədik ki, bu dünyaya* xalqımıza yük olmağa,[453]
Daştək ayağa toxunub, gözə batan çöp olmağa.[454]
Arzusu kəm, niyyəti kəm, qəlbiqara daş olmağa,
Vicdan-məslək, əqidəsi, könülgözü çaş olmağa.
Tapdalayıb haqq səsini, biz unudaq ədaləti,[455]
Vicdanından kor olaraq, biz görməyək həqiqəti,
Bədəməldən utanaraq, biz çəkməyək xəcaləti.
*Gəlməmişik* ilan kimi, onu-bunu zəhərləyək,
Cəzasını bol eyləyib, qəmləndirək, qəhərləyək.[456]
*Gəlmədik ki,* tamahına kölə olub, harınlaşaq?
Bordaqlarda bəslənərək, peysər tutub qarınlaşaq.[457]
Görə-görə, bilə-bilə qaralara ağmı deyək?
Kol-kosu bağça-bağ sanıb, təpələrə dağmı deyək?

---

[448] Gecə-gündüz yeyib-içib, gəzmək üçün gəlməmişik,
[449] Həyatından gileylənib, bezmək üçün gəlməmişik.
[450] Ürəyini şişə çəkib, kabab kimi közə qoyaq.
[451] Aldadaraq, oynadaraq yersiz-yersiz lağ da edək.
[452] 1) Xətirlərə dəyə-dəyə, könülləri qırıb gedək,2) Cəllad kimi asıb-kəsək, bu bəşəri qırıb gedək.
[453] Bu dünyaya gəlməmişik, xalqımıza yük olaq biz.
[454] Qəlbə dəyən daş olaq biz, gözə batan çöp olaq biz.
[455] Haq sözünü boğa-boğa, biz görməyək ədaləti.
[456] Dönə-dönə zülm eyləyib, dərdə salıb qəhərləyək.
[457] Donuz kimi piy bağlayıb, peysər tutub qarınlaşaq.

Gədələrə arxa durub, kömək edib ucaldaq da,[458]
Dərdə salıb insanları, vaxt-vədəsiz qocaldaq da. [459]
*Bu dünyaya gəlməmişik,* söz danışaq çərən-pərən**,**
El içində sözə qoysun hər tanıyan, bilən, görən,
*Bu dünyaya biz gəlmədik,* hər cür xəta, günah üçün,[460]
Fəqan üçün, nalə üçün, qarğış üçün, nə ah üçün.[461]
Cavanikən əldən düşüb qocalmağa, qarımağa,
İçin-için ağlayaraq, inildəyib zarımağa.
*Gəlməmişik* meyxanədə, rəngli şərab içmək üçün.
Əl çəkib fani dünyadan birdəfəlik köçmək üçün,
Kim deyir ki, qan qaraldıb, ürəkləri sıxmalıyıq?[462]
Mərd igidi tora salıb, dolaşdırıb yıxmalıyıq?[463]
Şan-şöhrətə çatmamışdan, adsız-sansız ölməliyik,[464]
Ona-buna rişxənd edib, arsız-arsız gülməliyik, [465]
Bezikdirib insanların, nəfəsini kəsməliyik, [466]
Tufan, boran, qasırğatək, çovğun kimi əsməliyik.
El-obanı incidərək, əbəs yerə küsməliyik.
*Gəlməmişik bu dünyaya,* yol-ərkanı azmaq üçün,
Arxasınca bəd danışıb, ayaq altdan qazmaq üçün. [467]
Doğru-düzgün, dürüst fikri tərsəməssəb yozub gedək,
Bəd hərəkət, kəc rəftarla ünsiyyəti pozub gedək.
Kimsəsizi zəlil edib, baş-gözünü əzib gedək,
Gözəllikdən kam almamış, bu həyatdan bezib gedək.
Pis sözdən, nəs əməllərdən, yükümüzü tutub gedək,
İnsafından uzaqlaşıb, mürvəti də atıb gedək.[468]
*Bu məramla gəlmədik ki*, biz törədək davaları?
Azğın-pozğunla bir olub, zəhərləyək havaları.
Arxalıya qahmar durub, arxasızdan aralanaq,

---

[458] Dayə olub gədalara, yersiz-yersiz ucaldaq biz,
[459] Əsəbini korlayaraq insanları qocaldaq biz.
[460] Gəlməmişik bu dünyaya, bu gün üçün, sabah üçün,
[461] 1) Ona-buna qəsd etməyə, qarğış üçün, nə ah üçün.
2) Gəlməmişik fəryadlara, qarğış üçün, nə ah üçün.
[462] Al-qanları qaraldaraq, ürəkləri sıxıb gedək.
[463] Mərd igidi tora salıb, haldan salıb yıxıb gedək.
[464] Bu dünyada tanınmamış, adsız-sansız ölüb gedək,
[465] 1) Arsız-arsız yaşayaraq, ona-buna gülüb gedək. 2) Arsız-arsız yaşayaraq, irişərək gülməliyik.
[466] Gücsüzləri bezikdirib, nəfəsini kəsməliyik,
[467] Şər-böhtanı danışaraq, ayaq altdan qazmaq üçün.
[468] İnsaf, mürvət, vicdanı da, birdəfəlik atıb gedək.

Kələfini dolaşdırıb, nahaq yerdən tora salaq.
İnanıb harın varlıya, fəqirlərdən qaralanaq,
Vicdanından zədə alıb, məsləkindən yaralanaq.
*Gəlməmişik* bədniyyətlə bu dünyanı iləndirək,
Karı, koru, lal, səqiri məcbur edib dilləndirək.
Bəşərə qənim kəsilib, cəza verək ona-buna,
El içinə çıxanmayıb, kirpi kimi girək qına.
*Gəlməmişik bu dünyaya,* Hitler kimi qudurmağa,
Millətləri birbirinə, salışdırıb qırdırmağa.
*Biz pozmağa gəlməmişik* dünyamızın növrağını,
Tarixlərdən xəbər alaq, keçmişlərin sorağını.
Məbədləri tar-mar edib, silmək üçün salnaməni,
Olayları yazmaq üçün, reklam edək əllaməni.
*Gəlməmişik* şər danışıb aralığı qarışdıraq.[469]
Fitnə-fəsad, şər-böhtanla, bu bəşəri vuruşduraq. [470]
Meydan açıb qorxudaraq, onu-bunu hədələyək,
Zehinləri zəhərləyək, qəlb evini zədələyək.
Adəm oğlu, aralığı qatmaq üçün gəlmədik ki?!
Bu mənfur arzu-niyyətə çatmaq üçün gəlmədik ki?!
*Gəlməmişik bu dünyaya,* biz dağıdaq şəhərləri,
Talan edək el-obanı, xərabə qoyaq kəndləri.
Yerlərə-yeksan edərək, yıxıb sökək sarayları,
Qulaq asaq vay-şivənə, biz dinləyək ah-vayları.
Kişiləri qırıb tökək, ərsiz qoyaq arvadları,
Yetim qalsın körpələri, zülmə salaq balaları.
Kölgələrdə saraldaraq, zindanlarda çürütməyə.
Atəşləri qalayaraq, sobalarda əritməyə.
*Gəlmədik ki, bu dünyaya,* cəllad kimi asıb-kəsək?
Evlər yıxıb, qan axıdıb, tufan kimi coşub əsək?
Həyasızlıq törədərək, hər yetəni salaq zora?
İlməsini dolaşdırıb, haqq-nahaq göndərək gora?
Bəni-insanın başına, gen dünyanı dar eyləyək?[471]
Yersiz haray-həşir salıb, qulaqları kar eyləyək?
Şilküt edək günahsızı, axıb tökülsün qanları?[472]

---

[469] Şər-böhtanı yaya-yaya, aralığı qarışdıraq,
[470] 1) Fitnə-feli işə salıb, bu bəşəri vuruşduraq. 2) Bu bəşəri qızışdırıb, birbirinə vuruşduraq.
[471] Hər müsibət törədərək, gen dünyanı dar eyləyək.
[472] Nahaq yerdən  şilküt edək, leysan edək al-qanları,

İşgəncəyə məruz qoyub, biz qocaldaq cavanları?[473]
Şikəst edək qol-qılçanı, hədəf olsun ürəkləri?
Əlil qalsın arzuları, xəzan olsun dilәkləri?
*Axı biz ki, gəlməmişik* viran qoyub talamağa?
Şəhidlərin qanlarıyla torpaqları sulamağa?
*Gəlməmişik bu dünyaya* alınları qırışdıraq,
Bombaları partladaraq, barıtları alışdıraq. [474]
İnsan oğlunu məhv edib, qapıları bağlar qalsın,
Sinəyə dağ-düyün vurub, ana-bacı ağlar qalsın.
Axı biz ki, nifrət ilə söyülməyə gəlməmişik?
Haqq-nahaqdan əzilməyə, döyülməyə gəlməmişik?
*Gəlməmişik bu dünyaya,* al-qanları qaraltmağa,
Əsəbləri korlamağa, gül yanağı saraltmağa.[475]
Kim istər ki, ürəklərin hərarəti, odu sönsün?
Dodaqların qanı qaçsın, damaqların dadı çönsün?
Fani dünyadan köçərkən, arxasından söyülməyək.
Həm diriykən, həm ölüykən gor evində döyülməyək.
Rüsvay olsun ünvanımız, bədnam olsun əməlimiz,
Dağıdılsın bünövrəmiz, tarmar olsun təməlimiz.
Elin nəzərindən düşüb, yad olunaq nifrət ilə,
Neçə-neçə kin-küdrətlə, qəzəb ilə, hiddət ilə.
*Nəvaxtacan* insan oğlu əzab çəksin qəsdimizdən?
İsinmədən istimizdən, kor olsunlar tüstümüzdən?
*Nəvaxtacan* nadan oğlu bir-birini didəcəkdir?
Gecə-gündüz marıtlayıb, pusqusunda güdəcəkdir?[476]
Bilən varmı haçanacan çətinliyə dözməliyik?
Güclülərdən ənam alıb, gücsüzləri əzməliyik?[477]
*Nəvaxtacan* tanımayaq astarları, üzləri də?[478]
Heç bir zaman seçənməyək əyrilərdən düzələri də?
*Nəvaxtacan* insanoğlu cəhalətə dözəcəkdir?
Əsəbini korlayaraq, ürəyini üzəcəkdir?
Çətinlikdə inləyərək, zəlalətə düşəcəkdir,
Ehtiyacda boğulacaq, səfalətə düşəcəkdir?

---

[473] Yersiz-yersiz dərdə salıb, biz qocaldaq cavanları.
[474] İşə salıb bombaları, barıtları alışdıraq.
[475] Sir-sifəti turşutmağa, yanaqları saraltmağa.
[476] Bir-birini izləyəcək, bir-birini güdəcəkdir.
[477] Güclülərə əzilərək, gücsüzləri əzməliyik?
[478] Araşdırıb tanımayaq astarları, üzləri də?

*Axı niyə insanoğlu,* fəda getsin xəbisliyə?
Qulluq etsin tamahına, acgözlüyə, hərisliyə?
*Neyçün* zavallı insanlar, şilküt olsun davalarda?
Mərmi yağsın səmalardan, zəhərlənsin havalar da.[479]
*Nəvaxtacan* yazıq insan dərd-qəm əlindən öləcək?[480]
Dost-tanışı zarıyacaq, düşmən sevinib güləcək?
*Nəvaxtacan* adəm oğlu əl atacaq böhtanlara?
Aldanacaq hiylələrə, uyacaqdır şeytanlara?
*Nəvaxtacan səhv edəcək,* büdrəyəcək, yıxılacaq?
Əziləcək, tapdanacaq, pencər kimi sıxılacaq?[481]
*Nəvaxtacan insanoğlu* bədəməllər tutacaqdır?
Hər əzabı çəkə-çəkə, gözlərini yumacaqdır?[482]
*Nəvaxtacan görəcəyik* cahilləri, nadanları?
El malına şülən çəkib, iri loxma udanları?
Biz bunları bilməliyik, haqq yolunu azanları,
Düzə əyri qatanları, yalan-yanlıc yozanları.
Öz əhdini, ilqarını, tez-tələsik pozanları.
Niyə boğaq haqq səsini, tapdalayaq ədaləti?
Bədəməldən pəsinməyib, biz çəkməyək xəcaləti?
*Nəvaxtacan* yaxşıları, yamanlara qatmalıyıq?
Rəhmi, insafı, mürvəti qəlbimizdən atmalıyıq?
Sinə gərib dözməliyik, çirkinliyə, hər pisliyə,
Paxıllığa, xainliyə, kin-küdurət, naqisliyə.
*Bəs deyilmi* bu dünyada al-qanların qaraldığı?
Gönçə ləbin qanı qaçıb, gül bənizin saraldığı?
*Daha yetər insan oğlu* zəhlələrin töküldüyü,
Şax qamətin, şux vüqarın əyildiyi, büküldüyü.
*Bir de görüm nəvaxtacan* vurub, asıb-kəsən olsun?
Taleyinə söyə-söyə, öz bəxtindən küsən olsun?
*Nəvaxtacan* aralıqda qəlbə dəyən daş olacaq?
Öz yerini tapanmayan, ayaq gəlib baş olacaq?
*Nəvaxtacan* sözümüzdə olacaqdır yalan-palan?
Ona-buna kəf gələrək var toplayaq kalan-kalan?
Təlxək kimi oyun açıb, uşaq kimi şıltaqlanaq?

---

[479] Səmalardan bomba yağsın, zəhərlənsin havalar da?
[480] Nəvaxtacan yazıq insan nahaq yerdən öləcəkdir?
[481] Əziləcək, tapdanacaq, məngənədə sıxılacaq.
[482] Görə-görə kor olacaq, gözlərini yumacaqdır?

Bərəkallah, amin deyib, hər yetənə yaltaqlanaq?[483]
*Nəvaxtacan* kəc rəftarla yükümüzü tutacağıq?
İnsafı da, vicdanı da həmişəlik atacağıq?
*Bəs deyilmi* bu dünyada, harın-harın dolandığın?
El malından bəslənərək, donuz kimi yağlandığın?
*Bəs deyilmi* əbəs yerə günahsızı ağlatdınız?
Qız-gəlini ağlar qoyub, sinələri dağlatdınız?
*Bir de görüm nəvaxtacan* asacağıq, kəsəcəyik?
Ya mən səndən, ya sən məndən inciyərək küsəcəyik?
*Nəvaxtacan* nadan oğlu yol-ərkanı azacaqdır?
Arxasından vuracaqdır, ayaq altdan qazacaqdır?
*Nəvaxtacan* əhli-keflər ona-buna yük olacaq?
Ürəkləri zədələyən, gözə batan çöp olacaq?
Bir an olsun ləngiməyək, biz son qoyaq cəhalətə.
Bu dünyada yollar açaq xoşbəxt günə, səadətə.

***Cəmil Əkbər*** 17. 04 – 1978

## 79. BİZ GƏLMİŞİK BU DÜNYAYA (5)

*Biz gəlmişik bu dünyaya,* sədaqətlə, səxavətlə,
Ən müqəddəs məhəbbətlə, mürvət ilə kəramətlə.
Neçə coşğun zəhmət ilə, neçə-neçə dəyanətlə,
Neçə nəcib arzularla, neçə-neçə bəyanətlə.
*Biz gəlmişik bu dünyaya,* ağızlarda dad olmağa,
Tarixlərdən silinməyib, gələcəkdə yad olmağa.
*Biz gəlmişik bu dünyaya,* tikmək üçün, qurmaq üçün,
Əsrlərlə yaşamağa, əbədilik durmaq üçün.
*Biz gəlmişik bu dünyaya,* şərəf üçün, şöhrət üçün,
Vicdan üçün, məslək üçün, namus üçün, qeyrət üçün.
Tanınmışıq bu dünyada, sevgi ilə, məhəbbətlə,
Abır-həya, ismət ilə, mərifətlə, ləyaqətlə.
*Biz gəlmişik bu dünyaya,* insanlara kömək üçün,
Yaratmağa, yaşatmağa, zəhmət üçün, əmək üçün.
*Biz gəlmişik bu dünyaya,* bərkdə-boşda sınanmağa,
Çıxanmasaq imtahandan, biz layiqik qınanmağa.
*Biz gəlmişik bu dünyaya,* hörmət üçün, izzət üçün,
Bu həyatda yaşamağa, min bir nəşə, ləzzət üçün.
Tuta bilək nəbzləri, duya bilək ürəkləri,

[483] 1) Min sifətə düşə-düşə, amin deyib yaltaqlanaq. 2) Min sifətə düşə-düşə, boyun əyib yaltaqlanaq.

Duya bilək arzuları, duya bilək diləkləri.
*Biz gəlmişik bu dünyaya,* borcumuzu verə bilək,
Bağban kimi bağlar salıb, meyvəsini dərə bilək.
*Biz gəlmişik bu dünyaya,* ömürləri uzatmağa,
Körpələri, böyükləri, kiçikləri ucaltmağa.
Eşidilsin el sözləri, eşidilsin nəsihətlər,
Gedib-gələk, dostluq edək, pozulmasın ünsiyyətlər.
*Biz gəlmişik bu dünyaya,* qarışmağa xeyir-şərə,
Kömək edək hər insana, dönə-dönə neçə kərə.
Nəzər salaq kəlməmizə, nəzər salaq sözümüzə,
Nəzər salaq yolumuza, nəzər salaq izimizə.
*Biz gəlmişik bu dünyaya,* borcumuzu başa düşək,
Həm gəliri, həm çıxarı, xərcimizi başa düşək.
Düz eşidib, düz anlayaq, düz dolanıb, biz düz duraq,
Düz hərlənib, düz də gedək, düz əyləşib, düz oturaq.
Görən, bilən deməsin ki, zalım oğlu havalanıb,
Kamalını itiribdir, el içində yavalanıb.
*Biz gəlmişik bu dünyaya,* qoy bilinsin mənliyimiz,
Qoy tanınsın kimliyimiz, qoy bilinsin şənliyimiz.
*Biz gəlmişik bu dünyaya,* çətinliyə dözə bilək,
Ləl axtaraq dəryalarda, qəvvas kimi üzə bilək.
*Biz gəlmişik bu dünyaya,* başa düşək mənasını,
Əbəs yerə sındırmayaq, məhəbbətin aynasını.
*Biz gəlmişik bu dünyaya,* neçə-neçə ad qazanaq,
Ülfət qılıb, dostluq edək, neçə-neçə yad qazanaq.
Çata bilək haray, dada, biz yetişək köməyə də,
Biz alışaq zəhmətə də, biz alışaq əməyə də.
Biz qazanaq varı-halı, dürlü-dürlü hər neməti,
Zəngin edək el-obanı, bu bəşəri, cəmiyyəti.
El dərdini çəkə bilək, əhvalını sora bilək,
Köməyinə çata bilək, xidmətində dura bilək.
Dayaq olaq dayaqsıza, sükan olaq sükansıza,
Arxa olaq arxasıza, imkan olaq imkansıza.
Gərək olaq gərəksizə, ürək olaq ürəksizə,
Süfrə açaq süfrəsizə, çörək olaq çörəksizə.
Yol göstərək azanlara, büdrəyənə, çaşanlara,
Xəbərdarlıq edə-edə, öz həddini aşanlara.
*Biz gəlmişik bu dünyaya,* səda salaq yerə-göyə,
Hay-küy salıb, nərə çəkək eldən-elə, hər ölkəyə.

*Biz gəlmişik bu dünyaya,* yol verməyək davalara,
Yol verməyək azğınlara, yol verməyək yavalara.
Biz çalışaq bu dünyada, gözyaşı heç tökülməsin,
İgidlərin qədd-qaməti dərd əlindən bükülməsin.
Düz dolanq bu dünyada, düz çəkilək tərəzidə,
Qova bilək yer üzündən təmənnanı, qərəzi də.
*Biz gəldik ki, bu dünyaya,* zinət verək insanlara,
Hörmət edək qədirbilən, qiymət verən insanlara.
Qoy tanınsın bu dünyaya, qoy yayılsın ad-sanımız,
Əbəs yerdən, haqq-nahaq dan qaralmasın al-qanımız.
*Biz gəldik ki, bu dünyaya,* peşə edək yaxşılığı,
Yetkinliklə əvəz edək nadanlığı, naşılığı.
*Biz gəldik ki, bu dünyaya,* düz işləsin kamalımız,
Ülvi olsun istəyimiz, doğru-dürüst  amalımız.
*Biz gəldik ki, bu dünyaya,* əlbir olsun fikirimiz,
Əlbir olsun əməlimiz, əlbir olsun zikirimiz.
Əlbir olsun yer üzündə, nəki varsa xilqətimiz,
Əlbir olsun millətlərlə, bu azəri millətimiz.
Əlbir olsun əl-qolumuz, əlbir olsun qüvvətimiz,
Əlbir olsun ad-sanımız, əlbir olsun hörmətimiz.
Əlbir olsun sevincimiz,  əlbir olsun gülüşümüz,
Əlbir olsun gedişimiz, əlbir olsun gəlişimiz.
Əlbir olsun hər arzumuz, əlbir olsun diləyimiz,
Əlbir olsun əməyimiz, əlbir olsun biləyimiz.
Fikirlərdə bölünməyək, diləklərdə bölünməyək,
Arzularda bölünməyək, ürəklərdə bölünməyək.
*Biz gəlmişik bu dünyaya,* hörmət ilə yaşamağa,
Bu həyatın hər yükünü insan kimi daşımağa.

***Cəmil Əkbər*** 17. 04 – 1978

## 80. BİZ GƏLMİŞİK BU DÜNYAYA (6)

*Biz gəlmişik bu dünyaya,* neçə-neçə həvəs ilə,
Ülvi, nəcib arzulara, ən müqəddəs nəfəs ilə.
Neçə-neçə zəhmət ilə, neçə-neçə dəyanətlə,
Neçə əlvan fikirlərlə, neçə-neçə bəyanətlə.
Əməlindən utanmayıb, fərəhlənib sevinməyə,
Çəkdiyimiz zəhmət ilə, hünər ilə öyünməyə.
El xeyrinə çalışaraq peyvənd olub, calanmağa,
Namus ilə yaşayaraq, qeyrət ilə dolanmağa.

Dərin-dərin düşünməyə, xəyallara dalmaq üçün,
Xatirədən silinməyib, könüllərdə qalmaq üçün.
Səksən, doxsan yaşayaraq, yüzdən sonra ölüb gedək,
Yeni-yeni nəsillərlə, əvəz olub təzələnək.
Kim istər ki, bu dünyadan kam almamış ölüb getsin?
Şaxta vurmuş güllər kimi, qönçələrdə solub getsin?
*Bu dünyaya gəlmşik ki,* biz əylənək balalarla,
Onlar ilə fərəhlənək, məzələnək nəvələrlə.
Onlar ötsün bülbül kimi, biz eşidək şən səsini,
Görə bilək şöhrətini, duya bilək nəfəsini.
Biz dolanaq səxavətlə, ülvi eşq, saf məhəbbətlə,
Abır-həya, ismət ilə, min hikmətlə, ləyaqətlə.
*İnsan gəlib bu dünyaya,* şərəf üçün, şöhrət üçün,
Vicdan üçün, məslək üçün, namus üçün, qeyrət üçün.
Həm ehtiram, həm etiqad, hörmət üçün, izzət üçün,
Bu həyatdan həzz almağa, nəşə üşün, ləzzət üçün.
Yeri gəlsə məqamında xeyir-şərə qarışmağa,
El dərdinə şərik olub, hal-əhvalın soruşmağa.
Tutmaq üçün nəbzləri, duymaq üçün ürəkləri,
Duymaq üçün arzuları, kəşf etməkçün diləkləri.
Ömürboyu dərk eyləsin bu dünyanın mənasını,
Sındırmasın əbəs yerdən, könüllərin aynasını.
El nazını çəkə bilsin, xidmətində dura bilsin,
Köməyinə çata bilsin, əhvalını sora bilsin.
*Biz gəlmişik bu dünyaya,* insanlara kömək üçün,
Hünər üçün, zəfər üçün, pak, müqəddəs dilək üçün.
Dayaq olaq dayaqsıza, sükan olaq sükansıza,
Arxa olaq arxasıza, imkan olaq imkansıza.
Gərək olaq gərəksizə, ürək olaq ürəksizə,
Süfrə açaq süfrəsizə, çörək olaq çörəksizə.
Yol göstərək yol azana, büdrəyənə, çaşana da,
Sərhəddini keçənə də, hüdudunu aşana da.
Hərkəs gərək tanıtdırsın, nəki varsa mənliyini,
O pozmasın əhvalını, o pozmasın şənliyini,
Düz eşidib, düz anlasın, doğru dolanıb, düz dursun,
Düz hərlənib, düz yerisin, düz əyləşib, düz otursun.
Görən-bilən deməsin ki, zalım oğlu havalanıb,
İtiribdir kamalını, el içində yavalanıb.
Biz çalışaq loğman kimi, ömürləri uzatmağa,

Körpələri bəsləyərək, kiçikləri ucaltmağa.
Qeyrət ilə yaşayaraq, şərafətli ad qazanaq,
Sədaqətlə dostluq edib, neçə doğma, yad qazanaq.
Nəzər salaq işimizə, diqqət edək sözümüzə,
Doğru yola doğru baxaq, nəzər salaq izimizə.
*Biz gəlmişik bu dünyaya,* borcumuzu başa düşək,
Həm gəliri, həm çıxarı, xərcimizi başa düşək.
Biz tanınaq peşəmizdə, ad qazanaq işimizdə,
Tükənməsin qüvvəmiz də, azalmasın gücümüz də.
Zəhmət çəkək bu dünyada, şöhrət olaq yerə-göyə,
Hörmət edək hər obaya, hər dövlətə, hər ölkəyə.
*Biz gəlmişik bu dünyaya,* bərkdə-boşda sınanmağa,
İmtahandan şıxmayanlar, layiq olur qınanmağa.
Ləl axtarıb dəryalarda, qəvvas kimi üzməliyik,
Çətinliyə sinə gərib, biz dayanıb dözməliyik.
Yorulmayaq, ərinməyək, qüvvəmizi verək dostlar,
Bağban olub, bağlar salaq, nübarını dərək dostlar.
Neçə-neçə səhralara, həyat verən kanal çəkək,
Qərənfillər, yasəmənlər, rayihəli güllər əkək.
Yeni-yeni şəhər salaq, yeni-yeni kəndlər tikək,
Neçə-neçə nəhəng çaylar, ram eyləyən bəndlər tikək.
*Biz gəlmişik bu dünyaya,* görmək üçün gözümüz var,
Neçə-neçə deyilməmiş, yazılmamış sözümüz var.
Gördüyünü götürməyə, dərk etməyə zəkamız var,
Yaddaşımız, hafizəmiz, düşüncəmiz, dühamız var.
Gəlin duyaq sözümüzü, gəlin açaq gözümüzü,
Hörmət edək hər insana, biz sevdirək özümüzü.
Çalışaq ki, bu həyatda dərin salaq izimizi,
Uca edək başımızı, ağ eyləyək üzümüzü.
El gözündə çəkiləndə, ağır gələk tərəzidə,
Qova bilək ünsiyyətdən, təmənnanı, qərəzi də.
Biz gəldik ki, bu dünyaya ziynət verək insanlara,
Dəyərini azaltmayaq, qiymət verək insanlara.
Doğru vursun ürəyimiz, düz işləsin kamalımız,
Düzgün olsun əqidəmiz, məramımız, amalımız.
Ömürboyu bu dünyada, peşə edək yaxşılığı,
Əvəz edək yetkinliklə, nadanlığı, naşılığı.
Ustadları xatırlayaq, unutmayaq, yada salaq,
Sözlərinə əməl edək, dönə-dönə dərs də alaq.

Dərk eyləyək zərurəti, elm öyrənək, savadlanaq,
Şahin kimi pərvazlanıb, zirvələrdə qanadlanaq.
Möhkəm olsun qanadımız, möhkəm olsun qolumuz da,
Sağlam olsun düşüncəmiz, yanılmayaq yolumuzda.
Əlbir olsun fikirimiz, hər arzumuz, diləyimiz,
Yorulmasın əllərimiz, qollarımız, biləyimiz.
Nə fikirdə, nə xəyalda, diləklərdə bölünməyək,
Arzularda, əməllərdə, ürəklərdə bölünməyək.
*Bu dünyaya biz gəlmişik,* sadiq olaq etibara,
Sadiq olaq bu Vətənə, sadiq olaq düz ilqara.
Sadiq olaq yurd-yuvaya, bu torpağa, bu ellərə,
Qulaq asaq bu dastana, bu sözlərə, bu dillərə.
Vicdan ilə sədaqətlə xidmət edək cəmiyyətə,
Qadir olaq insanlığa, layiq olaq məhəbbətə.
İnsan kimi qürrələnib, fərəhlənib gülə bilək,
İnsan kimi ömür sürüb, insan kimi ölə bilək.
Mütəmadi biz öyrənək bu dünyada yaşamağı,
İnsanlığın hər borcunu şan-şərəflə daşımağı.

***Cəmil Əkbər*** 17. 04– 1978

**81. PUÇDU DÜNYA**

Ədalətsiz, həqiqətsiz,
İnsaf-mürvət kəramətsiz,
Başdan-başa suçdu dünya,
Əfsanədi, heçdi dünya,
Geci-tezi puçdu dünya.

Sədaqətsiz, səxavətsiz,
İnsaf-mürvət kəramətsiz,
Xeyirxahsız, fəzilətsiz.
Başdan-başa suçdu dünya,
Əfsanədi, heçdi dünya,
Geci-tezi puçdu dünya.

Ülvi-istək, məhəbbətsiz,
Sağlam fikir, pak niyyətsiz,
Dözüm-durum, qətiyyətsiz.
Başdan-başa suçdu dünya,
Əfsanədi, heçdi dünya,
Geci-tezi puçdu dünya.

Çatışmasa kamalımız,
Əqidəmiz, amalımız,
Bu mənəvi camalımız.
Başdan-başa suçdu dünya,
Əfsanədi, heçdi dünya,
Geci-tezi puçdu dünya.

Qardaş-qardaşı saymasa,
Yoldaş-yoldaşı saymasa,
Çağdaş-çağdaşı saymasa.
Başdan-başa suçdu dünya,
Əfsanədi, heçdi dünya,
Geci-tezi puçdu dünya.

Nəqədərki, cəhalət var,
Kin-küdurət, ədavət var,
Addımbaşı qəbahət var.
Başdan-başa suçdu dünya,
Əfsanədi, heçdi dünya,
Geci-tezi puçdu dünya.

Ürək qalsa xəyanətdə,
Giley-güzar şikayətdə,
Törədilən cinayətdə.
Başdan-başa suçdu dünya,
Əfsanədi, heçdi dünya,
Geci-tezi puçdu dünya.

Sayan yoxsa ağsaqqalı,
Dərdbiləni, əhli-halı,
Kəsən deyil qeylü-qalı.
Başdan-başa suçdu dünya,
Əfsanədi, heçdi dünya,
Geci-tezi puçdu dünya.

Ağlayanı güldürməsən,
Gözyaşını sildirməsən,
Ləyaqəti bildirməsən.
Başdan-başa suçdu dünya,
Əfsanədi, heçdi dünya,
Geci-tezi puçdu dünya.

Düzələni, əyənləri,
Harın-harın yeyənləri,
Könüllərə dəyənləri.
Başdan-başa suçdu dünya,
Əfsanədi, heçdi dünya,
Geci-tezi puçdu dünya.

Yaxşılara pis deyilsə,
Xeyirxaha nəs deyilsə,
Mülayimə tərs deyilsə.
Başdan-başa suçdu dünya,
Əfsanədi, heçdi dünya,
Geci-tezi puçdu dünya.

Xidmətləri görən yoxsa,
Qiymətini verən yoxsa,
Meyvəsini dərən yoxsa.
Başdan-başa suçdu dünya,
Əfsanədi, heçdi dünya,
Geci-tezi puçdu dünya.

Əkib-biçib yetirməsək,
Bəsləməsək, bitirməsək,
Məhsulunu götürməsək.
Başdan-başa suçdu dünya,
Əfsanədi, heçdi dünya,
Geci-tezi puçdu dünya.

Doğru yola düzəlməsək,
Törpülənib nəzilməsək,
Əyri yoldan əl çəkməsək.
Başdan-başa suçdu dünya,
Əfsanədi, heçdi dünya,
Geci-tezi puçdu dünya.

Yazılanı oxumasaq,
Ətirini qoxumasaq,
Əbru-ətlas toxumasaq.[484]
Başdan-başa suçdu dünya,
Əfsanədi, heçdi dünya,
Geci-tezi puçdu dünya.

Kin yaransa ürəklərdə,
Arzu-istək, diləklərdə,
Sərt əsəcək küləklər də.
Başdan-başa suçdu dünya,
Əfsanədi, heçdi dünya,
Geci-tezi puçdu dünya.

Ünsiyyətlər pozularsa,
Tərsəməssəb yozularsa,
Xətir-hörmət azalarsa.
Başdan-başa suçdu dünya,
Əfsanədi, heçdi dünya,
Geci-tezi puçdu dünya.

Ağa qara deyilərsə,
Tama para deyilərsə,
Yoxdu çara deyilərsə.
Başdan-başa suçdu dünya,
Əfsanədi, heçdi dünya,
Geci-tezi puçdu dünya.

Alim keylik eyləyərsə,
Hatəm göylük eyləyərsə,
Gədə bəylik eyləyərsə.
Başdan-başa suçdu dünya,
Əfsanədi, heçdi dünya,
Geci-tezi puçdu dünya.

[484] Yırtılanı toxumasaq.

Üzdə həya görünməsə,
Məslək qayə görünməsə,
Kamil dayə görünməsə,
Başdan-başa suçdu dünya,
Əfsanədi, heçdi dünya,
Geci-tezi puçdu dünya.

Söz-söhbətdə yalan varsa?
El malında talan varsa?
Dərd əlindən solan varsa?[485]
Başdan-başa suçdu dünya,
Əfsanədi, heçdi dünya,
Geci-tezi puçdu dünya.

Satana bax, alana bax,
Açana bax, solana bax,
Xəyallara dalana bax.[486]
Başdan-başa suçdu dünya,
Əfsanədi, heçdi dünya,
Geci-tezi puçdu dünya.[487]

Cəmil Əkbər belə getsə,
Zəhmətimiz yelə getsə,
Fitnələrə, felə getsə.
Başdan-başa suçdu dünya,
Əfsanədi, heçdi dünya,
Geci-tezi puçdu dünya.

***Cəmil Əkbər*** 27-28 // 08 – 1994

---

[485] Gözü yolda qalan varsa.

[486] Sökülənə, talana bax.

[487] *I variant* Cəmil Əkbər kələyə bax,
Çovğuna bax, küləyə bax,
1) Qansorana, zəliyə bax, 2) Sərsəriyə, dəliyə bax,
Başdan-başa suçdu dünya,
Əfsanədi, heçdi dünya,
Geci-tezi puçdu dünya.

*II variant* Cəmil Əkbər qocalırsan,
1) Zəfər çalıb, tac alırsan, 2) Nə olsun ki, bac alırsan?
Gündən-günə sozalırsan,
Başdan-başa suçdu dünya.
Əfsanədi, heçdi dünya,
Geci-tezi puçdu dünya.

## 82. DÜNYANIN İKİ ÜZÜ

Deyəsən dünyada iki həyat var,
Birisi kefini çəkən üçündür.
İki cür dövran var, iki büsat var,
Biri də dərd-qəmi çəkən üçündür.

Görünür dünyadan iki yol keçir,
Birisi əyridir, birisi düzdür.
İki qaj ayrılıb, iki qol keçir,
Birisi dayazdır, birisi üzdür.

Bu cahan mülkündə iki adam var,
Birisi yaxşıdır, birisi pisdir,
Birisi qızıldır, o biri misdir.
Biri doğru sevir, ədalət sevir,
Ünsiyyət ülfətdə həqiqət sevir.[488]

Dünyada ikicür insan yaranıb,
Birisi sadədir, birisi xudbin,
Birisi gözəldir, birisi çirkin.
Birisi dərk edir, birisi qanır,
Birinə çatmayır, biri anlamır.
Birisi yan çəkir,  biri düz gedir,
Birisi ləngiyir, biri tez gedir.

Görünür dünyada iki adam var.
Təlim-tərbiyədən iki dadan var.
Birisi qocadır, biri tənbəldir,
Birisi zirəkdir, biri əngəldir.
Birisi qarışqa, birisi fildir,
Birisi sısqadır, birisi Nildir.

---

[488] *II variant* Bu cahan mülkündə iki adam var,
Təlim tərbiyədən iki dadan var,
Birisi çox dadıb, biri az dadıb,
Biri dərin dadıb, biri üz dadıb.

Görünür dünyada iki cür əl var,
Birisi dağıdır, birisi qurur.
İki cür dodaq var, iki cür dil var,
Birisi bal tökür, birisi zəhər.
İki cür daşqın var, iki cür sel var,
Birisi dayazdır, birisi dərin.
İki cür tufan var, iki cür yel var,
Birisi istidir, birisi sərin.

Deyirlər dünyada ikicür göz var,
Birisi görürsə, birisi kordur.
İnsan xilqətində iki qulaq var,
Birisi eşidir, birisi kardır.
İnsanam deyəndə ikicür baş var,
Birisi kütdürsə, birisi qanır,
Birisi anmayır, birisi anır.

Deyirlər dünyada ikicür bağ var,
Birisi barsızdı, birisi barlı.
Deyirlər insan da ikicürədir,
Birisi karsızdı, birisi karlı.
İkicür qazanc var, ikicür nəf var,
Birisi haramdı, birisi halal.
İkicür nöqsan var, ikicür səhv var,
Birisi qəm-qüssə, birisi məlal.

Deyirlər insanın iki sözü var,
Birisi doğrudur, birisi yalan,
İkicür yolağı, iki izi var,
Birisi silinən, birisi qalan.

***Cəmil Əkbər*** 20. 10 – 1992

## 83. HƏLƏ[489]

*I variant*

Nələr qalıb deyilməsin dünyada,
Çoxlarına əsər etmir söz hələ.
Cümlələr, kəlmələr gedibdir bada,
Xörəklərə tökülməyib duz hələ.[490]

Yolunu-izini azanlar azır,
Doğrunu-əyriyə yozanlar yozur,
Ünsiyyət-ülfəti pozanlar pozur,
Haqq yoluna gələ bilmir düz hələ.

Çox fikirlər itib-batır arada,
Qövr eyləyir, sızıldayır yara da,
Heç bir loğman dərdə tapmır çara da,
Çaşbaş qalıb oğul hələ, qız hələ.[491]

Baxan yoxdur yaxşılara, yamana,
O səbəbdən bəd gətirir zamana,
Dağlar başı bürələnib dumana,
Doğru seçib görə bilmir göz hələ.

Başbilən yerində nadan oturub,
Təlimdən kəmkəsir dadan oturub,
Haqq-say sümürüb udan oturub,
Aqil insan dağda-daşda gəz hələ.

---

[489] Cəmil Əkbərin "Hələ" rədifli qoşması "Sərbəst düşüncə" qəzetinin 1998-ci il mart № 5 (64) sayında səh. 3-də yayınlanmışdır.

[490] *II variant*
Nələr qalıb deyilməsin dünyada,
Çatmamışdır çoxlarına söz hələ.
Nəqədər gedibdir havayı, bada,
Öz yerinə qoyulmayıb düz hələ.

[491] *II variant*
Ünsiyyət-ülfətlər pozulub gedir,
Doğrular əyriyə yozulub gedir,
Xətir də, hörmət də, azalıb gedir,
Çaşbaş qalıb oğul hələ, qız hələ.

Üz-gözlərdə abır-həya görünmür,
Əqidə görünmür, qayə görünmür,
Təlimi düz verən dayə görünmür,
Ənliklənir, kirşanlanır üz hələ.

Qəflət yuxusuna uyuyub bəşər,
Nəyaman kütləşib, keyiyib bəşər?
İşindən, gücündən soyuyub bəşər,
Sinələrdə kök salıbdır buz hələ.[492]

Ona-buna sataşmaqdı peşəmiz,
Xainliyi yaşatmaqdı peşəmiz,
Arxasınca daşatmaqdı peşəmiz,
Heç utanıb qızarmırıq biz hələ.

Çox könül diyarı daşa dönübdür,
Çovğunu kəsməyən qışa dönübdür,
Fikirlər, xəyallar çaşa dönübdür,
Tüstülənir, alışmayır köz hələ.[493]

Düz işləmir dərrakəmiz, başımız,
Dağılıbdır xəyalımız, huşumuz,
Zəhərlərə bülənd olub aşımız,
Açılandöy bahar hələ, yaz gəz hələ.

Çoxları unudub öz kök, soyunu,
Saksafonla yola verir toyunu,
Dəbdən düşüb "Tərəkəmə" oyunu,
Meydandadır "Tvist" hələ "caz" hələ.

---

[492] *II variant* Gözgörəti ağ deyirlər qaraya,
İblis girir, şeytan girir araya,
Duz səpilir qövr eyləyən yaraya,
Çox sinələr bağlayıbdır buz hələ.

[493] *II variant* Aramızda biganələr oqədər,
Sərsərilər, divanələr oqədər,
Başa bəla əllamələr oqədər,
İsitməyir sinələri köz hələ.

Unudub özünü yada uymuşuq,
Bir quru şöhrətə ada uymuşuq,
Küləyə düşmüşük, bada uymuşuq,
Meydan açmır aşıq hələ, saz hələ.

İnsafı-mürvəti atanlar-atır,
Şər deyib aranı qatanlar-qatır,
Qəflət yuxusunda yatanlar-yatır,
Çoxlarına yonulmayıb paz hələ.

Nəqədərki bu cahillər düzəlmir?
Törpülənib, rəndələnib düzəlmir?
Haqq yoluna sıralanıb düzəlmir?
Cəmil Əkbər səbr eyləyib döz hələ.[494]

***Cəmil Əkbər*** 11. 05 – 1998

### 84. HƏLƏ[495]

*II variant*

Nələr deyilməyib qoca dünyada?
Əsər etmir çoxlarına söz hələ.
Nəqədər gedibdir havayı, bada?
Öz yerində görünməyir düz hələ.

Nəqədər hiyləgər, biclər hökm edir,
Sərsəri, kəmağıl, giclər hökm edir,
Qanuna, qaydaya kəclər hökm edir,
Başımızda qıracaqlar qoz hələ.

Ünsiyyət-ülfəti pozan oqədər,
Doğrunu tərsinə yozan oqədər,
Şər-böhtan danışıb yazan oqədər,
Kefindədir oğul hələ, qız hələ.

---

494 *II variant* Cəmil Əkbər, nəqədərki qanan yox,
Böyük, kiçik pəsinən yox, sanan yox,
Axtaran yox, arayan yox, anan yox,
Darıxmaynan, səbr eyləyib döz hələ.

495 Cəmil Əkbərin “Hələ” rədifli qoşması “Sərbəst düşüncə” qəzetinin 1998-ci il mart № 5 (64) sayında səh. 3-də yayınlanmışdır.

Haçandan bəridir darda qalmışıq,
İlişib kəmənddə, torda qalmışıq,
Boranda, tufanda, qarda qalmışıq,
Ünsiyyətdə çatışmayır duz hələ.

Tapşırırlar yaxşıları yamana,
Baxan yoxdur ah-naləyə, amana,
Bu işlərə mat qalıbdır zamana,
Doğru görüb seçə bilmir göz hələ.[496]

Çoxları tanımır abır-həyanı,[497]
Vicdan, məslək, əqidəni, qayəni,
Yol-ərkanı, düz göstərən dayəni,
Gör nəqədər ismətsizdi üz hələ?

Ha dedilər, keylər çoxdu cahanda,
Yetişməyən səylər çoxdu cahanda,
Bişmək bilmir, çiylər çoxdu cahanda,
İsitməyir könülləri köz hələ. [498]

Deyib danışmaqla eyninə almır,
Ötürür peysərə, beyninə salmır,
Nəqədər deyirlər, yadında qalmır,[499]
Anlayan yox, duyan yoxdur tez hələ.[500]

---

[496] *II variant*
Nəqədər ülfəti pul tənzim edir,
Altın tənzim edir, ləl tənzim edir,
Oxu bu naməni bil tənzim edir,
Ayrıd edib seçə bilmir göz hələ.

*III variant*
Nəqədərkiaralıqda para var,
Sağalmayan xəstəlik var, yara var,
Silinməyən ləkələr var, qara var,
Ayrıd edib seçə bilmir göz hələ.

[497] Çoxu gözləmədi abır-həyanı.

[498] *II variant*
Aralıqda biganələr oqədər,
Əhli-keflər, divanələr oqədər,
Başa bəla əllamələr oqədər,
İsitməyir sinələri köz hələ.

[499] Çıxır hafizədən, yadında qalmır.

Nəqədərki ağ deyilir qaraya?
Duz səpilir, sızıldayan yaraya?
İblis girir, şeytan girir araya?
Əriyəndöy sinələrdə buz hələ.

Nə zamandan gəlib-gedir çoxları,
Yaralayır qəlbimizi oxları,
Dinib-danışmağa yoxdu haxları,[501]
Sala bilmir ürəklərdə iz hələ.

Çoxu bilmir öz əslini, soyunu,
Saksafonla yola verir toyunu,
Dəbdən düşüb "Tərəkəmə" oyunu,
Məst eyləyir "Tvist" hələ, "Caz" hələ.

Nəqədərki bu düşüncə bizdədir?
Dağlardadır, daşlardadır, düzdədir?
Yolaqlarda, cığırlarda, izdədir?
Dağda-daşda gendə dolan, gəz hələ.

Gör haçandır özümüzü danmışıq?[502]
Özgələrin sevdasına yanmışıq,
Səhv düşünüb, səhv anlayıb qanmışıq?
Yada düşmür aşıq hələ saz hələ.

Gör nəqədər divanələr var imiş?
Öz-özünə biganələr var imiş?
Allah bilir daha nələr var imiş?
Yada düşmür tökmək üçün duz hələ.

Ona-buna darılmaqdır peşəmiz,
İçin-için qırılmaqdır peşəmiz,
Özgələrə vurulmaqdır peşəmiz,
Heç utanıb, qızarmırıq biz hələ.

---

[500] Hiss edən yox, duyan yoxdur tez hələ.
[501] Haxları - haqları
[502] Nə zamandır özümüzü danmışıq.

Nəqədərki düz işləmir başımız,
Açılandöy qabağımız, qaşımız,
Sərt keçəcək birbirindən qışımız,
Çiçək açıb bara düşməz yaz hələ.[503]

Nəqədərki əzilən var, əzən var?
Tablaşan var, darıxan var, dözən var?
İnciyən var, incidən var, bezən var?
Çoxlarına törpü dəyib az hələ.

Nəqədərki bu qozbellər düzəlmir?
Törpülənə-törpülənə nəzilmir?
Ətəkləri əlimizdən üzülmür?
Cəmil Əkbər səbr eyləyib döz hələ.

***Cəmil Əkbər*** 17. 02– 1998

**85. SƏNİN DƏ, MƏNİM DƏ**

*I variant*

Ellərin-obanın nə pis günü var?
Sənin də, mənim də qəbahətimdir.
İnciyib, bezəni nə küsgünü var?
Sənin də, mənim də cəhalətimdir.

Nəqədər əzabı, zilləti varsa?
Qəzəbi, kini var, nə hiddəti varsa?
Canında dərd-bəla, nə hilləti varsa?
Sənin də, mənim də xəyanətimdir.

Övladı-bəşərin nə azarı var?
Enişə, yoxuşa nə güzarı var?
İztirab, həsrəti, intizarı var?
Sənin də, mənim də cinayətimdir.

Nəqədər korlanıb, qaralan qan var?
Çəkilən zülal var, sorulan şan var?
Sarsıyan varlıq var, üzülən can var?
Sənin də, mənim də xəcalətimdir.

---

[503]*II variant* Nəqədərki bu kahal ki, bizdə var?
Bu düşüncə, bu kamal ki, bizdə var?
Bu əqidə, bu amal ki, bizdə var?
Çiçək açıb bara düşməz yaz hələ.

Dünyada nəqədər düşürük dara?
Sağalmaq bilməyir, qövr edir yara?
Loğman da tapammır bu dərdə çarə?
Sənin də, mənim də xəsarətimdir.

Nəqədər yaxşıya pisdi deyilir?
Zalımdı, bədxahdı, nəsdi deyilir?
Höcətdi, inaddı, tərsdi deyilir?
Sənin də, mənim də bəyanətimdir.

Dünyada nəqədər ara qarışır?
Qurd-köpəklə, köpək-qurdla barışır?
Yalquzaqlar sürülərə sırışır?
Sənin də, mənim də siyasətimdir.

Zaman öz-özünə pozulan deyil,
Çevrilib tərsinə yozulan deyil,
Dağılıb, sökülüb azalan deyil,
Sənin də, mənim də pis adətimdir.

Bu dünya belədir ay Cəmil Əkbər,
Düşünüb dərk eylə, söylə bir xəbər,
Yayılsın dillərdə qoy olsun əzbər,
Sənin də, mənim də hekayətimdir.

***Cəmil Əkbər*** 26. 08 – 1996

## 86. SƏNİN DƏ, MƏNİM DƏ

*II variant*

Bu cahan mülkündə nəki yalan var?
Sənin də, mənim də bəyanətimdir.
Nəqədər verən var, nəki alan var?
Sənin də, mənim də pis adətimdir.

Nəqədərki qəlbimizə dəyən var?
Dürüst işi qəsd-qərəzlə əyən var?
Harın-harın döşürən var, yeyən var?
Sənin də, mənim də cinayətimdir.

Nəqədərki gül yanağı solan var?
Əl-ayaqda tapdalanıb qalan var?
Bulud kimi qaralan var, dolan var?
Sənin də, mənim də qəbahətimdir.

Bu fani dünyada nə xoşa gəlmir?
İdraka sığışıb nə başa gəlmir?
Fikirə, xəyala nə huşa gəlmir?
Sənin də, mənim də cəhalətimdir.

El dərdinə için-için yanmamaq,
Düşünməmək, dərk etməmək qanmamaq,
Böyük-kiçik pəsinməmək, sanmamaq,
Sənin də, mənim də fəlakətimdir.

El şəninə sevinməmək, gülməmək,
Oxumamaq, öyrənməmək, bilməmək,
Özündəki ləkələri silməmək,
Sənin də, mənim də müsibətimdir.

Ünsiyyəti-ülfətləri korlamaq,
Onu-bunu bəyənməyib xorlamaq,
Hissiləri tarım çəkib zorlamaq,
Sənin də, mənim də xəyanətimdir.

Harda varsa yaxşılara pis demək?
Qızıllara, gümüşlərə mis demək?
Xeyirxaha bədxah demək, nəs demək?
Sənin də, mənim də ədavətimdir.

Məqamı çatdıqca deyilən sözlər,
Qəsd ilə, qərəzlə əyilən sözlər,
Çeynənib, udulub, yeyilən sözlər,
Sənin də, mənim də şikayətimdir.

***Cəmil Əkbər*** 4. 04 -1999

**87. NƏ SƏN MƏNİ, NƏ MƏN SƏNİ**

Gəl ay dostum pis deməyək,
Nə sən mənə, nə mən sənə.
İncitməyək, küs deməyək,
Nə sən məni, nə mən səni.

Yerli-yersiz bezdirməyək,
Dağı-daşı gəzdirməyək,
Əzablara dözdürməyək,
Nə sən məni, nə mən səni.

Al-qanını qaraltmayaq,
Gülrəngini saraltmayaq,
Dünyasını qaraltmayaq,
Nə sən məni, nə mən səni.

Harda olsaq unutmayaq,
Qarda olsaq unutmayaq,
Darda olsaq unutmayaq,
Nə sən məni, nə mən səni.

***Cəmil Əkbər*** 4. 04 – 1999

## 88. SƏNMİ OLDUN, MƏNMİ OLDUM?

Bəd danışıb, bəd də yazan,
Ona-buna quyu qazan,
Ünsiyyəti silib pozan,
Sənmi oldun, mənmi oldum?

Qəlbə dəyən, zəhlə tökən,
Şax vüqarı, qəddi bükən,
Qurulanı yıxıb sökən,
Sənmi oldun, mənmi oldum?

Müdam el malını yeyən,
Hər gələnə hədyan deyən,
Gücsüzləri əzib döyən,
Sənmi oldun, mənmi oldum?

Açılmamış gültək solan,
Xalqın nəzərində yalan,
Könüllərdə izi qalan,
Sənmi oldun, mənmi oldum?

El yanında gözdən düşən,
Yoldan çıxan, izdən düşən,
Gün çıxmamış tezdən düşən,
Sənmi oldun, mənmi oldum?

Öz xalqına verən zillət,
Qisas, qəzəb, nifrət, hiddət,
Millətindən alan nifrət,
Sənmi oldun, mənmi oldum?

Doğru fikri tərsə yozan,
Ona-buna quyu qazan,
Şər danışıb böhtan yazan,
Sənmi oldun, mənmi oldum?

Qəlb evində qurdlar yatan,
Vicdanını pula satan,
Gedib qəflətlərdə yatan,
Sənmi oldun, mənmi oldum?

Ölməmişdən ölüb gedən,
Solmamışdan solub gedən,
Verməmişdən alıb gedən,
Sənmi oldun, mənmi oldum?

Qan qaraldıb, ürək sıxan,
Ev uçuran, dirək yıxan,
İnsanlığa qənim çıxan,
Sənmi oldun, mənmi oldum?

***Cəmil Əkbər*** 10. 10 - 1981

**89. OLDUN?**

Sənin ki, hünərin elə bəllidir?
De hansı zəhmətlə əməkdar oldun?
Çəmənə bəllidir, çölə bəllidir?
De hansı xidmətlə əməkdar oldun?

Ellərin gözündən düşübdür adın,
Utansın qohumun, utansın yadın,
İsitmir birkəsi alovun, odun,
De hansı mürvətlə xidmətar oldun?

Haçandan bəridir ara vurursan?
Sağlam ürəklərə yara vurursan?
Ağ ləkə üstünə qara vurursan?
De hansı qeyrətlə səbəbkar oldun?

Sən ki, öz peşəndən uzaqlaşmısan,
Əfələ dönmüsən, yazıqlaşmısan,
Soyuya-soyuya sazaqlaşmısan,
De hansı hörmətlə sənətkar oldun?

Atını böhtana, şərə çapmısan,
Yoğurub yapmamış kökə tapmısan,
Koroğlusayağı qala yapmısan,
De hansı şöhrətlə tələbkar oldun?

Nəqədər insana ağız büzmüsən?
Kimə yardım edib möhüb düzmüsən?
Bəs kimdən uzaşıb, gendən gəzmisən?
De hansı ürəklə köməkdar oldun?

Kamaldan nəqədər, kahalsan yazıq,
Ərsəyə yetməmiş cahalsan yazıq,
Sanmaki özünü mahalsan yazıq,
Hansı cəsarətlə binətkar oldun?

***Cəmil Əkbər*** 12. 05 – 1989

**90. OLDU**

Qoca tarix nələr gördü, əzəl gündən bu günədək,
Görə-görə, bilə-bilə, ədaləti danan oldu.

İtirərək əqidəni, məsləkini, vicdanını,
Doğruluğu, düzgünlüyü, həqiqəti danan oldu.

Görə-görə görməyərək, eşidərək eşitməyib,
Ədəb-ərkan, mərifəti, ləyaqəti danan oldu.

Dönə-dönə düşünsə də, dərk etməyib, qanmayaraq,
İlqar-iman, əhdi-peyman, sədaqəti danan oldu.

Xətir-hörmət, nazü-nemət, haqq-sayı anmayanlar,
Mehri-ülfət, xeyirxahlıq, fəziləti danan oldu.

Harda oldu, yaşadısa, öz nəfini güdən kəslər,
El-obanı bəyənməyib, cəmiyyəti danan oldu.

Şər danışıb, böhtan deyib, ara qatan “müqəddəslər”,
Nəcib arzu-istəkləri, pak-niyyəti danan oldu.

Evlər yıxıb, qan qaraldıb, günahlara bata-bata,
Şan-şöhrətə kor olanlar, şərafəti danan oldu.

Min bir hiylə işlədərək, arzusuna çata-çata,
Ülviyyəti, qüdsiyyəti, nəzakəti danan oldu.

Xeyirxahı bədxah bilib, höcət, inad, tərs deyərək,
Ucalanı xar edərək, əzəməti danan oldu.

Ona-buna yaltaqlanıb, kölgələrdə dolananlar,
Mətanəti, cəsarəti, fərasəti danan oldu.

Saxta istək, "məhəbbətlə" eşq oduna qalananlar,
Ürəklərə riqqət verən, məhəbbəti danan oldu.

Xəzan olub bircə anda, gülüstanı saraldanlar,
Bahar fəsli gül-çiçəyi, təravəti danan oldu.

Bədəməllər törədərək, gen dünyanı daraldanlar,
Dözüm-durum, dəyanəti, qətiyyəti danan oldu.

Bağlayaraq hər tərəfdən vicdanının qapısını,
Yalan-palan uydurаraq, vəziyyəti danan oldu.

Xainliklə, xəbisliklə, öz içindən qırılanlar,
Nadanlığı, avamlığı, cəhaləti danan oldu.

Yamanlarla həmrəy olub, yaxşılara darılanlar,
Addımbaşı törədilən, qəbahəti danan oldu.

El-obanı pəsinməyib, harın-harın dolananlar,
Qoçaqlığı, zirəkliyi, məharəti danan oldu.

Hərkəsdəyə məqamında qiymətini verməyərək,
Məzmunları, mətləbləri, mahiyyəti danan oldu.

Orda-burda girlənərək, sinə-sinə dolanaraq,
Göstərməyib qüvvətini, qüdrətini danan oldu.

Cəmil Əkbər çox çalışdı, bu qozbellər düzəlmədi,
Sinə gərdi, cəfa çəkdi, əziyyəti danan oldu.

***Cəmil Əkbər*** 10. 02 -1995

## 91. ZƏHMƏTİMİZ NƏ BİHUDƏ İŞ OLDU?

Millət yetişmədi kamala neylim?
Zəhmətimiz nə bihudə iş oldu?
Əqidə, məsləkə, amala neylim?
Zəhmətimiz nə bihudə iş oldu?

Hayana baxırsan nadan görünür,
Təlimdən yarımçıq dadan görünür,
Yolunu tərsinə adan görünür,
Zəhmətimiz nə bihudə iş oldu?

İstədik nə ağa, bəylər olmasın,
Dövrü-zəmanədə keylər olmasın,
İdrakdan, kamaldan zaylar olmasın,
Zəhmətimiz nə bihudə iş oldu?

Ədəb-ərkan, nəzakətə baxan yox,
İnsaf-mürvət, mərhəmətə baxan yox,
Sədaqətə, səxavətə baxan yox,
Zəhmətimiz nə bihudə iş oldu?

Cəhd eylədik zəmanəni düzəldək,
Əhli-kefi, divanəni düzəldək,
İşdə-gücdə biganəni düzəldək,
Zəhmətimiz nə bihudə iş oldu?

Nəqədər mövqedən ucalan endi,
Zəfər dünyasından bac alan endi,
Ellərdən, obadan güc alan endi,
Zəhmətimiz nə bihudə iş oldu?

Dedik ki, insanlar həyalı olsun,
Vicdanlı, məsləkli, qayəli olsun,
Qədəmi uğurlu, sayəli olsun,
Zəhmətimiz nə bihudə iş oldu?

Zay oğlu zaylıqdan uzaşanmadı,
Key oğlu, keylikdən uzaşanmadı,
Səy oğlu, səylikdən uzaşanmadı,
Zəhmətimiz nə bihudə iş oldu?

Pislər pisliyində çürüdü getdi,
Nəslər nəsliyində kiridi getdi,
Mislər misliyində əridi getdi,
Zəhmətimiz nə bihudə iş oldu?

Söz əsər etmədi keybeyinlərə,
Kəmağıl, kütbeyin, səybeyinlərə,
Yetişmək bilməyən çiybeyinlərə,
Zəhmətimiz nə bihudə iş oldu?

Bəşər oğlu cəhalətdən çıxanmır,
Addımbaşı qəbahətdən çıxanmır,
Kin-küdurət, ədavətdən çıxanmır,
Zəhmətimiz nə bihudə iş oldu?

Alim möhtac qalıb dələduzlara,
Vicdanı kəmlərə, qəlbibuzlara,
Şikayət eyləyib deyəsən hara?
Zəhmətimiz nə bihudə iş oldu?

***Cəmil Əkbər*** 19.11 – 1992

## 92. OLUR

Nə üçün belədir sirli kainat?
Yaxşılıq yanında pislik də olur.
Bu sirli-aləmə mən qalmışam mat,
Həlimlik yanında nəslik də olur.

Ədəb-ərkan, mərifətlə birlikdə,
Sədaqə-səxavətlə birlikdə,
Saf istəklə, məhəbbətlə birlikdə,
Höcətlik, zalımlıq, tərslik də olur.

Can yerində çor deyirlər nə üçün?
Gül yerinə xar əkirlər nə üçün?
Yağ yerinə şor səpirlər nə üçün?
Min xəyanət, min naqislik də olur.

Sussayırlar el malına nəyaman?
Yanmayırlar əhvalına nəyaman?
Dərdi-qəmi, məlalına nəyaman?
Çox acgözlük, çox hərislik də olur.

Birbirinə qərəz-qəsdi edirlər,
İçməmişdən sərxoş-məsdi edirlər,
Astar ikən üstünə dəst edirlər,
Min xainlik, min xəbislik də olur.

Kim nə əksə onu biçir deyirlər,
Özü töküb, özü içir deyirlər,
Pis-yaxşını özü seçir deyirlər,
Kainatda bir səlislik də olur.

İnsanoğlu bu həyatı anlamır,
Səhvi varsa bir-birini danlamır,
Kötəkləmir, qırmanclamır, yanlamır,
Çox çətinlik, bir qəlizlik görürəm.

***Cəmil Əkbər***

## 93. OLSUN!

Mən istərdim körpə balam sənin də,
Ellər arasında hörmətin olsun!
Məhəbbət məkanı məğrur sinəndə,
Döyünən ürəkdə mürvətin olsun!

Doğru get, ayağın dəyməsin daşa,
Ötən günlərini verməynən boşa,
Ədəblə dolanıb, hünərlə yaşa,[504]
Dünyaya sığmayan hörmətin olsun!

Çalışki ellərə yayılsın adın,
Yetişsin yerinə arzu, muradın,
Mərd igidlər doğsun hər ana, qadın,
Layiqli şərəfin, şöhrətin olsun!

---

[504] Hünərlə gəz dolan, zəfərlə yaşa.

Həyat yollarında yarışmaq lazım,
Eşqin atəşinə alışmaq lazım,
Əmək meydanında çalışmaq lazım,
Yaşamaq naminə sərvətin olsun!

Yorulmaq, ərinmək bilmə sən əsla!
Mənasız-mənasız gülmə sən əsla!
Namərdin gözünü silmə sən əsla!
Namusun, vicdanın, qeyrətin olsun!

Coşub dərya kimi ümman ol, ümman!
Xəstə könüllərə dərman ol, dərman!
Oxuyub alim ol, loğman ol, loğman!
Əbədi ölməyən sənətin olsun!

Bülbül usandımı çiçəkdən, güldən?
Aşıq əlmi çəkər mizrabdan, teldən?
Üzüb bədənini salmaynan əldən,
Qolunda güc, qüvvət, qüdrətin olsun!

Tay-tuşlar içində yaxşı dost ara,
Doğru ol sözünə, əhdə-ilqara,
Vəfalı insana, yoldaşa, yara,
Xeyirxah arzular, niyyətin olsun!

İnsafı, vicdanı atan kəslərə,
Nahaqdan aranı qatan kəslərə,
Mərdləri namərdə satan kəslərə,
Qəlbində silinməz nifrətin olsun!

Çalışki desinlər "yaşa!", "afərin!",
Elmlə yetişsin kamalın, sərin,
Oxu kitabları araşdır dərin,
Alim, üləmayla ülfətin olsun![505]

---

[505] *II variant* Oxu kitabları, araşdır dərin,
Elmlə kamala yetişsin sərin,
İstəsən dünyadan olsun xəbərin,
Alimlə, loğmanla ülfətin olsun.

*III variant* Düz yeri, ayağın dəyməsin daşa,
Gələn günlərini verməynən boşa,
Ədəblə, iffətlə, hünərlə yaşa,
Mehriban ünsiyyət, ülfətin olsun.

Əmək meydanından qaçma, ar olar,
Adın el içində düşər, xar olar,
Könlün keçirdiyi intizar olar,
Yenilməz iradən, çürətin olsun!

Ailə quranda əslini ara,
Aldanma sərsəri, hərdəmxəyala,
Canını fəda qıl vəfalı yara,[506]
Ar-namus gözləyən külfətin olsun!

***Cəmil Əkbər*** 10. 06 - 1966

## 94. OLARMIŞ

Aman Allah, nə günlərə düşmüşük,
Gədəyə də bəy deyənlər olarmış.
Yolu azıb dağ-düyünə düşmüşük,
Alimə də key deyənlər olarmış.

Yaxşıları-yaman kimi görərək,
Dağ başını duman kimi görərək,
Ah-nalətək, aman kimi görərək,
Gözdən salıb zay deyənlər olarmış.

Xətir-hörmət, haqq-sayı danaraq,
Dürlü-dürlü sovqat, payı danaraq,
Yemək-içmək, çörək-çayı danaraq,
Hatəmə də göy deyənlər olarmış.

Hər görünən təpələri dağ bilib,
Kol-kosları, qanqalları bağ bilib,
Sağı xəstə, xəstələri sağ bilib,
Palıda da şöy deyənlər olarmış.

Meydan verib hər cahilə, nadana,
Addımını tərsəməssəb adana,
Tərbiyədən dadar-doymaz dadana,
Loğmana da səy deyənlər olarmış.

---

[506] Ömrünü qurban et kamallı yara.

Qarışqanı döndərərək fillərə,
Buxov vurub biləklərə, əllərə,
Rişxənd edib aşıb-daşan sellərə,
Damlaya da çay deyənlər olarmış.

Mərd igidi vaxt-vədəsiz öldürüb,
Düşmənləri sevindirib, güldürüb,
Sondan-sona istəyini bildirib,
Aman Allah vay deyənlər olarmış.

Gözləməyib əməlinin dalını,
Vurub tökür meyvələrin kalını,
Aralıqda döşürərək malını,
Bölüşdürüb pay deyənlər olarmış.

Ay qardaşlar nə zəmanə gəlibdir,
Ağıl gedib, nə divanə gəlibdir,
Bihuş olub, nə biganə gəlibdir,
Bişmişə də çiy deyənlər olarmış.

Hərkəsdənin düz bilməyib yerini,
Açanmayıb, bükənməyib sirrini,
Görənməyib incisini, zərini,
Ulduza da ay deyənlər olarmış.

Cəmil Əkbər, buminvala inanma!
Nə cavaba, nə suala inanma!
Sərsəm fikir, kəc xəyala inanma!
Sondan-sona hay deyənlər olarmış.

***Cəmil Əkbər*** 12. 02 – 1993

**95. OLARMIŞ?**

Ülvi keyfiyyətlər kaş azalmaya,
İnsan ədalətsiz nə pis olarmış?
Ünsiyyət-ülfətlər kaş pozulmaya,
İnsan sədaqətsiz nə pis olarmış?

Odur insanlara yaraşıq verən,
Gözlərə, könülə nur-işıq verən,
Mehri-ülfət verən barışıq verən,
İnsan ləyaqətsiz nə pis olarmış?

De kimə lazımdır göylük, xəsislik?
Paxıllıq, xainlik, ya da xəbislik,
Məhv edir bəşəri pula hərislik,
İnsan səxavətsiz nə pis olarmış?

Qanına bələnsin qan tökənləri!
Süfrə ayaqlayıb, nan tökənləri![507]
Zülalı tapdayıb şan tökənləri![508]
İnsan kəramətsiz nə pis olarmış?

Nə üçün doğurmuş, ana kütləri?
Hiyləgər, dələduz, zina kütləri?
Beylə müqəvvanı, beylə bütləri?
İnsan məharətsiz nə pis olarmış?[509]

Xaliq yaratmasın qəlbidaşları,
Filə mırıldayan alabaşları,
Ağıldan kəmləri, başıboşları,
İnsan məhəbbətsiz nə pis olarmış?[510]

Heçkəs itirməsin ləyaqətini,
Eşqini, andını, sədaqətini,
Artırsın, saxlasın dəyanətini,
İnsan şərafətsiz nə pis olarmış?[511]

---

[507] Çörək itirəni, nan tökənləri.
[508] Zülalı, şərbəti, şan tökənləri.
[509] İnsan fərasətsiz nə pis olarmış?

[510] *II variant*

De kimə lazımdır qəlbi daş insan?
Fikiri-xəyalı huşu çaş insan?
Yeməmiş, içməmiş, de sərxoş insan?
İnsan məhəbbətsiz nə pis olarmış?

[511] *II variant*

Heçkəs itirməsin ləyaqətini,
Fəhm-fərasəti, sədarətini,
Dözümü, durumu, dəyanətini,
İnsan şərafətsiz nə pis olarmış?

*III variant*

Hamı birbirindən varlı olsada,
Qohumlu, qardaşlı, yarlı olsada,
Almalı, heyvalı, narlı olsada,
İnsan şərafətsiz nə pis olarmış?

Dünyada nəqədər soyuq var imiş?
Bütlər, müqəvvalar, oyuq var imiş?
Kişi qiyafədə toyuq var imiş?
İnsan məhəbbətsiz nə pis olarmış?

Bu cahan mülkündə nadan olmaya,
Yolunu tərsinə adan olmaya,
Təlimdən yarımçıq dadan olmaya,
İnsan nəzakətsiz nə pis olarmış?

Ay Cəmil, çox gördün dönükləri sən,
Vicdanı, məsləki sönükləri sən,
Hər səmtə, hər yola yönükləri sən,
İnsan dəyanətsiz nə pis olarmış.[512]

***Cəmil Əkbər*** 15-25 // 03 – 1992

## 96. OLARSAN!

İnsansan, insanın qəlbinə dəymə!
Axırda utanıb peşman olarsan!
Artırıb dərdini, qəddini əymə!
Özün də özünə düşmən olarsan![513]

Oxu Nizaminin "Xəmsə"sini sən,
İdrak aləminin dünyasını sən,
Anlayıb dərk eylə, mənasını sən,
Aşarsan, daşarsan, ümman olarsan![514]

---

[512] *II variant* Ay Cəmil, çalışıb hörmətlə dolan,
Ədəblə, ərkanla, mərfətlə dolan,
1) Cəsarətlə dolan, cürətlə dolan, 2) İnsafla, vicdanla, mürvətlə dolan,
İnsan mərhəmətsiz nə pis olarmış.

[513] *II variant* Nadanlıq eyləyib qəlblərə dəymə,
1) Utanıb-qızarıb peşman olarsan!2) Bir zaman utanıb, peşman olarsan!
Heç yerdə, heç zaman, özünü öymə,
Axırda özünə düşmən olarsan!

[514] *II variant* Oxu Nizaminin "Xəmsə"sini sən,
1) Xəyal aləminin dünyasını sən, 2) Anla sətir-sətir kəlməsini sən,
Hər beyt, hər misra, cümləsini sən,
Aşarsan, daşarsan, ümman olarsan!

*III variant* Oxu, Nizaminin "Xəmsə"sinə bax,
Hər beyit, hər misra kəlməsinə bax,
Anlayıb dərk eylə, cümləsinə bax,
Aşarsan, daşarsan, ümman olarsan!

Oxu Məhəmmədin ol "Quran"ını,
Sədi Şirazinin "Gülüstan"ını,
Haqqın kitabının hər varağını,[515]
Dünyada ən böyük loğman olarsan![516]

Böyük ustadlardan söz öyrənməsən,
Alaraq dərsini düz öyrənməsən,
Vaxtında dərk edib, tez öyrənməsən,
Ariflər yanında yaman olarsan! [517]

Babanı-dədəni hədər anlasan,
Gələni-gedəni hədər anlasan,
Vaxtını, vədəni hədər anlasan,
Dünyada bir anlıq mehman olarsan![518]

---

[515] 1) Müqəddəs kitabın hər varağını. 2) Qanun kitabın hər varağını.

[516] Sağalmaz dərdlərə dərman olarsan!

[517] *II variant* Böyük dühalardan söz öyrənməsən,
1) Doğru eşitməsən, düz öyrənməsən, 2) Doğru düşünməsən, düz öyrənməsən,
Cığırlar, keçidlər, iz öyrənməsən,
1) Yaxşılıq görməzsən, yaman olarsan! 2) Yaxşılar yanında yaman olarsan!

*III variant* Dahidən, dühadan söz öyrənməsən,
Hər şeyi düz bilib, düz öyrənməsən,
Cığırlar, keçidlər, iz öyrənməsən,
Yaxşı əvəzində yaman olarsan!

[518] *II variant* 1) Kim sansa babanı, dədəni hədər, 2) Sanmayın babanı, dədəni hədər,
Gələni-gedəni, qalanı hədər,
1) Keçirsən vaxtını, vədəni hədər, 2) Keçirsə vaxtını, vədəni hədər,
Dünyada bir anlıq mehman olarsan!

*III variant* 1)Tanıtma babanı-dədəni hədər, 2) Atanı, babanı kim saysa hədər,
Olanı-qalanı, gedəni hədər,
Keçirmə vaxtını, vədəni hədər,
Dünyada bir anlıq mehman olarsan!

*IV variant* Sanmayın babanı-dədəni hədər,
Gələni, qalanı, gedəni hədər,
Mənalı günlərin mənasız gedər,
Dünyada bir günlük mehman olarsan!

Hərzaman hər yerdə zəhmətdən yapış,[519]
Hünərdən, zəfərdən, qeyrətdən yapış,
Məzmundan, mənadan, hikmətdən yapış,
Əbədi silinməz fərman olarsan![520]

Gecəni-gündüzə qata bilməsən,
Yeriyib-yüyürüb çata bilməsən,[521]
Zamanın nəbzini tuta bilməsən,
İnləyən, sızlayan kaman olarsan![522]

Parlada bilməsən kamalını sən,
Əqidə, məsləki, amalını sən,[523]
Göstərə bilməsən camalını sən,
Günəş qarşısında duman olarsan![524]

Heç zaman, heç yerdə özünü öymə!
Mənəmlik eyləyib sinənə döymə!
Zəhmətsiz tapanda al-qumaş geymə!
Əfitək görünən ilan olarsan!

Eşit sözlərimi yadında saxla!
Məqamı gələndə yerində yoxla!
Qəlbini düz saxla həmişə Haqqla!
Tufan qarşısında saman olarsan![525]

---

[519] Çalışıb hərzaman, zəhmətdən yapış.
[520] Hökm iylə verilən fərman olarsan.
[521] Ülvi məqsədlərə çata bilməsən.

[522] *II variant* Gecəni-gündüzə qatmasan inan,
Ülvi məqsədlərə çatmasan inan,
Yeriyib-yüyürüb tutmasan inan,
Qaməti əyilmiş kaman olarsan!

*III variant* Çalışıb savaba bata bilməsən,
Gecəni-gündüzə qata bilməsən,
Arzuya, məqsədə çata bilməsən,
Qaməti əyilmiş kaman olarsan!

[523] Məsləki, vicdanı amalını sən.
[524] 1)Buluda çevrilib duman olarsan. 2) Günəş əvəzində duman olarsan.
[525] *II variant* Dinlə sözlərimi, yadında saxla!
Məqamı gəldikdə yerində yoxla!
1)Qəlbin düz olmasa həmişə Haqqla. 2)Qəlbin düz olarsa inankı Haqqla.3) Qəlbi düz etməsən həmişə Haqqla.
Külək qarşısında saman olarsan!

Dinlə bu hikməti sən al nəzərə,
Çalış qarışasan xeyirə-şərə,
Fayda yetirməsən xalqa, bəşərə,
Ah-nalə olarsan, aman olarsan![526]

Ey Cəmil düşsən də hər əziyyətə,
Sadiq ol Vətənə, xalqa, millətə,
Qovuş ülviyyətə, əbədiyyətə,
Əhdinə, ilqara peyman olarsan![527]

***Cəmil Əkbər*** 11. 08 – 1979

**97. YER OLARMI?**

Hünərsizlər qanad açsa,
Cəsarətə yer olarmı?[528]
Koryapalaq bağda uçsa,
Təravətə yer olarmı?[529]

Qorxaq tülkü meydan açsa,
Dar məqamda daldan qaçsa,
Aman edib and da içsə,
Məharətə yer olarmı?

Hökmü versə yekəbaşlar,[530]
Vicdanıkəm, qəlbidaşlar,[531]
Filə hürsə alabaşlar,
Ləyaqətə yer olarmı?

---

[526] *II variant* Getməsən dünyada xeyirə, şərə,
1)Düz qiymət verməsən gövhərə, zərə, 2) Axırda düşərsən özün məhşərə,
1)Xəta yetirərsən qalqa, bəşərə, 2) Nə fayda verərsən xalqa, bəşərə?
Ah-nalə olarsan, aman olarsan.
*III variant* Qarışa bilməsən xeyirə-sərə,
Qiymət verəmməzsən gövhərə, zərə,
Fayda yetirməzsən xalqa-bəşərə,
Ah-nalə olarsan, aman olarsan.

[527] *II variant* Ey Cəmil sadiq ol, sən həqiqətə,
Elinə, xalqına, bəşəriyyətə,
1)Düşsən də mənimtək hər əziyyətə. 2) Düşsən də bu yolda hər əziyyətə.
1)Könüldə yaşayan peyman olarsan! 2)Könüldə həkk olmuş peyman olarsan!
3)Xəstələr sağaldan dərman olarsan!

[528] Hünərliyə yer olarmı?

[529] Bülbüllərə yer olarmı?

[530] Hakim olsa qəlbi daşlar.

[531] Xəyalı kəm, fikri çaşlar.

Yalan-yanlış olan yerdə.
Məsgən salıb qalan yerdə,
Aşıb-daşıb, dolan yerdə,
Həqiqətə yer olarmı?[532]

Sözü keçsə zalımların,
Azğınların, pozğunların,
Leş axtaran quzğunların,
Sədaqətə yer olarmı?[533]

Alim olsa qafasızlar,
Başa çıxsa cəfasızlar,
İlqarsızlar, vəfasızlar,
Məharətə yer olarmı?

Xain-xəbis çoxalarsa,
Acgöz, həris toxalarsa,
Naşı ovcu ox alarsa,
Fərasətə yer olarmı?[534]

Xəyanətlər dillənərsə,
Ədavətlər göllənərsə,
Çoşub-daşıb sellənərsə,[535]
Səxavətə yer olarmı?

Saxtalıqlar olan yerdə,
Fırıldaqlar olan yerdə,[536]
Qudurğanlar olan yerdə,[537]
Nəzakətə yer olarmı?

Kamalsızlar "kamallısa",
Amalsızlar "amallısa",
Tutarsızlar "samballısa",
Fəzilətə yer olarmı?[538]

---

532 Doğruluğa yer olarmı?
533 Məzlumlara yer olarmı?
534 Munislərə yer olarmı?
535 Ayaq alıb tərpənərsə.
536 Qalxan-qılınc olan yerdə.
537 İşlər gülünc olan yerdə.
538 1)Samballıya yer olarmı? 2) Kamallıya yer olarmı?

Hörmət olsa hörmətsizə,
Şərəfsizə, şöhrətsizə,
Abırsıza, ismətsizə,
Hörmətliyə yer olarmı?

Meydan açsa mürvətsizlər,
Məhəbbətdən sərvətsizlər,
Sədaqətdən nemətsizlər,
Mürvətliyə yer olarmı?[539]

Əlbir olsa dələduzlar,
Daşürəkli, qəlbibuzlar,
Baxdıqca könüllər sızlar,
Kəramətə yer olarmı?

Fürsət düşsə zalımlara,
Qabırğası qalınlara,
Düyün düşər alınlara,
Mərhəmətə yer olarmı?

İşin düşsə bədxahlara,
Sərsəriyə, axmaqlara,
Satqınlara, qorxaqlara,
Məhəbbətə yer olarmı?[540]

***Cəmil Əkbər*** 24. 08 – 1987

**98. QURBAN OLUM**

Dərdbilənin, əhli-halın nəfəsinə qurban olum.
Onu nədir, yüzü nədir, hərəsinə qurban olum.
Eyham ilə sözqananın, həvəsinə qurban olum.
Babasına, atasına, nəvəsinə qurban olum.
Kitabında hər vərəqin, cümləsinə qurban olum.
Abzas-abzas, sətir-sətir kəlməsinə qurban olum.
Ərişinə, arğacına, ilməsinə qurban olum.
İdrakının ziyasına, zərrəsinə qurban olum.
Dərk eyləyib anlaması, bilməsinə qurban olum.

---

[539] Nemətliyə yer olarmı?
[540] Xeyirxaha yer olarmı?

Sinəm üstə ol qubarı, silməsinə qurban olum.
Qəlbimdəki bu rübabı, çalmasına qurban olum.
Qurban kəsim qoy ona mən, qalmasına qurban olum.
Xəyallara qərq olaraq dalmasına qurban olum.
Başındakı al örpəkdən, çalmasına qurban olum.
Maral kimi boylanaraq, gülməsinə qurban olum.
Qədəm qoyub bu cahana gəlməsinə qurban olum.

***Cəmil Əkbər*** 30. 09-1991

## 99. OLMA!

*I variant*

Eşit sözlərimi al nəsihəti,
Övladı-bəşərə ziyankar olma!
Qəlbində yaşatma, at xəyanəti,[541]
Canalan, qantökən zülmkar olma![542]

Pozma ünsiyyəti, vurma aralıq,
Alarsan ellərdən üzüqaralıq,
Xalqına doğma ol, olma analıq,
Şər-böhtan danışma, fitnəkar olma!

İncidib bezdirmə gəl sən insanı,
Əsəblər korlayıb, qaraltma qanı,
Səadət yolunu düz anla, tanı,
Araqızışdıran davakar olma!

Atalar deyibdir belədir qayda?
Eşidib götürsən alarsan fayda.[543]
İstər yazda olsun, istərsə yayda?[544]
Pis işə, vərdişə adətkar olma! [545]

---

[541] Saxlama qəlbində, at xəyanəti.

[542] 1) Əzazil, sitəmkar, zülmkar olma! 2) Ev yıxan, qan tökən zülmkar olma!
4) Qansızlıq eyləmə, zülmkar olma!

[543] Eşitsən nəsihət alarsan fayda.

[544] 1) Hər gündə, saatda, hər ildə ayda. 2) İstər bahar olsun, istərsə yayda.

[545] *II variant*
Dərin düşüncəli pürkamallı ol,
Xalqına mehriban, istiqanlı ol,
Sağlam fikirli ol, sağlam qanlı ol,
Bəd işə, əmələ, adətkar olma!

Aldanma fitnəyə, uyma fellərə,
Çıxma haq yolundan, düşmə çöllərə,
Nə sözə-söhbətə, nə də dillərə,
Faş olub ellərdə aşikar olma.[546]

İnsanla ən nəcib ünsiyyətli ol!
Mülayim rəftarlı xasiyətli ol!
Söz götür, söz anla nəsihətli ol!
Dələduzluq etmə, hiyləgər olma!

Salma aralığa nə qovğa, nə qal,
Nə qüssə, nə kədər, nə dərdi-məlal,
Əvvəli-axırı bir yadına sal,
Dağıdıb-talayan qəsbkar olma![547] [548]

Güvənmə qoluna, uyma bəxtinə,
Nə zərli tacına, nə də taxtına,
İmza atma, ölümünə aktına,
Bədxahlıq eyləyib, "bəxtiyar"olma![549]

---

*III variant* Dərin dərrakəli pürkamallı ol,
Nəcib təbiətli, istiqanlı ol,
Sağlam fikirli ol, pak amallı ol,
Saxta söz-söhbətə adətkar olma!

546 *II variant* Aldanma fitnəyə, uyma fellərə!
Azma haqq yolunu, getmə çöllərə!
Pis sədan çatmasın oba-ellərə!
Car olub ellərdə aşikar olma!

547 Acgöz, qarınqulu, tamahkar olma!

548 *II variant* Demirəm əl çəkin mübarizədən,
Ədalət yolunda hərbə-zərbədən,
Hədədən, hücumdan, nə də cəbhədən,
Fatehlik eyləmə, qəsbkar olma!

*III variant* Salma aralığa qəm, qüssə, məlal,
1) Nə qorxu, həyəcan, nə də qeylü-qal, 2) Nə dava, nə dalaş, nədə qeyri-hal,
Əvvəli-axırı bir yadına sal,
İnsafsız, mürvətsiz sitəmkar olma!

*IV variant* Bir kimsəyə vermə qüssə-dərd, məlal,
Nə dava, nə dalaş, nə də qeyri-hal,
Əvvəli-axırı bir yadına sal,
Səbəbsiz, sübutsuz üsyankar olma!

Elinə, obana hörmətin olsun,
Ədəbin, ərkanın, mərfətin olsun,
İnsafın, vicdanın, mürvətin olsun,
Dərdi-bəla vermə, ahuzar olma![550]

Bədəməl törədib pislik eyləmə!
Nanəciblik, nə naqislik eyləmə!
Nə höcətlik, nə də nəslik eyləmə!
Acgöz, qarınqulu, tamahkar olma![551]

Dağıtma ev-eşik, uçurtma yuva,
Törətmə dünyada hər yersiz dava,
Qoyun korlanmasın təmiz ab-hava,
Bədxahlıq eyləyib, xətakar olma!

---

[549] *II variant* Güvənmə taleyə, uyma bəxtinə,
Nə zərli tacına, nə də təxtinə,
Ayaq alma hər yetənin üstünə,
Nahaqdan qan töküb "bəxtiyar" olma!

*III variant* Girməginən hər yetənin qəsdinə,
Toxunma xətrinə, dəymə şəstinə,
Aldanma tacına, nə də təxtinə,
Cəlladlıq eyləyib "bəxtiyar" olma!

[550] *II variant* Əksiklik gətirmə xalqa, millətə,
Övladı-bəşərə, nə cəmiyyətə,
Son qoyun qəzəbə, kinə-küdrətə,
1) Qəm-qüssə, dərd kədər, ahuzar olma! 2) Bezdirmə insanı, hərzəkar olma!

*III variant* Elinə-obana şan-şöhrət gətir!
Azadlıq bəxş eylə, səadət gətir!
Mərhəmət, səxavət, kəramət gətir!
Qəm-qüssə törədib, sitəmkar olma!

*IV variant* Elinə-obana ləyaqət gətir!
Sədaqət, səxavət, kəramət gətir!
Bəxtiyarlıq gətir, səadət gətir!
Qəm-qüssə, dərd-bəla, ahuzar olma!

[551] *II variant* 1) Əbəsdir, insana gəl pislik etmə! 2) İnsan övladına gəl pislik etmə!
Qayğı göstərməkdə xəsislik etmə!
Ellərin malına hərislik etmə!
1) Ac-göz, qarınqulu, tamahkar olma! 2) Nəfisə aldanıb, tamahkar olma!

Sadiq ol xalqına, məhəbbətli ol![552]
Sözündə, işində ədalətli ol!
Dözümlü, durumlu, dəyanətli ol!
Hərdəmxəyal olma, riyakar olma!

Məsləkin, amalın, izin bir olsun!
Əqidən, əməlin, sözün bir olsun!
Astarın bir olsun, üzün bir olsun!
Düşüb dondan-dona, saxtakar olma![553]

Zülm etmə insana, vermə əzabı,
Nə şişi yandırma, nə də kababı,
Çəkərlər səndən də haqqı-hesabı,
Bəd işə-əmələ səbəbkar olma![554]

---

[552] 1) Vətənə sadiq ol, məhəbbətli ol! 2) İnsan ol, insana məhəbbətli ol!
3) Hərkəs olursansa, məhəbbətli ol!

[553] *II variant*
Məqsədin, məsləkin, izin bir olsun,
Sifətin bir olsun, üzün bir olsun,
Amalın, əqidən, sözün bir olsun,
Düşmə dondan-dona, saxtakar olma!

*III variant*
Məsləkin, amalın, sözün bir olsun,
Yolağın, çəhlimin, izin bir olsun,
Astarın bir olsun, üzün bir olsun,
Hiyləgər, dələduz, saxtakar olma!

*IV variant*
Məqsədin, məsləkin, üzün bir olsun,
Cığırın, yolağın, izin bir olsun,
Əqidən, əməlin, sözün bir olsun,
Düşmə dondan-dona, saxtakar olma!

[554] *II variant*
Bağban olub, bağça saxla, bar becər!
Alma bəslə, heyva yetir, nar becər!
Zəhmət çəkib, dürlü-dürlü var becər!
1) Şər işə, xətaya səbəbkar olma! 2) Bəd sözə, söhbətə səbəbkar olma!

*III variant*
Zəhmət çəkib dürlü-dürlü bar becər,
Alma becər, heyva becər, nar becər,
Sədaqətli, səxavətli, yar becər,
Şər işə, xətaya səbəbkar olma!

İncitmə, keçəndə insan əlinə,
Diqqət yetir, bir nəzər sal elinə,[555]
Danışanda qadağa ver dilinə,[556]
Füzulluq eyləmə, hərzəkar olma!

İnsafını, vicdanını ataraq,
Mərd igidi namərdlərə sataraq,[557]
Namərdliklə məqsədinə çataraq,[558]
Nanəcib kəslərə havdar olma![559]

Hər yetənə xeyirxahlıq eyləmə!
Ülfət qılıb mehribanlıq eyləmə![560]
Candan keçib, canfəşanlıq eyləmə!
Xainə, xəbisə vəfadar olma!

Dərin xəyallara dalandan olun,
İncik könülləri alandan olun,
Bu yolda zəfərlər çalandan olun,[561]
Zalıma, qatilə xilaskar olma! [562]

Adil ol hərzaman, həqiqət haqla!
Hər sözü-söhbəti yerində yoxla!
Hörməti-izzəti yadında saxla!
Haqq-say itirən nanıkor olma!

Seçin peşənizi, sevin sənəti,[563]
Hünər göstər, əsirgəmə zəhməti,[564]
El sərrafdır özü verər qiyməti,
Nabələd, yarımçıq sənətkar olma!

---

[555] Hörmət qoyub, bir nəzər sal elinə.
[556] Danışanda diqqət yetir dilinə.
[557] Yaxşıya-pis, pisə-yaxşı qataraq.
[558] 1) Hər sifətlə məqsədinə çataraq. 2) Mərd igidi namərdlərə sataraq.
[559] 1) Namərdə, nakəsə havdar olma! 2) Nanəcib, naqisə havdar olma!
[560] Mehribanlıq, istiqanlıq eyləmə.
[561] Elin qayğısına qalandan olun.
[562] *II variant* Düşünüb xəyala, dalın dünyada,
İncik könülləri alın dünyada,
1) Xalqın qayğısına qalın dünyada. 2) İnsan qayğısına qalın dünyada.
Zalıma, qatilə xilaskar olma!

[563] 1) Sevin peşənizi, sevin sənəti. 2) Seçəndə peşəni, sevin sənəti.
[564] 1) Cəfa çəkib əsirgəmə zəhməti, 2) Əsirgəmə var qüvvəni, zəhməti,
3) Çək cəfanı, əsirgəmə zəhməti.

Əyri salma həyatında izini,
Doğru düşün, düzgün danış sözünü,[565]
Aldatma heç zaman özün-özünü,
İşində-gücündə səhlənkar olma!

Həyatda mənanı zəhmətində gör!
Bacarıq, ləyaqət, xidmətində gör![566]
Ellərdən aldığın qiymətində gör![567]
Zəhmətsiz həyata həvəskar olma!

Qulaq as sözünə gəl ustadların!
İstər qohum olsun, istər yadların!
Uyma fitnəsinə hər xoryadların!
Höcətlik eyləmə, inadkar olma!

Hünər göstərməkdə birinci olun!
Fərqi yox ortada, sonuncu olun![568]
Mininci, yüzüncü, onuncu olun!
Elin qarşısında təqsirkar olma![569]

Ey Cəmil, gəz dolan diyarbadiyar,[570]
Hikmətli sözlərin qalsın yadigar,[571]
İstəsən olasan daim bəxtiyar,
Vicdan qarşısında günahkar olma!

***Cəmil Əkbər*** 29. 12 - 1977

**100. OLMA!**

*II variant*

Eşit sözlərimi, al nəsihəti,
Bəd sözə-söhbətə səbəbkar olma!
Yol vermə qəlbində at xəyanəti,
Evladı-bəşərə ziyankar olma!

---

[565] Sərrast düşün, düzgün danış sözünü.
[566] 1) Vicdanda, məsləkdə qeyrətində gör. 2) İnsafda vicdanda, mürvətində gör.
[567] 1) Xalqına etdiyin hörmətində gör. 2) Ləyaqət, bacarıq, qüdrətində gör.
[568] 1) İstər yüzüncü ol, mininci olun. 2) Əvvəldə, ortada, sonuncu olun.
[569] Dallarda qalmaqda bayraqdar olma!
[570] Gəzib-dolandıqca diyarbadiyar.
[571] Hikmətli sözləri saxla yadigar.

Eşitsin sözümü bütün el-oba!
Uçurtma ev-eşik, dağıtma yuva!
Qoyun korlanmasın tərtəmiz hava!
Ziddiyyət törətmə, davakar olma!

İşlətmə heç zaman nə hilə, kələk,
Əsməsin üstündən qoy acı külək,
Desinlər huridir, yadakı mələk,
Zülm etmə, qəsd etmə, ziyankar olma![572]

Danışanda diqqət yetir dilinə,
Hörmət qoyub bir nəzər sal elinə,
İnsanoğlu keçən zaman əlinə,
Fizulluq eyləmə, hərzəkar olma!

Hünərlə, həvəslə çalışki sən də,
Baxım fəxr eyləyim yeri düşəndə,
Götürsən nəsihət, nə çoxdu məndə,
Soyuqqanlı olma, səhlənkar olma!

İstəsən hərzaman gələsən xoşa,
Abırla dolanıb, həyalı yaşa,
Şərəflə-şöhrətlə ömrü vur başa,
Elin qarşısında təqsirkar olma!

Məqsədin, məsləkin, izin bir olsun,
Sifətin bir olsun, üzün bir olsun,
Əqidən, əməlin, sözün bir olsun,
Düşmə dondan-dona riyakar olma![573]

---

[572] *II variant* Ünsiyyət-ülfətdə hörmətin olsun,
Ədəbin, ərkanın, mərfətin olsun,
İnsafın, vicdanın, mürvətin olsun,
Aləmi-bəşərə ziyankar olma!

[573] *II variant* Hərkim olursansa, məhəbbətli ol!
Vətənə, xalqına sədaqətli ol!
Dözümlü, durumlu, dəyanətli ol!
Hərdəmxəyal olma, riyakar olma!

Namusla, qeyrətlə ucalanlara,
Ömür-gün keçirib qocalanlara,
Hünər meydanında bac alanlara,
Xainlik eyləmə, xətakar olma![574]

İtirmə əqlini, olma divanə,
Unutma, sənə də süd verib ana,
Yaşayın, yaradın mərdi-mərdana,
Cindərlik eyləmə, cadugər olma![575]

Qulaq as sözünə gəl ustadların,
İstər qohum olsun, istər yadların,
Uyma fitnəsinə hər xoryadların,
Xainə, xəbisə xilaskar olma!

***Cəmil Əkbər*** 25. 09 -1969

**101. OLMA!**

*III variant*

Eşitsən sözümü taparsan fayda,
Pis işə, vərdişə adətkar olma!
Belədir yol-ərkan, belədir qayda,
Elində-obanda zülümkar olma![576]

Əhli-hal yanında daş da daşısan,
Kim sənə deyərki, xamsan, naşısan?
Görərlər, bilərlər üzük qaşısan,
Nadanlar yanında xiridar olma!

Eşqin atəşnə yanan olsan da,
Dinindən əl çəkən Sənan olsan da,
Sevərək yaşayan çoban olsan da,
Sevgisiz yaşayan tacidar olma!

---

[574] Bədxahlıq eyləmə, xətakar olma!

[575] *II variant* İtirmə əqlini, olma divanə,
Anlaki sənə də süd verib ana,
Yaşayın, yaradın mərdi-mərdana,
Fəsadlar törətmə, cadugər olma!

[576] *II variant* Atalar deyibdir belədir qayda,
İstər bahar olsun, istərsə yayda,
Eşitsən nəsihət taparsan fayda,
Qansızlıq eyləmə, zülümkar olma!

İnsafını, vicdanını ataraq,
Mərd igidi namərdlərə sataraq,
Namərdliklə məqsədinə çataraq,
Nanəcib kəslərə havadar olma![577]

İncitmə, keçəndə insan əlinə,
Bir nəzər sal öz obana, elinə,
Danışanda diqqət yetir dilinə,
Fzulluq eyləmə, sözbazar olma!

Cəmil Əkbər, xeyirxahlıq eyləmə,
Hər yetənə mehribanlıq eyləmə,
Candan keçib, canfəşanlıq eyləmə,
Xainə, xəbisə vəfadar olma!

***Cəmil Əkbər*** 25. 09 -1969

**102. OLMA!**

Hər nədən də kasad olsan, kamalından kasad olma!
Əqidədən, məsləkindən, amalından kasad olma!
Çəkiləndə el gözündə, tutarlı gəl, samballı gəl!
Üz-gözünə ənlik çəkmə, yöndəmli gəl, camallı gəl!
Beddam eyləmə adını, hörmətini gözlə gülüm,
İnsafından olma kənar, mürvətini gözlə gülüm.
Hər nəyin də getsə bada, qeyrətini vermə bada,
Şərəfini ucuz tutub, şöhrətini vermə yada.
Bağban olub peyvənd cala, kol-kosları bəsləmə gəl,
Nadanlarla ülfət qılıb, cahilləri səsləmə gəl.
Abırlı ol, həyalı ol, ismətini itirmə sən,
Nəcabətə xələl vurma, xislətini itirmə sən.
Haqq-sayı yadına sal, nanıkorluq eyləmə gəl,
Ünsiyyətə zərbə vurub, ziyankarlıq eyləmə gəl.
Eylə et ki, el içində sədaqətin azalmasın,
İnsanlığa yararlı ol, ləyaqətin azalmasın.
Nüfuzunu artır müdam, mənliyini itirmə heç,
Düşmə qüssə-qəm, kədərə, şənliyini itirmə heç.

---

[577] *II variant* İnsafını, vicdanını ataraq,
Yaxşıya-pis, pisə-yaxşı qataraq,
Hər sifətlə məqsədinə çataraq,
Namərdə, nakəsə havadar olma!

Hərkimsəni unutsan da, qardaşını unutma gəl,
Əqidəcə yaxın olan, yoldaşını unutma gəl.
Gəl boynuna götürməynən, nə məzəmmət, möhnət yükü,
Dedi-qodu, giley-güzar, nə də yersiz töhmət yükü.

***Cəmil Əkbər*** 5. 04 – 1988

## 103. GƏRDİŞİ-DÖVRANI NƏ BİLMƏK OLAR?

Həyat mürəkkəbdir, qəlizdir yaman,
Dünyanın işini nə bilmək olur?
Həryana baxırsan dənizdir yaman,
Gərdişi-dövranı nə bilmək olar?

Birisi ucalır, birisi enir,
Birisi kiriyir, birisi dinir,
Birisi alışır, birisi sönür,
Gərdişi-dövranı nə bilmək olar?

Birisi taleyə, baxta güvənir,
Birisi qılınca, taxta güvənir,
Birisi zamana, vaxta güvənir,
Gərdişi-dövranı nə bilmək olar?

Birisi düzəldir, birisi əyir,
Birisi toxuyur, birisi geyir,
Birisi qazanır, birisi yeyir,
Gərdişi-dövranı nə bilmək olar?

Birisi səs salır, birisi susur,
Birisi gizlənir, birisi pusur,
Birisi sümürür, birisi qusur,
Gərdişi-dövranı nə bilmək olar?

Birisi düşünür, birisi qanır,
Birisi sulanır, birisi yanır,
Birisi calanır, birisi sınır,
Gərdişi-dövranı nə bilmək olar?

Biri gücdən düşür, biri canlanır,
Biri kötəklənir, biri yanlanır,
Biri təriflənir, biri danlanır,
Gərdişi-dövranı nə bilmək olar?

Bir yanda günəşdir, bir yanda aydır,
Bir yanda nəşədir, bir yanda vaydır,
Bir yanda çeşmədir, bir yanda çaydır,
Gərdişi-dövranı nə bilmək olar?

Çox kəsən kəsilib, asan asılıb,
Çox tutan tutulub, basan basılıb,
Çox sıxan sıxılıb, qısan qısılıb,
Gərdişi-dövranı nə bilmək olar?

Enən, qalxan nərdivana bir baxın,
Qoca-cavan, növcavana bir baxın,
Qanun-qayda, haqq-divana bir baxın,
Gərdişi-dövranı nə bilmək olar?

Dövlətə, sərvətə, vara güvənmə,
Qılınca, qalxana, zora güvənmə,
Hördüyün, qurduğun tora güvənmə,
Gərdişi-dövranı nə bilmək olar?

Yerdəki yumurta göydə quş olur,
Ya qartal, ya sərçə, ya bayquş olur,
Hərə nə kökdənsə ona tuş olur,
Gərdişi-dövranı nə bilmək olar?

Çox mənəm deyənlər qalmadı getdi,
Dünyadan kamını almadı getdi,
Düşüb xəyallara dalmadı getdi,
Gərdişi-dövranı nə bilmək olar?

Yersiz-yersiz ədalanmaq nə lazım?
Dilə düşüb sədalanmaq nə lazım?
Qürrələnmək, gədalanmaq nə lazım?
Gərdişi-dövranı nə bilmək olar?

Çox meydan açanlar əzildi getdi,
Düşdü öz həddinə, nəzildi getdi,
Qalıb qatarından üzüldü getdi,
Gərdişi-dövranı nə bilmək olar?

Əzabı var, cəfası var dünyanın,
Nəşəsi var, səfası var dünyanın,
Xətası var, qəzası var dünyanın,
Gərdişi-dövranı nə bilmək olar?

Nə əkərsən, biçəcəksən agah ol!
Nə tökübsən içəcəksən agah ol!
Bir mehmansan köçəcəksən agah ol!
Gərdişi-dövranı nə bilmək olar?

İnsan gərək hörmətini gözləsin,
Namusunu, qeyrətini gözləsin,
Abırını, ismətini gözləsin,
Gərdişi-dövranı nə bilmək olar?

Az düşün bu qədər, ay Cəmil Əkbər,
Yemə qəm-qüssəni, olma mükəddər,
Bəlkədə sözlərin olacaq əzbər,
Gərdişi-dövranı nə bilmək olar?

***Cəmil Əkbər*** 30.05 - 1988

## 104. DÜNYANIN İŞİNİ NƏ BİLMƏK OLUR?

Qalmayır dünyada çox gələn gedir,
Dünyanın işini nə bilmək olur?
Çox mənəm deyənlər, çox bilən gedir,
Dünyanın işini nə bilmək olur?

Çox enən ucalır, ucalan enir,
Çox sönənlər yanır, yananlar sönür,
Çox danışan susur, susanlar dinir,
Dünyanın işini nə bilmək olur?

Nəqədər qanmayan, qanan görünür?
Nəqədər qananlar nadan görünür?
Təlimdən yarımçıq dadan görünür?
Dünyanın işini nə bilmək olur?

Çox şöhrət sahibi gözdən salındı,
Məqamı çatmamış tezdən salındı,
Yolundan qovuldu, izdən salındı,
Dünyanın işini nə bilmək olur?

Nəqədər yarımçıq başa çəkildi?
Salınıb üzüyə, qaşa çəkildi?
Bir ha deyil, cüt-cüt, qoşa çəkildi?
Dünyanın işini nə bilmək olur?

Çoxları dövlətə, vara da çatdı,
Bağı çiçəklədi, bara da çatdı,
Namuslu, ismətli yara da çatdı,
Dünyanın işini nə bilmək olur?

Nəqədər həqiqət yalan göründü?
Xəzana qərq olan, solan göründü?
Dağılan, sökülən, talan göründü?
Dünyanın işini nə bilmək olur?

Hələ çox yalanlar düzələcəkdir,
Hələ çox qalınlar nəziləcəkdir,
Məqamı çatdıqca əziləcəkdir,
Dünyanın işini nə bilmək olur?

Nəqədər məchuldur sirr açılmayıb?
İnci tapılmayıb, zər açılmayıb?
Qalaylar sürtülüb, gir açılmayıb?
Dünyanın işini nə bilmək olur?

Hələ çox doğrular yalan olacaq,
Hələ çox düzələn talan olacaq,
Vay- şivən qopacaq, nalan olacaq,
Dünyanın işini nə bilmək olur?

Hələ çox gözəllər çirkinləşəcək,
Hələ çox sədalar xudbinləşəcək,
Çox mənəm deyənlər bədbinləşəcək,
Dünyanın işini nə bilmək olur?

***Cəmil Əkbər*** 29.05 -1988

## 105. FƏLƏYİN İŞİNDƏN BAŞ AÇILMIRKİ?

Həyat mürəkkəbdir, dövran qəlizdir,
Fələyin işindən baş açılmırki?
Kimi ağa olur, kimi kənizdir,
Fələyin işindən baş açılmırki?

Qazanan qazanır, yeyənlər yeyir,
Toxunan toxuyur, geyənlər geyir,
Düzəldən düzəldir, əyənlər əyir,
Fələyin işindən baş açılmırki?

Birisi dağıdır, birisi qurur,
Birisi çırpılır, birisi vurur,
Birisi yorulur, birisi yorur,
Fələyin işindən baş açılmırki?

Birisi ucalır, birisi enir,
Birisi alışır, birisi sönür,
Birisi kiriyir, birisi dinir,
Fələyin işindən baş açılmırki?

Birisi ağlayır, birisi gülür,
Birisi qanmayır, birisi bilir,
Birisi köç edir, birisi gəlir,
Fələyin işindən baş açılmırki?

Birisi asılır, birisi kəsir,
Birisi inciyir, birisi küsür,
Birisi qorxudur, birisi əsir, [578]
Fələyin işindən baş açılmırki?

Birisi boşalır, birisi dolur,
Birisi açılır, birisi solur,
Birisi qərq olub, xəyala dalır, [579]
Fələyin işindən baş açılmırki?

---

[578] Birisi ağadır, birisi yesir.
[579] Birisi satırsa, birisi alır.

Birisi düşünür, birisi qanır,
Birisi közərir, birisi yanır ,
Birisi calanır, birisi sınır,
Fələyin işindən baş açılmırki?

Biri zəifləyir, biri canlanır,
Biri kötəklənir, biri yanlanır ,
Biri təriflənir, biri danlanır,
Fələyin işindən baş açılmırki?

Bir yanda çeşmədir, bir yanda çaydır,
Bir yanda zimistan, bir yanda yaydır ,
Bir yanda kef-damaq, bir yanda vaydır,
Fələyin işindən baş açılmırki?

Birisi düzəldir, birisi əyir,
Birisi söyülür, birisi söyür,
Birisi döyülür, birisi döyür,
Fələyin işindən baş açılmırki?

Birisi düzəldir, birisi pozur,
Birisi düz deyir, birisi yozur,
Birisi düz gedir, birisi azır,
Fələyin işindən baş açılmırki?

Birisi sadədir, biri də xudbin,
Birisi əhli-kef, biri də bədbin,
Birisi gözəldir, biri də çirkin,
Fələyin işindən baş açılmırki?

Çox kəsən kəsilib, asan asılıb, [580]
Çox tutan tutulub, basan basılıb,
Çox sıxan sıxılıb, qısan qısılıb,
Fələyin işindən baş açılmırki?

---

[580] *II variant* Çox asanlar asılıbdı dünyada,
Sıxılıbdı, qısılıbdı dünyada,
Büdrəyibdi, yıxılıbdı dünyada,
Fələyin işindən baş açmaq olmur.

Arif olan uzaqları seyr edər,
Qasırğanı, sazaqları seyr edər,[581]
Məzlumları, yazıqları seyr edər,
Fələyin işindən baş açılmırki?

Hamı gərək hörmətini gözləyə,
İnsafını, mürvətini gözləyə,
Namusunu, qeyrətini gözləyə,
Fələyin işindən baş açılmırki?

Çox gədələr gəlib kişi olurlar,
Çox erkəklər gedib dişi olurlar,
Çox ariflər sonra naşı olurlar,
Fələyin işindən baş açılmırki?

Qalxan varsa, enən də var deyirlər,
Yanan varsa, sönən də var deyirlər,
Susan varsa, dinən də var deyirlər,
Fələyin işindən baş açılmırki?

Qanmaz varsa, qanan da var, qanan da,
Anmaz varsa, anan da var, anan da,
Donmaz varsa, donan da var, donan da,
Fələyin işindən baş açılmırki?

Doğulandan diləklərlə yaşadıq,
Eşq-həvəs, ürəklərlə yaşadıq,
Yorulmayan biləklərlə yaşadıq,
Fələyin işindən baş açılmırki?

Kimisi açılır, kimisi solur,
Kimisi boşalır, kimisi dolur,
Kimisi köç edir, kimisi qalır,
Fələyin işindən baş açılmırki?

***Cəmil Əkbər*** 29.05 – 1988

[581] Tufanları, sazaqları seyr edər.

## 106. AGAH OL!

Öz nəfsini, tamahını boğmasan,
Tamah səni boğacaqdır agah ol!
Savab işlə günahını yumasan,
Günah səni yuyacaqdır agah ol!

Kamalınla günəş kimi, doğmasan,
Qaranlığı, zülmətləri boğmasan,
Bulud kimi guruldayıb yağmasan,[582]
Zülmət səni boğacaqdır agah ol!

Öz qəlbindən iblisləri qovmasan,
Həşarəti, nacinsləri qovmasan,
Hərisləri, xəbisləri qovmasan,
İblis səni qovacaqdır agah ol!

Dilindəki ilanları əzməsən,
Xirtdəyimi qopartmasan, üzməsən,
Möhübləri dönə-dönə düzməsən,
İlan səni vuracaqdır agah ol![583]

Xainləri, xəbisləri atmasan,
Dəyərinə, dəyməzinə satmasan,
Dəstəsini dağıtmasan, qatmasan,
Xain səni atacaqdır agah ol![584]

---

[582] Guruldayıb, leysan töküb yağmasan.

[583] *II variant* Fitnə-fəsad, böhtanları vurmasan,
İblisləri, şeytanları qırmasan,
Ara qatan şər-xətanı yormasan,
Vurasılar vuracaqlar agah ol!

*III variant* Fitnə-fəsad, böhtanları qırmasan,
İblisləri, şeytanları qırmasan,
Qəflətlərdə yatanları qırmasan,
Böhtan səni qıracaqdır, agah ol!

[584] *II variant* Xainliyi, xəbisliyi atmasan,
Dəyərinə, dəyməzinə satmasan,
Acgözlüyü, hərisliyi yıxmasan,
Səni qovub tutacaqlar agah ol!

Höcət, inad, naqisləri yıxmasan,
Acgözləri, hərisləri sıxmasan,
Sinə gərib axırına çıxmasan,
Naqis səni yıxacaqdır, agah ol.[585]

Nadanları, avamları, qovmasan,
Bədniyyəti, bədxahları, qovmasan,
Gicbəsəri, axmaqları qovmasan,
Nadan səni qovacaqdır agah ol![586]

Səhər tezdən oyanmasan durmasan,
Zəmanəni qabaqlayıb, yormasan,
Hər işini səhih, səhman qurmasan,
Zaman səni yoracaqdır agah ol![587]

Dərk eyləyib anlamasan sözümü,
Yumursansa qulağını, gözünü,
Pozarsansa yolağını, izini,
Bir qanan anladacaqdır agah ol![588]

Gecəni-gündüzə qata bilməsən,
Səksənə-doxsana çata bilməsən,
Yeriyib-yüyürüb tuta bilməsən,
Gedən sənə çatacaqdır agah ol![589]

---

[585] *II variant* Xainliyi, xəbisliyi sıxmasan,
Doğru yolu, düzgün yolu tutmasan,
Məhv eyləyib axırına çıxmasan,
Axırına çıxacaqlar agah ol!

[586] *II variant* Nadanlığı, cəhaləti qovmasan,
Bədxahlığı, qəbahəti qovmasan,
Pis vərdişi, pis adəti qovmasan,
Onlar səni qovacaqdır agah ol!

[587] *II variant* Oyananda səhər tezdən durmasan,
İşlərini səhih, səhman qurmasan,
Zəmanəni qabaqlayıb, yormasan,
Zaman səni yoracaqdır agah ol!

[588] *II variant* Dərk eyləyib anlamasan sözümü,
Kötəkləyib yanlamasan özünü,
Qınayaraq danlamasan özünü,
Onlar səni qınayacaq agah ol!

Əqrəbləri, şeytanları qırmasan,
Tez-tələsik iliyini vurmasan,
Səadətin keşiyində durmasan,
Əqrəb səni çalacaqdır agah ol!

Görə-görə gözlərindən kor olsan,
Dilləri lal, qulaqları kar olsan,
İnsan ikən əqrəb olsan, mar olsan,
Bu korluq uçuracaqdır agah ol!

Nadanlıqdan əl çəkməsən, qaçmasan,
Qanad alıb havalanıb uçmasan,
Özgə yerə, özgə səmtə keçməsən,
Nadan səni pozacaqdır agah ol!

Saxtalıqdan uzaqlarda durmasan,
Çadırını kənarlarda qurmasan,
Gecə-gündüz öz-özünü yormasan,
Yalan səni əzəcəkdir agah ol!

Əl çəkməsən fitnələrdən, fellərdən,
Şər danışıb böhtan deyən dillərdən,
Qurtarmasan xain, xəbis əllərdən,
Fitnə-fellər üzəcəkdir agah ol!

Cəmil, çalış bu dünyanı gəz dolan,
Sinə gərib bərkə-boşa döz dolan,
Doğru hərlən, ömürboyu düz dolan,
Kimsə sənsiz gəzəcəkdir, agah ol![590]

***Cəmil Əkbər*** 18-19 // 05-1988

---

[589] *II variant* Gecələri gündüzlərə qatmasan,
Düz tuşlayıb hədəfinə atmasan,
Səksəninə, doxsanına çatmasan,
Onlar sənə atacaqdır agah ol!

[590] *II variant* Cəmil, çalış bu dünyanı gəz dolan,
Doğru hərlən, doğru yaşa, düz dolan,
Enişinə, yoxuşuna döz dolan,
Sən gəzməsən, gəzəcəklər agah ol!

***Əlavə bəndlər:*** Qansızlıqda yezitlərlə yarışma,
Haqsızlıqla ömürboyu barışma,
Xəbər alıb əhvalını soruşma,
Yezit səni qansız edər agah ol!

## 107. OLMUR

Çox çiçəklər açılır da, solur da,[591]
Meyvə tutumur, butağında bar olmur.
Azdan-çoxdan təravəti qalır da,
Hər butaqda heyva olmur, nar olmur.

Tum saxlayıb butaqlara bitişmir,
Tər qönçədə bülbülləri ötüşmür,
Vədə gəlir, zaman keçir, yetişmir,
Boya çatıb, başa gəlib bar olmur.[592]

Ləzət vermir, dadı, tamı bilinmir,[593]
Nə şərbəti, nə də camı bilinmir,
Nə zülalı, nə də şamı bilinmir,
Dildən-dilə, eldən elə car olmur.[594]

Məhəbbəti sönüklərdən dad-hazar,
Hər məzhəbə yönüklərdən dad-hazar,
İlqarına dönüklərdən dad-hazar,
Həmdəm olmur, yoldaş olmur, yar olmur.[595]

---

Qansorana, zəlilərə qoşulma,
Əqli-kəmə, dəlilərə qoşulma,
Dələduza, hiyləgərə qoşulma,
Zəli səni acgöz edər agah ol!

Yaltaq ilə ünsiyyətə girişmə,
Öyüd sənə, nəsihətə irişmə,
Civə kimi ora-bura sürüşmə,
Yaltaq səni yaltaq edər agah ol!

[591] *II variant* Çox çiçəklər açılsa da, solsa da,
Hər qönçədə meyvə tutumur, bar olmur.
Təravəti, məlahəti qalsa da,
Hər butaqda heyva olmur, nar olmur.

[592] *II variant* Tum saxlayıb butaqlara bitişmir,
Bəhsə düşüb bülbülləri ötüşmür,
Zaman keçir, vaxt ötüşür, yetişmir,
Başa gəlib yoldaş olmur, yar olmur.

[593] Süfrələrdə dadı, tamı bilinmir.

[594] Dilə düşmür, dişə düşmür, car olmur.

[595] *II variant* Məhəbbəti sönüklərə nə deyək?
Hər məzhəbə yönüklərə nə deyək?
İlqarına dönüklərə nə deyək?
Həmdəm olmur, yoldaş olmur, yar olmur.

Öz-özünə ədalanan olsa da,
Yersiz-yersiz gədalanan olsa da,
Haqq-nahaqdan sədalanan olsa da,
Hər zirvədə duman olmur, qar olmur.[596]

Çox enişi, yoxuşları görmüşük,
Yerli-yersiz baxşları görmüşük, [597]
Məzəmməti, qaxışları görmüşük,
Hər gədikdə tufan olmur, tar olmur.

Adam var ki, dağ xislətli olurlar,
Peyvənd olmuş bağ xislətli olurlar,
Təbiətən sağ xislətli olurlar,
El içində bədnam olmur, xar olmur.

Tərlan, şahin səmalarda qıy vurar,
Məsgən salıb zirvələrdə o durar,
Özü kimi balaların uçurar,
Yüz il keçsə bayquş olmur, sar olmur.

Arif olan gördüyünü götürür,
Bağban olub bağçasını bitirir,[598]
Estafeti əldən-ələ ötürür,
Görə-görə, bilə-bilə kar olmur.

Çoxlarının nur tökülür üzündən,
İnci axır, dürr tökülür sözündən,
Hünər yağır, tər tökülür izindən, [599]
Çoxlarında abır, həya, ar olmur.

---

[596] *II variant* Öz-özünə ədalanan çox olur,
Yersiz-yersiz gədalanan çox olur,
Orda-burda sədalanan çox olur,
Hər zirvədə duman olmur, qar olmur.

*III variant* Yerli-yersiz ədalanan çox olur,
Lovğalanan, gədalanan çox olur,
Haqlı-haqsız sədalanan çox olur,
Hər zirvədə duman olmur, qar olmur.

[597] Nəzərləri, baxşları görmüşük.
[598] Öz bağını peyvənd edir, bitirir.
[599] Leysan qopub, tər tökülür izindən.

Cəmil Əkbər, ulu dünya belədir,
Kimi ağa, kimi müti, kölədir,
Kimi zalım, kimi həlim, pilədir,
Hamı iblis, hamı əqrəb, mar olmur.

***Cəmil Əkbər*** 29-30 // 04 -1989

## 108. OLMUR

Mən necə ayrılım bu gözəl yerdən?
Qalmıram olmayır, qalıram olmur.
Həsrətlər əqlimi qoparır sərdən,
Xəyala dalmıram, dalıram olmur.[600]

Gözümün didəsi nəmə köklənir,
Eşqimin rübabı qəmə köklənir,[601]
Qəlbimin telləri bəmə köklənir,[602]
Çalıram olmayır, çalmıram olmur.

Gözəl xanımların ədasını mən,
Qaşının, gözünün qidasını mən,
Ərkinin, nazının qadasını mən,
Almıram olmayır, alıram olmur.[603]

---

[600] *II variant* Mən necə ayrılım bu gözəl yerdən?
Qalıram olmayır, qalmıram olmur.
Ovlayıb qəlbimi bir mina gərdən,
Yadıma salıram, salmıram olmur.

*II variant* Ayrılıq qəlbimi incidir yaman,
Gəlir gözlərimə qaranlıq duman,
Bir də görüşməyə yoxumdur güman,
Xəyala dalmıram, dalıram olmur

[601] Eşqimin telləri qəmə köklənir.

[602] Könlümün rübabı bəmə köklənir.

[603] *II variant* Gördükcə, duyduqca ədasını mən,
Ərkini, nazını, sədasını mən,_ Lalə yanaqların qidasını mən,
Dolanıb başına, qadasını mən,
Alıram olmayır, almıram olmur.

*III variant* Gördükcə, duyduqca ədasını mən,
1) Piyalə gözlərin qidasını mən, 2) Lalə yanaqların qidasını mən,
Qaymaq dodaqların qadasını mən,
Almıram olmayır, alıram olmur.

Kədərlə sinəmi dağlayıram mən,
Başıma qaralar bağlayıram mən,
Daşqın sellər kimi çağlayıram mən,[604]
Dolmuram olmayır, doluram olmur.[605]

Cahillə dalaşda keçdi günlərim,
Həyəcan, təlaşda keçdi günlərim,
Daxmada, "şalaşda" keçdi günlərim,
Yadıma salmıram, salıram olmur.

Ayrılıq könlümü külə döndərdi,
Dəqiqə, anımı ilə döndərdi,
Xəzana qərq olmuş gülə döndərdi,
Solmuram olmayır, soluram olmur.

Cəmili vəfasız tanımayın siz,
Eşidib bilənlər, qınamayın siz,
Nə bərkdə, nə boşda sınamayın siz,
Oluram olmayır, olmuram olmur.

***Cəmil Əkbər*** */Kiyev/* 9. 11 -1981

**109. OLAN YERDƏ**

Hörmət də, izzət də, pozulub gedər,[606]
Kəmağıl, sərsəri, gic olan yerdə.
Doğru da tərsinə yozulub gedər,
Hiyləgər, dələduz bic olan yerdə[607]

Pozular əhvalın, kefin-damağın,
Sarsıyar varlığın, artar məlalın,
Dağılar, puç olar huşun, xəyalın,
Sərsəri, kəmağıl, gic olan yerdə.

---

[604] 1) Durulub, bulanıb çağlayıram mən. 2) Dərya tək çalxanıb çağlayıram mən.

[605] *II variant* Eşq ilə sinəmi dağlamışam mən,
Məlhəmi qoymuşam, bağlamışam mən,
Ümman tək kükrəyib çağlamışam mən,
Doluram olmayır, dolmuram olmur.

[606] Xətir də, hörmət də pozulub gedər.

[607] *II variant* Qayda da, qanun da pozulub gedər,
Hiyləgər, dələduz bic olan yerdə.
Doğrular tərsinə yozulub gedər,
Fikirlər, xəyallar kəc olan yerdə.

Alim də, loğman da danışmaz susar,
Görünər gözlərə bisəmər, yassar,
Cahillər danışar, o qulaq asar,[608]
Əlində vəzifə, güc olan yerdə.[609]

Ünsiyyət pozular, qal-qovğa törər,
Bəşərin övladı zilləti görər,[610]
Alabaş tula da fillərə hürər,
Nadanın başında tac olan yerdə.[611]

İnsafdan, vicdandan tapılmaz əsər,
Ülfət-ünsiyyəti kökündən kəsər,
Qardaş da qardaşdan inciyib küsər,
Arzular, istəklər öc olan yerdə.[612]

Səxavət azalar, sədaqət olmaz,
Gözəllik, nəciblik, ləyaqət olmaz,
İncəlik, zəriflik, məlahət olmaz,
Əqidə, məsləklər kəc olan yerdə.

Mərd igidlər mövqeyində duranmaz,
Ləyaqətlə yaradanmaz, quranmaz,[613]
Mənzil kəsib, onu başa vuranmaz,[614]
Bədəməl, qəbahət, suç olan yerdə.[615]

---

[608] Cahillər nə desə, o qulaq asar.

[609] *II variant* Alim də, loğman lal olub susar,
Görünər gözlərə bisəmər, yasar,
Nadanlar nə desə o qulaq asar,
Cahilin qolunda güc olan yerdə.

[610] Bəşərin övladı zülməti görər.

[611] *II variant* Qəlbi dərdli olar, gözləri nəmli,
Düşmənlər sevinər, dostların qəmli,
Arif kökdən düşər, nadanlar dəmli,
Qanmazlar başına tac olan yerdə.

[612] *II variant* İnsanlıq naminə ləyaqət olmaz,
Səxavət, kəramət, sədaqət olmaz,
Nəciblik, zəriflik, nəzakət olmaz,
Arzular, istəklər öc olan yerdə.

[613] Kişi kimi yaradanmaz, quranmaz,

[614] Mənzil qət edib başa vuranmaz,

[615] *II variant* Pozular kef-damaq, puç olar cəlal,
Çoxalar qəm-qüssə, dərd-kədər, məlal,
Düşər aralığa xəta, qeylü-qal,
Qəbahət, bədəməl, suç olan yerdə.

Əsəblər korlanıb, qaralar qanlar,
Düşmənə çevrilər, dost-mehribanlar,[616]
Həryanı bürüyər ahlar, amanlar,[617]
Ədalət tapdanıb puç olan yerdə. [618]

Dərdini danışıb bəyan eyləmə,
Bildirib kimsəyə əyan eyləmə,
Sonradan sonraya dayan eyləmə,
İkinin yanında üç olan yerdə.

Cəmil yaxşıları yamana qatmaz,
Ölsə də insafı, vicdanı atmaz,[619]
Mərdlərdən əl çəkib, namərdi tutmaz,[620]
Ələnib saf-çürük, iç olan yerdə.

***Cəmil Əkbər*** 20.12 -1982 // 29. 08 -1984

## 110. OLMAYAN YERDƏ

*I variant*

Ola bilməz xoş güzəran, məhəbbət olmayan yerdə.
Sürən olmaz gözəl dövran, sədaqət olmayan yerdə. [621]
Kim götürər xətir-hörmət, səxavət olmayan yerdə?
Tapılarmı insaf-mürvət, kəramət olmayan yerdə?
Gözə dəyməz ədəb-ərkan, nəzakət olmayan yerdə.
Ünsiyyət-ülfət məqamı, mərhəmət olmayan yerdə.
Nə dostluq var, nə yoldaşlıq, fəzilət olmayan yerdə.
Ata-oğul, nə qardaşlıq, bu xislət olmayan yerdə.
Nə umu var, nə küsü var, xəyanət olmayan yerdə.

---

*III variant* Xanlar da, şahlarda mövqedən enir,
Alışıb yansa da qaralıb sönür,
Məhşər ayağında danışmır, sinir,
Bədəməl, qəbahət, suç olan yerdə.

[616] Çevrilər qənimə, dost-mehribanlar.

[617] 1) Seçilib tanınmaz, yaxşı-yamanlar, 2) Tapılıb bilinməz yaxşı-yamanlar,

[618] *II variant* İnsanın-insana hörməti olmaz,
İnsafı tükənər, mürvəti qalmaz,
Abırı, həyası, isməti olmaz,
1) Ədalət, həqiqət puç olan yerdə. 2) Etibar, etiqat puç olan yerdə.

[619] Ölüncə insafı, mürvəti atmaz.

[620] Mərdlərdən uzaşıb, namərdi tutmaz.

[621] Kim qazanıb şərəfli ad, sədaqət olmayan yerdə.

Dava olmaz, dalaş olmaz qəbahət olmayan yerdə.[622]
Nə xəta var, nə bəla var, cinayət olmayan yerdə.
Nə yazı var, nə pozu var, şikayət olmayan yerdə.
Nə külü var, nə tozu var, hekayət olmayan yerdə.
Nə həyəcan, nə təlaş var, ədavət olmayan yerdə.
Nə kölə var, nə də qul var, əsarət olmayan yerdə.
Nə inilti, nə sızıltı, xəsarət olmayan yerdə.
Nə hünər var, nə qələbə, cəsarət olmayan yerdə.
Nə alim var, nə tələbə, fərasət olmayan yerdə.
Kim tanınar, kim seçilər məharət olmayan yerdə?[623]
De kim yaşar, xoş gün görər, səadət olmayan yerdə?
De kim bitib, kim cücərər hərarət olmayan yerdə?
Doğru yola, düz cığıra, dəlalət olmayan yerdə?
De kim kimlə fəxr eyləyər, ləyaqət olmayan yerdə.[624]
İnsanlığa layiq olan, əlamət olmayan yerdə?
Nə kef vardır, nə də damaq, lətafət olmayan yerdə.
Ada-sana rövnəq verən, şərafət olmayan yerdə.
Nəciblikdən əsər olmaz, məlahət olmayan yerdə.
Qoxumazdı müşgü-ənbər, təravət olmayan yerdə.
Gözləməynən bin-bərəkət, zəhmətin olmayan yerdə.
Vətəninə, öz elinə, xidmətin olmayan yerdə.
O yerlərdə gəl dolaşma, qiymətin olmayan yerdə.
Yol gözləmə, nə boylanma, hikmətin olmayan yerdə.
Məclis də, bir məclis deyil, zərafət olmayan yerdə.
Qəlbə yatan, ruh oxşayan, ol afət olmayan yerdə.
Xeyirxahlıq itib-batar, saf ülfət olmayan yerdə.
Birbirinə həyan olan, məmləkət olmayan yerdə.
Tapılandöy ədəb-ərkan, mərifət olmayan yerdə.
Qayda-qanun, ədəb-ərkan, şəriət olmayan yerdə.
Gün keçirib, ömür sürmə, məziyyət olmayan yerdə.
Tənhalıqda insan nədir, cəmiyyət olmayan yerdə.[625]
Cəmil Əkbər can çürütmə, həqiqət olmayan yerdə.
Sağlam arzu, saf düşüncə, pak niyyət olmayan yerdə

***Cəmil Əkbər*** 14-15 / 08 – 1989

---

[622] Nə dava var, nə dalaş var, qəbahət olmayan yerdə.
[623] Kim tablaşıb, kim dayanar məharət olmayan yerdə.
[624] De kim kimdən ləzzət alar, ləyaqət olmayan yerdə.
[625] Özün de nəyə gərəksən, cəmiyyət olmayan yerdə.

## 111. OLMAYAN YERDƏ

*II variant*

Görən varmı xoş güzəran, məhəbbət olmayan yerdə?
Sürən varmı gözəl dövran, sədaqət olmayan yerdə?[626]
Tapılarmı xətir-hörmət, səxavət olmayan yerdə?
Görünərmi insaf-mürvət, kəramət olmayan yerdə?[627]
Ədəb-ərkan gözlənərmi, nəzakət olmayan yerdə?
Nə azğın var, nə pozğun var, xəyanət olmayan yerdə,
Nə ağa var, nə də qul var, əsarət olmayan yerdə?
Nə əylənin, nə dayanın, məharət olmayan yerdə.
Kim ayılar, kim oyanar,  hərarət olmayan yerdə?
Kim həzz alar, ləzzət alar, ləyaqət olmayan yerdə?
Dad olmayan, tam olmayan, lətafət olmayan yerdə.
Nəciblikdən əsər yoxsa, məlahət olmayan yerdə.
De harda olar müşk-ənbər, təravət olmayan yerdə?
Olarmı heç bin-bərəkət, de zəhmət olmayan yerdə?
Öz xalqına, Vətəninə, de xidmət olmayan yerdə?
Yaxşı-yaman seçilərmi, de qiymət olmayan yerdə?
Boya xələt biçilərmi, bu hikmət olmayan yerdə?
De kim-kimdən məzələnər, zərafət olmayan yerdə?
Cəmil Əkbər can çürütmə, mərifət olmayan yerdə,
Gəl söz açma təriqətdən, şəriət olmayan yerdə.

***Cəmil Əkbər*** 15.08 – 1989

## 112. OLMAYAN YERDƏ

*III variant*

Deyin varmı xoş güzəran, məhəbbət olmayan yerdə?
Kimdi sürən gözəl dövran, bu hikmət olmayan yerdə?
Hatəm kimi süfrə açıb, səxavət olmayan yerdə?[628]
Kimdə olub insaf-mürvət, kəramət olmayan yerdə?[629]
Ünsiyyətdə, ülfətlərdə, məlahət olmayan yerdə?[630]
Nə inam var, nə etiqad, ədalət olmayan yerdə.[631]
Söz-söhbətdə doğru-düzlük, həqiqət olmayan yerdə.

---

[626] Kimdi sürən gözəl dövran, sədaqət  olmayan yerdə?
[627] Haradadır insaf-mürvət, kəramət olmayan yerdə.
[628] Hatəm olub, süfrə açıb səxavət olmayan yerdə.
[629] Hanı insaf, hanı mürvət, kəramət olmayan yerdə?
[630] Ya nəciblik, ya alilik, məlahət olmayan yerdə.
[631] Nə vəfa var, nə etibar, həqiqət olmayan yerdə.

Nə dostluq var, nə yoldaşlıq, fəzilət olmayan yerdə.[632]
Nə qardaşlıq, nə çağdaşlıq, bu xislət olmayan yerdə.
Nə cücərər, nə də çıxar, hərarət olmayan yerdə?!
Nə xeyir var, nə bərəkət, hərəkət olmayan yerdə?!
Nə hünər var, nə zəfər var, cəsarət olmayan yerdə?!
Mərd igidə məxsus olan, fərasət olmayan yerdə.
Kimdi səni sayan denən, məharət olmayan yerdə?
Qılıncında, qalxanında kəsarət olmayan yerdə?
Nə alim var, nə tələbə, qiraət olmayan yerdə.
Ustadlardan şagirdlərə, sirayət olmayan yerdə.
Düzələndöy bəşər oğlu, şəriət olmayan yerdə.
Din-məzhəbə xidmət edən, təriqət olmayan yerdə.
Qıtlaşacaq nazü-nemət, qənaət olmayan yerdə.
Kəllədarla həmrəy olan, ziraət olmayan yerdə.
Nə ad axtar, nə san axtar, şərafət olmayan yerdə.
Dözüm-durum, iradəylə, qətiyyət olmayan yerdə.
Ayaq basıb ora getmə, nəzakət olmayan yerdə.
Ünsiyyətə rövnəq verən əlamət olmayan yerdə.
Nə azadlıq, nə bəraət, səadət olmayan yerdə.
Yön alaraq ora getmə məlahət olmayan yerdə.
Nə bacarsan uzaqda gəz, mərifət olmayan yerdə.
Rəva deyil gün keçirmək, mərhəmət olmayan yerdə.
Dad azalar, tam azalar, lətafət olmayan yerdə.
Nə gülüş var, nə məzhəkə, zərafət olmayan yerdə.
Nə oturun, nə də durun, ləyaqət olmayan yerdə.[633]
Qəlbə yatan, ruh oxşayan, ol afət olmayan yerdə.
Olan deyil bin-bərəkət, ol zəhmət olmayan yerdə.
Vətən üçün, xalqın üçün, ol xidmət olmayan yerdə.
Düşəcəksən eşq-həvəsdən, qiymətin olmayan yerdə.
Sağlam fikir, düşüncədən, niyyətin olmayan yerdə.
Cəmil Əkbər yazıb yarat, şikayət olmayan yerdə,
Kin-küdurət, qəzəb-hiddət, ədavət olmayan yerdə,
Ünsiyyətdə-ülfətlərdə qəbahət olmayan yerdə,
Nadanlıqlar, avamlıqlar, cəhalət olmayan yerdə.

***Cəmil Əkbər*** 26. 06 -1996

---

[632] Nə qardaşlıq, nə çağdaşlıq, bu xislət olmayan yerdə.
[633] Heçkimsədən umub küsmə, ləyaqət olmayan yerdə.

## 113. OLMAYAN YERDƏ

*IV variant*

Deyin varmı xoş güzəran, məhəbbət olmayan yerdə?
Hatəm olub, süfrə açıb səxavət olmayan yerdə?
Ya nəciblik, ya alilik, məlahət olmayan yerdə?
Nə vəfa var, nə etibar, həqiqət olmayan yerdə.
Nə dostluq var, nə yoldaşlıq, fəzilət olmayan yerdə
Nə qardaşlıq, nə çağdaşlıq, bu xislət olmayan yerdə.
Nə həyəcan, təlaş olmaz, ədavət olmayan yerdə.
Nə qəsd olar, nə də qərəz, xəyanət olmayan yerdə.
Nə asmaq var, nə kəsmək var, cinayət olmayan yerdə.
Nə cücərər, nə də çıxar, hərarət olmayan yerdə.
Nə sellənər, nə də axar, hərəkət olmayan yerdə.
Nə göyərər, nə də bitər, fərasət olmayan yerdə.
Nə tapılar, nə də itər, cəsarət olmayan yerdə.
Nə zəfər var, nə qələbə, məharət olmayan yerdə.
Nə alim var, nə tələbə, qiraət olmayan yerdə.
Nə azadlıq, nə bəraət, səadət olmayan yerdə.
Nə molla var, nə qazı var, ziraət olmayan yerdə.
Könül açan iş görülməz, mətanət olmayan yerdə.
Dözüm-durum, nə iradə, dəyanət olmayan yerdə.
Dad azalar, tam azalar, lətafət olmayan yerdə.
Nə gülüş var, nə məzhəkə, zərafət olmayan yerdə.
Nə oturun, nə də durun, şərafət olmayan yerdə.
Qəlbə yatan, ruh oxşayan, ol afət olmayan yerdə.
Ömür-günü hədər vermə, mərifət olmayan yerdə.
Ünsiyyət, ülfət zamanı, nəzakət olmayan yerdə.
Nə əylənin, nə də qalın, mərhəmət olmayan yerdə.
Nə yaşayın, nə də olun, məmləkət olmayan yerdə.
Ömür sürüb, gün keçirmə, məziyyət olmayan yerdə.
Nəyə gərəkdi tənhalıq, cəmiyyət olmayan yerdə.
Olarmı heç bin-bərəkət, zəhmətin olmayan yerdə.
Vətən üçün, xalqın üçün, xidmətin olmayan yerdə.
Düşəcəksən eşq-həvəsdən, qiymətin olmayan yerdə.
Sağlam arzu, saf düşüncə, niyyətin olmayan yerdə.
Cəmil Əkbər, gendə dolan, ləyaqət olmayan yerdə.
İnsanlığa məxsus olan, əlamət olmayan yerdə.

***Cəmil Əkbər*** 16. 08 – 1989

## 114. OLMAYAN YERDƏ

*V variant*

Keçən ömür, gün hədərdir, ədalət olmayan yerdə.
Çıxarılan ün hədərdir, həqiqət olmayan yerdə.
Nə kef vardır, nə də damaq, ləyaqət olmayan yerdə.
Nə gün vardır, nə güzəran, mərifət olmayan yerdə.
Tapılandöy ədəb-ərkan, nəzakət olmayan yerdə.
Nə savad var, nə bilik var, qiraət olmayan yerdə.
Çıxanmarıq cəhalətdən, məharət olmayan yerdə.[634]
Pozulacaq əhdi-peyman, sədaqət olmayan yerdə.
Ünsiyyətdə “görüm-baxım”, səxavət olmayan yerdə.
Azadlıqdan bir nişanə, səadət olmayan yerdə.
Xətir-hörmət, insaf-mürvət, kəramət olmayan yerdə.
Tükənəcək var da, hal da qənaət olmayan yerdə.
Oğru-əyri, utanmayan, xəcalət olmayan yerdə.
Kəllədarla zəhmət çəkən, ziraət olmayan yerdə.
İnsanoğlu düşər zülmə, fəzilət olmayan yerdə.
Mehri-ülfət, səmimilik, məhəbbət olmayan yerdə.
Nə oturma, nə də durma, şəriət olmayan yerdə.
Nə ad axtar, nə san axtar, şərafət olmayan yerdə.
Nə bülbül var, nədə gül var, təravət olmayan yerdə.[635]
Nə həyat var, nə büsat var, məlahət olmayan yerdə.
Nə tərəqqi, nə surət var, cəsarət olmayan yerdə.
Bacarıqla, qoçaqlıqla, fərasət olmayan yerdə.
Bərk ayaqda dözüm-durum, dəyanət olmayan yerdə.
Yenilməyən iradəylə, qətiyyət olmayan yerdə.
Qılıncında, qalxanında, kəsarət olmayan yerdə.
Nə silah, nə top-tüfəng, cəmiyyət olmayan yerdə.
Nə qovğa, nə dava-dalaş, ədavət olmayan yerdə.
Nə qəza, xəta-bəla var, qəbahət olmayan yerdə.
Giley-güzar, dedi-qodu, şikayət olmayan yerdə.
Cəmil Əkbər nə işin var, pak niyyət olmayan yerdə?
Sağlam arzu, ülvi istək, ünsiyyət olmayan yerdə.
Həyat üçün nicat verən bu nüsrət olmayan yerdə.
Bu dünyadan əlini çək, bu halət olmayan yerdə.

---

[634] Çıxanmarıq cəhalətdən, bu hikmət olmayan yerdə.
[635] Bağçalarda bülbül susar, təravət olmayan yerdə.

Əqidədən, pak amaldan, hərarət olmayan yerdə.
Görən varmı, gün keçirək, küdurət olmayan yerdə.
Yer üzündə belə vərdiş, bu adət olmayan yerdə.[636]

***Cəmil Əkbər*** 26. 06-1996

## 115. OLMAYAN YERDƏ

*VI variant*

Keçən ömür, gün hədərdir, mərifət olmayan yerdə.
Çəkdiyimiz qəm-kədərdir, ləyaqət olmayan yerdə.
Nə xeyir var, nə bərəkət ədalət olmayan yerdə.
Azad olmaz nə məmləkət, həqiqət olmayan yerdə.
Nə qanun var, nə qayda var nəzakət olmayan yerdə.
Heçkimsəyə bir fayda yox, fəzilət olmayan yerdə.
Əhdi-peyman, doğru ilqar, sədaqət olmayan yerdə.
Vicdan, məslək, insaf-mürvət, səxavət olmayan yerdə.
Nə eşq-həvəs, nə istək var, məhəbbət olmayan yerdə.
Nə qələbə, nə zəfər yox, cəsarət olmayan yerdə.
Mərd igidə məxsus olan, fərasət olmayan yerdə.
Qılıncında, qalxanında, kəsarət olmayan yerdə,
Heçkimsədən umub-küsmə, dəyanət olmayan yerdə.
Dözüm-durum, iradəylə, qətiyyət olmayan yerdə.
Cəhalətdən çıxanmarıq, qiraət olmayan yerdə.
Qıtlaşacaq nazü-nemət, qənaət olmayan yerdə.
Kəlladarla əlbir olan, ziraət olmayan yerdə.
Oğru-əyri, quldurbaşı, xəcalət olmayan yerdə.
Zalımlara, qansızlara zəlalət olmayan yerdə.
Düzələndöy bəşər oğlu şəriət olmayan yerdə.
Din-məzhəbə qulluq edən, təriqət olmayan yerdə.
Sağlam fikir el-obaya, sirayət olmayan yerdə.
Nə ad axtar, nə san axtar, şərafət olmayan yerdə.
Nə gün axtar, nə güzəran, məharət olmayan yerdə.
Nə inam var, nə etiqat, ziraət olmayan yerdə,
İnsanlardan-insanlara, kəramət olmayan yerdə.
Ünsiyyətə rövnəq verən, əlamət olmayan yerdə.
Ayaq basıb ora getmə, təravət olmayan yerdə.
Zərifl ikdən bir nişanə, məlahət olmayan yerdə.

[636] Yer üzündə xəta-bəla, qəbahət olmayan yerdə.

Könüllərin diyarında, hərarət olmayan yerdə.
Nə bacarsan uzaqda gəz, məziyyət olmayan yerdə.
Rəva deyil gün keçirmək, pak niyyət olmayan yerdə.
Cəmil Əkbər yazıb-yarat, şikayət olmayan yerdə.
Ürəklərdə kin-küdurət, ədavət olmayan yerdə.
Ünsiyyətdə, ülfətlərdə qəbahət olmayan yerdə.
Dava-dalaş, qal-qovğalar, fəlakət olmayan yerdə.
Törədilən xəta-bəla, müsibət olmayan yerdə.
Avamlıqlar, nadanlıqlar, cəhalət olmayan yerdə.
Ömür-günü gəl çürütmə, səadət olmayan yerdə.
Qəlbə yatan ənənələr, xoş adət olmayan yerdə.
Nə yaraq var, top-tüfəng, cəmiyyət olmayan yerdə.
Birbirinə qənim çıxsın, bu xilqət olmayan yerdə.
Düzələndöy cahan mülkü, xoş halət olmayan yerdə.
Bəşər oğlu haqq yoluna, dəlalət olmayan yerdə.

***Cəmil Əkbər*** 26. 06 -1996

**116. OLMAYAN YERDƏ**

*VII variant*

Keçən ömür, gün hədərdir, mərifət olmayan yerdə.
Çəkdiyimiz qəm-kədərdir, ləyaqət olmayan yerdə.
Nələr çəkir yazıq bəşər, ədalət olmayan yerdə?
Ünsiyyətə rövnəq verən həqiqət olmayan yerdə?
Nə abır gəz, nə də ismət, nəzakət olmayan yerdə,
Tapılandöy halal qismət, bu xidmət olmayan yerdə.
Nə xeyir var, nə bərəkət, fəzilət olmayan yerdə.
Məna dolu, məzmun dolu, bu hikmət olmayan yerdə.
Düzələndöy ünsiyyət də, sədaqət olmayan yerdə.
İnsanlardan-insanlara səxavət olmayan yerdə.
Nə şeir var, nə də sənət, məhəbbət olmayan yerdə.
İşdə-gücdə, əməllərdə, lətafət olmayan yerdə.
Kimdi deyin zəfər çalan, cəsarət olmayan yerdə.
Bacarıq, bilik-fəhm ilə, fərasət olmayan yerdə.
Qollarında, dizlərində, dəyanət olmayan yerdə.
Qılıncında, qalxanında, kəsarət olmayan yerdə.
Dözüm-durum iradəylə, qətiyyət olmayan yerdə.
Kimdi çıxan cəhalətdən, qiraət olmayan yerdə.
Qəhətləşər yemək-içmək, qənaət olmayan yerdə.

Kəllədarla zəhmət çəkən, ziraət olmayan yerdə.
Düzələndöy, qayda-qanun, şəriət olmayan yerdə.
Din-məzhəbə xidmət edən, təriqət olmayan yerdə.
Bəşər oğlu haqq yoluna dəlalət olmayan yerdə.
Nə ad axtar, nə san axtar, şərafət olmayan yerdə.
Mətanət olmayan yerdə, məharət olmayan yerdə.
Nə inam var, nə etiqad, ziyarət olmayan yerdə.
İqtidar olmayan yerdə, sədarət olmayan yerdə.
Mehri-ülfət, səmimilik, əlamət olmayan yerdə.
Gözəl, zərif ənənəylə, xoş adət olmayan yerdə.
Könüllərin diyarında hərarət olmayan yerdə.
Nə işin var Cəmil Əkbər məziyyət olmayan yerdə?
Ünsiyyət-ülfət məqamı, keyfiyyət olmayan yerdə?
Karvanı sür, məskəni sal, şikayət olmayan yerdə.
Ürəklərdə kin-küdurət, ədavət olmayan yerdə.
Paxıllıqlar, xainliklər, qəbahət olmayan yerdə.
Dava-dalaş, qal-qovğalar, fəlakət olmayan yerdə.
Avamlıqlar, nadanlıqlar, cəhalət olmayan yerdə.
Heç oturma, nə də durma, sədaqət olmayan yerdə.
Ağıl-kamal, düşüncələr, siraət olmayan yerdə.
Nə işin var, əylənirsən bil nüsrət olmayan yerdə.
Sağlam fikir, düşüncələr, bu hikmət olmayan yerdə.

***Cəmil Əkbər*** 1. 07 -1996

**117. OLMAYAN YERDƏ**

*VIII variant*

Nə həyatdır, nə ömürdür, ədalət olmayan yerdə?
Kimdi verən, nə əmrdir, həqiqət olmayan yerdə?
Nə xətir var, nə hörmət var, nəzakət olmayan yerdə.
Mehri-ülfət, səmimiyyət mərifət olmayan yerdə.
Deyin kimdi vəcdə gələn, qiyafət olmayan yerdə?
Qəlbə yatan, ruh oxşayan, ol afət olmayan yerdə?
Şeyda bülbül fəqan etməz, təravət olmayan yerdə.
Tər qönçədən ətir saçan məlahət olmayan yerdə.
Çatan kimdir ada-sana, ləyaqət olmayan yerdə.
Nə Koroğlu, nə Babək var, şücaət olmayan yerdə.
Çətin işdə, dar məqamda, cəsarət olmayan yerdə.
Fəhm ilə, fərasətlə, məharət olmayan yerdə.

Kimdi bilən, kimdi görən, səyyahət olmayan yerdə.
Elə doğru xəbər verən, bəyanət olmayan yerdə.
Abad olmaz məmləkət də, hidayət olmayan yerdə.
Elə, xalqa, bu bəşərə, himayət olmayan yerdə.
Qanunlara, qaydalara riayət olmayan yerdə.
Ustadlardan şagirdlərə, sirayət olmayan yerdə.
Nə sənət var, nə sənətkar, məhəbbət olmayan yerdə.
Seviləndən-sevənlərə, ənaət olmayan yerdə.
Nə hünər var, nə zəfər var, dəyanət olmayan yerdə.
Dözüm-durum iradəylə, qətiyyət olmayan yerdə.
Düzələndöy bəşər oğlu, bu halət olmayan yerdə.
Gözəl vərdiş, ənənələr, bu adət olmayan yerdə.
Hatəmlərin yadigarı, səxavət olmayan yerdə.
Tükənər xeyir-bərəkət, qənaət olmayan yerdə.
Kəllədarla həmrəy olan, ziraət olmayan yerdə.
Kimdi baxan yol-ərkana, şəriət olmayan yerdə?
Din-məzhəbə xidmət edən, təriqət olmayan yerdə?
Kimdi sayan ağsaqqalı, xilafət  olmayan yerdə?
Nəcabətdə, nəsillərdə şan-şöhrət olmayan yerdə?
Əbəs yerə yol gözləmə, bu xidmət olmayan yerdə.
Beylə yardım, beylə nicat, bu nüsrət olmayan yerdə.
Nə hakim var, nə də məhkum cəmiyyət olmayan yerdə.
Yer üzündə ali məxluq, bu xilqət olmayan yerdə.
Kimdi sənə bəli deyən, fərasət olmayan yerdə.
Qılıncında, qalxanında kəsarət olmayan yerdə.
Kara gəlmir əkin-səpin, şərait olmayan yerdə.
Münbit torpaq, abı-hava, bu mühit olmayan yerdə.
Ürəklərdə kin-küdurət, ədavət olmayan yerdə.
Xainliklər, xəbisliklər, xəyanət olmayan yerdə.
Kovxa, darğa, nə xan, nə bəy, əsarət olmayan yerdə.
Törədilən xəta, bəla, xəsarət olmayan yerdə.
Giley-güzar, dedi-qodu, şikayət olmayan yerdə.
Avamlıqdan zühur eyləyən, bu qələt olmayan yerdə.
Oğru-əyri, quldurbaşı, cinayət olmayan yerdə.
Rüsvayçılıq, bədnamçılıq, xəcalət olmayan yerdə.

***Cəmil Əkbər*** 5. 07 – 1996

## 118. OLMAYAN YERDƏ

*IX variant*

Adəm oğlu hər iş görər, ədalət olmayan yerdə.
Böhtan atar, şər iş görər həqiqət olmayan yerdə.
Düz gedənməz, yolu azar, sədaqət olmayan yerdə.
Birbirinə qəbir qazar, fəzilət olmayan yerdə.
Könül açan bir iş görməz, ləyaqət olmayan yerdə.
Vətən üçün bir nişanə, əlamət olmayan yerdə.
Gündən-günə azğınlaşar, səxavət olmayan yerdə.
Gedə-gedə pozğunlaşar, kəramət olmayan yerdə.
Evlər yıxar, ara vurar mərhəmət olmayan yerdə.
Kələk gəlib tor da qurar, xoş adət olmayan yerdə.
Nəciblikdən əsər olmaz, məlahət olmayan yerdə.
Ünsiyyətdə kəsir olmaz, nəzakət olmayan yerdə.
Cəmil Əkbər gün keçirməz, bu hikmət olmayan yerdə.
Kef eyləyib, dövran sürməz, cəmiyyət olmayan yerdə.

***Cəmil Əkbər***

## 119. OLMAYAN YERDƏ

*X variant*

Nə gün vardır, nə güzəran, məhəbbət olmayan yerdə,
Nə yetişən, nə qızaran, sədaqət olmayan yerdə.
Nə xətir var, nə də hörmət, səxavət olmayan yerdə,
Nə insaf var, nə də mürvət, ləyaqət olmayan yerdə.
Nə xeyir bin-bərəkət var, həqiqət olmayan yerdə,
Nə məmləkət, nə cəmiyyət, ədalət olmayan yerdə.
Nə ülfət var, nə ünsiyyət, səmimyət olmayan yerdə,
Nə xoş arzu, nə də istək, fəzilət olmayan yerdə.
Nə oturun, nə də durun, mərhəmət olmayan yerdə,
Nə yaradın, nə də qurun, şərafət olmayan yerdə.
Nə ayılın, nə oyanın, cəsarət olmayan yerdə,
Nə məna var, nə məzmun var, dəyanət olmayan yerdə.
Nə azğın var, nə pozğun var, xəyanət olmayan yerdə,
Nə dava var, nə dalaş var, qəbahət olmayan yerdə.
Kin- küdurət, nifrət, qəzəb var, ədavət olmayan yerdə,
Cəmil Əkbər nə işin var, kəramət olmayan yerdə?
İnsanlığa layiq olan əlamət olmayan yerdə?

***Cəmil Əkbər*** 15.08 -1989

## 120. OLAN YERDƏ

Xətir də, hörmət də pozulub gedər,[637]
Kəmağıl, sərsəri, gic olan yerdə.
Doğru da tərsinə yozulub gedər,
Hiyləgər, dələduz bic olan yerdə.[638]

Alim də, loğman da danışmaz susar,
Görünər gözlərə bisəmər, yassar,
Cahillər danışar, o qulaq asar,
Əlində vəzifə, güc olan yerdə.[639]

Ünsiyyət pozular, qal-qovğa törər,
Bəşərin övladı zülməti görər,
Alabaş tula da fillərə hürər,
Nadanlar başında tac olan yerdə.[640]

---

[637] Hörmət də, izzət də, pozulub gedər.

[638] *II variant*
Qayda da, qanun da pozulub gedər,
Hiyləgər, dələduz bic olan yerdə.
Doğrular tərsinə yozulub gedər,
Fikirlər, xəyallar kəc olan yerdə.

*III variant*
Pozular əhvalın, kefin-damağın,
Sarsıyar varlığın, artar məlalın,
Dağılar, puç olar huşun, xəyalın,
Sərsəri, kəmağıl, gic olan yerdə.

[639] *II variant*
Alim də, loğman lal olub susar,
Görünər gözlərə bisəmər, yasar,
1) Cahillər nə desə, o qulaq asar, 2) Nadanlar nə desə o qulaq asar,
1) Qolunda hökmündə, güc olan yerdə. 2) Cahilin qolunda güc olan yerdə.

[640] *II variant*
Ünsiyyət pozulub, qal-qovğa törər,
Alabaş küçüklər fillərə hürər,
Bəşərin övladı zilləti görər,
Nadanın başında tac olan yerdə.

*III variant*
Qəlbi dərdli olar, gözləri nəmli,
Düşmənlər sevinər, dostların qəmli,
Arif kökdən düşər, nadanlar dəmli,
Qanmazlar başına tac olan yerdə.

İnsafdan, vicdandan tapılmaz əsər,[641]
Ülfət-ünsiyyəti kökündən kəsər,
Qardaş da qardaşdan inciyib küsər,
Əqidə, məsləklər öc olan yerdə.[642]

Səxavət azalar, sədaqət olmaz,[643]
Gözəllik, nəciblik, ləyaqət olmaz,
İncəlik, zəriflik, məlahət olmaz,
Arzular, istəklər kəc olan yerdə.[644]

Mərd igidlər mövqeyində duranmaz,
Ləyaqətlə yaradanmaz, quranmaz,[645]
Mənzil kəsib, onu başa vuranmaz,[646]
Bədəməl, qəbahət, suç olan yerdə.[647]

---

[641] İnsafdan mürvətdən tapılmaz əsər.

[642] *II variant*

İnsanlıq naminə ləyaqət olmaz,
Səxavət, kəramət, sədaqət olmaz,
Nəciblik, zəriflik, nəzakət olmaz,
Arzular, istəklər öc olan yerdə.

*III variant*

Haqdan, ədalətdən tapılmaz əsər,
Qardaş da qardaşdan inciyib küsər,
Ülfət-ünsiyyəti kökündən kəsər,
İnsan birbirinə öc olan yerdə.

*IV variant*

İnsanam deyəndə sədaqət olmaz,
Ülviyyət, qüdsiyyət, ləyaqət olmaz,
Nəciblik, zəriflik, məlahət olmaz,
Arzular, istəklər öc olan yerdə.

[643] Könüllər mülkündə sədaqət olmaz.

[644] Əqidə, məsləklər kəc olan yerdə.

[645] 1) Məharətlə yaradanmaz, quranmaz. 2) Kişi kimi yaradanmaz, quranmaz.

[646] Mənzili, məkanı başa vuranmaz.

[647] *II variant*

Pozular kef-damaq, puç olar cəlal,
Çoxalar qəm-qüssə, dərd-kədər, məlal,
Düşər aralığa xəta, qeylü-qal,
Qəbahət, bədəməl, suç olan yerdə.

*III variant*

Xanlar da, şahlarda mövqedən enir,
Alışıb yansada qaralıb sönür,
Məhşər ayağında danışmır, sinir,
Qəbahət, bədəməl, suç olan yerdə.

Əsəblər korlanıb, qaralar qanlar,
Düşmənə çevrilər, dost-mehribanlar,
Həryanı bürüyər ahlar, amanlar, [648]
Ədalət tapdanıb puç olan yerdə.[649]

Dərdini danışıb bəyan eyləmə,
Bildirib kimsəyə əyan eyləmə,
Sonradan-sonraya dayan eyləmə,
İkinin yanında üç olan yerdə.

Cəmil yaxşıları yamana qatmaz,
Ölsə də insafı, vicdanı atmaz,[650]
Mərdlərdən əl çəkib, namərdi tutmaz,[651]
Əl定nib saf-çürük, iç olan yerdə.

***Cəmil Əkbər*** 20. 12 -1982 // 29. 08 -1984

### 121. OLMASIN

*I variant*

Ülfət edək o insanla, söhbət qədri bilinsin,
Aralıqda giley-güzar, qeyri bir hal olmasın.

Ünsiyyətdə xətir-hörmət, mürvət qədri bilinsin,
Kin-küdurət, qəzəb, nifrət, qüssə, məlal olmasın.

Qurban olaq o canana, qeyrət qədri bilinsin,
Fikir çəkib, qəm yeməsin, qaməti dal olmasın.

Qoy arılar beçə versin, uçub qonsun çəmənə,
Sorduqları zülal olsun, çəkdiyi kal olmasın.

---

[648] Seçilib tanınmaz, yaxşı-yamanlar.

[649] *II variant*
Əsəblər korlanıb, qaralar qanlar,
Çevrilər qənimə, dost-mehribanlar,
Tapılıb bilinməz yaxşı-yamanlar,
Ədalət, həqiqət puç olan yerdə.

*III variant*
İnsanın-insana hörməti olmaz,
İnsafı tükənər, mürvəti qalmaz,
Abırı, həyası, isməti olmaz,
Etibar, etiqat puç olan yerdə.

[650] Ölüncə insafı, mürvəti atmaz.

[651] Mərdlərdən uzaşıb, namərdi tutmaz.

Elə danış, elə din ki, məna, məzmun bilinsin,[652]
Xain-xəbis, mərdimazar, nə də kahal olmasın.

Qismət olub eysüd əmə, hərbir kimsə anadan,
Süni maya, "malış" əmən, bircə cahal olmasın.

Əzəl gündən eşq-həvəs, məhəbbətlə dolanaq,
Aşiq olub vurulduğun, özgə vüsal olmasın.

Ötüb-keçən qərinələr, biz görməyək davanı,[653]
Salınmasın dava-dalaş, nə qovğa-qal olmasın.

Gəşt eyləyib bu dünyanı, sədaqətlə dolanaq,
Qəlbimizdə möhnət yükü, nə də zaval olmasın.

Könüllərdən-könüllərə peyvənd olub calanaq,
Özgə fikir, düşüncələr, başqa xəyal olmasın.

Eylə edək bu vətənin torpağını, daşını,
Heç bir yerdə beylə diyar, beylə mahal olmasın.

Zəhmət çəkib tər də tökək, kamal ilə dolanaq,
Sərsəm fikir, düşüncələr, özgə bir hal olmasın.

Eylə yazaq, yaradaq ki, ellər alsın oxusun,
Müğənnilər vəcdə gəlsin, zəbanı lal olmasın.

Cəmil Əkbər eylə çalış, ellər versin qiyməti,
Saxta tərif, nə nömrələr, nədə ki, xal olmasın.

***Cəmil Əkbər*** 11. 01 – 1989

**122. OLMASIN**

*II variant*

Mən istərdim hərbirkəsdən, ülfət qədri bilinsin,
Aralıqda giley-güzar, nə qeylü-qal olmasın.

Xətir-hörmət gözlənilsin, mürvət qədri bilinsin,
Özgə fikir, özgə söhbət, özgə xəyal olmasın.

---

[652] Elə danış, elə din ki, söhbət qədri bilinsin.
[653] Ötüb-keçsə qərinələr, biz görməyək davanı.

Qulluq edək ar-namusa, qeyrət qədri bilinsin,
Fikir çəkib, qəm yeməsin, qaməti dal olmasın.

Qoy arılar şövqə gəlsin, uçub qonsun çəmənə,
Sorduqları zülal olsun şanında kal olmasın.

Eylə dinib danışaq ki, söhbət qədri bilinsin,
Bircə nəfər söz qanmayan, nə də kahal olmasın.

Qismət ola eysüd əmə, hərbir kimsə anadan,
Süni maya, "Malış" əmən bircə cahal olmasın.

Əzəl gündən axıradək məhəbbətlə dolanaq,
Candan keçib vurulduğun, özgə vüsal olmasın.

Ötüb keçsin qərinələr, aylar-illər davası,
Törənməsin dava-dalaş, nə qovğa-qal olmasın.

Gəşt eyləyib bu dünyada səxavətlə dolanaq,
Qəlbimizdə möhnət yükü, nə də zaval olmasın.

Eylə edək bu Vətənin torpağını, daşını,
Heç bir yerdə, nə diyarda beylə mahal olmasın.

Bu dünyanı seyrə çıxaq, kamal ilə dolanaq,
Sərsəm fikir, səhv düşüncə, özgə bir hal olmasın.

Eylə yazıb-yaradaq ki, ellər alsın, oxusun,
Müğənnilər vəcdə gəlsin, ilhamı lal olmasın.

Eylə yazıb-yaradaq ki, el xeyrinə yarasın,
Çəkiləndə məşhər günü, sorğu-sual olmasın.

Çatılmasın qaş-qabağın, eldə üzün ağ olsun,
Könüllərə nur ələnsin, inləyən val olmasın.

Cəmil Əkbər eylə çalış, ellər versin qiyməti,
Nə nömrələr işlədilsin, nədə ki, xal olmasın.

***Cəmil Əkbər*** 11. 01 – 1989

## 123. OLMAZ

Bu dünya nəqədər gözəldir qardaş,[654]
Ünsiyyət məqamı qəbahət olmaz.
Səndən də, məndən də əzəldi qardaş,
İnsan arasında ədavət olmaz.

Haçandan bəridir yaşayır bəşər,
Həyatın yükünü daşıyır bəşər,
Qızardıb peysəri qaşıyır bəşər,
Bu qədər avamlıq, cəhalət olmaz.

Bəşərin övladı qardaş olmalı,
Mehriban, səmimi, yoldaş olmalı,
Həmfikir, həmsöhbət, sirdaş olmalı,
Bu qədər kin olmaz, küdurət olmaz?

İnsan bir-birini qırdı qurtardı,
Dağı sinəsinə vurdu qurtardı,
İncitdi, bezdirdi, yordu qurtardı,
Beylə ülfət olmaz, nəzakət olmaz?

Nəqədər nadanlar vurdu aranı?
Qövr etdirdi sızıldayan yaranı?
Buminvalla tapanmadı çaranı?
Bu qədər müsibət, fəlakət olmaz?

Anlayın, düşünün, dərk edib qanın,
İnsansan-insanın qeydinə qalın,
Ayıbdır böyüyü-kiçiyi sanın,[655]
Beylə sərsərilik, hərəkət olmaz?[656]

İnsan bir-birini bezdirir yaman,
Əzab-əziyyətə dözdürür yaman,
Dağları-daşları gəzdirir yaman,[657]
Beylə xeyirxahlıq, fəzilət olmaz?[658]

---

[654] Dünyamız nəqədər gözəldir qardaş.
[655] 1) Daş deyil, dəmir döy, qardaşım canın, 2)Daş-dəmir deyilki, qardaşım canın?
[656] Beylə fəhm olmaz, fərasət olmaz.
[657] Olubdur kəmfürsət, verməyir aman.
[658] Bu qədər gileylər, şikayət olmaz.

Haçandan bəridir qalmaqaldayıq,
Min bir fikirdəyik, min xəyaldayıq,[659]
Bir baxın, siz görün biz nə haldayıq? [660]
Bu qədər qəsd-qərəz, xəyanət olmaz.

Nəqədər el gəzib, oba görmüşük?
Sığınıb, daldanıb yuva görmüşük?
Almasından, heyvasından dərmişik,
Beylə mahal olmaz, məmləkət olmaz.[661]

Fikirlər, xəyallar dolaşıb yaman, [662]
Alınlar çatılıb, qırışıb yaman.
Ağı-qarasına qarışıb yaman,[663]
Beylə giley-güzar, şikayət olmaz.[664]

Dünyada nəqədər yazılıb əsər?
Hayıf ki, verməyib bir fayda, səmər.
İnsan birbirindən nəqədər küsər?
Bu qədər məlumat, bəyanət olmaz.

Eşidin, anlayın Cəmil Əkbəri,
Deməyin nahaqdan ağrıdır səri,
Oxuyun sözünü, olun müştəri,
Beylə hünər olmaz, məharət olmaz.

***Cəmil Əkbər*** 27. 05 – 1993

### 124. BOL OLSUN

Kim ilə oturum, kimilə durum?
Ülvü-istək, məhəbbətdən bol olsun.
Kim üçün yaradım, yaşadım qurum?
Sədaqətdən, səxavətdən bol olsun.

---

[659] Vurhavur, çaphaçap, çalhaçaldayıq,
[660] Seyredib bir görün, biz nə haldayıq?
[661] *II variant* Nəqədər el gəzib, oba görmüşəm,
Boylanıb həryana, yuva görmüşəm,
Açıq səma gördüm, hava görmüşəm,
Beylə ölkə olmaz, məmləkət olmaz?!
[662] Ünsiyyət-ülfətlər dolaşıb yaman.
[663] 1)Ötübdür keçibdir nəqədər zaman, 2) Ötübdür qərinə, keçibdir zaman.
[664] Beylə xeyirxahlıq, fəzilət olmaz?!

Kimlə həmdəm olum, kim ilə gəzim?
Zəhmətini çəkim, möhübün düzüm,
Kimin cəfasına tablaşım, dözüm?
İnsaf-mürvət kəramətdən bol olsun.

Kimdən əhval tutum, halını sorum?
Uğrunda çalışıb özümü yorum?
Ömrümü günümü mən başa vurum?
Ədəb-ərkan, mərifətdən bol olsun.

Kimlə ülfət edib ona can deyim?
Oxudub, öyrədib, anla, qan deyim?
Nə gözəl, nə nəcib, mehriban deyim?
Həqiqətdən, ədalətdən bol olsun.

Kimlə dostluq edim, yoldaşlıq edim?
Həmkarlıq, həmdəmlik, qardaşlıq edim?
Açıb ürəyimi sirdaşlıq edim?
Dar günümdə dəyanətdən bol olsun.

Kimlə xətir görüm, hörmət eyləyim?
Yolunda hərzaman xidmət eyləyim?
İçsə, öz qanımı şərbət eyləyim?
İnsanlıqda ləyaqətdən bol olsun.

Cəmiləm, kim üçün alışım, yanım?
Düşünüm, dərk edim, anlayım, qanım,
Kimə qurban olsun bu şirin canım?
Hər məzmundan, hər hikmətdən bol olsun.

***Cəmil Əkbər*** 22. 09 – 1982

**125. BOL İSƏ**

Mən sevirəm elə dostu, yoldaşı?
Ülvü-istək, məhəbbəti bol isə.
Elə yaxın, həmdəm, elə sırdaşı?
Sədaqəti, səxavati bol isə.

O kəslərlə dolanaram, gəzərəm,
Hörmət edib möhübünü düzərəm,
Cəfasına sinə gərib dözərəm,
İnsaf-mürvət kəraməti bol isə.

Əhval tutub, halını da soraram,
Zəhmət çəkib özümü də yoraram,
Vicdan ilə qayğısında duraram,
Ədəb-ərkan, mərifəti bol isə.

Təzim edib yüz yol can da deyərdim,
Oxudub, öyrədib, qan da deyərdim,
Əsl insan, mehriban da deyərdim,
Həqiqəti, ədaləti bol isə.

Ömürboyu yoldaşlıq da edərdim,
Həmdəmlik də, sirdaşlıq da edərdim,
Dostdoğmaca qardaşlıq da edərdim,
Dar günümdə dəyanəti bol isə.

Xətir görüb hörmətini edərdim,
Dönə-dönə xidmətini edərdim,
Usanmadan zəhmətini çəkərdim,
İnsanlıqda ləyaqəti bol isə.

Cəmiləm, yolunda alışıb yannam,
Düşünüb, dərk edib, anlayıb, qannam,
Axtarıb, arayıb, əbədi annam,
Məzmunundan, hikmətindən bol isə.

***Cəmil Əkbər*** 22. 09 – 1982

**126. VAR OLSUN!**

Ünsiyyətdən-ülfətlərdən götürülə əyrilik,[665]
Car çəkilə hərbir yanda, qoy ədalət var olsun!

Harda olsa yalan sözə, yer olmaya dünyada,[666]
Hər kəlmədə, hər cümlədə, qoy həqiqət var olsun!

Kimə lazım zülümkarlıq, bu dünyada özün de?[667]
Ürəklərdə məskən salan, qoy kəramət var olsun!

---

[665] Ünsiyyətdə-ülfətlərdə olmayaydı əyrilik.
[666] Fitnə-fəsad yalan sözə, yer olmaya dünyada.
[667] Kimə lazım zülümkarlıq, əzazıllıq özün de?

Mənasız söz-söhbətlərdən çatılmasın qaşqabaq,[668]
Mehri-ülfət, səmimiyyət, qoy mərhəmət var olsun!

Dağ başını bürüməsin çovğun, tufan, boran, qar,
Cəryan etsin hərbir yana, qoy məharət var olsun!

İnsanoğlu nə bacarsa, ömürboyu işləsin,
Artırılsın hər diyarda, nazü-nemət, bar olsun! [669]

Tənə sözdən, acı dildən usanmışıq, doymuşuq,
Dadlı-duzlu, məzhəkəli, qoy zərafət var olsun!

Xəyanətlər məhv edilsin, harda varsa yerbəyer,
Pozulmasın ilqar-iman, qoy sədaqət var olsun!

Ulu Tanrım, üstümüzdən kəsilməsin ənaət,[670]
Hatəmlərdən töhfə qalan, qoy səxavət var olsun!

Kimə lazım ədəbazlıq, ya kobudluq özün de?
Abır-həya, ədəb-ərkan, qoy nəzakət var olsun!

Əyər-əksik, naqislərdən, harda varsa dad-hazar,
Çalış müdam, yaxşı iş gör, qoy keyfiyyət var olsun!

Sanmayın ki, bu dünyada tək-tük adam kef edir,
Tək çiçəklə yaz açılmır, qoy cəmiyyət var olsun![671]

Tənbəllikdən, acizlikdən qurtulaydıq əbədi,
Fədakarlıq, işgüzarlıq,  qoy fərasət var olsun!

Yaltaqlıqdan, şıltaqlıqdan, qorxaqlıqdan nə çıxar?[672]
Hər diyarda, məmləkətdə, qoy cəsarət var olsun!

Məzlumluğu, acizliyi xoşlamayır zəmanə,
Qılıncdada soy gərəkdir, qoy kəsarət var olsun!

Yaşa dolub qarısaq da, qoca dünya şirindir,
Bu cah-calal, bu əzəmət, bu toy-büsat var olsun!

---

[668] Zərbə dəyib ürəklərə, çatılmasın qaş-qabaq.
[669] Artırılsın elin varı, nazü-nemət, var olsun.
[670] Kəsilməsin üstümüzdən mərhəmətlər, ənaət.
[671] Tək insanla iş düzəlmir, qoy cəmiyyət var olsun.
[672] Yaltaqlıqla, şıltaqlıqla, qorxaqlıqla iş açmaz.

Nadanlıqdan, avamlıqdan xilas ola canımız,
Öz elmiylə, alimiylə, bu məmləkət var olsun!

İnsanoğlu bir-birinin xatirinə dəyməyə,
Kin-küdurət məhv edilsin, qoy məhəbbət var olsun!

Elə-belə adsız-sansız yaşamaq da ey deyil,
Mərd igidlər baş qaldırsın, qoy şərafət var olsun!

Bülbül kimi cəh-cəh vurub bağda ötmək istərəm,
Gül açılsın hər qönçədə, qoy təravət var olsun!

Dava-dalaş, qal-qovğalar, kəsiləydi əbədi,
Firəvanlıq, mehribanlıq, bu ülviyyət var olsun!

Zaman keçsin, dövran ötsün, birbirindən məzəli,
Qərar tutsun yer üzündə, qoy səadət var olsun!

Car çəkilsin hərbir yana, bu naməmiz oxunsun,
Qulaqlarda sırğa olsun, bu bəyanət var olsun!

Ulu Tanrım yetişəydi harayına Cəmilin,
Cəm olaydı hərbirkəsdə, bu dəyanət var olsun.

***Cəmil Əkbər*** 1.02 – 1995

## 127. NİFRƏT OLSUN!

Nifrət olsun, dava-dalaş salana,
Qal-qovğa törədib, təlaş salana.
Nifrət olsun, fitnə-fəsad deyənə,
Xalqı soyub al-qumaşlar geyənə.
Nifrət olsun, şər-böhtanı yazana.
Ayaq altdan quyuları qazana,
Əsəblər korlayıb, qan qaraldana.
Qəlblərə toxunan cahil, nadana,
Bəd hərlənib, bədəməllər görənə,
Xalqına cəfalar, əzab verənə.
Nifrət olsun, hədyan-hədyan deyənə,
Öz-özünü, öz qarnını güdənə.

***Cəmil Əkbər***

## 128. NİFRƏT OLSUN!

Əzəl gündən, ibtidadan ləyaqətin aşiqiyəm,
Harda varsa avamlığa, cəhalətə nifrət olsun!

Doğru sözün, düzgünlüyün, həqiqətin aşiqiyəm,
Törədilən xəta-bəla, cinayətə nifrət olsun!

İstərdim ki, bəşər oğlu birbirinə can deyəydi,
Dava-dalaş, qal-qovğaya, ədavətə nifrət olsun!

Ünsiyyətdə qoy yaşasın səmimiyyət, mehribanlıq,
Giley-güzar, dedi-qodu, şikayətə nifrət olsun!

Könül qona dönə-dönə, sədaqətə, səxavətə,
Ömürboyu barışmaya, qəbahətə nifrət olsun!

Qoy var olsun mehri-ülfət, xeyirxahlıq, istiqanlıq,
Könülləri qırıb-tökən, küdurətə nifrət olsun!

Qəlbi təmiz olanlara, bacı-qardaş demişəm mən,
Paxıllığa, xainliyə, xəyanətə nifrət olsun!

İnsan üçün gərəklidir, mehri-ülfət, səmimiyyət,
Harda varsa rəzalətə, zəlalətə nifrət olsun!

Həyat üçün gərəklidir, həm abadlıq, firəvanlıq,[673]
Dağılıb tar-mar olana, fəlakətə nifrət olsun!

Son qoyulsun əbədilik davalara, dalaşlara,
Ah-naləyə, qəm-qüssəyə, müsibətə nifrət olsun!

Qoy yaşasın o yerlər ki, insanlığa qiymət vardır,
Ləyaqətə qənim çıxan, məmləkətə nifrət olsun!

Qoy yaşasın o diyarlar, o torpaqlar, o el-oba,
İnsanlığı məhv eyləyən cəmiyyətə nifrət olsun!

***Cəmil Əkbər*** 25. 02 -1994

---

[673] Həyat üçün gərəklidir, abadanlıq, firavanlıq.

**129. OLMAZ?!**

Qanan da, qanmaz da mat qalıb indi,
Belə dövran olmaz, nə gərdiş olmaz?!
Qüvvə müsavidir, pat qalıb indi,
Belə adət olmaz, nə vərdiş olmaz?![674]

Ünsiyyət-ülfətdə pul hakim olub,
Daş-qaş hakim olub, ləl hakim olub,
Yatma qəflətlərdə, bil hakim olub,
Beylə ənam olmaz, nə peşkəş olmaz?!

Molla da, qazı da azıb yolunu,
İtirib sağını, çaşıb solunu,
Xərcləmir  pulunu, yemir malını,
Belə dindar olmaz, nə dərviş olmaz?!

Böyük də, kiçik də düz anlamayır,
Cığırlar, yolaqlar, iz anlamayır,[675]
İşarə tanımır, göz anlamayır,
Beylə idrak olmaz, nə də baş olmaz?![676]

Qaşlar da, gözlər də sürmələnibdir,
Yubkalar dizəcən çirmələnibdir,
Yanaqlar ənlikdən gərmələnibdir,
Beylə kiprik olmaz, nə də qaş olmaz?![677]

Fikir də, mənzil də, güzar da çaşıb,
Loğman da, təbib də, azar da çaşıb,
Sərraf da yanılıb, bazar da çaşıb,
Beylə üzük olmaz, nə də qaş olmaz?!

---

[674] *II variant* Zəmanə özü də mat qalıb indi,
Böylə gərdiş olmaz, nə də iş olmaz?!
Kim itirdi, kimlər tapdı sevindi?
Böylə xəyal olmaz, nə də huş olmaz?!

[675] Cığır tanımayır, iz anlamayır.

[676] Beylə nə dərrakə, nə də baş olmaz.

[677] *II variant* Gözlər də, qaşlar da sürmələnibdir,
Eləbil yanaqlar gərmələnibdir,
Don da dizə qədər çirmələnibdir,
Beylə kiprik olmaz, belə qaş olmaz?!

Nə haram tanınır, nə halal indi,
Nə şəkər şəkərdir, nə zülal indi,
Nə törpü törpüdür, nə sığal indi,[678]
Böylə süfrə olmaz, nə də aş olmaz?!

Nalbəndlər oturub zərgərlik edir,
Sənətdə naşılar dülgərlik edir,
Gərgüzarlıq edir, pərgarlıq edir,[679]
Beylə peşə olmaz, beylə iş olmaz?!

Nadanlar, cahillər kamala baxmır,
Əqidə, məsləkə, amala baxmır,
Obanı tanımır, mahala baxmır, [680]
Beylə xəyal olmaz, nə də huş olmaz?!

Loğman da, təbib də, azar da çaşıb,
Yol-ərkan da çaşıb, güzar da çaşıb,
Sərraflar mat qalıb, bazar da çaşıb,
Beylə inci olmaz, nə daş-qaş olmaz?!

Yer də, göy də, təbiət də dəyişib,
Şəxsiyyət də, cəmiyyət də dəyişib,
Kəmiyyət də, keyfiyyət də dəyişib,
Beylə bahar olmaz, nə də qış olmaz?![681]

Etibar azalıb, inam azalıb,
Bəxşeyiş azalıb, ənam azalıb,
Yoxdu düzəlməyə, güman, azalıb,[682]
Beylə tay-tuş olmaz, nə çağdaş olmaz?!

---

[678] 1) Nə nəşə-nəşədir, nə zaval indi. 2) Nə dağal dağaldı, nə cığal indi.
[679] Gəlib yol göstərir pərgarlıq edir.
[680] Obaya üz tutmur, mahala baxmır.
[681] *II variant* Kainat da, təbiət də dəyişib,
Şəxs nədirki, cəmiyyət də dəyişib,
Kəmiyyət də, keyfiyyət də dəyişib,
Beylə bahar olmaz, nə də qış olmaz?!
[682] Düzəlməz bu işlər, güman azalıb.

Arzu da, istək də, dilək dəyişib,
Xəlbir, şadara da, ələk dəyişib,
Hurilər, pərilər, mələk dəyişib,
Beylə kotan olmaz, beylə xış olmaz?!

İnsan bir-birini bezdirir nədən?
Əzab-əziyyətə dözdürür nədən?
Dağları-daşları gəzdirir nədən?
Beylə hərbə-zorba, nə də xoş olmaz?!

Hamı bir-birinin qanını sorur,[683]
Girib pətəyinə, şanını sorur,[684]
Gövhərini sorur, kanını sorur,
Beylə iştah olmaz, nə də diş olmaz?![685]

Nəqədər ürəkdə çamırlıq yatır,[686]
Üfunət, bataqlıq, mamırlıq yatır,[687]
Qarabulud yatır, yağmurluq yatır,[688]
Beylə sinə olmaz, beylə döş olmaz?![689]

Yaxşını-yamandan seçməyən çoxdur,
Boylara xələti biçməyən çoxdur,
Haqqın yollarından keçməyən çoxdur,
Beylə qarov olmaz, nə də çaş olmaz?![690]

Bu nə vurhavurdu, nə tuthatutdur?
Necə alhaaldı, nə sathasatdır?
Hansı məqsədinə de, çathaçatır?[691]
Belə adət olmaz, nə vərdiş olmaz?!

---

[683] 1) Eləbil zəlidir, qanını sorur. 2) Zalımlar məzlumun qanını sorur.
[684] 1) Girib pətəyinə, şanını sorur. 2) Qonub pətəyinə, şanını sorur.
[685] 1) Beylə tamah olmaz, beylə diş olmaz! 2) Beylə tamah olmaz, nə də diş olmaz!
[686] Ürəkdə kin yatır, küdurət yatır.
[687] 1) Üfunət kök salıb, mamırlıq yatır, 2) Xainlik, xəbislik, ədavət yatır,
[688] Paxıllıq, bədxahlıq, qəbahət yatır.
[689] Beylə sinə olmaz, nə də döş olmaz!
[690] *II variant* Yaxşını, yamanı görməyən də var,
Məhəbbət bağına girməyən də var,
Aldığı borcları verməyən də var,
Beylə qarov olmaz, nə də çaş olmaz!
[691] Qəflət yuxusunda nə yatha-yatdadı.

İnsafı-mürvəti atanlar da var,
Vicdanı, məsləki satanlar da var,[692]
Bu yolla doxsana çatanlar da var, [693]
Beylə ömür olmaz, nə də yaş olmaz?!

Tulalar bağlanıb itin yerində,
Pötəyə döşürür ətin yerində,
Tirməşal qurşanır, sətin yerində,
Böylə kabab olmaz, nə də şiş olmaz?![694]

Böyük də, kiçik də azıb yolunu,
Silib qaralayıb, pozüb yolunu,
Tərsinə çevirib, yozub yolunu,
Beylə ayaq olmaz, nə də baş olmaz?!

İnsan bir-birini bezdirir yaman,
Salıb əziyyətə dözdürür yaman,
Güclüyə gücsüzü əzdirir yaman,
Beylə zorakılıq, nə də xoş olmaz?!

Oba da dəyişib, el də dəyişib,
Eləbil qarışqa, fil də dəyişib,[695]
Darçın, zəncəfil də, hil də dəyişib,[696]
Beylə çayqarışan, gədəmiş olmaz?!

Sazımın yerində gitara ötür,
Zurnamın yerində bitən gör nədir?
Qazanılan nədir, itən gör nədir?
Beylə nalə olmaz, nə qarğış olmaz?![697]

---

[692] Dəyər-dəyməzinə satanlar da var.
[693] Səksənə, doxsana çatanlar da var.

[694] *II variant* Tulalar hürüşür itin yerində,
Pötəyə yeyilir ətin yerində,
Tirmələr geyilir çitin yerində,
Böylə kabab olmaz, nə də şiş olmaz?!

[695] Qoduq da, dayça da, fil də dəyişib.
[696] Dərya da, dəniz də, göl də dəyişib.

[697] *II variant* Sazımın yerində ötən gör nədir?
Zurnamın yerində fileyta ötür,
Tarımın yerində, saksafon ötür,
Beylə qarğı olmaz, nə qamış olmaz!

Hamı birbirinə qəsd edir nədən?
Yeməməş, içməməş məsd edir nədən?
Astarı çevirib üst edir nədən?
Beylə meyxoş olmaz, nə sərxoş olmaz?!

Hayana üz tutub yeriyir bəşər?
Azır yollarını müdam, sərbəsər?
Cəmiləm sözümü yazdım müxtəsər,
Beylə dostluq olmaz, nə yoldaş olmaz?!

***Cəmil Əkbər*** 26-28 /11 -1989

### 130. OLMAZ

Bu necə əsgərdir, necə ordudur?
Vətənində vətəndaşı öldürür.
Necə hiylə, məkr, necə qurğudur?
Vətənində silahdaşı öldürür.
Düşmənləri sevindirir, güldürür,
Təzə açmış gül-çiçəyi soldurur,
Alınmayan qalaları aldırır.

Vətənin torpağı əldən verilir,
Obadan alınır, eldən verilir.
Çəməndən ayrılır, güldən verilir,
Varı-halı yad əllərlə dərilir.

Bu necə Vətəndir, qoyub qaçırlar?
Nə hoqqadır, nə oyundur acırlar?
Dövləti, sərvəti talanıb gedir,
Ayaqlar altında tapdanıb gedir.
Necə Vətəndaşıq ay vətən oğlu?
Qaçıb torpağından ay itən oğlu?

Torpağımız gör haçandan qəm yeyir?
Kökdən düşüb, bəm içində nəm yeyir.
Biz hansı Vətənin vətəndaşıyıq?
Həryanda cücərib bitəndaşıyıq?
Ürəyiniz dəmirdimi, daşdımı?
Başınızda ağıl varmı, boşdumu?
Qəlbinizdə borandımı, qışdımı?
Çiyninizdə qarpızdımı, başdımı?

Vətəni yadlara satmaq olarmı?
Onu dar günlərdə atmaq olarmı?
Bu nə qaçhaqaçdır, nə köçhaköçdür?
Özgə diyarlara nə uçhauçdur?

Oyansa babalar, nə deyər bizə?
Məzəmmət eyləyib, ya söyər bizə?
Bu necə zəmanə, necə dövrandır?
Ünsiyyət-ülfətdə qardır-borandır?

Hər yetən gədələr qatır aranı,
Qövr etdirir, sızıldadır yaranı.
“Aranı qatana, ar olsun”-deyək!
“Gen dünya başına dar olsun”- deyək!

Dava salanlara nifrətlər olsun!
Qəzəblər çoxalsın, hiddətlər olsun!
Bu necə ordudur vətəni atır?
Onu var-dövlətə, qızıla satır?

Beylə ordu olmaz,  silahdaş olmaz,
Haraya yetişən əməkdaş olmaz.
Beylə Vətən olmaz, vətəndaş olmaz,
Beylə övlad olmaz, arkadaş olmaz.

***Cəmil Əkbər*** 5. 06 - 1993

**131. ELMİN OCAĞI**

Vətən övladına xidmət etmisən,
Ey zəka bucağı, elmin ocağı?
Nəzər yetirmisən, diqqət etmisən,
Ana qucağıtək, elmin ocağı.

El sənin sayəndə kamala dolur,
Əqidə, məsləkə amala dolur,
Mənəvi gözəllik, camala dolur,
Ana qucağıtək, elmin ocağı.

Nəqədər insana çörək vermisən?
Qayğı göstərmisən, kömək vermisən?
Təsəlli olmusan, ürək vermisən?[698]
Ana qucağıtək, elmin ocağı.

Bizləri ərsəyə yetirən sənsən,
Becərib bəsləyən, bitirən sənsən,
Möhnəti ortadan götürən sənsən,
Ana qucağıtək, elmin ocağı.

Nəqədər cahilə təlim vermisən,
Savad öyrətmisən, elm vermisən,
İnsanlıq naminə helm vermisən,
Ana qucağıtək, elmin ocağı.

Əlli il səninlə ömür sürmüşəm,
Nəyi bacarmışam onu vermişəm,
Yaxşı da, yaman da, nə var görmüşəm,
Ana qucağıtək, elmin ocağı.

Etdiyin haqq-say boynumuzdadır,
Soyutmaq olarmı, qoynumuzdadır?!
Verdiyin bilgilər beynimizdədir,
Ana qucağıtək, elmin ocağı.

Ellərin içində başın ucalsın,
Zirvədən-zirvəyə işin ucalsın,
İllər ötüşdükcə yaşın qocalsın,
Ana qucağıtək, elmin ocağı.

Görənlər, bilənlər, el əhsən desin,
Dolansın fəsillər, il əhsən desin,
Muğan əhsən desin, Mil əhsən desin,
Ana qucağıtək, elmin ocağı.

Yetmişi haqladı deyirlər yaşın,
Kamala dolubdur o müdrik başın,
Görüşə gəlibdir dostun, qardaşın,
Ana qucağıtək, elmin ocağı.

[698] Sütuna dayanan dirək vermisən.

Saçın ağarsada, başın sağ olsun,
Ellərin içində üzün ağ olsun,
Xidmətin, zəhmətin uca dağ olsun,
Ana qucağıtək, elmin ocağı.

Xaricdən alınır unumuz niyə?
Qurumur, üyünür dənimiz niyə?
Çəkilib tarladan əlimiz niyə?
Ana qucağıtək, elmin ocağı.

Vurhavur alınır yağımız nədən?
Tapılmır kəfənlik ağımız nədən?
Talanıb, dağıldı bağımız nədən?
Ana qucağıtək, elmin ocağı?

Bugünkü vəziyyət bizə yaraşmaz,
Baxışa, nəzərə, gözə yaraşmaz,
Deyib danışmağa, sözə yaraşmaz,
Ana qucağıtək, elmin ocağı.

Ötən illərində ucalmısan sən,
Zəfərlər çalmısan, bac almısan sən,
Ellərdən, obadan güc almısan sən,
Ana qucağıtək, elmin ocağı.

***Cəmil Əkbər*** 20. 03 -1999

### 132. ÇƏKƏ BİLƏSƏN

Bu dünya əzəldən belə qurulub,
Kefi də, qəmi də çəkə biləsən.
İnsan zəhmət çəkib belə yorulub,
Zili də, bəmi də çəkə biləsən.

Dərya dərin olsa üzəsən gərək,
Dərdin çox olsa da, dözəsən gərək,
Anlayıb həyatı sezəsən gərək,
Kəsiri, kəmi də çəkə biləsən.

Hərzaman gözlərin nuru olmayır,[699]
Sular da bulanır, duru qalmayır,
İgid gücdən düşür zoru olmayır,
Höyüşü, nəmi də çəkə biləsən.

Fikirə, xəyala dalıb gedəsən,
Həyatdan ilhamı alıb gedəsən,
Könüllər mülkündə qalıb gedəsən,[700]
Mənfini, cəmi də çəkə biləsən.

***Cəmil Əkbər*** 20. 03 -1999

## 133. GƏRƏK

Söz ilə söhbətlə iş düzəlməyir,
Gedəsən, gələsən, görəsən gərək.
Gileylə, qeybətlə şiş düzəlməyir,
Satasan, alasan, verəsən gərək.

Ağız şirin olmur halva deməklə,
Dolanmaq mümkündöy hiylə, kələklə,
Fikirlə, xəyala, arzu-diləklə,[701]
Əkəsən, biçəsən, dərəsən gərək.

Əgərki istəsək binamız olsun,
Göllərdə üzməyə sonamız olsun,
Sağlam bədənimiz, canımız olsun,
Tikəsən, qurasan, hörəsən gərək.

İstəsən xətirin, hörmətin olsun,[702]
Ədəbin, ərkanın, mərfətin olsun,
İnsanlıq naminə sənətin olsun,
Batasan, çıxasan, girəsən gərək.

İstəsən anbarda taxılın olsun,
Bu ildən addasın, o ilə qalsın,
Dağarcıq, cuvalın, xaralın dolsun,
Yığasan, döyəsən, sərəsən gərək.

---

[699] Gözün də həmişə nuru olmayır.
[700] Zəfərlər təblini çalıb gedəsən.
[701] Qasırğa, tufanla, quru küləklə.
[702] Ellərin içində hörmətin olsun.

Gəlsə qapınıza oğru, əyrilər,
Vicdanı kəm-kəsir, özü qeyrilər,
Söhbəti yabançı, sözü qeyrilər,
Dartılıb üstünə hürəsən gərək.

Bu dünya qurulub yemək üstündə,
Qayğılar, yardımlar, kömək üstündə,
Hünərlər göstərmək, əmək üstündə,
Bu yolda, bu izdə durasan gərək.

Dünyamız əzəldən kef dünyasıdır,[703]
Qazanc dünyasıdır, nəf dünyasıdır,
Çal-çağır dünyası, dəf dünyasıdır,
Zəfərlə özünü yorasan gərək.

***Cəmil Əkbər*** 29. 05 -1989

## 134. SAXLASIN GƏRƏK

Həyatın tələbi belədir-belə,
Hərkəs hörmətini saxlasın gərək.
Salmasın dünyaya yersiz vəlvələ,[704]
Hərkəs ismətini saxlasın gərək.[705]

Odur insanların şöhrəti-şanı,
Ən gözəl dövləti, gövhəri-kanı,
Hörmətsiz, izzətsiz məziyyət hanı?
Hərkəs izzətini saxlasın gərək.

Yaxşını yamana qatmasın heçkəs!
Ev yıxıb murada çatmasın heçkəs!
Qəflət yuxusunda yatmasın heçkəs!
Hərkəs mürvətini saxlasın gərək.[706]

---

[703] Bu dünya əzəldən kef dünyasıdır.
[704] Salmasın dünyaya əbəs vəlvələ.
[705] Hərkəs züryətini saxlasın gərək.
[706] *II variant* Qəflət yuxusundan ayılsın insan,
Seçilib hər yerdə sayılsın insan,
Car olub ellərdə yayılsın insan,
Hərkəs mürvətini saxlasın gərək.

Odur insanlara kəramət verən,
Səxavət paylayan, sədaqət verən,
Ehtiram bəxş edən, mərhəmət verən,
Hərkəs mərhəməti saxlasın gərək.

Heçkimsə çəkməsin zəlalət, pis gün,
Olmasın həyatda taledən küsgün,
Yaşamasın şərəf-şöhrətsiz bir gün,
Hərkəs şöhrətini saxlasın gərək.

Şöhrətdir insana yaraşıq verən,
Gözlərə nur saçan, gün, işıq verən,
Bir ümman, bir çömçə, bir qaşıq verən,
Hərkəs qismətini saxlasın gərək.

Hərkəs həyasını gözləsin müdam,
Məslək, qayəsini gözləsin müdam,
Quran ayəsini gözləsin müdam,
Abır, ismətini saxlasın gərək.

İnsanam deyənlər karsız olmasın,
Söyüd ağacıtək barsız olmasın,
Nə dözümsüz, nə tutarsız olmasın,
Hərkəs qüdrətini saxlasın gərək.[707]

Hünərdi insanın qolu-qanadı,
Onunla yeriyir hökmü, inadı,
Tanıyır qohumu, baş əyir yadı,
Hərkəs qeyrətini saxlasın gərək.[708]

---

*III variant*
Heçkimsə mürvətsiz, qansız olmasın,
Şərəfsiz, şöhrətsiz, şansız olmasın,
Sərrafsız, gövhərsiz, kansız olmasın,
Hərkəs mürvətini saxlasın gərək.

[707] *II variant*
İnsan bu dünyada arsız olmasın,
Əlacsız, imdadsız, karsız olmasın,
Nə qüvvəsiz, nə tutarsız olmasın,
Hərkəs qüdrətini saxlasın gərək.

[708] *II variant*
Odur insanların qolu-qanadı,
Olmasa insanın çəkilmir adı,
Tanıyır qohumu, tanımır yadı,
Hərkəs qeyrətini saxlasın gərək.

Zəhmətdir insanın cövhəri-canı,
Onunla durulur insanın qanı,
Çəkirlər şirəni, düzürlər şanı,
Hərkəs qüvvətini saxlasın gərək.

Heçkimsə dünyada fəqir olmasın,[709]
Nə məzlum, nə müti, səqir olmasın,[710]
Döyülüb, söyülüb, təhqir olmasın,
Hərkəs cürətini saxlasın gərək.

Həyatda hərkəsin izi gərəkdir,
Ellərdə söhbəti, sözü gərəkdir,
İnsanlıq naminə düzü gərəkdir,
Hərkəs qiymətini saxlasın gərək.[711]

Hərkəs məsləkindən dönüb getməsin,
İstisi çıxmamış sönüb getməsin,
Alçalıb, əksilib sinib getməsin,[712]
Hərkəs xislətini saxlasın gərək.[713]

Heçkimsə azmasın öz məkanını,
Düz görüb, düz tapsın öz sükanını,
Əqidə, məsləki, yol-ərkanını,
Hərkəs sifətini saxlasın gərək.

Məzmunsuz, mətləbsiz yaşamaq ardır,
Gendünya insanın başına dardır,
Deməsin məsləkim, amalım vardır,
Hərkəs mərfətini saxlasın gərək.

Heçkəs sussamasın özgə ellərə,
Özgə diyarlara, özgə çöllərə,
Özgə bağçalara, özgə güllərə,
Hərkəs dövlətini saxlasın gərək.

---

[709] Heç kim bu dünyada fəqir olmasın.
[710] Nə məzlum olmasın, səqir olmasın.
[711] *II variant* İgidlər həyatda izsiz olmasın,
Obada-ellərdə sözsüz olmasın,
Gözlərdən düşməsin, ucuz olmasın,
Hərkəs qiymətini saxlasın gərək.
[712] Alçalıb mövqedən, enib getməsin.
[713] Hərkəs sərvətini saxlasın gərək.

Yazmaqla sözlərim bitəsi deyil,
Arada, bərədə batası deyil,
Heçkəsin zəhməti itəsi deyil.
Hərkəs xilqətini saxlasın gərək.

Heçkimsə uymasın yağlı dillərə,
Uymasın böhtana, fitnə-fellərə,
Nifrətlə qalmasın o nəsillərə,
Hərkəs millətini saxlasın gərək.

Heçkəs qatarından qalmasın dala,[714]
Zəfərlər təblini hey çala-çala,
Xalqın qayğısına o qala, qala,
Cəmiltək xidmətin saxlasın gərək.[715]

***Cəmil Əkbər***

## 135. GƏRƏK

İnsan gərək insan kimi dolansın,
İnsafı, mürvəti atmasın gərək.
Peyvənd olub ürəklərə calansın,
Vicdanı, məsləki satmasın gərək.[716]

Yaxını-uzağı görə bilməli,
Bağ salıb barından dərə bilməli,
Aldığı borcları verə bilməli,
Gedib qəflətlərdə yatmasın gərək.[717]

---

[714] Heçkimsə qatardan qalmasın dala.
[715] Cəmil, surətini saxlasın gərək.
[716] *II variant* Dövranını gözəl görmək istəyən,
İnsafı, mürvəti atmasın gərək.
Onun bəhrəsini dərmək istəyən,
Yaxşını-yamana qatmasın gərək.

[717] *II variant* İgid olan el içində sayılsın,
Adı-sanı diyar-diyar yayılsın,
Daha bəsdir, bu səs-küyə ayılsın,
Qəflət yuxusunda yatmasın gərək.

Qəlbində əbədi ədalət olsun,
Doğruluq, düzgünlük, həqiqət olsun,
Həniri sönməyən məhəbbət olsun,
Yaxşını yamana qatmasın gərək.[718]

Gəşd edib dünyanı, həyalı gəzsin,
Əqidəli gəzsin, qayəli gəzsin,
Qədəmi uğurlu, sayəli gəzsin,
Bəd işlər törədib, tutmasın gərək.[719]

Ellərin içində üzüağ olsun,
Əritsin söhbəti, sözü dağ olsun,
Həm kefi-damağı cağbacağ olsun,
Gedib günahlara batmasın gərək.[720]

Ev uçurub, dirəkləri yıxanlar,
Qanqaraldıb ürəkləri sıxanlar,
İnsanlığın axırına çıxanlar,
Arzu-niyyətinə çatmasın gərək.

Kimin yoxsa pürkamalı sərində,
Ləl gəzməsin dəryalarda dərində,
Alaqarğa bülbüllərin yerində,
Güllü-bağçamızda ötməsin gərək.

Ədaləti, həqiqəti qananlar,
Şan-şöhrəti, şərafəti sananlar,
Ülviyyəti, qüdsiyyəti ananlar,
Bədəməl dalınca getməsin gərək.

---

[718] *II variant* Ədəb-ərkan, mərifəti istəyən,
Nəcibliyi, nəzakəti istəyən,
El-obanı, cəmiyyəti istəyən,
Vicdanı, məsləki satmasın gərək.

[719] *II variant* Vətənini məhəbbətlə sevənlər,
Sədaqətlə, səxavətlə sevənlər,
Saf arzuyla, pak niyyətlə sevənlər,
Bəd işlər törədib, tutmasın gərək.

[720] *II variant* Zəli kimi al-qanları soraraq,
Şər danışıb, aralığı vuraraq,
Etibarı, düz-ilqarı qıraraq,
Nahaqdan günaha batmasın gərək.

Cəmil Əkbər, al-qanları soranlar,
Başlar kəsib, ilikləri vuranlar,
Ona-buna hiylə toru quranlar,
Çoxalıb, böyüyüb, artmasın gərək.

***Cəmil Əkbər*** 13. 12 -1988 // 25. 03 -1999

## 136. GƏRƏK

Həyatın yolları eniş-yoxuşdur,
Ər oğlu ər kimi dözəsən gərək.
Nəqədər çətinsə, oqədər xoşdur,
Hiss edib duyasan, sezəsən gərək.[721]

Hərə bircürədir, hamı bir deyil, [722]
Meyvə də meyvədir, tamı bir deyil,
Şərbəti bir deyil, camı bir deyil,[723]
Məqamı çatanda üzəsən gərək.[724]

Qəmlər sürükləsə dumanasarı,
Qüssəyə, kədərə, amanasarı,
Sel-sular aparsa ümmanasarı,
Mahir qəvvas olub üzəsən gərək.

---

[721] *II variant* Həyatın yolları eniş-yoxuşdur,
Yüyürüb yortasan, dözəsən gərək,
Həm çətin, həm ağır, həmdəki, xoşdur,
Hiss edib duyasan, sezəsən gərək.

*III variant* Könül gileylənmə, gəl zəmanədən,
Səbr edib tablaşıb dözəsən gərək.
Nə mətləb güdürsən hər divanədən,
Anlayıb fikrini sezəsən gərək.

[722] Bu bəşər övladı hamı bir deyil.
[723] Şərbəti bir deyil, şamı bir deyil.

[724] *II variant* Hər yetən namərdlə oturub durma,
Kefini soruşub, halın sorma,
Hayıfdı zəhmətin, özün yorma,
Əlini əlindən üzəsən gərək.

Ellərin dərdindən halı olmağa,
Sahibi olmağa, vali olmağa,
Ucalıb nəzərdə ali olmağa,
Gəşd edib dünyanı gəzəsən gərək.[725]

Köməyə, imdada yetmək istəsən,
Hamıya yaxşılıq etmək istəsən,
Könüllər bağında bitmək istəsən,
Xətirlər, möhüblər düzəsən gərək.

Nə çıxar hiyləgər, dələduz, bicdən?
Kütbeyin, axmaqdan, sərsəri, gicdən,
Tərsinə dolanan inadkar, öcdən,
Vurub kəlləsini əzəsən gərək.[726]

Ədəbi, ərkanı qanmayan kəsdən,
Xətiri, hörməti anmayan kəsdən,
Utanıb qısqanma acıqnan, qəsdən,
Biryolluq ay Cəmil bezəsən gərək.[727]

***Cəmil Əkbər*** 30. 07 – 1987 // 4. 02 - 1995

---

[725] *II variant* Sular da, torpaq da bircürə deyil,
Ağac da yarpaq da bircürə deyil,
Dağlar da, daşlar da bircürə deyil,
Seyrinə çıxasan, gəzəsən gərək.

*III variant* Toxunsa qəlbinə nadan əlləri,
Təlimdən yarımçıq dadan əlləri,
Haqq-say sümürüb udan əlləri,
Dolanıb uzaxda gəzəsən gərək.

[726] *II variant* Gördünkü birisi girib qəsdinə,
Yerli-yersiz ayaq alır üstünə,
Bais olur başdan qalxan tüsdünə,
Vurub kəlləsini əzəsən gərək.

*III variant* Fürsət verməyəsən biclərə qəti,
Sərsəri, axmağa, giclərə qəti,
Zalıma, qəddara, öclərə qəti,
Sıxasan, boğasan, əzəsən gərək.

[727] *II variant* Dostların, tanışın xəyanət etsə,
Hər addım başında qəbahət etsə,
Girərək qəsdinə ədavət etsə,
İnciyib küsəsən, bezəsən gərək.

*III variant* Kiminki insanlıqda xidməti yoxdu,
Qayğısı, köməyi, zəhməti yoxdu,
İnsafı, vicdanı, mürvəti yoxdu,
Biryolluq əl çəkib, bezəsən gərək.

### 137. TƏN OLSUN GƏRƏK

Nə lazımdır hər yetənə söz demək?
Sözlər ləyaqətlə tən olsun gərək.
Tələsiyib məqamından tez demək?
Söz də həqiqətlə tən olsun gərək.

Hər yolnan ötənə tərif yaraşmır,
İncəlik uyuşmur, zərif yaraşmır,
Kəlmə də, cümlə də hərif yaraşmır,
Səxa-sədaqətlə tən olsun gərək.

İgidlik göstərmir hər bığıburma,
Vaxtını itirib, yanında durma!
Dilini ağrıdıb, halını sorma!
Əsl nəcabətlə tən olsun gərək.

Tərif yaraşmayır dönük kəslərə,
Dadamal kəslərə, ənik kəslərə,
Min səmtə üz tutan, yönük kəslərə,
O da dəyanətlə tən olsun gərək.

Nəqədər yazsan da şeir yaraşmır,
Versən də çox fayda, xeyir yaraşmır,
Müjdələr yetişmir, nəmər yaraşmır,
O da məharətlə tən olsun gərək.

Mədhiyyə ayıbdır ikiüzlüyə,
Min bir yolaqlıya, min bir izliyə,
Min bir dillilərə, min bir üzlüyə,
O da fəzilətlə tən olsun gərək.

Layiqdöy təriflər bic oğlu-bicə,
İlqara-imana kəc oğlu-kəcə,
Haqqa-ədalətə öc oğlu-öcə,
Tərif də hikmətlə tən olsun gərək.

Gözəl söz yaraşmır dələduzlara,
Vicdanı kəmkəsir, qəlbi buzlara,
Hiylələr işlədən kələkbazlara,
Dəyər də qiymətlə tən olsun gərək.
Doğru söylənəndə söz gözəl olur,

Yollar şahrah olur, iz gözəl olur,
Dərələr, təpələr, düz gözəl olur,
Niyyət də xidmətlə tən olsun gərək.

Əmələ münasib söz deyilməli,
Hərnədən yazılsa, düz deyilməli,
Məqamı çatanda tez deyilməli,
Forma da məzmunla tən olsun gərək.

Hər yetənə gözəl demək ayıbdır,
Qayıt yola, düzəl demək ayıbdır,
Dastan yazıb, qəzəl demək ayıbdır,
Gözəllik ağılla tən olsun gərək.

***Cəmil Əkbər*** 22. 12 – 1999

## 138. O NƏ SƏNƏ, NƏ DƏ MƏNƏ GƏRƏKDİR

Nadanlıqdan, cəhalətdən əl çəkək,
O nə sənə, nə də mənə gərəkdir.
Xəbislikdən, xəyanətdən əl çəkək,[728]
O nə sənə, nə də mənə gərəkdir.

Şər danışıb, gəl qatmayaq aranı,
Qövr etdirib, qanatmayaq yaranı,
Məlhəm edək, dürüst tapaq çarəni.
Xəta-bəla sirayətdən əl çəkək,
O nə sənə, nə də mənə gərəkdir.

Xamxəyalla, əyriyolla getməyək,
Bayquş kimi nəs fkirlə ötməyək,[729]
Qanqal olub yoldan-yola bitməyək. [730]
Avamlıqdan, qəbahətdən əl çəkək,
O nə sənə, nə də mənə gərəkdir.

---

[728] Paxıllıqdan, xəyanətdən əl çəkək.
[729] Bayquş kimi xərabədə ötməyək.
[730] Kol-kos olub yolda-izdə bitməyək.

Nə lazımdı, yerli-yersiz dilləşək?
Qoç kimi döyüşüb, kaltək helləşək?[731]
Şeytan kimi fitnələşək, felləşək?
O nə sənə, nə də mənə gərəkdir.

Nə lazımdır əsəbləri korlayaq?
Gücə salıb hissimizi zorlayaq,[732]
Qanqaraldıb, qəlbimizi qorlayaq.[733]
Gəl gərəksiz xəsarətdən əl çəkək,
O nə sənə, nə də mənə gərəkdir.

Doğru gedək yolumuzu azmayaq,
Ona-buna dərin quyu qazmayaq,[734]
Ünsiyyəti, ülfətləri pozmayaq,
Pis vərdişdən, nəs adətdən əl çəkək,
O nə sənə, nə də mənə gərəkdir.

Fikirləşib saxtalığa uymayaq,
İştahsız nə çörək yeyib doymayaq,
Onu-bunu ağlar gözlü qoymayaq,
O nə mənə, nə də sənə gərəkdir.

Hiylədən, məkrdən gendə dolanaq,
Dalanda, dəhlizdə, tində dolanaq,
Güzəran xoş olsun, şəndə dolanaq,
O nə mənə, nə də sənə gərəkdir.

Düz düşünüb, dərk eyləyib danışaq,
Ömürboyu xeyir işə qarışaq,
İncişməyək, küsüşməyək, barışaq.
Gəl zərərli xasiyyətdən əl çəkək,
O nə sənə, nə də mənə gərəkdir.

---

[731] Buynuzlaşıb, meydanlarda helləşək.
[732] Yerli-yersiz hissimizi zorlayaq.
[733] Çınqı salıb qəlbimizi qorlayaq.
[734] Ayaq altdan eşələyib qazmayaq.

Ustadlardan öyüd sənə götürək,
Dostluq üçün qızılgüllər bitirək,
Estafeti əldən-ələ ötürək.
Bəd fikirdən, bədniyyətdən əl çəkək,
O nə sənə, nə də mənə gərəkdir.

Cəmil çox görübdür ədəbazları,[735]
Sərsəri, gicbəsər, hoqqabazları,[736]
Donan-dona düşən modabazları,
Yaramayan ünsiyyətdən əl çəkək,
O nə sənə, nə də mənə gərəkdir.

***Cəmil Əkbər*** 14-15 / 05 -1989

## 139. NƏ SƏN ÜÇÜN, NƏ MƏN ÜÇÜN GƏRƏKDİR

Nadanlıqdan, cəhalətdən əl çəkək!
Nə sən üçün, nə mən üçün gərəkdir.
Xainlikdən, xəyanətdən əl çəkək!
Nə sən üçün, nə mən üçün gərəkdir.

Xamxəyala, əyri yola getməyək!
Yolda-izdə qanqal kimi bitməyək!
Bayquş kimi xərabədə ötməyək!
Xəta-bəla, qəbahətdən əl çəkək!
Nə sən üçün, nə mən üçün gərəkdir.

Nə lazımdı yersiz-yersiz danışaq?
Xeyri qoyub, zərər işə çalışaq?
Pis vərdişə, nəs gərdişə alışaq?
Gəl zərərli xasiyyətdən əl çəkək!
Nə sən üçün, nə mən üçün gərəkdir.

Yerli-yersiz dilləşməyək əzizim,
Buğa kimi helləşməyək əzizim,
Şeytan kimi felləşməyək əzizim.
Kin-küdurət, ədavətdən əl çəkək!
Nə sən üçün, nə mən üçün gərəkdir.

---

[735] Cəmil çox görübdür yaramazları.
[736] Yad edib haqq-say aramazları.

Nəyə görə əsəbimiz korlansın?
Düşüncəmiz, ya hissimiz zorlansın?
Baxıb görüb ürəyimiz qorlansın?
Gəl qılıncsız xəsarətdən əl çəkək!
Nə sən üçün, nə mən üçün gərəkdir.

Doğru gedək yolumuzu, azmayaq!
Ona-buna dərin quyu qazmayaq!
Ünsiyyəti, ülfətləri pozmayaq!
Pis vərdişdən, nəs adətdən əl çəkək!
Nə sən üçün, nə mən üçün gərəkdir.

Fikirləşib doğru-düzgün danışaq!
Nə bacarsaq xeyir işə çalışaq!
Yersiz-yersiz küsüşməyək, barışaq!
Əzablardan, əziyyətdən əl çəkək!
Nə sən üçün, nə mən üçün gərəkdir.

Ululardan öyüd sənə götürək!
Bağlar salıb, qızılgüllər bitirək!
İnsanlığı əldən-ələ ötürək!
Bədxahlıqdan, pisniyyətdən əl çəkək!
Nə sən üçün, nə mən üçün gərəkdir.

Çox görmüşük yaramazlıq edəni,
Ədəbazlıq, hoqqabazlıq edəni,
Dost-tanışı unamazlıq edəni.
Qan qaraldan ünsiyyətdən əl çəkək!
Nə sən üçün, nə mən üçün gərəkdir.

Cəmil Əkbər, az öyüd ver hamıya,
Qarışdırma yağı, şoru xamaya,
Boyunduruq ilişibdir samıya.
Qəm-qüssədən, küdurətdən əl çəkək!
Nə sən üçün, nə mən üçün gərəkdir.

***Cəmil Əkbər*** 1. 04 -1989

## 140. BƏLA O DEYİL Kİ...

Bəla o deyil ki, bəlayə düşdük,
Bəla ondadır ki, qanmayırıq biz.
Salındıq zindana, qalaya düşdük,
Böyüyü, kiçiyi sanmayırıq biz.

Bəla o deyil ki, müsibətdəyik,
Düşmüşük çətinə, fəlakətdəyik.
Ehtiyac içində, zəlalətdəyik,
Bəla ondadır ki, görməyirik biz.

Bəla o deyil ki, qəmə düşmüşük,
Əyərə, əksiyə, kəmə düşmüşük,
Pəsdə inildəyib bəmə düşmüşük,
Xətiri, hörməti, anmayırıq biz.

Bəla o deyil ki, bu günə düşdük,
Kələf dolaşıbdı, düyünə düşdük,
Dumana, çisginə, bu çənə düşdük,[737]
Alınan borcları verməyirik biz.

Bəla o deyil ki, pozuluruq biz,
Günbəgün əriyib sozalırıq biz,
Qocalıb, qarıyıb azalırıq biz,
Bəla ondadır ki, eşitmirik biz.[738]

Bəla o deyil ki, ölüb gedəsən,
Axan gözyaşımı silib gedəsən,
Oxuyub, öyrənib, bilib gedəsən,
Seyredib uzağı görənmirik biz.

---

[737] Bu səsə, səmirə, bu ünə düşdük.

[738] *II variant* Bəla o deyil ki, pozulmuruq biz,
Çevrilib tərsinə yozuluruq biz,
Qıtlaşıb, əksilib, azalmırıq biz,
Salaraq bağları dərənmirik biz.

Bəla o deyil ki, gələnlər gedir,
Oxuyub, öyrənib, bilənlər gedir,
Bağrının başını dələnlər gedir,
Heyif qiymətini verənmirik biz.

Bəla o deyil ki, xətirə dəydik,
Vurub qamətini yay kimi əydik,
Yaxşıya, yamana oqədər söydük,
Bəla ondadır ki, dinənmirik biz.

Bəla o deyil ki, sənə pis dedim,
Qızıl yox, gümüş yox, sənə mis dedim,
Sənə höcət dedim, sənə nəs dedim,
Bəla ondadır ki, duyanmırıq biz.

Bəla o deyil ki, ağardı başım,
Tutuldu qabağım, çatıldı qaşım,
Yetişdi zamanı, atıldı daşım,
Hayıf ki, qədrini bilənmirik biz.

Bəla o deyil ki, borana düşdük,
Dağlarda yaşadıq, arana düşdük,
Gəncədən addadıq, Gorana düşdük,
Bəla ondadır ki, ayılmırıq biz.

Bəla o deyil ki, qocalıb getdik,
Xərac alıb getdik, bac alıb getdik,
Zəfərlər alaraq, tac alıb getdik,
Heyif, xeyir-şərə yaramırıq biz.

***Cəmil Əkbər*** 27. 03– 1999

**141. BƏLASIDIR**

Yer üzündə nəqədərki ağrı-acı, səfalət var,
İşgəncə var, müsibət var, ehtiyac var,
Onun hamsı avamlığın, cəhalətin bəlasıdır.

Min bir sitəm, müsibət var, hərbircürə fəlakət var,
Qəsd-qərəzin, küdurətin, ədavətin bəlasıdır.

Ünsiyyətdə naqislik var, naxələflik, xəbislik var,
Nadanlıqdan zühur eyləyib, qəbahətin bəlasıdır.

Ellər görən əzab-əzyət, zülüm, cəza, zəlalət var,
Paxıllığın, kinliliyin, xəyanətin bəlasıdır.

Çatılan qaş, ağaran baş, dərd içində qalan ürək,
Saf olmayan arzu-istək, bədniyyətin bəlasıdır.

Törədilən qal-qovğalar, vurhavurlar, dava-dalaş,
Kəc vərdişin, ənənənin, nəs adətin bəlasıdır.

Bu cahanda mövcud olan, gör nəqədər pis halət var?
Bəd fikirin, düşüncənin, kəcbaxışın, bəlasıdır.

***Cəmil Əkbər*** 20. 02 -1987

## 142. QALIB

Kimə zəhmət çəkib, kimə can qoyaq?
Onsuzda nə xətir, nə hörmət qalıb.
Kimə süfrə açıb, kimə nan qoyaq?
Onsuz da nə insaf, nə mürvət qalıb.

Kimə “Sən igidsən, kişisən” deyək?
Biqeyrət, oğracsan, xoşusan deyək?
Erkəksən, zənansan, dişisən deyək?
Onsuz da nə namus, nə qeyrət qalıb.

Kimə biz deyək ki, sən hikmətlisən?
Abırlı, həyalı, ya ismətlisən?
Təmiz arzulusan, saf niyyətlisən,
Onsuz da nə abır, nə ismət qalıb.

Kimə düşün deyək, kimə qan deyək?
Kimə möhüb düzək, kimə can deyək?
Kimə xatırlayın, kimə an deyək?
Onsuzda nə ədəb, nə mərfət qalıb.

Kimə can yandırıb, təri biz tökək?
İncini, sədəfi, zəri biz tökək?
Axtarıb, arayıb dürrü biz tökək?
Onsuz da nə haqq da, minnət də qalıb.

Kimə lazımimiş düşüncə, kamal?
Ya vicdan, ya məslək, əqidə, amal,
Mənəvi gözəllik bu hüsnü-camal,
Onsuz da nə dəyər, nə qiymət qalıb.

Kim üçün çalışıb, vuruşaq görən?
Hünər meydanında yarışaq görən?
Axtarıb, arayıb, soruşaq görən?
Onsuz da nəzər, nə diqqət qalıb.

Yaxşısı budur ki, vəhşi olasan,
Ünsiyyət-ülfətdə naşı olasan,
Ya oğru, ya quldurbaşı olasan,
Onsuz da nə nifrət, nə hiddət qalıb.

Niyə ürəyinə salasan xalı?
Salasan qovğanı, salasan qalı?
Salasan inləyən, sızlayan valı?
Onsuz da nə təpər, nə riqqət qalıb.

Cəmil Əkbər hər nə etsən əbəsdir,
Ha danışsan, ha da ötsən əbəsdir,
Hara gəlsən, hara getsən əbəsdir,
Onsuz da nə fikir, nə niyyət qalıb.

***Cəmil Əkbər*** 15. 09 – 1991

## 143. VAR

Toxunma qəlbimə dilbilməz, qanmaz,
Mənim öz arzum var, öz niyyətim var.
Dünya alışsa da, bir tükü yanmaz,
Mənim öz məzmunum, öz hikmətim var.

Sanmaynan sən məni divanəsayaq,
Ülfətsiz, laqeyid, biganəsayaq,
Gətirmə sən mənə bəhanəsayaq,
Mənim öz nəzərim, öz diqqətim var.

Sən mənə arxamdan yamandı, demə!
Dağların başına dumandı, demə!
Kövşəndi, cımıxdı, samandı demə!
Mənim öz dəyərim, öz qiymətim var.

Deyirəm sözümü sən də bil bunu,
Düşünün əvvəli, axırı, sonu,
Dəyməmiş doğrama, azaltma onu,
Mənim öz zəhmətim, öz xidmətim var.

Sən mənə demə ki, ürəyi daşdır,
Qolları poladdır, biləyi daşdır,
Arzusu, istəyi, diləyi daşdır,
Mənim öz eşqim var, məhəbbətim var.

Heç zaman demərəm hamıdan başam,
Almazam, yaqutam, gövhərəm, daşam,
Hamı üzükdürsə, mən isə qaşam,
Mənim öz mənliyim, ləyaqətim var.

Demirəm hamıdan kamallı mənəm,
Vicdanlı, məsləkli, amallı mənəm,
Yöndəmli, görkəmli, camallı mənəm,
Mənim öz bəzəyim, öz zinətim var.

Məni hər yetənlə tay eyləməynən,
Nə qərinə, fəsil, ay eyləməynən,
İztirab, zəhmətim zay eyləməynən,
Mənim öz mərdliyim, dəyanətim var.

***Cəmil Əkbər***

**144. VAR**

Heçkəsi yolundan döndərmək olmur,
Hərənin sehrli bir dünyası var.[739]
Bir səmtə salaraq göndərmək olmur,
Hərənin aləmi, öz xülyası var.

Düşüncə, idrak da, sər də bir deyil,
Sirdaş da bir deyil, sir də bir deyil,
Səma da bir deyil, yer də bir deyil,
Hərənin öz eli, öz obası var.

---

[739] Hərənin öz sirli bir dünyası var.

Görkəm də bir deyil, boy da bir deyil,
Kömək də bir deyil, hoy da bir deyil,
Qanun da bir deyil, qayda bir deyil,
Hərənin çuxası, öz əbası var.

Birisi düşsədə çətinə, dara,
Biləndöy xəyanət, dönüklük hara?
Sadiqdi əzəldən əhdə-ilqara,
Hərənin peymanı, öz vəfası var.

Hərkəsin əvvəli, sonu bir deyil,
Hüceyrə, nüvəsi, qanı bir deyil,
Damarı bir deyil, geni bir deyil,
Hər könül mülkünün öz aynası var.

Hərə bir diyarda baş girləyibdir,
Ömür-gün keçirib yaş girləyibdir,
Xəyala qapılıb huş girləyibdir,
Hərənin öz gizli müəmması var.

Hər insanoğlunun avazı başqa,
Zəngulәsi başqa, boğazı başqa,
Arzusu, istəyi, murazı başqa,
Hərkəsin öz səsi, öz nəvası var.

Aylar da, illər də, fəsil bir deyil,
Nəcabət bir deyil, nəsil bir deyil,
Bədəsil bir deyil, əsil bir deyil,
Hərənin öz nənə, öz babası var.

İxtiyar bir deyil, fərman bir deyil,
Dəyirman bir deyil, xırman bir deyil,
Xəstəlik bir deyil, dərman bir deyil,
Hər dərdin özünün bir dəvası var.

Hərənin bircürə hərəkəti var,
Şanı şöhrəti var, şərafəti var,
Dözümü, durumu, dəyanəti var,
Hərənin öz ünü, öz sədası var.

***Cəmil Əkbər***

## 145. VAR

Heyifki dünyada insan donunda,[740]
Zəlitək qananları soranlar da var.
Cıdıra çıxanda nər meydanında,
Arıq yavısını yoranlar da var.

Bəşər övladını usandıranlar,[741]
Könüllər mülkündə od yandıranlar,
İnsandan-insana bəd qandıranlar,
Şeytantək aranı vuranlar da var.[742]

Namusdan, qeyrətdən xəbərsiz olub,
Hörmətdən, izzətdən əsərsiz olub,
Doğulan günündən səmərsiz olub,[743]
Şeşəldib bığını buranlar da var.[744]

---

[740] Gəzib aralıqda insan donunda.

[741] 1) Bəşəri incidib ovsandıranlar. 2) Bəşəri bezdirib ovsandıranlar.

[742] *II variant* Bəşəri incidib tez ovsandıran,
Evlər yıxıb od-ocaqsız yandıran,
İnsandan-insana yaman qandıran,
Şeytantək aranı vuranlar da var.

*III variant* Könüllər mülkündə od yandıranlar,
İnsandan-insana bəd qandıranlar,
Biri-birisindən ovsandıranlar,
Şeytantək aranı vuranlar da var.

*IV variant* Evlər yıxıb könülləri yandıran,
Bəşər övladını cana doyduran,
Şər-böhtan danışıb, yaman qandıran,
İblistək aranı vuranlar da var.

[743] İnsafdan, mürvətdən səmərsiz olub.

[744] *II variant* Namusu, qeyrəti hey ata-ata,
İnsafı, mürvəti hey sata-sata,
Halalı harama hey qata-qata,
Şeşəldib bığını buranlar da var.

*III variant* Arını, namusu hey ata-ata,
İnsafı-vicdanı hey sata-sata,
Yaxşını, yamanı hey qata-qata,
Şeşəldib bığını buranlar da var.

*IV variant* Namusu, qeyrəti tapdalayaraq,
İnsafı, mürvəti noxtalayaraq,
Halalı harama çalxalayaraq,
Şeşəldib bığını buranlar da var.

Dostun cəfasına dözə bilməyən,
Möhüblər yaradıb düzə bilməyən,[745]
Məhəbbət gülünü üzə bilməyən,
Onun tellərini qıranlar da var.[746]

Elmə çat, başında huş olan zaman,
Kamal dünyasına tuş olan zaman,
Aldanma havalar xoş olan zaman,
Qasırğa, fırtına, boranlar da var.[747]

---

*V variant* İnsanlıq elmindən xəbərsiz olan,
Ağılı-kamalı kəsərsiz olan,
Faydasız, səmərsiz, əsərsiz olan,
Şeşəldib bığını buranlar da var.

*VI variant* Aldanma hiyləyə, aldanma felə,
Aldanma hər sözə, aldanma dilə,
Uzaşıb mətləbdən düşərsən çölə,
Qatlayıb qolları buranlar da var.

[745] Artırıb möhüblər düzə bilməyən.

[746] *II variant* Dostun cəfasına dözə bilmədən,
Görüb möhübləri düzə bilmədən,
Məhəbbət gülünü üzə bilmədən,
Onun tellərini qıranlar da var.

*III variant* Enişə, yoxuşa dözə bilməyib,
Könüllər mülkündə gəzə bilməyib,
Məhəbbət gülünü üzə bilməyib,
Onun tellərini qıranlar da var.

*IV variant* Deməki dünyada belə gəzərəm,
Belə cəfa çəkib, elə dözərəm,
Zəmanə mülkündə Ağanəzərəm,
Anla ki, dizini qıranlar da var.

[747] *II variant* Elmə çat başında huş olan zaman,
1) Qüvvətə, qüdrətə tuş olan zaman, 2) Zəhmətə, hünərə tuş olan zaman,
3) Yaxşıya tay olub, tuş olan zaman,
Aldanma havalar xoş olan zaman,
Anla ki, qasırğa, boranlar da da var.

Üzünü görəndə irişən də var,
Əlini çərməyib girişən də var,
Araqarışanda sürüşən də var,
Daldadan işini buranlar da var.

İşinə-gücünə, özünə güvən,
Yoluna nəzər sal, izinə güvən,
Əməlinə güvən, sözünə güvən,
Sanmaki arxanda duranlar da var.[748]

Necəsən, deyərək Cəmil qardaşım,
Ay mehriban insan, yaxın sirdaşım,
İstəkli həmkarım, əziz yoldaşım,
Ötəri əl verib soranlar da var.[749]

***Cəmil Əkbər*** 5. 10 - 1983

**146. VAR**

Sanmayın hamını ədavətlidir,
Eşqi, məhəbbəti olanlar da var.
Qərəzli-qisaslı, küdurətlidir,
Dosta sədaqəti olanlar da var.[750]

Hamı küt deyildir, nadan deyildir,
Yolunu tərsinə adan deyildir,
Özgənin tamını dadan deyildir,
Fəhmi-fərasəti olanlar da var.[751]

---

[748] *II variant* Zəhmət çək həmişə özünə güvən,
Getdiyin yoluna, izinə güvən,
Əməlinə güvən, sözünə güvən,
Sanma ki, arxanda duranlar da var.

[749] *II variant* Necəsən, deyərək Cəmil qardaşım,
Ay əziz, mehriban, gözəl qardaşım,
Ay şair dostumuz, yaxın sirdaşım,
Əl verib hal bilən, soranlar da var.

[750] *II variant* Hamı kinli deyil, küdurətli döy,
Qəlbində məhəbbət olanlar da var.
Hamı qərəzli döy, ədalətli döy,
Səxavət, sədaqət olanlar da var.

Sanmaki hamını yaltaqlıq edir,
Təlxəklik törədib, şıltaqlıq edir,
Atıbdı arını, sırtıqlıq edir,
Cəsarət, cürəti olanlar da var.

Sanmaki hamını qəflətdə yatır,
Bataqlıqda batır, çamırda batır,
Qərq olub löhməyə, mamırda batır,
Hünəri, sürəti olanlar da var.

Hamı sarsılmayıb, pozulmayıbdır,
Qərarı tərsinə yazılmayıbdır,
Saralıb, soluxub, sozalmayıbdır,
Şərəfi-şöhrəti olanlar da var.[752]

Düşünüb, dərk edib, qananlar çoxdur,
Xətiri-hörməti ananlar çoxdur,
Qanunu müqəddəs sananlar çoxdur,
Ülvi ləyaqəti olanlar da var.[753]

Deməyin hamıya hörmətsizləşib,
Tükənib insafı, mürvətsizləşib,
Namusu kəmləşib, qeyrətsizləşib,
Xətiri-hörməti olanlar da var.[754]

---

[751] *II variant* Tanıma hamını nə küt, nə nadan,
Yolunu-izini tərsinə adan,
Ellərin malını süsmürüb udan,
Fəhmi-fərasəti olanlar da var.

[752] *II variant* Deməyin hamıya pozulub çoxdan,
Saralıb, soluxub, sozalıb çoxdan,
Qərarı oxunub, yazılıb çoxdan,
Şərəfi-şöhrəti olanlar da var.

*III variant* Sanmayın hamını pozulub gedib,
Çevrilib tərsinə yozulub gedib,
Saralıb, soluxub, sozalıb gedib,
Əbədi şöhrəti olanlar da var.

[753] *II variant* 1) Sanmayın hamını anlamır, qanmır. 2) Sanmayın çoxları anlamır, qanmır,
Dünya alışsada bir tükü yanmaz,
Böyüyü-kiçiyi pəsinməz, anmaz,
Ülvi ləyaqəti olanlar da var.

Deməyin hamıya həyasızlaşıb,
Əqidə, məsləki qayəsizləşib,
Azalıb qüvvəsi, sayəsizləşib,
Abırı-isməti olanlar da var.[755]

Sanmayın hamını haramxor kimi,
Parazitsayağı müftəxor kimi,
Xalqına zülm edən ziyanlkar kimi,
Halaldan qisməti olanlar da var.[756]

Sanmayın hamını kamalsız olub,
Əqidəsiz olub, amalsız olub,
Yör-yöndəmsiz olub, camalsız olub,
Məzmunlu-hikmətli olanlar da var.[757]

---

754 *II variant*
Sanmakı hamını hörmətsiz olub,
Namusu kəmləşib, qeyrətsiz olub,
İnsafı tükənib, mürvətsiz olub,
Xətiri-hörməti olanlar da var.

*III variant*
Sanmakı hamını hörmətsizləşib,
İnsafı tükənib, mürvətsizləşib,
İtirib varını dövlətsizləşib,
Dəyəri, qiyməti olanlar da var.

755 *II variant*
Deməyin hamıya həyasızlaşıb,
Yoxdu əqidəsi, qayəsizləşib,
Dayısız qalıbdır, sayəsizləşib,
Abırı-isməti olanlar da var.

*III variant*
Deməki hamını həyasızlaşıb,
Qalıbdı dayəsiz, sayəsizləşib,
Yoxdu əqidəsi, qayəsizləşib,
Abırı-isməti olanlar da var.

756 *II variant*
Sanmayın hamını haramxor kimi,
Qansoran zəlitək müftəxor kimi,
Əzazil, zülümkar, sitəmkar kimi,
Halaldan qisməti olanlar da var.

*III variant*
Tanıma hamını haramxor kimi,
Tüfeylisayağı müftəxor kimi,
Xalqına zülm edən sitəmkar kimi,
Halaldan qisməti olanlar da var.

Sanmayın hamını sönüb gedibdir,
Dinindən məzhəbdən dönüb gedibdir,
İnam zirvəsindən enib gedibdir,
Odu-hərarəti olanlar da var.[758]

Sanmayın hamını pisə çevrilib,
Bədxaha çevrilib, nəsə çevrilib,
Qızılı dəyişib misə çevrilib, [759]
Dəyəri-qiyməti olanlar da var.[760]

Deməyin çoxları atıbdır yarı,
Dəyəri dəyməzə satıbdır yarı,
Mənzilə çatmamış atıbdır yarı,
Namusu-qeyrəti olanlar da var.[761]

---

[757] *II variant* Sanmayın hamını pozğunlaşıbdır,
Yolundan çıxıbdır, azğınlaşıbdır,
Leşdən çox yeyibdir, quzğunlaşıbdır,
Məzmunlu-hikmətli olanlar da var.

*III variant* Sanmayın hamını pozğunlaşıbdır,
Dönüb canavara quzğunlaşıbdır,
Çaşıbdı yolunu, azğınlaşıbdır,
Məzmunu-hikməti olanlar da var.

[758] *II variant* Sanmayın zirvədən enənlər çoxdur,
Yolundan, izindən dönənlər çoxdur,
Qaralıb, qarsıxıb, sönənlər çoxdur,
Odu-hərarəti olanlar da var.

*III variant* Sanmayın hamını enib gedibdir,
Yolundan, izindən dönüb gedibdir,
Qaralıb, qarsıxıb, sönüb gedibdir,
Odu-hərarəti olanlar da var.

[759] Çox qızıl gümüşlər misə çevrilib.

[760] *II variant* Sanmayın hamını pis olub gedib,
Bədxahlıq eyləyib, nəs olub gedib,
İnadkar olubdur, tərs olub gedib,
Xətiri, hörməti olanlar da var.

[761] *II variant* Deməyin çoxları yarı atıbdır,
Dostunu, tanışı, yarı atıbdır,
Çatmayıb mənzilə yarı atıbdır,
Namusu-qeyrəti olanlar da var.

Sanmayın canlılar nəzilə bilməz,
Dartmaqla, çəkməklə üzülə bilməz,
Nəqədər tapdansa nəzilə bilməz,
Azalıb taqəti olanlar da var.[762]

Sanmayın hamını yağ içindədir,
Cənnət içindədir, bağ içindədir,
Cızdaq içindədir, dağ içindədir,
Tükənib qüvvəti olanlar da var.

Sanmayın hamını avara gəzir,
Tapmayıb dərdinə bir çarə gəzir,
Əlacsız qalıbdır, biçarə gəzir,
Zəhməti, xidməti olanlar da var.[763]

Sanmayın hamını hərislik edir,
Nanəciblik edir, xəbislik edir,
Paxıllıq, xainlik ya pislik edir,
Hatəm səxavəti olanlar da var.[764]

---

[762] *II variant* Sanmayın qalındır, nəzilən deyil,
Dartmaqla, çəkməklə üzülən deyil,
Ha döysən başına əzilən deyil,
Tükənib taqəti solanlar da var.

[763] *II variant* Sanmaki çoxları itıb gedibdir,
Qərq olub qəflətə yatıb gedibdir,
1) Düşüb çamırlığa batıb gedibdir, 2) Vicdanı, məsləki satıb gedibdir,
Zəhməti, xidməti olanlar da var.

[764] *II variant* Sanmakı hamını hərislik edir,
Paxıldır, xaindir, xəbislik edir.
Nanəcib, namərdlik, naqislik edir,
Hatəm səxavəti olanlar da var.

*II variant* Sanmakı, hamı simiç, xəsisdir,
Paxıldı, xaindi, ya da xəbisdir,
Tamahkar, acgözdür, yaman hərisdir,
Hatəm səxavəti olanlar da var.

Sanmayın hamını əzbərçidirlər,
Arada söz yayan xəbərçidirlər,
Boşboğaz, avara, çərənçidirlər,
Öz sözü-söhbəti olanlar da var.[765]

Ay Cəmil, yanılıb hamı çaşmayıb,
Sərhəddi keçərək, həddi aşmayıb,
Qıcqırıb, qaynayıb, nə də daşmayıb,
Haqqı-ədaləti olanlar da var.

***Cəmil Əkbər*** 18. 08 - 1988

## 147. VAR

Neyləyək bu həyat keşməkeşlidir,
Bəd işlər, əməllər tutanlar da var.
Dünya həm yoxuşlu, həm enişlidir,
Şər deyib aranı qatanlar da var.

Səadət yolunda çalışan varsa,
Girib bəhsə-bəhsə yarışan varsa,
Töküb qantərini vuruşan varsa,
Qəflət yuxusunda yatanlar da var.[766]

Biri iffət çəkir, biri ar çəkir,
Biri yoldaş çəkir, biri yar çəkir,
Nəqədər qüvvəsi, gücü var çəkir,
Namusu, qeyrəti atanlar da var.[767]

Birisi düz çəkir, biri tərsinə,
Dedikcə sözlərin dəyir hirsinə,
Nəvecinə alır, nə də cinsinə,
Yaxşını-yamana qatanlar da var.[768]

---

[765] *II variant* Deməyin hamıya əzbərçi olub,
Arada sözyayan xəbərçi olub,
Boşboğaz olubdur, çərənçi olub,
Öz sözü-söhbəti olanlar da var.

[766] *II variant* Namusla, qeyrətlə çalışan varsa,
Düşüb bəhsə-bəhsə yarışan varsa,
Həm xeyir, həm şərə qarışan varsa,
Qəflət yuxusunda yatanlar da var.

[767] Abırı-isməti atanlar da var.

Birisi xoşlamır alıb-satmağı,
Qəflətlərə qərq olmağı, yatmağı,[769]
Namərdliklə məqsədinə çatmağı,
Mərdləri namərdə satanlar da var.

İgid var, adını özü qazanır,
Qohumu, yadını özü qazanır,
Tamını, dadını özü qazanır,
Dayı kölgəsində yatanlar da var. [770]

Adam var arzusu başa çatmayıb,
Ömürə çatmayıb, yaşa çatmayıb,[771]
Payıza yetişib, qışa çatmayıb,
Arada-bərədə itənlər də var.

Adam var dar gündə dayaq olubdur,
Nəsil-nəcabətə mayaq olubdur,
Yatmayıb qəflətdə oyaq olubdur,
Kol kimi yollarda bitənlər də var.[772]

Adam var dünyanın ləli sayılır,
Laləsi, nərgizi, gülü sayılır,[773]
Alimi, loğmanı, bəli sayılır,
Yapalaqsayağı ötənlər də var.[774]

---

[768] *II variant* Birinin düz çəkir öz tərəzisi,
Söhbət tərəzisi, söz tərəzisi,
Baxış tərəzisi, göz tərəzisi,
Yaxşını-yamana qatanlar da var.

[769] Şər danışıb, aralığı qatmağı.

[770] *II variant* İgid var, adını özü qazanır,
Əyrini tullayır, düzü qazanır,
Söhbəti qazanır, sazı qazanır,
Qəlbində buz dağı yatanlar da var.

[771] Ərsəyə gəlməyib, yaşa çatmayıb.

[772] *II variant* Adam var hamıya dayaq olubdur,
Yatmayıb qəflətdə oyaq olubdur,
Vətənə, xalqına mayaq olubdur,
Kol kimi yollarda bitənlər də var.

[773] Ətiri-gülüstan, gülü sayılır.

[774] 1)Sayılır, seçilir, bəli sayılır. 2)Tanınır, seçilir, bəli sayılır.

Adam var löhməyə, lilə qərq olub,
Düşüb çamırlığa, gölə qərq olub,
Fitnəyə qurşanıb, felə qərq olub,
Dırmaşıb zirvəyə çatanlar da var.[775]

Adam var haraya-həşirə gəlmir,
Çıxmayır meydana qənşərə gəlmir,
Almayır vecinə, nəzərə gəlmir,
Kişitək dadına yetənlər də var.[776]

Hərə bir peşədə, bir sənətdədir,
Ənənə, vərdişdə, bir adətdədir,
Başqa təbiətdə, xasiyyətdədir,[777]
Qorxaqlar varsa da, mətinlər də var.

Adam var həyəcan, hissi oyanır,
Nəsli, nəcabəti, cinsi oyanır,
Yaxşısı oyanır, pisi oyanır,
Qəlbində buz dağı yatanlar da var.

Dünya yaranandan belə yaranıb,
Kol-koslar yaranıb, gülə yaranıb,
Tülkülər, çaqqallar, dələ yaranıb,
Al-qumaş, zərxara, sətinlər də var.[778]

---

[775] *II variant* Adam var ilan tək yerdə sürünür,
Orda-burda veyil-veyil görünür,
İşlədikcə, tər tökdükcə ərinir,
Çalışıb zirvəyə çatanlar da var.

[776] *II variant* Adam var haraya, həşirə gəlmir,
Vecinə gətirmir, nəzərə almır,
Oxumur, öyrənmir, nədə ki, bilmir,
Yanından yel kimi ötənlər də var,

[777] Başqa xislətdədir təbiətdədir.

[778]*II variant* Əzəldən kainat belə yaranıb,
Gədələr varsada, lələ yaranıb,
1)Barama yaranıb, pilə yaranıb, 2) Daş-kəsək yaranıb, pilə yaranıb,
Qədəklər varsada, sətinlər də var.

Dünya dağılsada vecinə deyil,
Ocağına deyil, peçinə deyil,[779]
Sifətinə deyil, sincinə deyil, [780]
Qəlizlər, cılızlar, çətinlər də var.

Dünya yaranıbdır ağlı-qaralı,
Olmaynan ay Cəmil qəmli, yaralı,
Neyləyək, olubdur hərkəs aralı,[781]
Dar gündə qollardan tutanlar da var.

***Cəmil Əkbər*** 19-20 / 08 – 1988

**148. VAR (1)**

Şair təbiətli doğulmuşam mən,
İlhamım, həvəsim, hissiyyatım var.
Sanmayın bu yolda, soğulmuşam mən,
Dözümüm, durumum, dəyanətim var.[782]

Mərdləri namərdə satan deyiləm,[783]
Yaxşını yamana qatan deyiləm,
Gədə kölgəsində yatan deyiləm,
Mənim öz əslim var, nəcabətim var.

Məhəbbət şahinim dağları aşır,
Dövr edir bədəndə, al-qanım coşur,
İdrakım, düşüncəm qaynayıb daşır,
Qəlbimdə sönməyən hərarətim var.[784]

---

[779] Qoluna, dizinə, qılçına deyil.
[780] Günahına deyil, suçuna deyil.
[781] Yaşasa, olsa da hərkəs aralı.
[782] *II variant*
Şair təbiətli doğulmuşam mən,
İlhamım, düşüncəm, hissiyyatım var.
Fikir dəryasında boğulmuşam mən,
Dönmərəm yolumdan dəyanətim var.

*III variant*
Şair təbiətli doğulmuşam mən,
Xəyalım, ilhamım, hissiyyatım var.
Fikir dəryasında boğulmuşam mən,
Hələ çox dözümüm, dəyanətim var.

[783] İnsafı, mürvəti atan deyiləm.
[784] *II variant*
Məhəbbət şahinim dağları aşır,
Dövr edib bədəndə, al-qanım daşır,
1)Seyr edir xəyalım, ilhamım coşur, 2) Xəyalım seyr edir, ilhamım coşur,
3) Məqamı gəldikcə şeirlər qoşur.
Yazıram xalqıma nəsihətim var.

Dağıtmadım, talamadım, sökmədim,
Heç birkəsin qamətini bükmədim,[785]
Qan qaraldıb zəhlələri tökmədim,
İnsanam-insana sədaqətim var.

Hər yetənlə oturmuram, durmuram,
Xəbər tutub əhvalını sormuram,
Nə özgəni, nə özümü yormuram,
Əhli-hal insanla ünsiyyətim var.[786]

Mənə yol göstərir hər yetən qanmaz,
Dünya alışsada bir tükü yanmaz,
Abırdan, həyadan eldən utanmaz,
Anlayıb qanmır ki, min hikmətim var.[787]

Yaxşını yamanlar inkar eyləyir,
Günəşi dumanlar inkar eyləyir,
Kirpini ilanlar inkar eyləyir,
Qanmazdan qanana şikayətim var.[788]

---

*III variant* Məhəbbət şahinim dağları aşır,
İdrakım, düşüncəm qaynayıb daşır,
Gözəllik eşqilə dastanlar qoşur,
Qəlbimdə sönməyən hərarətim var.

785 1) Mərd igidin qamətini bükmədim, 2) Birkimsənin qamətini bükmədim.

786 *II variant* Hər yetənlə oturmadım, durmadım,
Nə özgəni, nə özümü yormadım,
Üzə gülüb arxalardan vurmadım,
Xeyirxah kəslərlə ünsiyyətim var.

787 *II variant* Mənə öyüd verir hər yetən qanmaz,
Vicdandan, məsləkdən, eldən utanmaz,
Dünya alışsada bir tükü yanmaz,
Anlamır özümün nə halətim var.

788 *II variant* Yaxşını yamanlar eyləyir inkar,
Qanmazlar qananı eyləyir inkar,
Günəşi dumanlar eyləyir zinhar,
Qanmazdan qanana şikayətim var.

*III variant* Qanmazlar qananı edirlər inkar,
Anlaya bilməyir açıq açıq-aşikar,
1)Demirlər bu işdə kimdir günahkar, 2) Qurub yaratmayır, edir tarımar,
3) Didərək qəlbini edir tarımar,
İnsandan-insana şikayətim var.

İstəyim budur ki, qanmayan qansın,
Eşqin, məhəbbətin oduna yansın,
Bəd işlər görməsin, eldən utansın,
Desin ki, insanam, şəxsiyyətim var.

İnsafımı, vicdanımı atmadım,
Namərdlərin kölgəsində yatmadım,
Min sifətlə məqsədimə çatmadım,[789]
Mənim öz dastanım, hekayətim var.

Mənə yol göstərir hər yetən qanmaz,
Vicdandan, məsləkdən, eldən utanmaz,[790]
Dünya alışsa da bir tükü yanmaz,
Bilmirki özümün nə halətim var?[791]

Eşqin-məhəbbətin divanəsiyəm,
Qəlbi donuqların biganəsiyəm,[792]
Atamın, anamın dürr danəsiyəm,[793]
Mənim öz aləmim, ülviyyətim var.

Haqqın yollarından azmaram əsla,
Ayaqlar altından qazmaram əsla,
Doğrunu əyriyə yozmaram əsla,
Mənim öz ülfətim, xasiyyətim var.[794]

Dolanıb aləmi, gəzdim həryanı,[795]
Şirvan, Qarabağı, Mili, Muğanı,[796]
Sevirəm vətənim Azərbaycanı,[797]
Mənə bəxş etdiyi ləyaqətim var.

---

[789] 1) Arsız-arsız məqsədimə çatmadım, 2) Bədəməllə məqsədimə çatmadım.
2) Heçkimsəyə bir dənə daş atmadım.
[790] 1) Abırsız, həyasız eldən utanmaz. 2)Abırdan, həyadan, eldən utanmaz.
[791] Anlayıb qanmır ki, min hikmətim var.
[792] Odlara qərq olan pərvanəsiyəm.
[793] Atamın, anamın yeganəsiyəm.
[794] *II variant* Ayaqlar altından quyu qazmadım,
Şər danışıb fitnə-fəsad yazmadım,
İlqarımı, öz əhdimi pozmadım,
Atadan, babadan öz adətim var.
[795] 1) Dolandım dünyanı, gəzdim həryanı. 2) Dolandım hərləndim, gəzdim həryanı.
[796] 1)Gəncəni, Bakını, Mili, Muğanı. 2) Gözlədim hörməti, süfrəni, nanı.
[797] Sevmişəm vətənim Azərbaycanı.

Cəmiləm, tanıyıb biləməyən bilsin,
İstəyir sevinsin, istəyir gülsün,[798]
İstəyir darılsın, istəyir ölsün,[799]
Mənim öz fəhmim var, fərasətim var.[800]

***Cəmil Əkbər*** 14. 01 - 1976

### 149. VAR (2)

Heçkimsə girməsin qəsdimə mənim,
Mənim öz ülfətim, ünsiyyətim var.
Qoy ayaq almasın üstümə mənim,
Elin nəzərində şəxsiyyətim var.

Eşidib bilənlər qınamasınlar,
Hər addımbaşında sınamasınlar,
Gah belə, gah elə tanımasınlar,
Mənim soykeküm var, nəcabətim var.

Bezmişəm kütbeyin, gədadan, keydən,
Gicbəsər, yelbeyin, dəngəsər, səydən,
Acgözdən, hərisdən, xəsisdən, göydən,
Mənim öz aləmim, hekayətim var.

Heçkəsin bağına əsməmişəm mən!
İncidib, inciyib küsməmişəm mən!
Əlimi əlindən kəsməmişəm mən!
Özümün-özümdən şikayətim var.

Dünyada heçkəsə pislik etmədim,
Nə paxıllıq, nə də nəslik etmədim,
Nə höcətlik, nə də tərslik etmədim,
Mənim öz ənənəm, öz adətim var.

Qəddi-qamətləri əyən deyiləm,
Haqqını tapdayıb döyən deyiləm,
Malını, mülkünü yeyən deyiləm,
Mənim öz xidmətim, öz zəhmətim var.

---

[798] İstəyir ağlasın, istəyir gülsün.
[799] İstəyir partlasın, istəyir ölsün.
[800] Bilsin ki, fəhmim var, fərasətim var.

Dünyada heçkəsə həsəd çəkmirəm,
Yalvarıb, yaxarıb nə də çökmürəm,
Gözyaşımı leysan edib tökmürəm,
Mənim öz yüküm var, öz möhnətim var.

Mənki öz dərsimi haqdan almışam,
Doğulan günümdən çoxdan almışam,
Gözləri-könülü toxdan almışam,
Onun dərgahına sədaqətim var.

***Cəmil Əkbər***

### 150. VAR (3)

Sən mənə belə yaz, elə yaz demə!
Mənim öz sözüm var, öz söhbətim var.
Belə səbr eləyib, elə döz demə![801]
Mənim öz dözümüm, dəyanətim var.[802]

Sən mənə belə de, elə de demə!
Belə çahar demə, elə se demə!
Belə parçalayıb, elə ye demə![803]
Mənim öz iştahım, öz qismətim var.

Sən mənə belə dur, elə dur demə![804]
Belə yarat demə, elə qur demə!
Belə nişan alıb, elə vur demə!
Mənim öz istəyim, öz niyyətim var.[805]

Yolumdan-izimdən döndərmə zalım,
Yanırsa çırağım söndürmə zalım,
Yüksələn kimsəyəm, endirmə zalım,
Mənim öz arzum var, öz niyyətim var,

Əzəldən obaya-elə bağlıyam,
Bülbüləm çəmənə, gülə bağlıyam,
Fikir dəryasıyam, selə bağlıyam,
Yazmışam, öyrənin, külliyyatım var.[806]

---

[801] Belə yoz, elə yoz, belə poz demə.
[802] 1) Mənim öz durumum, dəyanətim var. 2) Mənim öz mənam var, məziyyətim var.
[803] Belə döşür demə, elə ye demə.
[804] Belə otur demə, elə dur demə!
[805] 1) Mənim öz diləyim, öz niyyətim var! 2) Mənim öz iradəm, qətiyyətim var.

Sən mənə belə sev, elə sev demə!
Belə imarət al, elə ev demə!
Belə zirvə demə, elə dib demə!
Mənim öz eşqim var, məhəbbətim var.

Sən mənə belə gəz, elə gəz demə!
Belə sinə gərib, elə döz demə!
Belə şeir yazma, elə söz demə!
Mənim öz düşüncəm, hissiyatım var.

Belə dövran edib, elə gəz demə!
Belə cığır salıb, elə iz demə!
Belə qəvvas olub, elə üz demə!
Mənim öz tərsanəm, yönüm, səmtim var.

Ağrıdıb qəlbimi incitmə gəl sən,
Nə yersiz böyütmə, kiçiltmə gəl sən,
Namərdlik eyləyib əksiltmə gəl sən,
Mənim öz mənliyim, keyfiyyətim var.

Belə alış demə, elə yan demə!
Belə sızıldayıb, elə can demə!
Belə  düşün demə, elə qan demə!
Mənim öz idrakım, hissiyyatım var.

Sən mənə belə bax, elə bax demə![807]
Belə aşıb-daşıb, elə ax demə![808]
Belə guruldayıb, elə çax demə!
Mənim öz qüvvətim, öz qüdrətim var.[809]

İncidir qəlbimi hicranın yeli,
Sərraf axtarıram, görəydi ləli,
Deyəydi tapmışam tanıdım, bəli!
Mənim öz dəyərim, öz qiymətim var.[810]

---

[806] Oxuyan görər ki, külliyyatım var.
[807] 1) Belə seyr eləyib, elə bax demə.  2) Belə nəzər salıb, elə bax demə.
[808] Beləcə sellənib, elə ax demə.
[809] Mənim öz gücüm var, öz qüdrətim var.
[810] *II variant*
Xətrimə toxunub, qəlbimə dəymə,
Artırıb dərdimi, qəddimi əymə,
Üzümə irişib, arxamdan söymə,
Mənim öz dəyərim, öz qiymətim var.

Sən mənə belə as, elə kəs demə!
Belə inci demə, elə küs demə!
Belə bədxah demə, elə nəs demə!
Mənim öz insafım, öz mürvətim var.

Ulduzamsa bədirlənmiş ay demə!
Ümmanamsa sısqa bulaq, çay demə!
Yaxşıyamsa, yaman bilib, zay demə![811]
Mənim öz mənliyim, ləyaqətim var.[812]

Hər ilin öz ayı, öz fəsli vardır,
İnsan övladının öz nəsli vardırı,
Soykökü-kömənci, öz əsli vardır,
Mənim də öz köküm, nəcabətim var.

Dərrakıma, kamalıma kəm demə!
Məsləkimə, amalıma kəm demə!
Görkəmimə, camalıma kəm demə!
Mənim öz varlığım, şəxsiyyətim var.[813]

Sən məni kimsəsiz, dayəsiz sanma,
Əqidə, məsləksiz, qayəsiz sanma,
Abırsız, ismətsiz, həyasız sanma,
Mənim öz abrım var, öz ismətim var.

Toxunub qəlbimə, dəymə şəsdimə,
Durma qərəzimə, girmə qəsdimə,[814]
Əbəs yerdən ayaq alma üstümə,[815]
Mənim öz fəhmim var, fərasətim var.

---

[811] 1)Yaxşıyamsa, insaf eylə, zay demə. 2) Hər yetənə yoldaş demə, tay demə.

[812] *II variant* Mən günəşəm, bədirlənmiş ay demə,
Mən ümmanam, sısqa bulaq, çay demə,
Mən igidəm, namərdlərə tay demə,
Mənim öz mənliyim, şəxsiyyətim var.

[813] *II variant* Dərrakama, kamalıma darılma,
Qol-qılçıma buxov olub sarılma,
Gəl içindən nə çatdama, qırılma,
Mənim öz varlığım, şəxsiyyətim var.

[814]*II variant* 1) Qərəzlə, qisasla girmə qəsdimə, 2) Xainlik eyləmə, girmə qəsdimə,
3) Bais olma başdan qalxan tüsdümə.

[815] Ayaq alma əbəs yerdən üstümə.

Nə xainlik, nə xəbislik bilmərəm,
Nə acgözlük, nə hərislik bilmərəm,
Nə höcətlik, nə də tərslik bilmərəm,[816]
Mənim öz ənənəm, öz adətim var.

Mənə yolgöstərən öz vicdanımdır,
Dərrakəm, düşüncəm, öz idrakımdır,[817]
Əqidəm, məsləkim, yol-ərkanımdır,
Mənim öz xidmətim, öz zəhmətim var.

Ömür-gün keçirib yaşa dolmuşam,
Kamala çatmışam, huşa dolmuşam,
Elmə, mərifətə qoşa dolmuşam,
Öz qüvvəm, qüdrətim, əlamətim var.

Demirəm dünyada təkəm, tənhayam,
Ulduzam, günəşəm, yadakı ayam,
Dənizəm, ümmanam, çeşməyəm, çayam,[818]
Elimə, xalqıma məhəbbətim var.[819]

Fikir dəryasında lövbər qurmuşam,
Xəyal aləmində saray qurmuşam,
Sözdən topdağılmaz qala qurmuşam,
Nəşrsiz nəqədər külliyatım var?

Dolanın dünyanı, gəzin cahanı,
Qatıb-qarışdırma yaxşı-yamanı,
Axtarın, sözümdən seçin mənanı,
Mənim öz məğzim var, məziyyətim var.

Qorxmuram nadandan, qorxmuram səydən,
Qorxmuram kütbeyin, qorxmuram keydən,
Qorxmuram nə xandan, nədə ki, bəydən,
Mənim öz cəsarət, öz cürətim var.

---

[816] Nanəciblik, nə naqislik bilirəm,
[817] Öz əqlim, düşüncəm, öz idrakımdır.
[818] Dənizəm, ümmanam, gur axan çayam.
[819] Elimə, xalqıma öz minnətim var.

Bizdən görməyibdir bir adam pislik,
Xainlik, paxıllıq, nə də xəbislik,
Acgözlük, quldurluq, nə də hərislik,
Dədədən-babadan əsl-zatım var.

Mənki heçbirkəsə həsəd çəkmirəm,
Əyilib, bükülüb nə də çökmürəm,
Yay kimi qəddimi əyib bükmürəm,
Mənim öz məzmunum, öz hikmətim var.

Gəzdim el-obanı, Azərbaycanı,
Halaldan kəsb olan süfrəni, nanı,
Cəmiləm gözlədim yolu-ərkanı,
Mənim öz abırım, öz ismətim var.

***Cəmil Əkbər***

**151. VAR (4)**

Sən mənə belə sev, elə sev demə!
Mənim öz eşqim var, məhəbbətim var.
Belə palıd, cökə, elə şiv demə!
Mənim öz dözümüm, dəyanətim var.

Sən mənə belə ol, elə ol demə!
Belə yaşa demə, elə qal demə!
Belə açıl demə, elə sol demə!
Mənim öz ətrim var, təravətim var.

Sən mənə belə gəl, elə get demə!
Belə cücər demə, elə bit demə!
Belə cəh-cəh vurub, elə öt demə!
Mənim öz gücüm var, ləyaqətim var.

Sən mənə belə gəz, elə gəz demə!
Belə sinə gərib, elə döz demə!
Belə qəvvas olub, elə üz demə!
Mənim həvəsim var, öz riqqətim var.

Sən mənə belə qur, elə qur demə!
Belə otur demə, elə dur demə!
Belə nişan alıb, elə vur demə!
Mənim insafım var, öz mürvətim var.

Sən mənə belə yaz, elə yaz demə!
Belə oxşat demə, elə yoz demə!
Belə külüngləyib elə qaz demə!
Mənim öz fəhmim var, fərasətim var.

Sən mənə belə qan, elə qan demə!
Belə törpüləyib, elə yon demə!
Belə alış demə, elə yan demə!
Mənim öz odum var, hərarətim var.

Sən mənə eləsən, beləsən demə!
Höcətsən, inadsan, piləsən demə!
Ağasan, nökərsən, köləsən demə!
Mənim öz əslim var, öz xislətim var.

Sən mənə aqilsən, keysən də demə!
Xəsissən, simicsən, göysən də demə!
Kəmağıl, kütbeyin, səysən də demə!
Mənim öz zəhmətim, öz xidmətim var.

Sən mənə nə barış, nə də küs demə!
Belə gizlən demə, elə pus demə!
Cəmilə belə as, elə kəs demə!
Mənim öz sovum var, kəsarətim var.

***Cəmil Əkbər*** 10. 06 -1989

**152. VAR (5)**

Sən mənə belə vur, elə vur demə![820]
Mənim öz qolum var, öz biləyim var.
Belə otur demə, elə dur demə!
Mənim öz arzum var, öz diləyim var.

Mən səndən nə sovqat, nə pay ummuram,
Nə çörək, nə xörək, nə çay ummuram,
Nə payız, nə də qış, nə yay ummuram,[821]
Mənim öz arxam var, öz köməyim var.

---

[820] Sən mənə beylə dur, eylə dur demə.
[821] Nə payız, nə də qış, nə yay ummuram.

Heçkəsin varına darılmıram mən,
Çatdayıb içimdən qırılmıram mən,
Hərcürə var-hala vurulmuram mən, [822]
Mənim öz xidmətim, öz əməyim var.

Sən mənə beylə qaç, eylə qaç demə!
Beylə güzar edib, eylə köç demə!
Beylə tərlan olub, eylə uç demə!
Mənim öz qanadım, öz ləleyim var.

Doğru gedirəmsə, "Yola gəl"- demə!
Sağa nəzər salıb, sola gəl, demə!
Beylə xəlbirlənib, ələ gəl demə!
Mənim öz xəlbirim, öz ələyim var.

Sən mənə beylə de, elə de, demə!
Beylə bişir-düşür, elə ye, demə!
Günahı, savabı elə yu, demə!
Mənim öz süfrəm var, öz çörəyim var.

Deməki, səndəki məhəbbət hanı?
Sədaqət, səxavət, kəramət hanı?
Ədəb-ərkan hanı, nəzakət hanı?
Mənim öz ciyərim, öz ürəyim var.

İnana bilmirəm hər yetən kəsə,
Hər cücərən kəsə, hər bitən kəsə,
Hər tapılan kəsə, hər itən kəsə,
Mənim öz hurim var, öz mələyim var.

Demə ki, ay Cəmil karsız adamsan,
Ulğun təbiətli, barsız adamsan,
Qohumsuz, qardaşsız, yarsız adamsan,
Mənim öz sütunum, öz dirəyim var.

***Cəmil Əkbər*** 5. 09 – 1994

---

[822] Könüldən-könülə vurulmuram mən.

## 153. VAR

Göydə qanad çalan quş da bir deyil,
Tərlan olan da var, sar olan da var.
Torpaq da bir deyil, daş da bir deyil,
Kəsək olan da var, zər olan da var.

Yaxşı da yaranıb, pis də yaranıb,
Zalım da, bədxah da, nəs də yaranıb,
Höcət də, inad da, tərs də yaranıb,
Əqrəb də, iblis də, mar olan da var.

Hamının söhbəti, sözü bir deyil,
Yolağı, cığırı, izi bir deyil,
Nəzəri, diqqəti, gözü bir deyil,
Gözləri olsa da, kor olan da var.

İnsan xilqətinin hamı başqadır,
Dövranı başqadır, namı başqadır,
Meyvə də meyvədir tamı başqadır,
Peyvənd olan da var, cır olan da var.

Adam var həryandan sədası gəlir,
Sığmır yerə-göyə ədası gəlir,
Dəryanın içindən adası gəlir,
Nihan olan da var, sirr olan da var.

Hərəyə bircürə baş verib fələk,
Düşüncə, dərrakə, huş verib fələk,
Vəzifə tapşırıb, iş verib fələk,
Qorxaq olan da var, ər olan da var.

Dünyada kefini görən də çoxdur,
Qazanıb nəfini görən də çoxdur,
Aldığı borcunu verən də çoxdur,
Bədnam olan da var, xar olan da var.

Çoxları qazanıb var sahibidir,
Yoldaş sahibidir, yar sahibidir,
Qeyrət gözləyibdir, ar sahibidir,
Gen dünya başına, dar olan da var.

Çoxları vicdanı, məsləki satıb,
Qərq olub qəflətdə haçandır yatıb,
Şər deyib, danışıb aranı qatıb,
Qulağı olsada, kar olan da var.

Heyvan da heyvandır, hünəri başqa,
Cəsarəti başqa, təpəri başqa,
Qələbəsi başqa, zəfəri başqa,
Tülkü olan da var, şir olan da var.

***Cəmil Əkbər*** 17. 04 – 1994

### 154. VAR

Əzməyin hamını gücsüzdür deyə,
Qüvvətsiz, taqətsiz, girsizdir deyə,
Əfəldi, fəqirdi, fərsizdir deyə,
Hiddət varsa, nifrət varsa, zor da var.

Deməyin pozulub, yox əhdi-peyman,
İtibdir arada din-məzhəb, iman,
Yetişir haraya Sahibi-zaman,
Oğru varsa, əyri varsa, tor da var.

Nə bacarsan çoxlu qazan hörməti?
Sədaqəti, səxavəti, mürvəti?
Ucuz tutma bu mənəvi sərvəti?
Namus varsa, ismət varsa, ar da var.[823]

Hər şeyin dünyada öz adı vardır,
Doğru adı vardır, düz adı vardır,
Dərin adı vardır, üz adı vardır,
Alma varsa, heyva varsa nar da var.

Sanmayın hamını pozulub gedib,
Tərsinə çevrilib yozulub gedib,
Usanıb, yorulub, sozalıb gedib,
Eşq varsa, sevgi varsa, yar da var. [824]

---

[823] Namus varsa, qeyrət varsa, ar da var.

Keyfiyyət var hər insanın özündə,
Fikirində, xəyalında, sözündə,
Baxışında, nəzərində, gözündə,
Zülal varsa, şəkər varsa, şor da var.

Hərkəsdənin sinəsində, döşündə,
İdrakında, düşüncədə, huşunda,
Təfəkkürdə, təxəyyüldə, guşində,
İsti varsa, soyuq varsa, qar da var.

Bu dünyanın havasını gəl duyaq,
Hər dərdlərə dəvasını gəl duyaq,
Cəfasını, səfasını gəl duyaq,
Dinləməyə kaman da var, tar da var.

Oğul odur yaxşı-pisi tez görə,
Sərvaxt ola, yanılmaya düz görə,
Xətir qoya, hörmət edə, üz görə,
Gəlir də var, qazanc da var, cır da var.

Hamı görünsədə insan donunda.
Hərlənsədə, fırlansada yanında,
Bəlli olur mənlikləri sonunda.
Kirpi də var, əqrəb də var, mar da var.

Axtarana, arayana, tapana.
Xətalardan, bəlalardan sapana,
Fərhad olub dağı, daşı çapana,
İnci də var, sədəf də var, dür də var.

Yaradana, yaşadana, qurana,
Səhər tezdən yuxusundan durana,
Zəhmət çəkib tər tökənə, yorana,
Məhsul da var, nemət də var, bar da var.

Gözəl həyat, xoş dövranın yolunda,
Eniş-yoxuş, dağ-aranın yolunda,
Dolanışıq, güzəranın yolunda,
Hünər də var, zəhmət də var, tər də var.

---

[824] Aşiq varsa, məşuq varsa yar da var.

Gör nəqədər mənalar var sözlərdə?
Baxışlarda, duruşlarda, gözlərdə?
Tər buxaqda, yanaqlarda, üzlərdə?
Abır da var, həya da var, nur da var.

Hamı görsün həqiqəti anlasın,
Ünsiyyətdə dəyanəti anlasın,
Məna dolu məziyyəti anlasın,
Dadlı-dadsız, şirin, acı bar da var.

Kiçik çaylar qürrələnib çaşmasın,
Məcrasını, sərhəddini aşmasın,
Öz-özünə sellənməsin, daşmasın,
Tərtər də var, Araz da var, Kür də var.

Heçkəs boğulmasın kefin içində,
Gəlirin içində, nəfin içində,
Nöqsanın içində, səhvin içində,
Qüssə-kədər, qəhər, ahu-zar da var.

Həyat yollarını nə bilmək olur?
Gərdişi-dövrana nə gülmək olur?
Çox yerə nə getmək, nə gəlmək olur,
Gədik də var, tufan da var, qar da var.[825]

Cəmil Əkbər, bu yolları düz görür,
Gələcəyə nəzər salıb iz görür,
Deyiləsi neçə-neçə söz görür,
Qaya da var, qıpcaq da var, xır da var.

***Cəmil Əkbər*** 26. 01 – 1989

**155. VAR**

Ünvanını tanımayan,
Gör nəqədər səmələr var?
Babasını unamayan,
Gör nəqədər nəvələr var?

---

[825] Çalpoy da var tufan da var, qar da var.

Həqiqətə xor baxanlar,
Qarov olub, kor baxanlar,
Əqrəb, çayan, mar baxanlar,
Gör nəqədər zədələr var?

Ləyaqətdən uzaq düşən,
Məzlum olan, yazıq düşən,
Hərarətdən sazaq düşən,
Gör nəqədər gədələr var?

Babasına lağ eyləyən,
Həddi aşıb, ağ eyləyən,
Kef-damağı çağ eyləyən,
Gör nəqədər bəbələr var?

Adı nifrətdə çəkilən,
Qəzəb, hiddətdə çəkilən,
Kində, küdrətdə çəkilən,
Gör nəqədər dədələr var?

İnsanlığa gözyuman var,
Yolkəsənlər, izyuman var,
Fikir, diqqət, sözyuman var,
Gör nəqədər hədələr var?

***Cəmil Əkbər*** 26. 03 – 1987

## 156. O GÜN DƏ VAR, BU GÜN DƏ VAR

Vaxt olub ki, dağ aşardım,
O gün də var, bu gün də var.
Sel kimi coşub daşardım,
O gün də var, bu gün də var.

Yeyib-içib, kef edərdim,
Özüm üçün nəf edərdim,
Gündə min cür səhv edərdim,
O gün də var, bu gün də var.

Ha çalışsam yorulmazdım,
Sağa-sola burulmazdım,
Ha əyilsəm qırılmazdım,
O gün də var, bu gün də var.

Zəhmət çəkib tər tökərdim,
İnci səpib, zər tökərdim,
Xeyir əkib, şər sökərdim,
O gün də var, bu gün də var.

Vaxt olubki oyanmışam,
Al-şəfəqə boyanmışam,
İndi harda dayanmışam?
O gün də var, bu gün də var.

Vaxt olubki ucalmışam,
Zəfər çalıb, bac almışam,
El-obadan güc almışam,
O gün də var, bu gün də var.

Vaxt olubki sevinmişəm,
Hünərimlə öyünmüşəm,
Aldan-şaldan geyinmişəm,
O gün də var, bu gün də var.

Vaxt olubki məzələndim,
Altdan-üstən təzələndim,
Ha sökdülər çözələndim,
O gün də var, bu gün də var.

Vaxt olubki qəmə düşdüm,
Zildən pəsə, bəmə düşdüm,
Dağda-daşda çənə düşdüm,
O gün də var, bu gün də var.

Şükür Xudamın işinə,
Dövranına, gərdişinə,
Gözəl-göyçək vərdişinə,
O gün də var, bu gün də var.

Vaxt olubki inanmışam,
Bərkdə-boşda sınanmışam,
Vaxt olubki qanmamışam,
O gün də var, bu gün də var.

Vaxt olubki görmüşəm də,
Bağlar salıb dərmişəm də,
Almışam da, vermişəm də,
O gün də var, bu gün də var.

Vaxt olubki ağlamışam,
Bağrın başın dağlamışam,
Əsib-coşub çağlamışam,
O gün də var, bu gün də var.

Cəmil Əkbər qəhərlənmə,
Hər yetəndə zəhərlənmə,
Haldan-hala təhərlənmə,
O gün də var, bu gün də var.

***Cəmil Əkbər*** 29. 03 – 1993

**157. VAR**

Dəli könül darılma çox,
O gün də var, bu gün də var.
İçin-için qırılma çox,
O ün də var, bu ün də var.

Vaxt oldu ki, kefi gördük,
Azdan-çoxdan nəfi gördük,
Zurna, qaval, dəfi gördük,
O günəş də, bu çən də var.

Kef yanında qəm də olur,
Zil yanında bəm də olur,
Əyər-əksik, kəm də olur,
O dəm də var, bu dəm də var.

Zimistan da, yaz da gördük,
Çox da gördük, az da gördük,
İşvə, qəmzə, naz da gördük,
O çəm də var, bu çəm də var.

Açan-açdı, solan-soldu,
Gedən-getdi, qalan-qaldı,
Bu həyatda nələr oldu?
O an da var, bu an da var.

Üzən-üzdü, batan-batdı,
Qəflətlərdə yatan-yatdı,
Qaçan-qaçdı, tutan-tutdu,
Yorulan da, qovan da var.

Dünən gədə, bu gün dədə,
Sağ bədənə düşür zədə,
Vaxt gözləmir, gəlir vədə,
O son da var, bu son da var.

Dayanmayır gələn gedər,
Çəkmə qüssə, nə də qəhər,
Çürütməynən canı hədər,
Sarvan da var, karvan da var.

Dinən susur, susan dinir,
Sönən yanır, yanan sönür,
Enən qalxır, qalxan enir,
O yan da var, bu yan da var.

Hamı gərək düz anlaya,
Mətləb qanıb söz anlaya,
Gecikməyə, tez anlaya,
Azar da var, bezar da var.

Qəflətlərdən oyan Cəmil,
Az qəhər çək, dayan Cəmil,
Al-şəfəqə boyan Cəmil,
O sin də var, bu sin də var.

***Cəmil Əkbər*** 29.09 -1998

**158. VAR**

Nələr görür gözlər Allah?
Nə xətir var, nə hörmət var.
Buna necə dözüm Allah?
Nə insaf var, nə mürvət var.

Meydan açıb həyasızlar,
Məsləksizlər, qayəsizlər,
Tərbiyəsiz dayəsizlər,
Nə abır var, nə ismət var.

Alim olub başıboşlar,
Vicdanıkəm, qəlbidaşlar,
Filə hürür alabaşlar,
Nə zəhmət var, nə xidmət var.

Dühalar da kütləşibdir,
Müqəvvatək bütləşibdir,
Cahil, nadan cütləşibdir,
Nə nəzər var, nə diqqət var.

Başa çıxıb kərəvəngi,
Qolu zorlu pezəvəngi,
Mat qalıbdır Ərəbzəngi,
Nə məna var, nə hikmət var.

Hamı vurub arsızlığa,
Söyüd kimi barsızlığa,
Ulğuntəki karsızlığa,
Nə namus var, nə qeyrət var.

Gədələr azıb yolunu,
Tanımayır sağ-solunu,
Bağ anlayır öz kolunu,
Nə cəza var, nə töhmət var.

Bahalıqdır dükan, bazar,
Artıb dərdi-qüssə, azar,
Gəlib çıxıb beylə güzar,
Nə dəyər var, nə qiymət var.

***Cəmil Əkbər*** 2. 12 - 1991

## 159. VAR

Desələr: müqəddəs saydığın nədir?
Deyərdim: səfalı bir diyarım var.
Dostlara verməyə hədiyəm nədir?
Deyərdim: vəfam var, etibarım var.[826]

Desələr nədəndir qüvvətin sənin?
Nədəndir dövlətin, sərvətin sənin?
Nədəndir istəyin, hörmətin sənin?
Deyərdim: düz əhdim, düz ilqarım var.

Desələr: quş kimi uçdun nədəndir?
Çox çətin yolları keçdin, nədəndir?
Yaxşını, yamanı seçdin nədəndir?
Deyərdim: bunlara iqtidarım var.

Azaddır Vətənim, xoşbəxtdir insan,[827]
Könüldə qüssə yox, gözlərdə leysan,
Bilib sənətini yaxşıca qansan,
Deyərdim: alınmaz ixtiyarım var.

Desələr: qaşqabaq tökülüb nədən?
Dişlərin vədəsiz sökülüb nədən?
Baş ağarıb, qəddin bükülüb nədən?[828]
Deyərdim: dilbilməz bir nigarım var.

Hərcayılar nəzərindən salsa da,
Gül-çiçəklər xəzan olub solsa da,
Cəmil uymur nə fitnəyə, fəsada,
Mənim öz ərkanım, öz şikarım var. [829]

***Cəmil Əkbər*** 1956

---

826 *II variant* Sorsalar dostluğa hədiyyən nədir?
Deyərdim qəlbimdə etibarım var.
Desələr müqəddəs saydığın nədir?
Deyərdim könlümdə etibarım var.

827 Ölkəmdə azaddır, xoşbəxtdir insan.

828 Qamətin əyilib, bükülüb nədən?

829 *II variant* Qədirbilməz nəzərindən salsa da,
Qulluğunda, xidmətində qalsa da,
Cəmil uymur nə fitnəyə, fəsada,
Deyir öz ərkanım, öz şikarım var.

### 160. VAR?

Özgədən nə deyim, nə danışım mən?
İlahi nəqədər giclərimiz var?
Xeyrinə, şərinə nə qarışım mən?
İlahi, nəqədər kəclərimiz var?

Düşünüb, dərk edən, qanan azalıb,
Ellərin dərdinə yanan azalıb,
Xətiri-hörməti anan azalıb,
İlahi, nəqədər öclərimiz var?

Çoxları məxfidir, tanınmır qardaş,
Sayılıb seçilmir, unınmır qardaş,
Enişdə, yoxuşda sınınmır qardaş,
İlahi, nəqədər heclərimiz var?

Söhbəti başqadır, sözü başqadır,
Astarı başqadır, üzü başqadır,
Yolları, çəhlimi, izi başqadır,
İlahi, nəqədər biclərimiz var?

Nəqədər ləyaqət yox olub gedir,
Tuşlanıb gözlərə, ox olub gedir,
Tamahkar, acgözlər tox olub gedir,
İlahi, nəqədər "güclərimiz" var?

***Cəmil Əkbər*** 17.03 – 1992

### 161. VAR

Barlı-bərəkətli gözəl dünyada,
Heyif ki, kol kimi bitənlər də var.
Səndən də, məndən də əzəl dünyada,
Nəqədər məhv olub itənlər də var.[830]

Nə boyda, biçimdə hamı bir deyil,
Nurani, ağsaqqal, nə də pir deyil,
Buki aşikardır, bilki sirr deyil,
Dar gündə haraya yetənlər də var.

[830] Nəqədər, ad-sansız itənlər də var.

İnsafı-mürvəti yada salaraq,
Ovxara, kəsərə zada salaraq,
Xətiri, hörməti moda salaraq,
Yorulan qollardan tutanlar da var.

Neyləyək, əfsus ki, karsız da çoxdur?!
Söyüd ağacıtək barsız da çoxdur?!
Abırsız, ismətsiz, arsız da çoxdur?!
Qərq olub qəflətdə yatanlar da var.

Ədəbdən, mərfətdən xəbəri yoxdur,
Sorağı gəlməyir, ətəri yoxdur,
Könül dəftərində sətiri yoxdur,
Gedib çamırlıqda yatanlar da var.

Ay Cəmil, nə deyək qanmayanlara?
Bədxahlıq etməkdən yanmayanlara?
Xeyirxah bəndəni anmayanlara?
Vicdanı, məsləki satanlar da var.

***Cəmil Əkbər*** 31. 12 – 1990

**162. VAR**

Nə deyim, dünyanın işi belədir?
Gül-çiçək varsa da, tikanlar da var!
Kimi bəylik edir, kimi kölədir?
Quranlar varsa da, sökənlər də var!

Birisi bəşərə sevinc gətirir,
Biri ətir saçır, müjdə yetirir,
Biri calaq vurur, peyvənd bitirir,
Bezdirib zəhləni tökənlər də var!

Birisi insana xidmət eyləyir,
Səxavət göstərir, hörmət eyləyir,
Mərhəmət göstərir, mürvət eyləyir,
Vurub qamətləri bükənlər də var!

Ünsiyyət-ülfətdə bilmir yerini,
Çəkməyir zəhməti, tökmür tərini,
İnciməsin, biz açdıqca sirrini,
Dumantək dağlara çökənlər də var!

Düşüncə, dərrakə, kamalsız da var!
Vicdanı kəmkəsir, amalsız da var!
Tutarda, çəkidə sambalsız da var!
Yollara kol-koslar əkənlər də var!

Birisi yaxşıdır, birisi pisdir,
Birisi höcətdir, inaddır, tərsdir,
Biri üzüyola, birisi nəsdir,
Sadələr yanında xudbinlər də var!

Birisi kef çəkir, biri qəm yeyir,
Biri zil köklənib, biri bəm yeyir,
Biri harınlaşıb, biri kəm yeyir,
Nikbinlər yanında bədbinlər də var!

Biri boylananda canını alır,
Sorur zülalını, şanını alır,
Qoymayır damarda qanını alır,
Gözəllər yanında çirkinlər də var!

Övladı-bəşərdə hamı bir deyil,
Bəllidir hamıya, buki sirr deyil,
Hamı inci deyil, hamı zər deyil,
Yaxşı da, babət də, yamanlar da var!

***Cəmil Əkbər*** 9. 03 – 1993

**163. VAR**

Əfsuslar olsun ki, doğru sözlərdən,
Haqq-nahaq inciyib küsənlər də var.
Yaxından uzaşıb, gendə dolanıb,
Ünsiyyət-ülfəti kəsənlər də var.

Törədilən haqsızlığı görsə də,
Məcbur olub ünsiyyətə girsə də,
Yetişməmiş qoralardan dərsə də,
Danışıb dinməyib, susanlar da var.

Dünyanı əzəldən belə görmüşəm,
Qananı-qanmaza kölə görmüşəm,
Düşüb qasırğaya, yelə görmüşəm,
Yarpaqtək titrəyib, əsənlər də var.

Artırıb bəşərin dərd-məlalını,
Düşünməyib əməlinin dalını,
Süpürüb udanlar xalqın malını,
Sinirə bilməyib qusanlar da var.

Haqq danışıb ədalətdən deyənin,
Doğru-düzlük, həqiqətdən deyənin,
Bəşər oğlu cəmyyətdən deyənin,
Süpürüb məhbəsə basanlar da var.

Cəmil Əkbər, çox sözləri danışma!
Nadanların işlərinə qarışma!
Bəhsə düşüb tamahınla yarışma!
Qapılar dalında pusanlar da var.

***Cəmil Əkbər*** 24. 12 – 1999

**164. VAR**

Nizami yurdunda, gözəl elimdə,
Hayıfki cahillər, nadanlar da var.
Ən gözəl məmləkət, özəl elimdə,
Təlimdən yarımçıq dadanlar da var.

“Xəmsə”ni oxuyub yada salmayan,
Kamal dünyasını dada salmayan,
Şöhrət qazanaraq, ada salmayan,
Haqq-say sümürüb, udanlar da var.

Haqq-ədalət həqiqətdən uzaşıb,
Ədəb-ərkan, nəzakətdən uzaşıb,
Din-məzhəbdən, şəriətdən uzaşıb,
Dolanıb tərsinə adanlar da var.

Qanqaraldıb hissiləri zorlayan,
Əsəbləri yerbəyerdən korlayan,
Onu-bunu bədnam edib, xorlayan,
Ülfət-ünsiyyəti pozanlar da var.

İdrakını, kamalını ataraq,
Vicdanını, məsləkini sataraq,
Yaxşıları, yamanlara qataraq,
Doğrunu tərsinə yozanlar da var.

Xainlikdə, xəbislikdə tanınan,
Nanəciblik, naqislikdə tanınan,
Acgözlükdə, hərislikdə tanınan,
Ayaqlar altından qazanlar da var.

Bu qədim diyarda ulu Gəncədə,
Qoşqarın, Murovun, qolu Gəncədə,
Kamalı başında dolu Gəncədə,
Dünyadan xəbərsiz adamlar da var.

Cəmil Əkbər beləsindən söz açma!
Qurğusundan, hiyləsindən söz açma!
Götürdüyü şələsindən söz açma!
Şər-böhtan danışıb, yazanlar da var.

***Cəmil Əkbər*** 17.12 -1995

### 165. VAXT OLUB Kİ...

Vaxt olub ki, pul-paranı sağa-sola külləmişəm,
Məqam gəlib manat üçün gözlərimi zilləmişəm.
Vaxt olub ki, on-on, yüz-yüz, bircə anda külə dönüb,
Vaxt olub ki, bircə manat, mənim üçün lələ dönüb.
Vaxt olub ki, aylar, illər mənim üçün bir an keçib,
Nə dayanıb, nə də durub eləbilki cəryan keçib.
Vaxt olub ki, günlər mənə görünübdür illər kimi,
Könül mülküm düşüb kökdən, kamandakı tellər kimi.
Vaxt olub ki, sanmışam ki, dəryaları keçərəm mən,
Bir nəfəsə hortdadaram, bir qurtuma içərəm mən.
Vaxt olub ki, dərya mənə eləbilki göl görünüb,
Adi çeşmə, nazik irmaq keçilməyən sel görünüb.
Vaxt olub ki, qorxmamışam nə pələngdən, nə də şirdən,
Nə əjdaha, nə kərgədan, nə begemont, nə də nərdən.
Vaxt olub ki, hücum çəkib üstələyib mikroblar da,
Birləşiblər tülkü, çaqqal, yosunlar da, əmyoblar da.[831]
Vaxt olub ki, qorxmamışam nə şaxtadan, nə də qardan,
Nə qayadan, nə uçrumdan, nə gədikdən, nə də tardan.
Vaxt olub ki, gilavar da mənim üçün dönüb yelə,
Gah sağımdan, gah solumdan əsib belə, əsib elə.

---

[831] Əlbir olub tülkü, çaqqal, yosunlar da, əmyoblar da.

Vaxt olub ki, çəkinmişəm, ən adicə həşəratdan,
Səksənmişəm xəyanətdən, diksinmişəm ədavətdən.
Vaxt olub ki, baharda da görməmişəm gülüstanı,
Bilməmişəm isti-soyuq, duymamışam zimistanı.
Vaxt olub ki, hər şey mənə sanki yaman azlıq edib,
Vaxt olub ki, bir tikə də mənim üçün bolluq edib.
Vaxt olub ki, gözlərimdə qarılar da qız görünüb,
Qışın oğlan çağlarında sanmışam ki, yaz görünüb.
Vaxt olub ki, bakirə də səksən yaşlı dul görünüb,
Vaxt olub ki, eyvan-otaq mənim üçün çöl görünüb.
Sən ey vədə, sən ey zaman, gör nəyaman qüdrətlisən?
Gör nəqədər hünərlisən, gör nəqədər cürətlisən?
İnsanoğlu seyirçidir, hökmü verən zaman olur,
Dağ başına bulud çökür, bürələyən duman olur.[832]
Gələni də, gedəni də yola salan sən olursan,
Daldalardan əl çalaraq, sona qalan sən olursan.
Kim ki, sənlə hesablaşdı, xətirinə dəyməmisən,
Kefini də pozmamısan, qamətini əyməmisən.[833]
Kim ki, səni pəsinmədi, vaxtını verdi hədərə,
Salmısan dərdi-bəlaya, salmısan qəmə, kədərə.[834]
Quyusunu dərin qazıb, cəzasını vermisən də,[835]
Yerlə-yeksan eyləyərək, torpaqlara sərmisən də.[836]
İnsan oğlu çalış hər an, vaxt-vədəni itirmə gəl,
Məhəbbətin diyarında kol-kosları bitirmə gəl.
Ötüb keçir bilki dövran, zəmanəni düz başa düş!
Öz vaxtını fota vermə, gecikməynən tez başa düş!

***Cəmil Əkbər*** 9. 11 - 1981

**166. NƏVARKİ?**

İnsan gərək insan kimi ad alsın,
Heyvan kimi dolanmağa nəvarki?
Öz işindən əməlindən dad alsın,
Əqrəb, iblis, mar olmağa nəvarki?[837]

---

[832] Dağ başını alır bulud, bürələyən duman olur.
[833] Kefini də pozmamısan, qəddini də əyməmisən.
[834] Düçar etdin müsibətə, salmısan qəmə, kədərə,
[835] Dərin qazıb quyusunu, cəzasını sən vermisən,
[836] Yerlə-yeksan eyləyərək, torpaqlara sən sərmisən.

Nəzər salsın yaxınına, uzağa,
Qərq olmasın nə çovğuna, sazağa.
Kömək etsin əlacsıza, yazığa,
Vicdanından kor olmağa nəvarki?[838]

İgid gərək zəfər çalsın davada,
Şöhrət tapıb ad çıxarsın obada,
Şahin kimi qanad açsın havada,
Xərabədə sar olmağa nəvarki?[839]

Hərkəs gərək zəhmətilə ucala,
Namus ilə, qeyrət ilə qocala,
Zəfər çalıb iş-gücüylə tac ala,
Tez-tələsik xar olmağa nəvarki?

İnsan gərək ədaləti yoxlasın,
Dəyərini, qiymətini saxlasın,
Daim haqqı, həqiqəti haqlasın,
Zibil kimi atılmağa nəvarki?

---

[837] *II variant* İnsan gərək insan kimi ad ala,
Heyvan kimi xar olmağa nəvarki?
Əməlindən ləzzət ala, dad ala,
Zəhər verən mar olmağa nəvarki?

[838] *II variant* Nəzər sala yaxınına, uzağa,
Qərq olmaya boran, tufan, sazağa,
Əl uzadıb kömək edə yazığa,
Gözü-könlü kor olmağa nəvarki?

*III variant* Nəzər salsın yaxınlara, uzağa,
Qərq olmasın nə tufana, sazağa,
1) Əl uzatsın, kömək etsin yazığa, 2) Rəhm eyləyə məzlumlara, yazığa,
Kar olmağa, kor olmağa nəvarki?

[839] *II variant* Ömür-günü keçirməyə davada,
Şöhrət tapıb ad qazana obada,
Şahin kimi qanad çala havada,
Koryapalaq, sar olmağa nəvarki?

*III variant* Ömür-günü keçirməsin davada,
Şöhrət tapıb ad qazansın obada,
Şahin kimi qanad alsın havada,
Yapalaqtək sar olmağa nəvarki?

İnsan olan əkin əkib nan alar,
Arı kimi bal gətirib şan alar,
Sərraf olub gövhər alar, kan alar,
Qeyrət olsa car olmağa nəvarki?

Hərkəs gərək əməliylə öyünsün,
Zəhmətilə fərəhlənsin, sevinsin,
Könül mülkü məhəbbətlə döyünsün,
Deyinməyə, darılmağa nəvarki?

İgid gərək hər xətadan ötüşsün,
Xoş arzuya, xoş məqsədə yetişsin,
Arif olan, el sözünü eşitsin,
Qulaqları kar olmağa nəvarki?[840]

Zəhmət çəkib yetə bilsin murada,
Veyil-veyil dolanmasın arada,
Günəş kimi işıq saçsın dünyada,
Dağ başında qar olmağa nəvarki?[841]

Xoş arzuyla, əməliylə öyünə,
Fərəhlənib, qürurlanıb sevinə,
Könül mülkü məhəbbətlə döyünə,
Od-ocaqsız nar olmağa nəvarki? [842]

---

[840] *II variant*

Hər xətadan, hər bəladan ötüşə,
Xoş arzuya, məqsədinə yetişə,
Arif olub el sözünü eşidə,
Qulaqları kar olmağa nəvarki?

[841] *II variant*

Zəhmət çəkib yetə bilə murada,
Veyil-veyil dolanmaya arada,
Günəş olub işıq saça dünyada,
Şaxta, boran, qar olmağa nəvarki?

*III variant*

İnsan olan veyil gəzməz arada,
Zəhmət çəkib o tez çatar murada,
Şölə saçıb günəş olar dünyada,
Soyuq, çovğun, qar olmağa nəvarki?

[842] *II variant*

Hünərilə, əməliylə öyünsün,
Hərbir yerdə fərəhlənib sevinsin,
Könül mülkü məhəbbətlə döyünsün,
Ona-buna nar olmağa nəvarki?

Hərkəs zəhmətilə bəxtiyar olsun,
Qəlbi çiçək açsın, novbahar olsun,
Eysüd əmənlərlə giriftar olsun,
Hər yetənlə yar olmağa nəvarki? [843]

Həyatından cana doyub, bezməsin,
Onun-bunun ürəyini üzməsin,
Güclüdürsə gücsüzləri əzməsin,
Cələfsizə zor olmağa nəvarki?

Bu dünyadan cana doyub, bezməsin,
Onun-bunun ürəyini üzməsin,
Haqsızlığa boyun əyib dözməsin,
Acizlərə, zor olmağa nəvarki?[844]

Yaxşı çalış, yaxşı dolan, ad qazan,
Sənə deyilməsin "a yoldan azan!",
Əgər olsa yaxşı çalan tarizən,
Əllərində tar olmağa nəvarki?

Eşidənlər düz anlasın zəbanı,
Tarlaları bürüməsin yabanı,
Tapa bilsən dünya görmüş bağbanı,
Bağçasında bar olmağa nə var ki?

İgid gərək alçalmasın, enməsin,
Əhdi-peyman, ilqarından dönməsin,
Məhəbbəti ani yanıb sönməsin,
Tüstülənib qaralmağa nəvarki?

---

[843] *II variant* Çəkib zəhmətilə bəxtiyar ola,
Qəlbi çiçək aça, növbahar ola,
Ey süd əmənlərlə giriftar ola,
Hər yetənlə yar olmağa nəvarki?

[844] *II variant* İnsan gərək alçalmasın, enməsin,
1)Düz əməldən, düz yolundan dönməsin, 2) Düz əməldən, düz ilqardan dönməsin,
1) Məhəbbəti alovlansın, sönməsin, 2) Məhəbbəti tezcə yanıb, sönməsin,
Acizlərə, zor olmağa nəvarki?

*III variant* Kərgədansan kərgədanla pəncələş,
Pəhləvansan pəhləvanla get güləş,
Güclüsənsə güclülərlə get dalaş,
Gücsüzlərə zor olmağa nəvarki?

İnsan gərək xidmətini yoxlasın, [845]
Ədaləti, həqiqəti haqlasın,[846]
Qızıl kimi dəyərini saxlasın,
Zibil kimi atılmağa nəvarki?

İnsan olsun tay-tuşları, dəstəsi,[847]
Qeyrət üçün düşsün illər xəstəsi,
Onu-bunu kor etməsin tüstüsü, [848]
Heyvanlara qoşulmağa nəvarki?

İnsan olan bədəməldən gen qaçar,[849]
Fərhad kimi qaya çapıb, yol açar,
Kimə lazım topal Teymur, Şah Qacar? [850]
Gen dünyaya dar olmağa nəvarki?

İnsan gərək alovlansın, sönməsin,
Hər yetənə alçalmasın, enməsin,
Düz əməldən, düz yolundan dönməsin,
Tüstülənib qaralmağa nəvarki?

İnsan olan ləkə vurmaz adına,
Hörmət edər qohumuna, yadına,
Ana deyər, bacı deyər qadına,
Kamal yoxsa aldanmağa nəvarki?

İnsan olan zərər vurmaz insana,
Kömək edər əlacsıza, üryana,[851]
Şölə saçar, kölgə salar həryana,
Kölgələrdə daldanmağa nəvarki?

İnsan gərək şan-şöhrətdən tac alsın,
El içində vüqarlansın, ucalsın,
Ulduzlardan, günəşdən də bac alsın,
Əl-ayaqda dolanmağa nəvarki?[852]

---

[845] 1) İnsan gərək insanları yoxlasın, 2) İnsan odur yaxşı-pisi yoxlasın,
[846] 1) Ədaləti, doğru sözü haxlasın. 2) Doğru işi, doğru sözü haxlasın.
[847] İnsan odur, insan olsun dəstəsi.
[848] Onu-bunu kor eyləsə tüstüsü.
[849] Kişi olan bədəməldən gen qaçar.
[850] 1)Kim olarsa bu dünyada Şah Qacar? 2) Kimə lazım Ağaməmməd Şah Qacar?
[851] Kömək edər əl uzadar, üryana.

Yaxşı çalış, sən ömrünün yazında,
Zəhmətinin istisinə qızın da,
İnsan gərək hava çalsın sazında,
Züy tutulub çalınmağa nəvarki?

İnsan gərək kamal ilə dolansın,
Məhəbbəti eldən-elə calansın,
Dərya kimi çalxalansın, bulansın.
Çaylar kimi bulanmağa nəvarki?

Qoşulmaya nanəcibə, xoryada,
Düşməyəydi ah-naləyə, fəryada,
Polad kimi mətin ola dünyada,
Saxsı kimi qırılmağa nə varki?[853]

İgid odur el uğrunda çalışsın!
Yeri gəlsə alovlansın alışsın!
Könüllərdə izi qalısın, dolaşsın!
Özü üçün yorulmağa nəvarki?[854]

İnsan gərək gözü, könlü tox olsun!
Bəd işlərdən uzaq dursun, yox olsun!
Zəhmətinin hər məhsulu çox olsun!
Tamsınmağa, yalanmağa nəvarki?[855]

---

[852] *II variant* Zəfər çalıb ülvilikdən tac ala,
Gündən-günə, ildən-ilə ucala,
Kainatdan xərac ala, bac ala,
Əl-ayaqda dolanmağa nəvarki?

*III variant* İgid gərək ülvilikdən tac alsın,
Vüqarı dağ kimi göyə ucalsın,
Kainatdan xərac alsın, bac alsın.
Əl-ayaqda dolanmağa nəvarki?

[853] *II variant* Yoldaş olma nanəcibə, xoryada,
Səni salar ah-naləyə, fəryada,
1)Polad kimi mətin olsun dünyada, 2) İnsan gərək mətin olsun dünyada,
Saxsı kimi qırılmağa nəvarki?

[854]*II variant* Ellər üçün, oba üçün çalışa.
Yeri gəlsə alovlanıb alışa,
Könüllərdə izi qalıb, dolaşa,
Özü üçün yorulmağa nəvarki?

*III variant* Əsl insan el uğrunda çalısar,
Yeri gəlsə alovlanıb alışar,
Könüllərdə məsgən salıb dolasar,
Özü üçün yorulmağa nəvarki?

Cəmil bilmir məhəbbətdən doymağı,
O xoşlamır acizləri, maymağı, [856]
İnsan gərək olsun elin qaymağı,
Süzüləndə şor olmağa nəvarki?

***Cəmil Əkbər*** 12. 05 - 1973

**167. PUL**

Pul açmayan qapını açan yoxdu dünyada,
Pul düzməyən möhübü, düzən yoxdu dünyada.
Pul tikməyən evləri, tikən yoxdu dünyada,
Pul tökməyən gözləri, tökən yoxdu dünyada.
Pul bükməyən qaməti, bükən yoxdu dünyada,
Pul tökməyən gözyaşı, tökən yoxdu dünyada.
Pul sıxmayan ürəyi, sıxan yoxdu dünyada,
Pul yıxmayan dirəyi, yıxan yoxdu dünyada.[857]
Pul çatmayan qaşları, çatan yoxdu dünyada,
Pul satmayan insanı, satan yoxdu dünyada.
Pul verdiyi zinəti, verən yoxdu dünyada,
Pul verdiyi nifrəti, verən yoxdu dünyada.
Pul verdiyi qüvvəti, verən yoxdu dünyada,
Pul verdiyi şöhrəti, verən yoxdu dünyada.
Pul verdiyi ləzzəti, verən yoxdu dünyada,
Pul verdiyi izzəti, verən yoxdu dünyada.
Pul verdiyi sürəti, verən yoxdu dünyada,
Pul verdiyi cürəti, verən yoxdu dünyada.
Pul verdiyi qeyrəti, verən yoxdu dünyada,
Pul verdiyi sərvəti, verən yoxdu dünyada,
Pul verdiyi dövləti, verən yoxdu dünyada.

---

[855] *II variant* İnsan odur gözü-könlü tox ola,
Bəd işlərdən uzaq ola, yox ola,
Zəhmətinin hər məhsulu çox ola,
Tamsınmağa, yalanmağa nəvarki?

*III variant* İnsan odur gözü, könlü tox olsun,
Yeri gəlsə kaman olsun, ox olsun,
Zəhmətinin hər məhsulu çox olsun,
Tamsınmağa, yalanmağa nəvarki?

[856] O xoşlamır acizliyi, maymağı.

[857] Pul yıxmayan insanı, yıxan yoxdu dünyada.

Sədaqət də puldadır, kəramət də puldadır,
Qətiyyət də puldadır, dəyanət də puldadır.
Xəyanət də puldadır, cinayət də puldadır,
Gileylər də puldadır, şikayət də puldadır.
Pul azdıran insanı, yox azdıran dünyada,
Pul pozduran insanı, yox pozduran dünyada.

***Cəmil Əkbər***

**168. EY PUL?**

*I variant*

Sən olanda dost-tanışlar cəm olur,
Yeyib-içir, ağıl başda dəm olur,
Olmayanda ünsiyyət də kəm olur,
Çəkib cəzbedənsən, de nəsən ey pul?

Səninlə bu bəşər oturub durur,
Cah-calal düzəldib aşiyan qurur,
Çalışıb-vuruşur, özünü yorur,
Qaimsən, qadirsən, de nəsən ey pul?

İnsana-insantək hörmət yox sənsiz,
Nə bəzək, nə düzək, zinət yox sənsiz,
Ağıla, kamala qiymət yox sənsiz,
Ölçüsən, meyarsan de nəsən ey pul? [858]

Hər yetən gədəyə səltənət verdin,
Gör kimə səxavət, kəramət verdin?
Kimlərə bəxş edib, məhəbbət verdin?
Hiyləsən, kələksən, de nəsən ey pul?

Atlını atından salan sən oldun,
Ayrılıq təblini çalan sən oldun,
Axırda sahibsiz qalan sən oldun,
Saxtasan, yalansan, de nəsən ey pul?

Cəngindən bir qurtulsaydı yaxamız,
Kəsilərdi dava-dalaş, qovğamız,
Yayılmazdı umu-küsü, qaxımız,
Naqissən-nacinssən, de nəsən ey pul?

[858] 1) Ölçüsən, biçisən, de nəsən ey pul? 2)Alim, üləmasan, de nəsən ey pul?

Sənsiz yasa batır xeyir də, şər də,
Başa hava gəlir, gözlərə pərdə,
Hünər göstərməyir igid də, nər də,
Qüvvəsən, hünərsən, de nəsən ey pul?

Səninlə bağlanır əhd-peyman, ilqar,
Dəyişir hökümlər, verilir qərar,
Başaça bilməyir o Pərvərdigar,
Sirli-sehirkarsan, de nəsən ey pul?

Çıxan kimdir daşdan keçən sözündən. [859]
Utanmadı utanmayan üzündən,
Gör dolanıb nələr keçir gözündən?
Xəlbirsən, ələksən, de nəsən ey pul?

Sənsiz eyləyirlər bəxtimi qara,
Xətir-hörmət hara, insanlıq hara?
Çəkirlər qəlbimi məhşərə, dara,
Haraya çatansan, de nəsən ey pul?

Sənsiz yetişənlər, dəyənlər varmı?
Sevilən tapılmır, sevənlər varmı?
Bar verib, butağı əyənlər varmı?
Şüasan, günəşsən, de nəsən ey pul?

Sənsiz xoşa gəlmir, söz də, avaz da,
Açılmır qəlbimdə bahar da, yaz da,
Toylarda çalınmır, zurna da, saz da,
Müğənni, tarizən, de nəsən ey pul?[860]

Səninlə qurulur, cah-calalımız,
Dağılır dərdimiz, hər məlalımız,
Səninlə həll olur hər sualımız,
Alimi-əməlsən, de nəsən ey pul?

Pul ilə törəyir cinayət, xəta,
Pulsuz bəxş olmayıb mərhəmət, əta,
Görən varmı səni alan, ya sata?
Sanki xəyanətsən, de nəsən ey pul?

---

[859] Mərd igidlər keçənmədi sözündən.
[860] Eşqsən, həvəssən, de nəsən ey pul?

Bağlı qapıları aça bilirsən,
Zülmətə işıqlar saça bilirsən,
Fağır-füqəradan qaça bilirsən,
Yezidsən, Şümürsən, de nəsən ey pul?

İnsanı yolundan döndərə bildin,
Tamahın ardınca göndərə bildin,
Ucaldıb alçaldıb, endirə bildin,
Mizan-tərəzisən, de nəsən ey pul?

Aldadıb çaşdırdın, pozdun insanı,
Toxundun əsəbə, qaraltdın qanı,
Verdirdin hər hökmü, hərbir fərmanı,
Hökmsən, divansan, de nəsən ey pul?

Əyilməyən qamətləri bükdürdün,
Nahaq yerdən gözyaşını tökdürdün,
Mərd igidin ayağından çəkdirdin,
Kəndirsən, zəncirsən, de nəsən ey pul?

Ünsiyyət-ülfətin binasısan sən,
Oturub-durmağın anasısan sən,
Bicin, dələduzun babasısan sən,
Fitnəsən, felmansan de nəsən ey pul?

Bəşər səcdə qılır sənin qarşında,
Bizi yandırmısan od, atəşində,
Vurdun arxasından dost-qardaşın da,
Qibleyi-aləmsən, de nəsən ey pul?[861]

Kimdə olsan, tez yetişir mənzilə,
Ömrünü çatdırır doxsan, yüz ilə,
İnsan yaşamayır quru söz ilə,
Ülvi-həqiqətsən, de nəsən ey pul?[862]

---

[861] *II variant* 1) Süfrə kənarında, məclis başında, 2) Vurdun arasını dost-qardaşın da,
Yandırdın aləmi öz atəşində,
Bəşər səcdə qılır sənin qarşında,
Qibləsən, Kəbəsən, de nəsən ey pul?

Kölgəndə dincəlib, daldalanmışıq,
Gah baş girləmişik, gah dolanmışıq,
Hərdən səhvlər edib, çox aldanmışıq,
Hay-haysan, vay-vaysan de nəsən ey pul?[863]

Hey sənin üstündə salınır dava,
Günəş qürub edir, qaralır hava,
Nələr törədirsən, gəlmir hesaba?
Namu-tənahısan de nəsən ey pul?

Sofokl, Şekspir aldı qələmə,
Car edib xəbərin verdi aləmə,
Dedilərki verilmisən sələmə,
Təbibi-loğmansan, de nəsən ey pul?

Sən girsən də insanların qəsdinə,
Hücum edib, qılınc çəksən üstünə,
Görünür ki, dəyən yoxdur şəstinə ,
Müqəddəs varlıqsan, de nəsən ey pul?

Hökümlər çıxartdın, əmr yazdırtdın,
Ayaqlar altından quyu qazdırtdın,
Çox mənəm deyəni yoldan azdırtdın,
İblissən, şeytansan, de nəsən ey pul?

Nəqədər yurdları boş qoymusan sən?
Nəqədər gözlərdə yaş qoymusan sən?
Ürəklər yerində daş qoymusan sən?
Zalımsan, canisən, de nəsən ey pul?

İnsanı sağikən eyləyən xəstə,
Min yara vurdurdun yaralar üstə,
Meydanlar açdırdın qərəzə, qəsdə,
Nanəcib, namərdsən, de nəsən ey pul?

---

[862] *II variant* Kimini çatdırdın tezcə mənzilə,
Ömür sürdü səksən, doxsan, yüz ilə,
Günü keçdi kabab ilə, köz ilə,
Qüvvəsən, qüdrətsən, de nəsən ey pul?

[863] *II variant* Kölgəndə nəqədər, daldalanmışıq,
Gah baş girləmişik, gah dolanmışıq,
Yoxsa yanılmışıq, biz aldanmışıq,
Adi bir əşyasan, de nəsən ey pul?

İnsanın ağlını aldın əlindən,
Ayrı saldın vətənindən, elindən,
Utanıb ölmürsən heç əməlindən,
Sanki ixtiyarsan, de nəsən ey pul?

***Cəmil Əkbər*** 10-25/ VI - 1967

## 169. EY PUL?

*II variant*

Sən olanda dost-tanışlar cəm olur,
Yeyib-içir, ağıl başda dəm olur,
Olmayanda ünsiyyət də kəm olur,[864]
Arzusan, diləksən, de nəsən ey pul?

Şahlar da pul ilə sürür dövranı,
Dolanır dünyanı, dağı, aranı,
Həkim də sağaldır dərdi, yaranı,
Səbəb nəticəsən de nəsən ey pul?[865]

Kimiyə tac verdin, səltənət verdin?
Sədaqət, səxavət kəramət, verdin?
Kimiyə nifrətlə, ədavət verdin,
Hiyləsən, kələksən, de nəsən ey pul?

Sən öyrətdin dələduzluq, bicliyi,
Bədxahlığı, yamanlığı, gicliyi,
Məhv olsaydın biz alardıq, dincliyi,
Cadusan, fələksən, de nəsən ey pul?

Nə bəzək, nə düzək olmayıb sənsiz,
İnsana-insantək hörmət yox sənsiz,
Ağıla-kamala qiymət yox sənsiz,
Ölçüsən, meyarsan de nəsən ey pul?

---

[864] Olmayanda məhəbbət də kəm olur.

[865] *II variant* Şahlar da, xanlar da sürür dövranı,
Təbiblər sağaldır dərdi, yaranı,
Molla da oxuyur kitab, Quranı,
Səbəb nəticəsən de nəsən ey pul?

Eşitmişəm çıxan yoxdur sözündən,
Utanan yox, utanmayan üzündən,
Gör bir nələr gəlib-keçir gözündən?
Xəlbirsən, ələksən, de nəsən ey pul?[866]

Həryanda bağlanır əhdi-peyman da,
Verilir hökümlər, çıxır qərar da,
Mat qalıb bu işə Pərvərdigar da,
Sirli sehirkarsan, de nəsən ey pul?

Bizi dəm edən də, sən olmusan, sən!
Bizi kəm edən də, sən olmusan, sən!
Bizmi borclu qaldıq, sənmi borclusan?
Hökmünə fərmansan, de nəsən ey pul?[867]

İnsanı yolundan döndərən sənsən,
Bədəməl dalınca göndərən sənsən,
Ucaldan, alçaldan, endirən sənsən,
Dərdlərə dərmansan, de nəsən ey pul?[868]

Sən olanda yatanlar da ayılır,
İnsan kimi xeyir, şərdə sayılır,
Adı-sanı el-obada yayılır,
Zirəksən, tüləksən de nəsən ey pul?

Sənsiz eşidilmir səs də, avaz da,
Açılmır könüldə bahar da, yaz da,
Toylarda çalınmır, kaman da, saz da,
Xanəndə, tarzənsən, de nəsən ey pul?

Adınla bağlıdır cah-calalımız,
Düşünən beynimiz, var kamalımız,
İşləyir ağlımız, pürkamalımız,
Dinmisən, imansan, de nəsən ey pul?

---

[866] *II variant* Çıxan yoxdur daşdan keçən sözündən,
Utanan yox, utanmayan üzündən,
Gör bir nələr gəlib-keçir gözündən?
Xəlbirsən, ələksən, de nəsən ey pul?

[867] Hökmsən, fərmansan, de nəsən ey pul?

[868] Təbibsən, dərmansan, de nəsən ey pul?

Sənsiz nə alim var, nə ixtira var?
Nə yalan, nə yanlıc, nə iftira var?
Nə yaşıl, nə sarı, nə də qara var?
Qüvvətsən, qüdrətsən, de nəsən ey pul?

Səninlə törəyir cinayət, xəta,
Kəsirsən, vermirsən mərhəmət, əta,
Həll olur məsələ, yetir isbata,
Dəlili-sübutsan, de nəsən ey pul?

Kimini dünyanın ləli eylədin,
Kimini qansoran zəli eylədin,
Kimini divanə, dəli eylədin,
Qiyamət-məhşərsəm, de nəsən ey pul?

Bağlı qapıları açırsan necə?
Zülmətə işıqlar saçırsan necə?
Fağır-füqəradan qaçırsan necə?
Yezidsən, Şümürsən, de nəsən ey pul?[869]

Kimini tamaha etdin mübtəla,
Kimiyə dərd verdin, kimiyə bəla,
Kimiyə zindansan, kimiyə qala,
Qəzavü-qədərsən, de nəsən ey pul?

Kimini böyüdüb fil eyləmisən,
Kimini kökləyib zil eyləmisən,
Kimini yandırıb kül eyləmisən,
Cəhənnəm odusan, de nəsən ey pul?

Hərşeydən ucasan, baş görünürsən,
Kainat üzüksə, qaş görünürsən,
Nə üçün hamıya xoş görünürsən?[870]
Hurisən, pərisən, de nəsən ey pul?

---

[869] *II variant* Zülmət qapıları açan da sənsən,
Cəhənnəm odunu saçan da sənsən,
Fağır-füqaradan qaçan da sənsən,
Şümürsən, Yezidsən, de nəsən ey pul?

[870] Gözlərə, könülə xoş görünürsən.

Hər tacın, hər taxtın səbəbkarısan,
Hər tale, hər bəxtin səbəbkarısan,
Hər hökmün, hər aktın səbəbkarısan,
Hakimi-divansan de nəsən ey pul?[871]

Dövlət də, sərvət də, sənə bağlıdır,
İnsaf da, mürvət də sənə bağlıdır,
Hörmət də, izzət də sənə bağlıdır,
Düşüncə, kamalsan, de nəsən ey pul?

Kimini parladıb ay eyləyirsən,
Kimini xan, sultan, bəy eyləyirsən,
Kimini məhv edib, zay eyləyirsən, [872]
Qiyamət məhşərsən, de nəsən ey pul?

İnsanın ömrünü doğrayıb kəsdin,
Başının üstündə tufantək əsdin,
Nədir xilqətimə bu qədər qəsdin?
Yaradan Xaliqsən, de nəsən ey pul?

Sənsiz qalan ayaq altda əzilir,
Müsibətə, məşəqqətə dözülür,
Sən olanda hər möhüblər düzülür,
Huriyi-qılmansan, de nəsən ey pul?

Kim sənsizsə şax qaməti bükülür,
Xəzan vurmuş qamətləri tökülür,
Yaxasından dala-dala çəkilir,
Kəndirsən, zəncirsən, de nəsən ey pul?

Ünsiyyət-ülfətin binasısan sən,
Hər işin, əməlin zinasısan sən,
Bicin, dələduzun anasısan sən,
İfritsən, felmisən, de nəsən ey pul?[873]

---

[871] *II variant* Tacın da, təxtin də səbəbkarısan,
Taleyin, bəxtin də səbəbkarısan,
1) Hər hökmün, aktın da səbəbkarısan, 2) Qərarın, hökmün də səbəbkarısan,
Hökmsən, divansan de nəsən ey pul?

[872] Kimini gic edib, səy eyləyirsən.

[873] *II variant* Ünsiyyət-ülfətin binasısan sən,
Hər işin, əməlin anasısan sən,
Bicin, dələduzun zinasısan sən,
Fitnəsən, felmisən, de nəsən ey pul?

Pozdun əhd-peymanı, pozdun ilqarı,
Dəyişdin hər hökmü, hərbir qərarı,
Unutdun tanrını, Pərvərdigarı,
Fitnəsən, fəsadsan de nəsən ey pul?

Bəşər səcdə qılır sənin qarşında,
Yandırdın aləmi öz atəşində,
Ünsiyyət məqamı, məclis başında, [874]
Qibləsən, Kəbəsən, de nəsən ey pul?[875]

Kiminin cibinə su kimi axdın,
Kimini odlayıb, yandırıb-yaxdın,
Kimiyə analıq gözüylə baxdın,
Ögeysən, doğmasan, de nəsən ey pul?

Oynadın qəlbində tamahkirlərin,
Artırdın zülmünü zülmkarların,
Sildin günahını, günahkarların,
Bulayıb yuyansan, de nəsən ey pul?

Kimdə bolsan, o yetişir mənzilə,
Ömür sürür səksən, doxsan, yüz ilə,
Günü keçir kabab ilə, köz ilə,
Ülvi-həqiqətsən, de nəsən ey pul?

Yolunda, izində qırılır insan,
Şirətək çəkilib, sorulur insan,
Hüsn-camalına vurulur insan,
Sərvi-xuramansan, de nəsən ey pul?

Kölgəndə nəqədər, daldalanmışıq,
Gah baş girləmişik, gah dolanmışıq,
Aldadan sən oldun, biz aldanmışıq,
İblissən, şeytansan, de nəsən ey pul?[876]

---

[874] Ünsiyyət zamanı, məclis başında.

[875] *II variant* Çox ara vurursan dost, qardaşın da,
Bizi yandırırsan öz atəşində,
Aləm səcdə qılır daim qarşında,
Qibləsən, Kəbəsən, de nəsən ey pul?

[876] *II variant* Kölgəndə sığındı, daldandı insan,
Girlənib sayəndə dolandı insan,
Uşaqtək hiylənə aldandı insan,
İblissən, şeytansan, de nəsən ey pul?

Nə üçün keçirsən əldən-əllərə?
Yayıldın aləmdə çöldən-çöllərə,
Salırsan insanı dildən-dillərə,
Mənasan, hikmətsən, de nəsən ey pul?

Könüllər mülkünü yaralayırsan,
Qardaşı-qardaşdan aralayırsan,
Məsləki, vicdanı paralayırsan,[877]
Baltasan, külüngsən, de nəsən ey pul?

Keçirsən dünyada əldən-əllərə,
Salırsan insanı dildən-dillərə,
Meydan oxuyursan bədəməllərə,
Dəhrəsən, cəhrəsən, de nəsən ey pul?[878]

Kimki eşitməyir dostu-yoldaşı?
Doğma bacısını, doğma qardaşı?
Nə öz həmdəmini, nə də sırdaşı?
Yoxsa aşinasan, de nəsən ey pul?

Yandırdın Kərəmtək yazıq insanı,
Toxundun əsəbə, qaraltdın qanı,
Düşmən eyləmisən dost-mehribanı?
Aralıq qatansan, de nəsən ey pul?

Tumar görməyəni tumarlayırsan,
Sığala çəkirsən, xumarlayırsan,
Çala-çuxurunu hamarlayırsan,
Törpüsən, malasan, de nəsən ey pul?

Şeyda bülbüllərin şən avazısan,
Aşiqin əlində telli sazısan,
Könüllər mülkünün bahar, yazısan,
Həvəssən, ilhamsan de nəsən ey pul?[879]

---

[877] 1)Ünsiyyət-ülfəti paralayırsan. 2) Nəqədər arzular paralayırsan.
[878] Yoxsa xəyanətsən, de nəsən ey pul?
[879] *II variant* Şeyda bülbüllərin şən avazısan,
Çörəyin, xörəyin tamı-duzusan,
Şair düşüncəsi, sərraf gözüsən,
Xəyalsan, ilhamsan de nəsən ey pul?

Kiminin cibinə dola bilirsən,
Acıyıb dərdinə qala bilirsən,
Şad edib könlünü ala bilirsən,
Kimiyə xəyalsan, de nəsən ey pul?

Kimini böyüdüb pir eyləmisən,
Kimini əjdaha, şir eyləmisən,
Kimini ər oğlu, ər eyləmisən,
Hünərsən, qeyrətsən, de nəsən ey pul?

Dərindən düşündüm, yazdım müxtəsər,
İnsafdan, vicdandan qoymursan əsər,
Sənsiz analar da baladan küsər,
Umansan, küsənsən, de nəsən ey pul?

Hey sənin üstündə salınır dava,
Zəhərə qarışır tərtəmiz hava,
Nələr törədirsən, gəlmir hesaba?
Bicsən, şərxətasan, de nəsən ey pul?[880]

Salmısan dünyaya yaman vəlvələ,
Qoymursan insanlıq əmələ gələ,
Nədən qüdrətlisən bu qədər belə?
Sultansan, xaqansan, de nəsən ey pul?

Səndən ötrü çox mənliklər satıldı,[881]
Gah oraya, gah buraya atıldı,
Yaxşı-yaman birbirinə qatıldı,
Xainsən, canisən, de nəsən ey pul?[882]

Nəqədər qapılar bağlatdırmısan,
Yandırıb sinələr dağlatdırmısan,
Analar, bacılar ağlatdırmısan,
Naləsən, fəqansan, de nəsən ey pul?

Pozuldu əhd-peyman, pozuldu ilqar,
Dəyişdi hökmlər, dəyişdi qərar,
Baş aça bilmədi  o Pərvərdigar,
Fitnəsən, fəsadsan de nəsən ey pul?

---

[880] Başlara bəlasan, de nəsən ey pul?
[881] Sənin üçün çox mənliklər satıldı.
[882] Xətasan, bəlasan, de nəsən ey pul?

Çıxan yoxdu daşdan keçən sözündən,
Utanan yox, utanmayan üzündən,
Gör bir nələr gəlib-keçir gözündən?
Xəlbirsən, ələksən, de nəsən ey pul?

Kimdə olsa tez yağlanar dərisi,
Göydə uçar huri-mələk, pərisi,
Satın alar diriləri, ölüsü,
Fəhm-fərasətsən, de nəsən ey pul?

Dahilər qapını açaraq girdi,
Çirkin əməlini Şekspir gördü,
Car edib aləmə o xəbər verdi,
Ənliksən, kirşansan, de nəsən ey pul?

Sofokl anladı, duydu mənanı,
Könüllərdə sındırdığın aynanı,
Tarı-mar etdiyin, abad dünyanı,
Mərmisən, bombasan, de nəsən ey pul?

Əlində üzülüb, sozalır canım,
Alınıb satılır, gövhərim, kanım,
Sənəmi bağlansın bütün günahım?
Ümid-ümidgahsan, de nəsən ey pul?

Sənə könül verən qoy öyünməsin,
Baxsın əməlinə, o sevinməsin,
Varına-halına çox güvənməsin,
Bilsin müsibətsən, de nəsən ey pul?

Nə üçün insanı məst eyləyirsən?
Günahlar törədib qəsd eyləyirsən?
Aldadıb tamahla dost eyləyirsən,
Minillik şərabsan, de nəsən ey pul?

Nə üçün yarandın, necə yarandın?
Səhərmi, günüzmü, gecə yarandın?
Tut ilə zoğaldan cecə yarandın,
Lütvədən xarabsan, de nəsən ey pul?

Nizami, Füzuli yazdılar səndən,
Firdovsi, Xaqani baxmadı gendən,
Oxudum, öyrəndim Ömər Xəyyamdan,
Baqisən, saqisən, de nəsən ey pul?

Azaflı Mikayıl, Miskinli Vəli,
Gördülər araya saldığın pəli,
Cavad da, Teymur da dedilər bəli!
Əfisən, ilansan, de nəsən ey pul?

Görünmür üzündə nə abır-həya,
Dayanmır qarşında nə dağ, nə qaya,
İnsanı göndərdin kosmosa, aya,
Dühasan, dahisən de nəsən ey pul?

Çoxu ucbatından getdilər bada,
Aldandı tamaha, fani dünyada,
Yetişən olmadı haraya, dada,
Düşmənsən, yağısan, de nəsən ey pul?

Gah əkdin, gah səpdin, gahdaki dərdin,
Acgözün, xəsisin qəlbinə girdin,
Verəni, alanı gözünlə gördün,
Baqqalsan, dəllalsan, de nəsən ey pul?

Tamah qardaşındır, acgözlük bacın,
Nələr törətmisən yan-yaxıl, acın,
Mayası olmusan hər taxtın-tacın,
Xəqansan, sultansan, de nəsən ey pul?

Saz çaldı, söz qoşdu səksən yaşında,
Yandı Kərəm kimi eşq atəşində,
Şəmşir də qıy vurdu, dağlar başında,
Dedi ki, dumansan, de nəsən ey pul?

Hey sənin üstündə salınır dava,
Günəş qürub edir, qaralır hava,
Nələr törətdiyin gəlməz hesaba, [883]
Külli-ixtiyarsan, de nəsən ey pul?

[883] Gör nələr törətdin gəlmir hesaba?

Cinnili Səfərlə, Zərdablı Kərəm,
Hökmündən az qalır, olalar vərəm,
Onların halına çox mükəddərəm,[884]
Puçsan, əfsanəsən, de nəsən ey pul?

Oldun bədəməlin ilk səbəbkarı,
Çəkdin irəliyə hey tamahkarı,[885]
Günahsız eylədin sən günahkarı,
Xeyirmi, şərmisən, de nəsən ey pul?

Kəmsavad Məmməd yandı-yaxıldı,
Savadı, kəmliyi başa qaxıldı,
Ürəyi döyündü, qəlbi sıxıldı,
Dedi ki, xainsən, de nəsən ey pul?

Səndən ayrı al-qanımız qaralır,
Səbrimizlə, qərarımız daralır,
Çiçək açmır, könül bağı saralır,
Qüvvətsən, qüdrətsən, de nəsən ey pul?

Keçirsən dünyada əldən-əllərə,
Salırsan məxluqu çöldən-çöllərə,
Ağızdan-ağıza, dildən-dillərə,
Xainsən, xəbissən de nəsən ey pul?

Geniş yazdım fikir getdi dərinə,
Nə bəlasan mərd igidlər sərinə,
Arvadlar da qulluq etməz ərinə,
Eşqsən, sevdasan, de nəsən ey pul?

Nəqədər igidlər salmısan tora,[886]
Əcəlsiz – macalsız göndərdin gora,
Səninlə sağalır hər dərd, hər yara,[887]
Təbibsən, loğmansan, de nəsən ey pul?

---

[884] Onların dərdini mən də çəkirəm.
[885] Dövlətli eylədin sən tamahkarı.
[886] Çox mənəm deyəni saldırdın tora.
[887] Səninlə tapılır dərdlərə çara.

Haçandan dünyanı tutub durmusan?
İnsafı, mürvəti satıb durmusan,[888]
Yaxşını-yamana qatıb durmusan,
Sahibi-dövransan, de nəsən ey pul?

Nəqədər qapılar bağlatdırmısan?
Yandırıb sinələr dağlatdırmısan?
Analar, bacılar ağlatdırmısan?
Naləsən, fəqansan, de nəsən ey pul?

Bacarsam qəbrini özüm qazardım,
Adını tarixdən silib pozardım,
Muzeylərdə bir xatirə yazardım,
Sahibi-cahansan de nəsən ey pul?

Meyyarı olmusan, hər qiymətin də,
Oturub durmağın, ünsiyyətin də,
Pak əməl, arzunun, saf niyyətin də,
Ölçüsən, meyarsan, de nəsən ey pul?

Sənsən meydan açan qərəzə, qəsdə,
Dalaşır, vuruşur var-dövlət üstə,
İnsanın ruhunu eyləyən xəstə,
Zülümkar cəlladsan, de nəsən ey pul?

Bəşər övladını vuruşdurursan,
Alınlar çatırsan, qırışdırırsan,
Nə üçün aranı qarışdırırsan?
Qalmaqal salansan, de nəsən ey pul?

Sənsiz xəyal duman oldu, çən oldu,
Dost-tanış da, uzaşdılar, gen oldu,
Göydə günəş, yer üzündə sən oldun,
Can verib alansan, de nəsən ey pul?

Nələr törətmisən, özün bilirsən,
Nə utanıb, nə qızarıb ölürsən,
Elləri ağladıb, özün gülürsən,
Cahilsən, nadansan, de nəsən ey pul?

---

[888] İnsafı, vicdanı satıb durmusan.

Dövlət də, sərvət də sənə bağlıdır,
Namus da, qeyrət də sənə bağlıdır,[889]
Hörmət də, izzət də sənə bağlıdır,
Yoxsa cah-calalsan, de nəsən ey pul?[890]

Sənsiz kama çatan hanı dünyada?
Yaratdın bəyləri, xanı dünyada,
Öldürtdün, diriltdin canı dünyada,
Cəllad, başkəsənsən de nəsən ey pul?

Sənsiz bu dünyanı gəzən olmadı,
Nə bərkdə, nə boşda dözən olmadı,
Calayan, calanan, üzən olmadı.[891]
Bıçaqsan, qayçısan de nəsən ey pul?

Sənsiz olmayıbdır murada çatan,
Şər-böhtan danışıb aralıq qatan,
Heç olmasa deyiləndən bir utan,
Hakimsən, fərmansan, de nəsən ey pul?

Sənsiz sızıldayır igid də, nər də,
Başa hava gəlir, gözünə pərdə,
Şeş atsan taxtada yek düşər zər də,
Kədərsən, möhnətsən, de nəsən ey pul?

Bizi dəm edən də sən olmusan, sən,
Bizi kəm edən də sən olmusan, sən,
Bizmi borclu qaldıq, sənmi borclusan?
Hökmümə fərmansan, de nəsən ey pul?

Könüllər mülkünü yaralayırsan,
Qardaşı-qardaşdan aralayırsan,
Adını ürəkdən qaralayırsan,
Aralıq vuransan, de nəsən ey pul?

---

[889] İnsaf da, mürvət də sənə bağlıdır,
[890] Dərrakə, kamalsan de nəsən ey pul?
[891] Məhəbbət gülünü üzən olmadı.

Sayəndə bu bəşər oturub, durur,
Cah-calal düzəldir, aşiyan qurur,
Səninlə nəbzimiz həmahəng vurur,
Şərəf, şərafətsən, de nəsən ey pul?

Şeyda bülbüllərin xoş avazısan,
Çörəyin, xörəyin tamı, duzusan,
Şair ilhamısan, aşıq sazısan,
Dağlar vüqarısan, de nəsən ey pul?

Açılmaz düyünlər aça bilirsən,
Şüanı həryana saça bilirsən,
Yetim-yesirlərdən qaça bilirsən,
Seyidsən, mollasan, de nəsən ey pul?

Böyük də, kiçik də aldanır sənə,
İnanmır Qurana, inanır sənə,
Arxasın söykəyib daldanır sənə,
Şeyx, münəccimsən, de nəsən ey pul?

Qarşında başını əyməyən varmı?
Səninlə özünü öyməyən varmı?
Sənsiz yetişməyən, dəyməyən varmı?
Nur saçan günəşsən, de nəsən ey pul?

Səndən qurtarsaydı bizim yaxamız,
Yox olardı başımızda noxtamız,
Kəsilərdi umu-küsü qaxımız,
Olmaya baqisən, de nəsən ey pul?

Sənin əməlindən qaradır üzlər,
Nakamdır arzular, nakamdır sözlər,
Sarsıyır ünsiyyət, silinir izlər,[892]
Nə bicsən, zinasan, de nəsən ey pul?

Mat qalıb işinə neçə min insan,
Bəd işdən utanan, bezən, ovsanan,
Yarımçıq anlayan, həmdəki, qanan,
Görürəm fənasan, de nəsən ey pul? [893]

---

[892] Sarsıyır ünsiyyət, pozulur izlər.

Eşşəyi at kimi tumarlayırsan,
Gah sığal çəkirsən, xumarlayırsan,
Tamahın dalınca qomarlayırsan,
Oğrusan, doğrusan, de nəsən ey pul?

Sənin qüdrətinlə hasildi ləzzət,
Gözdə nur cəm olur, qollarda qüvvət,
Qadında rəhm olur, kişidə cürət,
Qadiri-Sübhansan, de nəsən ey pul?

Kimini böyüdüb pir eyləmisən,
Kimini əjdaha, şir eyləmisən,
Kimini ər oğlu, ər eyləmisən,
Hörmətsən, izzətsən, de nəsən ey pul?

Kiminin canını sağ eyləmisən,
Kiminin üzünü ağ eyləmisən,
İşini cağbacağ, dağ eyləmisən,
Kimiyə xəyalsan, de nəsən ey pul?

Kimiyə dərd verdin, kimiyə bəla,
Cəhənnəm oduna etdin mübtəla,
Qərq oldu fikirə, min cür xəyala,
Müsibət, möhnətsən, de nəsən ey pul?

Kimiyə nəşəsən, kimiyə dərd-qəm,
Kimiyə düşmənsən, kimiyə həmdəm,
Kimiyə görkəmsən, kimiyə yöndəm,
Əyilməz vüqarsan, de nəsən ey pul?

Kimini axtarıb yad eyləyirsən,
Kiminin qəlbini şad eyləyirsən,
Kiminin ağzında dad eyləyirsən,
Tanışsan, aşnasan, de nəsən ey pul?

Varlının cibində gəzdin, dolandın,
Neçə min möhüblər düzdün, dolandın,
Kasıbın canını üzdün, dolandın,[894]
Sahibi-zindansan, de nəsən ey pul?

---

[893] Fanisən, fənasan, de nəsən ey pul?
[894] Nəqədər əzdirdin, əzdin dolandın.

Varisi olmusan canlı aləmin,
Saqisi olmusan mey-piyalənin,
Baisi olmusan ahı-nalənin,
Zülmü-zülmükarsan, de nəsən ey pul?

Birini divanə, dəli eylədin,
Yandırıb ocağın külü eylədin,
Kimini cahanın ləli eylədin,
Qabilsən, qadirsən, de nəsən ey pul?

İnsanın qəddini bükə bilməkdə,
Könül qalasını sökə bilməkdə,
Xilqətin qanını tökə bilməkdə,
Mahirdən mahirsən, de nəsən ey pul?

Birinə bəxş etdin gülüstan bağı,
Bəxş etdin cah-calal, eyvan otağı,
Birinə qıymadın dar xeyməgahı,
Haqlısan, haqsızsan, de nəsən ey pul?

Kimiyə ad verdin, kimiyə şöhrət,
Kimiyə səxavət, kimiyə mürvət,
Kimiyə cah-calal, kimiyə hörmət,
Ləli-cəvahirsən, de nəsən ey pul?

Birinə ölməyən şərəf vermisən,
İncilər bəxş edib, sədəf vermisən,
Birinə dolaşıq kələf vermisən,
Batilsən, zahirsən, de nəsən ey pul?

Günahlar eylədin məhşərə qaldın
Könüllər küsdürdün, könüllər aldın,
Neçə min igidlər yola saldırdın,
Bizi də salansan, de nəsən ey pul?

Düşündüm dərindən, yazdım müxtəsər,
İnsafdan, vicdandan qoymursan əsər,
Sənsiz analar da baladan küsər,
Məhşəri-divansan, de nəsən ey pul?

Cəmil də, var üçün olubdur zəlil,
Nə olsun sözündə çoxludur dəlil,
Qəlbini qırmısan, etmisən əlil,
Atılmış müjgansan, de nəsən ey pul?

***Cəmil Əkbər*** 7. 12 – 1975

## 170. EY PUL?

*III variant*

Qiymət versək ədəb-ərkan hörmətə,
Aldanmasaq hər yalançı şöhrətə,
Kəc baxmasaq biz namusa qeyrətə,
Eləbil zibilsən, de nəsən ey pul?

Sussamasaq zəli kimi al-qana,
Qəsd etməsək nə məsləkə, vicdana,
Dolansaq dünyada mərdi-mərdana,
Hörmətdən düşərsən, de nəsən ey pul?

***Cəmil Əkbər***

## 171. EY PUL

Ey pul, niyə bu qədər, qiymətimi itirdin?
Məzmunumu, mənamı, hikmətimi itirdin?
Tapdalayıb sən mənim, qüvvətimi itirdin?
Şərəfimi-şanımı, şöhrətimi itirdin?[895]
Məni gözdən salaraq, zinətimi itirdin? [896]
Sağlam arzu-istəyi, niyyətimi itirdin?
Aldın olan ağlımı, kamalımı itirdin?
Əqidəmi, məsləki, amalımı itirdin?
Abır-həya qalmadı, ismətimi itirdin?
El içində nə varsa, hörmətimi itirdin?[897]
Mənliyimə toxunub, qeyrətimi itirdin?
Nicatımı itirdin, nüsrətimi itirdin?

---

[895] Şərəfimi azaltdın, şöhrətimi itirdin.
[896] Bəzəyimi, rövnəqi, zinyətimi itirdin.
[897] Olan qalan nə varsa, hörmətimi itirdin.

Səndən ayrı dost-tanış, heç nə imiş, puç imiş,[898]
Ən səmimi, mehriban, yoldaşlar da puç imiş,[899]
Tay-tuşlar da heç imiş, çağdaşlar da heç imiş,[900]
Əmioğlu, dayı da, qardaşlar da heç imiş.
Sənsiz bildim heçnədir, ünsiyyət də, ülfət də,[901]
Təsir etmir insana, öyüd sənə, söhbət də.[902]
Nə zəriflik, incəlik, nə lətafət var imiş?[903]
Gül-çiçəkdə gözəllik, nə təravət var imiş?[904]
Ürəklərdə məhəbbət, nə hərarət var imiş?
Nə etibar, etiqat, nə səxavət var imiş?
Nə nəciblik, ülvilik, nə məlahət var imiş?
İnsaf-mürvət, kəramət, nə mərhəmət var imiş?
Fəhimləri korlayıb, diqqətimi puç etdin,
İstəyimi sarsıdıb, riqqətimi puç etdin.
Kef-damağı, nəşəmi, ləzzətimi puç etdin,
Gözəl-göyçək həyatı, izzətimi puç etdin.
Qoymadın ki, car olub el-obada yayılım,
Xeyir-şərdə tanınıb, mən də insan sayılım.
Səndən ayrı a zalım, qüvvətimi dandılar,
Sağlam arzu-istəyi, niyyətimi dandılar.
Yazı-pozu nə varsa, sözümü də dandılar,
Varlığımı saymayıb özümü də dandılar. [905]
Sən deməynən əzəldən, qüvvət sənin əlində,
İmkan sənin əlində, fürsət sənin əlində.
Səndən ayrı nəçiyəm, adsız-sansız bir insan,
Xeyir-şərə yaramaz, dadsız-tamsız bir insan.
Pulsuz olan kimsəni, oğul-qız da saymayır,
Günəş nədir, ay nədir, heç ulduz da saymayır.

***Cəmil Əkbər***

---

[898] Səndən ayrı dost-tanış, yoldaşlar da puç imiş.
[899] Ən səmimi, mehriban, qardaşlar da puç imiş.
[900] Həmkarlar da, həmdəm də, sirdaşlar da heç imiş,
[901] Pozulurmuş yerbəyer, ünsiyyət də, ülfət də.
[902] Təsir etmir insana, öyüd sənə, nəsihət də.
[903] Nə insanlıq var imiş, nə ləyaqət var imiş.
[904] Nə doğruluq-düzgünlük, nə həqiqət var imiş.
[905] Varlığımı görməyib özümü də dandılar.

## 172. PULUN VARSA

*I variant*

Pulun varsa, qorxma qardaş, bil ki, kamil bir insansan,
Sən hamıdan açıqgözlü, işarədən göz qanansan.
Fəhmlisən, biliklisən, sən hamıdan zirəksən də,
Bacarıqlı, fərasətli, sən hamıdan tüləksən də.
Şan-şöhrətli, şərafətli, sən hamıdan şanlısan da,
Qüvvətlisən, qüdrətlisən, sən hamıdan canlısan da.
Əyləşmisən ən zirvədə, hamıdan da uca sənsən,
Hamıdan da bəzirgansan, hamıdan da xoca sənsən,
Çoxlarını yola salmış, ən pürani qoca sənsən.
Dərrakəli, düşüncəli, idraklısan, başlısan da,
Hamımızdan çörəklisən, hamımızdan aşlısan da.
Ağsaqqalsan, nuranisən, sən hamıdan yaşlısan da,
Fikirlisən, xəyallısan, sən hamıdan huşlusan da.
Pulun varsa bil ki, qardaş, dağ da sənə baş əyəcək?!
Bağban sənə təzim edib, bağ da sənə baş əyəcək!
Alimlər də, münəccim də, loğman sənə baş əyəcək!
Çeşmə nədir, çaylar nədir, ümman sənə baş əyəcək!
Sərçə nədir, qarğa nədir, tərlan sənə baş əyəcək![906]
Bütün ellər, məmləkətlər, həryan sənə baş  əyəcək![907]
Dövran keçər, vaxt ötüşər, zaman sənə baş əyəcək![908]
Yaxşı nədir, gözəl-göyçək, yaman sənə baş əyəcək!
Körpə nədir, qoca nədir, cavan sənə  baş əyəcək.
Çoxalacaq dostluq edən, hamı sənə qardaş olar,
Hamı sənlə canhacandır, hamı sənə sirdaş olar.[909]
Görmürsənmi pul döndərir, daxmaları saraylara?
Məlhəm edir, qövr eyləyən, hər sağalmaz yaralara?
Hökm eyləyib o döndərir, hər gədanı kişiyə də,
Bilmirsənmi o çöndərir hər aslanı pişiyə də?[910]
Görmürsənmi odur qardaş, yerin, göyün dayağı da?
Onu sayma elə-belə, adi kağızsayağı da,
Onun hökmü eləbilki hər hökmlərdən güclüdür,

[906] Şahinlər də, səcdə qılıb, tərlan sənə baş əyəcək.
[907] Diyar-diyar bütün ellər, həryan sənə baş  əyəcək.
[908] Keçər dövran, ötər əyyam, zaman sənə baş əyəcək.
[909] Həmdəm olar, həmkar olar, hamı sənə sirdaş olar.
[910]O kiçildir, o oxşadır, hər aslanı pişiyə də.

Onun səsi, hayı-küyü, hərbir səslərdən güçlüdür.
Dərrakə də, düşüncə də, kamal da ona bağlıdır,
Məslək, vicdan, əqidə də, amal da ona bağlıdır.
Yer üzündə tanımıram, ondan güclü nədir olan?
Ondan səsli, həm səmirli, həm də vecli nədir olan?
Bu cahanda tanımıram ondan qadir olan nədir?
Ondan vacib, ondan əfsəl, ondan nadir olan nədir?[911]
Əzəl gündən odur bilin ünsiyyətin əsası da,[912]
Həm dostluğun, düşmənliyin, sədaqətin qısası da.
Yerində deyib atalar, pulun varsa sən gəl giriş,
Pulun yoxsa ay zavallı, tez aradan vızqırt, sürüş.

***Cəmil Əkbər***

## 173. PULUN VARSA

*II variant*

Pulun varsa onu bil ki, sən ən gözəl insansan,
Düşünənsən, dərk edənsən, sən hamıdan qanansan.
Sən alimsən, münəccimsən, sən təbibi-loğmansan,
Sən hamıdan biliklisən, sən hamıdan zirəksən,
Fərasətli, fəhmlisən, sən hamıdan tüləksən.
Sən hamıdan qüdrətlisən, sən hamıdan güclüsən,
Sən hamıdan qiymətlisən, sən hamıdan veclisən.
Şərafətli, şöhrətlisən, hamıdan da şanlısan,
Sən hamıdan yekəqarın, hamıdan da canlısan.
Sən hamıdan zirvədəsən, sən hamıdan ucasan,
Sən hamıdan bəzirgansan, sən hamıdan xocasan.
Sən hamıdan dərrakəli, sən hamıdan başlısan,
Sən hamıdan çörəklisən, sən hamıdan aşlısan.
Sən hamıdan nuranisən, sən hamıdan yaşlısan,
Sən hamıdan xəyallısan, sən hamıdan huşlusan.
Pulun varsa demək qardaş, sən hamıdan varlısan,
Xeyir-şərdə sən hamıdan səxavətli, zarlısan.
Təpələr də lərzə gələr, dağ da sənə baş əyər,
Bağban sənə səcdə qılar, bağ da sənə baş əyər.

---

[911] Ondan başqa, ondan qeyri, ondan nadir olan nədir?
[912] Puldur qardaş, yaxşı bilin, ünsiyyətin əsası da.

Alim nədir, münəccim nə, loğman sənə baş əyər,
Çeşmə nədir, çaylar nədir,ümman sənə baş əyər.
Yaxşı nədir, yaman nədir, aman sənə baş əyər,
Dövran sənə heyran olar, zaman sənə baş əyər.
Sərçə nədir, qarğa nədir, tərlan sənə baş əyər,
Tülkü nədir, çaqqal nədir, aslan sənə baş əyər.
Pulun varsa inan kişi, fələk sənə baş əyər,
Fəqir nədir, səqir nədir, tülək sənə baş əyər.
Nökər nədir, naib nədir, ağa sənə baş əyər,
Qoca, cavan, əhli-cavan, çağa sənə baş əyər.
Pulun varsa yaxşıca bil, həryan sənə cənnətdir,
Həryan sənə kef-damaqdır, həryan sənə minnətdir.
Həryan sənə dost-tanışdır, həryan sənə qardaşdır,
Həryan sənə mehri-ülfət, həryan sənə sirdaşdır.
Pulun varsa yaxşıca bil, hökmün keçər həryanda,
Qasırğa da məhv edənməz, qalmış olsan cəryanda.
Görmürsənmi pul eyləyir, hambalı da milyoner?
Bunu bilir hər kommunist, hər komsomol, pioner.
Görmürsənmi pul döndərir daxmaları saraya?
Məlhəm edir, qövr eyləyən, hər sağalmaz yaraya.
Görmürsənmi pul eyləyir hər gədanı kişiyə?
Çox qanmazı qananlara, çox zalımı pişiyə.
Odur qardaş yaxşı bilin, yerin-göyün dayağı,
Onu sayma elə-belə adi kağızsayağı.
Dərrakəmiz, düşüncəmiz kamal ona bağlıdır,
Vicdanımız, məsləkimiz, amal ona bağlıdır.
Nəqədərki, bu dövranda onun belə gücü var?
Nə namusdan, nə qeyrətdən nə də ardan danışma,
Nə dostluqdan, qardaşlıqdan, nə də yardan danışma.

***Cəmil Əkbər***

## 174. PUL OLUB (1)

Yer üzünün hakimi əzəl gündən pul olub.
Kimdə yoxsa başına, gör nəyaman kül olub.[913]
Dərrakənin, kamalın meyyarı da o olub,
Əqidənin, amalın meyyarı da o olub.
Tənzimləyən hər şeyi, gecə-gündüz pul olmuş,

[913] Kimdə yoxsa neyləsin, çox başlara kül olub.

Kimdə yoxsa o məzlum, sahibkara qul olmuş.[914]
İnsanları çaşdırıb, yollarından azdıran,[915]
Ünsiyyəti-ülfəti, yerli-dibli pozduran.[916]
Alimləri, loğmanı öz yolundan döndərən,
Ən müqəddəs fikirdən, düz yolundan döndərən.
Xəstələri mat qoyub, məzlumları çaşdıran,
Sultanları, xaqanı, bəy, xanı dalaşdıran.
İbtidadan, əzəldən, deyirlərki pul olub,
Dar ayaqda, məqamda, din-imanı pul olub.
Pul üstündə qurulub, ülfətlərin mayası,
Qadınların isməti, gəlinlərin həyası.
Dostluğun da təməli, pul üstündə qurulur,
Günah, savab nə varsa, altun ilə yuyulur.
Pulun varsa düzəlir, düzəlməyən işlər də,[917]
Qızıllara bələnib, çürükləyən dişlər də.
Altun ilə ucalır, ucalanın hamısı,[918]
Onun üstə qocalır, qocalanın hamısı.[919]
Əldən düşür köhlən də, arıqlayır yavı da,
Boyunduruq qırılır, tab gətirmir samı da.
Pul üstündə ölürlər, ölənlərin hamısı,[920]
Ömür sürüb yaşayır, qalanların hamısı.[921]
Pulsuz olsan ay yazıq, çox fənadı işlərin,
Əriyəcək peysərin, ağaracaq dişlərin.
Pulun yoxsa geri dur, girişməynən meydana,
Atılmaynan irəli, sürüşməynən meydana.
Nə xahişin tutular, nə sözünü deyərlər,
Nə haqqını qoruyub, nə düzünü deyərlər.
Nə payını çıxarlar, nə adını anarlar,
Nə dostunu tanıyıb, nə yadını anarlar.
Nə qolundan qaldırıb,köməyinə gələrlər,
Kef-əhvalı soruşub, nə halını bilərlər.

---

[914] Kimdə yoxsa o yazıx, pullulara qul olmuş.
[915] O olmuşdur insanı yollarından azdıran.
[916] Ünsiyyəti korlayıb, ülfətləri pozduran.
[917] Pul olanda düzəlir, düzəlməyən işlər də.
[918] Onun ilə ucalır, ucalanın hamısı.
[919] Vaxt-vədəsiz qarıyıb, qocalanın hamısı.
[920] Pul üstündə ölürlər, ölənlər də deyirlər.
[921] Ömür sürüb yaşayır, qalanlar da deyirlər.

Nə irəli çəkərlər, nə vəzifə verərlər,
Nə könlünü alarlar, nə möhübü düzərlər.
Nə xeyirdə görünüb, nə də şərə gedərsən,
Nə Mədinə, Məkkəyə, nə də pirə gedərsən.[922]
Qollarında taqətin, dizlərində güc olmaz,
Fikirlərdə, xəyalda, sözlərində güc olmaz.
Nə dəyərin bilinər, nə qiymətin verilər,[923]
İtib batar zəhmətin, nə xidmətin görünər.
Nə əməyin bar verər, nə zəhmətin bəslənər,
Bəstəkar, şair kimi söz-söhbətin səslənər.
Ləyaqətin tapdanar, mənliyin də puç olar,
Kef-damağın pozulub, şənliyin də heç olar.[924]
Pulun yoxsa ay yazıq, salacaqlar böhtana,
Gəl daşı tök ətəkdən, lənəti de şeytana.
Taydan, tuşdan qalarsan, müşgül-məlil olarsan,[925]
Əzalar sağ olsada, özün zəlil olarsan.[926]
Dost-tanışlar uzaşar, təkcə-tənha qalarsan,
Quruyarsan tağından, saralarsan, solarsan.
İş yerinə, evinə, zəng edənlər azalar,
Baş-beynini tökənlər, dəng edənlər azalar.
İşlənmiyən qab kimi, taxçalarda qalarsan,
Nimdaş olan don kimi, boxçalarda qalarsan.
Pulun bolsa qardaşım, şah da sənə baş əyər,
Nökər naib nədir ki, xan da sənə baş əyər.
Təpələr lərzə gələr, dağ da sənə baş əyər,
Bostan, dirrik, zəmilər, bağ da sənə baş əyər.
El içində yayılıb, hörmətin də çoxalar,
Şərəfin də, şanın da, şöhrətin də çoxalar.
Ev-eşiyə gələnin, gedənin də çoxalar.
Bər-bəzəyə nə söz var, naxışın da artacaq?[927]
Gözlərinə nur gəlib, baxışın da artacaq?
Dövrü-zaman xoş gəlib, cah-calalın artacaq,
Qədir-qiymət bilənlər, əhli-halın artacaq.

---

[922] Nə Məkkəyə üz tutub, nə də pirə gedərsən.
[923] Nə dəyərin bilinər, nə qiymətin görünər,
[924] Cah-cəlalın, var-halın, şənliyin də heç olar.
[925] Kefin-halın pozular, müşgül-məlil olarsan.
[926] Əzaların sağikən, özün zəlil olarsan.
[927] Pulun olsa qardaşım, naxışın da artacaq.

Göydə günəş nurundan lütfkarlıq edəcək,[928]
Mərhəməti göstərib, istiqanlıq edəcək.[929]
Gül-çiçək də ətrini sənə ənam edəcək,
Olan-qalan xətrini sənə ənam edəcək.
Bahar təravətindən sənə ətir verəcək,
Payız da süfrə açıb, gətir-götür verəcək.[930]
Pulun varsa qardaşım, qönçələrin açacaq,
Şan-şöhrətin yayılıb, hərbir yana saçacaq.
Bülbüllər cəh-cəh vurub, bağlarında ötəcək,
Arzuların, diləyin, tez yerinə yetəcək,
Əkdiklərin çüçərib, qış da olsa bitəcək.
Bir işin on olacaq, on işin yüz olacaq,
Hər sözün, hər söhbətin, ellərdə düz olacaq.[931]
Sabir yaman demişdir, pulun varsa gəl giriş,
Yoxundursa dayanma, qaç aradan tez sürüş.

***Cəmil Əkbər***

**175. PUL OLUB (2)**

Pul üstündə qurulur ülfətlərin əsası,
Xətir-hörmət nəki var, ünsiyyətin mayası.
Dostluğun da təməli, pulun varsa qurulur,
Qaralsada al-qanın, pulun varsa durulur.
Pul ilə də cəm olur yemək-içmək nəki var,
Sən ölməynən, mən ölüm candan keçmək nəki var.
Pul üstündə ölürlər, ölənlərin hamısı,
Yaşayanın hamısı, qalanların hamısı.
Pulu varsa ucalır, ucalanın özü də,
Pulu yoxsa qocalır, qocalanın özü də.
Pulun yoxsa ay yazıq, girişməynən meydana,
Gedənməzsən irəli, sürüşməynən meydana.
Nə xahişin tutular, nə sözünü deyərlər,
Nə yaxşını görərlər, nə düzünü deyərlər.
Nə payını çıxarlar, nə adını anarlar,
Nə qohumdan utanıb, nə yadını sanarlar.
Nə qolundan qaldırıb, harayına gələrlər,

---

[928] Günəş də istisindən, lütfkarlıq edəcək.
[929] Mərhəməti bildirib, istiqanlıq edəcək.
[930] Payız da nemətindən ətir verəcək.
[931] Hər nə desən, danışsan sözün düm-düz olacaq.

Nə kefini soruşub, əhvalını bilərlər?!
Nə irəli çəkərlər, nə vəzifə verərlər,
Nə xətrini görərlər, nə möhübü düzərlər.
Nə toylarda görünüb, nə vaylara gedərsən,
Nə dağlara yön alıb, bulaqlara gedərsən.
Nə qolunda taqətin, nə dizində güc olar,
Nə ürəkdə təpərin, nə sözündə güc olar.
Nə dəyərin bilinər, nə qiymətin verilər,
Nə xidmətin yad olub, nə zinətin verilər.
Ləyaqətin bilinməz, mənliyin də puç olar,
Kef-damağın pozulub, şənliyin də puç olar.
Pulun yoxsa ay yazıq, girişməynən meydana,
Eşit sözü, mətləbi, açıq-aşkar mərdana.
Pulun çoxsa qardaşım, bil şahənşah baş əyər,
Nökər-naib nədir ki, xan, padişah baş əyər.
Təpələr lərzə gələr, dağ da sənə baş əyər,
Kol-koslar təzim edib, bağ da sənə baş əyər.
El içində, obada hörmətin də çoxalar,
Adın-sanın yayılıb, şöhrətin də çoxalar.
Dəyanətin bir yana, cürətin də çoxalar,
Şahin kimi səmada, sürətin də çoxalar.
Dost-tanışın çoxalar, qardaşın da çoxalar,
Həmdəmlərin cəm olar, sirdaşın da çoxalar.
Ünsiyyətin, ülfətin, gedib-gələn artacaq,
Oturanlar, duranlar, üzə gələn artacaq.
Bər-bəzəyin yerbəyer, naxışın da artacaq,
Fikirlərin dəyişib, baxışın da artacaq.
Varın-halın çoxalıb, cah-calalın artacaq,
Qiymətini bilənlər, əhli-halın artacaq.
Bahar fəslin gələcək, qönçələrin açacaq,
Ətirlərin yayılıb hər tərəfə saçacaq.
Bülbüllər cəh-cəh vurub bağlarında ötəcək,
Arzuların, diləyin öz yerinə yetəcək.
Bir işin on olacaq, on işin yüz olacaq,
Hər bir fikrin, xəyalın, hər sözün düz olacaq.
Günəş də istisindən peşkəşini verəcək,
Sənə rəhmə gələcək, bəxşiş, ənam verəcək.
Yay da hərarətindən sənə töhfə verəcək,
Güllər də öz ətrini sənə töhfə verəcək,

İnsanlar da xətrini sənə əta edəcək,
Hər imkanı saxlayıb sənə əda edəcək.
Torpaq da peşkəş edib nemətini artırar,
Şabaş kimi bir anda sərvətini artırar.
Pulun yoxsa ay yazıq, girişməynən meydana,
Gəl daşı tök ətəkdən, lənəti de şeytana.
Dərdi-qəmin çoxalar, müşgül-məlil olarsan,
Dost-tanışlar azalar, təkcə zəlil qalarsan.
İş yerinə, evinə zəng edənlər tapılmaz,
Yaltaqlanıb min cürə, dəng edənlər tapılmaz.
Meyvəsiz ağac kimi, bağçalarda qalarsan,
İşlənməyən qab kimi, bucaqlarda qalarsan.
Yer üzünün hakimi indi deyən pul olub,
Bu bəşərin gözünə gör nəyaman kül olub?
Kamalın da meyyarı, amalın da meyyarı,
Görkəmin də meyyarı, camalın da meyyarı.
Tənzimçisi, ölçüsü, indi deyən pul olub,
Ən qüvvəli, güclüsü, indi deyən pul olub.
Əqidəni, məsləki, mehvərindən döndərib,
Bilmirsən hansı səmtə, hansı yana göndərib?
Alimi də çaşdırıb, zadəganı çaşdırıb,
Sultanları mat qoyub, xaqanları çaşdılrıb.
Hamının din-imanı, indi deyən pul olub,
Varlığına gümanı, indi deyən pul olub.
El içində deyiblər pulun varsa gəl giriş,
Pulun yoxsa zavallı, tez aradan get sürüş.

***Cəmil Əkbər***

### 176. PUL İMİŞ (1)

Pul imiş baisi cahi-cəlalın,
Min cür fikirlərin, min bir xəyalın.
Düşüncənin, dərrakənin, kamalın,
Olmayan məqamda dərdi-məlalın.

Pul imiş insanı karlı edən də,
Boxçalı, bağatlı, barlı edən də.
Qohumlu, qardaşlı, yarlı edən də,
İftixarlı, iqtidarlı edən də.

Pul imiş gədəni başa çəkən də,
Yağlı vəzifəyə işə çəkən də,
Kababa, bozbaşa, aşa çəkən də,
Üzüyə saldırıb qaşa çəkən də,

O imiş igidi yaralayan da,
Sındırıb qəlbləri paralayan da.
Əzab-əziyyətdən aralayan da,[932]
Bostantək tağları uralayan da.

Pul imiş ülfətin əsas mayası,
Vicdanı, məsləki, kökü, qayəsi.
İnsanın-insana olan sayəsi,
Əsil köməkçisi, yaxın dayəsi.

Pul imiş cahili ər eyləyən də,
Çaqqalı kərgədan, şir eyləyən də.
Sısqa çeşmələri gur eyləyən də,
Xeyiri döndərib şər eyləyən də.

Pul imiş qocanı cavan göstərən,
Yolunu, izini rəvan göstərən.
Nabələd gədəni sarvan eyləyən,
Mərdləri namərdə giryan eyləyən.

Pul imiş gözəli çirkin eyləyən,
Sadə bir insanı xudbin eyləyən.
Artırıb qüssəni bədbin eyləyən,
Ürəkli saxlayıb nikbin eyləyən.

Pul imiş  insanın qəsdinə duran,
Başları üzdürən, iliyi vuran.
Gərəksiz  məqamda bezdirib yoran,
Damara soxulub qanları soran.

Odur insanları üryan eyləyən,
Cahili, nadanı loğman eyləyən.
Hər işi qaydaya, sahmana salan,
Olmayan məramda arana salan.

[932] Min cür əzablardan aralayan da.

Pul imiş  yaxşıya pisdi dedirən,
Qızıla, gümüşə, misdi dedirən.
Höcətdi, inaddı, tərsdi dedirən,
Bədxahdı, inaddı, nəsdi dedirən.

Pul imiş  insanı hörmətli edən,
Kəramətli edən, mürvətli edən.
Cəsarətli edən, cürətli edən,
Fərasətli edən, qüdrətli edən.

Pul imiş insanı qardaş eyləyən,
Mehriban, səmimi yoldaş eyləyən.
Həmdəmlik, həmkarlıq, sirdaş eyləyən,
Tay-tuşu tanıdan, çağdaş eyləyən.

Pul imiş insanı ucalda bilən,
Cavan kimsələri qocalda bilən.
İnlədib, sızladıb, sozalda bilən,
Günbəgün əridib, azalda bilən.

O imiş  baisi ağaran başın,
Tutulan qabağın, çatılan qaşın.
Qısalan ömürün, kəsilən yaşın,
Dağılan fikirin, xəyalın, huşun.

O imiş  baisi davaların da,
Zəhərə qarışan havaların da.
Sərsəri giclərin, yavaların da,
Dağılıb sökülən yuvaların da.

Pul imiş baisi qəbahətlərin,
Kinin-küdurətin, ədavətlərin.
Xainlik, paxıllıq, xəyanətlərin,
Hər saxta fikirin, bəyanətlərin.

Pul imiş baisi tamahkarın da,
Vicdan qarşısında günahkarın da.
Nanəcib, naxələf, naqislərin də,
Bədxahlıq edənin, xəbislərin də.

Pul imiş baisi fəlakətin də,
Ehtiyac, yoxsulluq, səfalətin də.
Peşiman olmağın, xəcalətin də,
Hərcür bədəməlin, pis halətin də.

Pul imiş insanı qəmə saldıran,
Gözün didəsini nəmə saldıran.
Zildən pəsə çəkib, bəmə saldıran,
Əyərə, əksiyə kəmə saldıran.

Pul imiş baisi kəramətin də,
İnsafın, mürvətin, mərhəmətin də.
Ellərin, obanın, məmləkətin də,
Sənin də, mənim də, cəmiyyətin də.

Pul imiş baisi xeyirin, şərin,
Səs-səmir, hay-küyün, haray-həşirin.
Arxası köməyi, pələngin, şirin,
Şair, yazıçının, hərbir nasirin.

Pul imiş baisi kef-damağın da,
Çalıb-çağırmağın, oynamağın da.
Aşmanın, daşmanın, qaynamağın da,
Yeməyin, içməyin, ağnamağın da.

Pul imiş baisi olub qalanın,
Gələni, gedəni yola salanın.
Fikirlərə, xəyallara dalanın,
İşdə-gücdə zəfərləri çalanın.

O olub baisi söz-söhbətin də,
Gileyin, güzarın, hər qeybətin də.
Hər cür müsibətin, fəlakətin də,
Xətanın, bəlanın, qəbahətin də.

Pul imiş baisi cəhalətin də,
Dedinin, qodunun, şikayətin də.
Törənən, söylənən hekayətin də,
Oğruluq, əyrilik, cinayətin də.

Pul imiş baisi məhəbbətin də,
Hatəmdən bəridir, səxavətin də.
Ədəbin-ərkanın, nəzakətin də,
İnsanlıq naminə ləyaqətin də.

Pul imiş  baisi ucalanların,
Səksənə, doxsana qocalanların.
Ellərdən, obadan güc alanların,
Hünərlər göstərib, tac alanların.

Pul imiş baisi fərasətin də,
Bilik bacarığın, məharətin də.
Hüquq ixtiyarın, sədarətin də,
Hünər meydanında cəsarətin də.

Pul imiş  baisi yoldaşlığın da,
Canhacan olmanın, qardaşlığın da.
Həmrəylik, həmdəmlik, sirdaşlığın da,
Tay-tuşluq etmənin, çağdaşlığın da.

Pul imiş baisi ədavətin də,
Xətanın, bəlanın, xəsarətin də.
Məğlub olmanın da, əsarətin də,
Ürəkdə kök salan xəyanətin də.

Pul imiş baisi məhəbbətin də,
İnsafın, mürvətin, kəramətin də.
Ədəbin, ərkanın, nəzakətin də,
Doğruluq, düzgünlük, həqiqətin də.

Pul imiş  baisi mərhəmətin də,
Xeyirxah olmağın, fəzilətin də.
Övladı-bəşərin, cəmiyyətin də,
Sağlam arzuların, pak niyyətin də.

Pul imiş  insanın dadına çatan,
Qohum-qardaşına, yadına çatan.
Şərəfin, şöhrətin adına çatan,
Ocağına çatan, oduna çatan.

Pul imiş insanı dardan qurtaran,
Həsrətdolu intizardan qurtaran.
Hiylədən, məkirdən, tordan qurtaran,
Çətindən qurtaran, zordan qurtaran.

Pul imiş insanın taleyi, bəxti,
Tikilən sarayı, qurulan təxtdi.
İnsanam deyəni cavan saxlayan,
Yolunda, izində rəvan saxlayan.

Pul imiş  insanı-insan eyləyən,
Cahili, nadanı loğman eyləyən.
Münəccim eyləyən, qanan eyləyən,
Eşqin mübtəlası, Sənan eyləyən.

Pul imiş  insanı yoldan azdıran,
Ünsiyyəti, ülfətləri pozduran,
Doğruları əyrilərə yazdıran,
Ayaqlar altından quyu qazdıran.

Pul imiş baisi dönüklərin də,
Vicdanı, məsləki sönüklərin də.
Dadamal, tamarzı, əniklərin də,
Min səmtə üz tutan yönüklərin də.

Pul imiş baisi ara qatmanın,
Sərvətə, dövlətə, vara çatmanın.
İftixara, iqtidara çatmanın,
Vaxt-vədəsiz dar məzara çatmanın.

Pul imiş baisi xar olanların,
Dünyası başına dar olanların.
Yayılıb ellərə car olanların,
Tərlan görkəmində da sar olanların.

Pul imiş baisi  bəy olanların,
İdrakdan, zəkadan key olanların.
Ağıldan, kamaldan səy olanların,
Yetişmək bilməyən çiy olanların.

Pul imiş baisi key oğlu keyin,
Ağılsız, kamalsız səy oğlu səyin.
Yetişmək bilməyən çiy oğlu çiyin,
Xarab oğlu xarab, zay oğlu zayın.

Hayıf ki, mən bunu gec anlamışam,
Düzünə görməyib kəc anlamışam,
Pula cəhd etməyi suç anlamışam,
Dünyanın varını puç anlamışam.[933]

***Cəmil Əkbər*** 11-12/ 04 – 1999

## 177. PUL İMİŞ (2)

Pul imiş baisi ağaran başın,
Tutulan qabağın, çatılan qaşın.
Vaxtsız ölümlərin, gödələn yaşın,
Dağılan fikirin, xəyalın, huşun.

Odur səbəbkarı dava-dalaşın,
Həyəcan, səksəkə, qorxu, təlaşın.
Əcəli çatmamış ölənlərin də,
Bağrının başını dələnlərin də.

Əllərdə, ayaqda qalanların da,
Xəzana qərq olub solanların da.
Varlının, yoxsulun, kalanların da,
Zəfərlər təblini çalanların da.

Pul imiş baisi qəbahətin də,
Xainlik, xəbislik, xəyanətin də.
Kinin, küdurətin, ədavətin də,
İztirab, işgəncə, fəlakətin də.

O imiş baisi tamahkarın da,
Vicdan qarşısında günahkarın da.
Nanəcib, naxələf, naqislərin də,
Acgöz, qarınqulu, hərislərin də.

---

[933] *II variant* Mən bunu nəyaman gec anlamışam,
Görə bilməmişəm, kəc anlamışam,
İtirib əqlimi gic anlamışam,
Özümü puç bilib, suç anlamışam.

O imiş baisi səfalətin də,
Hər addımbaşında cəhalətin də.
Peşiman olmanın xəcalətin də,
Hərcür bədəməlin, kəc halətin də.

O imiş insanı ürəkli edən,
Dar məqam, ayaqda kərəmli edən.
Övladı-bəşəri qüdrətli edən,
Şərəfə çatdıran, şöhrətli edən.

İnsanam deyəni qəmə salan da,
Əyərə əksiyə, kəmə salan da.
Zildən pəsə çəkib, bəmə salan da,
Gözlərin didəsin nəmə salan da.

Pul imiş baisi hər toy-düyünün,
İstər qəmə batın, istər sevinin.
İstər özələnin, istər deyinin,
İstər yasa batın, qara geyinin.

Odur səbəbkarı ucalanın da,
Səksənə, doxsana qocalanın da.
Zəfərlər çalaraq bac alanın da,
Hünərlər göstərib, tac alanın da.

Pul imiş baisi sönənlərin də,
Zirvədən aşağı enənlərin də.
İlqardan, imandan dönənlərin də,
Kölgədə, daldada sinənlərin də.

Pul imiş baisi dəyanətin də,
Dözümün, durumun, qətiyyətin də.
İnsanam deyənin, cəmiyyətin də,
Arzu-istəklərin, pak-niyyətin də.

Pul imiş baisi loğmanların da,
İnciyib-küsənin, umanların da.
Harda var yaxşılar, yamanların da,
Toyların, düyünün, amanların da.

Pul imiş baisi yaxşı, pis nə var,
Zalımmı, qəddarmı, yoxsa nəs nə var?
Höcətmi, inadmı bir də tərs nə var?
Acıq, qəzəb, kin-küdurət, hirs nə var?

Həryanda nə varsa ona bağlıdır,
Kimlərdə yoxdursa sinə dağlıdır.
Pul ilə açılır, açılmaz qapı,
Nə lazım eyləmək başqa cür xapı?

Pulun varsa ləyaqət də sənindir,
Doğru-düzlük, həqiqət də sənindir.
Xeyirxahlıq, fəzilət də sənindir,
Külli-aləm cəmiyyət də sənindir.

Oba da, oymaq da, el də sənindir,
Çəmən də, çiçək də, gül də sənindir.
Dərya da, dəniz də, göl də sənindir,
Begemont, kərgədan, fil də sənindir.

Bu vətən sənindir, mahal sənindir.
Düşüncə, dərrakə, kamal sənindir,
Mənəvi gözəllik, camal sənindir,
Nurani, Pürani, ahal sənindir.

***Cəmil Əkbər*** 12. 05 - 1999

### 178. İNDİ

*I variant*

Hər yetən özünü dağ bilir Allah,
Sanki topdağıtmaz sal olub indi?
Barlı-bərəkətli bağ bilir Allah,
Alimlər, loğmanlar lal olub indi.

Yoltapan, iztapan çəkilir başa,
Bir deyil, beş deyil, lap qoşa-qoşa,
Edən yox bir tövbə, deyən yox haşa,[934]
Gədələr Rüstəmi-Zal olub indi.[935]

---

[934] Etmirlər bir tövbə, demirlər haşa.

Avamlıq bürüyüb eli, mahalı,
Salırlar araya qovğanı-qalı,
Baxdıqca insanın tökülür kalı,
Qora şirinləşib, bal olub indi.[936]

Bazarda hər şeyin qiyməti artıb,
Axtarsan tapılmır, minnəti artıb,[937]
İnsanın-insana hiddəti artıb,
Qədəklər, sətinlər şal olub indi.

Azalıb kişilər, çoxalıb gədə,
Bürüyüb həryanı vahimə, hədə,[938]
Yetişib məqamı, çatmamış vədə,[939]
Nəqədər saç-saqqal çal olub indi?

Ağarıb bu dərddən başı dağların,
Torpağı dağların, daşı dağların,[940]
Toxunub qəlbinə naşı dağların, [941]
Əyilib şah qamət, dal olub indi.

Bir zaman keçilməz olan gədiklər,
Qar ilə boranla dolan gədiklər,
Çınqıllı, kəsəkli qalan gədiklər,[942]
Salınıb nə şahrah yol olub indi.[943]

---

[935] *II variant* Dayısı olanlar çəkilir başa,
Yatırlar ürəyə, gəlirlər xoşa,
Vicdansız, ürəklər dönübdür daşa,
Eləbil Rüstəmi-Zal olub indi.

[936] *II variant* Sayan yoxdur el-obanı, mahalı,
Nuranini, püranini, ahalı,
Tökürlər ağacdan dəyməmiş kalı,
Qora şirinləşib, bal olub indi.

[937] 1)Tapmaq da olmayır, minnəti artıb, 2) Tapmaq mümkün deyil, minnəti artıb.
[938] Bürüyüb cahanı vahimə, hədə,
[939] Ötməmiş zəmanə, gəlməmiş vədə.
[940] Çatılıb qabağı, qaşı dağların.
[941] 1) Almayıb könlünü naşı dağların. 2) Sarsıyıb xəyalı, huşu dağların,
[942] Gəlimsiz, gedimsiz qalan gədiklər.

Sağikən çoxunun qədri bilinmir,
İqtidar sayılmır, sədri bilinmir,
Hörməti tapdanır, xətri bilinmir,
Sonradan təsəlli, val olub indi.[944]

Qalmayıb üzlərdə həyadan əsər,
Əqidə, məsləkdən, qayədən əsər,
Təlimi düz verən dayədən əsər,[945]
Abırsız, həyasız bol olub indi.[946]

Qaşlara, gözlərə çəkilir sürmə,
Eləbil torpağa yapılıb gərmə,
Xərclənib sərmayə, olunub cərmə,
Sanırki yanağı al olub indi.[947]

---

[943] Hamının keçdiyi yol olub indi.

[944] *II variant*
Sağikən insanın qədri bilinmir,
Başçısı tapılmır, sədri bilinmir,
Hörməti, izzəti, xətri bilinmir,
Sonradan təsəlli val olub indi.

[945] Eysüdlü anadan, mayədən əsər.

[946] *II variant*
Ünsiyyət-ülfətlər pozulub yaman,
Doğrular tərsinə, yozulub yaman,
Sədaqət, səxavət azalıb yaman,
Həyasız, ismətsiz bol olub indi.

*III variant*
İnsanlığa qənim çıxan gənclərin,
Xainlərin, xəbislərin, öclərin,
Hiyləgərin, dələduzun, biclərin,
Fitnəsi, fəsadı bol olub indi.

*IV variant*
Yolçusu çoxalıb kəc fikirlərin,
Sərsəm fikirlərin, gic fikirlərin.
Qanuna, qaydaya öc fikirlərin,
Fitnələr, fəsadlar bol olub indi.

[947] *II variant*
Qaşlara, gözlərə çəkilir sürmə,
Eləbil torpağa yaxılıb gərmə,
Gözəllər havayı çəkirlər cərmə,
Sanırlar yanağı al olub indi.

*III variant*
Qaşlara-gözlərə sürmə çəkilir,
Yanağa, buxağa gərmə çəkilir,
Sərmayə qoyulub, cərmə çəkilir,
1)Sanırlar lalədir, al olub indi. 2)Sanırsan çəhrayı, al olub indi. 3) Sanırsan lalədir, al olub indi.

Qırılıb tökülür barlı butaqlar,
Almalı-heyvalı, narlı butaqlar,
Faydalı-xeyirli, karlı butaqlar,
Həryanı bürüyən kol olub indi.[948]

Bir zaman məzluma mürvət var idi,
Oğluna, qızına hörmət var idi,
Qayğı çəkilirdi, xidmət var idi,
Fəqirin başına kül olub indi.[949]

Hiyləgər, dələduz, biclər çoxalıb,
İlqara, imana kəclər çoxalıb,
Qanuna, qaydaya öclər çoxalıb,
Həryana baxırsan fel olub indi.[950]

Yamacı bürüyüb alaqotları,[951]
Gicitkansayağı dalaqotları,
Tikanlar, qanqallar, ulaqotları,[952]
Mixək darçın olub, hil olub indi.[953]

Ayıran tapılmır yaxşını pisdən,
Qalayı gümüşdən, qızılı misdən,
Vururlar aranı qərəzlə, qəsdən,[954]
Ürəkdə inləyən tel olub indi.

---

[948] 1) Bağların yerində kol olub indi. 2) Qorunub saxlanan kol olub indi. 3) Bəslənib, boy atan kol olub indi.

[949] *II variant* Bir zaman məzluma hörmət var idi,
Kəramət var idi, mürvət var idi,
Oğluna, qızına xidmət var idi,
1) Fəqirin başına kül olub indi. 2) Əlinib başına kül olub indi.

[950] *II variant* Hiyləgər, dələduz, biclər çoxalıb,
Haqqa-ədalətə kəclər çoxalıb,
Qənimlər çoxalıb, öclər çoxalıb,
Doşab dəbə düşüb, bal olub indi.

[951] Çoxalıb həryandan alaq otları.

[952] Tikanlı, qanqallı, ulaq otları.

[953] Darçın mixək olub, hil olub indi.

[954] 1) Baş açmaq olmayır, qərəzdən-qəsdən. 2)Yaxamız qurtarmır qərəzdən-qəsdən.
3) Bəşər cana doyub qərəzdən, qəsdən.

Torpağa tökməyən alın tərini,
Yaxşı yola verir xeyir-şərini,
Açıb-tökən tapılmadı sirrini,[955]
Qazancı, gəliri ləl olub indi.

İxtiyar sahibi olubdur naşı,
Girləmir kamalı, çıxarmır başı,
Axır məzlumların qanlı gözyaşı,
Qurumaq bilməyir, sel olub indi.

Gədadan törəyən bəyzadələrin,
Kütbeyin, kəmağıl, keyzadələrin,
Sərsəri, divanə, səyzadələrin,[956]
Yorğanı, yastığı tül olub indi.

Gəlib çıxdığımız zəmanəyə bax?
Sərsəri, kəmağıl divanəyə bax?
Əhli-kef, laqeyid, biganəyə bax?
Çoxalıb dəstəsi xıl olub indi. [957]

Hamı bir-birinin qanını sorur,
Bezdirib, dözdürüb qolunu yorur,
Kişitək şeşəldib bığını burur,
Dövlət də, sərvət də pul olub indi.

Hiyləgər, dələduz, bic əyyamıdır,
Sərsəri, kəmağıl, gic əyyamıdır,
Qanuna, qaydaya kəc əyyamıdır,[958]
İşləyir nömrələr, xal olub indi.

Dilqəmi üstündə qəmdə ötənlər,
Pəsdə inildəyib, bəmdə ötənlər,
Bu ahəng, vəzndə, çəmdə ötənlər,[959]
Köklənib nəyaman zil olub indi?

---

[955] 1) Açan yoxdur, bükən yoxdur sirrini. 2) Açan yoxdur, tökən yoxdur sirrini,

[956] Vicdansız, məsləksiz səyzadələrin.

[957] *II variant* Gəlib çıxdığımız zəmanəyə bax,
Əhli-kef, sərsəri, divanəyə bax,
Odlara qərq olan pərvanəyə bax,
Çoxalıb dəstəsi xıl olub indi.

[958] Qanuna, qaydaya öc əyyamıdır,

[959] Gözünün didəsi çəmdə ötənlər.

Haçandan bəridir açılmır eyin,[960]
Nəyaman kütləşib, keyləşib beyin?
Daş armud dəyməyib, hələ yeməyin?
Yetişmək bilməyir, kal olub indi.

Asudə yaşamaq müşgülə dönüb,
Qərq olub kədərə, nisgilə dönüb,
Eləbil bəşərin taleyi dönüb?
Nə ağır, nə çətin, il olub indi?[961]

Bu dövrana, tərs gərdişə nə deyim?
Bəd adətə, nəs vərdişə nə deyim?[962]
Ulu Tanrım, o Zərdüşə nə deyim?
Mığmığa böyüyüb, fil olub indi.[963]

Daha tükənibdi Cəmilin sözü,
Bilmirəm nə deyim, doğrusu-düzü?
Haçandan zillənib yollara gözü,
Nəyaman pərişan-hal olub indi?

***Cəmil Əkbər*** 1. 06 -1992

## 179. İNDİ

*II variant*

Təpəni böyüdüb dağ eyləyirlər,
Sanki topdağıtmaz sal olub indi.
Çıxılb əndazədən ağ eyləyirlər,
Gədələr Rüstəmi-Zal olub indi.

Cəhalət bürüyüb eli, mahalı,
Kəsilmir dünyanın qovğası-qalı,
Tökülür insanın dəymişi, kalı,
Doşab dəbə düşüb, bal olub indi.[964]

---

[960] Açılmır qaş-qabaq, açılmır eyin.

[961] *II variant* Dünənki cavanın ağarıb başı,
Tutulub qabağı, çatılıb qaşı,
Həryanı alıbdır nabələd, naşı,
Nə ağır, nə çətin, il olub indi?

[962] Bu adətə, bu vərdişə nə deyim?

[963] Qarışqa böyüyüb fil olub indi.

[964] *II variant* Qəm-qüssə bürüyüb eli, mahalı,
Dünya görmüş nuranini, ahalı,
Ağacdan tökürlər dəyməmiş kalı,
Doşab dəbə düşüb, bal olub indi.

Düzünə atan yox, tərsinə dəyir,
Nə deyib danışsan, hirsinə dəyir,
Toxunub yağrına, kirsinə dəyir,
Ağarıb saçları çal olub indi?

Kədəri çoxalıb qoca dağların,[965]
Göylərə başvuran, uca dağların,
Bəzirgan dağların, xoca dağların,
Əyilib qaməti dal olub indi.[966]

Danışmayır ədalətdən deyənlər,
Doğruluqdan, həqiqətdən deyənlər,
Saf arzudan, pak niyyətdən deyənlər,
Kiriyib susubdur, lal olub indi.[967]

Sağikən insanın qədri bilinmir,
Tapdanır hüququ, xətri bilinmir,
Ürəyi duyulmur, səri bilinmir,
Sonradan təsəlli, val olub indi.

İnsaf-mürvət, kəramətin yerində,
Quran, kitab, şəriətin yerində,
Din-məzhəbin, təriqətin yerində,
Nadanlıq, cəhalət bol olub indi. [968]

---

[965] Başını qar alıb qoca dağların.

[966] *II variant* Ağarıb bu dərddən başı dağların,
Toxunub qəlbinə naşı dağların,
Tutulub, çatılıb qaşı dağların,
Əyilib qaməti dal olub indi.

[967] *II variant* Danışmayır ədalətdən deyənin.
Doğruluqdan, həqiqətdən deyənin,
Pak arzudan, saf niyyətdən deyənin,
Dsanışmır nədənsə lal olub indi.

*III variant* Səsi gəlmir həqiqətdən deyənin,
Sədaqətdən, səxavətdən deyənin,
Bu mənadan, bu hikmətdən deyənin,
Susub, danışmayır lal olub indi.

*IV variant* Səmir gəlmir həqiqətdən deyənin,
İnsaf-mürvət, kəramətdən deyənin,
Sədaqətdən, səxavətdən deyənin,
Kor olub, kar olub, lal olub indi.

Biçarə gözlərə sürmə çəkilir,
Zavallı qaşlara gərmə çəkilir,
Sərmayə qoyulur, cərmə çəkilir,
Sanırlar buxaqda xal olub indi.

Qırıb doğrayırlar barlı butağı,
Almalı-heyvalı, narlı butağı,
Yararlı butağı, karlı butağı,[969]
Bəslənən, sulanan kol olub indi.[970]

Alınmır qarşısı kəc fikirlərin,
Sərsəm xəyalların, gic fikirlərin,
Haqqa, ədalətə öc fikirlərin,
Nömrələr işləyir, xal olub indi.

Gör kimin gətirib naxışı, zəri?
Bilinmir tarixi, haçandan bəri,
Açılıb tökülmür hayıfki sirri,
Kasıbın başına kül olub indi.

Bir gilə tökməyən alın tərini,
Tutub vəzifədə yağlı yerini,
Saxladıb qoruyur biri-birini,
Qazancı, gəliri ləl olub indi.

---

[968] *II variant* İnsaf-mürvət kəramətə baxan yox,
Quran, kitab, şəriətə baxan yox,
Din-məzhəbə, təriqətə baxan yox,
Nadanlıq, cəhalət bol olub indi.

*III variant* Ədəb-ərkan, mərifətə baxan yox,
Quran, kitab, şəriətə baxan yox,
Din-məzhəbə, təriqətə baxan yox,
Nadanlıq, cəhalət bol olub indi.

[969] Gözdən salıbdılar karlı butağı.

[970] *II variant* Hörmət yox, izzət yox barlı butağa,
Almalı, heyvalı, narlı butağa,
Samballı, tutarlı, karlı butağa,
İtirib qiymətin kol olub indi.

Dilqəmi üstündə bəmdə ötənlər,
Pəsdə inildəyib, qəmdə ötənlər,
Əyərdə, əksikdə, kəmdə ötənlər,
Köklənib nəyaman zil olub indi?

Meydan verilibdir hoqqabazlara,
Özündən bədguman modabazlara,
Lovğa, yekəxana, ədəbazlara,[971]
Sanırkı Kür-Araz, Nil olub indi.

Gədadan törəyən bəyzadələrin,
Ağıldan, kamaldan keyzadələrin,
Kamalsız, amalsız səyzadələrin,
Yorğanı, yastığı tül olub indi.

Eləbil xilqətin taleyi dönüb,[972]
Gərdişi, dövranı tərsinə çönüb,
Parlamır, kəhkəşan ulduzu sönüb,[973]
Vicdan da, məslək də pul olub indi.

Doğru, düzlük həqiqət də tükənib,
Xeyirxahlıq, fəzilət də tükənib,
Sənə öyüd, nəsihət də tükənib,
Hamı fitnə-fəsad, fel olub indi.

Hərkəs nə istəsə onu da edir,
Üz tutub hər səmtə, həryana gedir,
Özüdə bilməyir nə məqsəd güdür?
Keçilməz gədiklər yol olub indi.[974]

Şan-şöhrətə şərafətə baxan yox,
Namus-qeyrət, cəsarətə baxan yox,
Bacarığa, məharətə baxan yox,[975]
Nadanlıq, cəhalət kal olub indi.

---

971 Hiyləgər, dələduz, kələkbazlara.
972 Yoxsa bu xilqətin taleyi dönüb,
973 Parlayan kəhkəşan ulduzu sönüb.
974 *II variant* 1)Heçkəsə edən yox, qorux-qadağa, 2)Qalmayıb heç nəyə qoruq-qadağa.
Zərbələr vuruldu kökə, butağa,
Can da gedir, qan da gedir sadağa,
1) Keçilməz gədiklər yol olub indi. 2) Bəşərin çəkdiyi qal olub indi.
975 Fərasətə, məharətə baxan yox.

Gətirib çoxunun naxışı, zəri,
İnsanlıq elmindən yoxdur xəbəri,
Bilinmir tarixi haçandan bəri?
Nə çətin, nə ağır il olub indi.

Hücuma keçirlər ötən günlərə,
Cücərən günlərə, bitən günlərə,
Haraya-həşirə yetən günlərə,
Qarışqa böyüyüb fil olub indi.[976]

Ay Cəmil, seyrə çıx zəmanəyə bax,
Gicbəsər, sərsəri, divanəyə bax,
Odlara qərq olan pərvanəyə bax,
Çoxalıb dəstəsi xıl olub indi.

***Cəmil Əkbər*** 27 – 30 / 05 -1992

## 180. İNDİ

*III variant*

Kiçik təpələri dağ eyləyirlər,
Sanki topdağıtmaz sal olub indi?
Düha sahibinə lağ eyləyirlər,[977]
Eləbil sahibsiz mal olub indi?[978]

---

[976] *II variant* Çox mənəm deyənlər gözdən düşübdür,
Məqamı çatmamış, tezdən düşübdür,
Yolaqdan çıxıbdır, izdən düşübdür,
Sanır ki, begemont, fil olub indi.

*III variant* Hücuma keçirlər ötən günlərə,
Haraya-həşirə yetən günlərə,
1) Cücərib başlanan, bitən günlərə, 2) Cücərən günlərə, bitən günlərə.
Eləbil begemont, fil olub indi.

*IV variant* Hamı hücum çəkir ötən günlərə,
Mənzilə, məkana yetən günlərə.
Arada-bərədə itən günlərə.
Gözündən dumanı sil olub indi.

[977] Aliməm deyənə lağ eyləyirlər.
[978] Sayılmır, seçilmir, mal olub indi.

Hiyləgər, dələduz çəkilir başa,
Dırmaşıb çıxırlar zirvəyə, döşə,
Vicdanlar, məsləklər dönübdür daşa,[979]
Gədələr Rüstəmi-Zal olub indi.

Düşünən yox nə qabağı, nə dalı,
Salırlar araya qovğanı, qalı,
Dəyməmiş tökürlər butaqdan kalı,[980]
Doşab dəbə minib, bal olub indi.

Zəmanə insanın qəlbinə dəyir,
Artırıb dərdini, qəddini əyir,
Qərq olub kədərə, qaralar geyir,
Vədəsiz saqqallar çal olub indi.

Harda qalıb həqiqətdən deyənlər?
Danışmayır ədalətdən deyənlər,
Pak arzudan, saf niyyətdən deyənlər,
Kor olub, kar olub, lal olub indi.

Sağikən çoxunun qədri bilinmir,
Tapılmır başçısı, sədri bilinmir,
Tapdanır hüququ, xətri bilinmir,
Sonradan təsəlli, val olub indi.

Zavallı gözlərə sürmə çəkilir,
Yanağa, buxağa gərmə çəkilir,
Sərmayə qoyulub, cərmə çəkilir,
Sanırlar lalədir, al olub indi.

Qarşısı alınmır kəc fikirlərin,
Hiyləgər, dələduz, bic fikirlərin,
Qanuna-qaydaya öc fikirlərin,
Törəyir fitnələr, bol olub indi.[981]

---

[979] Baxan yox tutulan, çatılan qaşa.
[980] Tökürlər butaqdan dəyməmiş kalı.
[981] *II variant* Alınmır qarşısı kəc fikirlərin,
Sərsəm xəyalların, gic fikirlərin,
Hiyləgər, dələduz, bic fikirlərin,
Fitnələr, fəsadlar bol olub indi.

Kefdə-damaqdadır varlı-hallılar,
Dövlətli, sərvətli cah-calallılar,
Peysəri qalınlar, cibi pullular,
Kasıbın başına kül olub indi.

İxtiyar sahibi olubdur naşı,
Haqdan, ədalətdən çıxmayır başı,
Tökülür məzlumun qanlı gözyaşı,
Axır dəryalara göl olub indi.[982]

Hər gələnlər, gedənlərə pis deyir,
Bədxah deyir, zalım deyir, nəs deyir,
Höcət deyir, inad deyir, tərs deyir,
Batıbdı gözlərə mil olub indi.

Torpağa tökməyən bir damla təri,
Yaxşıca tutubdur naxışı, zəri,
Kef çəkir, yaşayır haçandan bəri?
Qazancı, gəliri ləl olub indi.

Bir zaman hamıdan küt görünənlər,
Müqəvvasayağı büt görünənlər,
Paltarsız, palazsız lüt görünənlər,
Yorğanı, yastığı tül olub indi.

Dolaşıq düşübdür hamının yeri,
Ustadın, şagirdin, xamının yeri,
Kotan, boyunduruq, samının yeri,
Çoxları bəşərə şəl olub indi.

Hamı yön alıbdır şəhərə sarı,
Oğruluq, əyrilik, bəhərə sarı,[983]
Baxan yox işıqlı səhərə sarı,[984]
Sısqaca bulaqlar Nil olub indi.

---

*III variant* Bir gilə tökməyən alın tərini
Yaxşı yola verir xeyir-şərini,
Qoruyub saxlayır biri-birini,
Qazancı, gəliri bol olub indi.

[982] Toplaşıb dəryada göl olub indi.

[983] Gendən əl uzadır bəhərə sarı.

[984] Baxan yox uğurlu səhərə sarı.

Sərsərilər, divanələr çoxalıb,
Əhli-keflər, biganələr çoxalıb,
Allah bilir daha nələr çoxalıb?
Artıbdır dəstəsi xıl olub indi.

Bir zaman hamıdan qəmli olanlar,
Pəsdə inildəyib bəmli olanlar,
Gözünün didəsi nəmli olanlar,
Köklənib nəyaman zil olub indi?

Alınmır qarşısı kəc fikirlərin,
Hiyləgər, dələduz, bic fikirlərin,
Sərsəm xəyalların, öc fikirlərin,
Ünsiyyət-ülfətlər fel olub indi.

Eləbil bəşərin taleyi dönüb,
Səmada kəhkəşan ulduzu sönüb,
İgidlər mövqedən nəyaman, enib?[985]
Vicdan da, məslək də pul olub indi.

Hamı yön alıbdır şəhərə sarı,
Yoğurub-yapmamış bəhərə sarı,
Becərən qalmayıb gen tarlaları,[986]
Tikanlı-qanqallı çöl olub indi.

Asudə yaşamaq müşgülə dönüb,
Qərq olub kədərə, nisgilə dönüb,
Eləbil bəşərin taleyi dönüb?
Nə çətin, nə ağır il olub indi.

Ağarıb bu dərddən başı Cəmilin,
Toxunub qəlbinə naşı, Cəmilin,
Gödəlib ömürü, yaşı Cəmilin,
Əyilib qaməti dal olub indi.

***Cəmil Əkbər*** 25. 05 -1992

---

[985] 1) İgidlər mövqedən alçalıb, enib. 2) Hamı mövqedən alçalıb, enib. 3) Çoxları mövqedən alçalıb, enib.

[986] 1) Becərən tapılmır gen tarlaları, 2) Becərən tapılmır boz tarlaları, 3) Gedən yox ilxıya, kəhərə sarı.

## 181. İNDİ

*IV variant*

Kiçikcə təpələr dağ yerindədir,
Top vursan dağılmaz, sal olub indi.
Alimi biəməl, lağ yerindədir,
Eləbil naxırda mal olub indi.[987]

Varlılar, hallılar çəkilir başa,
Yatırlar ürəyə, gəlirlər xoşa,
Baxır zəfərinə hey coşa-coşa,
Eləbil Rüstəmi-Zal olub indi.

Ağrıdır qəlbləri nabələd, naşı,
Nəzərə almırlar çatılan qaşı,
Gödəldib ömürü, kəsirlər yaşı,
Axan gözyaşları sel olub indi.

Çoxunun tutubdur naxışı, zəri, [988]
Bilinmir tarixi haçandan bəri?
İnsanlıq elmindən yoxdur xəbəri,
Bəşərin gözünə mil olub indi.

Meydan verilibdir gədə bəylərə,
Vicdanı-məsləki zədə bəylərə,
Dövrü-zəmanəyə hədə bəylərə,
Sanır kı, Kür-Araz, Nil olub indi.

Hamıdan savadsız, küt olanların,
Müqəvvasayağı büt olanların,
Üryan olanların, lüt olanların,
Yastığı-yorğanı tül olub indi.

Çəlpəşik düşübdür hamının yeri,
Nökərin, ağanın, xanımın yeri,
Kotan, boyunduruq, samının yeri,
Yükümüz çoxalıb, şəl olub indi.

---

[987] *II variant* Kiçikcə təpələr dağ yerindədir,
Vursan topdağıtmaz, sal olub indi.
Alim gözdən düşüb, lağ yerindədir,
Qatıblar naxıra, mal yerindədir.

[988] Tutubdu naxışı, gətirib zəri.

Gəlib çıxdığımız zəmanəyə bax,
Odlara qərq olan pərvanəyə bax,
Kəmağıl, sərsəri, divanəyə bax,
Çoxalıb dəstəsi, xıl olub indi.

Zəmanə insanın qəlbinə dəyir,
Artırıb dərdini, qəddini əyir,
Qərq olub kədərə, qaralar geyir,
Vədəsiz saqqallar çal olub indi.

Sağikən insanın qədri bilinmir,
Başçısı tanınmır, sədri bilinmir,
Sayqı göstərilmir, xətri bilinmir,
Hörməti-izzəti pul olub indi.

Ümid qalmayıbdır elmə, məktəbə,
Mənaya, məzmuna, nə də hikmətə,
Haqqa, ədalətə, nə həqiqətə,
Nömrələr işləyir, xal olub indi.

Bəşər qalıb divanələr əlində,
İnsanlığa biganələr dilində,
Yanıb gedir pərvanələr selində,
Yeməmiş, içməmiş, lül olub indi.

Eləbil obanı, eli xar alıb,
Şirvanı, Muğanı, Mili xar alıb,
Çəməni, çiçəyi çölü xar alıb,
Tikanlar, qanqallar gül olub indi.

Ədəb-ərkan nəzakətin yerini,
Nəcibliyin, məlahətin yerini,
Saf arzunun, pak niyyətin yerini,
Bürüyüb çamırlıq, lil olub indi.[989]

---

[989] *II variant* Ünsiyyətdə nəzakətin yerini.
Nəcibliyin, lətafətin yerini,
Ədəb-ərkan, mərifətin yerini,
Bürüyüb çamırlıq lil alıb indi.

Sızlayır, balaban, qaraney, kaman,
Kəsməyir arası, verməyir aman,[990]
Çıxarıb qərarı, hökm edir zaman,
Dünənki kalçalar, kəl olub indi.

Susub inildəyir sağlam ürəklər,
Sağlam düşüncələr, sağlam diləklər,
Yaradan, yaşadan qollar, biləklər,[991]
Kütləşib, keyləşib, şil olub indi?

Hərkəş bir-birini qurd kimi didir,
Peysəri yoğnudub, qarnını güdür,
Qanunun-qaydanın bədinə gedir,
Hamı tamahına qul olub indi.

Bir zaman həryanda baş olan Cəmil,
Sözləri hamıya xoş olan Cəmil,
Salınıb üzüyə, qaş olan Cəmil,
Nəyaman pərişan hal olub indi?

***Cəmil Əkbər*** 25. 01 – 1992 // 22. 05 – 1992

**182. İNDİ**

*V variant*

Hiyləgər, dələduz çəkilir başa,
Dırmaşıb çıxırlar zirvəyə, döşə,
Baxan yox tutulan, çatılan qaşa,
Alimlər, loğmanlar mal olub indi.

Fürsəti tapanlar çəkilir başa,
Yatırlar ürəyə, gəlirlər xoşa,
Baxıb "zəfərinə" gəlirlər coşa,
Sanırlar Rüstəmi-Zal olub indi.

Sahibi-məmləkət olubdur naşı,
Saxlayır ətəkdə, tökməyir daşı,
Axır məzlumların qanlı gözyaşı,
Leysanı çoxalıb, sel olub indi.

---

990 Haçandan bəridir verməyir aman.
991 Yorulub, işləmir sağlam biləklər.

Hamıdan kütbeyin, başıboşların,
Vicdanı kəm-kəsir, qəlbidaşların,
Fillərə hürüşən alabaşların,
Yastığı-yorğanı tül olub indi.

Dolaşıq düşübdür çoxunun yeri,
Gileyin, güzarın, qaxının yeri,
Acların, sussuzun, toxunun yeri,
Çoxları bəşərə şəl olub indi.[992]

Vecinə deyildir varlı-hallının,[993]
Dövlətli, sərvətli cah-calallının,
Peysəri yoğunun, cibi pullunun,[994]
Kasıbın içdiyi yal olub indi.

İşində, gücündə biganələrin,
Laqeyid, biganə, divanələrin,
Odlara qərq olan pərvanələrin.
Artıbdır dəstəsi, xıl olub indi.

Kişilər yerini tutubdur gədə,
Çoxalıb səksəkə, vahimə, hədə,
Yetişib zəmanə, gəlməmiş vədə,
Nəqədər cavanlar çal olub indi.

Ədəbi-ərkanı gözləyən yoxdur,
Düşüb sorağına, izləyən yoxdur,
Dolaşıq kələfi çözləyən yoxdur,
Qanun da, qayda da pul olub indi.

İnsanlıqdan bir əlamət qalmayıb,[995]
Nə doğruluq, nə həqiqət qalmayıb,
Ədəb-ərkan, nə mərifət qalmayıb,
Nömrələr işləyib, xal olub indi.[996]

---

[992] *II variant* Dolaşıq düşübdür çoxunun yeri,
Acların, giclərin, toxunun yeri,
Gileyin, güzarın, qaxının yeri,
Çoxları bəşərə şəl olub indi.

[993] Vecinə gəlməyir varlı-hallının.

[994] 1) Peysəri qalının, cibi pullunun, 2) Dərisi yağlının, cibi pullunun,

[995] Nə insanlıq, nə ləyaqət qalmayıb.

Ünsiyyət-ülfətlər pozulub yaman,
Çevrilib tərsinə, yozulub yaman,
Kəsməyir bir ara, verməyir aman,
Qovğalar törəyib, qal olub indi.

Oğruluq, əyrilik həddini aşıb,
Eləbil bahardır, Kür, Araz daşıb,
Fikirlər, xəyallar yerbəyer çaşıb,
Hamı içməmişdən lül olub indi.

Məhəl qoyulmayır qızılgüllərə,
Zərif təravətli gözəl günlərə,
Səndən də, məndən də əzəl günlərə,
Çayır-çəmən, qanqal, gül olub indi.

Eləbil sönübdür dan ulduzları,
Alan yox, satan yox sona qızları,
Eşqə biganəni, qəlbi buzları,[997]
Nəqədər bakirə, dul olub indi.

Ünsiyyətdə nəzakətin yerini,
İnsanlığın, ləyaqətin yerini,
Mehri-ülfət məhəbbətin yerini,
Basıbdır çamırlıq, lil olub indi.[998]

---

[996] *II variant* İnsanlıq da, ləyaqət ha qalmayıb,
Ülvi-istək, məhəbbət ha qalmayıb,
Ədəb-ərkan, nəzakət ha qalmayıb,
Nömrələr işləyib, xal olub indi.

*III variant* İnsanlıq da, ləyaqət də qalmayıb,
Ülvi-istək, məhəbbət də qalmayıb,
Ədəb-ərkan, mərifət də qalmayıb,
Nömrələr işləyib, xal olub indi.

[997] Görürəm çoxalıb qəlbi buzları.

[998] *II variant* Ünsiyyətdə ləyaqətin yerini.
Ədəb-ərkan, nəzakətin yerini.
Xeyirxahlıq, fəzilətin yerini.
Bürüyüb yerini, lil olub indi.

Xəstəlik tapıbdır sağlam ürəklər,
Ən nəcib arzular, ülvi diləklər,
Yorulmaq bilməyən qollar, biləklər,
Kütləşib nəyaman, şil olub indi?

Ünsiyyət-ülfəti pozan çoxalıb,
Doğrunu-əyriyə yozan çoxalıb,
Yolunu-izini azan çoxalıb,
Danalar nəyaman, kəl olub indi?

İnsan bir-birini dərk edə bilmir,
Atıb cəhaləti tərk edə bilmir,[999]
Verib cəzasını, görk edə bilmir,
Hamı tamahına qul olub indi.

İnsanın dərdinə qalan tapılmır,
İnciyən könlünü alan tapılmır,
Haqq-sayı yada salan tapılmır,
Nə ağır, nə çətin il olub indi.[1000]

Bir zaman ellərdə baş olan Cəmil,
Salınıb üzüyə, qaş olan Cəmil,
Söhbəti, sözləri xoş olan Cəmil,
Nəyaman pərişan hal olub indi?

***Cəmil Əkbər*** 3.02-1992

## 183. NƏDİR?

Göz görür, əqil kəsir, könül də sevdikcə-sevir,[1001]
Sevənlərin seviləndən məqsədi-umması nədir?
Könüllərin adətidir, istəyindən dönə bilmir,
Bir demirki sevdiyindən ülvi-təmənnası nədir?

---

[999] Düşüb avamlığa, tərk edə bilmir.
[1000] *II variant* İnsanın dərdinə qalan tapılmır,
İncik könülləri alan tapılmır,
İnsafı yadına salan tapılmır,
Çox çətin zamana, il olub indi.
[1001] Gözlər görür, əqil kəsir, könül də sevdikcə-sevir.

Əzəl gündən, ibtidadan, səbəb nədir, nəticə nə?
Babaların atası kim, nəvəsi kim, kötücə kim? [1002]
Əvvəli kim, axırı kim, sonuncu kim, yaddıca kim?[1003]
Bilən yoxdur bu dünyanın, sirri-müəmması nədir?[1004]

Eşitmişəm eşq ucundan, öz canından keçənləri,
Araşdırıb ləli-gövhər, xiridarı seçənləri,
Dolduraraq badələri, sağlıq deyib içənləri,
Bəs sonradan üz çevirib ondan usanması nədir?

Qismət olmur sevənlərə, sevgili-canan nə üçün?
Eşqə uyub çölə düşdü Məcnunla, Sənan nə üçün?
Qarşı gəlmir nəciblərə, dərd-əhli, qanan nə üçün?
Könüllərin nahaq yerə odlara yanması nədir?

Mən Cəmiləm, peşəm budur haqqı-ədaləti deyim,
Bədəməllər sahibi də, çakər xəcaləti deyim,
Nahaq yerdən evyıxanlar görər zəlaləti deyim,
Kim sözümə inanmasa, dəlili-əmması nədir?

***Cəmil Əkbər*** 1969

**184. NƏDİR?**

Mənim qəlbim məhəbbətlə döyünür,
Sənin qəlbindəki küdurət nədir?
Mənim qəlbim sədaqətlə döyünür,
Sənin qəlbindəki o riqqət nədir?[1005]

Mənim ürəyimdə "Əsliniz" yatır,
Eşqin təravəti, fəsliniz yatır,[1006]
Qara Keşiş yatır, nəsliniz yatır,
Sənin qəlbindəki xəyanət nədir?

---

[1002] 1)Ulu-ulu babaların nəvəsi kim, kötücə kim? 2) Kimdir görən ulu baba, nəvəsi kim, kötücə kim?

[1003] Əvvəli kim, axırı kim, uzaşdıqca yaddıca kim?

[1004] *II variant* Sevən kimdir, sevilən kim, səbəb nədir, nəticə kim?
Baba kimdir, atası kim, nəvəsi kim, kötücə kim,
İbtidadan əvvəli kim, axırı kim, sonuncu kim?
Bilən yoxdur bu dünyanın sirri-müəmması nədir?

[1005] *II variant* Mənim qəlbim məhəbbətlə doludur,
Sənin qəlbindəki o hiddət nədir?[1005]
Mənim qəlbim sədaqətlə doludur,
Sənin qəlbindəki küdurət nədir?

[1006] Eşqin hökm etdiyi, fəsliniz yatır.

Mənim ürəyimdə gör nə həvəs var?
Sağlam arzular var, sağlam nəfəs var.
Səadət naminə hey bəhsəbəhs var,
Sənin qəlbindəki ətalət nədir?[1007]

Ürəklər içində başdı ürəyim,
İncidi, əşrəfdi, daşdı ürəyim,
Varlığım üzüksə, qaşdı ürəyim, [1008]
Sənin qəlbindəki xəcalət nədir?

Mənin qəlbimdəki hikmətə bir bax,
Haqdan naxış tutan zinətə bir bax,
Xətirə-hörmətə izzətə bir bax,
Sənin qəlbindəki qəbahət nədir?

Mənin qəlbimdəki həqiqətdi bil!
Doğruluq, düzgünlük, ədalətdi bil!
Sağlam arzulardı, saf niyyətdi bil!
Sənin qəlbindəki fəzilət nədir?[1009]

Mənim qəlbim kamalımdan nur alır,
Əqidəmdən, amalımdan nur alır,
El-obamdan, mahalımdan nur alır,
Sənin qəlbindəki hərarət nədir?[1010]

Qəlbimdə hökmedən ləyaqətimdir,
Ətiri-gülüstan təravətimdir,
Alovdu, atəşdi, hərarətimdir,[1011]
Sənin qəlbindəki sədarət nədir?[1012]

---

[1007] *II variant* Mənim qəlbimdəki eşq-həvəsdir,
Sağlam düşüncədir, sağlam nəfəsdir,
Səadət naminə hey bəhsə-bəhsdir,
Sənin qəlbindəki ətalət nədir?

[1008] Kim deyər xaindi, çaşdı ürəyim?

[1009] *II variant* Mənin qəlbim səadəti axtarır,
Ədəb-ərkan, mərifəti axtarır,
Şan-şöhrəti, şərafəti axtarır,
De sənin qəlbində fəzilət nədir?

[1010] Sənin qəlbindəki xəcalət nədir?

[1011] Fərasət, cəsarət, məharətdi bil.

[1012] *II variant* Qəlbimdə gəşt edən ləyaqətimdir,
Fəhim-fərasətim, məharətimdir,
Odumdu, közümdü, hərarətimdir,
Sənin qəlbindəki sədarət nədir?

Mənin qəlbimdəki dərinliyi gör,
İstini, soyuğu sərinliyi gör,
Dada, tama baxın, şirinliyi gör,
Sənin qəlbindəki səfalət nədir?

Qəlbimdən əbədi kini silmişəm,
Şeytanı, iblisi, cini silmişəm,
Avamlığı, saxta dini silmişəm,
Sənin qəlbindəki cəhalət nədir?[1013] [1014]

Mənin qəlbimdəki qardaşlığa bax,[1015]
Mehri-ülfətə bax, sirdaşlığa bax,
Xətirə, hörmətə yoldaşlığa bax,[1016]
Sənin qəlbindəki o hillət nədir?[1017]

Mənin qəlbimdəki amala bir bax,
Əqidə, məsləkə, kamala bir bax,
Mənəvi aləmə, camala bir bax,
Sənin qəlbindəki o dəhşət nədir?

Mənin qəlbimdəki məharətə bax,
Hökmə-qərara bax, sədarətə bax,
Dözümə, duruma, dəyanətə bax,
Sənin qəlbindəki şikayət nədir?

Qəlbimdə kök salan mərhəmətə bax,
Xətirə-hörmətə, ləyaqətə bax,[1018]
Atamdan, anamdan əmanətə bax,
Sənin qəlbindəki o hiddət nədir?

---

[1013] Sənin qəlbindəki xəyanət nədir?

[1014] *II variant* Mənki öz qəlbimdən kini silmişəm,
Şeytanı atmışam, cini silmişəm,
1) Avamlıq, nadanlıq, dini silmişəm, 2) Məscidi, kilsəni, dini silmişəm.
Sənin qəlbindəki təriqət nədir?

[1015] Mənin qəlbimdəki yoldaşlığa bax.

[1016] Minillik dostluğa, qardaşlığa bax.

[1017] *II variant* Mənin qəlbim ədalətlə yaşayır,
Mərifətlə, ləyaqətlə yaşayır,
İnsaf-mürvət, kəramətlə yaşayır,
Sənin qəlbindəki o hillət nədir?

[1018] İnsafa-mürvətə kəramətə bax.

Mənim qəlbim Vətən üçün döyünür,
Cücərənlər, bitən üçün döyünür,
Xoş arzuya yetən üçün döyünür,
Sənin qəlbindəki zəlalət nədir?[1019]

Mənim qəlbim ədalətə can atır,
Doğruluğa, həqiqətə can atır,
Ədəb-ərkan, mərifətə can atır,[1020]
Sənin qəlbindəki əsarət nədir? [1021]

Mənim qəlbim Koroğludan yaranıb,
Mərd igiddən, nər oğludan yaranıb,
Nizamitək zər oğludan yaranıb,
Bəs sənin qəlbində məharət nədir?

Mənim qəlbim saf niyyətlə çırpınır,
Dözüm-durum, dəyanətlə çırpınır,
Xoş arzuyla, bəyanətlə çırpınır,
Sənin qəlbindəki o xislət nədir?

Mənim qəlbim qətiyyətlə hey vurur,
Mənə dolu məziyyətlə hey vurur,
Sinə gərib əziyyətlə hey vurur,
Sənin qəlbindəki o niyyət nədir?

Mənim qəlbim yaratmaqla fəxr edir,
İnsanlığı yaşatmaqla fəxr edir,
Ömür-günü uzatmaqla fəxr edir,
Sənin qəlbindəki o "mürvət" nədir?[1022]

---

[1019] Sənin qəlbindəki məziyyət nədir?
[1020] 1) Nəcibliyə, şərafətə can atır, 2) İnsanlağa, ləyaqətə can atır,
[1021] Sənin qəlbindəki o hiddət nədir?
[1022] *II variant* Qəlbimdə əmr edir yaratmaq eşqi,
Övladı-bəşəri yaşatmaq eşqi,
Ömrləri, günü uzatmaq eşqi,
Sənin qəlbindəki fəlakət nədir?

Mənim qəlbim şöhrət ilə dolanır,
Abır-həya, ismət ilə dolanır,
Namus çəkir, qeyrət ilə dolanır,
Sənin qəlbindəki o hikmət nədir?

Çıxmayır qəlbimdən yaxşı da, pis də,
Mülayim, həlim də, bədxah da, nəs də,
Qalay, qurğuşun da, qızıl da, mis də,
Sənin qəlbindəki o diqqət nədir?

Neyləyimki əqidədən dönüksən?
Hərbir səmtə, hərbir yana yönüksən?
Öz xalqına qanıxmısan, əniksən?
Sənin qəlbindəki o möhnət nədir?

Mənim qəlbim ariflərə agahdır,
Alimlərə, maariflərə agahdır,
Anlayana, sərraflara agahdır,
Sənin qəlbindəki o qiymət nədir?

Mənim qəlbimdəki dərinliyə bax!
İstiyə, bürküyə, sərinliyə bax!
Zülala, şəkərə, şirinliyə bax!
Sənin qəlbindəki lətafət nədir?

Mənim qəlbimdəki hikmətə bir bax?
Fikirə, xəyala, diqqətə bir bax?
Hünərə, təpərə, riqqətə bir bax?
Sənin qəlbindəki dəlalət nədir?

Mənim qəlbimdəki əmanətə bax!
İnsafa-mürvətə, kəramətə bax!
İnsanlıq naminə əlamətə bax!
Sənin qəlbindəki zəmanət nədir?

Mənim qəlbimdəki bəyanətə bax!
Dözümə, duruma dəyanətə bax!
Onun hökm etdiyi sədarətə bax![1023]
Sənin qəlbindəki zəlalət nədir?

---

[1023] Hökm qərara bax, sədarətə bax.

Mən düzünə, sən də yana çəkirsən,
Bilə-bilə, qana-qana çəkirsən,
Vicdanını dana-dana çəkirsən,
Sənin qəlbindəki cinayət nədir?

Mənin qəlbimdəki təbiətə bax!
Oda bax, közə bax, hərarətə bax!
Nəciblik, zəriflik, təravətə bax![1024]
Sənin qəlbindəki üfunət nədir?

Məni yetişdirən cəmaətim var,
Məkkəm-Mədinəm var, ziraətim var,
Öz müdrik xalqım var, cəmaətim var,
Sənin qəlbindəki fəlakət nədir?

Cəmilin qəlbində qardaşlığa bax!
Həmkarlıq, həmdəmlik, sirdaşlığa bax!
Ülfət-ünsiyyətdə yoldaşlığa bax!
Sənin qəlbindəki ədavət nədir?

***Cəmil Əkbər*** 30.10 – 1988 // 25-30 /11– 1988

## 185. NƏDİR?

Bu kimin hökmüdür verilib görən?
Göydənmi tökülüb, sərilib görən?
Qüssə mənə düşüb, kef sənə düşüb,
Zəhmət mənə düşüb, nəf sənə düşüb.
Mənə alın təri, sənə var qalıb,
Mənə xəyal qalıb, sənə yar qalıb.
Milyon sənə düşür, qəpiklər mənə,
Çəpik sənə düşür, təpiklər mənə.
Kiminin var-halı başından aşır,
Xirtdəyindən aşır, qaşından aşır.
Kimisi həsrətdir bir içim suya,
Ömür-gün keçirir, yaşayır guya.
Kimi manat üçün gözünü döyür,
Oğulunu döyür, qızını döyür,

[1024] Nəciblik, zəriflik, lətafətə bax.

Vicdanını döyür, özünü döyür,
Yolunu danlayır, izini döyür.
Kimi var içində boğulub gedir,
Kimi ar içində doğulub gedir.
Nədir bu seçkilik düşüb araya?
Məlhəm tapmayıram qoyam yaraya.
Nə üçün belədir ey Pərvərdigar?
Nadan əlindədir külli-ixtiyar.
Nə insaf düşünür, nə mürvət qanır,
Nə xətir gözləyir, nə hörmət qanır.
Nə dəyər anlayır, nə qiymət verir,
Nə qayğı göstərir, nə nemət verir.
Nə həya eyləyib, utanan üz var,
Nə abır gözləyib, qısqanan üz var,
Nədir bu gəlhagəl, nədir bu qismət?
Nədir bu məzənnə, nədir bu kəsmət?

***Cəmil Əkbər*** 25. 08 - 1986

### 186. HEÇ NƏ

*İkram müəllimlə, Cəmil Əkbərin deyişməsi.*

***İkram müəllim***

Sıldırımdan uçsun şəlalə gərək,
Bəzəkli dağlardan süzüldü, heç nə.
Azad çəmənlərdə bitsin gül-çiçək,
Dibçəkdə eyvana düzüldü, heç nə.

***Cəmil Əkbər***

Kişi gərək ədalətdən danışsın,
Yalana, yanlıca əl atdı, heç nə.
Yol-ərkandan, həqiqətdən danışsın,
Qalxana, qılınca əl atdı, heç nə.

***İkram müəllim***

Dərin dəryalarda sultandı balıq,
Şüşə qutuların içində heç nə.
Küləkdə yelkəndi əl boyda yaylıq,
Yelkən, sakit qalan rüzgarda heç nə.

***Cəmil Əkbər***

Alim olan fikirləşib söz yazar,
Hər nə desə, nə danışsa düz yazar,
Səksən yazar, doxsan yazar, yüz yazar,
Fitnədən, fəsaddan dil açdı, heç nə.

***İkram müəllim***

Pələngin qüruru, filin siqləti,
Sirkdə qamçılarla qırıldı, heç nə.
Təlimçi əlindən bir parça əti,
Güdməkdən gözləri yoruldu, heç nə.

***Cəmil Əkbər***

İgid olan zəhmətilə yaşayar,
Namusuyla, qeyrətiylə yaşayar,
Abır ilə, ismət ilə yaşayar,
Diləndi, dolandı, əl açdı, heç nə.

***İkram müəllim***

Gün günorta çağı düşüb axşama,
Yolun qaranlığa büründü, heç nə.
Bu əlvan üfüqlər, bu sonsuz səma,
Qəfəs millərindən göründü, heç nə.

***Cəmil Əkbər***

Mərd igidlər düz oturub, düz durar,
Düz yaşayıb, düz yaradıb, düz qurar,
Halal zəhmət çəkib özünü yorar,
Haqdan uzaqlaşıb fel açdı, heç nə.

***İkram müəllim***

Qəlbin səksəkədə, gözün saatda,
Uzansın görüşün bir ayda, heç nə.
Gülmək, danışmaq da, lap zarafat da,
Bir himə bənd isə nə fayda, heç nə.

***Cəmil Əkbər***

İgid olan məkanına düz gedər,
Nə yana çəkilər, nə də üz gedər,
Nə usanar, nə bezikər, tez gedər,
Ya sağa, ya sola yol açdı, heç nə.

***İkram müəllim***

Sıxıntı içində olmasan, yadam,
Bu dünya lap sənin olsa da, heç nə.
Hökmlə əl-qolu bağlanmış adam,
Ölməsə də heç nə, ölsədə heç nə.

***Cəmil Əkbər***

Fikirdə, xəyalda bir olmalıdır,
Obada, mahalda bir olmalıdır,
Cavan da, ahal da bir olmalıdır,
Yüz yaşa, min yaşa qol açdı, heç nə.

***İkram müəllim***

Tələsmə, vaxtın var, nə olmuş məgər?
Bu sözlər minnətlə səsləndi heç nə.
Zorla təbəssümlə bürünmüş üzlər,
İlıq gözyaşıyla islandı, heç nə.

***Cəmil Əkbər***

Bağbanın bağında bar olmalıdır,
Alması, heyvası nar olmalıdır,
Kim deyir bayqular, sar olmalıdır?
Güllərin yerində kol açdı, heç nə.

***İkram müəllim***

Ürək ağrımamış fikir ver ona,
Çırpınsa başına, dolandın heç nə.
Sənki bu dünyanın nə olduğuna,
Bir qarış torpaqda inandın, heç nə.

***Cəmil Əkbər***

Bəşərin övladı gülsə yaxşıdır,
Oxuyub, öyrənib, bilsə yaxşıdır,
Utansa, biryolluq ölsə yaxşıdır,
Tutulub qabağı çatılsa, heç nə.

***İkram müəllim***

Alçalmasın kişi gərək dünyada,
Yaltaqlıq donunu geyindi, heç nə.
Sözünü söyləyə mərdi-mərdana,
Durub daldalarda deyindi, heç nə.

***Cəmil Əkbər***

İgidəm deyənlər baş olmalıdır,
Üzüyə taxılan qaş olmalıdır,
Kim deyir bir yığın daş olmalıdır?
Zibilə tay olub atıldı, heç nə.

***İkram müəllim***

Vüqarım əlini atıb həyatda,
Ətəkdən ilişib sallandı, heç nə.
Dəvənin ovsarın çəkə zirəklər,
Ulaq quyruğuna bağlandı, heç nə.

***Cəmil Əkbər***

Hərənin özünün qiyməti vardır,
Vicdanı, məsləki, qeyrəti vardır,
Məzmunu, mənası, hikməti vardır,
Yaxşılar-yamana qatıldı, heç nə.

***İkram müəllim***

Al yaşıl çəməndə, bağlı-bağçada,
Tikanlar, qanqallar əkildi, heç nə.
Qiymət ala əsl yazıb-yaradan,
Nadanlar irəli çəkildi, heç nə.

***Cəmil Əkbər***

Höcətin öz yeri, tərsin öz yeri,
Bədxahın öz yeri, nəsin öz yeri,
Yaxşının öz yeri, pisin öz yeri,
Namərdlər mərd kimi tutuldu, heç nə.[1025] [1026]

---

[1025] Namərd mərd yerində tutuldu, heç nə.

[1026] *Digər əlavə bəndlər:* İnsan gözəl olur keyfiyyətilə,
Öz istək-arzusu, öz niyyətilə,
Öz işi, öz gücü, öz adətilə,
Vicdanlar, məsləklər atıldı, heç nə.

İnsan gərək mövqeyindən enməyə,
Yana-yana qaralmaya, sönməyə,
Hərzə danışmaya, hərzə dinməyə,
Gözlərdən, könüldən düşdüsə, heç nə.

Hərkəs gərək xislətini saxlasın,
Abırını, ismətini saxlasın,
Xətirini, hörmətini saxlasın,
Töküb əl-ayaqda itirdi, heç nə.

Kamal gərək hərkəsdənin sərində,
Ləl axtara dəryalarda, dərində,
Qərənfil, yasəmən, güllər yerində,
Tikanlar, qanqallar bitirdi, heç nə.

İgid olan ilqarını saxlayar,
Ədaləti, həqiqəti haqlayar,
Yeri gəlsə məqamında yoxlayar,
Möhnəti boynuna götürdü, heç nə.

Hərkəs eşitməli, söz qanmalıdır,
Mənanı, mətləbi düz qanmalıdır,
Əlli eşitməli, yüz qanmalıdır,
Çıxarıb yadından itirdi heç nə.

***Cəmil Əkbər*** 19. 11 – 1983

## 187. HEÇNƏDİR

*I variant*

İnsan gərək xidmətilə dolansın,[1027]
Zəhmət yoxsa, xidmət yoxsa heçnədir.
Ürəklərdən-ürəklərə calansın,
Hünər yoxsa, zəfər yoxsa heçnədir.[1028]

Hərkəs gərək gündən-günə ucala,
İşdə-gücdə, zəfər çala, bac ala,
Kişi kimi ömür sürə qocala,
Nicat yoxsa, nüsrət yoxsa heçnədir.

Adı-sanı şöhrətilə dolana,
Ar-namusu, qeyrətilə dolana,
İnsafilə, mürvətilə dolana,
Namus yoxsa, qeyrət yoxsa heçnədir.[1029]

İnsan gərək kamal ilə yaşasın,
Əqidəylə, amal ilə yaşasın,
Bu nənəvi camal ilə yaşasın,
Kamal yoxsa, amal yoxsa heçnədir.

Hərkəs gərək öz yanından anlaya,[1030]
Səhvi varsa öz-özünü danlaya,[1031]
Kötəkləyə, qırmanclaya, yanlaya,
Anlamırsa, danlamırsa heçnədir.

İnsan odur xoş əməllə dolana,
Yeri gəlsə od-ocaqsız qalana,
Peyvənd olub eldən-elə calana,
Cır qalırsa, calanmırsa heçnədir.[1032]

---

[1027] Hərkəs gərək zəhmət çəkib yaşaya.
[1028] Öz yükünü özü çəkib daşıya.
[1029] *II variant* Şərafəti, şöhrətilə dolansın,
Ar-namusu, qeyrətilə dolansın,
Kəraməti, mürvətilə dolansın,
Şərəf yoxsa, şöhrət yoxsa heçnədir.
[1030] Dərk eyləyə, həqiqəti anlaya.
[1031] Səhv məqamda öz-özünü danlaya.
[1032] *II variant* Hamı gərək xoş əməllə dolana,
Peyvənd olub ürəklərə calana,
Dəryatəki çalxalana, bulana,
Dolanmırsa, calanmırsa hədərdir.

Hərkəs gərək insanları pəsinə,
Qulaq asa el-obanın səsinə,
Yaxınlaşıb hənirinə isinə,
Sığınmırsa, isinmirsə heçnədir.

İnsan gərək dərk eyləyib sezə də,
Qəvvas kimi dəryalarda üzə də,
Sinə gərib çətinliyə dözə də,
Tablaşmırsa, dözənmirsə heçnədir.

Hərkəs gərək tamahına get desin,
Uzaqlara çəkil desin, öt desin,
Gözlərimdən birdəfəlik it, desin,
Get demirsə, öt demirsə heçnədir.[1033]

İgidlərin gözü-könlü tox olar,
Vicdan, məslək, əqidəsi çox olar,
Acgözlüyü, hərisliyi yox olar,
Bu olmasa, o olmasa heçnədir.

Cəmiyyəti saya sala, pəsinə,
El qoşula çağrışına, səsinə,
Gur nəfəsi, hənirinə isinə,
Pəsinmirsə, isinmirsə heçnədir.

Hərkəs gərək bu sözlərdən götürə,[1034]
Estafeti əldən-ələ ötürə,[1035]
Bağlar salıb, gül-çiçəklər bitirə,
Bəsləmirsə, bitirmirsə heçnədir.[1036]

---

[1033] *II variant* Hərkəs gərək tamahına tət deyə,
Uzaqlara əkil deyə, get deyə,
Gözlərimdən birdəfəlik it deyə,
Get demirsə, öt demirsə heçnədir.

[1034] Hərkəs gərək gördüyündən götürə.
[1035] Xoş adəti eldən-elə ötürə.
[1036] Götürmürsə, bitirmirsə heçnədir.

Şagird gərək ustadından dərs ala,
İdrakına əsər edə, iz sala,[1037]
Düz oxuyub, düz öyrənib tez sala,[1038]
Dərs almırsa, iz salmırsa heçnədir.

***Cəmil Əkbər*** 15. 05 – 1987

## 188. HEÇNƏDİR

*II variant*

İstəmirəm səksən, doxsan, yüz ili,
Xətir yoxsa, hörmət yoxsa heçnədir.
Ünsiyyətdə dayaz ili, üz ili,
İnsaf yoxsa, mürvət yoxsa heçnədir.

İstəmirəm mən hamıya baş olam,
Üzüyündə xonça olam, qaş olam,
Nə vicdanı, nə məsləki çaş olam,
Şərəf yoxsa, şöhrət yoxsa heçnədir.

Kimdi sevən hər qəşəngi, gözəli,
Qaşı-gözü, dodaqları məzəli,
Hər şeiri, hər dastanı, qəzəli,
Abır yoxsa, ismət yoxsa heçnədir.

Kim xoşlayır həyasızı, sırtığı?
İnsanlığa qənim çıxan artığı?
El malına şərik olan ortağı?
Namus yoxsa, qeyrət yoxsa heçnədir.

Dost bilmədim hər yetirən insanı,
Başabəla nə alimi, loğmanı,
Naz-qəmzəylə canlar alan cananı,
Ədəb-ərkan, mərfət yoxsa heçnədir.

Xoşlamadım mən hərcürə varı da,
Xeyiri də, mənfəəti, karı da,
Yoldaşı da, tay-tuşu da, yarı da,
Zəhmət yoxsa, xidmət yoxsa heçnədir.

---

[1037] Yaddaşında, idrakında həkk ola.
[1038] Silinməyə, pozulmaya, iz sala.

Xoşlamıram müqəvvatək duram mən,
Bığlarımı şeşəldərək buram mən,
Həm özümü, həm özgəni yoram mən,
Dəyər yoxsa, qiymət yoxsa heçnədir.

Bəyənmədim mən bayağı sözləri,
Cığırları, yolaqları, izləri,
Baxışları, nəzərləri, gözləri,
Məna yoxsa, hikmət yoxsa heçnədir.

Nifrətim var həyasıza, sırtığa,
İnsanlığa zərər vuran artığa,
El malına şərik çıxan ortağa,
Üz-gözündə iffət yoxsa heçnədir.

Dünyanın ləzzəti dövlətdi, vardı,
Vəfalı dost-tanış, yoldaşdı, yardı,
Yaradan, yaşadan nə bəxtiyardı?
Dövlət yoxsa, sərvət yoxsa heçnədir.

Cəmil Əkbər, sözlərində dad olsun,
İsti olsun, hənir olsun, od olsun,
Zaman-zaman xatırlansın, yad olsun,
Zülal yoxsa, şərbət yoxsa heçnədir.

***Cəmil Əkbər*** 11. 04 – 1990

### 189. AY ƏL TUTANLAR

Gör kimə, nəqədər kara yetmisən?
Mənə də kömək et ay əl tutanlar.
Özünə agahdır nələr etmisən,
Mənə də əl uzat, ay əl tutanlar.

Kol-kosu bəsləyib gül eylədiniz,
Zəncəfil, zəfəran, hil eylədiniz,
Gör kimi bəsləyib fil eylədiniz?
Mənə də əl uzat, ay əl tutanlar.[1039]

---

[1039] *II variant* Gör kimi bəsləyib gül eyləmisən?
Zəfəran, zəncəfil, hil eyləmisən?
Ərsəyə gətirib fil eyləmisən?
Mənə də əl uzat, ay əl tutanlar.

Nəqədər karsızı başa çəkdiniz?
Üzüyə layiqli qaşa çəkdiniz?
Bir ha deyil, qoşa-qoşa çəkdiniz?
Mənə də əl uzat, ay əl tutanlar.

Gör kimlə dost olub, əlbir olmusan?
Söz-sözə verərək, dilbir olmusan?
Haçandan bəridir sirbir olmusan?
Mənə də əl uzat, ay əl tutanlar.

Eşidin sözümü yanın halıma,
Qiymət verin zülalıma, balıma,
Dəymişimə, sütülümə, kalıma,
Mənə də əl uzat, ay əl tutanlar.

Hərə bir fasonda dayı tapıbdır,
Özünə münasib tayı tapıbdır,
Sovqatı tapıbdır, payı tapıbdır,
Mənə də əl uzat, ay əl tutanlar.

Mənim dayılarım fərsiz olubdur,
Qüvvəsiz olubdur, girsiz olubdur,
Mərhəmətsiz, çox hünərsiz olubdur,
Mənə də əl uzat, ay əl tutanlar.

Sanmayın dünyada fəqir balayam,
Kor gözlü, qulağı səqir balayam,
İtirib huşumu, kəbir balayam,
Mənə də əl uzat, ay əl tutanlar.

Sayə saldığının hansından pisəm?
Hansından bədxaham, hansından nəsəm?
Hansından höcətəm, hansından tərsəm?
Mənə də əl uzat, ay əl tutanlar.

Qoymayın zəhmətim hədərə getsin,
Düşüb dərdi-sərə, qəhərə getsin,
Qarışıb ağıya, zəhərə getsin,
Mənə də əl uzat, ay əl tutanlar.

Girmə qərəzimə, girmə qəsdimə,
Abəs yerdən ayaq alma üstümə,[1040]
Toxunma xətrimə, dəymə şəstimə,[1041]
Mənə də əl uzat, ay əl tutanlar.

Yaxşını görməyə gözünüz olsun,
Tama gətirməyə duzunuz olsun,
Ellərə çıxmağa üzünüz olsun,
Mənə də əl uzat, ay əl tutanlar.

Bəlkə çoxlarından hörmətli mənəm,
İnsaflı, mürvətli, qeyrətli mənəm,
Mənəvi aləmdə sərvətli mənəm,
Mənə də əl uzat, ay əl tutanlar.

Hamıdan fəhmli, fərasətliyəm,
Vətənə, xalqıma ləyaqətliyəm,
Hatəm təbiətli, səxavətliyəm,
Mənə də əl uzat, ay əl tutanlar.

“Volva”, “Mersedes”də gəzin neyləyək?
Dollar dəryasında üzün, neyləyək?
Bizə də möhüblər düzün neyləyək?
Mənə də əl uzat, ay əl tutanlar.

Yeyirsiz, içirsiz, məzələnirsiz,
Gündə minbircürə təzələnirsiz,
Çuvaltək dolursuz, gözələnirsiz,
Mənə də əl uzat, ay əl tutanlar.

Nəolar insafa, mürvətə gəlin,
Nicata yetişin, nüsrətə gəlin,
Cəsarətə gəlin, cürətə gəlin,
Mənə də əl uzat, ay əl tutanlar.

Əlimdən tutmaqla varın azalmaz,
El-obada etibarın azalmaz,
Fərəh dolu iftixarın azalmaz,
Mənə də əl uzat, ay əl tutanlar.

---

[1040] Dəymə xatirimə, dəymə şəstimə.
[1041] Bais olma başdan qalxan tüsdümə.

Baxın ürəyimdən gör nələr keçir?
Arzu, diləyimdən gör nələr keçir?
Xəlbir, ələyimdən gör nələr keçir?
Mənə də əl uzat, ay əl tutanlar.

Vətənimin dağ vüqarlı oğluyam,[1042]
İftixarlı, iqtidarlı oğluyam,
Sədaqətli, etibarlı oğluyam,[1043]
Mənə də əl uzat, ay əl tutanlar.

Mən də bu diyarın əziz oğluyam,
Arzu-istəkləri dəniz oğluyam,
Vicdanı dup-duru təmiz oğluyam,
Mənə də əl uzat, ay əl tutanlar.

Ləyaqət əhlinə hörmət gərəkdir,
Kəramət gərəkdir, mürvət gərəkdir,
Qolundan yapışın, nüsrət gərəkdir,
Mənə də əl uzat, ay əl tutanlar.

Əlimdən yapışsan, əlin azalmaz,
Qamətin əyilib, belin azalmaz,
Gövhərin tükənib, ləlin azalmaz,
Mənə də əl uzat, ay əl tutanlar.

Əlimdən tutmasan yolda qalaram,
İlişib tikana, kolda qalaram,
Heç bilmirəm gör nə halda qalaram?[1044]
Mənə də əl uzat, ay əl tutanlar.

Ləyaqət əhlini qoymayın ölsün,
Cahillər, nadanlar sevinsin, gülsün.[1045]
Yazıram, dərdimi qoy hamı bilsin,[1046]
Mənə də əl uzat, ay əl tutanlar.

---

[1042] Mən də vətənimin karlı oğluyam.
[1043] Namuslu, qeyrətli, arlı oğluyam.
[1044] İlantək sürüşüb dalda qalıram.
[1045] Nadan, sərsərilər baxaraq gülsün.
[1046] Yazıram, bu dərdi qoy hamı bilsin.

Gedib uzaqlarda, gendə gəzməyin,
Dalanda hərlənib, tində gəzməyin,
Dumanda, çisgində, çəndə gəzməyin,
Mənə də əl uzat, ay əl tutanlar.

Mənim də ellərdə adım çəkilsin,
Tamım hiss olunsun, dadım çəkilsin,
Hənirim duyulsun, odum çəkilsin,
Mənə də əl uzat, ay əl tutanlar.

Könül quşum ədaləti sevəndir,
Doğru-düzlük, həqiqəti sevəndir,
Xeyirxahlıq, fəziləti sevəndir,
Mənə də əl uzat, ay əl tutanlar.

Mənim qəlbim məhəbbətlə doludur,
Saf arzuyla, pak niyyətlə doludur,
Ülvü istək, hərarətlə doludur,
Mənə də əl uzat, ay əl tutanlar.

Nanəcibdən, naqislərdən gendəyəm,
Paxıllardan, naqislərdən gendəyəm,
Arsız-karsız varislərdən gendəyəm,
Mənə də əl uzat, ay əl tutanlar.

Hiyləgərlik, biclik məndən uzaqdır,
Dələduzluq, kəclik məndən uzaqdır,
Haqqa qarşı öclük məndən uzaqdır,
Mənə də əl uzat, ay əl tutanlar.

Hər yetən gədəni şir eylədiniz,
Əjdaha, begamont, nər eylədiniz,
Nurani, ağsaqqal pir eylədiniz,
Mənə də əl uzat, ay əl tutanlar.

Kitabım əlimdə yarı qalıbdır,
Fikirlər göyərmir, sarı qalıbdır,
Bülbülü inləyir, zarı qalıbdır,
Mənə də əl uzat, ay əl tutanlar.

Qoyun kitabımı ellər oxusun,
Xoş ətrini dönə-dönə qoxusun,
Çapa verməmişəm hələ çoxusun,[1047]
Mənə də əl uzat, ay əl tutanlar.

İstərdim sözlərim kitaba dönsün,
Xalqıma yetişsin, xitaba dönsün,
Yeyilsin içilsin qutaba dönsün,[1048]
Mənə də əl uzat, ay əl tutanlar.

Qoymayın sözlərim bağlı qalmağa,
Sinəsi düyünlü, dağlı qalmağa,
Qatı açılmamış, zağlı qalmağa,
Mənə də əl uzat, ay əl tutanlar.

Çatmasan dadıma darda qalıram,
Tufanda, boranda, tarda qalıram,
Özüm də bilmirəm harda qalıram?[1049]
Mənə də əl uzat, ay əl tutanlar.

Qırılmasın arzularım, diləyim,
Yorulmasın qoy yaradan, biləyim,
Pərvaz etsin səmalarda lələyim,
Mənə də əl uzat, ay əl tutanlar.

Mən ölüb getməklə yerin gen olmaz,
Ürəyin sevinməz, qəlbin şən olmaz,
Ulduzun parlayıb, günün gün olmaz,
Mənə də əl uzat, ay əl tutanlar.

Əminəm, çəkdiyin zəhmətin itməz,
Köməyin, yardımın, xidmətin itməz,
Fikirin, nəzərin, diqqətin itməz,
Mənə də əl uzat, ay əl tutanlar.

---

[1047] Nəşr olmayıb, bilən yoxdur çoxusun.
[1048] Yeyilib-içilən qutaba dönsün.
[1049] Çovğuna düşürəm, qarda qalıram.

Səsimi eşidin, ünümə baxın,
Güzəran pis keçir, günümə baxın,
Başımda dumana, çənimə baxın,
Mənə də əl uzat, ay əl tutanlar.

Düşünən, dərk edən baş mənimkidir,
Çatılan, tutulan qaş mənimkidir,
Qocalıb, qarıyan yaş mənimkidir,
Mənə də əl uzat, ay əl tutanlar.

Göstərin, qayğınız hədərə getməz,
Ağıya qarışıb zəhərə getməz,
Qərq olub qüssəyə, qəhərə getməz,
Mənə də əl uzat, ay əl tutanlar.

Sinəmdə döyünən ürəyə baxın,
Nəcib arzulara, diləyə baxın,
Vətənə, xalqıma köməyə baxın,
Mənə də əl uzat, ay əl tutanlar.[1050]

Fikirə, xəyala dalıb gedirəm,
Qəlbimdə hicranı çalıb gedirəm,
Gözləri yollarda qalıb gedirəm,
Mənə də əl uzat, ay əl tutanlar.

Deirlər əl tutmaq Əlidən qalıb,
Ustadlar pirindən, validən qalıb,
Hamıdan ucadan, alidən qalıb,
Mənə də əl uzat, ay əl tutanlar.

Mənim də eşqim var, məhəbbətim var,
Əhdi-peymanım var, sədaqətim var,
İnsanlıq naminə ləyaqətim,
Mənə də əl uzat, ay əl tutanlar.

---

[1050] *II variant* Mənim də sinəmdə ürəyim vardır,
Nəcib arzularım, diləyim vardır,
Vətənə, xalqıma köməyim vardır,
Mənə də əl uzat, ay əl tutanlar.

Əminəm qayğınız hədərə getməz,
Ağıya qarışıb, zəhərə getməz,
Qərq olub qüssəyə, qəhərə getməz,
Mənə də əl uzat, ay əl tutanlar.

Nəcib arzu-diləyimi qırmayın,
Qollarımı, biləyimi qırmayın,
Qanadımı, lələyimi qırmayın,
Mənə də əl uzat, ay əl tutanlar.

Deməyin əl açıb dilənirəm mən,
Qapı-bacalarda sülənirəm mən,
Arada boş-bekar hərlənirəm mən,
Mənə də əl uzat, ay əl tutanlar.

İnləyib, sızlayıb ağlayıram mən,
Başıma qaralar bağlayıram mən,
Fəqana gəlirəm, çağlayıram mən,
Mənə də əl uzat, ay əl tutanlar.

İdraklı, zəkalı baş sahibiyəm,
Üzüyə layiqli qaş sahibiyəm,
Yetmişi haqlayan yaş sahibiyəm,
Mənə də əl uzat, ay əl tutanlar.

İstərdim sözlərim beyinə çatsın,
İdraka yerləşsin, zehinə çatsın,
Nəzərə alınsın, eyninə çatsın,
Mənə də əl uzat, ay əl tutanlar.

Vətənin, bu xalqın nadir oğluyam,
Yazıb yaratmağa qadir oğluyam,
Onun xidmətində hazır oğluyam,[1051]
Mənə də əl uzat, ay əl tutanlar.

Haqqa inanmışam, yolu seçmişəm,
Sağa boylanmışam, solu seçmişəm,
Qajı ayırmışam, qolu seçmişəm,
Mənə də əl uzat, ay əl tutanlar. [1052]

[1051] Deməyin tamahkar, pulgir oğluyam.

Elimə, xalqıma xidmətim olub,
Özümə münasib zəhmətim olub,
Ədalət naminə hiddətim olub,
Mənə də əl uzat, ay əl tutanlar.

Mən də vətəndaşam, Vətən oğluyam,
Becərib bəsləsən, bitən oğluyam,
Haraya, həşirə yetən oğluyam,
Mənə də əl uzat, ay əl tutanlar.

Biz bir elin, bir obanın oğluyuq,
Biz bir quşun, bir yuvanın oğluyuq,
Ədalətin, haqq-divanın oğluyuq,
Mənə də əl uzat, ay əl tutanlar.

Mərhəmətin qananlara xoş gələr,
Dərk eyləyən insanlara xoş gələr,
Təbiblərə, loğmanlara xoş gələr,
Mənə də əl uzat, ay əl tutanlar.

Sizə deyilməsin nə xəsissiniz,
Necə paxılsınız, nə xəbissiniz,
Necə acgözsünüz, nə hərissiniz,
Mənə də əl uzat, ay əl tutanlar.

Vaxt olar var-halın əlində qalmaz,
Talanıb yox olar elində qalmaz,
Çəmənində qalmaz, çölündə qalmaz,
Mənə də əl uzat, ay əl tutanlar.

Babam da, babandan bəlkə yaxşıdır,
Atam da, atandan bəlkə yaxşıdır,
Özüm də, özündən bəlkə yaxşıdır,
Mənə də əl uzat, ay əl tutanlar.

---

[1052] *II variant* Özümə münasib yolu tutmuşam,
Sağı tanımışam, solu tutmuşam,
Qajı ayırmışam, qolu tutmuşam,
Mənə də əl uzat, ay əl tutanlar.

Pul-para yığmaqda qalmışam dala,
Ana olmamışam, olmuşam xala,
Böyüyə bilməyib qalmışam bala,
Mənə də əl uzat, ay əl tutanlar.

İş belə gətirib var sizə düşüb,
Ağac bizim olub, bar sizə düşüb,
Alma, heyva, armud, nar sizə düşüb,
Mənə də əl uzat, ay əl tutanlar.

Fikir mənə düşüb, pul sizə düşüb,
Cığır mənə düşüb, yol sizə düşüb,
Qəhət mənimkidir, bol sizə düşüb,
Mənə də əl uzat, ay əl tutanlar.

Dəymiş sizin olub, kal mənə düşüb,
Qora mənə qismət, bal sənə düşüb,
Sətin mənə çatıb, şal sənə düşüb,
Mənə də əl uzat, ay əl tutanlar.

Dünyanın gərdişi belə də getməz,
Aylardan adlayıb, ilə də getməz,
Muğana, Şirvana, Milə də getməz,
Mənə də əl uzat, ay əl tutanlar.

Məqam gəlir qalxan enir deyirlər,
Sönən yanır, yanan sönür deyirlər,
Dinən susur, susan dinir deyirlər,
Mənə də əl uzat, ay əl tutanlar.

Hər keçən gecənin gündüzü də var,
Enişin, yoxuşun, dümdüzü də var,
Bu fani dünyanın hər üzü də var,
Mənə də əl uzat, ay əl tutanlar.

Baxıb kölgöyünlə ədalanma gəl!
Ayıbdır ellərdən gədalanma gəl!
Pis adla dünyada sədalanma gəl!
Mənə də əl uzat, ay əl tutanlar.

Mən də bu dünyanı qanan oğluyam,
Eşqə mübtəlayam, Sənan oğluyam,
Bu cahan içində cahan oğluyam,
Mənə də əl uzat, ay əl tutanlar.

Mənim də fəhmim var, fərasətim var,
Əhdim var, andım var, sədaqətim var,
İnsanlıq naminə ləyaqətim var,
Mənə də əl uzat, ay əl tutanlar.

Yaşayıb yaratmaq  qurmaq istərəm,
Sülhün keşiyində durmaq istərəm,
Gülləni hədəfə vurmaq istərəm,
Mənə də əl uzat, ay əl tutanlar.

Atam İmamverdi, babamdı Əkbər!
Mən Cəmil Əkbərəm dillərdə əzbər!
Eşit sözlərimi olma bixəbər!
Mənə də əl uzat, ay əl tutanlar.

***Cəmil Əkbər*** 14. 06 – 1999; // 27.08 1999

**190. QOCALIĞIN SİMFONİYASI**

*I variant*

Qocalıqda yazıq insan xəzan vurmuş bağa bənzər,
Payız fəsli dolu döymüş, saralmış yarpağa bənzər.
Vaxt yetişir, gəlir vədə, karvan gəlir, köç eyləyir,
Eləbilki çıxıb qənim, cavanlığı heç eyləyir.
Keçən gündən bir xatirə, ağzımızda dadı qalır,
Köçüb gedir neçə-neçə, mərd igidin adı qalır.
Eləbilki gəncliyimiz gəlib-keçir külək kimi,
Yatmış idik, yuxu gördük, arzu kimi, dilək kimi.
Bilənmədik qiymətini, şüşə kimi vurduq daşa,
Hərbir yerdə, hərbir işdə, hüdudunu aşa-aşa.
Cavanlığa arxalanıb, özümüzü gözləmədik,
Dərin-dərin düşünərək, səhvimizi izləmədik.
Ağrı tutdu əzalarda, dövran sürüb kef eylədi,
Nəşəmizi aldı əldən, halımı bikef eylədi.
Gah azaltdı, gah sozaltdı, canı saldı haldan-hala,
Yaxamızdan çəkdi geri, bala-bala, dala-dala.

Əynimizi geyənmirik, cümləni düz deyənmirik,
Yaman olduq dəymədüşər, onu-bunu bəyənmirik.
Azalıbdır eşqi-həvəs, çoxalıbdır küdrətimiz,
Arvad-uşaq cana doyub, bezikibdir külfətimiz.
Diş qalmayıb ağzımızda, çeynəyirik əzənmirik,
Cövlan edib əvvəlkitək, indi daha gəzənmirik.
Vargəl edib gündüzləri, yatanmırıq gecələri,
Vidalaşdıq gözəllərdən, həmdəm idi neçələri.
Gözəl ikən çirkin olduq, sərimizdən getdi ağıl,
Eləbilki yuxu gördük, həyat bizə oldu nağıl.
Kütləşibdir başımız da, söz qalmayır huşumuzda,
Köç edibdir bu dünyadan, seyrəlib tay-tuşumuz da.
Kaman oldu vüqarımız, əyilibdir qamətimiz,
Qönçələnib çiçək açmır, meyvə vermir zəhmətimiz.
Niyə getdi, necə getdi, cavanlığı bilənmədik,
Baş qarışdı ona-buna, bir doyunca gülənmədik.
Avam gəlib, avam getdik, heç bir məna qananmadıq,
Bu dünyanın, bu həyatın növrağına inanmadıq.
Bir nəticə çıxartmadıq, bu həyatın qanunundan,
Baş açmadıq bu fələyin çalğısından, oyunundan.
Asta-asta söz də keçmir, cavanların arasında,
İtib gedir ad da, san da mərd igidlər sırasında.
Ağrı gəzir əzalarda, bel-buxunda, qolda, dizdə.
Doymayıbdır ürəyimiz, arzu qalıb gözümüzdə,
Qədd əyilib, bel bükülüb, qamətimiz kaman oldu,
Saç ağardı başımızda, gözümüzdə duman oldu.
Eynək ilə oxuyuruq, əsa ilə yeriyirik,
Polad kimi doğulduqsa, muma dönüb əriyirik.
Əfsus olsun ayrılırıq, ana verən əzalardan,
Ey yaradan, özün saxla xəta, bəla, qəzalardan.
Uzaqlaşdıq şən həyatdan, yaxınlaşdıq məzara biz,
Düçar olub tutuluruq, sağalmayan azara biz.
Nə ölüyük, nə diriyik, heç bir şeyə yaramırıq,
Yada salıb axtarmırıq, dost-tanışı aramırıq.
Nə deyəsən qocalığa, can özü də bezikibdir,
Yerişindən, duruşundan, el-oba da irzikibdir.
Asta-asta yadırğadıq, yoxa çıxdı adətimiz,
Öz işini görə bilmir, xarab oldu alətimiz.
Ömür günü saldıq yola, cavanlığı verdik fota,

Görən harda yanlış gedib, nə vaxt etmişik biz xəta?[1053]
Dostlar gəlin qınamayın, bu sözümə gülməlidir,
Çarə budur bu qocalıq, birdəfəlik ölməlidir.
Buna matəm saxlamayın, ölüm işi bilin haqdır.
Kədər çəkib, qəm yeməyin, əbəs yerə çox nahaqdır.

***Cəmil Əkbər*** 15. 09 – 1975

**191. QOCALIĞIN SİMFONİYASI**

*II variant*

Qocalıq dövründə insan, qış fəslində bağa bənzər,
Payız fəsli qopub düşən, saralmış yarpağa bənzər.
Vaxt yetişir, vədə ötür, karvan gəlib köç eyləyir,
Gəlib tutur öz yerini, cavanlığı puç eyləyir.
Nəki varsa əldən gedir, mərd igidin adı qalır,
Keçən günkü xatirədən ağzımızda dadı qalır.
Eləbilki gəncliyimiz, gəlib-keçir külək kimi,
Yatmış idik, yuxu gördük, minbir arzu-dilək kimi.
Heyhat qədrini bilmədik, şüşə kimi vurduq daşa,
Hərbir yerdə, hərbir işdə, hüdudunu aşa-aşa.
Xeyrimizi duyanmadıq, səhvimizi izləmədik,
Canımızı saxlamadıq, özümüzü gözləmədik.
Ağrı tutdu əzaları, dövran sürdü kef eylədi,
Nəşəmizi əldən aldı, insanı bikef eylədi.
Gah inlətdi, gah sızlatdı, canı saldı haldan-hala,
Daim çəkdi bala-bala, yaxamızdan dala-dala.
Dil-dodaq da topuq çaldı, cümləni düz deyənmədik,
Yaman olduq dəymədüşər, onu-bunu bəyənmədik.
Solub gedir eşq-həvəs, çoxalıbdı küdrətimiz,
Arvad-uşaq bezikibdir, cana doyub külfətimiz.
Diş qalmayıb ağzımızda, çeynəsək də əzənmirik,
Cövlan edib əvvəlkitək, indi daha gəzənmirik.
Gündüzləri gəzənmirik, yatanmırıq gecələri,
Vida etdik gözəllərdən, həmdəm idi neçələri.
Gözəlikən çirkin olduq, sərimizdən ağıl getdi,
Eləbilki yuxu gördük, həyat bizə nağıl getdi.
Kütləşibdi başımız da, söz qalmayır huşumuzda,

[1053] Qabaq qaldı işləməkdən, dal da döndü puleymota.

Köçediblər bu dünyadan, seyrəlib tay-tuşumuz da.
Kaman oldu qamətimiz, əyilibdir vüqarımız,
Qönçələnib çiçək açmır, bəhrə vermir zəhmətimiz.
Ona-buna baş qarışdı, heç bir məna görənmədik,
Belə gəldik, elə getdik, bir mahiyyət qananmadıq.
Bir nəticə çıxarmadıq, bu həyatın qanunundan,
Baş açmadıq bu fələyin çalğısından, oyunundan.
Qədd əyildi, bel büküldü, qamətimiz kaman oldu,
Saç ağardı başımızda, gözümüz də duman oldu.
Eynək ilə oxuyuruq, hasa ilə yeriyirik,
Polad kimi doğulduqsa, muma dönüb əriyirik.
Ayrılırıq anamızın bəxş etdiyi əzalardan,
Ey yaradan özün saxla, xəta, bəla, qəzalardan.
Uzaqlaşdıq şən həyatdan, yaxınlaşdıq məzara biz,
Düçar olub tutuluruq sağalmayan azara biz.
Nə deyəsən qocalığa, can özü də bezikibdir,
Gedib-gəlmir dost-tanış da eləbilki irzikibdir.
Dostlar gülün, qocalığa əlac yoxdur gülməlidir,
Bu dünyaya gələn insan tezi-geci ölməlidir.
Buna matəm saxlamayın, ölüm işi bilin haqdır,
Kədər çəkib, qəm yeməyin, qocalığa çarə yoxdur.

***Cəmil Əkbər*** 15. 09 -1975

**192. QOCALIĞIN SİMFONİYASI**

*III variant*

Qocalıqda yazıq insan, qış fəslində bağa bənzər,
Dolu döymüş, xəzan vurmuş, saralmış yarpağa bənzər.
Vədə gəlir, ötür dövran, karvan gəlib köç eyləyir,
Gəlib öz yerini tutur, cavanlığı puç eyləyir.
Keçmiş şirin xatirənin ağzımızda dadı qalır,
Nəyi varsa əldən gedir, mərd igidin adı qalır.
Gəncliyimiz eləbilki gəlib keçir külək kimi,
Yatmış idik, yuxu gördük, xəyal kimi, mələk kimi.
Qədrini heç bilmədik ki, şüşə kimi vurduq daşa,
Hərbir yerdə, hərbir işdə, hüdudunu aşa-aşa.
Ağrı tutdu əzaları, dövran sürdü kef eylədi,
Nəşəmizi əldən aldı, özü yaman nəf eylədi.

Gah saraltdı, gah sozaltdı, canı saldı haldan-hala,
Yaxamızdan tutub dartdı, bala-bala, dala-dala.
Dilimiz də topuq çaldı, cümləmi düz deyənmədik,
Yaman olduq dəymədüşər, onu-bunu bəyənmədik.
Solub gedir eşq-həvəs, çoxalıbdı iniltimiz,
Onu-bunu irzikdirib, ofultumuz, sızıltımız.
Diş də qalmır ağzımızda, çeynəyirik, əzəmmirik,
Əvvəlkitək cövlan edib, indi daha gəzəmmirik.
Gündüzləri seyrə dalıb, yatammırıq gecələri,
Vida etdik gözəllərdən, həmdəm idi neçələri.
Gözəlikən çirkin olduq, başımızdan ağıl getdi,
Eləbilki yuxu gördük, həyat bizi nağıl etdi.
Zəifləyir yaddaşımız, söz qalmayır huşumuzda,
Köçüb gedir tay-tuşumuz, söz eşitmir guşimiz də.
Kaman kimi əyilibdir vüqarımız, qamətimiz,
Qönçələnib çiçək açmır, bəhrə vermir zəhmətimiz.
Bir nəticə çıxarmadıq bu həyatın qanunundan,
Baş açmadıq bu fələyin min bir fitnə, oyunundan.
Qədd əyildi, bel büküldü, qamətimiz kaman oldu,
Saç ağardı başımızda, gözümüz də duman oldu.
Eynək ilə oxuyuruq, əsa ilə yeriyirik,
Polad kimi doğulduqsa, muma dönüb əriyirik.
Ayrılırıq ana doğan ən müqəddəs əzalardan,
Ey yaradan özün saxla xətalardan, bəlalardan.
Cavanlığı saldıq yola, ömrümüzü verdik fota,
..........qaldı işləməkdən, .........döndü pulemyota.
Dostlar, gülün qocalığa, əlac yoxdur gülməlidir,
Bu dünyada açan güllər, tezi-geci solmalıdır.
Buna matəm saxlamayın, ölüm işi haqq işidir,
Kədər çəkib, qəm yeməyin, bu fələyin gərdişidir.

***Cəmil Əkbər*** 15. 09 -1975

**193. İNSANIN GÜNÜNƏ-GÜZARINA BAX?**

Birisi işləyir, birisi yeyir,
İnsanın gününə-güzarına bax?
Birisi düzəldir, birisi əyir,
İnsanın gününə-güzarına bax?
Yoluxub düşdüyü azarına bax?

Birisi yaradır, birisi qurur,[1054]
Biurisi dağıdır, vurub uçurur,
Birisi vurulur, birisi vurur,
Biri cəhd eyləyib özünü yorur.
İnsanın gününə-güzarına bax?
Çəkdiyi qal-qovğa, azarına bax?

Birisi boşalır, birisi dolur,
Birisi köç edir, birisi qalır,
Birisi öldürür, birisi ölür,
Birisi ağladır, birisi gülür.
İnsanın gününə-güzarına bax?
Vədəsiz qazılan məzarına bax?

Birisi gözəldir, birisi çirkin,
Birisi sadədir, birisi xudbin,
Birisi nikbindir, birisi bədbin.[1055]
İnsanın düşdüyü azarına bax?
Sorağı-səmtinə, güzarına bax?

Birisi tərlandır, birisi sardır,
Birisi qızılgül, birisi xardır.
Birisi eşidir, birisi kardır,
Birisi əqrəbdir, birisi mardır.
İnsanın gününə-güzarına bax?
Yoluxub düşdüyü azarına bax?

Birisi dayazdır, biri dərindir,
Birisi acıdır, biri şirindir,
Birisi istidir, biri sərindir.
İnsanın gününə-güzarına bax?
Ahına, vayına bezarına bax?[1056]

---

[1054] Birisi yatırsa, birisi qurur,
[1055] Birisi şad-xürrəm, birisi bədbin.

[1056] *II variant* Birisi dərindir, birisi üzdür,
Birisi kababdır, birisi közdür,
Birisi əyridir, birisi düzdür,
Birisi mötədil, biri həlimdir,
İnsanın gününə-güzarına bax,
Düşdüyü sevdaya, azarına bax.

Birisi gədədir, birisi bəydir,
Birisi həssasdır, birisi keydir.
Birisi Hatəmdir, birisi göydür,
Birisi aqildir, birisi səydir.
İnsanın gününə-güzarına bax?
Ahına, vayına, azarına bax?

Biri hiylə-kələk, birisi bicdir,
Birisi düz çəkir, birisi kəcdir,[1057]
Birisi mülayim, birisi ləcdir,
İnsanın gününə-güzarına bax?
Mübtəla olduğu azarına bax?

Birisi əzilir, birisi əzir,
Birisi incidir, birisi bezir.
Birisi duymayır, birisi sezir,
Birisi tablaşmır, birisi dözür.
İnsanın gününə-güzarına bax?
Ahına-vayına, azarına bax?

Birisi kasıbdır, biri varlıdır,
Birisi durumsuz, biri karlıdır,
Birisi barsızdır, biri barlıdır,
Birisi arsızdır, biri arlıdır,
İnsanın gününə-güzarına bax?
Təbibi-dərmana, azarına bax?[1058]

Birisi yaxşıdır, birisi pisdir,
Birisi xeyirxah, birisi nəsdir.
Birisi inaddır, birisi tərsdir,
Birisi qızıldır, birisi misdir.
İnsanın gününə-güzarına bax?
Onun xiridarı, bazarına bax?[1059]
Birisi ayıqdır, birisi dəmdir,

---

[1057] Birisi xaindir, xəbisdir, kəcdir.
[1058] Ahı-amanına, bezarına bax.
[1059] Xiridar olmayan bazarına bax.

Birisi yerbəyer, birisi kəmdir,[1060]
Birişi höyüşdür, birisi nəmdir,
Birisi zil ötür, birisi bəmdir,
İnsanın gününə-güzarına bax?
Hayına, həşrinə, azarına bax?

Birisi qocadır, birisi təmbəl,
Birisi qalmaqal, birisi cəncəl,[1061]
Birisi qarmaqdır, birisi çəngəl,
Biri digərinə olubdu əngəl,
İnsanın gününə-güzarına bax?
Mübtəla olduğu azarına bax?

Haçandan bəridir düzəlmir bəşər,
Üz-üzə durubdur xeyr ilə şər,
Vuruşur, didişir, müdam sərbəsər,
Yazıb sözlərini eylə müxtəsər.
İnsanın gününə-güzarına bax?
Sağalmaq bilməyən azarına bax?

Bu dünya belədir ay Cəmil Əkbər,
Qəm-qüssə, dərd yeyib, çəkməynən kədər.
Nəqədər çəksəndə hədərdir-hədər,
Mənalı günlərin, mənasız gedər.
İnsanın gününə-güzarına bax?
Yarası qövr edən bezarına bax?

***Cəmil Əkbər*** 20. 05 - 1993

### 194. BAX-BAX

Birisi işləyir, digəri yeyir,
Birisi düzəldir, digəri əyir,
Birisi toxuyur, digəri geyir.
İnsanın düşdüyü azara bax-bax,
Getdiyi yol-izə, güzara bax-bax.

---

[1060] Birisi cağbacağ, birisi kəmdir.
[1061] Birisi qal-qovğa, birisi cəncəl.

Birisi aldanır, biri aldadır,
Birisi şirindir, biri kal dadır.
Birisi dərindir, birisi, üzdür,
Birisi əyridir, digəri düzdür.
Birisi hiylədir, məkrdir, bicdir,
Biri də sərsəri, kəmağıl, gicdir.
Xaindir, xəbisdir, inaddır, öcdür,
Əzəldən gəlməyir, yol-izə ləcdir.
Birisi nökərdir, digəri bəydir,
Biri də kütbeyin, sərsəri, keydir.
Birisi aqildir, digəri səydir,
Birisi hatəmdir, digəri göydür.
İnsanın düşdüyü güzara bax-bax,
Sağalmaz xəstəlik, azara bax-bax.

Birisi incidir, digəri bezir,
Birisi anlamır, birisi sezir.
Birisi çalışır, digəri gəzir,
Birisi tablaşır, səbr edib dözür.
Birisi kalandır, varlı-hallıdır,
Dövlətli, sərvətli, cah-calallıdır.
Nurani-ağsaqqal, pürkamllıdır,
Sağlam fikirlidir, nurcamallıdır.
Birisi karlıdır, biri karsızdır,
Birisi arlıdır, biri arsızdır.
Birisi yaxşıdır, birisi pisdir,
Birisi xeyirxah, birisi nəsdir.
Biri ayıq, biri lül-qəmbər, dəmdir,
Birisi zil ötür, digəri bəmdir.
Birisi cağbacağ, birisi kəmdir,
Birisi torpaqlıq, birisi himdir.
Birisi qoçaqdır, digəri tənbəl,
Biri-birisinə olubdur əngəl.
İnsanın getdiyi güzara bax-bax,
Düşdüyü xəstəlik, azara bax-bax.

Birisi gözəldir, digəri çirkin,
Birisi nikbindir, birisi bədbin.
Birisi tikandır, birisi xardır,

Birisi tərlandır, birisi sardır.
Birisi öldürür, digəri ölür,
Birisi ağladır, digəri gülür.
Birisi açılır, birisi solur,
Birisi boşalır, birisi dolur.
Birisi köç edir, digəri qalır,
İşindən, gücündən min ilham alır.
Birisi tər tökür, yaradır qurur,
Çalışıb-vuruşur, özünü yorur.
Haçandan bəridir düzəlmir bəşər,
Qal-qovğa içində çəkişir bəşər.
Üz-üzə durubdur, xeyr ilə şər,
Fikirlər, xəyallar olub dərbədər.
Bu dünya belədir ay Cəmil Əkbər,
Əbəsdir qəm yemə, çəkməynən kədər,
Nəqədər çəksən də, hədərdir-hədər.
İnsanın gününə güzarıa bax-bax,
Sağalmaz dərdinə, azara bax-bax,
Vədəsiz qazılan məzara bax-bax.

***Cəmil Əkbər*** 20. 05 – 1993

## 195. ELƏ BAMA, BELƏ BAX!

Zəlimxan, gözlərin yana baxmasın,
Çağdaş aylara bax, ilə bax, ilə!
Gözün xumarlanıb yana axmasın,
Bəm üstə köklənən telə bax, telə! [1062]

---

[1062] *II variant* Ay şair gözlərin yana baxmasın,
Məsd olaraq xumarlanıb axmasın,
Gözəl görcək xumarlanıb axmasın,
Muğana, Şirvana, milə bax, milə.

*III variant* Zəlimxan dəyişib dövrü-zəmanə,
Çağdaş zəmanəyə, ilə bax, ilə.
1)Nöqsan görcək qara eynək taxmasın, 2) Düşmüşük nəyaman çisgin, dumana,
Fitnəyə, fəsada felə bax, felə!

Mədhiyyə yazmağa başını qatma!
Fikir-xəyalını, huşunu qatma!
Yazını, yayını, qışını qatma![1063]
Qanlara sussayan ələ bax, ələ![1064]

Xilqəti çaşdırıb yalan-palanlar,
Xalqa zülm etməkdən ilham alanlar,
Boğazdan yuxarı zurna çalanlar,
Törənən fitnəyə, felə bax, felə!

Yaxşı-yaman birbirinə qarışıb,
Köpək-qurdla, qurd köpəklə barışıb,
Fürsət tapıb sürülərə sırışıb,
Leş-leşə söykənib, şilə bax, şilə!

Didərgin düşənlər, qaçqın çoxalıb,
Özgə diyarlara köçgün çoxalıb,
Taleyi bəd gələn, küsgün çoxalıb,[1065]
Sahibsiz yurdlara, çölə bax, çölə!

Nemət becərməmiş satanlar artıb,
Şər işlə aranı qatanlar artıb,
Haqq-nahaq murada çatanlar artıb,
Dollara çevrilən pula bax, pula![1066]

---

[1063] Nə yazı, payızı, qışını qatma.

[1064] *II variant*

Mədhiyyə deməyə başını qatma,
Fikir, xəyalını, huşunu qatma,
Yazını, yayını, qışını qatma,
Araza, Kürə bax, Nilə bax, nilə!

*III variant*

Meydan verilibdir bic oğlu bicə,
İlqara, imana, kəc oğlu kəcə,
Qanuna, qaydaya, öc oğlu öcə,
Dağıdıb talayan ələ bax, ələ!

*IV variant*

Xilqəti çaşdırıb yalan-palanlar,
Vəzifəni yaltaqlıqla alanlar,
Xalqa zülm edərək ilham alanlar,
Qanlara susayan ələ bax, ələ!

[1065] İnciyib bezənlər, küsgün çoxalıb.

Halal süfrə, halal maya qalmayıb,
Təmiz vicdan, məslək, qayə qalmayıb,
Üzdə-gözdə abır-həya qalmayıb,
İsmətsiz qız, gəlin, dula bax, dula!

Fürsət tapıb kefimizi pozdular,
Diri-diri qəbrimizi qazdılar,
Haqq-nahqadan səhvimizi yozdular,
Törənən qovğaya, qala bax qala!

Çəkilən zəhməti zay eylədilər,
Dağıdıb, talayıb, pay eylədilər,
Gör kimi-kimlərə tay eylədilər?
Gözlərdən car olan selə bax, selə![1067]

Oğulsan başa sal başıboşları,
Vicdanı kəmləri, qəlbi daşları,
Filə hücum çəkən alabaşları,
Dərdləyib bükülən belə bax, belə! [1068]

Qəsd-qərəz əlindən, qisas əlindən,
Zalımlar, qəddarlar, cəsus əlindən,
Törənən qəbahət, əfsus əlindən,
Torağay kor edən filə bax, filə![1069]

---

[1066] *II variant* Nemət becərməmiş satan çoxalıb,
Şər iş tutub, ara qatan çoxalıb,
Əyri yolla vara çatan çoxalıb,
Dollara çevrilən pula bax, pula!

[1067] *II variant* Çəkilən zəhməti zay eylədilər,
Səs-küyə salaraq hay eylədilər,
Axan gözyaşını çay eylədilər,
Düşmüşük daşqına, selə bax, selə!

[1068] *II variant* Oğulsan başa sal başı-boşları,
Vicdanı, məsləki, qəlbi daşları,
Xəyalı dolaşıq, fikri çaşları,
1) Dərdlərdən bükülən belə bax, belə! 2) Qapıya, bacaya çölə bax çölə!

[1069] *II variant* Çəkilən zəhməti zay eylədilər,
Dağıdıb, talayıb pay eylədilər,
Gör kimi-kimlərə tay eylədilər?
1) Gözləri tökülən filə bax, filə! 2) Alabaş hürdüyü filə bax, filə!

Gör haradan yunumuzu alırıq?
Pakistandan dənimizi alırıq,
Hindistandan unumuzu alırıq,
Muzeydə kirkirə, vələ bax, vələ![1070]

Cəhalət içində boğulur bəşər,
Aramsız zühur edib doğulur bəşər,
Sarsıyıb pozulur, dağılır bəşər,
Düşdüyü çamırlıq gölə bax, gölə!

Çaşdırıb hamını yalan-palanlar,
Yağlı vəd verərək qeydə qalanlar,
Bədxah əməlindən ilham alanlar,
Saxta danışığa, dilə bax dilə!

Qoyun bala verir, quzu yeyilir,
Səksəni, doxsanı, yüzü yeyilir,
Nə danım, gizlədim düzu, yeyilir,
Höyürə nəzər sal, dölə bax, dölə!

Ünsiyyət-ülfətlər olubdur çətin,
Sonu görünməyir zülmün, zillətin,
Başına nə gəlir yazıq millətin?
Qaçqına, köçgünə, elə bax, elə!

Nəzər sal Vətənə gör nələr yoxdur?
Nələr tapılmayır, gör nələr çoxdur?
Gör nələr nahaqdı, gör nələr haqdır?
Zəncəfil, zəfəran, hilə bax, hilə!

Keçir dövran günümüzə bir baxın,
Qəlbimizdə kinimizə bir baxın,
Başımızda cinimizə bir baxın,
Yükümüz ağırdır, şələ bax şələ!

---

[1070] *II variant* Hindisandan unumuzu alırıq,
Pakistandan dənimizi alırıq,
1) Yönümüzü haralara salırıq? 2) Gitarada saz havası çalırıq,
1) Xırman dəbdən düşüb vələ bax, vələ! 2) Qəribə səslənən telə bax, telə!

Həvəslə çalışıb işləyən yoxdur,
Toyuq-cücələri kişləyən yoxdur,
Tarlanı becərib püşdəyən yoxdur,
Pas atan dırmığa, belə bax, belə![1071]

Çoxları cəhd etdi ucalanmadı,
Zəfər dünyasından bac alanmadı,
Kamala münasib tac alanmadı,
Enişə-yoxuşa, zilə bax, zilə! [1072]

Dərd əlindən vərəm olduq hamımız,
Əsli sevdik, Kərəm olduq hamımız,
Halal ikən haram olduq hamımız,
Ocaqsız yanırıq, külə bax, külə!

Nəyaman çoxalıb ara qatanlar?
Zəhmətsiz, xidmətsiz vara çatanlar,[1073]
İqtidarsız iqtidara çatanlar,[1074]
Yorğana, döşəyə, tülə bax, tülə!

Oğrular, əyrilər, kalanlar artıb,
Fikirə, xəyala dalanlar artıb,
Əllərdə, ayaqda qalanlar artıb,
Xəzana qərq olan gülə bax, gülə!

Açılan-açılır, solanlar-solur,
Boşalan-boşalır, dolanlar-dolur,
Verənlər-verirlər, alanlar-alır,[1075]
Daş-qaşa, altuna, lələ bax, lələ!

---

[1071] *II variant* Vicdanla tər töküb işləyən yoxdur,
Toyuğu-cücəni kişləyən yoxdur,
Tarlanı, zəmini püşdəyən yoxdur,
Pas tutmuş kotana, belə bax, belə.

[1072] *II variant* Düşmüşük zillətə çıxa bilmirik,
Zülmün dirəyini yıxa bilmirik,
Zəfərlər əlini sıxa bilmirik,
Enişə-yoxuşa, zilə bax, zilə.

[1073] Dövlətə, sərvətə vara çatanlar.
[1074] Şan-şöhrətə, iqtidara çatanlar.
[1075] Gözləri əllərdə qalanlar qalır.

Ünsiyyət-ülfətlər olubdur soyuq,
Eşidib bilənlər qoy düşsün duyuq,
Çaqqallar əlindən qalmadı toyuq,
Hindən oğurlanan fala bax, fala![1076]

Çoxunun çörəyə çatışmır pulu,
Daralıb cığırı, kəsilib yolu,[1077]
Odur ki, bişirir xörəyi sulu,[1078]
İçdiyi hörrəyə, yala bax, yala![1079]

Eşidib bilənlər hamı susubdur, [1080]
Eləbilki birbirindən küsübdür,[1081]
Orda-burda xısın-xısın pusubdur,
Korlara, karlara, lala bax, lala!

Düşünüb dərk edən, qanan azalıb,
Ellərin halına yanan azalıb,
Xətiri-hörməti anan azalıb,
Sürüyə, naxıra, mala bax, mala![1082]

Baxan yox əsilə, nəsilə soya?
Nə yörə-yöndəmə, nədəki boya?
Xidmətə, zəhmətə, nə haqq-saya?
Meydanda Rüstəmi-Zala bax, Zala![1083]

---

[1076] *II variant* Eşidib bilənlər qoy düşsün duyuq,
Ünsiyyət, ülfətlər olubdur soyuq,
Çaqqallar üzündən qırılıb toyuq,
Fallıqda tək qalan, fala bax, fala!

[1077] Dırnaqda nalı yox, belində çulu.
[1078] Neyləsin, xörəyi bişirir sulu?
[1079] Dumduru hörrəyə, yala bax, yala!
[1080] Danışıb dillənmir, hamı susubdur.
[1081] Ümidini, inamını kəsibdir.

[1082] *II variant* Düha sahibini sayanha yoxdur?
Çəkib öz yerinə qoyanha yoxdur?
Gedib günahını yuyanha yoxdur?
Naxıra, sürüyə, mala bax, mala!

[1083] *II variant* Nanəcib, namərdlər törədir dava,
1) Görkəmə yöndəmə, nə də ki, boya, 2) Əl çəkmir bəd işdən sərsəri, yava,
Utanıb, qızarıb deyən yox tova,
Meydanda Rüstəmi-Zala bax, Zal!

Yol gedə bilməyir xeyir ilə şər,
Vuruşur, didişir müdam, sərbəsər,
Ayıla bilməyir qəflətdən bəşər,
Yetişmək bilməyən kala bax, kala![1084]

Bağda bülbül susub, gül matəmdədir,
Ötən qərinələr, il matəmdədir,
Yazdım bu naməni, bil matəmdədir,
İnləyən, sızlayan vala bax, vala![1085]

Toxunur daşlara arzu diləklər,
Yorulub işləmir qollar, biləklər,
Bir ara verməyir çovğun küləklər,
Qasırğa, tufana, yelə bax yelə!

Qardaş-qardaşından aralı gəzir,
Oralı axtarıb, buralı gəzir,
Qəlbi xoflu gəzir, qaralı gəzir,
Həsrətlə uzanan qola bax, qola![1086]

Vətən övladları nə günə qalıb?
Dolaşıb kələfi, düyünə qalıb,
Keçirib dövranı bu günə qalıb,
Dana buynuz atan kala bax, kala![1087]

---

[1084] *II variant* Yolgedə bilməyir xeyir ilə şər,
Haçandan bəridir müdam, sərbəsər,
Çalışır, vuruşur, əlləşir bəşər,
Yetişmək bilməyir, kala bax, kala!

[1085] *II variant* Könüllər mülkündə tel inildəyir,
Bülbül bağda susub, gül inildəyir,
Oxu bu naməni bil inildəyir,
Aramsız sızlayan vala bax, vala!

[1086] *II variant* Qardaş-qardaşından aralı düşüb,
Qəlbi xoflu düşüb, qaralı düşüb,
Oralı axtarıb, buralı düşüb,
Həsrətlə uzanan qola bax, qola!

[1087] *II variant* Alimə, loğmana lağ eyləyirlər,
Çıxıb əndazədən ağ eyləyirlər,
Çəkib cızdağını dağ eyləyirlər,
Dana buynuz atan kələ bax, kələ!

Bazara baxırsan bal da saxtadır,
Dəymiş də, sütül də, kal da saxtadır,
Tirmə də, sətin də, mal da saxtadır,[1088]
Düzəlmə bəhməzə, bala bax, bala!

Sanmaki, hamını kef içindədir,
Çoxalıb gəliri müf içindədir,
Başdan ayağacan səhv içindədir,
Bəşərin düşdüyü hala bax, hala!

Bürüyüb tarlanı alaqotları,
Gicitkansayağı dalaqotları,
Tikanlar, qanqallar, ulaqotları,
Peyvəndsiz cır qalan kola bax, kola!

Ay Cəmil, ünsiyyət pozulub gedib,
İnsanlıq, ləyaqət azalıb gedib,[1089]
Yol-ərkan, din-məzhəb yozulub gedib,
Sarvanı çaşdıran yola bax, yola![1090]

***Cəmil Əkbər*** 14 - 17// 07 -1996

**196. ÇIXART!**

İstəsən adını tanısın ellər,
Qəlbindən kinini, küdrəti çıxart!
Tanısın əsrlər, tanısın illər,
Qəlbindən qəzəbi, nifrəti çıxart![1091]

İstəsən adına yazılsın dastan,
Yazılsın "Gülüstan", yazılsın "Büstan",
Yazılsın ürəklə, yazılsın şəstən,[1092]
Qəlbindən qisası, hiddəti çıxart![1093]

---

[1088] Qırmızı, çəhrayı, al da saxtadır.
[1089] Doğrular tərsinə yozulub gedib.

[1090] *II variant*
Cəmil Əkbər zəmanədən inciyib,
Əhli-kefdən, divanədən inciyib,
El-obaya biganədən inciyib,
Peyvəndsiz cır qalan kola bax, kola!

[1091] *II variant*
İstəsən xalqına əziz olasan,
Qəlbindən kinini, hiddəti çıxart!
Ülfət-ünsiyyətdə təmiz olasan,
Paxıllıq, xainlik küdrəti çıxart!

[1092] Deyilsin ürəklə, deyilsin şəstən.

İstəsən qəlblərdə izin görünsün,
Söhbətin görünsün, sözün görünsün,
Ocağın qalansın, közün görünsün,
Meydana şərəfi, şöhrəti çıxart!

İstəsən ürəkdən silinməyəsən,
Yolundan-izindən əyilməyəsən,
Vicdan zindanında döyülməyəsən,
Meydana namusu, qeyrəti çıxart![1094]

İstəsən əllərdə əzilməyəsən,[1095]
Yeyilib, sürtülüb, üzülməyəsən,
İnləyib, sızlayıb sozalmayasan,
Meydana xətiri, hörməti çıxart!

İstəsən düz çəksin mizan-tərəzin,
Olmasın heçkəslə qəsdin, qərəzin,[1096]
Alilik, ülvilik olsun mərəzin,[1097]
Meydana insafı, mürvəti çıxart!

İstəsən ellərdə xar olmayasan,
Eşidə-eşidə kar olmayasan,
Qəlbləri yandıran nar olmayasan,
Meydana abırı, isməti çıxart![1098]

---

[1093] Acığı, qəzəbi, hiddəti çıxart!

[1094] *II variant* İstəsən əzilib döyülməyəsən,
Nifrətlə yad olub söyülməyəsən,
Yolundan-izindən əyilməyəsən,
Meydana namusu, qeyrəti çıxart!

*III variant* İstəsən həyatdan silinməyəsən,
İlan tək yerlərdə sürünməyəsən,
Əllərdə-ayaqda görünməyəsən,
Meydana zəhməti, xidməti çıxart!

[1095] *II variant* İstəsən sıxılıb əzilməyəsən.
Yeyilib, sürtülüb, nəzlməyəsən,
Qatardan ayrılıb üzülməyəsən,
Meydana xətiri, hörməti çıxart!

[1096] Olmasın birkəslə qəsdin, qərəzin.

[1097] Yetişər yerinə arzun, murazın.

[1098] *II variant* İstəsən adını xar etməyəsən,
Xərabə bayquşu sar etməyəsən,
Ağlayıb, sızlayıb zar etməyəsən,
Meydana abırı, isməti çıxart!

Dünyada ucalmaq istəsən əgər?
Hünərlə bac almaq istəsən əgər?
Kişitək qocalmaq istəsən əgər?[1099]
Meydana  zəhməti, xidməti çıxart![1100]

İstəsən düşmənlə çəkəsən cəngi,
Vurasan zərbəni, edəsən səngi,[1101]
Çalasan “Misiri”, çalasan “Cəngi”,
Meydana qüvvəti, qüdrəti çıxart!

***Cəmil Əkbər*** 3. 06– 1988

**197. OTUR, DUR!**

Bir iş görmək istəyəndə biganəlik eyləmə!
Nəcib arzu, ülvi istək, məhəbbətlə otur, dur!
Sərsərilik, kəmağıllıq, divanəlik eyləmə!
İlqar-iman, əhdi-peyman, sədaqətlə otur, dur!

Zəhmət çəkib hünər göstər, ləyaqətin bilinsin,
Qoçaqlığın, zirəkliyin, məharətin bilinsin,
Fərasətin tüğyan etsin, cəsarətin bilinsin,
Dözüm-durum, mətanətlə, dəyanətlə otur, dur!

Nə iş tutsan hünərlə gör, görənlər əhsən desin,
Yaxın-uzaq eşidənlər, bilənlər əhsən desin,
Gedənlər də təzim etsin, gələnlər əhsən desin,
Doğruluqla, düzgünlüklə, ədalətlə otur, dur!

Harda olsan ixtiyarın, sədaqətin bilinsin,
Qövr eyləsin odun-közün, hərarətin bilinsin,
Nəzakətin, nəcibliyin, məlahətin bilinsin,
Sağlam fikir, saf düşüncə, pak niyyətlə otur, dur!

Haralarda nə iş görsən, gəl lovğalıq eyləmə!
Yekəxana, nə dambatlıq, ədəbazlıq eyləmə!
Nə təlxəklik, nə şıltaqlıq, hoqqabazlıq eyləmə!
Sadə dolan, səmimi ol, bu adətlə otur, dur!

---

[1099] Zəfərlə tac almaq istəsən əgər.
[1100] Meydana cəsarət, cürəti çıxart!
[1101] Vurasan təbili, vurasan zəngi.

Məna ilə, məzmun ilə, məziyyətlə yaşayın!
Sinə gərib hər əzaba, əziyyətlə yaşayın!
Qeyrət ilə, iradəylə, qətiyyətlə yaşayın!
Məzmun ilə, mahiyyətlə, hikmət ilə otur, dur!

El gözündə elə çəkil, qoy kamalın bilinsin,
Harda olsan vicdan-məslək, qoy amalın bilinsin,
Parıldasın şəvə saçın, nur camalın bilinsin,
Fəhim ilə, eyham ilə, diqqət ilə otur, dur!

Ləyaqətin zirvəsindən möhkəm durun enməyin!
Qaralmayın, qarsıxmayın, tez-tələsik sönməyin!
Hər yetənə söz qaytarıb, danışmayın, dinməyin!
Eşq-həvəs təlatümlə, riqqət ilə otur, dur!

***Cəmil Əkbər*** 10. 05 – 1990

## 198. EY İMİŞ

Adam bilib hər yetənə söz dedim,[1102]
Deməyimdən deməməyim ey imiş.
Elə anladımkı doğru-düz dedim,[1103]
Dediyimdən deməməyim ey imiş.

Oturub bir yerdə çörək də yedim,
Badələr qaldırıb, sağlıq da dedim,
Sandımki günahım var isə yudum.[1104]
Yediyimdən yeməməyim ey imiş.[1105]

Çoxlarını tərifləyib öymüşəm,[1106]
Boy-buxunun əzizləyib sevmişəm,
Sondan-sona gözlərimi döymüşəm,[1107]
Öydüyümdən öyməməyim ey imiş.

---

[1102] 1) Adam bilib çox adama söz dedim. 2) Adam bilib hər nadama söz dedim.
[1103] 1) Səbr eyləyib, sinə gərib döz dedim, 2) Nə dedimsə anladımki düz dedim,
[1104] Sandımki savabı, günahı yudum.
[1105] *II variant* Bir süfrə başında çörək də yedik,
Badələr qaldırıb, sağlıqlar dedik,
Sandıq ki, günahı, savabı yuduq,
Yediyimdən yeməməyim ey imiş.

[1106] Çoxlarını orda-burda öymüşəm.
[1107] Eləbildim mən zərxara geymişəm.

Güclü ikən gücsüzləri döymüşəm,
Təhqir edib yerli-yersiz söymüşəm,
Haqq-nahaqdan xətirinə dəymişəm,
Döydüyümdən döyməməyim ey imiş.[1108]

Dərdə salıb qamətini əymişəm,
Soyundurub paltarını geymişəm,
Yemək üçün, çərəz üçün əymişəm,
Əydiyimdən əyməməyim ey imiş.[1109]

Mənliyimi unutmuşam, danmışam,
Heyrət edib yerimdəcə donmuşam,
Hər gədanın çınqısında yanmışam,
Yandığımdan yanmamağım ey imiş.

Çoxlarını özüm üçün dost bildim,
İrişib üzünə sevindim, güldüm,
Həsrətin çəkməkdən saraldım, soldum,[1110]
Solduğumdan solmamağım ey imiş.

Cəmil Əkbər, niyə belə etmisən?
Hər yetənin tarlasında bitmisən,
O səbəbdən aralıqda itmisən,[1111]
Etdiyindən etməməyin ey imiş.[1112]

***Cəmil Əkbər*** 1.10 – 1987

---

[1108] *II variant* 1) Çoxlarını gücsüz sanıb döymüşəm, 2) Gör nəqədər məzlumları döymüşəm,
1)Yerli-yersiz ünvanına söymüşəm, 2)Təhqir edib dönə-dönə söymüşəm,
1) Xatirinə toxunmuşam, dəymişəm, 2) Xatirinə toxunmuşam, dəymişəm,
Döydüyümdən döyməməyim ey imiş.

[1109] *II variant* Bir igidi qərəz ilə əymişəm,
Məqsəd üçün, mərəz üçün əymişəm,
Elə-belə çərəz üçün əymişəm,
Əyməyimdən əyməməyim ey imiş.

[1110] Həsrətini çəkib saraldım, soldum.

[1111] Elə bildin doğru yolla getmisən.

[1112] *II variant* Cəmil Əkbər, daha belə etmə gəl!
Hər yetənlə birgə yolu getmə gəl!
Bülbül olub hər bağçada ötmə gəl!
Ötməyindən ötməməyin ey imiş.

## 199. XƏBƏRDAR OL!

İstəsən qəlbiniz olmasın xəstə,
Eşit sözlərimi al, xəbərdar ol!
Yol vermə həyatda qərəzə-qəsdə,[1113]
İnsan qayğısına qal, xəbərdar ol![1114]

İnsanı bezdirib yorma dünyada,[1115]
Toxunub qəlbini qırma dünyada,
Sinəyə dağ-düyün vurma dünyada,
Zülməti yadına sal, xəbərdar ol![1116]

Nadanla hərlənib, cahillə gəzmə!
Onun cəfasına hədərdi, dözmə!
Hayıfdı canını uğrunda üzmə!
Çevirmə nə arxa, dal xəbərdar ol![1117]

Bir insan oğluna vermə əzabı,[1118]
Nə şişi yandırma, nə də kababı,
Çəkərlər səndən də haqqı-hesabı,
İnləyər qəlblərdə val, xəbərdar ol!

---

[1113] Xalqına həmişə səadət istə.

[1114] *II variant* İstəsən qəlbiniz olmasın xəstə,
1) Gözümüz yollarda, qulaqlar səsdə. 2) Oxuyub, öyrənib, bil xəbərdar ol!
Xalqına həmişə səadət istə,
1) Bezdirib kimsəni yorma dünyada, 2)Ellərin qeydinə qal, xəbərdar ol!
3) Eşit nəsihəti al, xəbərdar ol!

[1115] Bezdirib kimsəni yorma dünyada.

[1116] *II variant* Bezdirib hamını yorandan olma,
Toxunub qəlbini qırandan olma,
Sinəyə dağ-düyün vurandan olma,
İşlətmə nə nömrə, xal xəbərdar ol!

[1117]*II variant* Nadanla, cahillə hərlənib gəzmə,
Çəkib cəfasını, havayı dözmə,
1) Hədərdir yolunda canını üzmə, 2) Əbəsdir canını yolunda üzmə,
Çevirmə nə arxa, dal xəbərdar ol!

[1118] Övladi bəşərə vermə əzabı.

Bəşər övladına vermə zilləti,
Nə əzab əziyyət, nə də hilləti,
Gəlmişik dünyaya bil müvəqqəti,
Onun qayğısına qal, xəbərdar ol!

Xalqını axtarıb salmasan yada,
Nə izin, nə tozun qalar dünyada,
Məzmunsuz, mənasız gedərsən bada,
Adına deyərlər mal, xəbərdar ol![1119]

Fitnələr törədib, böhtanlar yazsan,
Doğru fikirləri tərsinə yozsan,
Ülfət-ünsiyyəti korlayıb pozsana,[1120]
Aparmaz mənzilə yol, xəbərdar ol![1121]

Çox mənəm deyənlər ucalan deyil,
Hünərlər göstərib bac alan deyil,
Şərəflə yaşayıb qocalan deyil,
Olsada saqqalı çal, xəbərdar ol![1122]

---

1119 *II variant* Hörməti, izzəti salmasan yada,
Adını anmazlar qoca dünyada,
Yetişər məqamın gedərsən bada,
Adına deyərlər mal xəbərdar ol!

*III variant* Xətiri hörməti, salmasan yada,
Kim səni tanıyar qoca dünyada?
1)Mənasız, mətləbsiz gedərsən bada, 2)Mənasız, məzmunsuz gedərsən bada.
Vurarlar pəncənə nal xəbərdar ol!

1120 Üzlərə irişib, arxadan qazsan.

1121 *II variant* Fitnələr törədib, böhtanlar yazsan,
Ayaqlar altından quyular qazsan,
Doğru fikirləri tərsinə yozsan,
Mənzilə çatdırmaz yol xəbərdar ol!

*III variant* Fitnələr danışıb, böhtanlar yazma,
Ayaqlar altından quyular qazma,
Doğru fikirləri tərsinə yozma,
1)Aparmaz mənzilə yol, xəbərdar ol! 2) Çatdırmaz mənzilə yol, xəbərdar ol!

1122 *II variant* Zəhmətdən qaçanlar ucalan deyil,
1) Zəfər dünyasından bac alan deyil. 2) Zəfər dünyasından tac alan deyil.
Nurani sayağı qocalan deyil,
Olsada saqqalı çal, xəbərdar ol!

Sözlərin, söhbətin elə çatmasa,
Kamanda köklənib, telə çatmasa,[1123]
Bülbülə çatmasa, gülə çatmasa,
Deyərlər zurnanı çal, xəbərdar ol![1124]

Yetişmiş meyvənin tamı gözəldir,
Süfrəsi açıqdır, nanı gözəldir,
Şərbəti şirindir, camı gözəldir,[1125]
Qalmaynan həyatda kal, xəbərdar ol!

İnsafı, mürvəti atıb yaşasan,[1126]
Yaxşını-yamana qatıb yaşasan,
Qəflətlər içində batıb yaşasan,
Olacaq məskanın kol, xəbərdar ol![1127]

---

*III variant*
Zəhmətdən qaçanlar ucala bilməz,
Zəfər dünyasından bac ala bilməz,
Nurani, pürani qocala bilməz,
Olsada saqqalı çal, xəbərdar ol!

*IV variant*
Hər mənəm deyənlər ucala bimir,
Hünər meydanından bac ala bilmir,
Ağsaqqal sayılıb qocala bilmir,
Olsada saqqalı çal, xəbərdar ol!

[1123] Kamana çatmasa, telə çatmasa.

[1124] *II variant*
Sözlərin, söhbətin elə çatmasa,
Bülbülə yetişib, gülə çatmasa,
Kamana, mizraba, telə çatmasa,
Deyərlər zurnanı çal, xəbərdar ol!

*III variant*
Şərəfin, şöhrətin elə çatmasa,
Bülbül avazı tək gülə çatmasa,
Toxunub kamana, telə çatmasa,
Deyərlər zurnanı çal, xəbərdar ol!

*IV variant*
Sözlərin, obaya, elə çatmasa,
Bəmdə inildəsə, zilə çatmasa,
Əldən-ələ, dildən-dilə çatmasa,
Deyərlər zurnanı çal xəbərdar ol!

[1125] Şərbəti, zülalı, camı gözəldir.

[1126] Namusu, qeyrəti atıb yaşasan.

[1127] *II variant*
Atma insafını, atma mürvəti,
Saxlama qəlbində kini, küdrəti,
Gözləməsən şərafəti, şöhrəti,
Məskənin olacaq kol xəbərdar ol!

Eşidib sözümə baxma qiyqacı,
Demə ki, olubdur zəhərdən acı,[1128]
Bağban da xoşlamır barsız ağacı,[1129]
Olmasa meyvəsi bol, xəbərdar ol!

Könül diyarınız daim şad olsun,
Qüssəyə, kədərə tamam yad olsun,
İnsandan-insana hər imdad olsun,
Süzülsün dəhandan bal, xəbərdar ol!

Gördün ki, tapdanır birinin haqqı,
Qoyma hakim ola haqqa nahaqqı,
Ey Cəmil gözləmə xahiş, təvəqqi,
Durmaynan o yerdə lal, xəbərdar ol!

***Cəmil Əkbər*** 5-10 / 02 – 1979; 10. 11 - 1979

## 200. XƏYALLAR

Bəşər övladını davaya saldın,[1130]
Ay sərsəm xəyallar, ay gic xəyallar.
Zəhərə qərq olmuş havaya saldın,[1131]
Mənasız, məzmunsuz ay puç xəyallar.

Yolundan, izindən döndərən sənsən,
Yanan çıraqları söndürən sənsən,
Bədəməl dalınca göndərən sənsən,
Ay xain, ay xəbis, ay kəc xəyallar.

Nəqədər diləklər qırıb gedirsən?
Qanırıb qolları burub gedirsən?
Dağı sinələrə vurub gedirsən?
Ay inad xəyallar, ay öc xəyallar.

---

[1128] 1)Sanmayın olubdur zəhərdən acı, 2) Sanmayın zəqqumdu, zəhərdi, acı.
3) Demə ki, zəhərdi, zəqqumdu, acı, 4) Olmasın ağıdan, zəhərdən acı.
5) Olmasın zəqqumdan, zəhərdən acı.
[1129] Bağban da saxlamır barsız ağacı.
[1130] Bəşər övladını azdıran sənsən.
[1131] Ülfət-ünsiyyəti pozduran sənsən.

İnsafı, mürvəti atmısan nədən?
Mərdləri-namərdə satmısan nədən?
Yaxşını-yamana qatmısan nədən?
Hiyləgər xəyallar, ay bic xəyallar.

Törənən cinayət balalarındır,
Nəvən-nəticəndi, övladlarındır,
Ahındı, naləndi, fəryadlarındır,
Ay ölü xəyallar, ay linc xəyallar.

Hökmün güclü olsun, qərarın qəti,
Danış ədalətdən, ver həqiqəti,
Becər insanlığı, dər ləyaqəti,
Ay yetkin xəyallar, ay dinc xəyallar.

Duyduqca Cəmilin qanı korlanır,
Varlığı korlanır, canı korlanır,
Şərəfi-şöhrəti, şanı korlanır,
Əfsanə xəyallar, ay heç xəyallar.

***Cəmil Əkbər*** 16.07 – 1987

**201. BƏLKƏ**

Qəlbindən qardaşım cəhaləti at!
Bəlkə fürsət tapıb yaşaya bilək.
Xətanı, bəlanı qəbahəti at!
Bəlkə fürsət tapıb yaşaya bilək.

Kini-küdurəti, ədavəti at!
Paxıllıq, xainlik, xəyanəti at!
Xətanı-bəlanı, cinayəti at!
Bəlkə fürsət tapıb yaşaya bilək.

Qardaş, qəlbindəki kinini çıxart!
Şeytanını çıxart, cinini çıxart!
Başında pis fikri, çənini çıxart!
Bəlkə fürsət tapıb yaşaya bilək.

Qəlbində yurd salan çamırı çıxart!
Bataqlıq, löhməni, mamırı çıxart!
Nöqsana yol vermə,  günahı çıxart![1132]
Bəlkə fürsət tapıb yaşaya bilək.

Qardaş, qəlbindəki xəyanəti boğ!
Xətanı, bəlanı, cinayəti boğ!
Nadanlıq, avamlıq, cəhaləti boğ!
Bəlkə fürsət tapıb yaşaya bilək.

Qəlbindən iştahı, tamahı atın!
Haqsız iş tutmayın günahı atın!
Qarğışı, naləni, həm ahı atın!
Bəlkə fürsət tapıb yaşaya bilək.

Qardaş, qəlbindəki gicliyi qovun,
Hiyləni, məkiri, bicliyi qovun,
Tərslik, zalımlığı, öclüyü qovun,
Bəlkə fürsət tapıb yaşaya bilək.[1133]

Qəlbində nifrəti, ədavəti at!
Paxıllıq, xainlik, xəyanəti at!
Kinini, küdrəti, cinayəti at!
Bəlkə fürsət tapıb yaşaya bilək.

Qardaş, qəlbindəki hərisliyi at!
Nanəcib, namərdlik, naqisliyi at!
Höcətlik, inadlıq, o tərsliyi at!
Bəlkə fürsət tapıb yaşaya bilək.

Acizlik, fərsizlik, tənbəlliyi at!
Davanı, dalaşı, cəncəlliyi at!
Avamlıq, nadanlıq, əngəlliyi at!
Bəlkə fürsət tapıb yaşaya bilək.

---

[1132] Nəfisə yol vermə,  tamahı çıxart!

[1133] *II variant* Qəlbində saxlama, kəcliyi atın,
İnadlıq, tərsliyi, öclüyü atın,
Hiylə, dələduzluq, bicliyi atın,
Bəlkə fürsət tapıb yaşaya bilək.

Qəlbində, hissində qardaşlıq yaşat!
Həmkarlıq, həmdəmlik, sirdaşlıq yaşat!
Mehriban, səmimi, yoldaşlıq yaşat!
Bəlkə fürsət tapıb yaşaya bilək.

Qoşulma hər yetən nadan kəslərə,
Yarımçıq tərbiyə dadan kəslərə,
Haqq-say sümürüb udan kəslərə,
Bəlkə fürsət tapıb yaşaya bilək.

Əsəblər korlanıb, qan qaralmasın,
Dünyamız başlara qoy daralmasın,
Məhəbbət bağları heç saralmasın,
Bəlkə fürsət tapıb yaşaya bilək.

Əqilli, bilikli, kamallı olaq,
Əqidə, məsləkli, amallı olaq,
Çəkidə tutarlı, samballı olaq,
Bəlkə fürsət tapıb yaşaya bilək.

Qardaş, qəlbindəki soyuqluğu qov!
Acizlik, fərsizlik, toyuqluğu qov!
Boşluğu doldurub, qovuqluğu qov!
Bəlkə fürsət tapıb yaşaya bilək.

***Cəmil Əkbər*** 5 - 25 / 12 – 1988

## 202. İSTEDAD

İstedad, ləyaqət boğulan deyil,
Zamanı gələndə dillənəcəkdir.
Göylərin leysanı soğulan deyil,
Car olub axacaq, sellənəckdir.

Bulud yarılacaq, günəş doğacaq,
Zülmət dünyasını işıq boğacaq,
Könüldən-könülə nurlar axacaq,
Zəfərlər yelkəni yellənəcəkdir.

Bu gözəl dövranda, bizim zamanda,
Artacaq şərəf də, şöhrət də şan da,
Sərvət də, dövlət də, gövhər də kan da,
Zəhmətin bəhrəsi göllənəcəkdir.

Bahar nəfəsindən açdıqca güllər,
Onun müjdəsindən axdıqca sellər,
Ləyaqət mülkünə getdikcə yollar,
Könül rübabımız tellənəcəkdir.

Xəyala qapılıb, daşan zamanada,
Zirvələr fəth edib aşan zamanda,
Cəmilin ürəyi coşan zamanda,
Mənalar car olub hellənəcəkdir.

***Cəmil Əkbər*** 12. 01 – 1980

**203. BU DÜNYADAN KAM ALAQ**

Bir insan ki, öz yanından qanmasa,
Onu yandan başa salmaq çətindir.
Özü sevib eşq oduna yanmasa,
Onu yandan işə salmaq çətindir.

Bu qoca dünyanın nə təqsiri var?
Təqsir də, günah da hamsı bizdədir.
Bu fani dünyada kamal çatarsa,
Arzuya, məqsədə çatmaq asandır.

Taleyin yar olsa uzaşar qəmin,
Çoxalar dost-tanış, yaxın həmdəmin.
Toxunmaz daşlara, qərq olmaz gəmin,
Yapışıb lövbərdən tutmaq asandır.

Əgər narahatsa qoca dünyamız,
Kimdi günahkarı, kimdi baisi?
Əgər odlanarsa qoca dünyamız,
Görən kim "memarı", kimdi "banisi"?

Bu dünya uludur, yaşadır bizi.
Yedirir, içirir saxlayır bizi.
Enişdə, yoxuşda sınayır bizi,[1134]
Ya məzəmmət edir qınayır bizi.

Onun nə təqsiri, nə günahı var?
Onun boynumuzda haqq-sayı var.
Bu dünya əzəldən binadır bizə,
Yedirib-içirən anadır bizə.

Bizik bu dünyanı cana doyduran,
Məzara qərq edən qana doyduran,
Bizik bu dünyanı yaralayan da,
Salıb bombaları paralayan da,

Bizik bu dünyaya qənim kəsilən.
Bayquş kimi xaric səsdə səslənən.
Dünyadan uman da, küsən də bizik,
Tufantək coşan da, əsən də bizik.

Bizik bu dünyadan gileylənən də,
Bizik bu dünyaya bülöylənən də.
Bizik bu dünyanı nikbin edən də,
Onu gözəl edən, çirkin edən də.

Bizik bu dünyanı zibilləyən də,
Səmadan başına od ələyən də.
Bizik bu dünyanı qana çalxayan,
Bizik bu dünyanı sona sazlayan.

Bizik bu dünyanın əşrəfi insan,
Bizik bu dünyanın zinəti insan.
Bizik bu dünyanın qənimi insan,
Bizik bu dünyanın zalımı insan.

---

[1134] Haqqa möhür vurur, haqlayır bizi.

Bizik bu dünyanın sahibi insan,
Bizik bu dünyanın rahibi insan.
Gəlin bu dünyadan kam alaq dostalar,
Şan-şöhrət, qazanaq, nam alaq dostalar.

Gəlin dünyamızı incitməyək biz,
Yalvarıb, yaxarıb yoncutmayaq biz.
Gəlin dünyamızı bezdirməyək biz,
Salıb zülümlərə dözdürməyək biz.

***Cəmil Əkbər***

**204. ÇƏTİNDİR**

İnsanoğlu düz yola gəl, əyri yoldan əlgötür,
Dinlə bir an, anla məni, ədalətsiz çətindir.

Ora-bura əl ataraq, qeyri yolla dolanma,
Harda olsan, yaşasan da, həqiqətsiz çətindir.

Ünsiyyətdə, ülfətlərdə abır-həya gərəkdir,
Xətir-hörmət, mərifətsiz, nəzakətsiz çətindir.

Hərbirkəsə təlim verən, kamil dayə gərəkdir,
Oxu-öyrən, dərsini al, qiraətsiz çətindir.

Hərkim olsan, nə iş görsən, xeyirxah ol həmişə,
Göstərginən mehri-ülfət, fəzilətsiz çətindir.[1135]

Kəc xəyalla gəşt eyləmə, səmimi ol həmişə,
Sağlam fikir, düz düşüncə, pak niyyətsiz çətindir.

Mərd igidə həm iradə, dəyanət də gərəkdir,
Gər olmasa dözüm-durum, qətiyyətsiz çətindir.

Hər oğula, hərbir qıza, məharət də gərəkdir,
İnsanoğlu anla bunu, fərasətsiz çətindir.

Biganəlik bəsdi daha, heçkimsəyə yaramır,
Əgər yoxsa tələbkarlıq, nəzarətsiz çətindir.[1136]

---

[1135] Əyər yoxsa mehri-ülfət, fəzilətsiz çətindir.

Hamı gərək dərk eyləyə, düşünələr dərini,
İxtiyarsız, iqtidarsız, sədarətsiz çətindir.

Arif olan xatırlayar, bu sözləri əbədi,
Hərbirkəsdə insaf gərək, kəramətsiz çətindir. [1137]

Bəşər oğlu gör haçandan hörmət ilə dolanır?
Çatışmırsa səxa əhli, sədaqətsiz çətindir.

Cəmil Əkbər, hərkəs olsa qoy düşünsün bir daha,
Bu dövranda, bu zamanda ləyaqətsiz çətindir.

İnsanoğlu düz yola gəl, əyri yoldan əlgötür,
Dinlə bir an, anla məni, ədalətsiz çətindir.

***Cəmil Əkbər*** 4. 11 – 1993

### 205. QİYMƏT BELƏ YAZILMAZ

Qiymət yazdın oyuğa,
Əhli-kefə soyuğa,
Kütbeyinə toyuğa,
Hər yetirən qoduğa.

Hörmət etdin mala da,
Kəkövə də, lala da,
Yetişməmiş kala da,
Yanaqdakı xala da.
Bəhməzə də, bala da,
Azdan-çoxdan pula da,
Bakirəyə, dula da.

Hörmət etdin küçədə,
Gündüzlər də, gecə də.
Sərsəriyə giçə də,
Əfələ bivecə də.
Dələduza, bicə də,
Heç almadın vecə də.

---

[1136] Zəifdirsə tələbkarlıq, nəzarətsiz çətindir.
[1137] İnsaf gərək, mürvət gərək, kəramətsiz çətindir.

Dostlarına tanışa,
Yaxın-uzaq bilişə,
Hər alışa - verişə.
Təbəssümə, gülüşə,
Hər ötəri görüşə.

Möhüb düzdüm daşa da,
Kəlləsi tam boşa da.
Him-cimə, göz-qaşa da,
Əqidəsi çaşa da.

Qiymət yazdın hamıya,
Yağa, şora, xamaya.
Papalara, mamaya,
Bibilərə, xalaya.

Bilik qaldı kənarda,
Hünər qaldı kənarda,
Zəfər qaldı kənarda,
Əmək qaldı kənarda,
Məslək qaldı kənarda.
Amal qaldı kənarda,
Kamal qaldı kənarda.
İnsaf qaldı kənarda,
Mürvət qaldı kənarda.
Namus qaldı kənarda,
Qeyrət qaldı kənarda.
Abır qaldı kənarda,
İsmət qaldı kənarda.
Hikmət qaldı kənarda,
Şöhrət qaldı kənarda,
Dövlət qaldı kənarda.

Çörək belə yeyilməz,
Kişi belə əyilməz.
Şöhrət yaman tapdanır,
Namus, qeyrət çığnanır.

Tapdanıldı ləyaqət,
Qayda-qanun həqiqət.
Harda qaldı ədalət?
Harda qaldı sədaqət?
Pak arzular, saf niyyət?
Xalqı boğur pis adət.
Bəşər çəkir əziyyət,
Yol gözləyir cəmiyyət.
Çəkmirsənmi xəcalət?
Bəs deyilmi xəyanət?

Xalqa yaman qəsd olur,
Astar gəlib üst olur.
Zəhmət itir arada,
Xidmət itir arada.
Hörmət itir arada,
Mürvət itir arada,
Şöhrət itir arada.
Qaralar ağ görünür,
Təpələr dağ görünür.
Xəstələr sağ görünür,
Kol-koslar bağ görünür.

Düz tərsinə yozulur,
Ünsiyyətlər pozulur.
Nadanlar “bəylik” edir,
Ariflər “keylik” edir.

Qiymət belə verilməz,
Xətir belə görülməz.
Hörmət belə edilməz,
Yolnan belə gedilməz.
Xidmət belə edilməz,
Möhüb belə düzülməz.
Çörək bucür yeyilməz,
Kişi bucür əyilməz.

Belə olmaz müəllim?
Belə olmaz ay alim?
Nə alim, nə münəccim?
Belə olmaz qardaşım,

Ay həmkarım, yoldaşım.
Ay tay-tuşum, çağdaşım,
Ay həmdəmim, sırdaşım.
Astar gəlib üst olur,
Xalqa yaman qəsd olur.
Ağa qara deməyək,
Tama para deməyək.
Yaraya sağ deməyək,
Təpəyə dağ deməyək.
İkiyə üç yazmayaq,
Üçə də dörd yazmayaq.
Gəl dördə beş deməyək,
Düz başa keç deməyək!

***Cəmil Əkbər*** 1-20 / 08 -1980

**206. YAZMIRSAN?**

*I variant*

De niyə susmusan, ay ilham pərim?
Alanlardan, verənlərdən yazmırsan?
Dövrü-zəmanədən yoxmu xəbərin?[1138]
Sabınlanıb girənlərdən yazmırsan.

Qələmə almırsan qəlbidaşları,
Vicdanı, məsləki, qəlbiçaşları, [1139]
Filə hücum çəkən alabaşları,
Ulduzlara hürənlərdən yazmırsan?[1140]

Dağıdan-dağıdır, sökənlər-sökür,
Bezdirib zəhlələr tökənlər-tökür,
Sinəyə dağ-düyün çəkənlər-çəkir,
Bağ salmamış dərənlərdən yazmırsan?[1141]

Hərə bir diyarda pozğunluq edir,
Çaşıb yollarını azğınlıq edir,
Dönüb leşgəmirən, quzğunluq edir,
Qəsdimizdə duranlardan yazmırsan?

[1138] Olandan, qalandan yoxmu xəbərin?
[1139] Vicdanı kəmləri, qəlbi çaşları.
[1140] Tula kimi hürənlərdən yazmırsan.
[1141] Oğrun-oğrun dərənlərdən yazmırsan.

Tamahkar, acgözlər qana sussayıb,
Soxulub damara, cana sussayıb,
Daşa-qaşa, gövhər-kana sussayıb,
İlikləri vuranlardan yazmırsan?

Tanıtmırsan aralığı qatanı,
Dağıdıb, talayıb vara çatanı,
Hay-küy ilə iqtidara çatanı,
Ümidləri qıranlardan yazmırsan?[1142]

Baxdıqca insanın qaralır qanı,
Sarsıyır varlığı, üzülür canı,
Zülmətə dözdürür insan-insanı,[1143]
Haqlı-haqsız ölənlərdən yazmırsan.[1144]

Ünsiyyət-ülfətlər pozulub gedir,
Mərifət sahibi azalıb gedir,
Günbəgün əriyib, sozalıb gedir,
Xəzan olub solanlardan yazmırsan.

Dünya belə getməz, ay Cəmil Əkbər,
Yatma qəflətlərdə, olma bixəbər,
Bəşər övladına yetirin xəbər,[1145]
Zəfərləri çalanlardan yazmırsan?

***Cəmil Əkbər*** 11. 04 – 1996

**207. YAZMIRSAN?**

*II variant*

Nəyaman susmusan, ay ilham pərim?
Ədalətdən, həqiqətdən yazmırsan?
İnciyib-küsmüsən, ay sədd afərim?
İnsanlıqdan, ləyaqətdən yazmırsan?

---

[1142] *II variant* Zindana salınmır ara qatanlar,
Dağıdıb, talayıb vara çatanlar,
Ləyaqətsiz iqtidara çatanlar,
Ümidləri qıranlardan yazmırsan.

[1143] Nəyaman bezdirir insan-insanı?

[1144] Öldürəndən ölənlərdən yazmırsan.

[1145] Yaz-yarat aləmə yetirin xəbər.

Zəmanədə yaman kələf dolaşıb?
Ağ qaraya, qara ağa bulaşıb,
Pis yaxşıya, yaxşı pisə qarışıb,
Şan-şöhrətdən, şərafətdən yazmırsan?

Köçüb gedib ər kişilər qalmayıb,
Mərd igidlər, nər kişilər qalmayıb,
İnci-sədəf, zər kişilər qalmayıb,
Əsl kökdən, nəcabətdən yazmırsan?

Şikayət edirsən dövrü-zamandan,
Avam, sərsəridən, cahil, nadandan,
Baş aça bilmirsən ahdan, amandan,
Saf arzudan, pak niyyətdən yazmırsan?

Yol-izini azanları görmürsən?
Ünsiyyəti pozanları görmürsən?
Ayaq altdan qazanları görmürsən?
Ədəb-ərkan, nəzakətdən yazmırsan?

Həryana baxırsan dava-dalaşdır,
Həyəcan, səksəkə, qorxu, təlaşdır,
Vurhavur, qırhaqır, qanlı savaşdır,
Xeyirxahlıq, fəzilətdən yazmırsan?[1146]

Hamı yön alıbdır tamaha sarı,
Xətaya, bəlaya, günaha sarı,
Baxan yox uğurlu sabaha sarı,
İnsaf-mürvət, kəramətdən yazmırsan?

İlqara-imana dönük çoxalıb,
Vicdanı, məsləki sönük çoxalıb,
Hər səmtə üz tutan yönük çoxalıb,
Sədaqətdən, səxavətdən yazmırsan?[1147]

***Cəmil Əkbər*** 11. 04 - 1996

---

[1146] *II variant* Qanmazlar qananın qəlbinə dəyir,
Artırıb dərdini, qəddini əyir,
Bədinə işləyib, haqqını yeyir,
Xeyirxahlıq, fəzilətdən yazmırsan.

[1147] *II variant* Deyəsən ünsiyyət pozulub gedib,
Xətir də, hörmət də azalıb gedib,
Bu dərddən mərd igid sozalıb gedib,
Sədaqətdən, səxavətdən yazmırsan?

**208. YAZMIRSAN?**

*III variant*

A şeir ilhamın niyə susubsan?
Haqq səsindən, ədalətdən yazmırsan?
Yoxsa əqlin çaşıb, eldən küsübsən?
Avamlıqdan, cəhalətdən yazmırsan?

Söz açmırsan xəyalından keçəndən,
Yaxşıları, yamanlardan seçəndən,
Əqidədən üz döndərib köçəndən,
Etibardan, sədaqətdən yazmırsan?

Görmürsənmi aralığı qatan var?
Xalqı soyub məqsədinə çatan var?
Ucuz alıb, baha-baha satan var,
Nə küdrətdən, nə hiddətdən yazmırsan?

Niyə susub kağız, dəftər, qələmin?
Yazmasan da gözü görür aləmin,
Səsi şıxmır dadlı-duzlu kəlmənin,
Nə cəzadan, nə şiddətdən yazmırsan?

***Cəmil Əkbər*** 11. 04 – 1996

**209. MƏNƏ ŞEİR YAZDIRAN**

*I variant*

İlham verib qəlbimə, mənə şeir yazdıran,
Xalqa, elə-obaya olan məhəbbətimdir.
Xəyalımda dolanan, nəcib arzu-istəklər,
Sədaqətlə, səxavət, bir də kəramətimdir.

Mənə şeir yazdıran, xətirim, hörmətimdir,
Dosta olan ülfətim, düşmənə nifrətimdir.
Sinəmdə cövlan edən təpərim, riqqətimdir,
Azdan-çoxdan nə varsa, nəzərim, diqqətimdir.

Mənə şeir yazdıran, saf arzu, niyyətimdir,
Xəyalımda dolaşan, mənamdı, hikmətimdir,
Bu torpaqdır, bu yerdir, bu vətəndir, bu eldir,
Dağ döşündə lalələr, çiçəklərdir, bu güldür.

***Cəmil Əkbər***

## 210. MƏNƏ ŞEİR YAZDIRAN

*II variant*

Mənə şeir yazdıran, qaralayıb pozduran,
Xalqa, elə-obaya istək məhəbbətimdir.
Xətir-hörmət, sədaqət, bir də səxavətimdir,
Ona olan insafım, bir də kəramətimdir.

Mənə şeir yazdıran, düşmənə nifrətimdir,
Qəzəbimdə qaynayan kinimdi, hiddətimdir,
Sinəmdə cövlan edən, ürəkdə riqqətimdir,
Bu vətənə, bu elə nəzərim, diqqətimdir.

Mənə şeir yazdıran, qəlbimdə niyyətimdir,
Pak fikirlər, düşüncə, dəyərim, qiymətimdir,
Ömürboyu məzmunum, mənamdı, hikmətimdi,
Varlığımda qanımdır, damarda xislətimdir.

***Cəmil Əkbər***

## 211. MƏNƏ ŞEİR YAZDIRAN

*III variant*

Mənə şeir yaz deyən, bu vətəndir, bu eldir,
Çəmənzarda lalələr, çiçəklərdir, bu güldür,
Bu çeşmələr, bu çaylar, axıb daşan bu seldir,
Əsib-coşan qasırğa, bu tufandır, bu yeldir.

Mənə şeir yazdıran, təravəti duymaqdır,
Nəcibliyi seyredib, məlahəti duymaqdır.
Ədəb-ərkan gözləyib, nəzakəti duymaqdır.
Gül-çiçəkdə ətiri, təravəti duymaqdır.[1148]

Mənə şeir yazdıran, məharətim olubdur,
Bacarığım fəhimim, cəsarətim olubdur,
Sinəmdəki eşq odu, hərarətim olubdur,
Öz xalqımdan soy alan, kəsarətim olubdur.

***Cəmil Əkbər***

---

[1148] *II variant* Mənə şeir yazdıran, dostlarımdır, yadımdır,
Sinəmdəki közərən, yanan-yanan odumdur,
Ədəb-ərkan bilməyim, nəzakəti duymaqdır,
Zərifliyi görməyim, məlahəti duymaqdır.

## 212. MƏN ŞERİMİ YAZMIŞAM Kİ…

*I variant*

*Mən şeirimi yazmışam ki,* masaüstü kitab olsun,
Ürəyimdən keçən sözlər, xalqımıza xitab olsun.
Oxuyanlar, eşidənlər, dərk eyləyib düşünsünlər,
Tüstüsünə kor olmasın, istisinə isinsinlər.
Düz eşidib anlasınlar, bu həyatın mənasını,
Sındırmasın könüllərdə məhəbbətin aynasını.
Zülmətlərə çevrilməsin, səadətin dünyasını.
İlqarsızlar ilqarlansın, vəfasızlar vəfalansın,[1149]
Özü üçün nəf götürsün, xəstədirsə şəfalansın.[1150]
İbrət alsın sərsərilər, əhli-keflər, divanələr,
Bədfikirli, bədniyyətli insanlığa biganələr.
*Mən şeirimi yazmışam ki,* bəslənilsin sədaqətlər,
Yer üzündən yox edilsin, kin-küdurət ədavətlər.
Sırğa olsun qulaqlarda, könüllərdə izi qalsın,
Həkk olunsun idraklara, əbədilik közü qalsın.[1151]
Dodaqlardan düşməyərək, diyar-diyar gəzə bilsin,
Əməllərdə yaşayaraq, əsrlərlə dözə bilsin.
Daş ürəklər, kəc xəyallar əriyərək muma dönsün,
Onun odlu təşnəsindən, sərt qayalar şuma dönsün.
Cuşa gəlsin hiss-həyəcan, ürəklərdən buz ərisin,
Bahar gəlsin, isti düşsün, donan qanlar tez ərisin.
Söhbət açsın doğruluqdan, uzaşmasın ədalətdən,
İnsanoğlu əl götürsün avamlıqdan, cəhalətdən.
Saralmasın yarpaq kimi utanmaqdan, xəcalətdən.
Bədəməldən, bəd işlərdən, bədniyyətdən, bəd halətdən.
Yersiz-yersiz söz-söhbətdən, al-qanımız qaralmasın,
Xəyanətdən, xəbislikdən, könül bağı saralmasın.
Mən istərdim sözlərimin əldə olsun nəticəsi,
Babaları qınamasın, nəvələri, kötücəsi.
*Mən şeirimi yazmışam ki,* mətləbimi anlasınlar,
Bu güzgüyə baxan kəslər, öz-özünü danlasınlar.
Sözlərimin hikmətindən ala bilsin nəsihəti,
İnsanoğlu törətməsin, xətaları, qəbahəti.

[1149] Hər oxuyub öyrənənlər özü üçün mənalansın.
[1150] Hikmətindən bezikməsin, xəstədirsə şəfalansın.
[1151] Məşəl olsun idraklarda, əbədilik közü qalsın.

*Mən şeirimi yazmışam ki,* cilasızlar cilalansın,
Törpüsüzlər törpülənsin, malasızlar malalansın.
Rəndəsizlər rəndələnsin, sığalsızlar sığallansın,
Dərs almayan dərsin alsın, kamalsızlar kamallansın,
Abırsızlar abırlansın, həyasızlar həyalansın.
İnsafsızlar insaflansın, mürvətsizlər mürvətlənsin,
Hörmətsizlər hörmətlənsin, qeyrətsizlər qeyrətlənsin.
Arxa olsun arxasıza, dayaq olsun dayaqsıza,
Sükan olsun sükansıza, mayaq olsun mayaqsıza.
Ürək olsun ürəksizə, dilək olsun diləksizə,
İnam olsun inamsıza, məslək olsun məsləksizə.
Əlacsıza əlac olsun, kimsəsizə kömək olsun,
Fəqirlərə süfrə açsın, çörəksizə çörək olsun.
Kölgə salsın kölgəsizə, o su olsun susuzlara,
İşıq saçsın kainata, günəş olsun günsüzlərə.
Mən istərdim şeirlərim pərvazlanıb qanadlansın,
Bəstəkarlar bəstələsin, neçə-neçə hava çalsın.
Məclislərdə oxuyaydı müğənnilər, xanəndələr,
Dinlədikcə həzz alaydı, sözqananlar, danəndələr.
Ləl-cəvahir, yaqut olub, üzüklərdə qaş olaydı,
Baş ağrıdan söz olunca, kara yetən daş olaydı.[1152]
Oxunmayan kitabtəki, o rəflərdə qalmayaydı,
Xəzan vurmuş çiçək kimi o saralıb, solmayaydı.
*Mən şeirimi yazmışam ki,* idraklarda pas atmasın,
İnsanoğlu öz qəlbində iblisləri yaşatmasın.
Hafizədən silinməsin, yaddaşlardan çıxmayaydı,
Əsəbləri korlayaraq, ürəkləri sıxmayaydı.
Kağızlara yazılınca, könüllərə yazılaydı,
Nəcib arzu-istəklərə, diləklərə yazılaydı.
*Mən şeirimi yazmışam ki,* kömək etsin bu xilqətə,
Yer üzündə son qoyula, bəd arzuya, bədniyyətə.
Şeir mənim dərrakəmin, ürəyimin atəşidir,
Pak arzumun, istəyimin, diləyimin günəşidir.
O səbəbdən yazmışam ki, sözüm qalsın bu dünyada,
Özüm getsəm o dünyaya, izim qalsın bu dünyada

***Cəmil Əkbər*** 1970

---

[1152] Karsız-karsız söz olunca, kara yetən daş olaydı.

## 213. MƏN ŞERİMİ YAZMIŞAM Kİ...

*II variant*

*Mən şeirimi yazmışam ki,* eşidənlər düşünsünlər,
Tüstüsündən kor olmasın, istisindən isinsinlər.
Doğru görüb, düz anlasın, həyatının mənasını,
Zülmətlərə çevirməsin bu səadət dünyasını.
Dərk eyləsin özü üçün, kəlməsindən mənalansın,
Hikmətindən bezikməsin, xəstədirsə şəfalansın.
Mən şeirimi yazmışam ki, ibrət alsın divanələr,
Mənasını duya bilsin söz-söhbətə biganələr.
*İstərdimki şeirlərim,* masa üstü kitab olsun,
Ürəyimdən keçən sözlər, xalqımıza xitab olsun.
Sırğa olsun qulaqlarda, könüllərdə izi qalsın,
Məşəl olsun idraklarda, əbədilik közü qalsın.
*Mən şeirimi yazmışam ki,* bəslənilsin sədaqətlər,
Yox edilsin yer üzündən, kin-küdurətlər ədavətlər.
Tükənməsin insaf-mürvət, daş ürəklər muma dönsün,
Sözlərimin təşnəsindən, sərt qayalar şuma dönsün.
Cuşa gəlsin hiss-həyəcan, ürəklərdən buz ərisin,
Bahar gəlsin, isti düşsün, donmuş qanlar tez ərisin,
*Mən yazmışam* sözlərimi ədalətdən, həqiqətdən,
İnsanoğlu əl götürsün avamlıqdan, cəhalətdən.
Bəd sözlərdən, əməllərdən, al-qanımız qaralmasın,
Paxıllıqdan, xəyanətdən könül bağı saralmasın.
Sözüm çatsın hər insana, əldə olsun nəticəsi,
Babaları qınamasın, nəvələri, kötücəsi.
*Mən şeirimi yazmışam ki,* cilasızlar cilalansın,
Törpüsüzlər törpülənsin, malasızlar malalansın.
Rəndəsizlər rəndələnsin, sığalsızlar sığallansın,
Dərs almayan dərs də alsın, kamalsızlar kamalansın.
İnsafsızlar insaflansın, mürvətsizlər mürvətlənsin,
Hörmətsizlər hörmətlənsin, qeyrətsizlər qeyrətlənsin.
*Mən şeirimi yazmışam ki,* cürətsizlər cürətlənsin,
Vicdansızlar vicdanlansın, məsləksizlər məsləklənsin.
İstədimki sözlərimdən ellər alsın nəsihəti,
İnsanoğlu törətməsin, xətaları, qəbahəti.
İstədimki çevrilməsin, mənsizliyə mənliyimiz,
Qarışmasın məyusluğa hər kefimiz, şənliyimiz.

*Mən şeirimi yazmışam ki,* xəstələrə şəfa versin,
Zalımlara xeyirxahlıq, vəfasıza vəfa versin.
Arxa olsun arxasıza, dayaq olsun dayaqsıza,
Sükan olsun sükansıza, mayaq olsun mayaqsıza.
Kölgə olsun kölgəsizə, o su olsun susuzlara,
İşıq saçsın işıqsıza, günəş olsun günsüzlərə.
*Mən şeirimi yazmışam ki,* xalqımıza gərək olsun,
Süfrəsizə süfrə açsın, çörəksizə çörək olsun.
Ürək olsun ürəksizə, dilək olsun diləksizə,
Qayğı olsun qayğısıza, kömək olsun köməksizə,
Ləl, cəvahir, yaqut olsun, üzüklərdə qaş olaydı,
Karsız-karsız söz olunca, kara yetən daş olaydı.
*Mən istərdim şeirlərim,* pərvazlanıb qanad alsın,
Bəstəkarlar bəstələsin, onun üstə hava çalsın.
Məclislərdə oxuyaydı, həm aşıqlar, xanəndələr,
Dinlədikcə həzz alaydı, sözqananlar, danəndələr.
Oxunmayan kitab kimi, o rəflərdə qalmayaydı,
Xəzan vurmuş kitab kimi, o saralıb, solmayaydı.
*Mən şeirimi yazmışam ki,* yaddaşlardan çıxmayaydı,
Xətirlərə dəyməyədi, könülləri sıxmayaydı.
Hissiləri oyadaydı, ürəklərə yol açaydı.
Xəyallarda yaşayaydı, idraklara yol açaydı.
Kağızlara yazılınca, ürəklərə yazılaydı,
Arzulara nəqş olaydı, diləklərə yazılaydı.
*Mən istərdim şeirlərim,* Kərəm kimi oda yansın,
Məcnun kimi çölə düşsün, Fərhad kimi qaya çapsın.
*Mən istərdim* sözlərimin sədaları elə düşsün,
Əzbər olsun dodaqlarda, şirin-şirin dilə düşsün.
Fikirlərim dərya kimi, dalğalansın, ləpələnsin,
O dolansın eldən-elə, mahal-mahal səpələnsin.
*Mən şeirimi yazmışam ki,* biz tanıyaq yerimizi,
Dostluq edib, qardaş olaq, tanıyaq yurd-yuvamızı.
Son qoyulsun qəsd-qərəzə, son qoyulsun caniliyə,
Son qoyulsun qal-qovğaya, bu nə dava, bu nə dalaş,
Ürəkləri qoy didməsin, nə həyəcan, nə də təlaş.
Son qoyulsun böhtanlara, son qoyulsun yalanlara,
Son qoyulsun iftiraya, son qoyulsun kalanlara.
Qoy yaşasın hərbir yerdə, ədalət də, həqiqət də,
İnsan oğlu qovrulmasın nə əziyyət, məşəqqətdə.

*Yazmışam ki,* şeirlərim, xeyir versin cəmiyyətə,
Yer üzündə son qoyulsun bəd arzuya, bədniyyətə.
Şeir mənim ürəyimin, dərrakəmin günəşidir,
Öz arzumun, istəyimin, diləyimin atəşidir.
O səbəbdən yazmışam ki, sözüm qalsın bu dünyada,
Özüm getsəm o dünyaya, izim qalsın bu dünyada.

***Cəmil Əkbər*** 1970

## 214. ÜRƏYİM

*I variant*

Saxta baxışlara, saxta gözlərə,
Əzəldən bəridir, yaddır ürəyim.
Saxta danışığa, saxta sözlərə,
Atəşdir, alovdur, oddur ürəyim.[1153]

Doğulmuşdur gözəl eldən, obadan,[1154]
Halal evdən, halal yurddan, yuvadan,
Mərd atadan, mərd anadan, babadan,
Yadigardır bir nişandır ürəyim.

Yaralıdır xainlərin əlindən,
Nanəcibin, xəbislərin dilindən,[1155]
İnsafsızın, mürvətsizin felindən,
Od vurmadan alışandır ürəyim.

Haqq-sayı unudanı görəndə,[1156]
Azqınlaşıb quduranı görəndə,
Acgözləri, qansoranı görəndə,
Kədərlidir, pərişandır ürəyim.

---

[1153] *II variant* Saxta oturmağa, saxta durmağa,
Əzəl bir günündən yaddır ürəyim.
Saxta yaratmağa, saxta qurmağa,
Yandıran atəşdir, oddur ürəyim.

[1154] 1) O yaranıb gözəl eldən, obadan. 2) O doğulub gözəl eldən, obadan,
[1155] 1) Mərdimazar fitnəsindən, dilindən. 2) Nanəcibin, naqislərin dilindən.
[1156] Həyasızı, quduranı görəndə.

Vaxt olubki yetişməyib, kal durub,
Günlər keçib, aylar ötüb, il durub,
Danışmayıb, dillənməyib, lal durub,
Vaxt olubki danışandır ürəyim.

Bağban olan çəkə bilsə hasarı,
Könül çəkməz nə qüssəni, qübarı,
Xoş keçərsə könüllərin baharı,
Gülü solmaz gülüşandır ürəyim.[1157]

Bəşər övladına səxavətlidir,
İnsaflı, mürvətli, kəramətlidir,
Onun düşməninə ədavətlidir,
Öz təmiz qanıyla şaddır ürəyim.

Vaxt olubki o yatmayıb, oyanıb,
Bulaq kimi öz kökündən qaynayıb,
Gah yorulub, gah süstləşib dayanıb,
Vaxt olubki dağ aşandır ürəyim.

Heyran olub cəsarətə, qeyrətə,
Çatanmadı xəyaldakı sürətə,
Könül verdi ləyaqətli sənətə,
Şair olub, söz qoşandır ürəyim.[1158]

Şər danışıb, bədəməllər tutmayıb,[1159]
Böhtan deyib, aralığı qatmayıb,[1160]
Ev yıxmaqla məqsədinə çatmayıb,
Yaşadandır, yaşayandır ürəyim.[1161]

---

[1157] *II variant* Halal zəhmət ilə mayalanıbdır,
Məsləkdən, vicdandan qayələnibdir,
Xalqını sayıbdır, həyalanıbdır,
Gülü solmaz gülüşandır ürəyim.

[1158] *II varriant* Əhsən dedi cəsarətə, qeyrətə,
1)İdrakdakı xəyaldakı sürətə, 2) Heyran qaldı xəyaldakı sürətə,
1) Sazımdakı, tarımdakı sənətə, 2) Meyl verdi saza, sözə, sənətə,
Şair olub, söz qoşandır ürəyim.

[1159] 1) Üzü ağdır, bədəməllər tutmayıb, 2) Mərd insanı namərdlərə atmayıb,

[1160] Şər danışıb, aralığı qatmayıb.

[1161] Yaradandır, yaşadandır ürəyim.

Uymamışdır varın azı, çoxuna,
Fərq qoymamış uzağına, yaxına,
Qoşulmayıb hər cəryana, axına,
Bəşər üçün çarpışandır ürəyim.

Halal süddən qidasını alıbdır,
Uca dağdan ədasını alıbdır,
Məhəbbətdən sevdasını alıbdır,
Eşq əhlinə aşiyandır ürəyim.

Xəyanətlər qəsdimizə girməsə,
Oğrun-oğrun məhəbbəti dərməsə,
İnsanlardan vəfasızlıq görməsə,
Haqq yolunda zərəfşandır ürəyim.

***Cəmil Əkbər*** 1972

**215. ÜRƏYİM**

*II variant*

Saxta danışığa, saxta sözlərə,[1162]
Əzəldən biganə, yaddır ürəyim.
Saxta astarlara, saxta üzlərə,
Çatılmış ocaqdır, oddur ürəyim.

Mən olmuşam gözəl eldən, obadan,[1163]
Halal yurddan, halal evdən, yuvadan,
Mərd babadan, mərd atadan, anadan,
Yadigardır bir nişandır ürəyim.

Yaralıdır xainlərin dilindən,[1164]
İnsafsızın, mürvətsizin əlindən,
Mərdimazar fitnəsindən, felindən,
Od vurmamış alışandır ürəyim.

Haqq-sayı unudanı görəndə,
El varından quduranı görəndə,
Zəli kimi qansoranı görəndə,
Kədərlidir, pərişandır ürəyim.

---

[1162] Saxta, yalan danışığa, sözlərə.
[1163] Mən gəlmişəm gözəl eldən, obadan.
[1164] Yaralıdır xoryadların dilindən.

El xeyrinə yummayıbdır gözünü,[1165]
Çox deyibdir deyiləsi sözünü,
Yeri gəlsə qurban verər özünü,
Xeyir-şərə qarışandır ürəyim.

Bəşər övladına səxavətlidir,
Xeyirxah kəslərə xoş niyyətlidir,
Zalıma, qansıza ədavətlidir,
Elin şərəfinə şaddır ürəyim.[1166]

Heçkəs ürəyimi daş anlamasın,[1167]
Onu kəc görməsin, çaş anlamasın,
Sevgiyə biganə, boş anlamasın,
Narahatdır, canfəşandır ürəyim.

Eşqin-məhəbbətin divanəsidir,
Bəd sözün, bəd fikrin biganəsidir,[1168]
Bütün varlığımın dürr danəsidir,[1169]
Şərəfdir, şöhrətdir, şandır ürəyim.

Vaxt olubki o yatmayıb, oyanıb,
Od-ocaqsız dəmə düşüb, qaynayıb,
Vaxt olubki o yorulub, dayanıb,
Vaxt olubki dağ aşandır ürəyim.

Gah döyünür, gah çırpınır, gah vurur,
Gah açılır, gah yumulur, gah sorur,
Gah yaradır, gah dağıdır, gah qurur,
Yolgöstərən kəhkəşandır ürəyim.[1170]

---

[1165] El xeyrinə yummamışdır gözünü.
[1166] *II varriant* Xalqıma sadiqəm, səxavətliyəm,
İnsanam insana xoş niyyətliyəm.
1) Onun düşməninə ədavətliyəm. 2) Zalıma, qatilə ədavətliyəm,
Elin şərəfinə şaddır ürəyim.
[1167] İnsafsız qəlbimi daş anlamasın.
[1168] Bəd işin, bəd sözün biganəsidir.
[1169] Atanın, ananın dürdanəsidir.
[1170] Həyatımda kəhkəşandır ürəyim.

Vurulubdur cəsarətə, qeyrətə,
Heyran qaldı xəyaldakı sürətə,
Meyl verdi dönə-dönə sənətə,
Şair olub, söz qoşandır ürəyim.

Nəs danışıb, bədəməllər tutmayıb,
Şər danışıb, aralığı qatmayıb,
Ev yıxmaqla məqsədinə çatmayıb,
Yaradandır, yaşadandır ürəyim.

Düşünür, dərk edir, yorulur müdam?
Şirətək çəkilib, sorulur müdam?
Çalxanıb, bulanıb durulur müdam?[1171]
Küsməmişdən barışandır ürəyim.

İnsanoğlu atmasaydı ilqarı,
O çəkməzdi qəm-qüssəni, qubarı,
Xoş keçdikcə könüllərin baharı,
Gülü solmaz gülüşandır ürəyim. [1172]

***Cəmil Əkbər*** 1972

**216. ÜRƏYİM**

*III variant*

Ədalətin, həqiqətin yolunda,
Ülviyyətin, qüdsiyyətin yolunda,
Pak arzunun, saf niyyətin yolunda,
Nə dincəldi, nə dayandı ürəyim.

Kamalsıza, yelbeyinə, nə gicə,
Kələkbaza, hiyləgərə, nə bicə,
Sərsəriyə, dəngəsərə, bivecə,[1173]
Nə arxadı, nə həyandı ürəyim.

---

[1171] 1)Min dəfə bulanıb, durulur neylim? 2) Çalxanıb dərya tək durulur neylim?

[1172] *II variant* 1)İnsanoğlu əymədikcə vüqarı, 2) Ömürboyu atmayıbdır ilqarı,
1) Çəkmədikcə qəm-qüssəni, qübarı. 2) Verməyibdir kimsələrə qubarı.
Xoş keçdikcə könüllərin baharı,
Gülü solmaz gülüşandir ürəyim.
*III variant* 1)İnsanoğlu atmasaydı ilqarı, 2) Ömürboyu atan deyil ilqarı.
1) O çəkməzdi qəm-qüssəni, qubarı, 2) Verməmişdir kimsələrə qübarı.
Xoş keçdikcə könüllərin baharı,
Gülü solmaz gülüşandır ürəyim.

[1173] Sərsəriyə, fərsizlərə, bivecə.

O duysaki qəflətlərdə yatmışam,
Yaxşıya-pis, pisə-yaxşı qatmışam,
İnsafımı, vicdanımı atmışam,[1174]
Adil hakim, haq-divandı ürəyim.[1175]

Kəc fikirlə kim doldursa başını?
Zülm eyləyib töksə xalqın yaşını?
Ətəyindən tullamasa daşını?[1176]
Əzmək üçün bir zindandır ürəyim.

Lovğalanıb o çəkməyib özünü,
Od vurmağa yandırmayıb közünü,
Qəddi büküb, qatlamayıb dizini,
Yenilməyən pəhləvandır ürəyim.

Onun öz dağı var, öz aranı var,
Özünün aləmi, öz dövranı var,[1177]
Tufanı, çovğunu, öz boranı var,[1178]
Gah dağ-daşdır, gah arandır ürəyim.[1179]

Uca dağdan ədasını alıbdır,
Eysüd əmib, qidasını alıbdır,
Məhəbbətdən sevdasını alıbdır,
Kainatdır, asimandır ürəyim.[1180]

Qaranlıq gecədə parlaq bir ayam,
Dağlardan süzülən şəffaf bir çayam,
İnsanam-insanla dostam, arxayam,
Acı da, şirin də, daddı ürəyim.

Yaxını seyr etdi, uzağı gördü,
Tufanı, boranı, sazağı gördü,
Zalımın əlində yazığı gördü,
Alovlar içində yandı ürəyim.

---

[1174] Vicdanımı, məsləkimi satmışam.
[1175] Eləbilki  haq-divandı ürəyim.
[1176] 1) Ətəyində saxlayarsa daşını. 2) Ətəyindən tullamazsa daşını.
[1177] Onun öz həyatı, öz dövranı var.
[1178] Onun öz çovğunu, çalpoy, qarı var.
[1179] Gah tufandır, gah borandır ürəyim.
[1180] 1) Ənginlikdi, asimandı ürəyim. 2) Əl çatmayan asimandı ürəyim.

Gəzdi könülləri, duydu qəlbləri,
Gördü əzabları, gördü dərdləri,
Sevdi igidləri, sevdi mərdləri,
Namərdi biryolluq dandı ürəyim.

Yerli-yersiz danışmayıb, dinməyib,
İstəyindən əl çəkməyib, dönməyib,
Martenatək hərarəti, sönməyib,[1181]
Alovludur, çıraqbandı ürəyim.

Bədəməl törətmir, yarpaqtək əsmir,
İnciyir insandan, biryolluq küsmür,
Göz ilə görülmür, hər ağıl kəsmir,
Kəşf olmamış bir cahandı ürəyim.

Yaşatmaqdı, yaratmaqdı niyyəti,
Pak arzu, xoş əməllərdi şöhrəti,
Etiqaddı, etimaddı neməti,
Mərhəmətli, mehribandı ürəyim.[1182]

***Cəmil Əkbər*** 1972

**217. ÜRƏYİM**

*IV variant*

Xoş arzunun, pak niyyətin yolunda,
Sədaqətin, səxavətin yolunda,
Xeyirxahlıq, ləyaqətin yolunda,
Nə dincəldi, nə dayandı ürəyim.

Nə fitnəyə, nə böhtana, nə şərə,
Nə altuna, nə sərvətə, nə zərə,[1183]
Dönə-dönə səslədilər min kərə,
Nə ayıldı, nə oyandı ürəyim.

---

[1181] İşığı sönməyib, nuru sönməyib.

[1182] *II variant* Müqəddəsdir hər arzusu, niyyəti,
Etibardı, etiramdı neməti,
Səbəb odur ellər verir qiyməti,
Mərhəmətli, mehribandı ürəyim.

[1183] Nə altuna, nə daşqaşa, nə zərə.

Kəmağıla, yelbeyinə, nə gicə,
Hiyləgərə, kələkbaza, nə bicə,
Arsızlara, karsızlara bivecə,[1184]
Nə arxadı, nə həyandı ürəyim.

Nəzamanki mən qəflətdə yatmışam,
Pisə yaxşı, yaxşıya pis qatmışam.
Gördükdəki insafımı atmışam?
Bir hakimdi, haq-divandı ürəyim.

Bədəsilin, bədnəzərin gözündən,
Abırsızın, ismətsizin üzündən,
Nadanların, cahillərin sözündən,
Deşilmiş pətəkdi, şandı ürəyim.[1185]

Vaxt olubki yetişməyib, kal durub,
Günlər keçib, aylar ötüb il durub,
Danışmayıb, dillənməyib, lal durub,
Gah qaynayıb, gah daşandı ürəyim.

Ülvi bir istəklə döyünür, vurur,
Vətənin eşqilə yaradıb qurur,
Xeyirxah əməllə özünü yorur,
Sərrafına gövhər-kandı ürəyim.

Dostlar ürəyimi daş anlamasın,
Düz baxıb, düz görsün, çaş anlamasın,
Sevgi-məhəbbətsiz boş anlamasın,
Sevib-seviləndi, candı ürəyim.

Sevgi, məhəbbətin divanəsiyəm,
Bəd sözün, bəd işin biganəsiyəm,
Bəşər övladının dürdanəsiyəm,
Şərəfdi, şöhrətdi, addı ürəyim.

---

[1184] Karsızlara, müqəvvaya bivecə.
[1185] Eləbil pətəkdi, şandı ürəyim.

Ellər məni nəzərindən qoymasın,
Sözlərimdən bezikməsin, doymasın,
Nə vəfasız, etibarsız saymasın,
Axtarandı, arayandı ürəyim.[1186]

Yaxşı, pisə o yummayıb gözünü,
Açıq demiş deyiləsi sözünü,[1187]
Büdrəməyib, qatlamayıb dizini,[1188]
Yenilməyən pəhləvandı ürəyim.

Onun öz dağı var, öz aranı var,
Onun öz gərdişi, öz dövranı var,[1189]
Tufanı, çovğunu, öz boranı var,[1190]
Gah dağ-daşdı, gah arandı ürəyim.[1191]

Qan qaraldıb, evlər yıxan insana,
Qəlbə dəyib, ürək sıxan insana,[1192]
Ləyaqətə qənim çıxan insana,[1193]
Barışmayan bir düşməndi ürəyim.

Qaranlıq gecədə bədirli ayam,
Atadan, anadan halaldır mayam,
Dağlardan yön alan şəffaf bir çayam,
Acı da, şirin də, daddı ürəyim. [1194]

---

[1186] *II variant* Ellər onu nəzərindən qoymasın,
Usanmasın, bezikməsin, doymasın,
1) Etibarsız, etiqadsız, saymasın. 2) Etibarsız, nə ilqarsız saymasın,
Yada salıb soruşandı ürəyim.

[1187] Açıq demiş, gizlətməmiş sözünü,

[1188] 1) Həyatında qatlamayıb dizini. 2) Qəddi büküb, qatlamayıb dizini.

[1189] Özgə bir aləmi, öz dövranı var.

[1190] Özünün tufanı öz boranı var.

[1191] Gah yaradan, gah qurandır ürəyim.

[1192] Zəhlə töküb ürək sıxan insana.

[1193] İnsanlığa xain çıxan insana.

[1194] *II variant* Halaldan kəsb olub mayası onun,
Zəhmət adamıdır dayəsi onun,
İnsanlıq olubdur qayəsi onun,
Acı da, şirin də, daddı ürəyim.

Minsifətli, minüzlülər görəndə,[1195]
Kəcbaxışlı, kəcgözlülər görəndə,[1196]
Mindillilər, minsözlülər görəndə,
Nə anladı, nə də qandı ürəyim.

Eşidib dərk etdi, duydu qəlbləri,
Çəkdi əzabları, gördü dərdləri,
Bu cahan mülkündə sevdi mərdləri,
Namərdi biryolluq dandı ürəyim.

Yaxını seyr etdi, uzağı gördü,
Tufana qərq oldu, sazağı gördü,
Zalımlar əlində yazığı gördü,
Alovlar içində yandı ürəyim.[1197]

İşi başqa, sözü başqa görəndə,
Astarı üz, üzü başqa görəndə,
Əyrini düz, düzü başqa görəndə,
Toxunub dəyməmiş sındı ürəyim.

Bədxahlar əlindən kədər, qəm yedi,
Zil ötmədi, pəsə düşdü, bəm yedi,
Arzusundan doyanmadı, kəm yedi,
Nə ac qaldı, nə də doydu ürəyim.[1198]

---

*III variant* Çoxuna yetibdir sayəsi onun,
Əqidəsi onun, qayəsi onun,
Beylə təlim verib dayəsi onun,
Acı da, şirin də, daddı ürəyim.

[1195] Min astarlı, min üzlülər görəndə.

[1196] Min baxışlı, min gözlülər görəndə.

[1197] *II variant* Seyr edib yaxını, uzağı görür,
Boranı, tufanı, sazağı görür,
Zalımlar əlində yazığı görür,
Alovlar içində yandı ürəyim.

*III variant* Dərindən düşündü, uzağı gördü,
Tufanlar görəndə sazağı gördü,
Zalımdan usanan yazığı gördü,
Alovlar içində yandı ürəyim.

[1198] *II variant* 1) Haqsızlıq gördükcə kədər, qəm yedi, 2) Vaxt olub ki, qüssə, kədər, qəm yedi.
3) Vaxt olub ki, dərd əlindən qəm yedi.
Zil ötməyib, pəsə düşüb, bəm yeyib,
Arzusundan doyanmayıb kəm yeyib,
Nə ac qaldı, nə də doydu ürəyim.

Yola salıb cavanlığın çağını,
Süzüb yemir ürəklərin yağını,
Peyvənd edir könüllərin bağını,
Dünyagörmüş bir bağbandı ürəyim.[1199]

Onun öz qüruru, öz ədası var,
Özünün istəyi, öz sevdası var,
Onun öz yemi var, öz qidası var,
Kim deyərki qansorandı ürəyim?

Yaşatmaqdı, yaratmaqdı niyyəti,
Ülviyyətdi, qüdsiyyətdi şöhrəti,
Etibardı, ehtiramdı neməti,
Səmimidi, mehribandı ürəyim.[1200]

İlham alır obasından, elindən,
Söz öyrənir ariflərin dilindən,
O çıxıbdır kamil insan əlindən,
İndi özü bir ustaddı ürəyim.[1201]

Könül uymur varın azı-çoxuna,[1202]
Fərq qoymayır uzağına, yaxına,
Qoşulmayır hər cəryana, axına,
Bəşər üçün çırpınandı ürəyim.[1203]

---

[1199] Dünyagörmüş pasibandır ürəyim.

[1200] *II variant* Yaşatmaqdı, yaratmaqdı niyyəti,
Saf arzudu, pak əməldi şöhrəti,
Etiqaddı, ehtiramdı neməti,
Vətən üçün mehribandı ürəyim.

[1201] *II variant* İlham aldım vətənimdən, elimdən,
Söz öyrəndim ariflərin dilindən,
Mən çıxmışam kamil insan əlindən,
Şəyirdlərə bir ustaddı ürəyim.

[1202] O uymamış varın azı-çoxuna.

[1203] *II variant* Arsız-arsız danışmayıb, gülməyib,
İstəyindən, arzusundan dönməyib,
Əvvəlkitək alovludu, sönməyib,
Çilçıraqdı, çıraqbandı ürəyim.

Qırılşlar düşsə də alına, üzə,
Eynəklər taxsa da görməyən gözə,
Yaşım yetişsə də doxsana, yüzə,[1204]
Eləbilki növcavandı ürəyim.

Bahar gəlsin xalısını toxusun,
Gül-çiçəyin ətirləri qoxusun,
Cəmilin qəlbini ellər oxusun,
Oxunmamış bir dastandı ürəyim.

***Cəmil Əkbər*** 1972

### 218. ÜRƏK VAR

*H İ K M Ə T N A M Ə*

Ürək varki  ürəklərin naxışıdır,
Ürək də var, daş da ondan yaxışıdır.
Ürək varki dolanasan başına,
Peyvənd olub calanasan döşünə.
Həmişə, həryanda görsən yaxşıdır,
Bağından gül-çiçək dərsən yaxşıdır.
Dinləyib eşitsən həmişə onu,
Düzələr işlərin, xoş gələr sonu.

Ürək var yanından qaçmağın gəlir,
Durmayıb, uzağa köçməyin gəlir.
Ürək var yaşayıb qocalasıdır,
Zirvədən-zirvəyə ucalasıdır.
Hünərlər göstərib, bac alasıdır.
Zəfərlər çalaraq tac alasıdır.

Ürək varki ürəklərin başıdır,
Üzüklərin zümrüdüdür, qaşıdır.
Ürək də var, yaranandan naşıdır,
İnsanlığa qənim çıxıb, vəhşidir.
Hələ qönçə ilkən solsa yaxşıdır,
Dünyaya gəlmədən ölsə yaxşıdır.

---

[1204] Yaş çatsada səksən, doxsan, ya yüzə.

Ürək var şərəfdi, şərafətdi o,
Ətiri-gülüstan, təravətdi o.
Ürək var gözəldir, ürək var çirkin,
Ürək var sadədir, ürək var xudbin.
Ürək var dərd çəkir, ürək var nikbin,[1205]
Ürək var şad-xürrəm, ürək var qəmgin.[1206]
Şan-şöhrətdi, şərafətdi insana,
Gözəllikdi, ləyaqətdi insana.

Ürək varki məhəbbətlə doludur,
Sədaqətlə, səxavətlə doludur,
İnsaf-mürvət, kəramətlə doludur.
Ehtiramla, mərhəmətlə doludur.
Ədəb-ərkan, mərifətdi amalı,
Xeyirxahlıq, fəzilətdi amalı.
İnsanlıqdı, ləyaqətdi amalı,
Doğru-düzlük, həqiqətdi amalı,
Zəriflikdi, məlahətdi amalı.
Əbədi yaşayıb qalsa yaxşıdır,
Çalxanıb dəryatək dolsa yaxşıdır.
Əbədi var olub dursa yaxşıdır,[1207]
Yaşayıb, yaradıb qursa yaxşıdır.

Ürək var bizimlə olsa yaxşıdır,
Durub yanımızda qalsa yaxşıdır.
Danışıb hərzaman dinsə yaxşıdır,
Qıratı, Düratı minsə yaxşıdır,

Ürək də var qəbahətlə döyünür,
Kin-küdurət, ədavətlə döyünür.
Avamlıqla, cəhalətlə döyünür,
Paxıllıqla, xəyanətlə döyünür.
El içində xəcalətlə dolanır,
Alçaqlıqla, rəzalətlə dolanır.

---

[1205] Ürək var qəmgindir, ürək var nikbin.
[1206] Ürək var şad-xürrəm, ürək var bədbin.
[1207] Əsrdən-əsrə dursa yaxşıdır.

Paxıllıqdır, xəbislikdir peşəsi,
Nanəciblik, naqislikdir peşəsi.
Tamahkarlıq, hərislikdir peşəsi,
Bədxahlıqdır, ya pislikdir peşəsi.
Zirvədən aşağı ensə yaxşıdır,
Qaralıb, qarsıxıb sönsə yaxşıdır.
Dinib-danışmayıb sussa yaxşıdır,
Yeyib-içdiyini qussa yaxşıdır.

Ürək var biryolluq dayanasıdır,
Qərq olub al-qana boyanasıdır.
Ürək var əbədi qalması eydir,
Həmişə bizimlə olması eydir.
El-obaya, məhəbbətdən güc alıb,[1208]
İnsanlıqdan ləyaqətdən, güc alıb.
Ədəb-ərkan, nəzakətdən güc alıb,
Sağlam arzu, saf niyətdən güc alıb.
Bu mənayla, bu hikmətlə döyünür,
Bu təpərlə, bu riqqətlə döyünür.
Bu nicatla, bu nüsrətlə söyünür.

Ürək var, ürəklər calanasıdır,
Xoş arzu-istəklər calanasıdır.
Ürək var, kef ilə dolanasıdır.
Ürək var daima dursa yaxşıdır,
Hər zaman yaradıb qursa yaxşıdır.
Ürək var, dağılıb, talanasıdır,
Çatılıb ocaqda qalanasıdır.
Ürək var, biryolluq dayanasıdır,
Al-qana qərq olub bulanasıdır.

***Cəmil Əkbər*** 1.02-1994

[1208] Eşq-həvəs, məhəbbətdən güc alıb.

## 219. VƏHDƏTİNİ AXTARIRAM

Amalınla amalımın,
Kamalınla kamalımın,
Camalınla camalımın,
Vəhdətini axtarıram.

Sənətinlə sənətimin,
Qismətinlə qsmətimin,
İsmətinlə ismətimin,
Vəhdətini axtarıram.

Naxışınla naxışımın,
Baxışınla baxışımın,
Günəş kimi çıxışımın,
Vəhdətini axtarıram.

Əməlinlə əməlimin,
Təməlinlə təməlimin,
Sürətinlə sürətimin,
Vəhdətini axtarıram.

Dəyərinlə dəyərimin,
Qiymətinlə qiymətimin,
Zinətinlə zinətimin,
Vəhdətini axtarıram.

Xislətinlə xislətimin,
İsmətinlə ismətimin,
Hikmətinlə hikmətimin,
Vəhdətini axtarıram.

Duruşunla duruşumun,
Qaçışınla qaçışımın,
Uçuşunla uçuşumun,
Vəhdətini axtarıram.

Əsilinlə-əsilimin,
Nəsilinlə-nəsilimin,
Fəsilinlə fəsilimin,
Vəhdətini axtarıram.

Ürəyinlə-ürəyimin,
Biləyinlə-biləyimin.
Diləyinlə-diləyimin,
Vəhdətini axtarıram.

Küləynlə-küləyimin.
Lələyinlə-lələyimin,
Ələyinlə-ələyimin.
Vəhdətini axtarıram.

Obamızla-obamızın,
Yurdunuzla-yurdumuzun,
Yuvanızla-yuvamızın,
Vəhdətini axtarıram.

Sözlərinlə-sözlərimin,
Gözlərinlə gözlərimin,
Közlərinlə-közlərimin.
Vəhdətini axtarıram.

Dağlarınla-dağlarımın,
Bağlarınla-bağlarımın,
Tağlarınla-tağlarımın.
Vəhdətini axtarıram.

Xətirinlə-xətirimin,
Hörmətinlə-hörmətimin.
Mürvətinlə mürvətimin,
Vəhdətini axtarıram.

Yoldaşınla-yoldaşımın,
Qardaşınla-qardaşımın,
Sirdaşınla-sirdaşımın,
Vəhdətini axtarıram.

Qüvvətinlə, qüvvətimin,
Qüdrətinlə-qüdrətimin,
Cürətinlə-cürətimin,
Vəhdətini axtarıram.

Təməlinlə-təməlimin,
Əməlinlə-əməlimin,
Səmərinlə-səmərimin,
Vəhdətini axtarıram.

Gərdişinlə gərdişimin,
Vərdişinlə vərdişimin,
Adətinlə adətimin,
Vəhdətini axtarıram.
Tapanmıram, tapanmıram.

***Cəmil Əkbər*** 1970

## 220. MƏN GÖZƏLLİK AXTARIRAM

*Mən gözəllik axtarıram,* insanların ürəyində,
Hər sözündə-söhbətində, məramında-diləyində.
*Mən gözəllik axtarıram,* zəmanənin gərdişində,
Bütün bəşər övladının əməlində, vərdişində.
*Gözəlliyi axtarıram,* hər insanın zəhmətində,
Hərkəsdənin zəhmətində, bəşər üçün xidmətində.
Axtarıram, axtaracam oturmaqda, durmaqda da,
Zəhmət çəkib tər tökməkdə, yaratmaqda, qurmaqda da.
*Mən gözəllik axtarıram,* hərbirkəsin kamalında,
Vicdan, məslək, əqidədə, düşüncədə, amalında.
*Mən gözəllik axtarıram,* yerdə-göydə, kainatda,
El-obada, şəhər, kənddə, nəki varsa cəmaətdə.
Axtarıram, axtaracam dünəndə də, bugündə də,
Hər məclisdə, əyləncədə, hər toylarda, düyündə də.
*Mən gözəllik axtarıram*, dəftərlərdə, kitablarda,
Hər qərarda, hər hökümdə, xalqımıza xitablarda.
Axtarıram, axtaracam hərzamanda, hər məkanda,
Alanlarda, satanlarda, hər bazarda, hər dükanda.
*Mən gözəllik axtarıram,* yolumuzda, izimizdə,
Fikirlərdə, xəyallarda, işimizdə, sözümüzdə.
Axtarıram, axtaracam seyrə dalıb yerdə, göydə,
Hər ölkədə, hər diyarda, harda varsa hərbir evdə.
*Mən gözəllik axtarıram,* arzularda, əməllərdə,
Əsillərdə, nəsillərdə, hərbir kökdə, təməllərdə.
*Mən gözəllik axtarıram,* cavanda da, qocada da,

Mövqeyində kiçiklərdə, adda-sanda ucada da.
*Mən gözəllik axtarıram,* qəlbimizdə, gözümüzdə,
Yaxın-uzaq hərnəvarsa, özgələrdə, özümüzdə.
Gözəlliyi axtaracam obamızda, elimizdə,
Bağ-bağçamda, tarlamızda, çəmənimdə, çölümüzdə.
Axtarıram, arayıram enişdə də, yoxuşda da,
Fəhimlərdə, diqqətlərdə, nəzərlərdə, baxışlarda.
Axtarıram, axtaracam təbəssümdə, gülüşdə də,
Ünsiyətlərdə-ülfətlərdə, gedişlərdə, gəlişdə də.
Gözəllikdən doyanmıram, yaman acgöz yaranmışam,
Çirkinliyə nifrətim var, yaman dargöz yaranmışam.
İnsanlarda gözəlliyi, lətafəti axtarıram,
Ədəb-ərkan, mərifəti, nəzakəti axtarıram.
Tərqönçədə ətir verən mən təravət axtarıram,
Ürəklərə sığınaraq mən hərarət axtarıram.
Yerdə-göydə, asimanda mən ləyaqət axtarıram,
Ülvü sevgi, ülvü-istək, mən məhəbbət axtarıram.

***Cəmil Əkbər*** 27. 08-1990

## 221. MÜƏLLİMİM

*İ. Kərəvəliyevə ithaf edirəm*

*I variant*

Əziz müəllimim, ey nəcib insan,[1209]
Nəqədər doğmasan, nə mehribansan?[1210]
Mən səni duyduqca coşur ilhamım,
Artır etiqadım, artır inamım.
Mən səndən öyrəndim danışmağı da,
Həm xeyrə, həm şərə qarışmağı da.
Mən səndən almışam ləyaqətimi,
Fəhmi-fərasəti, məharətimi.
Səndən güc almışam, qüvvət almışam,
Müəllim olmuşam, şöhrət almışam.
Mən səndən almışam vüqarımı da.
Əhdimi, vəfamı, ilqarımı da.
Sənin zəhmətinlə açıldı gözüm,

[1209] Ey əziz müəllim, ey nəcib insan.
[1210] Sən mənə doğmasan, nə mehribansan?

Yayıldı ellərdə, çəkildi sözüm.
Oyandı idrakım, oyandı hissim,
Oyandı millətim, oyandı irsim.
Qüdrətin qüvvətin dağlar qədərdir,
Tükənməz meyvəli bağlar qədərdir.
Sənin zəhmətinlə kamala yetdik,
Əqidə, məsləkə, amala yetdik.
Ellərdə, obada tanına bildik,
Hünər meydanında sınana bildik.
Sənin əməlinlə güldü qəlbimiz,
Sevdi ürəyimiz, vurdu nəbzimiz.
Sən ki, gözümüzün nuru olmusan,
Çeşmətək tərtəmiz duru olmusan.
Sənsiz nə şagird var, nə tələbə var,
Nə hünər, nə zəfər, nə qələbə var.
Zəfərdən-zəfərə göndərən sənsən,
Xəyal aləmini döndərən sənsən.
Müəllim, müqəddəs bir ülviyətsən,
Gözəllik, nəciblik, bir qüdsiyyətsən.
Müəllim, sözünə qulaq asmayan,
Getdiyin yollara ayaq basmayan.
Ömürlük kal qaldı, yetişənmədi,
Yarış meydanında ötüşənmədi.
Nə düşündü, nə anladı, nə qandı,
Nə alışdı, nə yandırdı, nə yandı.
Şimal buzu kimi əriyənmədi,
Elmin dünyasında görünənmədi.
Nə hünər göstərdi, nə ad qazandı,
Nə qohum, əqrəba, nə yad qazandı.
Kimki əllərinlə sulananmadı?
Cücərib, boy atıb, ucalanmadı.
Müəllim, günəşlə yanaşı durdun,
Dağlarla üz-üzə, baş-başa durdun.
Günəş təbiətə işıq saçdısa,
Sən isə zəkaya işıq saçmısan.
Günəş təbiətə nicat verdisə,
Sən isə bəşərə həyat vermisən.
Günəş qabağını bulud aldısa,
Sənin qabağını nadanlar aldı.

Sən bizə öyrətdin hər “izmləri”,
Min bir sifətlini, min üzlüləri.
Mən səndən öyrəndim dosta hörməti,
Düşmənə qəzəbi, kini, nifrəti.
Mən səndən öyrəndim ucalmağı da,
Saçına ağ düşüb qocalmağı da.
Yaşa ey əzizim, yaşa ey ata,
Müqəddəs arzuna hey çata-çata.
Qəm yemə əzizim, qocaldım deyə,
Tərlan qocalsa da, meyl edər göyə.
Sənki müəllimlər müəllimisən,
Bizimtək minini sən yetirmisən.
Həyatda getməyə yol göstərmisən,
Elmindən, bilgindən bol göstərmisən.
Minlərlə ürəkdə sözün qalıbdır,
Savab əməllərin, izin qalıbdır.
Sənin zəhmətinlə çatdıq murada,
Hərbir ləyaqətə, şöhrətə, ada.
Baxdın uzaqları, gördün dərini,
Əfsuski tutmadın bəzən yerini.
Səd heyif əzizim dediklərini,
Oxuyub, öyrənib, bildiklərini,
Dərk edib, anlayıb bilməyən də var,
Göstərdiyin yolla gəlməyən də var.
Heyifki, duymayan, qanmayan da var,
Qəlbinin oduyla yanmayan da var.
Yazıq o kəsə ki, dərs alanmadı,
Özü ölüb getdi, iz salanmadı.
Nə edək əzizim belədir qayda?
Yaxşı, yaman da var fani dünyada.
Günəş də, işıq da, qaranlıq da var,
Yaxşılıq yanında yamanlıq da var.
Sən məslək etmisən yaxşılıqları,
Görmək istəmədin naşılıqları.
Səni yetirmişdir bizim əsrimiz,
Doğma ata kimi sevir qəlbimiz.
Elmin sobasında qaladın bizi,
Peyvənd eyləyərək caladın bizi.
Tutub qolumuzdan qaldıra bldin,

Bizi də özünə çatdıra bildin.
Başından-başıma calaq vermisən,
Bilik öyrətmisən, elm vermisən.
Kaşki, müəllimim mənim də səntək,
Qəlbimdə iz sala xoş arzu, istək.
Sənintək uzağı görə biləydim,
Borucmu qaytarıb verə biləydim.
Bizim qolumuzdan tutduğun kimi,
Dar gündə dadıma çatdığın kimi,
Kaşki qollarından tuta biləydim,
Gəlib köməyinə çata biləydim.
Yaşımdan-yaşına calaq verəydim,
Bərabər paylayıb bölüşdürəydim.
Sən məni böyüdüb ucaltdığıntək,
Özüntək yetirib qocaltdığıntək.
Bacara biləydim ey əziz insan,
Mənə güc verəydi Qadiri-Sübhan,
Sizi də mən özüm cavan edəydim,
Yolunu gəncliyə rəvan edəydim.

***Cəmil Əkbər*** 10. 02 - 1977

## 222. MÜƏLLİMİM

*İ. Kərəvəliyevə ithaf edirəm*

*II variant*

Ey əziz müəllim, ey nəcib insan,
Sən mənə doğmasan, nə mehribansan?
Sizi eşitdikcə coşdu ilhamım,
Artdı etiqadım, artdı inamım.
Qol-qanad verdiniz düşüncələrə,[1211]
Xoşbəxtlik verdiniz gənc nəsillərə.[1212]
Siz xidmət etdiniz bu cəmiyyətə,
Sağlam arzulara, təmiz niyyətə.
Siz gərək oldunuz gərəksizlərə,
Siz çörək oldunuz, çörəksizlərə.
Gərəkli oldunuz körpələrə də,

[1211] Qol-qanad açdınız düşüncələrə.
[1212] Son qoya bildiniz işgəncələrə.

Alimə, loğmana, dahilərə də.
Siz gərək oldunuz qocalara da,
Adında, sanında ucalara da.
Neçə qərinələr, neçə əsrlər,
Səndən dərs alırlar gələn nəsillər.
Səndən öyrənirlər xeyirxahlığı,
Mehriban olmağı, istiqanlığı.
Həyatda yerin var bir ustad kimi,
İnsandan-insana bir imdad kimi. [1213]
Yapışdın qollardan, tutdun biləkdən,
Oyatdın xalqını mürgüləməkdən.
Müəllim, dünyada nəqədər varsan,
Əsrdən-əsrə yaşayacaqsan.
Sönməzdir alovun, ocağın sənin,
Ata qucağıdır, qucağın sənin.
Sizdən dərs alanlar kamala yetir,
Əqidə, məsləkə, amala yetir.
Ellərdə, obada tanına bilir,
Hünər meydanında sınana bilir.
Sənsiz şagird varmı, tələbə varmı?
Nə hünər, nə zəfər, qələbə varmı?
Biz səndən almışıq ləyaqəti də,
Fəhmi-fərasəti, məharəti də.
Sizdən güc almışıq, qüvvət almışıq,
Şərəf qazanmışıq, şöhrət almışıq.[1214]
Biz sizdən almışıq vüqarımızı,
Əhdi, vəfamızı, ilqarımızı.
Müəllim, gözlərin nuru olmusan,
Vicdanı billurtək duru olmusan.
Müqəddəs bir varlıq, ülviyyət oldun,
Nəciblik simvolu, qüdsiyyət oldun.
Sizin hünər ilə açıldı gözlər,
Car olub yayıldı ellərə sözlər.
Oyandı idraklar, oyandı hisslər,
Oyandı millətlər, oyandı irslər.
Sizin sayənizdə yetdik murada,

[1213] Vicdanı tərtəmiz, qəlbi şad kimi.
[1214] Şərəfə çatmışıq şöhrət almışıq.

Yüksək mövqelərə, şöhrətə, ada.
Sizdən dərs alanlar nə bəxtiyardır,
Sahibi-dövrandır, külli-ixtiyardır.
Müəllim, günəşlə yanaşı durdun,
Ömrü şan-şərəflə sən başa vurdun.
Günəş təbiətə  həyat verdisə,
Sən isə bəşərə həyat vermisən.
Biz səndən öyrəndik ucalmağı da,
Saçına dən düşüb qocalmağı da.
Neçə qərinələr, neçə əsrlər,
Səndən dərs alırlar gələn nəsillər.
Tərəqqi etdirir elmi, sənəti,
Xalqa sədaqəti, elə hörməti.
Sizdən öyrənirlər xeyirxahlığı,
Mehriban olmağı, istiqanlığı.
Sönərmi könlümdən, ocağın, közün?
Silinib gedərmi saldığın izin?
Əlinlə silinir cəhalət pası,
Bizə hakim olur ağıl dünyası. [1215]
Bizi zəfərlərə göndərən sənsən,
Xəyal aləmini döndərən sənsən.
Bizi də sənətin şahı etdiniz,
Sultanı, xaqanı,  xanı etdiniz,
Müəllim, dünyada nəqədər varsan,
Əsrdən-əsrə yaşayacaqsan.
Yaşa ey əzizim, yaşa ey ata,
Müqəddəs arzuna hey çata-çata.
Başından-başıma calaq vermisən,
Bilik öyrətmisən, elm vermisən.
Kaşki müəllimim mənim də siztək,
Qəlbimdə iz sala, xoş arzu-istək.
Sizintək uzağı görəydim barı,
Borcumu xalqıma verəydim barı.
Təəssüf hələ də bilməyənlər var,
Getdiyin yollarla gəlməyənlər var,
Sizi duymayan var, qanmayanlar var.
Mənim qollarımdan tutduğun kimi,

---

[1215] Elə hakim olur ağıl dünyası.

Dar gündə imdada çatdığın kimi.
Sizin qolunuzdan tuta biləydim,
Gəlib yardımına çata biləydim,
Yaşımdan-yaşına calaq verəydim,
Siz məni böyüdüb ucaltdığıntək,
Ağsaqqal eyləyib qocaltdığıntək.
Bacara biləydim ey əziz insan,
Mənə qüdrət verə Qadiri-Sübhan.
Sizi də mən özüm cavan edəydim,
Yolunu gəncliyə rəvan edəydim.
Qəm yemə əzizim, qocaldım deyə,
Tərlan qocalsa da, meyl edər göyə.
Neçə müəllimə müəllimsiniz,
Bizimtək çoxunu yetirmisiniz.
Siz insaf verdiniz insafsızlara,
Siz vicdan verdiniz vicdansızlara.
Canından cansıza can bəxş etdiniz,
Qanından qanslza qan bəxş etdiniz.
Dilindən dilsizə dil də verdiniz,
Əlindən-əlsizə əl də verdiniz.
Siz ürək oldunuz ürəksizlərə,
Siz çörək oldunuz çörəksizlərə,
Borcluyuq hərzaman sənə müəllim,
Dönə-dönə, yenə-yenə müəllim.
Nə üçün əzizim dediklərini?
Oxuyub, öyrənib, bildiklərini?
Hələ də anlayıb bilməyənlər var?
Utanıb, qızarıb, ölməyənlər var?
Sizi duymayan da, qanmayan da var,
Qəlbinin oduyla yanmayan da var.
Yazıq o kəsə ki, dərs alanmadı,
Köç etdi cahanda, iz salanmadı.
Nə edək əzizim belədir qayda?
Yaxşı da, yaman da var fani dünyada.
Günəş də, işıq da, qaranlıq da var,
Yaxşılıq yanında yamanlıq da var.
Siz peşə etdiniz yaxşılıqları,
Görmək istəmədin yamanlıqları.
Həyatda günəşlə yanaşı durdun,

Ömrünü şərəflə sən başa vurdun.
Günəş təbiətə həyat verdisə,
Yaşayış verdisə, büsat verdisə.
Sən isə bəşərə həyat bəxş etdin,
İdraka, zəkaya nicat bəxş etdin.
Sizin sözünüzə qulaq asmayan,
Getdiyin yollara ayaq basmayan,
Həyatda heçzaman yetişənmədi,
Elmin aləmində ötüşənmədi.[1216]
Nə düşündü, nə anladı, nə qandı,
Nə alışdı, nə yandırdı, nə yandı.
Nə hünər göstərdi, nə ad qazandı,
Nə qohum, nə doğma, nə yad qazandı.
Kim ki, əlinizlə sulananmadı,
Boy atıb həyatda ucalanmadı.
Vaxt olub körpəcə uşaq olmuşam,
Höcətlik etmişəm, dəcəl olmuşam.
Gah dərsə gecikdim, şuluqluq etdim,
Gah zarafat etdim, gah şuxluq etdim.
Gah qəlbinə dəydim, gah əsəbinə,
Gah şəstinə dəydim, gah ləqəbinə.
Nə üçün qanını qaraltmışam mən?
Saçını qar kimi ağartmışam mən?
Görəsən başında o ağ tüklərin?
Müdriklik simvolu gözəlliklərin?
Onun neçəsini mən ağartmışam?
Sıraya düzdürüb naxışlamışam?
Ha başa saldınsa əzizim məni,
Əfsus hey incitdim, nahaqdan səni.
Bağışla əzizim, bağışla məni,
Səni gec dərk etdim, alqışla məni.
Körpə balan kimi qarşıla məni,
Həyata yenidən hazırla məni.

***Cəmil Əkbər*** 10. 02 - 1977

---

[1216] 1) Yarışda, yürüşdə ötüşənmədi. 2) Yarış meydanında ötüşənmədi.

## 223. MÜƏLLİMLƏRİM

Ey əziz müəllim, nurlu bir insan,
Nəqədər səmimi, nə mehribansan?
Müqəddəs varlıqsan, bir ülviyyətsən,
Nəciblik simvolu, bir qüdsiyyətsən.
Müəllim, gözümün nuru olmusan,
Çeşmələr suyutək duru olmusan.[1217]
Mən sənin sayəndə yetdim murada,
Çatdım öz arzuma, şöhrətə, ada.
Mən səndən almışam ləyaqətimi,
Fəhmi, fərasəti, məharətimi.
Mən səndən dərs aldım, yetdim kamala,
Çatdım əqidəyə, məslək, amala.
Hünər meydanında sınana bildim,
Ellərdə-obada, tanına bildim.
Mən səndən öyrəndim xeyirxahlığı,
Mehriban olmağı, istiqanlığı.
Xalqıma xidməti, elə hörməti,
Sağlam fikirləri, sağlam niyyəti.
Mən səndən öyrəndim ucalmağı da,
Ağsaqqal olmağı, qocalmağı da.

Səndən güc almışam, qüvvət almışam,
Mənalar kəsb edib, hikmət almışam.
Mən səndən almışam vüqarımı da,
Əhdi-peymanımı, ilqarımı da.
Sənin xidmətinlə açıldı gözüm,
Düşərək dillərə, yayıldı sözüm.
Kaşki müəllimim, mənim də səntək,
Qəlbimdə kök sala, xoş arzu-istək.
Səninteк uzağı görə biləydim,
Xalqıma borcumu verə biləydim.
Sən mənim qolumdan tutduğun kimi,
Yetişib dadıma çatdığın kimi.
Sənin də qolundan tuta biləydim,
Gəlib harayına çata biləydim.
Yaşımı yaşınla bölüşdürəydim,

[1217] Məsləki, vicdanı duru olmusan.

Ömrümdən ömrünə calaq verəydim.
Olaydı fürsətim, tapaydım imkan,
Bacara biləydim ey əziz insan.
Səni də təzədən cavan edəydim,
Yolunu gəncliyə rəvan edəydim.
Qəm yemə əzizim, qocaldım deyə,
Tərlan qocalsada meyl edər göyə.
Neçə müəllimə müəllimsiniz?
Mənimtək nəqədər yetirmişiniz?
Sən gərək olmusan əbədiyyətə,
Övladı-bəşərə, bu cəmiyyətə.
Yenicə dil açan körpələrə də,
Alimə, loğmana, dahilərə də.
Sənsiz nə şagird var, nə tələbə var,
Nə hünər, nə zəfər, nə qələbə var.
Əlinlə silinir cəhalət pası,
Xalqa hakim olur ağıl dünyası.
Bizi hünərlərə göndərən sənsən,
Xəyal aləmini döndərən sənsən.
Yapış qollarından, bərk tut biləkdən,
Oyat bu bəşəri mürgüləməkdən.
Səndən dərs alanlar nə bəxtiyardır,
Sahibi-dövrandır, külli-ixtiyardır.
Həyatda yerin var bir ustad kimi,
Vicdanı tərtəmiz, qəlbi şad kimi.
Səni düşündükcə coşdu ilhamım,
Artdı etiqadım, artdı inamım.
Sən insaf vermisən insafsızlara,
Sən vicdan vermisən vicdansızlara.
Canından cansıza can verən oldun,
Qanından qansıza qan verən oldun.
Sən bir ürək oldun ürəksizlərə,
Sən bir çörək oldun çörəksizlərə.
Yaşa ey əzizim, yaşa ey ata,
Ülvi arzulara hey çata-çata.
Müəllim, günəşlə sən qoşa durdun,
Həyatı şərəflə sən başa vurdun.
Günəş təbiətə həyat verdisə,
Yaşayış verdisə, büsat verdisə.

Sənsə düşüncəyə həyat vermisən,
İdraka, zəkaya nicat vermisən.
Əfsuslar olsun ki, dediklərini,
Oxuyub öyrənib, bildiklərini,
Eşidib, anlayıb bilməyən də var,
Utanıb, qızarıb ölməyən də var.
Müəllim, sözünə qulaq asmayan,
Getdiyin yollara ayaq basmayan.
Həyatda ömürlük yetişənmədi,
Yarış meydanında ötüşənmədi.
Nə hünər göstərdi, nə ad qazandı,
Nə qohum şad etdi, nə yad qazandı.
Yazıq o kəsə ki, dərs alanmadı,
Könüllər mülkündə iz salanmadı.
Nə edək əzizim belədir qayda?
Yaxşı da, yaman da var bu cahanda.
Günəş də, işıq da, qaranlıq da var,
Yaxşılıq yanında yamanlıq da var.
Vaxt olub körpəcə uşaq olmuşam,
Dərsindən bezikib, qaçaq olmuşam.
Dəcəllik eyləyib şuluqluq etdim,
Gah zarafat etdim, gah şuxluq etdim,
Gah xətrinə dəydim, gah da şəstinə,
Gah da ayaq aldım, girdim qəsdinə,
Nə üçün qanını qaraltmışam mən?
Saçını qar kimi ağartmışam mən?
Görəsən başında o ağ tüklərin?
Mənalar andıran gözəlliklərin?
Onun neçəsini mən ağartmışam?
Sıraya düzmüşəm naxışlamışam?
Bağışla ey ustad, bağışla məni,
Bilmədim nə üçün incitdim səni?
Təzə şagird kimi qarşıla məni,
Həyata yenidən hazırla məni.
Siz peşə etdiniz yaxşılıqları,
Görmək istəmədin naşılıqları,
Müəllim, dünyada nəqədər varsan?
Könüldə iz salıb yaşayacaqsan!

***Cəmil Əkbər*** 10. 02 – 1977

## 224. KİMİYƏ ÇATMADI, KİMİYƏ ÇATDI

Paylandı dünyanın nazü-neməti,[1218]
Kimiyə çatmadı, kimiyə çatdı.
Sahibsiz qalmadı heç bir sərvəti,[1219]
Kimiyə çatmadı, kimiyə çatdı.

Ədalət də, həqiqət də paylandı, [1220]
Ədəb-ərkan, nəzakət də paylandı,[1221]
İnsanlıq da, ləyaqət də paylandı,
Kimiyə çatmadı, kimiyə çatdı.

Bacarıq da, məharət də paylandı,
Qoçaqlıq da, fərasət də paylandı,[1222]
İgidlik də, cəsarət də paylandı,
Kimiyə çatmadı, kimiyə çatdı.

Paylandı şərafət, şöhrət də bir gün,
Paylandı ar-namus, qeyrət də bir gün,
Fəhm-fərasət də, cürət də bir gün,
Kimiyə çatmadı, kimiyə çatdı.

Düşüncə, dərrakə, kamal paylandı,
Xoş məram, xoş niyyət, amal paylandı,
Mənəvi gözəllik, camal paylandı,
Kimiyə çatmadı, kimiyə çatdı.

Əmi, xala, bibi, dayı paylandı,
Sovqatı paylandı, payı paylandı,
Çörəyi paylandı, çayı paylandı,
Kimiyə çatmadı, kimiyə çatdı.

---

[1218] Dünyanın paylandı nazü-neməti.
[1219] Paylandı saf eşqi, pak məhəbbəti.
[1220] 1)Sədaqət də, səxavətdə paylandı. 2) Doğruluq da, həqiqət də paylandı.
[1221] 1)İnsaf-mürvət, kəramət də paylandı. 2) Sədaqət də, səxavət də paylandı,
[1222] 1) Fərasət də, cəsarət də paylandı, 2) Zirəklik də, fərasət də paylandı.

Dövlət də, sərvət də, var da paylandı,
Namus da, qeyrət də, ar da paylandı,
Sevgili-canan da, yar da paylandı,[1223]
Kimiyə çatmadı, kimiyə çatdı.

Nadanlıq da, cəhalət də paylandı,[1224]
Addımbaşı qəbahət də paylandı,
Kin-küdurət, ədavət də paylandı,
Kimiyə çatmadı, kimiyə çatdı.

Paylanan dərrakə, kamal da oldu,
Vicdan da, məslək də, amal da oldu,
Mənəvi gözəllik, camal da oldu,
Kimiyə çatmadı, kimiyə çatdı.

Paylandı abır da, həya da bilin,
Əqidə, məslək də, qayə də bilin,
Təlimi düz verən dayə də bilin,
Kimiyə çatmadı, kimiyə çatdı.

Bölündü torpaq da, bölündü daş da,
Kabab da, dolma da, bozbaş da, aş da,
Bozartma, cızbız da, araq da, xaş da,
Kimiyə çatmadı, kimiyə çatdı.

Paylandı yurd-yuva, paylandı mahal,
Paylandı gözəllik, mənəvi camal,
Çox oldu arada inciyən, kahal,
Kimiyə çatmadı, kimiyə çatdı.

Nanəciblik, naqislik də paylandı,
Naxələflik, xəbislik də paylandı,[1225]
Acgözlük də, hərislik də paylandı,
Kimiyə çatmadı, kimiyə çatdı.

---

[1223] Qohum da, qardaş da, yar da paylandı,
[1224] Avamlıq da, cəhalət də paylandı.
[1225] Naxələflik, nacinslik də paylandı.

Cavanlıq da, qocalıq da paylandı,
Şərafət də, ucalıq da paylandı,[1226]
Vəzirlik də, xocalıq da paylandı,
Kimiyə çatmadı, kimiyə çatdı.

Bölünüb, paylandı dünyada hər şey,
Həm inci, həm sədəf, həmdəki zər şey,
Qalmadı arada-bərədə bir şey,
Kimiyə çatmadı, kimiyə çatdı. [1227]

Paylandı dünyanın düz ilqarı da,
Şirin töhfələri, ilk nübarı da,
Aşiqi-məşuqu, vəfadarı da,
Kimiyə çatmadı, kimiyə çatdı.

Xoşbəxtlik də, səadət də paylandı,
Gözəl vərdiş, xoş adət də paylandı,
Haqq-Talaya ibadət də paylandı,
Kimiyə çatmadı, kimiyə çatdı.

Onu paylayana nədemək olar?[1228]
Nə yardım göstərmək, nə kömək olar?[1229]
Nə düzəltmək olar, nə əymək olar?[1230]
Kimiyə çatmadı, kimiyə çatdı.

Alimin, loğmanın gözəl sözləri,
Qoşma, gəraylısı, qəzəl sözləri,
Hikmətli, mənalı özəl sözləri,
Kimiyə çatmadı, kimiyə çatdı.

---

[1226] Şan-şöhrət də, ucalıq da paylandı.

[1227] *II variant* Paylandı, qalmadı dür danəsi də,
İnci danəsi də, zər danəsi də,
1) Qalmadı heç yerdə bir danəsi də, 2) Xeyir danəsi də, şər danəsi də,
Kimiyə çatmadı, kimiyə çatdı.

[1228] 1) Gərdişi-dövrana nə demək olar? 2) Dünyanın işinə nə demək olar?

[1229] Nə tutub saxlamaq, əymək olar.

[1230] 1) De nəyi saxlamaq, əyləmək olar? 2) Nə damlamaq olar, nə döymək olar.

Gileylər, güzarlar, tənəli sözlər,
O köntöy baxışlar, ox kimi gözlər,
Tutulmuş qabaqlar, turşumuş üzlər,
Kimiyə çatmadı, kimiyə çatdı.

Süzülüb gedəndə o ala gözlər,
Fikirə, xəyala dalanda gözlər,
Çəkib qılıncını çalanda gözlər,
Kimiyə çatmadı, kimiyə çatdı.

Dünyada oqədər söz deyilibki?
Anla deyildiki, sez deyildiki,[1231]
Yerində ölçülüb düz deyilibki?
Kimiyə çatmadı, kimiyə çatdı.

Hərə bu dünyanı bircürə sezdi,
Bircürə tablaşdı, bircürə dözdü,
Zaman ümmanında bircürə üzdü,
Kimiyə çatmadı, kimiyə çatdı.

Əzəldən belədir dünyanın işi,
Dövrü-zəmanənin qurğu, gərdişi,
Kimiyə ət verdi, kimiyə şişi,
Kimiyə çatmadı, kimiyə çatdı.

Çoxunun gətirdi taleyi, bəxti,
Artdı şan-şöhrəti, quruldu təxti,
Dolandı zamanı, yetişdi vaxtı,[1232]
Kimiyə çatmadı, kimiyə çatdı.[1233]

Ayağı gətirdi, başı gətirdi,
Fikiri, xəyalı, huşu gətirdi,
Qalmadı dünyada naşı, gətirdi,
Kimiyə çatmadı, kimiyə çatdı.

---

[1231] Səbr edib, tablaşıb, döz deyilibki?
[1232] Dolandı dövranı, xoş keçdi vaxtı.
[1233] *II variant* Çoxunun taleyi, işi gətirdi,
Kotanı işlədi, xışı gətirdi,
Baharı xoş gəldi, qışı gətirdi,
Kimiyə çatmadı, kimiyə çatdı.

Çoxları dünyadan əliboş getdi,
Sözləri-söhbəti diliboş getdi,
Günləri, həftəsi, ayı boş getdi,
Kimiyə çatmadı, kimiyə çatdı.

Paylandı sağlamlıq, azar da bir gün,
Sərdabə, başdaşı, məzar da bir gün,
Bağlandı dükan da, bazar da bir gün,
Kimiyə çatmadı, kimiyə çatdı.

Kimiyə hərşeydən təzə verildi,
Kimiyə kef-damaq məzə verildi,
Kimiyə ən ağır cəza verildi,
Kimiyə çatmadı, kimiyə çatdı.

Əyri də paylandı, düz də paylandı,
Dərin də, dayaz da, üz də paylandı,
Qaşlar da paylandı, göz də paylandı,
Kimiyə çatmadı, kimiyə çatdı.

Paylandı idrakın, nurun ziyası,
Əlləndi üstünə, düşdü sayəsi,
Yayıldı ellərdə dayı kölgəsi,
Kimiyə çatmadı, kimiyə çatdı.[1234]

Xeyirxahlıq, fəzilət də paylandı,
Ülviyyət də, qüdsiyyət də, paylandı,
Sağlam fikir, pak niyyət də paylandı,
Kimiyə çatmadı, kimiyə çatdı.

---

[1234] *II variant* İnsan idrakının nuru, ziyası,
Çoxunun üstünə düşdü sayəsi,
Qaynata, qaynana, dayı kölgəsi,
Kimiyə çatmadı, kimiyə çatdı.

*III variant* Düşüncə, idrakın nuru, ziyası,
Çoxunun üstünə, düşdü sayəsi,
Qaynata yardımı, dayı kölgəsi,
Kimiyə çatmadı, kimiyə çatdı.

Paylandı dünyanın gözəlləri də,
Şeiri, dastanı, qəzəlləri də,
Xəzana qərq olan xəzəlləri də,
Kimiyə çatmadı, kimiyə çatdı.

Paylandı gözəlin ala gözləri,
Qaymaq dodaqları, lalə üzləri,
Qəlbləri ram edən şirin sözləri,
Kimiyə çatmadı, kimiyə çatdı.

Dözüm, durum, dəyanət də paylandı,
Haqdan gələn bəyanət də paylandı,
Paxıllıq da, xəyanət də paylandı,
Kimiyə çatmadı, kimiyə çatdı.

Yaxşılıqlar, pisliklər də paylandı,
Xeyirxahlıq, bədxahlıq da paylandı,
Mülayimlik, tərsliklər də paylandı,
Kimiyə çatmadı, kimiyə çatdı.

Zülal da, şəkər də, şan da paylandı,
Damar da paylandı, qan da da paylandı,
Cəsəd də paylandı, can da paylandı,
Kimiyə çatmadı, kimiyə çatdı.[1235]

Paylanan payladı, bölənlər böldü,
Ağlayan-ağladı, gülənlər-güldü,
Bilməyən bilmədi, bilənlər bildi,
Kimiyə çatmadı, kimiyə çatdı.

Yaradan Xaliqin nicat, nüsrəti,
Üstündən kəsmədi nəzər, diqqəti,
Saxladı bəşəri bu cəmiyyəti,
Kimiyə çatmadı, kimiyə çatdı.

---

[1235] *II variant* Zülal da, şəkər də, bal da paylandı,
Dəymiş də, sütül də, kal da paylandı,
1) Tirmə də, qədək də, şal da paylandı, 2) Qırmızı, çəhrayı, al da paylandı,
Kimiyə çatmadı, kimiyə çatdı.

Kimi pay alanda qabağa düşdü,
Kimi çox gecikdi, uzağa düşdü,
Çovğuna, borana, sazağa düşdü,[1236]
Kimiyə çatmadı, kimiyə çatdı.

Kimiyə az oldu, kimə çox oldu,
Kimiyə var oldu, kimə yox oldu,
Gözləri, könülü tamam tox oldu,
Kimiyə çatmadı, kimiyə çatdı.

İnsanın-insana mərhəməti də,
İlqarı-imanı kəraməti də,
Ədəbi-ərkanı, nəzakəti də,
Kimiyə çatmadı, kimiyə çatdı.

Gödələn ömür də, kəsilən yaş da,
İnləyən ürək də, ağrıyan baş da,
Tutulan qabaq da, çatılan qaş da,
Kimiyə çatmadı, kimiyə çatdı.

Nurani, ağsaqqal, qocalıq çağı,
Xətirli, hörmətli ucalıq çağı,
Vəzirlik, vəkillik, xocalıq çağı,
Kimiyə çatmadı, kimiyə çatdı.

Çoxları nə gördü onu götürdü,
Özü peyvənd vurdu, bağı bitirdi,
Çoxu da peysərə vurub, ötürdü,
Kimiyə çatmadı, kimiyə çatdı.

Hamı bu həyatda növbəyə durdu,
Yalvardı, yaxardı boynunu burdu,
Çoxları havayı özünü yordu,
Kimiyə çatmadı, kimiyə çatdı.

Saralan yanaqlar, solan yanaqlar,
Gözlərin yaşıyla dolan yanaqlar,
İntizar içində qalan yanaqlar,
Kimiyə çatmadı, kimiyə çatdı.

---

[1236] Tufana, borana, sazağa düşdü.

Çoxalan qəm-qüssə, çəkilən kədər,
Dəhşətli ağrılar, acılar, qəhər,
İncitdi çoxunu hər axşam, səhər,
Kimiyə çatmadı, kimiyə çatdı.

Nə deyim danışım, nə deyim daha?
Çoxu müftə aldı, çoxları baha,
Nəqədər qərq oldu qarğışa, aha,
Kimiyə çatmadı, kimiyə çatdı.

Düha sahibinə lağ da etdilər,
Çıxıb əndazədən ağ da etdilər,
Kefləri, damağı çağ da etdilər,
Kimiyə çatmadı, kimiyə çatdı.

Habilin kamanı, Əmrahın sazı,
Bülbülün, Şəmşirin, Xanın avazı,
Gəlmədi xoşuna çoxunun duzu,
Kimiyə çatmadı, kimiyə çatdı.

Gözəl bağ-bağçanın, dağın havası,
Loğmansız, təbibsiz oldu dəvası,
Nurani atanın xeyir-duası,
Kimiyə çatmadı, kimiyə çatdı.

Nəqədər dolandı halal varıyla,
Koroğlusayağı öz Nigarıyla,
Əhdi-peymanıyla, düz ilqarıyla,
Kimiyə çatmadı, kimiyə çatdı.

Çoxları yaşadı şərəf-şan ilə,
Saf arzu-istəyi, pak niyyətilə,
Dözümü-durumu, qətiyyətilə,
Kimiyə çatmadı, kimiyə çatdı.

Ata nəvazişi, ana laylası,
Eysüddən verilən mey piyaləsi,
Dağlarda gül üstə düşən jaləsi,
Kimiyə çatmadı, kimiyə çatdı.

Çoxları dünyada yarıdı getdi,
İşi düz gətirdi, sarıdı getdi,
Çoxu da inlədi, zarıdı getdi,
Kimiyə çatmadı, kimiyə çatdı.

İnciyən-incidi, bezənlər-bezdi,
Anlayan-anladı, sezənlər-sezdi,
Səbr edib, tablaşıb, dözənlər dözdü,
Kimiyə çatmadı, kimiyə çatdı.

Çoxları yarıdı dostdan, tanışdan,
Həmkardan, həmdəmdən, yaxın yoldaşdan,
Qohum-əqrəbadan, bacı-qardaşdan,
Kimiyə çatmadı, kimiyə çatdı.

Paylandı dünyanın şərafəti də
Ədəbi-ərkanı, nəzakəti də,
Ətiri-gülüstan, təravəti də,
Kimiyə çatmadı, kimiyə çatdı.[1237]

Paylandı ismət də, namus da, ar da,
Vəfalı dost-tanış, sevimli yar da,
Yetişdi bağlarda, heyva da, nar da,[1238]
Kimiyə çatmadı, kimiyə çatdı.

Gözəllik də, çirkinlik də paylandı,
Sadəlik də, xudbinlik də paylandı,
Nikbinlik də, bədbinlik də paylandı,[1239]
Kimiyə çatmadı, kimiyə çatdı.

Salınan yolaqlar, cığırlar, izlər,
Saxta, yalan, əyri, doğrular, düzlər,
Söylənən fikirlər, deyilən sözlər,
Kimiyə çatmadı, kimiyə çatdı.

Kimiyə dağ düşdü, kimiyə aran,
Kimiyə münbitli, kimiyə şoran,
Kimə günəşli gün, kimiyə toran,[1240]
Kimiyə çatmadı, kimiyə çatdı.

---

[1237] *II variant* Paylandı dünyanın lətafəti də,
Ətiri-gülüstan, təravəti də,
İstisi, soyuğu, hərarəti də,
Kimiyə çatmadı, kimiyə çatdı.

[1238] Çoxları qalmadı bu işdə darda.

[1239] Nikbinlik də, qəmginlik də paylandı.

[1240] Kimiyə abadlıq, kimiyə viran.

Paylandı qızıl da, gümüş də, mis də,
Şirin xoş avaz da, zəngulə, səs də,
Arzu da, istək də, eşq-həvəs də,
Kimiyə çatmadı, kimiyə çatdı.

Kimiyə dağ düşdü, kimiyə aran,
Kimiyə münbitli, kimiyə şoran,
Kimiyə abadlıq, kimiyə viran,
Kimiyə çatmadı, kimiyə çatdı.

Çoxları çox şeydən, aralı qaldı,
Qəlbi xoflu qaldı, qaralı qaldı,
Dünyanın qüssəsi, məlalı qaldı,
Kimiyə çatmadı, kimiyə çatdı.

Nəşə də paylandı, kef də paylandı,
Zurna da, qaval da, dəf də paylandı,
Zəhmətsiz, xidmətsiz, müftə paylandı,
Kimiyə çatmadı, kimiyə çatdı.[1241]

Günah pay alanda, pay verəndəmi?
Süfrə açandamı, çay verəndəmi?
Bahar paylayanda, yay verəndəmi?
Kimiyə çatmadı, kimiyə çatdı.[1242]

Bu dünya belədir ay Cəmil Əkbər,
Bacarsan dünyada çəkmə qəm, kədər,
Az yazginiən, sözün olsun müxtəsər,
Kimiyə çatmadı, kimiyə çatdı.[1243]

***Cəmil Əkbər*** 11. 06 – 1994 // 31. 12 – 1994

---

[1241] *II variant* Nəşə də paylandı, kef də paylandı,
Hamıdan qabaqda, siftə paylandı,
Pul-para almadan müftə paylandı,
Kimiyə çatmadı, kimiyə çatdı.

[1242] *II variant* Günah alandamı, pay verəndəmi?
Çörək paylayanda, çay verəndəmi?
Pis iş görəndəmi, zay verəndəmi?
Kimiyə çatmadı, kimiyə çatdı.

[1243] *II variant* Ay Cəmil, belədir dünyanın işi,
Olan ənənəsi, adət vərdişi,
Keçirmə həyəcan, çəkmə təşvişi,
Kimiyə çatmadı, kimiyə çatdı.

## 225. MÜQƏDDƏS İNSAN *(POEMA)*

*Azərbaycan Elmlər Akademiyanın müxbir üzvü, fizika-riyaziyyat elmləri doktoru, Professor **Qoşqar Teymur oğlu Əhmədov**un nurlu xatirəsinə*

"Böyük təbiətlər yaranır az-az
Hər yerdə, hərzaman inci tapılmaz".

***S.Vurğun.***

### *1) ATA-ANA*

Nə babası bəy-xan idi, nə nənəsi xanım idi,
Nə atası qazı idi, nə anası loğman idi.
Bu babalar, bu nənələr gözləyirdi ədəb-hörmət,
Göstərirdi sədaqəti, bəsləyirdi namus-qeyrət.
Demədilər qaraya ağ, yazmadılar ağı qara,
Əzilsədə bunun üstə, çəksələrdə onu dara.
Yaşadırdı bu nəsili saf-arzular, pak əməllər,
Pak düşüncə, saf fikirlər, çox müqəddəs bir könüllər.
Atasıydı Mirzə Teymur, kamallıydı, tədbirliydi,
Anasıydı Yetər qarı, təmizqanlı, eysüdlüydü.
Bircə insan inciməyib, bu anadan, bu atadan,
Uzaq olub, kənar durmuş, qeylü-qaldan, şər-xətadan.
Ata-ana elə kökdür, gövdə-butaq bitər onda,
Çiçək açar ləçəkləri, bülbül qonub ötər onda.
Gənc nəsil də böyüklərdən, gördüyünü götürürlər,
Nəsillərdən-nəsillərə, estafeti ötürürlər.
Balalardan öyrəndilər, atalardan müdrikliyi,
Arxa durub yaman gündə, edirdilər köməkliyi.
Yıxılanın qollarından, dar ayaqda tutardılar,
Dərdlərinə şərik olub, harayına çatardılar.
"Hərbir körpə dərs almasa, mahir ata-anasından,
Tikdikləri ev kəc olar, təməlindən, binasından".
Əziz Qoşqar tanıtdırdı, öz atası-anasını,
Məşhur etdi uzaqlarda, öz elini-obasını.
O doğuldu Söyüdlüdə, bizim doğma Gədəbəydə,
Gəlişilə sevinc verdi, hərbir kənddə, hərbir evdə.
Körpə quştək qanad açdı, öz kəndinin qucağında,
O böyüdü, bəslənildi inqilabın ocağında.

Pərvaz edib uça bildi, Bakımızın ağuşuna,
Bilik alıb, elm öyrəndi, qüvvət verdi öz huşuna.
Elm uğrunda yaşa doldu, günü-gündən ucaldı o,
Onun sonsuz aləmində, zəfər çalıb, bac aldı o.
Vuruşaraq qaldırırdı, aralıqdan çətinliyi,
Dəyanətlə çarpışaraq, göstərirdi mətinliyi.
Dolğun idi mahiyyəti, zəngin idi təbiəti,
Əminəmki itməyəcək, el yanında əziyyəti.

### *2) O BİGANƏ QALMAMIŞDIR*

O biganə qalmamışdır müəllimlik peşəsinə,
Heç bir ləkə salmamışdır, könüllərin şüşəsinə.
O biganə qalmamışdır, nənəsinə, babasına,
Öz elinə, Vətəninə, öz yurduna-yuvasına.
O biganə qalmamışdır, atasına, anasına,
Ülvü istək, ülvi sevgi, məhəbbətin xanəsinə.
O biganə olmamışdır, dostlarına, tanışlara,
Yaman gündə arxa durmuş, həmdəm idi yoldaşlara.
O biganə qalmamışdır, doğulduğu doğma kəndə,
Hamı etiraf edirlər, yeri gəlib söz düşəndə.
O biganə olmamışdır, Azərbaycan millətinə,
Başucalıq, üzağlığı gətirmişdir xilqətinə.
O biganə olmamışdır, heç bir xalqa, nə bəşərə,
Millətlərlə dostluq edib, qarışardı xeyrə-şərə.
Əl uzadıb kömək etdi, Özbəklərə, Qazaxlara,
Eyni gözlə baxırdı o, yaxınlara, uzaqlara.
O biganə qalmamışdır, zəhmətkeşin balasına,
Bu ölkənin, bu dövlətin, yenilməyən qalasına.
O biganə qalmamışdır, alimə də, fəhləyə də,
Zəhmət çəkib tərtökənə, şəhərliyə, kəndliyə də.[1244]
O biganə qalmamışdır, körpəyə də, qocaya da,
Mövqeyində kiçiyə də, adda-sanda ucaya da.
Eyni qəlblə istəyirdi, hərbir şəxsi, hərbirkəsi,
Öz vaxtında çağırırdı, isidirdi gur nəfəsi.

---

[1244] Elimizdə zəhmət çəkən, şəhərliyə, kəndliyə də.

### 3) ONUN TƏBİƏTİ

Əziz Qoşqar eləbilki borclu idi hər millətə,
Borclu imiş bu bəşərə, borclu imiş bu xilqətə.
Unutmurdu öz borcunu, vədəsində verirdi o,
Bağ salırdı könüllərdə bəhrəsini görürdü o.
İnsanlarla görüşəndə, görüşmürdü əlucu o,
Söhbət açıb danışanda, danışmırdı dilucu o.
Duyulurdu hərbir zaman, ürəyinin hərarəti,
Xoş arzuyla, xoş əməllə, diləyinin hərarəti.
Xoşlamırdı o sünilik, istəyirdi təbiilik,
Ona yaddır ötərilik, amalıdır əbədilik.
Öz insanlıq xidmətini, göstərirdi məharətlə.
Sədaqətlə, səxavətlə, eşq-həvəslə hərarətlə.
Ülvü –istək məqamında, hüdudunu aşırdı o,
Məhəbbətin qucağında qaynayırdı, daşırdı o.
Zəhmətindən ilham alıb, zəkasıyla parladı o,
Günəş kimi işıq saçdı, bulud kimi gurladı o.
Yenilməyən hünəriylə, leysan tökdü, nur əlәdi,
Xeyirxahlıq ələyində inci səpdi, dürr ələdi.
O özünün timsalında, nümunəydi hərbirkəsə,
Ona görə xalq içində, çevrilirdi müqəddəsə.
O təbiət vurğunuydu, çox sevirdi yaylaqları,
Dəryalara, dənizlərə, su göndərən bulaqları.
O, deyirdi: “bu bulaqlar çay aşağı axmasaydı,
Tələsiyib, yön alaraq dəryalara çatmasaydı.
Dəryalar da, dənizlər də sudan korluq çəkərdilər,
Ləpə vurub qabarmazdı, yatağında çökərdilər”.
Bunu bilib “Qoşqar dağı” “təpələrə” baş əyərdi,
Tufan qopsa, külək əssə, kürəyini söykəyirdi.
O, bilirdi bu həyatın qanununu, qaydasını,
O, verirdi bəşər üçün biliyinin faydasını.
Məhəbbətin vurğunuydu, çox sevirdi sevənləri,
Yollarından azmayanı, haqq yoluyla gedənləri.
O bir böyük gəmi idi, kompas idi ağıl ona,
Xoşlayırdı müdrik sözlər, əyləncəydi nağıl ona.
O seçilib-sayılırdı insanların cərgəsində,
Koroğluya bənzəyirdi, ahənginin gur səsində.
Qayğı çəkən ata idi, ətəyindən tutanlara,

O bir böyük mayaq idi, şan-şöhrətə çatanlara.
Təcrübəli bağban idi, ağacları insan idi,
Meyvələri mədəniyyət, elm-savad alan idi.
Səxavətdə, kəramətdə tapılmırdı onun tayı,
Qədirbilən insan idi, unutmazdı haqq-sayı.
Eləbilki  əziz Qoşqar yaranmışdır huri-mələk,
Bilməyirdi nə paxıllıq, nə xainlik, nə də kələk.
Təmiz idi arzuları, billur idi diləyi də,
Təmiz idi vicdanı da, məsləyi də, ürəyi də.
Buna görə hamı ona, aşiq olub vurulurdu,
Ona qarşı kini varsa, qara qanı durulurdu.
Oddan isti, poladdan bərk, qardan-buzdan sərin idi,
Nə şaxtadan donmaz idi, dəryalardan dərin idi.
Gücsüzləri əzməz idi, güclülərdən qorxmaz idi,
Nəfəsinə aldanaraq tamahına uymaz idi,
O üzlərə qımışaraq, arxadan da söyməz idi.
Tanımırdı yalan-palan, fitnə, hiylə, böhtan nədir?
Aravuran, qanqaraldan, iblis nədir, şeytan nədir?
Dəyişməzdi mövqeyini, astarı bir, üzü birdi,
İgid oğlu, igid idi, əməli bir, sözü birdi.
Çaşmayırdı sağa-sola, əqidəsi düzlük idi,
Əlimizdə əsa idi, gözümüzdə gözlük idi.
Əsəblərə toxunmazdı, könüllərə dəyməz idi,
Düzələsi bir iş varsa, onu qəsdən əyməz idi.
Ürəksizə ürək idi, kimsəsizə gərək idi.
Savadsıza savad idi, çörəksizə çörək idi.
Qul olmazdı tamahına, yol verməzdi günahlara,
Bais olmaz qarğışlara, səbəb olmazdı ahlara.
Müəllimlik sənətiydi, bilik vermək peşəsiydi,
Ər oğlu ər yaranmışdı, kişilərin kişisiydi.
Ağıl kəskin, göz itiydi, o baxırdı uzaqlara,
İnsafını atmayaraq, rəhm edirdi yazıqlara.
O özünün zəhmətilə yetişirdi, muradına,
Aldanmırdı var-dövlətin, nə çoxuna, nə azına.
Sevməyirdi tənbəlliyi, heyran idi qoçaqlığa,
Seyr edirdi təpələri, yön alırdı ucalığa.
Ərş üzündə qanad çalıb, səmalarda süzərdi o,
Su içərdi bulaqlardan, dəryalarda üzərdi o.
Şahin-tərlan qanadlıydı, dövr edərdi zirvələrdə,

Dayanmırdı təpələrdə, sürünmürdü dərələrdə.
Qıy vuraraq asimana, buludları yarardı o,
El xeyrinə zəhmət çəkib yaradardı, qurardı o.
Məclislərdə başda idi, "masabəyi" vəzifəsi,
Xoş gəlirdi danışığı, inci idi hər kəlməsi.
Ürəklərdə yer tuturdu, onun şirin söz-söhbəti,
Qulaqlarda sırğa idi, nəsihəti, məsləhəti.
Hər işində, hər addımda, fərəh-sevinc gətirərdi,
Könüllərdə bağ salardı, gül-çiçəklər bitirərdi.
Savadında nəhəng idi, elmdə də böyük idi,
Məktəbdə də böyük idi, həyatda da böyük idi.
Hörmətdə də, izzətdə də, şöhrətdə də böyük idi,
Hünərdə də, zəfərdə də, qeyrətdə də böyük idi,
Kəmiyyətcə çox iş gördü, keyfiyyətdə böyük idi.
Əhli-kefə, biganəyə, sönüklərə sönük idi,
Vicdan-məslək alıb satan, dönüklərə dönük idi.
İşində də böyük idi, sözündə də böyük idi,
Könüllərə nəqş etdiyi, izində də böyük idi.
Təməlindən möhkəm idi, zirvəsindən uca idi,
Zahirindən cavan idi, batilindən qoca idi.
Məhəbbətdən yol salmışdı, uzun-uzun, geniş-geniş,
Yorulmazdı bu yollarda, ha getsə də yoxuş, eniş.
Tapılmırdı onun tayı, tay-tuşların arasında,
O tutmuşdu birinci yer, mərd igidlər sırasında.
Sənətini sevirdi o, dağlarının havasıtək,
Arzusunun, istəyinin, öz eşqinin balasıtək.
O bir yerdə dayanmırdı, günü-gündən ucalırdı,
Yorulmadan çalışaraq, sənətindən bac alırdı.
Çalışırdı öz elmində asimana uça bilsin,
İdrakından-idraklara, şəfəqini saça bilsin.
Fərhad kimi külüng çaldı, sənətinin dünyasında,
Ləli-gövhər axtarırdı, xəyalının dəryasında.
Harda olsa, hara getsə könüldə iz salırdı o,
Məskən salıb o yerlərdə əbədilik qalırdı o.
Uşaq ikən almış idim, eloğlunun sədasını,
Görməmişdim heç bir yerdə, onun yersiz ədasını.
Onu görcək qüvvət gəldi qollarıma, dizlərimə,
Sevinc gəldi ürəyimə, məna gəldi sözlərimə.
Onu görüb tanıyınca həvəs gəldi ürəyimə,

Fərəh dolu, ilham dolu nəfəs gəldi ciyərimə.
Bədənimin coşdu qanı, ilham pərim uçdu göyə,
Pərvazlanıb qanad aldı, əhsən-əhsən deyə-deyə.
Mən gördüm ki, el-obamız mərd igidlər yuvasıdır,
Alim, loğman yetişdirən, dahi insan sobasıdır.
Hörmət üçün doğulmuşdu, bizim əziz eloğlumuz,
Şöhrət üçün doğulmuşdu, bizim alim eloğlumuz.
Qeyrət üçün doğulmuşdu, bizim böyük qardaşımız,
Cürət üçün doğulmuşdu, bizim igid yoldaşımız.
Amalıydı xeyirxahlıq, törətmirdi qorxu-kədər,
Nə mənalı ömür sürüdü, keçirmədi vaxtı hədər.
Həyat yolu düzgün oldu, sağa-sola əyilmədi,
Lənət ilə, nifrət ilə arxasından söyülmədi.
Meyar daşı dəqiq oldu, düzgün idi tərəzisi,
Ünvanına yazdırtmadı şikayətlər ərizəsi.
Dost-tanışlar bu insana həsəd ilə baxardılar,
Şux zarafat eyləyərək, ayrımlığı "qaxardılar".
Bu qaxıdan inciməzdi, tay-tuşundan yoldaşından,
Həmdəmindən, dostlarından, nə də bircə sirdaşından.
Bu ad ilə fəxr eyləyib, hərbir yanda öyünərdi,
Harda ayrım görsə idi, şənlənərdi, sevinərdi.
Kim ayrıma sataşsaydı bulud kimi çökərdi o,
Yerlisinə qahmar çıxar, təsibini çəkərdi o.[1245]
O deyərdi: "tanıyın siz, bu ayrımlar bilin kimdir?",
"Sözlərinin ağasıdır, vicdanının hakimidir"
Onlar istək yaşadırlar, məğrur olan sinəsində,
Müdriklik var, zirəklik var eloğlunun hərəsində.
Biganədir bədxahlığa, xoşlamayır yamanlığı,
Kamalıyla nur saçırlar, dağıdırlar dumanlığı.
Əziz Qoşqar harda olsa şən edirdi məclisləri,[1246]
Çaldırardı aşıqlara "El havası", "Təcnis"ləri.
Dönə-dönə dinləyirdi "Yanıq-Kərəm" havasını,
Xəyalından keçirərdi, nakamların sevdasını.
Bu hicranın karvanları, yol edərdi ürəyində,
Ağrıları qövr edərdi, onun məğrur kürəyində.
Öz başına gəlmiş idi, Məcnun-Kərəm macərası,

[1245] Yerlisinə kömək çıxar, təsibini çəkərdi o.
[1246] O dağıdır dərdi-qəmi, şən edirdi məclisləri.

Bacarmayıb qovuşmağa, nə imkanı, nə çarəsi?
O bir məsum şikar oldu, naşı ovçu əllərində,
Bu biçarə hədəf oldu, nadanların dillərində.
O bir gövhər mədəniydi, sərrafını tapanmadı,
Nainsaflar güllәsindən, yayınaraq sapanmadı.
Xain ovçu nişan aldı, onun böyük ürəyini,
Söz gülləsi dəyib keçdi, yarı qoydu diləyini.
O bilmədi az tapılır, ləl-cəvahir, zər incilər,
Hər məkanda, hərzamanda yetişməyir dürr, incilər.
Al-qanına sussayaraq, şöhrətinə darıldı da,
Güllələri boş keçdikcə, öz içindən qırıldı da.
Yersisiz səs-küy sala-sala, əsəbini korladılar,
Sinəsinə dağlar çəkib, qəlb evini odladılar.
Bədəsillər qəsd eylədi, insanlığın dünyasına,
Xal saldılar ürəyində məhəbbətin aynasına.
Sərrafını tapanmayıb, xiridarsız ləl ağladı,
Sızıldadı könülquşu, ürəyində tel ağladı,
Kərəm kimi alovlandı, Əslisini tapanmadı,
Məcnun oldu, çölə düşdü Leylisini tapanmadı.
Onun dərdi yaman oldu, əridirdi dağı-daşı,
Bu hicranı yuyanmadı, nə sel-sular, nə gözyaşı.
Ürəyində o apardı, ah-vayını, nərəsini,
Ömürboyu qövr eyləyən, ərşə çıxan naləsini.
Məşəl etdi ürəyini, namus-qeyrət yollarında,
Qurban oldu, fəda getdi cəhalətin yollarında.
Bol məhsullu zəmi idi, onu vurdu yay dolusu,
Kəsilmədi qurban-qoçu, nə quzusu, nə toğlusu.

### *4) HEYHAT*

Əziz Qoşqar, vəfatınla sevincimi qəhərlədin,
Bizi qoyub yarı getdin, el qanını zəhərlədin.
Halımızı bəs kim sorsun, bəs kim çəksin qayğımızı?
Bir od qoyub yandırıbsan, yaxın-uzaq hamımızı.
Kim sevəcək sənin kimi, öz xalqını, millətini?
Qaldıracaq el içində, ad-sanını, şöhrətini?
Kim tutacaq qollarından, əl-ayaqda qalanların?
Kim yanacaq bəs halına, gülyanağı solanların?
Kim olacaq sənin kimi, şah vüqarlı, dağ ürəkli?

Xoş arzulu, düz əməlli, gül-çiçəkli bağ ürəkli?
Kim olacaq sənin kimi öz adının sərkərdəsi?
Dost-tanışın sevimlisi, insanların müqəddəsi?
Tapa bilsəm belə insan diz çökərdim hüzurunda,
Yorulmazdım, usanmazdım, can qoysam da yollarında.
Eləbilləm Qoşqar sağdır, sızlamazdım kaman kimi,
Qaşqabağım tutulmazdı dağ başında duman kimi.
Öyrənərdim o insandan, insanlığın mənasını,
Toxunmazdım, sındırmazdım, könüllərin aynasını.
Öyrənərdim dönə-dönə oturmağı, durmağı mən,
Onun kimi yaşamağı, yaratmağı, qurmağı mən.
Öyrənərdim öz yerində danışmağı, gülməyi də,
İnsan kimi ömür sürüb, kişi kimi ölməyi də.
Öyrənərdim sadəliyi, öyrənərdim vüqarlılıq,
Öyrənərdim vəfalılıq, öyrənərdim ilqarlılıq.
Unutmazdım onun kimi, haqq-sayı hörməti də,
Azaltmazdım insafımı, kəm etməzdim mürvəti də.
Öyrənərdim yaman gündə, göstərərdim gərəkliyi,
Öyrənərdim arifliyi, öyrənərdim müdrikliyi.
Hara gedim, necə tapım bu müqəddəs bir insanı?
Kimdən sorum, tapa bilim, o sərrafı, gövhər-kanı.
Dayanıbdır parlaq zəka, qarşımıza duman çöküb,
Bu ölümün insafı yox, buraxmayır yaman çöküb.
Döyünməyir sevən ürək, eləbilki daşa dönüb?
Vücudunda nəki su var, gözlərimdə yaşa dönüb?
Yumulubdur gülən gözlər, səs eşidən qulaqlar da,
Matəmdədir el-obamız, yas saxlayır yaylağı da.
Yana-yana sızıldayır “Dilqəm” ilə “Yanıq Kərəm”,
Deyirlərki ey dost səni, məclislərdə yenə görəm.
Fəqan edir sinəsində aşıqların telli sazı,
Bu məkanda kəsilibdir, bülbüllərin şən avazı.
Yasa batıb əziz Qoşqar, həmkarların, alim dostlar,
Xatirəni unutmayır, vəfadarlar, şair dostlar.
Mən duyuram, bilirəmki sənə ölüm yaraşmayır,
Evlər yıxmaq, qan qaraltmaq, nə də zülüm yaraşmayır.
Sən bir məğrur övlad idin, uca dağlar balasısan,
Gül-çiçəkli yamacların, barlı-bağlar balasısan.
Hey sevirdin el şənliyi, deyib-gülmək, nikbinliyi,
Bəyənmirdin, xoşlamırdın, qəmginliyi, bədbinliyi.

Şuxluq edib hər məclisdə, hamımızı güldürərdin,
Müdrik sözlər söyləyərək, məchulları bildirərdin.
Rəvadırmı indi bizi sızladırsan kaman kimi?
Dağ başına çöküb indi, bürələdin duman kimi.
İstəyirəm günəş kimi şəfəq saçsın işıqların,
Tutulmasın dumanlardan, qoy görünsün üfüqlərin.

### *5) BELƏ İNSAN ÖLƏRMİ HEÇ?*

Oyan Qoşqar, dostlar gəlib, əhvalını soruş yenə!
Qucaqlayıb əlini sıx, əvvəlkitək görüş yenə!
Belə insan ölərmi heç, dar məzara getsə də o,
Vidalaşıb bu dünyadan, torpaq altda keçsə də o.
Alimlərin incisiydi, insanların əşrəfiydi,
El içində varı-halı, şöhrətiydi, şərəfiydi.
Belə insan az tapılar, insanların sırasında,
Ədiblərin yazısında, şairlərin misrasında.
Belə insan yer tutacaq, rəssamların fırçasında,
Oçerklərin, şerlərin, dastanların parçasında.
Belə insan əks olacaq, bəstəkarın qələmində,
Bəstələnib səslənəcək, o musiqi aləmində.
Qoyulacaq abidəsi, yazılacaq salnaməsi,
Kəşf olunub tapılacaq, saxlanacaq dürr danəsi.
O, özünə yer tapıbdır, insanların ürəyində,
Arzusunda, əməlində, ən müqəddəs diləyində.
Belə insan ölə bilməz, özü ölmək istəsə də,
Düşmənləri gülə bilməz, namərd gülmək istəsə də.
Belə insan yaşayacaq, xeyirxahlar əməlində,
Ariflərin zəkasında, zəhmətkeşin biləyində.
Bu insanı yaşadacaq, Azərbaycan millətimiz,
Millətimə məxsus olan namusumuz, qeyrətimiz.
Bu insanı yaşadacaq, qədirbilən zəmanəmiz,
Nur saçacaq əməlləri, dövr edəcək pərvanəmiz.
Bu insanı yaşadacaq, aşıqların sazı-sözü,
Bu yazılan xatirələr, el-obanın görən gözü.
Söz-söhbəti yaşadacaq, aydan-aya, ildən-ilə,
Neçə-neçə dağ aşacaq, o keçəcək eldən-elə.
Qəlbi dolu istək idi, zəka dolu ağıl idi,
Düşüncəsi sərrast idi, əqidəsi mağıl idi.

Bəstəkartək bəstələdi, hər sözünü, söhbətini,
Rəssam kimi nəqş elədi, qəlbimizdə surətini.
Bu insanı yaşadacaq, onun nəcib əməlləri,
Tay-tuşları, yaşıdları, həm gələcək nəsilləri.
"El qeydinə qalan ölməz, ötsə illər, qərinələr,
Qızıl kimi xarab olmaz, dolansa da min əsrlər".
Xatirəsi unudulmaz, ürəklərdə iz salanın,
Dağa-daşa düşməyənin, yollarını düz salanın.
El istərki dühasından, söz eşitsin duzlu-duzlu,
Çeşməsindən sular içsin, sərin-sərin, buzlu-buzlu.
Tarixlərdən silinməsin, əsrlərlə qala bilsin,
El dərdinə şərik olub, könülləri ala bilsin.
El istərki öyrənsinlər xoş əməllər, xoş arzular,
Nəsib olsun onun üçün, halal nemət, bol urzular.
Ona baxıb görə bilsin, insanlığın dünyasını,
Bağlamasın bu bəşərə məhəbbətin aynasını,
Onun kimi bu dünyada, şöhrət ilə dolansınlar,
Peyvənd olub ürəklərdən-ürəklərə calansınlar.
Mətin olub onun kimi, əyilməsin, qırılmasın,
Bərkdə-boşda inildəyib, çətinlikdən yorulmasın.
Göstərsinlər həyatında dəyanəti, qətiyyəti,
Xoş arzuyla yaşasınlar, incitməsin cəmiyyəti.
Ad qazansın onun kimi, insanlığa çata bilsin,
Nadanlığın, avamlığın mirasını ata bilsin.
Soruşulsa o kim idi, insanların müqəddəsi,
Öz adının qəhrəmanı, ən birinci sərkərdəsi,
Mən istərdim onun üçün poema yox, dastan yazım,
Söhbət açım hər tərəfli, sədaqətli dostdan yazım.
Təəssüf ki, bu insanla çox oturub-durmamışam,
Ünsiyyətim sıx olmayıb, çox öyrənib bilməmişəm.
Bağışlasın xalqım məni, azlıq edir tədqiqatım,
Gücüm çatmır geniş yazım, bu qədərdir məharətim.
Az bilmişəm bu insanda məchul qalan keyfiyyəti,
Yazammadım tamam-kamal, az göstərdim həqiqəti.

***Cəmil Əkbər*** 1976

## 226. TƏBRİK EDİR

*Azərbaycan Elmlər Akademiyanın müxbir üzvü,*
*fizika-riyaziyyat elmləri doktoru,*
***Professor Qoşqar Teymur oğlu Əhmədovun***
*50 illik yubileyi münasibətilə*

*Sizi bu gün təbrik edir,* bizim doğma Azərbaycan,
Gədəbəyli, Lənkəranlı, Daşkəsənli, Qarabağlı,
Bakı, Gəncə, Mingəçevir, Qazax, Tovuz bütün həryan.
Masallı da, Yardımlı da, Kəlbəcərli, Laçınlı da,
Naxçıvanlı, Balakənli, Şamaxılı, Şəkili də.

*Sizi bu gün təbrik edir,* əli yeni qələm tutan,
Yazı yazan, dərs oxuyan, bağ suvaran, pambıq dərən.
İnək sağan, mal otaran, yer şumlayan, toxum səpən,
Sülh işinə keşik çəkən, dağlar çapan, buruq qazan,
Elm öyrənən, əsər yazan, heykəltaraş, şəkil çəkən,
Bağ becərən, ağac əkən, körpə, cavan qocalar da,
Bizim evdar qadınlar da, analar da, bacılar da.

*Sizi bu gün təbrik edir,* zəhmətilə ucalanlar,
Zəfər çalıb bac alanlar, sizdən ilham, güc alanlar.
Tələbələr, aspirantlar, doktorantlar, dissertantlar.
Xanəndələr, aşıqlar da, sənətkarlar, xadimlər də,
Neçə-neçə qəzəlxanlar, şairlər də, ədiblər də.

*Sizi bu gün təbrik edir,* Nizamilər, Füzulilər,
Xaqanilər, Nəsimilər, Vaqifimiz, Vidadimiz,
Şirvanimiz, Sabirimiz, Müşviqimiz, Cavidimiz.
Vətənimin Vurğunu da, fikirlərin yorğunu da,
Üzeyiri, Bülbülü də, Cabbarı da, Xan dayı da.
Kiçik, böyük nəqədər var, başı qarlı uca dağlar,
Şah dağı, Kazbek, Ağrı dağ, Murov, Məndil, Dəli dağ da,
Çoban dağı, Şah dağı da, Kəpəz dağı, Qanlı dağ da.
Dəryalara, dənizlərə, axan çaylar, Dəli kürüm, Alazan da,
Səni bu gün təbrik edir, doğma ekiz qardaşın da,
Tarixlərdə izi qalan, bizim şanlı Oktyabr.

***Cəmil Əkbər*** 28. 10 -1967

## 227. FƏXR EDİR

*Azərbaycan Kənd Təsərrüfatı Elmlər Akademiyasının akademiki,*
*SSRİ dövlət mükafatı laureatı,*
***Professor Mirzə Hüseyn oğlu Sadıxovun***
*70 illik yubileyi münasibəti ilə*

Sizin ilə fəxr eləyir, el-obamız, doğma diyar,
Gətirdin ana Vətənə, şərəf-şöhrət, həm iftixar.

Həsədini çəkə bilər, başı qarlı uca dağlar,
Buna bil ki, Mirzə dayı, ləyaqətin, həm haqqın var.

Sizin ilə öyünürlər, Vətənimin alimləri,
Qocaları, çavanları, kolxozçusu, fəhlələri.

Xidmətində yaxşı durur, həyat dostun Şərəbanı,
Özü deyir sizin kimi, yaxşı yoldaş, ata hanı?

Sizin ilə fərəhlənir, qohum-qardaş nəki sağdır,
Siz bir qoca bağbansınız, əməliniz barlı-bağdır.

Hünərinə əhsən deyir, körpə, cavan, qarı, qoca,
Çox çalışıb, çox vuruşdun, başımızı etdin uca.

Dönə-dönə söz salırlar, sizə uzaq, yad olan da,
Xoş əməllə sevinənlər, öyünənlər şad olan da.[1247]

Yubleyinə təşrif edib, alim dostlar, həmkarların,
Siz ki, gövhər-kanısınız, qiymət verir sərrafların.

Təzim edir hüzurunda, xatirinə dəyənlər də,
Arxanızdan danışan da, üzünüzə gülənlər də,

Deyən yoxdur yorulmusan, kitab yazan, qələm tutan,
Xainliklə, xəbisliklə ünvanına böhtan atan.

Hünərinə əhsən deyir, insafını atanlar da,
Elmə doğru gedən yolda mürgüləyib, yatanlar da.

---

[1247] Sizə sağlıq arzulayan, xoş günündə şad olan da.

Yetirdiyin merinoslar, kəhrəba növ taxıllar da,
Şərəfinə darılan da, qəlbiqara paxıllar da.

Sizin ilə fəxr eləyir, zərif yunu toxuyanlar,
Qələmindən çıxanları dönə-dönə oxuyanlar.

Gəlib çıxır məclisinə, cızma-qara yazanlar da,[1248]
Öz yolunu büdrəyən də, çaşıb yolu azanlar da.

Səni bil ki, vəsf etməyə çatışmayır söz-söhbətim,[1249]
Tükənməzdi ehtiramım, sizə qarşı məhəbbətim.

Alqışlayır yubleyini, ümmanlara axan çaylar,[1250]
Yetmiş ildə keçirdiyin, ötən illər, günlər, aylar,

Siz inqilab oğlusunuz, bizim yeni dünyamızın,
Bizim şanlı partiyanın, bizim böyük dühamızın.

Zəmanəyə yolgöstərən, Leninin al bayrağının,
Gerbimizin, himnimizin, çəkicinin, orağının.

***Cəmil Əkbər*** 1965

### 228. BEL BAĞLA!

Dəli könül vəfası yox dünyanın,
Nə oğluna, nə qızına bel bağla!
Səfası az, cəfası çox dünyanın,
Nə çoxuna, nə azına bel bağla![1251]

Gündə bir dil ötən min havası var,
Min bir azarı var, min davası var,
Sanmaki gözəldir ab-havası var,
Nə siminə, nə sazına bel bağla!

---

[1248] Gəlib çıxır qənşərinə, cızma-qara yazanlar da.
[1249] Tamam-kamal, vəsf etməyə çatışmayır söz-söhbətim.
[1250] Sizi bu gün alqışlayır, ümmanlara axan çaylar.
[1251] *II variant* Cəfası çox, səfası az, dünyanın,
Nə çoxuna, nə azına bel bağla!
Bu ilqarsız, bu vəfasız dünyanın,
Nə yayına, nə yazına bel bağla!

Xain ürəklərin, saxta dillərin,
Şər-böhtan danışan fitnə-fellərin.
Bədxahlıq eyləyən pis nəsillərin,
Nə qışına,  nə yazına bel bağla!

Birkimsənin sədaqəti olmasa,
Ədaləti, həqiqəti olmasa,
Mərifəti ləyaqəti olmasa,
Nə ərkinə, nə nazına bel bağla![1252]

İnsafını, mürvətini atanın,
Qərq olaraq qəflətlərdə yatanın,
Mərd adamı, namərdlərə satanın,
Nə qoluna, nə dizinə bel bağla!

Oğrunun, əyrinin, varlı-hallının,
Dövlətli, sərvətli, cah-calallının,
Sərsəm fikirlinin, min xəyallının,
Nə çörəyi, nə duzuna bel bağla!

Meylini salmaynan  azana sarı,
Ayaqlar altından qazana sarı,
Ülfət-ünsiyyəti pozana sarı,
Nə yoluna, nə izinə bel bağla!

Ey Cəmil, görmüsən əzəldən bəri,
Çəkmisən zəhməti, tökmüsən təri,
Yoxdursa bazarda yaxşı müştəri,
Nə şerinə, nə sözünə bel bağla!

***Cəmil Əkbər***

---

[1252] *II variant* Birdə görürsənki şamu-şum edir,
Qarışqa, əqrəbə səni tam edir,
Sanmakı rəhm edir, o ənam edir,
Nə ərkinə, nə nazına bel bağla!

## 229. VİCDAN İŞƏ QARIŞMASA

Düzələndöy nə kənd, şəhər,[1253]
Vicdan işə qarışmasa.
Çəkəcəkdir qüssə-qəhər,[1254]
Vicdan işə qarışmasa.

Gələn olmaz doğru yola,
Azıb gedər sağa-sola,
Sahibini tutar tula,[1255]
Vicdan işə qarışmasa.

İnsanoğlu azğınlaşar,
Günü-gündən pozğunlaşar,
Vəhşiləşər, quzğunlaşar,
Vicdan işə qarışmasa.

Danacaqlar həqiqəti,
Doğruluğu, ədaləti,
İnsanlığı, ləyaqəti,
Vicdan işə qarışmasa.[1256]

Ha danışsan əsər etməz,
Soya gəlməz, kəsər etməz,
Fayda verməz, səmər etməz,
Vicdan işə qarışmasa.[1257]

---

[1253] Düzələn döy bu cəmiyyət.
[1254] Çəkəcəkdir çox əziyyət.
[1255] Düşəcəkdir kosa-kola.

[1256] *II variant* Gözdən düşər ədalət də,
Doğrulluq da, həqiqət də,
İnsanlıq da, ləyaqət də,
Vicdan işə qarışmasa.

[1257]*II variant* Öyüd sənə əsər etməz,
Soya gəlib, kəsər etməz,
Fayda verib, səmər etməz,
Vicdan işə qarışmasa.

Zəhmətimiz verməz bəhər,
Ha çalışsan axşam-səhər,
Bizi boğar qüssə-qəhər,
Vicdan işə qarışmasa.

Böyük-kiçik seçiləndöy,
Boya xələt biçiləndöy,
Xəyanətlər kiçiləndöy,
Vicdan işə qarışmasa.[1258]

İtib-batır xətir-hörmət,
Kara yetməz insaf, mürvət,
Daşa dəyər saf məhəbbət,
Vicdan işə qarışmasa.[1259]

Xələl gələr ünsiyyətə,
Pak arzuya, saf niyyətə,
Bəşər oğlu cəmiyyətə,
Vicdan işə qarışmasa.

İnsanoğlu dərk edənməz,
Birbirinə ərk edənməz,
Avamlığı tərk edənməz,
Vicdan işə qarışmasa.[1260]

---

[1258] *II variant* Böyük-kiçik süçilərmi?
Boya xələt biçilərmi?
Eniş-yoxuş keçilərmi?
Vicdan işə qarışmasa.

[1259] *II variant* Unudular haqq-say da,
Pozulacaq qanun-qayda,
Ondan olmaz bizə fayda,
Vicdan işə qarışmasa.

[1260] *II variant* İdrakımız dərk eləməz,
Cəhaləti tərk eləməz,
Möhüb düzüb ərk eləməz,
Vicdan işə qarışmasa.

Qəhətləşər nazü-nemət,
Bahalaşar hərbir qiymət,
Hamı çəkər çox məşəqqət,
Vicdan işə qarışmasa.[1261]

Görən gözlər kor olacaq,
Dünya bizə dar olacaq,
Çox igidlər xar olacaq,
Vicdan işə qarışmasa.[1262]

Loğman da gözdən düşəcək,[1263]
Söhbətdən, sözdən düşəcək,
Gecikməz, tezdən düşəcək,[1264]
Vicdan işə qarışmasa.

Qardaş-qardaşı unudar,
Yoldaş-yoldaşı unudar,
Çağdaş-çağdaşı unudar,
Vicdan işə qarışmasa.

Namərd mərdi tərlədəcək,
Böhtan deyib şərlədəcək,
Dağı-daşı hərlədəcək,
Vicdan işə qarışmasa.

Düz işləməz əql, kamal,
Nə əqidə, nə də amal,
Nə cavanlar, nə də ahal,[1265]
Vicdan işə qarışmasa.

---

[1261] *II variant* Bahalaşar nazü-nemət,
Ucuzlaşmaz dəyər-qiymət,
Bəşər çəkər çox əziyyət,
Vicdan işə qarışmasa.

[1262] *II variant* Məzlumlara zor olacaq,
Mərd igidlər xar olacaq,
Dünya bizə dar olacaq,
Vicdan işə qarışmasa.

[1263] Şərafət gözdən düşəcək.

[1264] Cığırdan izdən düşəcək.

[1265] Nə el-oba, nə də mahal.

Ayaq altdan qazılacaq,
Doğru tərsə yozulacaq,
Ünsiyyətlər pozulacaq,
Vicdan işə qarışmasa.

Qurtarmarıq cəhalətdən,
Kin-küdurət, ədavətdən,
Bədxahlıqdan, qəbahətdən,
Vicdan işə qarışmasa.

Göydə günəş də sönəcək,
Yunan, Həbəş də dönəcək,
Qəlbdə atəş də sönəcək,
Vicdan işə qarışmasa.

Aralığa düşər dava,
Korlanacaq təmiz hava,
Deyən olmaz haşa, tova[1266]
Vicdan işə qarışmasa.

Əql kəsməz, göz görənməz,
Çəhlim açıb, iz görənməz,
Doğru yolu düz görənməz,
Vicdan işə qarışmasa.

Hamı birbirindən küsər,
Ülfət-ünsiyyəti kəsər,
Ha desən də etməz əsər,
Vicdan işə qarışmasa.

Gədələr bəylik edəcək,
Ariflər keylik edəcək,
Hatəmlər “göylük” edəcək,
Vicdan işə qarışmasa.

[1266] Tova –tövbə etmək, tövbə mənasında.

Xətir-hörmət batıb itər,
Cəmi dərddən budur betər,
Cəmil, de kim dada yetər?
Vicdan işə qarışmasa.[1267]

***Cəmil Əkbər*** 17. 12 – 1990 // 10. 01– 1991

**230. ŞEİR MƏNİM…**

*I variant*
*Şeir mənim* həvəsim,
Gedib-gələn nəfəsim.
O qəlbimin, fikrimin,
Diləyimin səsidir,
Ürəyimin səsidir.
Kamalımın səsidir,
Amalımın səsidir.
Mahalımın səsidir,
İdrakımın səsidir.
Vicdanımın səsidir,
Xəyalımın səsidir,
İlhamımın səsidir,
Dərrakəmin səsidir.

*Şeir mənim* gözümdür,
Astarımdır, üzümdür.
Sinəmdə atəşimdir,
Düşüncəmdir, huşumdur.
Kefimdir, əhvalımdır,
Mənəvi camalımdır.
O mənim zəhmətimdir,
Hörmətim, izzətimdir.
Varımdır, dövlətimdir,
Mənəvi sərvətimdir.[1268]

---

[1267] *II variant* Nikbin olmaz Cəmil Əkbər,
Ömürboyu çəkər qəhər,
Gecə-gündüz, axşam, səhər,
Vicdan işə qarışmasa.

Məzmunum, hikmətimdir,
Saf arzum, niyyətimdir.[1269]
Dəyərim, qiymətimdir,
Kədərim, möhnətimdir.

*Şeir mənim* canımdır,
Damarımda qanımdır.
Yolumdur, ərkanımdır,
Şöhrətimdir, şanımdır.
O qəzəbim, hiddətim,
Düşmənlərə nifrətim.
Yumruğumdur, şilləmdir,
Tüfəngimdə gülləmdir.
O mənim əsərimdir,
Qılıncım, kəsərimdir.
O, dünənim, bu günüm,
Toy-büsatım, düyünüm.
O həm kefim, damağım,
Oynamağım, çalmağım.
Məhəbbətdən barımdır,
Sevgidən nübarımdır.
Nə deyib, nə sevinim?
Danışmağa dilimdir,
Çəmənimdə gülümdür.
İnsafım, mürvətimdir,
Xalqıma niyyətimdir.
Deyiləsi sözümdür,
Yolgöstərən izimdir.
Xəyalımın səhnəsi,
İlhamımın bəhrəsi.
Diqqətimin səsidir,
Riqqətimin səsidir.
Çəkiləsi dərdimdir,
Dostumdur, həmdəmimdir.[1270]

---

[1268] Tükənməz sərvətimdir.
[1269] Arzumdur, niyyətimdir.
[1270] Ən yaxın həmdəmimdir.

Sükanımdır, gəmimdir,
Bərəkətli zəmimdir,
Bükülməyən dizimdir.
Məni təmsil edənim,
Yadigarım, özümdür.

***Cəmil Əkbər*** 15. 01 -1974

### 231. ŞEİR MƏNİM…

*II variant*

*Şeir mənim* həvəsim,
Alıb verən nəfəsim.
O ucalan səsimdir,
Dilə düşsə bəsimdir,[1271]
Elə düşsə bəsimdir.
*Şeir mənim* əməyim,
Öz xalqıma köməyim.
*Şeir mənim* gözümdür,
Deyiləsi sözümdür.
*Şeir mənim* başımdır,
Gövhərimdir, daşımdır.
Ürəyimdə bəslənir,
Vərəqimdə səslənir.
*Şeir mənim* dərdimdir,
Həmqəmim, həmdəmimdir.
Seyr eyləyən xəyalım,
Həm kefim, həm məlalım.
*Şeir mənim* canımdır,
İliyimdir, qanımdır.
O mənim hörmətimdir,
O mənim qüdrətimdir.
O mənim mürvətimdir,
Xalqımla söhbətimdir.
Mənəvi sərvətimdir,
Düşmənə hiddətimdir,
Dostlara xidmətimdir.
O mənim sabahımdır,
Arxamdır pənahımdır.

---

[1271] Sərraf varsa bəsimdir.

*Şeir mənim* varımdır,
Namus, qeyrət arımdır.
Bağçamdakı barımdır,
Aranımdır, dağımdır,
Məhəbbətli çağımdır.
O mənim qəhərimdir,
Günəşli səhərimdir.
Ürək sözüm, yazımdır,
Öz ərkimdir, nazımdır.
*Şeir mənim* eşqimdir,
İdrakımda məşqimdir.
Könlümün nemətidir,
Eşqimin sərvətidir.
*Şeir mənim* kamalım
Vicdan, məslək, amalım.
Elim-obam, mahalım,
Var-dövlət, cah-calalım.[1272]
O mənim ürəyimdir,
Mənəvi dirəyimdir.
Şadarm, ələyimdir,
Dar gündə gərəyimdir.
O biləyim, diləyim,
Həm qanadım, lələyim.
Odur mənim qismətim,
Ar-namusum, ismətim.
Müdrik fikirlə zəngin,
Dərin kəlam hikmətim.

*Şeir məni* qınadıb,
Bərkdə-boşda sınadıb.
Dostlarıma tanıdıb,
Düşmənimə yanıdıb.
*Şeir məni* səsləyib,
Şair kimi bəsləyib.
*Şeir mənim* qəmimdir,
Kef-damağım, dəmimdir.

---

[1272] Varım, halım cəlalım.

Dərdi-sərim qəmimdir.
O tarlamdı, zəmimdi,
Fürsət düşsə çəmimdi.
Odur mənim təsəllim,
Yolgöstərən müəllim.
Dərk etməyi öyrədir,
Ərk etməyi öyrədir.
Düşünməyi öyrədir,
İsinməyi öyrədir.
Anlamağı öyrədir,
Banlamağı öyrədir,
Yanlamağı öyrədir.
Yazmağı, pozmağı da,
Qazmağı da öyrədir.

Odur məni yaşadan,
Dərdi-qəmi daşıdan.
Kəhkəşanım, nişanım.
Odur sırdaşım mənim,
Odur qardaşım mənim.
Sırdaş yoldaşım mənim.
*Şeir mənim* dilimdir,
Çəmənimdir, gülümdür,
Könlümün nemətidir,
Xalqıma niyyətimdir.
*Şeir mənim* xalqıma,
Öz yurduma, yuvama.
Deyiləsi sözümdür,
Yolgöstərən izimdir,[1273]
Bükülməyən dizimdir.[1274]
Öz obama, elimə,
Yadigarım, özümdür.

***Cəmil Əkbər*** 15. 01 -1974

[1273] Salınası izimdir.
[1274] Qatlanmayan dizimdir.

**232. ŞEİR MƏNİM…**

*III variant*

*Şeir mənim* həvəsim,
Gedib-gələn nəfəsim.
Zəhmətimin barıdır,
Niyyətimin barıdır.
O mənəvi camalım,
O dərrakəm, kamalım.
O məsləkim, amalım,
Kefim, dərd-qəm məlalım.
O mənəvi dövlətim,
Varım-halım sərvətim.
Nemətimdi o mənim,
Hikmətimdi o mənim.
İdrakımın, fikrimin,
Düşüncəmin, zikrimin.
Mahalımın səsidir,
Amalımın səsidir,
İlhamımın səsidir.
*Şeir mənim* canımdır,
Damarımda qanımdır.
Gövhərimdir, kanımdır,
Zülalımdır, şanımdır.
O dünənim, bu günüm,
Həm toyum, həm düyünüm.
Nə demişəm sevinəm?
Nə yazmışam öyünəm?
Məhəbbətdən barımdır,
Sevgidən nübarımdır.
*Şeir mənim* gözümdür,
Astarımdır, üzümdür.
İnsafım-mürvətimdir,
Xətirim, hörmətimdir.
Deyiləsi sözümdür,
Yolgöstərən izimdir.
Bükülməyən dizimdir,
Yadigarım, özümdür.

Xoş arzudur, diləkdir,
Eşidənə gərəkdir.
Dostlarıma fərəhdir,
Düşmənimə qəhərdir.
Diqqətimin səhnəsi,
Riqqətimin bəhrəsi.
Diləyimin səsidir,
Ürəyimin səsidir.

***Cəmil Əkbər*** 15. 01 -1974

**233. GÖRMÜŞƏM**

Ha gördüsə, ha baxdısa, çox gözləri kor görmüşəm,
Yağlı-yağlı deyilsə də, çox sözləri şor görmüşəm.
Gedə-gedə, gələ-gələ, çox izləri dar görmüşəm,
Gen dünyanı xəlbir, ələk ondan da sıx tor görmüşəm.
Çox da olsa şeşəqulaq, mən yazığı kar görmüşəm,
Mənəm-mənəm deyənləri, çoxlarını xar görmüşəm.
Çoxlarını soyuqqanlı, vicdanında qor görmüşəm,
Onu-bunu o əzsə də, özlərini zar görmüşəm.
Mərd igidin səxasını, harda olsa var görmüşəm,
Çoxlarını qəlbibuzlu, ürəyində qar görmüşəm.
Qəlbiqara, vicdanıkəm, viranədə sar görmüşəm,
Danışanda zəhər tökən, neçəsini mar görmüşəm.[1275]
Görünsədə qol-butaqlı, kəlləsini şar görmüşəm,
Elə, xalqa qəsd edəni, şahin-şonqar, sar görmüşəm.
Qoyun heçkəs deməsin ki, namus, qeyrət, ar görmüşəm,
Həm müqəddəs, həm də ülvi, sədaqətli yar görmüşəm.
Yoxdu qardaş yerdə-göydə, hey gəzirəm, nar görmüşəm,
Gedib çıxdım gədiklərə, baxıb-baxıb tar görmüşəm.

***Cəmil Əkbər*** 1987

[1275] Olsada insan donunda, neçə əfi, mar görmüşəm.

### 234. DANDILAR

Gör nəqədər nanəciblər var imiş?
Vicdanı kəm, gözü-könlü kor imiş.
Qədirbilməz, nanıkorlar var imiş,
Yer üzündə ziyankarlar var imiş.
Neçə-neçə qananları dandılar,
Alimləri, loğmanları dandılar.
Hərbiryanı fitnə-fəsad bürüdü,
Məsləki kəm, əqli-kasad bürüdü.
Haqq-divanı, ədaləti dandılar,
Yaradanı, quranları dandılar,
Özlərini yaranları dandılar,
Əzab çəkən möhnətkeşi dandılar.
Haqqın səsi harda varsa boğuldu,
Sandılarki bəlkə özü doğuldu.
İnsanlığı, ləyaqəti dandılar,
Əhdi-peyman, sədaqəti dandılar.
Hatəmliyi, səxavəti dandılar,
İnsaf-mürvət, kəraməti dandılar.
Görə-görə görən gözlər kor oldu,
Eşitmədi, qulaqlar da kar oldu.
Belə çıxdı, göydə günəş yox imiş,
Yunan, Misir, nə də Həbəş yox imiş.
Gör nəqədər şərafəti dandılar?
Qızılgüldə təravəti dandılar?
Gör bir kimlər məhv edildi dünyada?
Qəsd-qərəzlə səhv edildi dünyada?
Çox xətirli, hörmətlini dandılar,
Ar-namuslu, qeyrətlini dandılar.
Gör nəqədər qəbahətlər var imiş?
Kin-küdurət, ədavətlər var imiş?
Nadanlıqlar, rəzalətlər var imiş?
Müsibətlər, fəlakətlər var imiş.
Gör nəqədər məharəti dandılar?
Günəşdəki hərarəti dandılar?
Çiçəkdəki təravəti dandılar?
Zərifliyi, məlahəti dandılar?
Gör nəqədər fərasəti dandılar?
Hünərləri, cəsarəti dandılar?

O səbəbdən zülmət çökdü yerlərə,
Əzab çökdü, zillət çökdü yerlərə.
Qüssə çökdü, möhnət çökdü yerlərə,
Bəla çökdü, hillət çökdü yerlərə.
Yer üzündə dava-dalaş başladı,
Səksəkələr, qorxu, təlaş başladı.
Səmimiyyət, ünsiyyətlər pozuldu,
Əyri düzə, düz əyriyə yozuldu.
Yedikləri çörəyi də dandılar,
Aldıqları köməyi də dandılar,
Xoş arzunu, diləyi də dandılar.
Düşdükləri şəraiti dandılar,
Quran-kitab, şəriəti dandılar,
Gör nəqədər kütbeyinlər var imiş?
Kəlpeysərlər, ətbeyinlər var imiş?
Dünyada nəqədər nadan var imiş?
Haqq-say itirib, udan var imiş?
Nəqədər vicdanı daşlar var imiş?
Fikri, düşüncəsi çaşlar var imiş?
Paxıllar, xainlər, xəbis var imiş?
Sirri açılmamış hədis var imiş?
Gör nəqədər məhəbbəti dandılar?
Sağlam arzu, pak niyyəti dandılar?
İxtiyarı, sədarəti dandılar?
Dözüm-durum, dəyanəti dandılar?
Doğru-düzgün bəyanəti dandılar?
İdraklardan ənaəti dandılar?
Bir bu qədər cəmaəti dandılar?
Belə çıxdı, haqq-ədalət yox imiş,
Nə fərasət, nə ləyaqət yox imiş.
Xeyirxahlıq, nə fəzilət yox imiş,
Ədəb-ərkan, nə mərifət yox imiş.
Gör nəqədər yediyini dandılar,
Dönə-dönə dediyini dandılar.
Oxuduğu, bildiyini dandılar,
Diri-diri öldüyünü dandılar.
Nədir bu ədavət, bu kin, bu küdrət?
Nədir bu nadanlıq, nədir cəhalət?
Nədir bu xəyanət, nədir qəbahət?

Nədir bu cinayət, nədir şikayət?
Niyə düz deyənin dili kəsilsin?
Ayağı kəsilsin, əli kəsilsin?
Niyə həqiqəti danalar gərək?
Cəhənnəm oduna yanalar gərək?
Niyə düz danışıb, demək ar olsun?
Düşüb el gözündən, gərək xar olsun?
Nəolar, yolunu azan olmasa?
Ayaqlar altından qazan olmasa?
Nəolar, dünyada dava olmasa?
Zəhərə qarışmış hava olmasa?
Gərək qaralara ağdı deyilsin?
Gərək təpələrə dağdı deyilsin?
Nəolar ləyaqət boğulmasaydı?
Cəhalət, nadanlıq doğulmasaydı?
Aranı-bərəni qatan olmaya?
İblislər, əqrəblər, şeytan olmaya?
Nəolar güllərdə təravət olsa?
Günəşdə əbədi hərarət olsa?
İnsandan-insana səxavət olsa?
Ürəkdə məhəbbət, mərhəmət olsa?
Nəolar yolları düz gedəbilsə?
Məkana, mənzilə tez yetəbilsə?
Yanılıb dağlara, daşa düşməsə?
Borana qərq olub qışa düşməsə?
Nəolar əl tutub, hal sorabilsə?
Hamıdan gec yatıb, tez dura bilsə?
Nəolar hamının dilini qansaq?
İncisini qansaq, ləlini qansaq?
Gəl bir-birmizi zəhərləməyək,
Salıb müsibətə qəhərləməyək.
Bir-birmizi daha bezdirməyək biz,
Salıb əzablara dözdürməyək biz.
Yıxılan kimsənin qolundan tutaq,
Sağından yapışıb, solundan tutaq.
Yetər, sinələri dağlamayaq biz,
Baxıb bədəmələ ağlamayaq biz.
Məzmunlu, mənalı, hikmətli olaq,
Saxlayıb dəyəri, qiymətli olaq.

Vədəsiz əyməyək vüqarımızı,
Saxlayaq, pozmayaq ilqarımızı.
Daha heçkimsəyə qəsd eyləməyək,
Yeməmiş, içməmiş, məsd eyləməyək.
Böyüyün, kiçiyin qədrini bilək,
Tutaq nəbzləri, dərdini bilək.
Qoymayaq nə qovğa, nə də qal olsun,
Nə qüssə, nə kədər, nə məlal olsun.
Qoymayaq tərsinə adanlar olsun,
Haqq-say sümürüb udanlar olsun.
Qoymayaq dünyanı zəhərləsinlər,
Qoymayaq insanı qəhərləsinlər.
Gör kimləri məhbəslərə saldılar?
Yağı cəllad qisasını aldılar?
Gör nəqədər şərafəti dandılar?
Bacarığı, məharəti dandılar?
Gör nəqədər sızıldadı, inlədi?
Qövr eylədi, yaraları simlədi?
Haqqın səsi gözgörəti boğuldu,
Gur çeşmələr lap gözündən soğuldu.
Gör nəqədər zirvələrdən endilər?
Məhbəslərdə, zindanlarda dindilər?
Qaraldılar, qarsıxdılar, söndülər?
Haqq-nahaqdan mətləbindən döndülər?
Gör nəqədər zülm edildi bəşərə?
Miras qaldı vay-şivənlər səhərə?
Bu necə həmkarlıq, bu nə yoldaşlıq?
Necə tay-tuşluqdur, bu nə sirdaşlıq?
Gör nəqədər insanlığı dandılar?
Qocalığı, cavanlığı dandılar?
Zaman gəlsin, haqq-divanlar qurula,
Damarlarda qara qanlar durula.
Səhv edənin qulağını buralar,
Qərar verib lap üzünə duralar.
Baş qaldırdı, haq yoluna düzəldi,
Həm sağına, həm soluna düzəldi.
Əfsus olsun çox ləyaqət danıldı,
Çox doğruluq, çox həqiqət danıldı.

***Cəmil Əkbər*** 27. 01 – 1991

## 235. AĞIL VER BİZƏ

Ağılsız, kamalsız yaşamaq olmur,
Həyatın yükünü daşımaq olmur.
İnsan bir-birini bezdirir yaman,
Əzab-əziyyətə dözdürür yaman.
Nəqədər vədəsiz ölüb gedirlər,
Bağrının başını dəlib gedirlər.
Gözünün yaşını silib gedirlər,
Çarəsiz qalaraq gəlib-gedirlər.
Kərəm et ilahi ağıl ver bizə,
Onu verəndə də mağıl ver bizə.
Cəhalət içində qalmışıq Allah,
Fikir, xəyallara dalmışıq Allah.
Asan da bizlərik, kəsən də bizik,
İnciyən də bizik, küsən də bizik.
Alıb korqəpiyə, satan da bizik,
Günah çamırına batan da bizik.
Dağılıb talanan, sökülən bizik,
Qaməti yay kimi bükülən bizik.
Sinəsinə dağlar çəkilən bizik,
Qanları torpağa tökülən bizik.
Qəbahət içində çürüyürük biz,
Alovsuz, ocaqsız əriyirik biz.
Fikirdə, xəyalda çaşan da bizik,
Çıxıb əndazədən aşan da bizik.
Qərq olub xəzanda solan da bizik,
Gözləri yollarda qalan da bizik.
Ünsiyyət-ülfəti pozan da bizik,
Ayaqlar altını qazan da bizik.
İlahi, amandır ağıl ver bizə,
Onu əsirgəmə mağıl ver bizə.
Əzilən olmasın, əzən olmasın,
Avara, boş-bikar gəzən olmasın.
Qal-qovğa kəsilsin, dava olmasın,
Zəhərə qarışmış hava olmasın.
Ucuz alıb, baha satan olmasın,
Vicdan-məslək daha satan olmasın.
İlahi kərəm et, ağıl ver bizə,
Onu doğru-dürüst mağıl ver bizə.

***Cəmil Əkbər*** 29. 06 – 1994

## 236. BİLMİRƏM

Biri mənlə söhbət etdi, olanlardan, qalandan,
Oğulsansa indi ayır, doğrusunu yalandan.
Söylədi ki, bu da heçdir, nanəcibin birisidir,
Qarınqulu, çox acgözdür, tamahının hərisidir.
Dedim, dostum bir söhbət aç, qananlardan bir danış,
El dərdinə qalanlardan, yananlardan bir danış.
Seyrə çıxıb uzaqları görənlərdən de, danış,
Öz borcunu Vətəninə verənlərdən de, danış.
Dilləndi ki, mənim gözüm ləyaqəti görə bilmir,
Doğruluğu, düzgünlüyü, həqiqəti görə bilmir.
İnsanlığa layiq olan əlaməti görə bilmir,
Mahiyyəti anlayanmır, məziyyəti görə bilmir.
Hərkəsdənin çəkdikləri zəhmətini görə bilmir,
Qayğısını, yardımını, xidmətini görə bilmir.
Şərəfini dərk eyləyib, şöhrətini görə bilmir,
Dəyərinə nəzər salıb, qiymətini verə bilmir.
Dedim dostum bu dünyada acı da var, şirin də var,
İsti də var, soyuq da var, dayaz da var, dərin də var.
Çirkinliyi görürsənsə, gözəli də bir gör barı,
Məhəbbətin yetirdiyi nübarını bir dər barı.
Orda-burda tikan varsa, gülləri də vardır onun,
Darçını da, müxəyi də, hilləri də vardır onun.
İnsaf eylə, mürvət eylə, yaxşılara pis demə gəl,
Nə qızıla, nə gümüşə dəmir-dümür, mis demə  gəl.
O söylədi mənim gözüm, çirkinləri tezcə görür,
Harda varsa naxələfi, naqisləri tezcə görür.
Xainləri, paxılları, xəbisləri tez görürəm,
Acgözləri, tamahkarı,  hərisləri tez görürəm.
Nadanlığı, avamlığı, cəhaləti tez görürəm,
Ünsiyyətdə, ülfətlərdə, qəbahəti tez görürəm.
Oğulsansa digəl başaç, düzmü deyir o sözünü?
Nahaq-haqla vuruşanda yummayıbki o gözünü?
Dərindənmi o düşünür, üzmü deyir o sözünü?
Bişirməmiş, düşürməmiş tezmi deyir o sözünü?
Nə danışıb söyləyəsən, beləsinə mən bilmirəm?
Fitnəsi nə, kələyi nə, hiyləsi nə mən bilmirəm.

***Cəmil Əkbər*** 7. 11 – 1993

## 237. BİLMİRƏM

El varına şülən çəkən tamahkarlar, hərislər,
Məni yaman incidirlər, səni necə, bilmirəm?!
Əsli, nəsli, kōküzaylar, nanəciblər, naqislər,
Məni yaman incidirlər, səni necə, bilmirəm?!

Ədəb, ərkan bilməyənlər, xətir-hörmət qanmayan,
Məsləkini unudaraq, haqq-sayı anmayan,
Ağır eli-obaları, milçək qədər sanmayan,
Məni yaman incidirlər, səni necə, bilmirəm?!

Öz-özünü xar eyləyən, el töhməti götürən,
Arzusunda, istəyində qanqal əkib bitirən,
Mənliyini gözləməyən, ləyaqəti itirən,
Məni yaman incidirlər, səni necə, bilmirəm?!

Nəfsinə kölə olaraq öz xalqını soyanlar,
Zəli kimi qanlar sorub, harınlaşıb doyanlar,
Nəzir-niyaz paylayaraq, günahını yuyanlar,
Məni yaman incidirlər, səni necə, bilmirəm?!

Yoğurmamış yapmamışdan hazır kökə tapanlar,
Yavısını köhlən bilib, eniş-yoxuş çapanlar,
Min kələklə, hiylələrlə, xətalardan sapanlar,
Məni yaman incidirlər, səni necə, bilmirəm?!

Ədalətdən üz döndərən, yollarından azanlar,
Ünsiyyəti korlayaraq, ülfətləıri pozanlar,
Arxalardan külüngləyib, ayaq altdan qazanlar,
Məni yaman incidirlər, səni necə, bilmirəm?!

Bədxahları vəsf edərək, xeyirxahı pisləyən,
İnsanları avamlığa sürükləyən, səsləyən,
Ürəyində əqrəbləri, iblisləri bəsləyən,
Məni yaman incidirlər, səni necə, bilmirəm?!

Zəhmət çəkmədən qazanıb, möhübləri düzənlər,
El bağını becərməmiş, meyvəsini üzənlər,
İş görməyən, güc görməyən, aralıqda gəzənlər,
Məni yaman incidirlər, səni necə, bilmirəm?!

Sahibinə çəmkirərək tula kimi hürənlər,
Özgələrə şırvanaraq, sabınlanıb girənlər,
Nə deyirlər beləsinə eşidənlər, görənlər?
Məni yaman incidirlər, səni necə, bilmirəm?!

İncəliyi düşünməyən, dərk etməyən qanmayan,
Böyük-kiçik pəsinməyən, ədəb-ərkan sanmayan,
Dünya yansa bir tükü də alışmayan, yanmayan,
Məni yaman incidirlər, səni necə, bilmirəm?

Yeyib-içib kef edənlər, ədəbazlar, lovğalar,
Güllü bağda pərvaz edən sağsağanlar, qarğalar,
Başımıza oyun açan hoqqabazlar, darğalar,
Məni yaman incidirlər, səni necə, bilmirəm?!

***Cəmil Əkbər*** 29. 07 – 1987

## 238. QANA BİLMİR

Düşüncə, təfəkkür, kamala bax-bax,
Hamı düşünsə də, bir qana bilmir.
Tutara, çəkiyə sambala bax-bax,
Nurani, ağsaqqal, pir qana bilmir.

Çoxları seçənmir yaxşını pisdən,
Qalayı gümüşdən, qızılı misdən,
Qisası qərəzdən, qərəzi qəsddən,
Yelbeyin, kəmağıl ər qana bilmir.

Hamıya bildirib söz demək olmur,
Anla demək olmur, sez demək olmur,
Mətləbi qandırıb düz demək olmur,
Car edir ellərə sirr qana bilmir.

Çoxları dırmaşıb çıxıbdır başa,
Möhüb də düzməyir qardaş-qardaşa,
Həmkarlar-həmkara, yoldaş-yoldaşa,
İgidi tanımır, nər qana bilmir.

Çalışır araya dava salmağa,
Zəhərə qarışmış hava salmağa,
Qeylü-qal salmağa, qovğa salmağa,
Xeyir başa düşmür, şər qana bilmir.

Hərkəs yavısını irəli sürür,
Desən də hamıya zərəli görür,
Köpəktək çəmkirir, dartınıb hürür,
Nə zəhmət, nə xidmət, tər qana bilmir.

Zərgərin yerində nalbənd oturub,
Süyüşüb irəli, xəlvət oturub,
Gicbəsər, kəmağıl, səyvənd oturub,
Yaqut nə, almaz nə, dürr qana bilmir.

Deyib danışmaqla eyninə gəlmir,
Küsüb barışmaqla beyninə gəlmir,
Gəlib soruşmaqla zehninə gəlmir,
Araz topuğundan, Kür qana bilmir.

Belədir ay Cəmil, küt oğlu kütlər,
Müqəvvasayağı büt oğlu bütlər,
Dadamal, əniklər, lüt oğlu lütlər,
Nə inci, nə sədəf, zər qana bilmir.

***Cəmil Əkbər***

**239. KİMƏ GƏRƏKSƏN YAZIQ?**

Əgər yoxsa hörmətin,
Kimə gərəksən yazıq?
Abır-həya, ismətin,
Kimə gərəksən yazıq?

Əgər yoxsa xidmətin,
Ədəb-ərkan, mərfətin,
Məna, ya məziyyətin,
Kimə gərəksən yazıq?

Nə taxıl becərmisən,
Nə pambıq becərmisən,
Nə kartof  becərmisən,
Kimə gərəksən yazıq?

Heç toyuğa baxmısan?
Mal-qara otarmısan?
Naxırı qaytarmısan,
Kimə gərəksən yazıq?

Nə şöhrətə çatmısan,
Nə şərəfə çatmısan,
Məharətə çatmısan,
Kimə gərəksən yazıq?

Nə bacıya yaradın,
Nə qardaşa yaradın,
Nə yoldaşa yaradın,[1276]
Kimə gərəksən yazıq?

Nə ellərə yaradın,
Nə güllərə yaradın,
Nə sellərə yaradın,
Kimə gərəksən yazıq?

Nə istini görmədik,
Nə kölgəni görmədik,
Nə dingəni görmədik,
Kimə gərəksən yazıq?

Nə şəstini görmədik,
Nə dəstini görmədik,
Nə postunu görmədik,
Kimə gərəksən yazıq?

Nə səsini eşitdik,
Nə bəhsini eşitdik,
Nə dəsini eşitdik,
Kimə gərəksən yazıq?

Nə sözünün duzu var,
Nə əyrisi, düzü var,
Nə günəş, ulduzu var
Kimə gərəksən yazıq?

[1276] Nə sirdaşa yaradın.

Nə dərəsən, nə təpə,
Nə dənizsən, nə ləpə,
Nə qayasan, nə qəlpə,
Kimə gərəksən yazıq?

Nə şanın var, şöhrətin,
Nə namusun, qeyrətin,
Nə insafın, mürvətin,
Kimə gərəksən yazıq?

Nə sovqatın, nə payın,
Varmı çörəyin, çayın?
İtil gözümdən yayın!
Kimə gərəksən yazıq?

Nə adın var, nə sanın,
Nə vicdanın, nə qanın,
Nə balın var, nə şanın,
Kimə gərəksən yazıq?

Çox əzilib büzülmə,
Nə incəlib nəzilmə,
Nə qatardan üzülmə,
Kimə gərəksən yazıq?

Nə abır var, nə həyan,
Nə əqidən, nə qayən,
Nə kölgən var, nə sayən,[1277]
Kimə gərəksən yazıq?

Ulğun təbiətlisən,
Söyüd lətafətlisən,
Kətəyən taqətlisən,
Kimə gərəksən yazıq?

***Cəmil Əkbər*** 17. 02 – 1991

---

[1277] Eşit məni, gəl dayan.

## 240. HEÇDİ HƏYAT

Tapdanarsa qanun-qayda,
Olmaz ondan bizə fayda,
Bəd gələcək il də, ay da,
Heçdi həyat, puçdu həyat,
Saxta, yalan, suçdu həyat.

Sayan yoxsa ədaləti,
Doğruluğu, həqiqəti,
Görən yoxsa nihayəti,[1278]
Heçdi həyat, puçdu həyat,
Saxta, yalan, suçdu həyat.

Ünsiyyətlər pozulursa,
Doğru tərsə yozulursa,
Xətir-hörmət azalırsa,
Heçdi həyat, puçdu həyat,
Saxta, yalan, suçdu həyat.

Ürək olsa məhəbbətsiz,
Sağlam fikir, saf niyyətsiz,
Ədəb-ərkan mərifətsiz,[1279]
Heçdi həyat, puçdu həyat,
Saxta, yalan, suçdu həyat.

Baxan yoxsa nəzakətə,
Xeyirxahlıq-fəzilətə,
Düşərik min bir zillətə,
Heçdi həyat, puçdu həyat,
Saxta, yalan, suçdu həyat.

Sayan yoxsa ağsaqqalı,
Dərdbiləni, əhli-halı,
Kəsən varmı qeylü-qalı?
Heçdi həyat, puçdu həyat,
Saxta, yalan, suçdu həyat.

---

[1278] İnsanlığı, ləyaqəti.
[1279] Din məzhəbsiz, şəriətsiz.

Ürək qalsa xəyanətdə,
Kin-küdurət, ədavətdə,
Xəta-bəla cinayətdə,[1280]
Heçdi həyat, puçdu həyat,
Saxta, yalan, suçdu həyat.

Son qoymasaq cəhalətə,
Avamlığa, qəbahətə,[1281]
Xəbisliyə, xəyanətə,[1282]
Heçdi həyat, puçdu həyat,
Saxta, yalan, suçdu həyat.

Nəqədərki yalan olur,
Könül mülkü talan olur,
Vaxt-vədəsiz solan olur,
Heçdi həyat, puçdu həyat,
Saxta, yalan, suçdu həyat.

Çatışmasa kamalımız,
Əqidəmiz, amalımız,
Bu mənəvi camalımız,[1283]
Heçdi həyat, puçdu həyat,
Saxta, yalan, suçdu həyat.

Gözü yolda qalan varsa,
Saçlarını yolan varsa,
Ondan ilham alan varsa,
Heçdi həyat, puçdu həyat,
Saxta, yalan, suçdu həyat.

Qardaş-qardaşı saymasa,
Yoldaş-yoldaşı saymasa,
Çağdaş-çağdaşı saymasa,[1284]
Heçdi həyat, puçdu həyat,
Saxta, yalan, suçdu həyat.

---

[1280] Giley-güzar şikayətdə.
[1281] Addımbaşı qəbahətə.
[1282] Giley-güzar, şikayətə.
[1283] Çoxalacaq məlalımız.
[1284] Taytuş-taytuşu saymasa.

Yaxşılara pis deyilsə,
Zalım, qəddar, nəs deyilsə,
Höcət, inad, tərs deyilsə,
Heçdi həyat, puçdu həyat,
Saxta, yalan, suçdu həyat.

Ağa-qara deyilərsə,
Tama para deyilərsə,
Yoxdu çara deyilərsə,
Heçdi həyat, puçdu həyat,
Saxta, yalan, suçdu həyat.

Düzəltməsək əyənləri,
Qazanmamış yeyənləri,
Toxumamış geyənləri,[1285]
Heçdi həyat, puçdu həyat,
Saxta, yalan, suçdu həyat.

Ağlayanı güldürməsək,
Gözyaşını sildirməsək,
Azğınları öldürməsək,
Heçdi həyat, puçdu həyat,
Saxta, yalan, suçdu həyat.

Alim keylik eyləyərsə,
Gədə bəylik eyləyərsə,
Gəlib eylik eyləyərsə,
Heçdi həyat, puçdu həyat,
Saxta, yalan, suçdu həyat.

Kin yaşasa ürəklərdə,
Süstləşər qol-biləklər də,
Sərt əsəcək küləklər də,
Heçdi həyat, puçdu həyat,
Saxta, yalan, suçdu həyat.

[1285] Könüllərə dəyənləri.

Meydan açsa başıboşlar,
Vicdanı kəm, qəlbi daşlar,
Filə hürsə alabaşlar,
Heçdi həyat, puçdu həyat,
Saxta, yalan, suçdu həyat.

Yaxşı pisə qarışırsa,
Köpək-qurdla barışırsa,
Sürülərə sırışırsa,
Heçdi həyat, puçdu həyat,
Saxta, yalan, suçdu həyat.

Tapdalanan, əzən varsa,
Canlarından bezən varsa,
Zülmlərə dözən varsa,
Heçdi həyat, puçdu həyat,
Saxta, yalan, suçdu həyat.

Hörmət varsa həyasıza,
Əqidəsiz, qayəsizə,
Təlimdən kəm dayəsizə,
Heçdi həyat, puçdu həyat,
Saxta, yalan, suçdu həyat.

Alanlardan satan çoxsa,
Günahlara batan çoxsa,
Qəflətlərdə yatan çoxsa,
Heçdi həyat, puçdu həyat,
Saxta, yalan, suçdu həyat.

İlqarına dönük varsa,
El malına ənik varsa,
Hərbir səmtə yönük varsa,
Heçdi həyat, puçdu həyat,
Saxta, yalan, suçdu həyat.

Çoxalırsa dəllal, baqqal,
Baş ağrıdan sarsaq, naqqal,
Ac-yalavac tülkü, çaqqal,
Heçdi həyat, puçdu həyat,
Saxta, yalan, suçdu həyat.

Əkən-biçən azalıbsa,
Yaxşı seçən azalıbsa,
Candan keçən azalıbsa,
Heçdi həyat, puçdu həyat,
Saxta, yalan, suçdu həyat.

Doğru yola düzəlməsək,
Törpülənib nəzilməsək,
Bədəməldən əl çəkməsək,
Heçdi həyat, puçdu həyat,
Saxta, yalan, suçdu həyat.

Yazılanı oxumasaq,
Ətirini qoxumasaq,
Xətalardan sovuşmasaq,
Heçdi həyat, puçdu həyat,
Saxta, yalan, suçdu həyat.

Seyrə çıxıb düz görməsək,
Tam anlayıb, duz görməsək,
Ayrılaraq tez görməsək,
Heçdi həyat, puçdu həyat,
Saxta, yalan, suçdu həyat.

Dərk eyləyib anlamasaq,
Özümüzü danlamasaq,
Kötəkləyib yanlamasaq,
Heçdi həyat, puçdu həyat,
Saxta, yalan, suçdu həyat.

Həqiqəti görənməsək,
Bağlar salıb dərənməsək,
Borcumuzu verənməsək,
Heçdi həyat, puçdu həyat,
Saxta, yalan, suçdu həyat.

Cəmil Əkbər beylə gördü,
Çox kələklər, hiylə gördü,
Ona-buna tələ gördü,
Heçdi həyat, puçdu həyat,
Saxta, yalan, suçdu həyat.

***Cəmil Əkbər*** 28. 08 – 1994

## 241. DÖZMÜŞƏM

Vaxt olubki, təpiyə, şilləyə də dözmüşəm,[1286]
Bombalara, mərmiyə, gülləyə də dözmüşəm.[1287]
Qasırğaya, borana, sazağa da dözmüşəm,
Doğma-yaxın, yadlara, uzağa da dözmüşəm.
Təzyiqə də tablaşıb, təhqirə də dözmüşəm,
Məşəqqət, zülm-zillət, məhşərə də dözmüşəm.
Haqsızlığı görmüşəm, xəyanətə dözmüşəm,
Giley-güzar, qeybətə şikayətə dözmüşəm.
Xainlərə, paxıla, xəbisə də dözmüşəm,
Tamahkirə, acgözə, hərisə də dözmüşəm.
Nanəcibə, namərdə, naqisə də dözmüşəm,
Bədəsilə, bədzada, nacinsə də dözmüşəm.
Anlamaza, qanmaza, nadana da dözmüşəm,
Tərbiyədən yarımçıq dadana da dözmüşəm.
Haqq-sayı sümürüb udanlara dözmüşəm,
Addımını tərsinə adanlara dözmüşəm.
Ünsiyyəti-ülfəti pozanlara dözmüşəm.
Şər danışıb deyənə, yazanlara dözmüşəm,
Ayaq altdan quyular, qazanlara dözmüşəm.
Hiyləgərə, biclərə, yaltaqlara dözmüşəm,
Çaqqallara dözmüşəm, baqqallara dözmüşəm.
Abır-ismət bilməyən sırtıqlara dözmüşəm,
Sıramızda yer tapan artıqlara dözmüşəm.
Kinayəli baxışa, gözlərə də dözmüşəm,
Yalan-yanlıc deyilən sözlərə də dözmüşəm.
Kabab kimi baxışa, közlərə də dözmüşəm,
Şahrah yollar bağlayıb, izlərə də dözmüşəm.
İlqarında bivəfa, imansıza dözmüşəm,
Əhdə dönük çıxana, peymansıza dözmüşəm.
Abırsıza, arsıza, həyasıza dözmüşəm,
Əqidəsiz, məsləksiz, qayəsizə dözmüşəm.
Kətəyəntək, ulğuntək sayəsizə dözmüşəm,
Quran, kitab bilməyən ayəsizə dözmüşəm.
Gör nəqədər İlahi cəhalətə dözmüşəm?[1288]

[1286] Vaxt olubki, təpiyə, şillələrə dözmüşəm,
[1287] Neçə eniş-yoxuşa, pillələrə dözmüşəm.
[1288] Gör nəqədər tablaşıb, cəhalətə dözmüşəm?!

Nöqsanlara, xətaya, qəbahətə dözmüşəm,[1289]
Pis vərdişə rast gəlib, pis adətə dözmüşəm.
Qasırğaya, tufana, boranlara dözmüşəm,
Könül mülkü tarimar, viranlara dözmüşəm. [1290]
İstilərə dözmüşəm, soyuqlara dözmüşəm,
Müqəvvaya dözmüşəm, oyuxlara dözmüşəm.
Qəflətlərə qərq olub yatanlara dözmüşəm,
Üfunətin gölünə batanlara dözmüşəm.
O səbəbdən neyləyim, vaxt-vədəsiz qocaldım,[1291]
Hey köksümü ötürüb için-için sozaldım.
Gör nəqədər İlahi, qüvvət verib Cəmilə?!
Yenilməyən dəyanət, qüdrət verib Cəmilə?!
Nicat verib Cəmilə, nüsrət verib Cəmilə?!
Vüsət verib Cəmilə, sürət verib Cəmilə?!

***Cəmil Əkbər*** 23. 05 – 1993

## 242. GENDƏ DOLAN!

***Ö Y Ü D N A M Ə***

Qoyun deyim, açıq-aydın nadanlardan gendə dolan!
Tərbiyədən alayarı dadanlardan, gendə dolan!
Hər yetənlə dostluq etsən, zəhmətini vurar daşa,
Tez yayınıb, tez süyüşər mənzilini vurmaz başa.
Beləsinə bel bağlama, nə həmdəm ol, nə sirdaş ol!
Nə tay-tuş ol, nə çağdaş ol, nə qardaş ol, nə yoldaş ol!
Haqq-sayı sümürərək, udanlardan gendə dolan!
Yolu-izi tərsəməssəb adanlardan gendə dolan!
Nə lazımdır hər yetənə düşün deyib, qan deyəsən?
Salam verib, kəlam alıb, süfrə açıb nan yeyəsən?
Lovğa, harın, yekəxana gədalardan gendə dolan!
Qulaqları dəng eyləyən sədalardan gendə dolan!
Ayıq dolan, sayıq dolan, qəhərinə düşməmişdən,
Ağrısına, acısına, zəhərinə düşməmişdən.
Yaxınlaşma hər yetənə, uzaqda gəz, gendə dolan!

---

[1289] Sinə gərib, tablaşıb, qəbahətə dözmüşəm,
[1290] Könül mülkü dərbədər, viranlara dözmüşəm,
[1291] O səbəbdən neyləyim, zaman-zaman qocaldım?

Fitnə-fəsad, hər məkrindən, hiyləsindən gendə dolan!
Əbəs yerdən incitməynən, ağrıtmaynan başını sən,
Ömür-günə qəsd eyləyib, gödəltməynən yaşını sən.
Hər yetənə inanaraq, sığınmaynan kölgəsinə,
Ümid olub arxalanma, kötüyünə, dingəsinə.
Aldanıb heç bel bağlama, beləsinin köməyinə,
Qardaşının, bacısının, lələsinin köməyinə.
Qəlbiqara, xainlərdən, xəbislərdən aralı gəz!
Nanəcibdən, naqislərdən, hərislərdən aralı gəz!
Hər yetənə hörmət edib, xidmətini zay etmə gəl,
Hədər yerə tər axıdıb, zəhmətini bay etmə gəl.
Cəmil Əkbər çox görübdür, beləsini, eləsini,
Əl uzadıb yolda-izdə çox götürüb şələsini.
İblislərin, əqrəblərin diləyindən gen dolanın,
Sazağında məhv olmamış, küləyindən gen dolanın.

***Cəmil Əkbər*** 24. 05 -1993

## 243. ƏBƏDİYYƏT YOLUDUR

***REPRESSİA QURBANLARINA***

*I variant*

Haqq keçilməz, basılmaz, o alınmaz qaladır,
Unudulmaz bir anda, o danılmaz qaladır.
O günahsız qaladır, qınanılmaz qaladır,
Düz işləyir, dərk edir, o yanılmaz qaladır.
Çoxları çoxdan düşüb, onu danmaq meylinə,
Ümidini bəsləyib fitnəsinə, felinə.
Şər qüvvələr nəqədər mətləbinə çatdılar,
Xalqa salıb vəlvələ, aralığı qatdılar.
Sözü-sözə verdilər, dili-dilə verdilər,
Qolu-qola verdilər, əli-ələ verdilər.
Fitnələri-fitnəyə, feli-felə verdilər,
Qərəz-qisas, məkrlə, bilə-bilə verdilər.[1292]
Mərd igid övladları, qanlı selə verdilər,
Taleyini sovurub, yaman yelə verdilər.

---

[1292] Qana-qana verdilər, bilə-bilə verdilər.

Gör nəqədər qapılar, əbəs yerə bağlandı?
Neçə məsum sinələr düyünləndi, dağlandı.
İgidləri tutdular, zindanlara saldılar,
Şər-böhtanı yağdırıb, nahaq qana saldılar.
Zülm edildi nəqədər, qanmazlardan qanana,
Heç fərqinə varmadan körpə, uşaq, zənana.[1293]
Gör nəqədər insanlar sevinməkdən qaldılar?
Fəxarətlə yaşayıb, öyünməkdən qaldılar?
Gör nəqədər arzular öz yerinə yetmədi?
Məqamında cücərib, düz yerində bitmədi?
Tarımlandı əsəblər, korlanıldı ay aman,
Ən müqəddəs hissilər, zorlanıldı ay aman.
Çoxları cəhd eylədi, haqqı danmaq istədi,
Yananları söndürüb, özü yanmaq istədi.
Çalışdılar əlüstü, haqqın səsi boğulsun,
Baş qaldırıb, cücərib bəlkə özü doğulsun.
İstədilər dağılsın haqq-ədalət binası,
Yayılmasın heç yana, səs-səmiri, xülyası.
Buminvalla, məramla çoxlarına qəsd oldu,
Varı-halı bir yana, yoxlarına qəsd oldu.
Beylə fikir, xəyalla zəhərləndi çoxusu,
Salınaraq məhşərə, qəhərləndi çoxusu.
Haqqı danmaq ən böyük xəyanətdi, xilqətə,
Müsibətdi, zllətdi, yer üzündə millətə.
Kim görübki dünyada, qızıl gəlib mis ola?
Əql-kamal sahibi, axır gəlib pis ola?
Sərraf olan bilir ki, zər dəyərin itirmir,
Ona qara yaxmaqla, əsla ləkə götürmür.
Deyiblər haqq nəzilər, o üzülən deyildir,
Tapdamaqla, vurmaqla o əzilən deyildir.
Cəhd eyləyib silməklə, o pozulan deyildir,
Bircə misqal, bir gilə o azalan deyildir.
O saralan deyildir, o sozalan deyildir,
Ha tərsinə çevrilsə, o yozulan deyildir.
Haqqı danmaq, unutmaq, gədələrin işidir,
Qəlbiyara xainin, zədələrin işidir.
Zaman onu göstərir, məqam bunu bildirir,

[1293] Kişi, igid bir yana, körpə, uşaq, zənana.

Həyat əvvəl-axırı, həyat sonu bildirir,
Ağladanı ağladır, güldürəni güldürür.
Kimki haqqı danırsa, özü çıxır aradan,
Uzaqlaşır cərgədən, o qovulur sıradan.
Zaman verir hökmünü, özü bir gün silinir,
Kəc məramı, məqsədi, aşkar olur, bilinir.
Kim nə əksə deyirlər, özü biçir bir zaman,
Düşər eşq-həvəsdən, tez yorular "pəhləvan".[1294]
O saldığı körpüdən özü keçməli olur,
Öz qazdığı quyuya, özü düşməli olur.
Hərkəs gərək özünü, özgələri tanısın,
Öz əksini göstərən, güzgüləri tanısın.
Təqsir güzgüdə deyil, onu nahaq qırmasın.[1295]
Deyirlər haqq əzəldən, ləyaqətdən güc alıb,
O insafa güvənib, kəramətdən güc alıb.[1296]
Onun kökü deyirlər ürəklərə bağlıdır,
Nəcib arzu-istəyə, diləklərə bağlıdır.

Haqqın səsi kəsilməz, o boğulmaz deyirlər,
Nəqədər də qurutsan, o soğulmaz deyirlər.
O bir anlıq sussa da, əbədilik kirimir,
Pas tutsada ötəri, birdəfəlik çürümür.
O əyilmək bilməyən, qüdsiyyətdən güc alıb,
Haqsızlığı gördükcə, zaman-zaman qocalıb.
O alınıb satılmır, hər bazar, hər dükanda.
Öz dəyəri qiyməti, daim var bu cahanda.
Onun əlvan gülləri ətirlidir hərzaman,
Qədirbilən yanında xətirlidir hərzaman.
Heçkəs gəlib bir daha bu qovğaya düşməsin,
Bu hay-haya qərq olub, bu sevdaya düşməsin.
Nahaq gəlib heç zaman haqq yolunu kəsməsin,
Bəd dönəndə taleyi, qoy özündən küsməsin.
Haqqı-nahaq yenənməz, qarışmasın işinə,
Ləyaqəti kababtək, qoy çəkməsin dişinə.
Nahaq haqqın işinə qarışmasın bir daha,[1297]

[1294] 1) Taqətdən, girdən düşür, tez yorulur "pəhləvan", 2) Gücdən düşür, qocalır, tez yorulur "pəhləvan".
[1295] Kimsə baxıb güzgüyə, onu nahaq qırmasın.
[1296] Hatəm olub səxadan, kəramətdən güc alıb.
[1297] Nahaq haqla bacarmaz, cəngə girməsin daha.

Ucuz alıb satmasın, mətahını çox baha.
Hərkəs gərək tanısın birdəfəlik yerini,
Əbəs yerə tökməsin, axıtmasın tərini.
Bəşər oğlu axtarıb səadətin yolunu,
Səxavətin yolunu, kəramətin yolunu.
Ədalətin yolunu, həqiqətin yolunu,
İnsanlığın yolunu, ləyaqətin yolunu.
Adəm oğlu axtarıb, insan oğlu arayıb,
Birbirinə əl tutub, birbirinə yarayıb.
Bəşər oğlu axtarıb dinc yaradıb, qurmağı,
Nəcib ülfət etməyi, dinc oturub durmağı.
Bəşər oğlu vururdu cəhaləti dağıtsın,
Bədxahlığı dağıtsın, qəbahəti dağıtsın.
Bəd arzunu, istəyi, bədniyyəti dağıtsın,
Cəmiyyəti məhv edən üfunəti dağıtsın.
Qoy utansın-qızarsın, haqqa qənim çıxanlar!
Əsəbləri korlayan, ürəkləri sıxanlar!
İnsanlığı tanıyıb, ləyaqəti görməyən!
Doğruluğu, düzlüyü, həqiqəti görməyən!
Qoy utansın, qızarsın ünsiyyəti korlayan!
Qəlbimizi sındıran, hissimizi zorlayan!
Qaralara ağ deyən, ağa qara deyənlər!
Paralara tam deyən, tama para deyənlər!
Qoy utansın, qızarsın, görə-görə kor olan!
Eşitsədə min dəfə, qulaqları kar olan!
Əmiləri yapalaq, dayıları sar olan!
Xainlərlə, xəbislə, yoldaş olan, yar olan!
Qoy məhv olsun əbədi, haqqa divan tutanlar!
Xalqa qənim kəsilən, qəflətlərdə yatanlar!
Bəni-insan bir daha, haqqa qənim çıxmasın!
Əsəbləri korlayıb, ürəkləri sıxmasın!
Tapdalayıb döyməklə, dağılandöy təməli,
Xeyirxahlıq niyyəti, sədaqətdi əməli.
Onun gözəl ünvanı, ululardan uludur,
Onun keşməkeşləri əbədiyyət yoludur.

***Cəmil Əkbər*** 29. 08 -1988

## 244. ƏBƏDİYYƏT YOLUDUR

***REPRESSİA QURBANLARINA***
*II variant*

Haqq keçilməz, basılmaz, alınmayan qaladır,
Yaddaşlardan silinib, danılmayan qaladır.[1298]
Çoxları cəhd eylədi, onu danmaq istədi,
Ocağına su töküb, özü yanmaq istədi.[1299]
Şər qüvvələr birləşib, aralığı qatdılar,
Vəlvələni salaraq, mətləbinə çatdılar.
Gör nəqədər insanı, qanlı selə verdilər?
Qasırğaya, tufana, qara yelə verdilər?
Gör nəqədər qapılar, nahaq yerə bağlandı?
Məğrur olan sinələr düyünləndi, dağlandı?
Əbəs yerdən igidlər zindanlara salındı,[1300]
Fitnələrə, fəsada böhtanlara salındı.[1301]
Qəsd eylədi nəqədər, qanmaz oğlu qanana,
Müsibətlər törədi, zülmət çökdü cahana.[1302]
Fərəh ilə yaşayıb, sevinməkdən qaldılar,
Zəfərləri çalmamış, öyünməkdən qaldılar.
Nəcib arzu-diləklər, öz yerinə yetmədi?
Məqamında cücərib, düz yerində bitmədi.
Hədər yerə əsəblər, korlanıldı ay aman?
Çəkilərək məhşərə, zorlanıldı ay aman?
Bədxahların əliylə, haqqın gözü oyuldu,[1303]
Zavallı ana, bacı ağlar gözlü qoyuldu.
Sabirimiz çərlədi, Nəsimimiz soyuldu,
Cavid, Cavad, Müşviqim, gör nə günə qoyuldu?
Haq-ədalət yolunda, qurban getdi nəqədər?[1304]
Dərk eyləyən, qananlar, loğman getdi nəqədər?
Müsibətə düşərək, dərdlədilər, öldülər,
Kədərdən vərəmləyib çərlədilər, öldülər.[1305]

---

[1298] Yaddaşlardan çıxmayan, danılmayan qaladır.
[1299] Onu söndürən zaman özü yanmaq istədi.
[1300] Gör nəqədər igidlər zindanlara salındı?
[1301] Şər-xətalar əliylə, böhtanlara salındı.
[1302] Neçə-neçə igidə körpə, uşaq, zənana.
[1303] Gözgörəti nahaqdan, haqqın gözü oyuldu.
[1304] Haqsızlığ ucbatından, qurban getdi nəqədər.

Dərk eyləyən insanlar, öz yolundan döndülər,[1306]
Məcbur olub, büdrəyib düz yolundan döndülər.[1307]
Düşüb həyəcanlara, təşvişlərdən səksəndi,
Xətalardan-bəladan, səhv işlərdən diksindi.[1308]
Yalan-yanlıc əkildi, cücərildi bir zaman,
Pəhə-pəhlə bəslənib, becərildi bir zaman.[1309]
Əl-qol açdı cəlladlar, haqqa divan tutdular,
Ələ keçən nə varsa, körpə, cavan qırdılar.
Nə edəsən zamana, belə gördük biz onu,[1310]
Arifləri nadana, kölə verdik biz onu,[1311]
Beylə bəyan edildi, belə bildik biz onu.
O səbəbdən qaşqabaq, düyünləndi, çatıldı,
Mənəm-mənəm deyənlər, zindanlara atıldı. [1312]
İtdi-batdı arada, haqq-saylar danıldı,[1313]
Çoxları çaşbaş düşüb, bildiyini yanıldı.
Haqsızlıq ucbatından, çoxu düşdü böhtana, [1314]
Təzim etdi iblisə, səcdə qıldı şeytana.[1315]
Qollarını çirmədi yoğunboyun zırpılar,
İşə düşdü dəyənək, işə düşdü “törpülər”,
Dağıdıldı söküldü, talan oldu körpülər.
İçin-için haqq susdu, danışmadı bir zaman,[1316]
Nə xeyirə, nə şərə, qarışmadı bir zaman.
Xeyir çaşdı yolunu, şər də azdı yolunu,
Neçə-neçə mərd igid, nər də azdı yolunu.
Bir zaman haqq üzünə, qara pərdə çəkildi,
Tarlalarda, zəmidə qaratikan əkildi.
Çox ananın, bacının ağlar qaldı gözləri,
Həsrət çəkib inlədi, yolda qaldı gözləri.

---

1305 Haqsızlığa dözməyib çərlədilər, öldülər.
1306 Gör nəqədər insanlar, öz yolundan sarsıldı?
1307 1) Nahaq-haqqa qəsd etdi, düz yolundan sarsıldı. 2) Doğru gedə bilmədi, düz yolundan sarsıldı.
1308 1) Səksəkəli olaraq, səhv işlərdən diksindi. 2) İnamından çəkinib, həqiqətdən diksindi.
1309 1) Bəslənildi bir zaman, becərildi bir zaman. 2) Ürəklərdə xəyanət becərildi bir zaman.
1310 Nə edəsən çarə yox, belə gördük zamanı,
1311 Beylə gördük gərdişi, beylə gördük dövranı.
1312 Zülmətlərin içinə düjün-düjün atıldı.
1313 Gözgörəti dünyada, haqq-saylar danıldı.
1314 Əbəs yerdən mərd igid, düşdü şərə, böhtana.
1315 Lənət deyən olmadı, iblislərə, şeytana.
1316 Sinə gərib haq susdu, danışmadı bir zaman.

Niyə bu fani həyat, əzəl gündən belədir?
Haqsızlığın əlində, haqq-ədalət kölədir?
Görən niyə nahaqlar, haqq yoluna gəlməyir?[1317]
Haqqı gördüyü zaman, neyçün üzü gülməyir?[1318]
Bədəməldən utanıb, qızarmayır, ölməyir. [1319]
Səbəb nədir bu bəşər, məqamında, vaxtında? [1320]
Yalan-yanlıc oturub, hökm edəndə taxtında.
Əli-ələ verərək şər qüvvəni boğmayır,
Məzarını qazaraq, onu gora qovmayır.[1321]
Bir demirki həyasız, rədd ol burdan əkil get!
Başımızı ağrıtma, göz önündən çəkil, get!
Deyən yoxdu "ay nadan, əməlindən bir utan"![1322]
Öz kökünə nəzər sal, təməlindən bir utan! [1323]
Gör bir atan nəçidir, gör bir anan nəçidir?
Damarında dövr edən, genin, qanın nəçidir?
Ta qədimdən, əzəldən ulu baban kim olub?
Yaşadığın diyarlar, elin oban kim olub?
Bir yurduna nəzər sal, bir yuvana nəzər sal,
Dədə-baba daxmana, bir sobana nəzər sal.
Ətrafına nəzər sal, əmin kimdi dayın kim?
Həmkarın, dostun kimdir, yoldaşın kim, tayın kim?[1324]
De sən hansı tarlanı becərmisən, əkmisən?
Hansı xidmət göstərib, nə zəhməti çəkmisən?
Bir de hansı neməti qazanmısan a zalım?
Bir bu qədər boy atıb, uzanmısan a zalım?
Hansı yıxılanların harayına çatmısan?
Daxmasını tikmisən, sarayına çatmısan?
Hansı ağlayanları güldürmüsən a zalım?
Xidmətini göstərib, bildirmisən a zalım?[1325]
Söylə, kimi qaldırıb, de kimləri yıxmısan? [1326]

---

[1317] Şər-xətalar nədənsə, haq yoluna gəlməyir?
[1318] 1) Yaxınlaşıb yanına, sağ-soluna gəlməyir?
[1319] Törətdiyi əməldən, bir utanıb ölməyir.
[1320] Görən niyə bu bəşər, məqamında, vaxtında?
[1321] 1) Sürükləyib məzara, onu gora qoymayır. 2) Sürükləyib çəkərək öz yerinə qoymayır.
[1322] Deyən yoxdu hayasız, əməlindən bir utan!
[1323] Nəzər salıb kökünə, təməlindən bir utan!
[1324] De həmkarın, dostların, yoldaşın kim, tayın kim?
[1325] 1) Mənliyini göstərib, bildirmisən a zalım? 2) Mənliyini tanıdıb, bildirmisən a zalım?

Kimlərə arxa durub, bəs kimləri sıxmısan?
Hücum çəkib kimlərə, kimləri kimsiz etdin,
Kimə verdin zurnanı, kimləri simsiz etdin?
De kimə qüssə-məlal, kimlərə qəm vermisən?[1327]
Kimə nəşə, kef-damaq, kimlərə dəm vermisən?[1328]
Haqqa nahaq deyənlər utandımı, öldümü?
Əməlinin sonunu dərk etdimi, bildimi?
Nə xəyaldı düşüblər, keyin oğlu gicbəsər?
Qatdı yaman aranı, səyin oğlu dəngəsər.
Haqsızlığa yön alıb, ədaləti dandılar,
Doğruluğu, düzlüyü, həqiqəti dandılar.[1329]
Sədaqəti dandılar, səxavəti dandılar,
Nəcib arzu-istəyi, məhəbbəti dandılar,
İnsanlığa xas olan, ləyaqəti dandılar,
İnsaf, mürvət, kəramət, mərhəməti dandılar.
Görən heç utandımı, insafını atanlar?
Ağa-qara deyənlər, yaxşıya-pis qatanlar?
Çamırlığa üz tutan, bataqlığa batanlar?
Hilə-kələk işlədib, məqsədinə çatanlar? [1330]
Nə düşündü görəsən, kamalından kəm olan?
Əqidədən, məsləkdən, amalından kəm olan?
Nə xəyaldı düşüblər, al-qanları tökənlər?
Məzlumları bezdirib, zəhlələri tökənlər?
Bu bəşərin taleyi niyə yada düşməyib?
Daşa dönən ürəklər, niyə oda düşməyib?
Həqiqətin üzünə qara pərdə çəkiblər?
İnsanları azara, niyə dərdə çəkiblər?[1331]
Səbəb nədir görəsən, haqsızlığın boranı?
Qasırğası bürüdü, dağı-daşı, aranı?
Nahaq alaq otudur, gərək deyil heç kimə,
Nə arxadır, nə həyan, kömək deyil heç kimə.
O xeyirsiz-bəhərsiz, koldu-kosdu, tikandı,[1332]

---

[1326] De kimləri qaldırıb, de kimləri yıxmısan?
[1327] Kimə verdin kef-damaq, kimləri qəmləndirmisən?
[1328] Kimə verdin azarı, kimləri dəmləndirmisən?
[1329] Doğruluqdan əl çəkib, həqiqəti dandılar.
[1330] Min bir hiylə işlədib, məqsədinə çatanlar.
[1331] İnsanları dəhşətə, min bir dərdə çəkiblər?
[1332] O ayağa dolaşan koldu-kosdu, tikandı.

Hara gəldi batandı, dağıdandı, sökəndi.
Onun yoxdu götürən bəhrəsini, barını,
Dərən yoxdu heç zaman, heyvasını, narını.
Müdam ondan bu bəşər, pis günləri görübdür,
Bəd günləri görübdür, nəs günləri görübdür.
Haqsızlığın sədası bezdiribdir bizləri,[1333]
İşgəncəyə, əzaba, dözdürübdür bizləri,[1334]
Yorub, haldan salıbdır, üzdürübdür bizləri.
Salıb dağa-daşlara, gəzdiribdir bizləri,
Duyuq salıb hamını, sezdiribdir bizləri.
Axır gəlib məqamı, zaman özü yetişdi,
Fikir-xəyal cəm olub, əhdi-peyman yetişdi.[1335]
Haqq qaldırdı başını, asta-asta oyandı,[1336]
Nahaq ilə göz-gözə, üzbəüzə dayandı.[1337]
Nahaq susdu, kiridi, dillənmədi nədənsə?[1338]
Əvvəlkitək qabarıb, sellənmədi nədənsə?
İndi gördü özünün açılıbdı paxırı,[1339]
Dillənərsə bəd gedər, bu işlərin axırı.
Qərq olaraq fikirə, nahaq getdi xəyala,[1340]
Düçar oldu qüssəyə, dərdi-qəmə məlala.
Birdən xəyala daldı, gözü yola zilləndi,
Didəsindən car olan, yaşlar yerə gilləndi.
İndi yaman dirənib, haqq-nahaqqın üzünə,
Söyürlər ünvanına, tüpürürlər izinə.[1341]
İndi özü qoy desin, haqsız gedən kim olub?
Havayıdan hökm edən, vaxtsız gedən kim olub?
İndi qoy cavab versin, nədir haqqın günahı?
Nəymiş onun umması, nəymiş onun tamahı? [1342]
Nəymiş onun nöqsanı, nəymiş onun xətası?

---

[1333] 1) Haqsızlığın sədası bezdiribdi bəşəri. 2) Onun mənfur sədası bezdiribdi bəşəri,
[1334] Müsibətə, məhşərə dözdürübdü bəşəri.
[1335] Fikir-xəyal cəm olub, əyri-düzü yetişdi.
[1336] Keçdi-getdi o devran, haq qaldırdı başını.
[1337] Yaxasından yapışıb, atdı onun daşını.
[1338] 1)Nahaq susmalı oldu, dillənmədi nədənsə? 2) Nahaq susdu bir anda, dillənmədi nədənsə?
[1339] İndi gördü yerbəyer, açılıbdır paxırı.
[1340] Nahaq, getdi fikirə, o qərq oldu xəyala.
[1341] Ünvanına söyürək, tüpürürlər izinə.
[1342] Nədir onun umması, nədir onun tamahı?

Kimə nədir düşəsi, kimə nədir çatası?
İndi özün cavab ver, zindan kimin olası?
Məslək kimin olası, vicdan kimin olası?
Günəş kimin olası, boran kimin olası?[1343]
Zülmət kimin olası, dövran kimin olası?
Qərarı kim yazmalı, fərmanı kim verməli?
Xəstələrə şəfanı, dərmanı kim verməli?
Haqqın səsi nə üçün məqamında çıxmayır?
Salıb məngənəsinə, haqsızlığı sıxmayır.
Haqqın səsi nə üçün boğulanda çıxmayır?
Nahaq zühur edəndə, doğulanda çıxmayır?
Niyə görən hər gəda, öz yerini bilməyir?
Vəzifəyə keçəndə, düz yerini bilməyir?
El-obadan ar edib, bu bəşərdən utanmır? [1344]
Xeyirxahı pəsinmir, nə də şərdən utanmır?
Çəkinməyir bu xalqdan, camaatdən utanmır.
Nahaq hey çalışdı ki, haqqın səsi boğulsun,
Bu məqamda, zamanda bəlkə özü doğulsun.
Buminvalla, məramla qəsd olundu çoxuna, [1345]
Nahaq getdi güdaza, qərq oldular axına.[1346]
Beylə fikir, xəyallar zəhərlədi çoxunu,
Çəkib məhşər ayağa, qəhərlədi çoxunu.[1347]
Haqqı danmaq əzəldən, xəyanətdi millətə,
Müsibətdi, zillətdi, cinayətdi xilqətə.[1348]
Kim görübki dünyada qızıl gəlib mis ola?
Haqq-ədalət sahibi, axır gəlib pis ola?
Sərraf olan bilir ki, zər dəyərin itirmir,
Ona qara yaxmaqla, çamır, ləkə götürmür.
Haqq-ədalət nəzilər, o üzülmür, deyirlər,
Ha tapdasan, ha vursan o əzilmir, deyirlər.[1349]
Nəyaxşıki, əbədi haqqın səsi kəsilmir,
Zindanlara düşsədə, son nəfəsi kəsilmir.

---

[1343] Gilavarı de kimin, boran kimin olası?
[1344] Görən niyə bəzisi bu bəşərdən utanmır?
[1345] Buminvalla, məramla çoxlarına qəsd oldu.
[1346] Ac-yalavac bir yana, toxlarına qəsd oldu.
[1347] Müsibətə salaraq, qəhərlədi çoxunu.
[1348] Dərd-azardı zillətdi, yer üzündə xilqətə.
[1349] Ha döyülsə, tapdansa, o əzilmir deyirlər.

Qərinələr keçsədə, haqq yoluna düzəlir,[1350]
Baxıb həndəvarına, sağ-soluna düzəlir.
Çox ölənlər dirildi, çox öldürən öldülər,
Çox ağladan sızladı, çox ağlayan güldülər.[1351]
Uzun olmur deyirlər, yaman günün ömürü,
İşləsədə bir zaman sədarəti, əmiri.[1352]
Nəyaxşıki, haqq səsi, ərimədi yaşadı,
Məhbəslərə düşsədə çürümədi, yaşadı.[1353]
Haqqın kəramətilə, dünya bərqərar oldu,
Xətir-hörmət onunla, daim sərasər oldu.
Onun sayəsində də şərəf-şöhrət tapıldı,[1354]
Abır-həya gözlənib, namus-qeyrət tapıldı.[1355]
Xalqa xidmət edilib, haqqısaylar qoyuldu,
Xain ürək sıxılıb, xəbis gözlər oyuldu.
Haqqın kəramətilə, ləyaqətlər ölməyib,[1356]
Sədaqətlər yaşayır, səxavətlər ölməyib,[1357]
Ünsiyyətdə gözəllik, sədaqətlər ölməyib.
Haqqın gözəl sevdası, pürkamaldan güc alıb,
Onun gözəl xülyası, pak amaldan güc alıb.
Haqq-ədalət var olsun, qoy həqiqət var olsun,
Səadəti xoşlayan, bu cəmiyyət var olsun.
Haqq yaşasın oqədər, nəqədərki, insan var?!
Hər şeyi öz yerində, dərk edən var, qanan var![1358]
Haqq yaşasın oqədər, nəqədərki, cahan var?!
Bizi yoxdan xəlq edən, o qadiri-Sübhan var![1359]
Haqq yaşasın oqədər, nəqədər xilqətim var?!
İndi azad Vətənim, qüdrətli dövlətim var![1360]
Haqq yaşasın oqədər, nəqədər kamalım var,

---

[1350] Əvvəl-axır vaxt gələr, haq yoluna düzəlir.
[1351] Ağladanlar ağlayır, güldürənlər gülürlər.
[1352] İşləməyir hökümü, sədarəti, əmiri.
[1353] 1) Zindanların altında, çürümədi, yaşadı. 2) Zindanlarda, məhbəsdə çürümədi, yaşadı.
[1354] 1) Onun sayəsində də xətir-hörmət tapılıb, 2) Onun kəramətilə, hörmət-izzət tapılıb.
[1355] 1) Ünsiyyətdə gözəllik abır-ismət var olub. 2) Ünsiyyətdə gözəllik abır-ismət tapılıb.
[1356] Haqqın ədalətilə, ləyaqətlər ölməyib.
[1357] Xoş arzular, istəklər, məhəbbətlər ölməyib.
[1358] 1) Nəqədərki, düşünən, anlayan var, qanan var. 2) Öz yerində düşünən, dərk edən var, qanan var,
[1359] Nəqədərki, yaradan, o qadiri-Sübhan var.
[1360] Beylə ülvi, müqəddəs, beylə cəmiyyətim var.

Nəqədərki əqidəm, nəqədər inamım var.
Nəqədərki elim var, nəqədərki obam var,
Nəqədərki yurdum var, nəqədərki yuvam var.
Haqq yaşasın oqədər, nəqədər xoş dilək var?[1361]
Məhəbbəti yaşadan sinədə pak ürək var?[1362]
O dayansın səbrlə, o yaşasın dözümlə,[1363]
Səadətə üz tutub, addımlasın bizimlə.
Tufan onu əyməsin, qoy dayansın dağ kimi,[1364]
Pozulmasın növrağı, gül-çiçəkli bağ kimi.[1365]
Külək onu qoparıb, tərpətməsin yerindən,
Hədə-qorxu gələrək ürpətməsin yerindən.[1366]
Haqqın səsi gur çıxır, onun sözü gözəldir,[1367]
Onun yolu mötəbər, onun izi gözəldir.
Qoy utansın-qızarsın, haqqa qara yaxanlar,[1368]
İnsanlığa qəsd edib, ona qənim çıxanlar.[1369]
Qaralayıb silməklə, haqq pozulan deyildir,[1370]
Tərsəməssəb yozmaqla, haqq yozulan deyildir.[1371]
O saralan deyildir, o sozalan deyildir,[1372]
Bircə misqal, bir gilə o azalan deyildir. [1373]
Haqqı danmaq, unutmaq gədələrin işidir,
Qəlbi xain, paxılın, zədələrin işidir.[1374]
Həyat bunu göstərir, həyat bunu bildirir,
Zalımı ağlar qoyur, məzlumları güldürür.[1375]
Kimki haqqı danırsa, özü çıxır sıradan?!
Vurhavurun içində götürülür aradan![1376]

---

[1361] Haqq yaşasın oqədər, xoş arzular dilək var.
[1362] Saf düşünən, döyünən sinəmizdə ürək var.
[1363] Haq dayanıb qoy dursun, o yaşasın bizimlə.
[1364] Tufan onu əyməsin, qoy dayansın daş kimi.
[1365] Nadan onu söyməsin, baxmasınlar çaş kimi.
[1366] 1)Heç bir qorxu, həyəcan ürpətməsin yerindən.2)Heç bir hədə, qorxu da ürpətməsin yerindən.
[1367] 1) Haqqın səsi möhtəşəm, onun sözü gözəldir. 2) Haqqın səsi mehriban, onun sözü gözəldir.
[1368] 1) Qoy utansın, ölsünlər, haqqa ləkə yaxanlar 2) Qoy utanıb, ölsünlər, haqqa qara yaxanlar.
[1369] 1) Ona qəsd eyləyənlər, ona qənim çıxanlar. 2) İbtidadan, əzəldən, ona qənim çıxanlar.
[1370] Cəhd eyləyib silməklə, haqq pozulan deyildir.
[1371] Onu tərsə yozmaqla, o yozulan deyildir.
[1372] O düşsədə çətinə, o sozalan deyildir.
[1373] O əksilən deyildir, o azalan deyildir.
[1374] Qəlbi qara xainin, zədələrin işidir.
[1375]Zalımları ağladır məzlumları güldürür.

Haqdan yanan çırağın, odu sönmür deyirlər,
Azalmayır ləzzəti, dadı enmir deyirlər.
Aqibəti pis olub, haqqı danan kəslərin,
Nəcib arzu-niyyəti, qəlbdə donan kəslərin.
Zaman verir hökmünü, özü bir gün silinir.
Kəc məramı, məqsədi aşkar olur, bilinir.
Kim nə əkib səpirsə, onu biçər, deyirlər?![1377]
Öz saldığı körpüdən, özü keçər, deyirlər?!
Hərkəs gərək özünü, özgələri tanısın,
Öz əksini göstərən, güzgüləri tanısın.
Təqsir güzgüdə deyil, onu nahaq qırmasın,
Hey özünü qoruyub, özgələri vurmasın.
Haqq deyirlər əzəldən ləyaqətdən güc alıb,
Doğruluqdan, düzlükdən, həqiqətdən güc alıb,
Hatəm kimi insandan, səxavətdən güc alıb.
O səbəbdən deyirlər, zəfər çalıb, bac alıb,
Haqsızlığı gördükcə zaman-zaman qocalıb.
Müsibətlər içində inildəyib, sozalıb,
Dərd əlində çarəsiz, günü-gündən azalıb.
Haqqın kökü deyirlər, ürəklərə bağlıdır,
Sağlam arzu-istəyə, diləklərə bağlıdır.[1378]
Onun səsi qurumaz, onun səsi boğulmaz,[1379]
Nəfəsi heç kəsilməz, birdəfəlik soğulmaz.[1380]
O susanda bir anlıq, əbədilik kirimir,
Birdəfəlik pas tutub, əbədilik çürümür.[1381]
O kəhkəşan ulduzu, sönən deyil cahanda,
O satılmır, alınmır, hər bazarda, dükanda.
Onun əlvan gülləri ətirlidir hərzaman,
Qədirbilən yanında xətirlidir hərzaman.
Heçkəs gəlib onunla qal-qovğaya düşməsin,
Hay-həşirə, təlaşa bu sevdaya düşməsin.[1382]
Nahaq haqqı yenənməz, qarışmasın işinə,

---

[1376] 1) Axırına çıxılır, götürülür aradan, 2) Hay-həşirin içində götürülür aradan.
[1377] Kim nə əksə bir zaman, özü biçir deyirlər.
[1378] Ən müqəddəs, ən ülvi, diləklərə bağlıdır.
[1379] Onun səsi gur çıxır, boğulmazdı deyirlər.
[1380] 1) Nə quruyub, əksilməz, soğulmazdı deyirlər. 2) Nə quruyub, qurtarmaz, soğulmazdı deyirlər.
[1381] Əbədilik pas tutub, tez-tələsik çürümür.
[1382] Sərsəm xəyal, kəc fikir, bu sevdaya düşməsin.

Güvənməsin qoluna, güvənməsin dişinə.
Nahaq-haqla bacarmaz, cəngə girməsin daha,
Nə özünə, özgəyə əzab verməsin daha.
Hərkəs gərək tanısın, birdəfəlik yerini,
Əbəs yerə tökməsin, axıtmasın tərini.
Qoy utanıb qızarsın haqqa qənim çıxanlar,
Onu görüb darılan, ürəyini sıxanlar.
Qoy utansın, qızarsın ləyaqəti görməyən,
Ona hörmət etməyən, ona qiymət verməyən.
Qoy utanıb, qızarsın ünsiyyəti korlayan,
Duyğuları sarsıdan, hissləri zorlayan.[1383]
Qaralara ağ deyən, ağa-qara deyənlər,
Paralara tam deyən, tama para deyənlər.
Qoy utansın, qızarsın görə-görə kor olan,
Eşitsədə min dəfə, qulaqları kar olan.
Əmiləri yapalaq, dayıları sar olan,
Xainlərə, xəbisə simsar olan, yar olan.
Tapdalayıb döyməsin, haqdan olan təməli,[1384]
Beylə sağlam fikiri, beylə möhkəm əməli.[1385]
Onun gözəl ünvanı, ululardan uludur,
Onun keşməkeşləri əbədiyyət yoludur.

***Cəmil Əkbər*** 4. 08 -1988

## 245. ƏBƏDİYYƏT YOLUDUR

***R E P R E S S İ A   Q U R B A N L A R I N A***

*III variant*

Nə müddətdir, zamandır, cəhalətə dözmüşük,
Xəyanətə səbr edib, qəbahətə dözmüşük.
Dedi-qodu, gileyə, şikayətə dözmüşük,
Neçə-neçə əcaib, hekayətə dözmüşük.
Ehtiyacı görmüşük, səfalətə dözmüşük,
Törədilən xətaya, cinayətə dözmüşük.
Qanımızı qaraldıb, əsəbləri korladıq,
Tarımlara çəkərək, hissimizi zorladıq.
Qərinələr bəd gəldi, fəsilləri korladıq,

---

[1383] Könülləri sındıran, hissləri zorlayan.
[1384] Hərkəs gərək dəyməsin, haqdan olan təmələ.
[1385] Beylə düzgün, müqəddəs, doğru olan əmələ.

Bədnam edib nəqədər, nəsilləri korladıq?!
Zəmanənin hökmündən, günahsızlar qırıldı?
Acığından, qəzəbdən, için-için cırıldı?
Canlarından usanıb hətta qətlə çıxdılar,
Nümayişə qoşulub, tətilə də çıxdılar.
Bəşər oğlu nəqədər, başıboşa dözdülər,
Vicdanı kəm-kəsirə, qəlbi daşa dözdülər.
Haqq-sayı ötürüb, udanlara dözdülər,
Tərbiyədən yarımçıq, dadanlara dözdülər.
Nabələdə, naşıya, nadanlara dözdülər,
Addımını tərsinə, adanlara dözdülər.
Ünsiyyəti-ülfəti pozana da dözdülər,
Yollarını, izini azana da dözdülər.
Ayaq altdan quyular qazana da dözdülər,
Doğruları kəcinə yozana da dözdülər.
Qəflətlərdə uyuyan, yatanlardan bezdilər,
İnsafını, mürvəti atanlardan bezdilər.
Fitnə-fəsad uydurub, yayanlardan doydular,
Tamahına, nəfsinə uyanlardan doydular.
Nanəcibdən, namərddən, naqislərdən doydular,
Acgözlərdən, quldurdan, hərislərdən doydular.
Paxılardan, xaindən, xəbislərdən doydular,
Elə, xalqa qəsd edən, o pislərdən doydular.
Kamalından kəm olan, o kütlərdən doydular,
Müqəvvalıq eyləyən, o bütlərədən doydular.
Bəşər oğlu əzəldən ləyaqətə can atır,
Doğruluğa-düzlüyə, həqiqətə can atır.
Eşqin ulu sevdası, məhəbbətə can atır,
Etibara, ilqara, sədaqətə can atır.
Məna dolu məzmuna, məziyətə can atır,
Bu sevdaya qoşulub, bu hikmətə can atır.
Beylə anda, məqamda çoxu azdı yolunu,
Tanımadı sağını, görənmədi solunu.
Çoxları cəhd eylədi, haqq yolunu bağlasın,
Anaları ağladıb, sinələri dağlasın.
İstədilər boğsunlar ədalətin səsini,
Doğruluğun, düzlüyün həqiqətin səsini.
Ədəb-ərkan nə varsa, ləyaqətin səsini,
Cəsarətin səsini, fərasətin səsini.

İstədilər yerbəyer, haqqın səsi boğulsun,
Özgələri məhv edib, bəlkə özü doğulsun.
Aldandılar çoxları fitnələrə, fellərə,
Gözyaşını car edib, döndərdilər sellərə.
Beylə sərsəm fikirlər, zəhərlədi çoxunu,
Salıb dərdi-bəlaya, qəhərlədi çoxunu.
Bu məram, bu minvalla çoxlarına qəsd oldu,
Ləkələndi ünvanı, içməmişdən məsd oldu.
Gör nəqədər insanın sarsıdıldı kamalı?
Sarsıdıldı məsləki, sarsıdıldı amalı?
Gör nəqədər mərdlərin mahalına güldülər?
Biliyinə lağ edib, kamalına güldülər?
Qocasına, cavana, ahalına güldülər?
İştahına güldülər, tamahına güldülər?
Gör nəqədər havayı kötək dəydi bəşərə?
Müsibətin sədası, bülənd oldu məhşərə?
Haqqı danmaq ən ağır cinayətdi insana,
Qəsd-qərəz, zülüm-zillət, xəyanətdi insana.
Kim istər ki, yaxşılar gəlib bir gün pis olsun?
Naşı sərraf əlində qızıl gəlib mis olsun?
Xiridarı olmasın, zər qiymətin itirsin?
Bədöy çıxsın xötəklər, nər qiymətin itirsin?
Deyirlər haqq nəzilər, o üzülən deyildir,
Ha geyilsə, yeyilsə o süzülən deyildir.
Çığnansa da bir zaman, o əzilən deyildir,
Hər sıraya qarışıb, o düzülən deyildir.
Haqq keçilməz, basılmaz, o alınmaz qaladır,
O tərpənməz yerindən, o sarsılmaz qaladır.
Deyirlər onu danmaq, gədələrin işidir,
Qəlbi xain, xəbisin, zədələrin işidir.
Onu danan kəslərin özü çıxır sıradan,
Yaxasından tutulub, götürülür aradan.
Zaman verir hökmünü, bircə anda silinir,
Kəc fikri, kəc məqsədi, izhar olub bilinir.
Kim nə əksə torpağa, özü biçər deyirlər,
Öz saldığı körpüdən özü keçər deyirlər.
Deyirlər haqq danılmır, hər zamanda, məkanda,
O alınıb satılmır, hər bazar, hər dükanda.
Deyirlər onun səsi ürəklərə bağlıdır,

Yorulmayan qollara, biləklərə bağlıdır.
Bəşər kainat isə, o günəşdi deyirlər,
Səadətə nur saçan, o atəşdi deyirlər.
O kəhkəşan ulduzdu, yol göstərir hamıya,
Əsirgəmir mətahın, bol göstərir hamıya.
Çoxları şər-xətadır, ona qənim çıxırlar,
İnsanlığa qəsd edib, ürəkləri sıxırlar.
Bəşər oğlu haçandır, cəhaləti pisləyir,
Bədxahlığı pisləyir, qəbahəti pisləyir.
Bəd arzu, bəd istəyi, bədniyyəti pisləyir,
Cəmiyyəti sarsıdan üfunəti pisləyir.
O istər ki, xilqəti davalardan qurtarsın,
Kəmağıldan, giclərdən, yavalardan qurtulsun.
Haqq sussa da bir anlıq, o kirimir əbədi,
O məhv olmur əbədi, o çürümür əbədi.
Onun gözəl ünvanı ululardan uludur,
Onun keşməkeşləri, əbədiyyət yoludur.

***Cəmil Əkbər*** 14. 12 - 1988

**246. USTADLARDAN ÖYRƏNƏK**

*P E Y Ğ Ə M B Ə R N A M Ə*

Gör haçandan bəridir, mən də şeir yazıram?
Azdan-çoxdan uydurub, gah silirəm, pozuram?
İlham pərim qaynayır, həzin-həzin daşıram,
Gah gəraylı, müxəmməs, gah da qoşma qoşuram.
Demirəm ki, Nizami, Füzuliyəm mən indi,
Əfzələddin Xaqani, Nəsimiyəm mən indi.
Nə Nəsrəddin Tusiyəm, nə də Fərabiyəm mən,
Nə Seyd Əzim Şirvani, nə də Səbuhiyəm mən.
Nə Alı, nə Ələsgər, nə Ələkbər Sabirəm,
Nə Bəxtiyar, nə Nəbi, Hüseyn Arif, Cabirəm,
Nə Kərəməm, nə Məcnun, nə də Dilqəm demirəm.
Nə Hadiyəm, Cavidəm, nə də Mirzə Cəliləm.
Nə Süleyman Rüstəməm, nə də Rza Xəliləm.
Nə Vidadi, Vaqifəm, nə də Səməd Vurğunam,

Mən də Cəmil Əkbərəm, zəmanədə yorğunam.[1386]
Onlar mənim babamdır, mən onların nəvəsi,
Nələr görün yazıbdır, yaradıb hər birisi?
Bizə yol göstəribdir, dönə-dönə hərəsi.
Onlar nədən deyibsə, mən də ondan deyəsi,
Onlar mənim dünyamdır, mən onların varisi.
Mən onların acgözü, mən onların hərisi,
Bu cahana yayılıb, hər birinin gur səsi.
Onlar mənim xocamdır, sahibimdir, yeyəmdir,
Arxam, kömək, pənahım, imdadımdır, sayəmdir.[1387]
Etiqadım, inamım, məsləkimdir, qayəmdir,
Təlimi doğru verən ustadımdır, dayəmdir.

Bir zaman onlar bezib, cəhalətin əlindən,
Avamlığın, gicliyin, qəbahətin əlindən.[1388]
Giley-güzar, qal-qovğa, şikayətin əlindən,[1389]
Yerli-yersiz törəyən, ədavətin əlindən.[1390]
Bu abırsız, həyasız, varislərin əlindən,
Naxələfin, xoryadın, naqislərin əlindən.
Sinə gərib dözdülər, müsibətə hillətə,
İndi də biz düşürük, fəlakətə, zillətə.
Bir zaman onlar oldu, nadanlara söyənlər,
Yollarını tərsinə adanlara söyənlər.
Kötəkləyib, yanlayıb, şallaqlayıb döyənlər,
İndi də biz dözməyib, hey söyürük onları,
Kötəkləyib, qırmancla hey döyürük onları.

Bir vaxt onlar da yazdı, indi də biz yazırıq,
Onlar dözən əzaba, indi də biz dözürük.
Cəhalətin gorunu səbrlə biz qazırıq.
Onları hey incitdi, zəmanənin ahəngi,
Avamların, nadanın, yekəpəri, nəhəngi.
Fikirlərə, xəyala, bir zaman onlar dalıb,
Haqsızlığın əlində, hər zaman onlar qalıb.

---

[1386] Ən adicə bir insan, zəmanədə yorğunam.
[1387] Bu mənəvi aləmdə onlar mənim sayəmdir.
[1388] Addımbaşı törənən, qəbahətin əlindən.
[1389] Aşağıdan yuxarı, şikayətin əlindən.
[1390] Küdurətin əlindən, ədavətin əlindən.

Məqam gəlib yetişib, indi də biz qalırıq,
Qərq oluruq xəzana, dərd içində soluruq.
Söhbət açıb bir zaman onlar deyib, yarışıb,
Gah vuruşub, dalaşıb, gah küsüb, gah barışıb.
İndi gəlib zamanı bizik deyib-danışan,
Giley-güzar eyləyən, orda-burda danışan,
Düşüb eniş-yoxuşa, umub, küsüb-barışan.

Onlar çəkdiyi qəhri, indi də biz çəkirik,
Onlar şumlayan yeri, indi də biz əkirik,
Qəmli gözyaşımızı bu torpağa səpirik.
Onlar gəzən yerlərdə, sızıldayıb gəzirik,
Düşdükləri çətinə inildəyib dözürük.
Onlar salan bağların, güllərini üzürük,
Gözəlliyi duyuruq, xoş ətrini sezirik.
Onlar verən nüsrəti, indi də biz veririk,
Onlar gedən yolları, indi də biz gedirik,
Onlar güdən mətləbi, indi də biz güdürük.
Onlar yazan dastanı, yazmalıyıq, yazmalı,
Onlar pozan dəstəni, pozmalıyıq, pozmalı.
Onlar vuran zərbəni, biz sərrast vurmalıyıq,
Onlar duran keşikdə, biz sərvaxt durmalıyıq.
Cəhalət zəncirini, indi biz qırmalıyıq,
Onlar yoran köhləni, biz çapıb yormalıyıq,
Onlar tikən sarayı, biz tikib qurmalıyıq.

Gəlin müdrik babanın sözlərini eşidək,
Doğrusunu anlayaq, düzlərini eşidək.
Mümkün deyil onlarsız, dövran sürmək, yaşamaq,
Bu yollarsız, izlərsiz, bu çəhlimsiz yaşamaq.
Xoş arzusuz, istəksiz, pak diləksiz yaşamaq,
El-obasız yaşamaq, cəmiyyətsiz yaşamaq.
Bizi məhvə aparır, bu hikmətsiz yaşamaq,
Öyüd sənə almadan, nəsihətsiz yaşamaq.
Gəlin biz ustadların sayəsində yaşayaq,
Əqidəsi, məsləki, qayəsində yaşayaq.
İftixarım, qürurum, mənim coşğun həvəsim,
Onlar ağıl-yaddaşım, can-ciyərim nəfəsim.
Keçmişin əks-sədası, avazıyıq bu günün,

Bəmə, zilə köklənən, haqq sazıyıq bu günün.
Bu ellərə boylanan, gözləriyəm zamanın,
Millətimə çatası, sözləriyəm məkanın.

Əfsuslarki neyləyim sözüm çatmır hamıya?
Nə baxışım, nəzərim, gözüm çatmır hamıya?
Açılmayıb yollarım, izim bağlı qalıbdır,
Dadım-tamım bilinmir, duzum bağlı qalıbdır.
Ürəyimdə nəqədər deyiləsi sözüm var?
Həzm olası fikrim var, yeyiləsi sözüm var?
El-obaya çatası, haray-həşir ünüm var?
Dəyirmanda, xırmanda üyünəsi dənim var?
Oraq ilə dəryazla biçiləsi zəmim var?
Dəryalarda, dənizdə lövbər salan gəmim var.
Bir əlimdə dəftərim, bir əlimdə qələmim,
Düşüncəmin məhsulu, bu mənəvi aləmim.
Zəmanənin "Xəmsə"si, qəzəliyəm mən indi,
Nəyi açıb bağlayım, çözələyim mən indi?
"Gülüstan"ı, "Bustan"ı, dastanıyam mən indi,
Dərrakəmin tağları, bostanıyam mən indi.
Yaşadığım dövranın, qoca vətəndaşıyam,
Yaşım çatır yetmişə, uca vətəndaşıyam.
Azdan-çoxdan yazıram, sözdü gələn əlimdən,
İnciməsin acısa, eşidənlər dilimdən.

Məqam gəlib yetişdi, dövran məni qocaltdı,
Sarvan məni qocaltdı, karvan məni qocaltdı.
Bazar məni qocaltdı, dükan məni qocaltdı,
Fürsət məni qocaltdı, imkan məni qocaltdı.
Cahil, nadan, keyqubad, giclər məni qocaltdı,
Hiyləgərlər, dələduz, biclər məni qocaltdı.
İlqarına-imana, kəclər məni qocaltdı,
Tərsəməssəb dolanan, öclər məni qocaltdı.
Kütbeyinlər, kəmağıl, keylər məni qocaltdı,
Sərsərilər, dəngəsər, səylər məni qocaltdı,
Gədələrdən törəyən, bəylər məni qocaltdı.
Ustadlardan xəbərsiz, kütlər məni qocaltdı,
Balqabağı-müqəvva, bütlər məni qocaltdı.
Böyük-kiçik saymayan, gədə məni qocaltdı,

Xaric ötən səs-küylər, səda məni qocaltdı.
Haqq-sayı sümürüb, udan məni qocaltdı,
Tərbiyədən yarımçıq, dadan məni qocaltdı.
İndi daha heçyana gedib-gələ bilmirəm,
Fərhad olub dağları, daha dələ bilmirəm.
Gəzənmirəm həryanı, yoruluram deyəsən,[1391]
Şirə kimi çəkilib, soruluram deyəsən.
Bezikdirir indi də, gədaların ədası,
Varlı-hallı samballı, dədələrin sədası.
Yazdım-pozdum bu qədər, qınamasın el məni,
Ünvanımın ardınca yanımasın dil məni.

Ta qədimdən deyirlər ustad elin atası,
Kim onlardan öyrənsə, dəyən deyil xətası.
Ustad elə gövdədir, çox butaqlar bitirir,
Hər butaqda nəqədər, dadlı meyvə yetirir.[1392]
Bu dünyanın yükünü, öz çiyninə götürür,
Nəsillərdən-nəsilə xoş xəbərlər gətirir.[1393]
Bəndənin dərd-sərini ürəyində çəkər o,
Xoş müjdəli nəğməylə bülbül kimi ötər o.
Bu aləmdə gözəllik, nə var ona bağlıdır,
Şərafətli-şöhrətli, bu adlara bağlıdır.
O babalar çox dedi, ədaləti unutma!
Doğru-dürüst, düzlüyü, həqiqəti unutma!
Xeyirxahlıq eyləyin, fəzilətli dolanın,
Sədaqətlə yaşayın, səxavətli dolanın.
İnsaf-mürvət gözləyin, kəramətli olun siz,
İnsanlığa xas olan, ləyaqətli olun siz.
Cəsarətlə, cürətlə hünər ilə dolanın,
Bu mənəvi dəyərlə ürəklərə çalanın.
Əsəbləri korlayıb, al-qanları qaraltma!
Zəhlələri tökərək, gen dünyanı daraltma![1394]
İndi də bu sözləri, zaman deyir, eşidin!
Yetişibdir məqamı, dövran deyir eşidin!
Düşünənlər, dərk edən, qanan deyir eşidin!

---

[1391] Taqət dizdən azalıb, yoruluram deyəsən,
[1392] 1) Dadlı-dadlı meyvələr, gör bir nələr yetirir. 2) Dadlı meyvə bəsləyir, ənbiz-ənbiz yetirir.
[1393] Nəsillərdən-nəsilə estafeti ötürür.
[1394] Hissiləri zorlayıb gen dünyanı daraltma.

El-obanın dərdinə yanan deyir eşidin!
Gəlin müdrik babanın sözlərini dinləyək,
Doğrusunu anlayaq, düzlərini dinləyək.
Heç mümkünmü siz deyin bu sözlərsiz yaşamaq?
Bu yollarsız, çəhlimsiz, bu izlərsiz yaşamaq?
Xoş arzusuz, istəksiz, pak niyyətsiz yaşamaq,
El-obasız dolanmaq, cəmiyyətsiz yaşamaq?
Bizi məhvə aparır bu hikmətsiz dolanmaq,
Öyüd sənə almadan, nəsihətsiz dolanmaq.
Gəlin indi onların sayəsində yaşayaq,
Əqidəsi, məsləki, qayəsində yaşayaq.
Tale bizə baxmağa, bir cüt görən göz verib,
Anlamağa, qanmağa gör nəqədər söz verib?
Seyrə çıxaq dünyanı, məziyyəti dərk edək,
El çəkdiyi zilləti, əziyyəti dərk edək,[1395]
Dava-şava, qal-qovğa, vəziyyəti dərk edək.
Ünsiyətdə-ülfətdə küdurəti tərk edək,
Qəsd-qərəzi, qisası, ədavəti tərk edək,
İnsanlardan-insana şikayəti tərk edək.
Dedi-qodu, qeybətdən, hekayətdən gen duraq,
Nadanlığı tərk edək, cəhalətdən gen duraq,
Addımbaşı törənən qəbahətdən gen duraq.[1396]
Yer üzündə nə vuruş, dava-dalaş olmasın?
Nə vahimə, səksəkə, qorxu-təlaş olmasın?

Ustadların kəlamı hər an bizə gərəkdir,[1397]
Büdrəyənə əsadır, əyilənə dirəkdir.[1398]
Harda olsaq, yaşasaq, o bizlərə köməkdir?
El-obaya qayğıdır, gör nə savab əməkdir?

Ustadların sözləri, ədalətli fərmandır,
Qədir-qiymət bilənə ən şəfalı dərmandır.[1399]
Onlar bizə nə desə, əvvəl-axır düz olur,
Ocaqları qalıyan, kibrit olur, köz olur.[1400]

---

[1395] Ellər çəkən zülməti, əziyyəti dərk edək.
[1396] Addımbaşı törəyən, cinyəti tərk edək.
[1397] Müdriklərin kəlamı hər an bizə köməkdir,
[1398] 1) Fikirləri, məramı harda olsa köməkdir. 2) Gör nəqədər qayğıdır, gör nəqədər əməkdir.
[1399] Qədirini bilənə tütiyədir, dərmandır.

Hörmət-izzət, mərfəti biz onlardan öyrənək,
Yaratmağı, qurmağı, tez onlardan öyrənək.[1401]
Zirvələrdən-zirvəyə ucalmağı öyrənək,
Şərafətlə yaşayıb qocalmağı öyrənək.
Zəfərləri çalaraq, tac almağı öyrənək,
Yenilməyən qüdrəti, güc almağı öyrənək.
Səadətə çatmağın yollarını öyrənək,
Bazısını, qajını, qollarını öyrənək.[1402]
Sağlarını seyr edək, sollarını öyrənək,
Yaxşıları öyrənək, yamanları öyrənək,
Dağ başını bürüyən, dumanları öyrənək.
Könüldəki nisgili, gümanları dinləyək,
İnciyəni, küsəni, umanları dinləyək.
Ötüb-keçən qərinə, hər zamanı öyrənək.
Olan-qalan nə varsa, hər imkanı öyrənək,
Bazar, karvansaranı, hər dükanı öyrənək.
Haqq yoluna qayıdıb, düzəlməyi öyrənək,
Törpülənib bir qədər, nəzilməyi öyrənək,
Dərd əhlinə yanmağı, üzülməyi öyrənək.
Hər şeyi anlamağı, dərk etməyi öyrənək,
Avamlığı biryolluq, tərk etməyi öyrənək.[1403]
Biz onlardan öyrənək, şərafətə çatmağı,
İnsanlığa qovuşub, ləyaqətə çatmağı,
İxtiyara, hüquqa, sədarətə çatmağı.
Biz onlardan öyrənək əhval tutub sormağı,
Gecələr gec yatmağı, səhər tezdən durmağı.
Biz onlardan öyrənək bu həyatda qalmağı,
Hünərləri göstərib, qələbəni çalmağı.
Yarışlarda, finişdə, nəmərləri almağı,
Fikirlərə, xəyala qapılmağı, dalmağı.
Ondan ayrı yaşamaq çox çətindi cahanda,[1404]
Bu əyyam, bu məqamda, zəmanədə, dövranda.[1405]
Onlar bizə hey dedi: “düz oturun, düz durun”!

[1400] Ocağı alışdıran, kibrit olur, köz olur.
[1401] Gecikməyək bir anda, tez onlardan öyrənək.
[1402] Qajlarını tanıyıb, qollarını öyrənək.
[1403] Avamlığı qovmağı, tərk etməyi öyrənək.
[1404] Ondan ayrı yaşamaq çox müşküldü cahanda,
[1405] 1) Bu əyyamda, məqamda, bu büsatda, dövranda, 2) Hər əyyamda, hər anda, hərzamanda, dövranda.

Gördüyünüz işləri əzəl başdan düz qurun![1406]
Günü-günə satmayın, məqamında tez qurun!
Haqq yolundan uzaşıb, əyri yolla getməyin![1407]
İnsanlığa yad olan, qeyri yolla getməyin!
Əl-ayaqda dolaşıb, kol-kos kimi bitməyin!
Könüllərdən silinib, birdəfəlik itməyin!
Xərabəlik xoşlayıb, bayquş kimi ötməyin!
Nəzər salın hərzaman obalara, ellərə!
Nə iş görsən yaxşı gör, gələcək nəsillərə! [1408]

Qardaşım, gəl dinləyək usatdların sözünü,
Biz onların görsək də, görməsək də üzünü.[1409]
Onlar deyən yollardan, əyilməyək düz keçək,
Kimdi deyən yan keçək, kimdi deyən üz keçək?
Biz onlardan hərzaman dərsimizi almasaq?
Düşünüb, xatırlayıb, hər an yada salmasaq?
Dövran bizi qınayar, zaman bizi qınayar,
Yaxşı bizi qınayar, yaman bizi qınayar.
Küsən bizi qınayar, uman bizi qınayar,
Gərdiş bizi qınayar, dövran bizi qınayar.
Çətin olar işlərin həm əvvəli-axırı,
Çıxanmarıq zirvəyə, aşağıdan yuxarı.
Onlar bizə deyibdir: "al-qanları qaraltma"![1410]
"Fitnə-fəsad törədib, gen dünyanı daraltma!"[1411]
Yol verməyin xətaya, hərbə, cəngə, davaya!
Ah-nalə yüksəlməsin, asimana, havaya!
Şər-böhtanı danışıb, aralığı qatmayın!
Vicdan-məslək hər nə var, pul-paraya satmayın!
Tamahına qul olub, yol verməyin nəfsə!
Daldalanıb sığınma namərd, xoryad, xəbisə![1412]
Qeyrətinlə cürətlə, hünər ilə gəz dolan!
Gələcəyə uğurlu, səfər ilə gəz dolan!

---

[1406] 1) Yatıb qalma qəflətdə, tez ayılın, tez durun, 2) Yatıb qalma qəflətdə, gecikməyin, tez durun.
[1407] Lənət deyin şeytana, əyri yolla getməyin.
[1408] Yaxşı yarat, yaxşı qur, gələcək nəsillərə.
[1409] Onlar ilə oturub, görməsək də üzünü.
[1410] Hissilərə toxunub"al-qanları qaraltma!"
[1411] Dava-dalaş salaraq, gen dünyanı daraltma!
[1412] Nanəcibə, namərdə, xoryadlara xəbisə.

Al-şəfəqli səhərlə, zəfər ilə gəz dolan!
Peyvənd olub ürəkdən, ürəklərə calanın!
Nəcib arzu-istəyə, diləklərə calanın!
Ünsiyyətdə-ülfətdə insan kimi dolanın!
Ədəb-ərkan gözləyin, nəzakətlə yaşayın!
Xeyirxalıq eyləyin, fəzilətlə yaşayın!
Hatəmlərdən dərs alın, səxavətlə yaşayın![1413]
Məhəbbət eşq-həvəslə, mərhəmətlə yaşayın!
Eyham ilə otur-dur, şərafətlə ömür sür!
Abır-həya, ismətlə, mərifətlə ömür sür!
Haqqı-nahaqqa vermə, ədalətli olun siz!
Qorxu-ülkü bilmədən, cəsarətli olun siz!
İnsaf-mürvəti gözlə, kəramətlə dolanın.
Tək başını girləmə, cəmiyyətlə dolanın,
Dözüm-durum, dəyanət, qətiyyətlə dolanın.
Ulu babam çox dedi, igid olun, mərd olun!
Xeyir-şərə qarışın, insana həmdərd olun![1414]
Xəyanətdən uzaq dur, pislik etmə insana!
Xəbislikdən əl götür, nəslik etmə qanana!
Nəzər salın hərzaman, dağdan ağır ellərə,
Yaylaqlara, çəmənə, bülbüllərə, güllərə.
Harda olsan, yaşasan, zəhmətinlə tanının?!
Millətinə qayğınla, xidmətinlə tanının?!
Zəhmət çəkib tər tökün, yaşadığın obaya,
Şərəf gətir xalqına, öz yurduna, yuvaya.
Çalış halal nemətə, haram tikə qatmayın!
Vicdanları, məsləki, kor qəpiyə satmayın!
Zaman ötür, vaxt keçir, qəflətlərdən ayılın!
Harda olsan, yaşasan, insan kimi sayılın!
Ünsiyətdə-ülfətdə qəbahətdən əl çəkin!
Kin-küdurət nə varsa, ədavətdən əl çəkin!
Nəzər salıb hər işə, diqqət ilə yarat, qur!
Şan-şərəflə, şöhrətlə, həyatını başa vur!
Onlar bizə çox dedi, az eşitdik onları,
Mənasına varmadıq, üz eşitdik onları.
Dediyini duymadıq, kəc eşitdik onları,[1415]

[1413] Sədaqətlə gün keçir, səxavətlə yaşayın.
[1414] İnsanlığa yarayın əhli-hal, həmdərd olun!

Dərk eyləyib, qanmayıb, öc eşitdik onları.[1416]
Ustadı dinləməyən, ömürboyu kal qaldı,
Ha yüyürdü, ha yortdu, tay-tuşundan dal qaldı.
Səbəb odur indi də, əzabını çəkirik,
İnildəyib, sızlayıb, gözyaşını tökürük,[1417]
Cavabını alırıq, hesabını çəkirik,
Enişlərə, yoxuşa, bərkə-boşa düşürük,
Tufanlara, sazağa, qarlı-qışa düşürük.
Xəzan vurmuş gültəki vaxt-vədəsiz soluruq.
İntizarla, həsrətlə, gözü yolda qalırıq.

Onlar deyən yollardan əyilməyək, düz keçək,
Gecikməyək bir an da, məqamında tez keçək.
O səbəbdən törəyir, dava-dalaş hər nə var?
Vahimələr, səksəkə, qorxu-təlaş hər nə var?
Vaxt-vədəsiz ağarır, saqqalılmız, başımız,
Zədə dəyir ürəyə, yarı qalır yaşımız.
Xarab olub dağılır, kotanımız, xışımız,
Qərar tutmur ağızda, tez tökülür dişimiz.
Giley-güzar, qal-qovğa, dedi-qodu kəsməyir,[1418]
Çovğun, tufan sovurur, gilavarı əsməyir.
O zamandan bəridir, il də, ay da bəd gəlir,
Payız nədir, qış nədir, yaz da, yay da bəd gəlir.
Ustadlarsız yaşamaq cəhalətdi dünyada,
Yoxsulluq da, qıtlıq da dəlalətdi dünyada.
İşgəncə zülüm-zillət, müsibətdi dünyada,
Hərcür faciə-vəhşət, fəlakətdi dünyada.
Ustadı saymayanlar əvvəl-axır xar olur,
Qalmaqalın içində, gen dünyası dar olur.
Əl-ayağı kütləşib, işi də xam qalıbdır,
Kotanları, dırmığı, xışı da xam qalıbdır.
Dərrakəsi, kamalı, başı da xam qalıbdır,
Fikirləri, xəyalı, huşu da xam qalıbdır,
Düz çəkməyib tərəzi, daşı da xam qalıbdır.
Kim ustadı saymadı, vərdişi də fənadır?!

---

[1415] Fürsəti fot eyləyib, kəc eşitdik onları.
[1416] Deyiləni qanmayıb öc eşitdik onları.
[1417] Qaş-qabağı çatırıq, gözyaşını tökürük,
[1418] Dedi-qodu, qal-qovğa, giley-güzar kəsməyir.

Güzəranı, dövranı, gərdişi də fənadır?!
Kəlmələri dolaşıq, cümləsi də fənadır?!
Əriş-arğac nə varsa, ilməsi də fənadır?!
Keçmişi də heçnədir, indisi də fənadır?!
Balatısı, xəmiri, kündəsi də fənadır?!

İndisada gəlin biz, babaları eşidək,
Şəhərləri, kəndləri, obaları eşidək.
Ədibləri eşidək, loğmanları eşidək,
Dərrakədə, kamalda ümmanları eşidək.
Düz düşünüb, dərk edən yazanları dinləyək,
Anlayanı, duyanı, sezənləri dinləyək.
Zalımların əlindən, bezənləri bir görək,
Haqsızlıqdan usanıb, dözənləri biz görək.
Yorulub irzikməyək, dönə-dönə eşidək,
Qulaq asaq, dinləyək, yenə, yenə eşidək.

Ustada kəm baxanın, müsibətdir axırı,
Ha dırmaşsa zirvəyə, çıxa bilməz yuxarı.
Tezi-geci bir zaman, üzə çıxar paxırı,
Yalquzaqlar qıracaq, sürüsünü, naxırı,
Üstündən də vuracaq, araq, konyak, çaxırı.

Ustad elin anası, ustad elin atası,
Hər kim dərs ala bilsə, ona dəyməz xətası?[1419]
Ustadlara heç zaman biganəlik yaraşmır,
Soyuqqanlıq eyləmək, laqeyidlik yaraşmır.
Diqqətsizlik yaraşmır, hörmətsizlik yaraşmır,
İnsafsızlıq yaraşmır, mürvətsizlik yaraşmır.
Biz onlardan öyrənib dərsimizi almasaq?
Xatırlayıb sözünü, daim yada salmasaq?
Dövran bizi qınayar, zaman bizi qınayar!
Yaxşı bizi qınayar, yaman bizi qınayar!
Fürsət bizi qınayar, imkan bizi qınayar!
Bazar tənbeh eyləyər, dükan bizi qınayar!
Sarvan azar yolunu, karvan bizi qınayar!
Alim bizi qınayar, loğman bizi qınayar!
Küsən bizi qınayar, uman bizi qınayar!

[1419] Kim onlardan öyrənsə, dəyən deyil xətası.

Ustadı saymayanlar, səadətə çatanmır,[1420]
İxtiyara, hüquqa, sədarətə çatanmır.
İnsanlığa yetişib, ləyaqətə çatandöy,
Bacarığa, fəhimə, məharətə çatandöy,
Doğruluğa, düzlüyə, həqiqətə çatandöy.
Nəcib arzu-diləyi, pak niyyəti bilinməz,[1421]
Oxuduğu təlimi, qiraəti bilinməz.
Ha çalışsa, vuruşsa, dövranı bəd gələcək,[1422]
Dağları bəd gələcək, aranı bəd gələcək.[1423]

Kim ustadı dinləsə dövran onundur onun?!
Neçə dağ, dərə, yaylaq, aran onundur onun?!
Yolu-izi düz gedən, karvan onun olacaq,
Bacarıqlı, fəhmli, sarvan onun olacaq.
İdrak onun olacaq, kamal onun olacaq,
Vicdan, məslək, əqidə, amal onun olacaq.

Bizi məhvə aparır, ustadlarsız yaşamaq,
Bu ünvansız, soraqsız, bu adlarsız yaşamaq.
Ustaddan dərs alanlar sayəsində yaşayar!
Əqidəsi, məsləki, qayəsində yaşayar!
Hamı qoy bunu bilsin, ustad elin gözüdür,
Elə, xalqa çatası, müdriklərin sözüdür.
Zaman keçir, vaxt ötür, indi onu dinləyək,
İrəlini düşünək, bugün sonu dinləyək.
Hərkimki xor baxarsa, əzəl gündən bu ada?
Təzim edib hörmətlə, baş əyməsə bu ada?
Məqam gəlib yetişər, gözlərinə qan damar!
Cığrına, yoluna, izlərinə qar yağar!
Ustadları saymamaq cəhalətdi dünyada,
Yoxsulluğa, qıtlığa dəlalətdi dünyada.
Hərcür işgəncə, zülüm, müsibətdi bunu bil!
Qasırğadı, tufandı, fəlakətdi bunu bil!
Görə-görə kor olmaq, zəlalətdi bunu bil!
Ərşə bülənd eyləyən, qiyamətdi bunu bil!

[1420] Ustadları saymadan, səadətə çatmarıq.
[1421] İnsanlığa qovuşub, ləyaqətə çatmarıq.
[1422] Ha çalışsaq, vuruşsaq, dövran bizə bəd gələr.
[1423] Dağ başını qar alar, aran bizə bəd gələr.

Ustadlarsız yaşamaq, gözgörəti ölümdür,
Yolgöstərən olmasa rəzalətdir, zülümdür.
Bu sözləri dedim ki, bəlkə bir az ayılaq,
El-obada tanınıb, insan kimi sayılaq.
Qəflətlərdə qalmayaq, bir yuxudan oyanaq,
Xətalardan, bəladan, daldalanaq, yayınaq.

Heç olmasa biz indi ustadları dinləyək,
Dahilərə xas olan bu adları dinləyək.
Alimlərdən öyrənək, loğmanları dinləyək,[1424]
Dərrakədə, kamalda, ümmanları dinləyək.
Düşünüb, dərk edəni, qananları dinləyək,
El-obanı yad edib, ananları dinləyək.
Qoy eşidib bilsinlər, cavanlar da, qoca da,
Adda-sanda kiçik də, mövqeyində uca da.
Yaddaşında saxlasın, bilən də, bilməyən də,
Göz açıb bu dünyaya gələn də, gəlməyən də.
Ustaddan dərs almayan, muradına çatanmaz,
Avamlığın daşını bir kənara atanmaz.
Məqamında nə gözəl söyləmişdir Nizami?
Car çəkərək aləmə, bildirmişdir Nizami:
"Kim ustaddan dərsini almamışsa bir zaman?
Qəflətlərin içində qalacaqdır o nadan".
"Ustadların şilləsin kim yeməsə cahanda,
O həyatın şilləsin yeyəcəkdir hər anda".
Ay dostlar, eli, xalqı, obaları dinləyək,
Neçə müdrik, nurani babaları dinləyək.
Gör haçandan bəridir yol göstərir dühalar?
Əsirgəmir heç nəyi, bol göstərir babalar?
Gəl qardaşım bir daha ustadları dinləyək,[1425]
Biz onlardan dərs alaq yeni bilgi öyrənək.[1426]
Öz işində-gücündə, ustadlardan öyrənək.
Üzü nurlu, mübarək bu zatlardan öyrənək.

***Cəmil Əkbər*** 20-24.02 - 1994 //12. 05 – 1994

---

[1424] Alimləri dinləyək, loğmanları dinləyək.
[1425] Qardaş, gəlin ustadı dönə-dönə dinləyək.
[1426] Dönə-dönə oxuyaq, yenə-yenə öyrənək.

## 247. NİCAT YOLU

Ərz eyləyim ibtidadan,
Oxu-öyrən bu namədən.
Gəzmə onu dağda-daşda,
Nə enişdə, nə yoxuşda,
Nə o başda, nə bu başda,
Tapanmazsan qoca yaşda.

Nə uçrumda dərədədir,
Nə surəkdə, bərədədir,
Nə bədxahlıq, pislikdədir,
Nə nanəcib, naqisdədir,
Nə höcət, nə də tərsdədir.

Gəzmə onu orda-burda,
Qal-qovğada, vurhavurda.
Nə davada, dalaşlarda,
Nə həyəcan, təlaşlarda.
Soruşmaynan nadanlardan,
Tərsəməssəb adanlardan,
Təlimdən kəm dadanlardan,
Haqq-sayı udanlardan.
Ünsiyyəti pozanlardan,
Düzü tərsə yozanlardan.
Vicdanını atanlardan,
Namusunu satanlardan.
Addımbaşı qəbahətdə,
Giley-güzar, şikayətdə.
Küdurətdə, ədavətdə,
Avamlıqda, cəhalətdə.
Axtar onu ürəklərdə,
Nəcib arzu-diləklərdə.
Yorulmayan biləklərdə,
Qanadlarda, lələklərdə.
Tapacaqsan ədalətdə,
Doğruluqda, həqiqətdə.
Mehri-ülfət, ünsiyyətdə,
Sağlam fikir, pak niyyətdə.
Xeyirxahlıq, fəzilətdə,

Sənə öyüd nəsihətdə.
Dözüm-durum, dəyanətdə,
El xeyrinə bəyanətdə.
Axtar onu həvəslərdə,
Sağlam ciyər, nəfəslərdə.
Abır-həya ismətdə də,
Nəcabətdə, xislətdə də,
Nicatlarda, nüsrətdə də,
İmkanda da, fürsətdə də.
Axtar onu ibadətdə,
Şəriətdə, təriqətdə.
Nəciblikdə, nəzakətdə,
Zəriflikdə, lətafətdə,
İncəlikdə, məlahətdə.
Özgədə yox, özümüzdə,
Müdrik fikir sözümüzdə.
Haqqa baxan gözümüzdə.
Tarımızda, sazımızda,
Oğlumuzda, qızımızda.

Nicat yolu düşünməkdə,
Dərk etməkdə, qanmaqdadır.
Yad eyləyib, xətir-hörmət,
Haqq-sayı anmaqdadır.
Ədəb-ərkan gözləməkdə,
Böyük-kiçik sanmaqdadır.
Ariflərlə ülfət edib,
Nadanları danmaqdadır.
El şəninə, şərəfinə,
Zəhmətdədir, xidmətdədir,
Gecələri gec yatmaqda,
Səhər erkən durmaqdadır,
Yaratmaqda, qurmaqdadır.

Axtar onu fərasətdə,
Hünər dolu cəsarətdə.
Nəzərdədir, diqqətdədir,
Namusdadır, qeyrətdədir.
Zəhmətdədir, xidmətdədir,

Məzmundadır, hikmətdədir.
Tapacaqsan məhəbbətdə,
Sədaqətdə, səxavətdə.
İnsaf-mürvət, kəramətdə,
İnsanlıqda ləyaqətdə,
Mehri-ülfət, ünsiyyətdə.

Axtar onu gücümüzdə,
Eynimizdə, vecimizdə.
Nicat yolu kamaldadır,
Əqidədə, amaldadır.
El-obada, mahaldadır,
Bu mənəvi camaldadır.
Kim gedərsə bu yollarla,
Bu qajlarla, bu qollarla.
Sədaqət də onunkudur,
Ziraət də onunkudur.
Dövranını o sürəcək,
Ağ günləri o görəcək.
Dərdə-dərman onunkudur,
Təbib-loğman onunkudur.
Zirvələrə o çıxacaq,
Zəfər əlin o sıxacaq.

***Cəmil Əkbər*** 5. 11 – 1995

**248. BİRDİ BİR!**

Oxu, öyrən al dərsini, gədə olma bixəbər,
Ta qədimdən, əzəl gündən olan vali birdi-bir!
Bu kainat, mövcudiyyət, hərnəvarsa bərqərar,
Yerin-göyün sahibi var, deyil xali birdi-bir!

Odur bilin hökm eyləyən, ərşi-gürşü yaradan,
Bu qüvvənin, bu qüdrətin yox misalı birdi-bir!
Mənəm-mənəm söyləyərək, heçkəs ədalanmasın,
Kimsə onsuz dövran sürməz, olsun halı birdi-bir!

Çox da baxıb kölgəsinə kimsə qoy öyünməsin,
Nicat verən, nüsrət verən, uca ali birdi-bir!
Bəşər ona ömürboyu gərək təzim eyləsin,
Səadətə çatmaq üçün doğru yolu birdi-bir!

Hamı çaşıb dolaşsada, düz getməsə yolunu,
Xudam özü qərar verib, sağı-solu birdi-bir!
Gör haçandan küllü-aləm sayəsində dolanır,
Əhsən olsun qurğusuna cah-calalı birdi-bir!

Kəsilməsin nəzərləri üstümüzdən qoy onun,
Biz olsaq da, olmasaq da, o həyalı birdi-bir!
Bəşər üçün çox müqəddəs bir varlıqdır əzəldən,
Hamı bilib qoy tanısın bu vüsalı birdi-bir!

O hamıdan düşüncəli, dərrakəli varlıqdır,
Heçkəs ona çata bilməz, pürkamalı birdi-bir!
Cümlə-cahan, küllü-aləm məchul qalıb işləri,
Çoxu hələ dərk eyləmir, bu misalı birdi-bir!

Hardan alıb bu qüdrəti, əzəl gündən bu gücü?
Görün necə xəlq olubdur, əhli-halı birdi-bir?!
Cəmil Əkbər bəşər oğlu, bu qüdrətdən güc alır, [1427]
Pozulandöy, sarsılandöy, ol xəyalı birdi-bir!

***Cəmil Əkbər*** 17. 12 – 1992

[1427] 1) İbtidadan çox müqəddəs, ülviyyətdi bu varlıq, 2) İbtidadan qüdsiyyətdi, ülviyyətdi bu varlıq.



## HÜQUQŞÜNAS ƏLİ İLQAR OĞLU İMAMVERDİ

Əli İlqaroğlu İmamverdi 1993-cü ildə Bakı şəhərində anadan olmuşdur. 2000 ilində Bakı şəhər ibtidai məktəbdə, daha sonra Ərzurum ilk okulda təhsilini davam etdirdi. 2008-2012 illər arası "Çağdaş" bilgi okulunda litseyi tamamlayıb 2012 ilində Qaziantep Universitetinin Hüquq Fakultəsində təhsilini davam etdirib 2021 ilində məzun oldu. 2021-2022-ci ildə Qaziantep şəhərində ixtisası üzrə hüquq sahəsində təcrübə keçməklə, Gaziantep Universitetində magistr təhsili almaqdadır.

Sənətşünaslıq doktoru İlqar Cəmiloğlu ilə ortaq yazdıqları "Azərbaycan rəqs havaları atlası" I cild "Qaytağı" *(2020) (türkcə),* "Azərbaycan rəqs havaları atlası" II cild "Yallılar" *(2020) (türkcə),* "Azərbaycan rəqs havaları atlası" III cild "Diringi" *(2020) (türkcə),* "Azərbaycan rəqs havaları atlası" IV cild "Qədim rəqslər" *(2020) (türkcə),* "Azərbaycan rəqs havaları atlası" V cild "Çağdaş dönəm rəqsləri" (1. bölüm) *(2020) (türkcə),* "Azərbaycan rəqs havaları atlası" VI cild, "Çağdaş dönəm rəqsləri" (2. bölüm) *(2020) (türkcə),* "Avtandil İsrafilovun 26 rəqs havaları" *(2021),* "Azərbaycan aşıq ifaçılığı sənəti" *(2021) (türkcə),* "İnstrumantal tar əsərləri" *(dəramədlər, rənglər, diringilər) (2021) (türkcə),* "Şüştər dəramədləri və rəngləri" *(2021) (türkcə),* "Şur dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Kürdü-Şahnaz, Dilkəş, Rahab, Nəva dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Hümayun, Bayatı – Kürd dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Rast dəramədləri və Rəngləri" *(2022) (türkcə),* "Muğam dəramədləri və rəngləri" *(Mahur–Hindi, Orta-Mahur, Bayatı-Gacar, Gatar, Dügah, Bayatı-Türk, Zəmin–xara, Çoban-Bayatı) (2022) (türkcə),* "Bayatı - Şiraz dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Segah dəramədləri və rəngləri" *(2022),* "Cahargah dəramədləri və rəngləri" *(2022) (türkcə)* "Azərbaycan muğam dəramədləri və rəngləri ensiklopediyası" *(2022) (türkcə),* I cild "Cəmil Əkbər –şeirlər" *(2022),* II cild "Cəmil Əkbər –şeirlər" *(2022),* III cild "Cəmil Əkbər –şeirlər" *(2022),* IV cild "Cəmil Əkbər –şeirlər" *(2022),* V cild "Cəmil Əkbər –şeirlər" *(2023),* VI cild "Cəmil Əkbər –şeirlər" *(2023),* isimli 25 kitabı Azərbaycan və Türkiyə ictimaiyyətinə təqdim olunmuşdur. Cəmil İmamverdi oğlu Əkbərin 95 illik yubileyi münasibəti ilə ***VII cild "Cəmil Əkbər şeirlər"*** adlı kitabı Hüquqşünas Əli İmamverdinin Azərbaycan ədəbi-filoloji elm sahəsində xalqımıza ərmağan etdiyi **26-cı** əsəridir.



**PROF. DR. İLQAR CƏMİLOĞLU İMAMVERDİYEV**

İlqar Cəmiloğlu İMAMVERDİYEV 23 sentyabr 1956-cı ildə Azərbaycanın Gənçə şəhrində anadan oldu. Fikrət Əmirov adına 1 saylı Uşaq Musiqi Məktəbini *(1967-1972),* Qənbər Hüseynli adına Orta İxtisas Müziqi Litseyini *(1972-1976)* və Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasını (Bakı Musiqi Akademiyası) *(1976 - 1981 ilində tar ixtisası üzrə),* hər üç musiqi qurumunu fərqlənmə diplomları ilə bitirdi. 1985 ilində Moskvada təşkil olunmuş Tələbə və Gənclərin XII Ümumdünya Festivalının diplomunu,1986 ilində Orta Asiya və Zaqafqaziya dövlətləri arasında Şərq Alətləri üzrə Bakıda keçirilən Üzeyir Hacıbəyli adına I Beynəlxalq müsabiqəsinin laureatı adına layiq görüldü. Zaqafqaziya, Orta Asiya və Türkiyədə düzənlənən xalq musiqisi və folkloru sahəsində bir çox uluslararası kongreslərdə aktual mövzularla çıxış edərək, 200-dən artıq elmi məqalələri fərqli hakimli dərgilərdə, eyni zamanda Azərbaycan və Türkiyə mətbuatında yayınlanmıştır. 1994 ilində Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarına əsasən “sənətşünaslıq namizədi” diplomunu *(EN № 0308, 2 Noyabr 1994 il tarixli Protokol № 54),* 2009 ilində sənətşünaslıq doktoru diplomunu *(ED № 01109, 8 May 2009 il tarixli Protokol № 8 –R),* - elmi ünvanlarını aldı. 1981 ilindən 2000 ilə qədər Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının “Xalq Çalgı Alətləri Kafedrası”nda, 2000–2006-ci illərdə Ərzurum Atatürk Üniversitetində dosent vəzifəsində çalışdı. 2007-ci ilindən etibarən Gaziantep Üniversiteti Türk Musiqisi Dövlət Konservatoriyasında dosent, 2011-ci ilindən etibarən həmin Ali Təhsil Qurumunun İdarə Heyətinin qərarı *(05.07-2011, № 14)* ilə professor vəzifəsində çalışmaqdadır. 2015 ilində Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarına əsasən 2-ci Professorluq Diplomunu *(PR № 01432, 17 Aprel 2015 tarixli Protokol №* 07 *R )* almağa layiq görülən İlqar Cəmil oğlu İmamverdiyev bir çox mükafatlara layiq görüldü.

**1.** İstanbul Büyükşəhər Bələdiyəsi ilə Motif Vakfı işbirliyində təşkil olunmuş 21.Motif Xalq Bilim Ödülləri dəyərləndirmələri Ödül Təsbit Komissiyası tərəfindən düzənlənən “Halk Müziği Hizmet Ödülü”. 12 Dekabr 2015

**2.** “Avropa Nəşr Mətbuat Evi”nin “En Yaxşı Vətənsevər Tədqiqatçı Elm Adamı” Qızıl Medalı və Diplomu *(AZ - № 8032200126 )* Bakı – 2016.

**3.** İksad Yayınevinin “Onur ödülü” 2018, 2020.

Ötən illər ərzində İlqar Cəmil oğlu İmamverdiyev "Ansambl üçün pyeslər məcmuəsi" *(1997),* "Azərbaycan aşıq ifaçılığı sənətinin səciyyəvi xüsusiyyətləri” *(2004),* "Azərbaycanın 20 saz havası" adlı I, II *(2005)* və III cild *(2006),* "Azərbaycanın 40 saz havası" *(2006 ),* "Fortepiano müşayiətli saz əsərləri" *(2006),* "Fortepiano müşayiətli tar əsərləri" I, II cild *(2006),* "İran Türklərində aşıq toy mərasimləri" *(2006),* iki cilddən ibarət "Azərbaycan rəqs havaları"

*(2007),* üç cilddən ibarət "Azərbaycan muğam rəngləri və dəramədləri" *(2007, 2009),* "Azərbaycan və İran Türklərinin aşıq-ifaçılıq sənətinin qarşılıqlı əlaqələri" I nəşr *(2007),* II nəşr *(2008),* "Aşıq Mikayıl Azaflının saz havaları" *(2008),* altı cilddən ibarət "Azərbaycan xalq mahnıları" *(2007, 2008, 2009),* "Azərbaycan muğam inciləri" *(2010),* "Məzəli əhvalatlar və gülməcələr" *(2010),* "Miskin Abdal ocağının el sənətkarları" I nəşr *(2011),* "Şirvan aşıqlarının saz havaları" *(2011),* "İran-Azərbaycan aşıqlarının 40 saz havası" *(2012),* "Koroğlu havaları" *(2012),* "Saz havaları antologiyası" *(2013),* "Azərbaycan instrumental xalq musiqi örnəkləri" *(2014),* "Vahid Əlioğlunun şeirlərinə bəstələnmiş musiqilər" *(2015),* "Miskin Abdal elinin saz-söz ustadları" II nəşr *(2017),* "Dədə Şəmşir ifaçılığı sənətində ənənəvi saz havaları" *(2017),* "Azərbaycan musqisində Bahar mövzusu və Novruz motivlərinin izləri" *(2018),* "Bir millət, iki dövlət, Azərbaycan–Türkiyə" *(2018),* "Azərbaycan musiqi mədəniyyətində bayatılar – manilər" *(2019) (türkcə),* "Yaşayırsan ürəyimdə" *(2020),* eyni zamanda Əli İmamverdi ilə ortaq "Azərbaycan rəqs havaları atlası" I cild "Qaytağı" *(2020) (türkcə),* "Azərbaycan rəqs havaları atlası" II cild "Yallılar" *(2020) (türkcə),* "Azərbaycan rəqs havaları atlası" III cild "Diringi" *(2020) (türkcə),* "Azərbaycan rəqs havaları atlası" IV cild "Qədim rəqslər" *(2020) (türkcə),* "Azərbaycan rəqs havaları atlası" V cild "Çağdaş dönəm rəqsləri" (1. bölüm) *(2020) (türkcə),* "Azərbaycan rəqs havaları atlası" VI cild, "Çağdaş dönəm rəqsləri" (2. bölüm) *(2020) (türkcə),* "Avtandil İsrafilovun 26 rəqs havaları" *(2021),* "Azərbaycan aşıq ifaçılığı sənəti" *(2021) (türkcə),* "Ürəyimin nəğmələri" *(2021),* "Aşıq Ələsgər - 200, Aşıq Ələsgərin poetik və musiqi dünyası" *(2021),* "Fortepiano müşayiətli instrumental tar əsərləri" *(2021),* Firuzə İmamverdi ilə ortaq yazdığı "İran Türklərində aşıq düyün gələnəyi" *(2021) (türkcə),* Əli İmamverdi ilə ortaq yazdığı "İnstrumantal tar əsərləri" *(dəramədlər, rənglər, diringilər) (2021) (türkcə),* "Şüştər dəramədləri və rəngləri" *(2021) (türkcə),* "Şur dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Kürdü-Şahnaz, Dilkəş, Rahab, Nəva dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Hümayun, Bayatı–Kürd dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Rast dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Muğam dəramədləri və rəngləri" *(Mahur–Hindi, Orta-Mahur, Bayatı-Qacar, Qatar, Dügah, Bayatı-Türk, Zəmin–xara, Çoban-Bayatı) (2022) (türkcə),* "Bayatı-Şiraz dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Segah dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Cahargah dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Azərbaycan muğam dəramədləri və rəngləri ensiklopediyası" *(2022) (türkcə),* I cild "Cəmil Əkbər –şeirlər" *(2022),* II cild "Cəmil Əkbər –şeirlər" *(2022),* III cild "Cəmil Əkbər –şeirlər" *(2022),* IV cild "Cəmil Əkbər –şeirlər" *(2022),* V cild "Cəmil Əkbər –şeirlər" *(2023),* VI cild "Cəmil Əkbər –şeirlər" *(2023),* isimli altmış doqquzuncu kitabı nəşr edilməklə yanaşı*"Klassik saz havaları" (54 hava) adlı **SD** albomu (2015)* Azərbaycan, Türk mədəni-ədəbi, musiqi ictimaiyyətinin faydalana bilməsi üçün təqdim olunmuşdur.

Prof. Dr. İlqar Cəmiloğlu İmamverdiyev fərqli illərdə **Azərbaycanda** *(Bakı 1979, 1980, 1999, Qazax 2022),* **Gürcüstanda** *(Tiflis 1981),* **Özbəkistanda** *(Daşkənd 1988, 1989),* **Rusyada** *(Moskva 1982, 1985, Sankt-Peterburq 1980),* **Qazaxıstanda** *(Alma – ata 1992),* **Moldovada** *(Komrat - Qagauziya 2017),* **KKTC** (*Lefkoşa 2019),* və **Türkiyədə** (*Ankara 2002, 2007, 2012, Qocaeli 2007, Şanlıurfa 2015, Edirnə 2016, Niydə 2017, İstanbul 2012, 2017, Nevşəhər 2017, 2018, Iğdır 2017, Sivas 2017, Diyarbakır 2017, Antalya 2018, Afyon 2018, Ardahan 2019, Əskişəhər 2019, Qaziantep 2019, 2021, Muqla 2021, İzmir 2022, Ərzincan 2022*) düzənlənən bir çox beynəlxalq musiqi tədbirlərdə, mərasimlərdə folklor və xalq müsiqisi sahəsində beynəlxalq konqreslərdə, simpoziumlarda aktual mövzulardakı məqalələri ilə yanaşı həm də tarda və sazda professional ifaları ilə iştirak etmişdir. Sənətşünaslıq elmləri doktoru, professor İlgar İmamverdiyev fərqli illərdə **Azərbaycan** *(Bakı, Gəncə, Naxçıvan, Lənkəran, Bərdə, Ağcabədi),* **Rusiya** *(Moskva, Sankt-Peterburq),* **Qazaxıstan** *(Alma - ata),* **Özbəkistan** *(Daşkənd, Səmərqənd),* **İtaliya** *(Roma, Napoli, Kapri),* **İran** *(Təbriz, Urmiya),* **İrak** *(Bağdat, Babil),* **Türkiyə** *(Ankara, Ərzurum, Ağrı, Iğdır, Qars, Bayburt, Amasya, Osmaniyə, Şanlıurfa, Akçaabad, İstanbul, Bursa, İzmir, Hayvalık, Əskişəhər, Kırşəhər, Nevşəhər, Qaziantep, Adıyaman, Kozan)* vs. bir çox ölkələrdə təşkil olunmuş dövlət konsertləridə iştirak edərək 70 –dən artıq fəxri fərman və plaketlərlə təltif olunmuşdur. Ötən illər ərzində Azərbaycan və Türkiyə televiziyalarında: “AzTV1”, “İctimai TV”, “TRT İnt”, “TRT Gap”, “25. kanal”da tar və saz aləti ilə fərqli konsertlərdə çıxış etmiş “**a** haber”, “Anadolu Ajan” tele kanallarına müsahibələr vermişdir. “Qaçaq Nəbi”, “Papaq”, “Bəyin oğurlanması”, “Doğma sahillər” filmlərinin və Dədə Qorqud motifləri əsasında çəkilmiş “Səkrəyin dastanı” adlı cizgi filminin musiqisinin lentə yazılması üçün tar, saz, bağlama və ud alətində ifa etmişdir.

Pedaqoji sahədə 50 il ali təhsil qurumunda xidmət etmiş, iqtisadcı alim, şair təbiətli Cəmil İmamverdioğlu Əkbərin 95 illik yubileyi münasibəti ilə bir araya gətirilmiş ***VII cild “Cəmil Əkbər şeirlər”*** kitabı Hüquqşünas Əli İmamverdinin 26-cı, Sənətşünaslıq elmləri doktoru, professor İlqar Cəmiloğlunun Azərbaycan ədəbi-mədəni, filoloji elm sahəsində xalqımıza ərmağan etdiyi **70-ci** əsəridir.

İKSAD
Publishing House

ISBN: 978-625-367-186-0